# HEYDƏR ƏLİYEV

## MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR

*iyirmi altıncı kitab*

***mart, 2000 - aprel, 2000***

AZƏRNƏŞR
BAKI-2008

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV HEYDƏR**
**Ə 56 Müstəqilliyimiz əbədidir.** B., Azərnəşr, 2009, 512 səh.

Müstəqil Azərbaycan dövlətçiliyinin memarı, xalqımızın ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin oxuculara təqdim olunan növbəti cildində Bakıda keçirilən türkdilli ölkələrin dövlət başçılarının altıncı zirvə görüşündəki dərin məzmunlu çıxışı, forumda iştirak edən görkəmli siyasi xadimlərlə danışıqları, bəyanat və müsahibələri toplanmışdır. Kitabda, həmçinin «Kitabi-Dədə Qorqud»un 1300 illik yubileyində söylədiyi parlaq nitqi, bu tədbirə xarici ölkələrdən gəlmiş qonaqlar, eləcə də Azərbaycanı təmsil edən tanınmış elm, mədəniyyət, incəsənət, ictimai-siyasi xadimlər ilə keçirilən görüşlərdəki materiallar öz əksini tapmışdır.

Burada, eyni zamanda türk dünyasının böyük oğlu İhsan Doğramacı və onu müşayiət edən şəxslərlə görüş, apardığı söhbətlər, alimin 85 illik yubileyinə həsr edilmiş təntənəli gecədə söylədiyi nitq verilmişdir.

Bütün cildlərdə olduğu kimi, bu cilddə də ulu öndərin Azərbaycanın sürətli iqtisadi yüksəlişinə, xalqımızın rifahı və tərəqqisi naminə aparılan geniş islahatlara, eləcə də ictimai-siyasi həyatın mühüm məsələlərinə həsr olunmuş materiallar da toplanmışdır.

Я $\frac{0801000000}{M - 651(07) - 2008}$

© Azərnəşr, 2009

# KİTABIN İÇİNDƏKİLƏR

**BAKIDA QOŞAQALA QAPISI ÖNÜNDƏ KEÇİRİLƏN NOVRUZ BAYRAMI ŞƏNLİYİNDƏ NİTQ**
*21 mart 2000-ci il*……… *9*

**«UNİVERSİTETLƏR VƏ CƏMİYYƏT, ƏSRLƏRİN AYRICINDA UNİVERSİTETLƏRİN ƏMƏKDAŞLIĞI» BEYNƏLXALQ KONFRANSININ İŞTİRAKÇILARINA**
*21 mart 2000-ci il* ……… 11

**GÜRCÜSTANA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB**
*22 mart 2000-ci il*……… *12*

**GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZE İLƏ TƏKTƏBƏK GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*22 mart 2000-ci il*……… *15*

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN VƏ GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZENİN TƏKBƏTƏK GÖRÜŞÜ BAŞA ÇATDIQDAN SONRA HƏR İKİ ÖLKƏNİN NÜMAYƏNDƏ HEYƏTİ ARASINDA AZƏRBAYCAN–CÜRCÜSTAN DANIŞIQLARINDA ÇIXIŞ**
*22 mart 2000-ci il*……… *16*

**AZƏRBAYCAN–GÜRCÜSTAN SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA BİRGƏ BƏYANAT VƏ MƏTBUAT KONFRANSI**
*22 mart 2000-ci il*……… *18*

**GÜRCÜSTAN İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ**
*22 mart 2000-ci il*……… *22*

**AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZENİN ADINDAN TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ**
*23 mart 2000-ci il*……… *27*

**GÜRCÜSTAN PARLAMENTİNİN DEPUTATLARI İLƏ GÖRÜŞDƏ NİTQ**
*23 mart 2000-ci il*……… *29*

**GÜRCÜSTAN MİLLİ TELEVİZİYASINA MÜSAHİBƏ**
*23 mart 2000-ci il*……… *34*

**GÜRCÜSTANDAN BAKIYA QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB**
*23 mart 2000-ci il*……… *36*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD RƏFİQ TƏRARA**
*23 mart 2000-ci il*……… *38*

XALQ ARTİSTİ ZƏROŞ XANIM HƏMZƏYEVAYA
*27 mart 2000-ci il*.......................................................................... *39*

AZƏRBAYCANDA MİLLİ MƏTBUATIN YARADILMASININ 125 İLLİYİ HAQQINDA
*27 mart 2000-ci il*.......................................................................... *40*

BEYNƏLXALQ VALYUTA FONDUNUN İCRAÇI DİREKTORU CƏNAB H.KÖHLERƏ
*27 mart 2000-ci il*.......................................................................... *43*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ
*27 mart 2000-ci il*.......................................................................... *44*

XALQ ARTİSTİ ŞƏFİQƏ MƏMMƏDOVAYA
*29 mart 2000-ci il*.......................................................................... *45*

31 MART – AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT
*29 mart 2000-ci il* .......................................................................... 46

DÜNYA SƏHİYYƏ TƏŞKİLATININ AVROPA BÜROSUNUN REGİONAL DİREKTORU MARK DANZON İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*31 mart 2000-ci il*.......................................................................... *48*

«KİTABİ-DƏDƏ QORQUD» EPOSUNUN ALMANİYANIN DREZDEN ŞƏHƏRİNİN KRAL KİTABXANASINDA SAXLANILAN ƏLYAZMASININ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİNƏ BAĞIŞLANMIŞ FAKSİMİLESİNİN AZƏRBAYCAN ELMLƏR AKADEMİYASININ MƏHƏMMƏD FÜZULİ ADINA ƏLYAZMALAR İNSTİTUTUNA VERİLMƏSİ HAQQINDA
*3 aprel 2000-ci il*.......................................................................... *50*

BEYNƏLXALQ MUSİQİ XADİMLƏRİ İTTİFAQININ SƏDRİ, SSRİ XALQ ARTİSTİ İRİNA ARXİPOVAYA
*3 aprel 2000-ci il*.......................................................................... *51*

SENEQAL RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDU DİUFA
*3 aprel 2000-ci il*.......................................................................... *52*

BAKI PEDAQOJİ KADRLARIN İXTİSASARTIRMA VƏ YENİDƏN HAZIRLANMA İNSTİTUTUNA
*4 aprel 2000-ci il*.......................................................................... *53*

YAPONİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB YOŞİRO MORİYƏ
*6 aprel 2000-ci il*.......................................................................... 54

TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ VI ZİRVƏ GÖRÜŞÜNDƏ VƏ «KİTABİ-DƏDƏ QORQUD» DASTANININ 1300 İLLİYİNƏ HƏSR OLUNMUŞ YUBİLEY TƏNTƏNƏLƏRİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN BAKIYA GƏLMİŞ QAZAXISTAN PREZİDENTİ

**NURSULTAN NAZARBAYEVİN BİNƏ HAVA LİMANINDA QARŞILANMA MƏRASİMİNDƏ BƏYANAT**
*Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı*
*Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin bəyanatı*
*7 aprel 2000-ci il* ........................................................................ *55*

**AZƏRBAYCAN PREZİDENTİNİN QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ NURSULTAN NAZARBAYEV İLƏ TƏKBƏTƏK GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*7 aprel 2000-ci il*........................................................................ *56*

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN VƏ QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN TƏKBƏTƏK GÖRÜŞÜ BAŞA ÇATDIQDAN SONRA HƏR İKİ ÖLKƏNİN NÜMAYƏNDƏ HEYƏTİ ARASINDA AZƏRBAYCAN-QAZAXISTAN DANIŞIQLARINDA ÇIXIŞ**
*7 aprel 2000-ci il*........................................................................ **57**

**AZƏRBAYCAN – QAZAXISTAN SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA BİRGƏ BƏYANAT VƏ MƏTBUAT KONFRANSI**
*Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı*
*Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin bəyanatı*
*7 aprel 2000-ci il*........................................................................ *61*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ADINDAN QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ NİTQ**
*7 aprel 2000-ci il*........................................................................ *64*

**BAKIDA TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ VI ZİRVƏ GÖRÜŞÜNDƏ TƏBRİK NİTQİ**
*8 aprel 2000-ci il*........................................................................ *66*

**TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ VI ZİRVƏ GÖRÜŞÜNDƏ VƏ «KİTABİ-DƏDƏ QORQUD» DASTANININ 1300 İLLİYİNƏ HƏSR OLUNMUŞ YUBİLEY TƏNTƏNƏLƏRİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN BAKIYA GƏLMİŞ TÜRKİYƏ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLİN BİNƏ HAVA LİMANINDA QARŞILANMA MƏRASİMİNDƏ BƏYANAT VƏ MƏTBUAT KONFRANSI**
*Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı*
*Türkiyə Prezidenti Süleyman Dəmirəlin bəyanatı*
*8 aprel 2000-ci il*........................................................................ *67*

**TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ VI ZİRVƏ GÖRÜŞÜNDƏ AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN NİTQ**
*8 aprel 2000-ci il*........................................................................ **68**

**TÜKDİLLİ DÖVLƏTLƏRİN BAŞÇILARININ BAKI BƏYANNAMƏSİ**
*8 aprel 2000-ci il*........................................................................ *71*

**TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ VI ZİRVƏ GÖRÜŞÜ BAŞA ÇATDIQDAN SONRA ONUN YEKUNLARINA DAİR**

**BİRGƏ MƏTBUAT KONFRANSI**
*Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı*
*Türkiyə Prezidenti Süleyman Dəmirəlin bəyanatı*
*Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin bəyanatı*
*Qırğızıstan Prezidenti Əsgər Akayevin bəyanatı*
*8 aprel 2000-ci il……………………………………………………………… 74*

**AZƏRBAYCAN PREZİDENTİ ADINDAN TÜRKDİLLİ DÖVLƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ**
*8 aprel 2000-ci il……………………………………………………………… 77*

**«KİTABİ-DƏDƏ QORQUD» DASTANININ 1300 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YUBİLEY MƏRASİMİNDƏ NİTQ**
*9 aprel 2000-ci il……………………………………………………………… 79*

**TÜRKİYƏ CÜMHURİYYƏTİNİN PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLƏ «AZƏRBAYCAN RESPUBLİKASININ FƏXRİ VƏTƏNDAŞI» ADININ VERİLMƏSİ MƏRASİMİNDƏ NİTQ**
*9 aprel 2000-ci il ……………………………………………………………… 81*

**TÜRKİYƏ CÜMHURİYYƏTİNİN PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLİN İŞTİRAKI İLƏ «KOÇBANK AZƏRBAYCAN» BANKININ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ**
*9 aprel 2000-ci il……………………………………………………………... 83*

**BAKI TÜRK ŞƏHİDLİYİNİN VƏ XATİRƏ ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ**
*9 aprel 2000-ci il……………………………………………………………… 84*

**«KİTABİ - DƏDƏ QORQUD» DASTANININ 1300 İLLİK YUBİLEYİ ŞƏRƏFİNƏ AZƏRBAYCAN PREZİDENTİ ADINDAN TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA NİTQ**
*9 aprel 2000-ci il……………………………………………………………… 86*

**GÜRCÜSTAN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EDUARD ŞEVARDNADZEYƏ**
*10 aprel 2000-ci il……………………………………………………………... 92*

**TÜRKİYƏLİ QONAQLARLA GÖRÜŞDƏ SÖHBƏT**
*10 aprel 2000-ci il……………………………………………………………... 93*

**AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ AZƏRBAYCAN ÜZRƏ MƏRUZƏÇİSİ, FRANSA PARLAMENTİNİN DEPUTATI JAK BOMEL İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*10 aprel 2000-ci il……………………………………………………………... 97*

**TÜRKİYƏNİN «MƏRMƏRƏ QRUPU» VƏQFİNİN SƏDRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**

*11 aprel 2000-ci il…………………………………………………………….. 101*

**BAKI HAVA LİMANI KOMPLEKSİNİN İŞİ İLƏ ƏLAQƏDAR KEÇİRİLƏN MÜŞAVİRƏDƏ ÇIXIŞ**
*13 aprel 2000-ci il……………………………………………………………...* **104**

**DANİMARKANIN KRALİÇASI ÜLYAHƏZRƏT II MARQRETEYƏ**
*14 aprel 2000-ci il………………………………………………………………... 124*

**DANİMARKA KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB POL NİRUP RASMUSSENƏ**
*14 aprel 2000-ci il……………………………………………………………….. 125*

**«KİTABİ-DƏDƏ QORQUD» DASTANININ 1300 İLLİK YUBİLEYİ ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ YEKUN İCLASINDA ÇIXIŞ**
*14 aprel 2000-ci il……………………………………………………………….. 126*

**YUNANISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB KONSTANTİNOS SİMİTİSƏ**
*14 aprel 2000-ci il……………………………………………………………….. 139*

**SURİYA ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HAFİZ ƏL-ƏSƏDƏ**
*18 aprel 2000-ci il ………………………………………………………………. 140*

**ZİMBABVE RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ROBERT MUQABEYƏ**
*18 aprel 2000-ci il……………………………………………………………….. 141*

**AVROPA ŞURASI VENESİYA KOMİSSİYASININ KATİBİ CANNİ BUKİKKİONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*18 aprel 2000-ci il……………………………………………………………….. 142*

**AZƏRBAYCAN MEMARLARININ XVI QURULTAYINA**
*19 aprel 2000-ci il……………………………………………………………….. 146*

**TÜRKİYƏNİN SƏHİYYƏ NAZİRİ OSMAN DURMUŞ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*19 aprel 2000-ci il……………………………………………………………….. 147*

**İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EZER VEYSMANA**
*20 aprel 2000-ci il……………………………………………………………… 154*

**İSRAİL DÖVLƏTİNİN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB EHUD BARAKA**
*21 aprel 2000-ci il……………………………………………………………….. 155*

**«AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN DOSTLARI» FONDUNUN TƏŞƏBBÜSÜ İLƏ «SƏDASI BAHARDIR VƏTƏNİMİZİN» DEVİZİ İLƏ KEÇİRİLƏN KONSERTDƏ SÖHBƏT**
*21 aprel 2000-ci il……………………………………………………………….. 156*

**TANZANİYA BİRLƏŞMİŞ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BENCAMİN VİLLİAM MKAPAYA**
*24 aprel 2000-ci il……………………………………………………………….. 157*

**TÜRK DÜNYASININ GÖRKƏMLİ OĞLU, DÜNYA ŞÖHRƏTLİ ALİM,**

AZƏRBAYCAN XALQININ BÖYÜK DOSTU İHSAN DOĞRAMACI VƏ ONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*24 aprel 2000-ci il*………………………………………………………….. *158*

TÜRK DÜNYASININ GÖRKƏMLİ OĞLU, DÜNYA ŞÖHRƏTLİ ALİM, AZƏRBAYCAN XALQININ BÖYÜK DOSTU İHSAN DOĞRAMACININ 85 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ
*24 aprel 2000-ci il*………………………………………………………….. *163*

TÜRKİYƏNİN NATO-da DAİMİ NÜMAYƏNDƏSİ SƏFİR ONUR ÖYMƏN İLƏ GÖRÜŞDƏKİ SÖHBƏT
*25 aprel 2000-ci il*………………………………………………………….. *167*

AZƏRBAYCAN RESPUBLİKASININ PROKURORLUQ ORQANLARININ RƏHBƏR İŞÇİLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ
*26 aprel 2000-ci il*………………………………………………………….. *169*

TÜRKİYƏ CÜMHURİYYƏTİNİN DİNİ İŞLƏR NAZİRİ MEHMET NURİ YILMAZIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*26 aprel 2000-ci il*………………………………………………………….. *178*

AZƏRBAYCAN PREZİDENTİ VƏ GÖRKƏMLİ ALİM, PROFESSOR İHSAN DOĞRAMACI ƏFRASİYAB BƏDƏLBƏYLİNİN «QIZ QALASI» BALETİNƏ BAXDIQDAN SONRA TEATRIN YARADICI KOLLEKTİVİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*26 aprel 2000-ci il*………………………………………………………….. *180*

CƏNUBİ AFRİKA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TABO MBEKİYƏ
*27 aprel 2000-ci il*………………………………………………………….. *182*

BAKININ NƏSİMİ RAYONU ƏRAZİSİNDƏKİ YENİ PARKLA TANIŞLIĞI VƏ RAYON SAKİNLƏRİ İLƏ SÖHBƏT
*28 aprel 2000-ci il*………………………………………………………….. *183*

*QEYDLƏR*…………………………………………………………………… *185*

*ŞƏXSİ ADLAR GÖSTƏRİCİSİ*.................................................................... *206*

*COĞRAFİ ADLAR GÖSTƏRİCİSİ*................................................................ *210*

## BAKIDA QOŞAQALA QAPISI ÖNÜNDƏ KEÇİRİLƏN NOVRUZ BAYRAMI ŞƏNLİYİNDƏ NİTQ

*21 mart 2000-ci il*

Əziz həmvətənlər, əziz bacılar, qardaşlar!

Azərbaycanın paytaxtı Bakı şəhərinin hörmətli sakinləri!

Hörmətli qonaqlar, dostlar!

Mən sizin hamınızı əziz bayramımız Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm və hər birinizə, hər bir Azərbaycan vətəndaşına cansağlığı, səadət və xoşbəxtlik arzulayıram.

Novruz bayramı Azərbaycan xalqının, azərbaycanlıların ən əziz bayramıdır. Hər xalqın tarix boyu yaranmış və ənənəyə çevrilmiş bayramları vardır. Azərbaycan xalqının da bayramları vardır. Bunların bir qismi dövlət bayramlarıdır, bir qismi xalq, dini bayramlarıdır. Bütün bu bayramların içərisində millətimiz üçün, xalqımız üçün, hər bir azərbaycanlı üçün ən əziz, ən doğma, ən sevimli bayram Novruz bayramıdır.

Novruz bayramının qədim tarixi vardır. Bizim tarixçilərimiz bunu indiyə qədər araşdırırlar. Amma nə qədər araşdırsalar da onun o qədər dərin kökləri olduğunu aşkar edirlər. Məlumdur ki, Novruz bayramı bütün bayramlardan ona görə seçilir ki, bu, təbiətdən, elmi əsaslardan meydana gəlmiş bayramdır.

Dünən biz gecənin-gündüzün bərabərləşdiyini müşahidə etdik. Məhz bu dəqiqələrdə, bu gündə Novruz bayramı başlayır və bir bayram kimi qeyd edilir. Yəni bu bayramın, yenə də deyirəm, bəlkə də dünyada olan bütün xalqların bayramlarından fərqi odur ki, bu, təbiətlə, kainatla əlaqədardır, bunun elmi əsasları var. Bu bayram min illər boyu bizim xalqımızın qəlbinə daxil olub və çox dərin köklər salıbdır. Ona görə də bu bayramı hər bir azərbaycanlı öz doğma bayramı kimi keçirir.

Vaxt var idi ki, bu bayram bəzi səbəblərdən qadağan olunmuşdu. Ancaq həmin onillikləri biz hamımız bir yerdə yaşamışıq və hamımız da bilirik ki, heç kim bu qadağaya fikir verməyibdir və öz bayramını edibdir. Bu bayram elə bayramdır ki, özünün maddi vəziyyətindən asılı olmayaraq hər bir insan - zəngin adam da, orta yaşayan da, lap kasıb şəraitdə yaşayan insan da onu bayram edir. O illər ki, bizim bu ümumxalq bayramının keçirilməsinə imkan yox idi, hər kəsin evində mütləq səməni də, rənglənmiş yumurtalar da, plov da var idi. Ən azı bu idi, hər kəs bunu edə bilirdi. Amma kimlər isə bundan çox edə bilirdi – şəkərbura, əlbəttə ki, paxlava, başqa şirniyyatlar... Kimsə bundan çox edə bilsəydi də, elə ailə tapmaq olmazdı ki, bu bayramın əlamətlərindən o günlər istifadə etməsinlər və bayramı qeyd etməsinlər.

Ona görə bu, azərbaycanlıların, Azərbaycan xalqının qəlbinin bayramıdır. Bu bayramı heç kəs əmrlə yaratmayıbdır. Onu da demək istəyirəm ki, zorla, əmrlə insanları hansısa bayramı keçirməyə məcbur etmək çətindir. Təbii ki, olubdur – bəzən xüsusi, siyasi məqsədlərlə – hamı bunu bayram edib. Amma Novruz bayramının fərqi ondan ibarətdir ki, bunun nə siyasi, nə də iqtisadi mənası var. Bu, ancaq bahar bayramıdır, təbiətin bizə bəxş etdiyi bayramdır, elmi əsaslardan irəliyə gələn bayramdır. Bu, azərbaycanlıların bayramıdır.

Bu bayram bir də onunla fərqlənir və səciyyələnir ki, bu bayramda siyasi baxışlarından, siyasi dünyagörüşündən asılı olmayaraq hamı bayram edir. Əgər bu günümüzü götürsək, iqtidar da, müxalifət də bayram edir, bir-birini sevən də bayram edir, bir-birinə düşmən olan da. Amma bayramın bizə bəxş etdiyi ən gözəl nemət ondan ibarətdir ki, qədim zamanlardan bu bayramda insanlar kin-küdurəti unudur, küsülülər barışır, ziddiyyətlər aradan götürülür. Demək, bu, dostluq, həmrəylik, yüksək mənəviyyat bayramıdır. Ona görə də Novruz bayramını hər il böyük el bayramı kimi, hər bir insanın şəxsi bayramı kimi qeyd edərək biz istəyirik, arzu edirik və bu, Azərbaycan vətəndaşlarının əksəriyyətinin arzusudur ki, ölkəmizdə milli həmrəylik, vətəndaş həmrəyliyi, birliyi olsun. Bu ali məqsədləri, ali fikirləri ulu babalarımız bizə nəsihət ediblər. Bu bayram yaranandan onun xüsusiyyətləri insanları həmişə dostluğa, həmrəyliyə, qarşılıqlı anlaşmaya dəvət edibdir.

Bu bayram həmişə arzular bayramıdır. İnsan bu bayramı keçirərkən arzu edib. Bahar gəlir, yeni il gəlir, Novruz bayramıdır, hər kəsin arzusu var, hər insanın öz arzusu var. Eyni zamanda bizim xalqımızın, millətimizin arzusu vardır.

Mən bu bayram günü hamının öz arzularına, niyyətlərinə çatmasını istəyirəm. Arzu edirəm ki, hər bir insanın, hər bir Azərbaycan vətəndaşının arzusu bu il yerinə yetsin. Amma eyni zamanda, bizim hamımızın ümummilli, ümumxalq arzumuz vardır. Bu arzu ondan ibarətdir ki, Azərbaycanın dövlət müstəqilliyi daha da möhkəmlənsin, inkişaf etsin.

Biz səkkiz ildir ki, bu bayramı bir müstəqil dövlət kimi, azad xalq kimi qeyd edirik. Ona görə də hamımızın ümumi arzumuz odur ki, bizim bu milli azadlığımız, bizim dövlət müstəqilliyimiz daimi olsun, əbədi olsun. Biz hamımız bu arzularla yaşayırıq və tam əminəm ki, bu arzularımıza ilbəil nail olacağıq.

Novruz bayramında adətən insanlar istəyirlər ki, dərddən-qəmdən xilas olsunlar, dərddən-qəmdən uzaqlaşsınlar, ya da bundan sonra dərd-qəm olmasın. Hamıya arzu edirəm ki, bu il, bu bayramdan sonra heç kəsin dərdi-qəmi olmasın. Olsa da elə olsun ki, insanlar o dərdi-qəmi, kədəri keçirə bilsinlər.

Amma yenə də xalqımızın, millətimizin ümummilli, ümumxalq dərdi, qəmi vardır. O da Azərbaycanın ərazi bütövlüyünün Ermənistan tərəfindən pozulması, Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində

torpaqlarımızın böyük bir qisminin işğal olunmasıdır, işğal edilmiş torpaqlardan bir milyondan artıq soydaşlarımızın didərgin düşməsi və ağır vəziyyətdə yaşamasıdır. Bu, bizim ümumi qəmimiz, dərdimiz, kədərimizdir. Ancaq bu dərdi çəkərək biz heç də sınmırıq, ağlamırıq, inildəmirik. Biz bu dərdi mərdliklə, dəyanətlə çəkirik. Eyni zamanda çalışırıq və çalışacağıq ki, bu dərddən-qəmdən xilas olaq. Əminəm ki, biz bundan xilas olacağıq.

Ancaq indi bu bayramı çadırlarda keçirənlər də vardır. Evini-eşiyini itirmiş, ayrı-ayrı yerlərdə əlverişsiz şəraitdə yaşayanlar da vardır. Mən şübhə etmirəm ki, - bu da bayramın xüsusiyyətidir, - hər bir çadırda bu gecə şam yandırılıbdır, bayram yeməyi bişirilib, bayram keçirilibdir. Əvvəl mən bunu dedim ki, xalqımız ən ağır zamanlarda, ən ağır yaşayış şəraitində bu bayramı edibdir. İnanıram ki, bu gün qaçqınların və köçkünlərin məskunlaşdıqları çadır şəhərciklərində də belə bayram əhval-ruhiyyəsi vardır.

Onlar da sizin kimi, hamımız kimi çalırlar, oynayırlar, bayram edirlər. Çünki bu, bizim millətimizin xüsusiyyətidir – sınmamaq, əyilməmək, dərdə dözümlü olmaq. Bəli, bizim millətimiz məğrur, cəsur, qəhrəman millətdir. Bizim millətimiz eyni zamanda çox dərdə dözümlü millətdir. Bunların hamısı ilə birlikdə, bizim millətimiz öz iradəsinə inanan və öz məqsədlərinə nail olmağa inanan millətdir. Bunları deyərək, bunları hər gün hiss edərək mən sizə və bütün Azərbaycan vətəndaşlarına deyirəm ki, bu günlər çadır şəhərciklərində yaşayan insanlar da bayram edirlər.

Mən sizin hamınızı təbrik edirəm. Ancaq o soydaşlarımızı xüsusi təbrik edirəm. Onlara bir daha bildirirəm ki, bizim apardığımız işlər, həyata keçirdiyimiz tədbirlər, - bu işləri ardıcıl aparırıq, - Azərbaycanın işğal olunmuş torpaqlarının azad olunmasını, respublikamızın ərazi bütövlüyünü təmin edəcək, işğal olunmuş torpaqlardan didərgin düşmüş insanlar öz elinə-obasına qayıdacaq və o gün gələcəkdir ki, o yerlərdə bayram tonqalı yandırılacaqdır, bayram şənlikləri, yığıncaqları keçiriləcəkdir. O yerlərdə hər kəs öz evində bayram axşamı plov, paxlava bişirəcəkdir, bayramı öz evində edəcəkdir.

Əziz dostlar, əziz bacılar və qardaşlar!

Bizim həyatımızın son illər çox müsbət cəhətləri də var, ancaq eyni zamanda bizi narahat edən cəhətləri də vardır. Biz bunların hamısını ədalətli qiymətləndiririk. Çatışmazlıqları, nöqsanları heç vaxt gizlətmirik. Amma nailiyyətləri də qeyd edirik və onlarla fəxr edirik. Çətinliklərə, nöqsanlara baxmayaraq indi, bu gün Bakıda da, Azərbaycanın hər bir yerində də insanlar bayram əhval-ruhiyyəsindədirlər. Buraya toplaşanların hamısı, təkcə burada deyil, mən bilirəm ki, indi Bakının bütün meydançalarında, küçələrində insanlar bayram şənlikləri keçirirlər, bayram əhval-ruhiyyəsindədirlər.

Bu günlər, axşamlar fişəng partlamasının səsindən qulaq batır. Bizim hüquq-mühafizə orqanları bundan qorxurlar və onu qadağan edirlər. Amma indi təsəvvür edin, bizdə fişəng istehsal olunmur. Bunu insanlar hansısa ölkələrdən alırlar, gətirib burada satır, pul qazanırlar. İnsanların imkanları vardır ki, gedirlər, həmin o fişəngə pul verirlər, alırlar və onu bir saat, iki saat içərisində partladırlar. Kimsə bundan narahat olur. Bəlkə, deyək ki, bu, onun əhval-ruhiyyəsinə təsir edir. Amma məsələn, mən narahat olmuram. Bu, bizim xalqımızın keçmiş adət-ənənəsidir. Amma o vaxtlar heç də bu qədər fişəng olmayıbdır. Kim ki, bir-iki fişəng qayıra bilirdisə, o bunu edirdi. Amma indi Bakının küçələrində, orada-burada nə qədər fişəng səsləri eşidirik. Bu, nəyi göstərir? Deməli, insanların əksəriyyəti elə yaşayırlar ki, hətta onların fişəng almağa və çox fişəng atmağa da imkanları vardır. Demək istəmirəm ki, onların hər şeyi vardır. Yox. Amma bu bayram elə bayramdır ki, kimsə bəlkə ona lazım olan başqa şeydən imtina edir, onu almır, yəni, necə deyərlər, boğazından kəsir, amma o fişəngi alır, bu bayramı qeyd edir. Bax, budur bizim Novruz bayramımız.

Ona görə də bu bayram əhval-ruhiyyəsi, təbiidir ki, bizim hamımıza nikbinlik verir, hamımızda nikbin əhval-ruhiyyə yaradır. Mən sizi əmin edirəm ki, bu nikbinliyə haqqımız var, əsasımız vardır. Çünki apardığımız iqtisadi siyasət, daxili və xarici siyasət Azərbaycanın həyatını gündən-günə yaxşılaşdıracaq, insanların rifahı yaxşılaşacaq, Azərbaycan yüksələcək və respublikamızda hər bir vətəndaş öz hüququndan istifadə edib rahat yaşayacaqdır.

Mən sizin hamınızı bir də təbrik edirəm, sizə cansağlığı arzu edirəm və arzu edirəm ki, həmişə belə gözəl əhval-ruhiyyədə olasınız! Çox sağ olun.

## «UNİVERSİTETLƏR VƏ CƏMİYYƏT,
## ƏSRLƏRİN AYRICINDA UNİVERSİTETLƏRİN ƏMƏKDAŞLIĞI» BEYNƏLXALQ KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Əsrlərin və minilliklərin qovuşuğunda keçirdiyiniz beynəlxalq konfrans yeni tarixi şəraitdə Müstəqil Dövlətlər Birliyi və Baltikyanı ölkələrinin vahid təhsil məkanının yaradılmasında çox böyük əhəmiyyətə malikdir. Hər bir ölkənin qarşıdakı əsrdə sabit inkişafı baxımından onun dünyagörüşü, mənəvi, sosial-iqtisadi problemlərinin geniş spektri təhsil ilə sıx bağlıdır. Bunun çox rəmzi mənası var ki, məhz Moskva Universiteti dünyanın aparıcı təhsil mərkəzlərindən biri olaraq, yeni konseptual mövqelərin yaradılması və ölkələrimizin intellektual potensialının sıx birləşdirilməsi sahəsində səyləri birləşdirir.

Taleyin hökmü ilə 70–80-ci illərdə mən Azərbaycan tələbələrinin Rusiya, Ukrayna, Özbəkistan və digər keçmiş Sovet respublikalarının ali məktəblərində hazırlıq keçməsi təşəbbüsünü irəli sürməli olmuşam. Bu, yaxşı nəticələr verdi. İndi artıq müstəqil olan Azərbaycan Respublikası təhsil sahəsində maksimum mümkün əməkdaşlıq xəttini həyata keçirməyi davam etdirir.

Keçmiş SSRİ rəhbərliyinin tərkibində işlədiyim illərdə mən təhsil sisteminin islahatı və təkmilləşdirilməsi sahəsində böyük səylər göstərirdim. Lakin o dövrdə hökm sürən məhdudiyyətlər bu planların tamamilə həyata keçirilməsinə imkan vermədi. Bununla bərabər, keçmiş SSRİ-də mövcud olmuş təhsil sisteminin, xüsusən təbiiyyat elmlərinin tədrisi və inkişafı sahəsində, şübhəsiz, xeyli məziyyətləri və üstünlükləri vardı. Bu, bizim birgə sərvətimiz idi və son dərəcə mühümdür ki, biz onu əsas etibarilə saxlaya bildik.

Bütün postsovet məkanı üçün ümumi olan əlbəttə ki, universitetlərin inkişafına heç də yaxşı təsir göstərməyən ciddi iqtisadi və sosial problemlərlə yanaşı, bu gün Azərbaycan uşaqların təhsili məsələlərini qaçqınların və məcburi köçkünlərin çadır düşərgələrində də həll edir. Bütün bunlara baxmayaraq, təhsil öncül strateji istiqamətlərimizdən biri olmuşdur və olaraq qalır. Biz əminik ki, kadrlar hazırlanmasının keyfiyyəti yenə də ən mühüm problem olaraq qalır. Dövlətlərimizin gələcəyi universitet məzunlarının peşəkarlığından və mənəvi-əxlaqi yönümündən asılıdır. Bazar iqtisadiyyatı və yeni informasiya texnologiyalarının labüd yürüşü şəraitində təhsilin böhranı universitetlərdə bir çox yeniliklərin tətbiqini tələb edir, lakin bu zaman mədəniyyət, mənəviyyat və ümumbəşəri dəyərlər, əlbəttə ki, bütün təhsil sisteminin sarsılmaz təməli statusunu saxlayır.

Əminəm ki, konfransınız Müstəqil Dövlətlər Birliyi və Baltikyanı ölkələri universitetlərinin daha da inkişaf etməsi ilə bağlı aktual problemlərin həllinə layiqli töhfə verəcəkdir. Konfransın bütün iştirakçılarına uğurlar, xoşbəxtlik və cansağlığı arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *21 mart 2000-ci il*

## GÜRCÜSTANA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*22 mart 2000-ci il*

**S u a l: Cənab prezident, qonşu Gürcüstana rəsmi səfəriniz barədə nə deyə bilərsiniz və səfər çərçivəsində hansı sənədlərin imzalanması nəzərdə tutulur?**

**C a v a b:** Səfərim rəsmi səfərdir. Ümumiyyətlə, Gürcüstanla Azərbaycan arasında o qədər sıx əlaqələr var ki, bütün səviyyələrdə – prezidentdən başlamış Baş nazir, nazirlər, bizim müxtəlif təşkilatlar daim bir-birinə, yəni Gürcüstandan Azərbaycana, Azərbaycandan Gürcüstana səfərlər edirlər, müqavilələr imzalayırıq və xüsusən əməli işlər aparırıq. Odur ki, Gürcüstan ilə bizim əlaqələrimizin xüsusi xarakterinə görə bu səfərlərin çox olması da təbiidir.

Mən də ötən illərdə Gürcüstana çox getmişəm və Gürcüstan prezidenti Eduard Şevardnadze də Azərbaycana çox gəlibdir. Ancaq mən dörd il bundan öncə ora rəsmi səfər etmişdim. Ondan sonra Şevardnadze bura rəsmi səfər etmişdi. İndi bu, rəsmi səfərdir. Biz orada ətraflı danışıqlar aparacağıq, sənədlər də imzalayacağıq. Əsas sənəd – siyasi sənəd, siyasi bəyanatdır, Gürcüstan prezidenti ilə Azərbaycan prezidentinin birgə bəyanatıdır. Orada bizim bütün əlaqələrimizə aid, ümumiyyətlə, ölkələrimizin indiki vəziyyətinə aid, Qafqazdakı vəziyyətə aid və beynəlxalq aləmdə gedən proseslərə aid məsələlərdə bizim eyni fikirdə olduğumuz əks ediləcəkdir. Bir neçə başqa sənəd də vardır, onlar iqtisadi xarakter daşıyır.

**S u a l: Cənab prezident, dünən Dağlıq Qarabağın separatçı liderinə sui-qəsd olubdur və o, indi yaralıdır. Sizcə, bu hadisə Dağlıq Qarabağ münaqişəsinin həllinə nə dərəcədə təsir göstərə bilər?**

**C a v a b:** Bilirsiniz, belə şeyləri bağlamaq lazım deyil. Bilirsiniz ki, Ermənistanda oktyabr ayının 27-də böyük bir terror hadisəsi oldu və ondan sonra ümumiyyətlə, Ermənistanda daxili ictimai-siyasi vəziyyət gərginləşibdir.

Amma ondan da qabaq bizim aldığımız məlumatlara görə, Dağlıq Qarabağda da ictimai-siyasi vəziyyət gərginləşmişdir. Bu ümumi gərginlik var və o, onların daxili işidir. Biz bu məsələlərin heç birinə qarışmırıq və qarışmamalıyıq. Azərbaycan prezidenti kimi mənim mövqeyim bundan ibarətdir.

Doğrudur, keçmiş zamanlarda – 1991–1992–1993-cü illərdə Azərbaycanda daxili ictimai-siyasi vəziyyət gərgin olduğu halda, ağır olduğu halda, burada hakimiyyət mübarizəsi getdiyi halda, insanlar torpaqlarını qorumaq əvəzinə, - yəni mən dövlət adamlarını, dövlət rəhbərlərini deyirəm, - bir-biri ilə vuruşurdular. Bu zaman Ermənistan silahlı qüvvələri bu vəziyyətdən çox məharətlə istifadə etdilər və bizim torpaqların bir qismini işğal etdilər.

Məsələn, torpaqların bir qisminin işğal edilməsi həmin o 1992–1993-cü illərə gəlib düşür və onun da başqa səbəblərlə yanaşı, ən birinci səbəbi odur ki, Azərbaycanda birlik olmadı, torpaqlar uğrunda hamının birləşib müharibə aparması, yaxud torpaqları müdafiə etməsi olmadı. Ermənilər də bundan məharətlə istifadə etdilər.

Ancaq bunlar hamısı keçmişdə qalıbdır. Biz sülh tərəfdarıyıq. Biz istəyirik ki, Ermənistanla Azərbaycan arasındakı münaqişələri sülh yolu ilə həll edək. Ona görə də Ermənistanın daxilində, yaxud Dağlıq Qarabağda, - baxmayaraq ki, o, bizim ərazimizdir, bizim torpağımızdır, amma faktiki olaraq bizim tabeliyimizdə deyildir, - Dağlıq Qarabağda hansısa bir hadisə, daxili gərginlik, filan olursa, biz bunlara, sadəcə, olduqca soyuqqanlılıqla yanaşmalıyıq, yəni heç bir müdaxilə etməməliyik, bundan heç bir istifadə etməməliyik və Ermənistanın daxili məsələlərini Ermənistan özü həll etməlidir.

Oktyabr ayında Yerevanda olan terror hadisəsindən sonra mən Ermənistan prezidenti Koçaryanla həm telefonla danışdım, həm də sonra görüşdük. O, mənə dəfələrlə dedi ki, bu terror hadisələrinin Ermənistan–Azərbaycan münasibətlərinə, yaxud da apardığımız danışıqlara heç bir təsiri yoxdur və bu danışıqlarla heç bir əlaqəsi yoxdur. Ona görə də mən bu gün də deyə bilərəm, - bəli, mən də eşitmişəm ki, orada, Dağlıq Qarabağda belə bir terror olubdur. Ancaq güman edirəm və əminəm ki, bunun Ermənistan–Azərbaycan münasibətləri ilə heç bir əlaqəsi yoxdur və bizim danışıq proseslərimiz ilə heç bir əlaqəsi yoxdur. O, onların daxili işidir. Bizim isə bu barədə mövqeyimiz bundan ibarət olmalıdır ki, qoy özləri daxili işlərini həll etsinlər. Bizə lazımdır ki, məsələni sülh yolu ilə həll edək. Əgər mənim fikrimi bilmək istəyirsinizsə, məsələni sülh yolu ilə həll etmək üçün biz istərdik ki, Ermənistanın daxilində də, Dağlıq Qarabağda da ictimai-siyasi sabitlik olsun, vəziyyət sabit olsun. Əgər bu sabitlik olmasa, təbiidir ki, onlar bizimlə danışıq apara bilməzlər və biz sülhə nail ola bilmərik.

**S u a l: Cənab prezident, Siz ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanda sabitlik bərqərar olmaqla bərabər, Gürcüstanda yaşayan, qaçqınlıq təhlükəsi ilə üzləşən yarım milyondan artıq soydaşlarımızın taleyi faktiki olaraq həll edildi. Yəni onlar deportasiyadan xilas oldular. Səfəriniz çərçivəsində soydaşlarımızla görüşünüz nəzərdə tutulurmu?**

**C a v a b:** Bilirsiniz, mən soydaşlarımızla həmişə görüşürəm. Ümumiyyətlə, mən elə 70-ci illərdə də Azərbaycana rəhbərlik etdiyim zaman Azərbaycandan kənarda yaşayan bütün azərbaycanlılarla, Ermənistanda yaşayan azərbaycanlıların vəziyyəti ilə, Gürcüstanda yaşayan azərbaycanlıların vəziyyəti ilə daim maraqlanırdım və imkan dairəsində onların vəziyyətinin – həm iqtisadi vəziyyətinin yaxşılaşmasına, həm də onların dövlət işlərində iştirak etməsinə kömək etməyə çalışırdım. Ancaq həqiqət bundan ibarətdir ki, o illərdə dövlət başçıları çox sözlər verirdilər, amma əməli olaraq az işlər görürdülər.

İndi, yeni mərhələdə Gürcüstan da müstəqildir, Azərbaycan da müstəqildir, Gürcüstan da, Azərbaycan da ağır bir yol keçdi, daxili vətəndaş müharibəsi oldu. Bilirsiniz ki, o dövrdə Borçalı mahalında – təkcə Borçalıda yox, Gürcüstanın başqa yerlərində də azərbaycanlılar yaşayırlar, - orada azərbaycanlıların vəziyyəti çox ağırlaşmışdı. Sonra, 1993-cü ildə, yəqin siz bunu bilirsiniz, mən Azərbaycana gələndən sonra Gürcüstan – Azərbaycan əlaqələrində çox keyfiyyətli dəyişikliklər əmələ gəldi. Eduard Şevardnadze ilə mənim keçmişdən olan əlaqələrimiz və indi iki prezident kimi qarşımızda duran məsələlərin birgə həll edilməsinə səylərimiz onu təmin edibdir ki, indi Gürcüstanda yaşayan 500 mindən çox azərbaycanlının vəziyyəti əvvəlkinə nisbətən yaxşılaşır və biz də həmişə bunu müşahidə edirik. Çalışırıq ki, onlara yardım edək. Onlardan dörd nəfər son seçkilərdə yenə də Gürcüstan parlamentinə deputat seçilibdir. Mənə deyirlər, bəlkə bir nəfər də sonra seçilsin. Soydaşlarımızın Azərbaycan məktəblərində təhsil almalarına kömək edirik və başqa işlərinə kömək edirik.

Hər halda hesab edirəm ki, Gürcüstanda – Borçalı mahalında və bütün başqa bölgələrdə yaşayan azərbaycanlıların vəziyyəti indi əvvəlkilərə nisbətən daha yaxşıdır. Mən deyə bilmərəm ki, maddi vəziyyəti yaxşıdır, ancaq onların ölkədə mövqeyi, yəni özlərini bir vətəndaş kimi hiss etməsi sahəsində onlar daha yüksək səviyyədədirlər və mən hər dəfə nəinki səfərlərimdə, bütün danışıqlarımda bu məsələni əsas məsələ kimi qoyuram. Gürcüstanda yaşayan azərbaycanlıların qarşısında özümü borclu hesab edirəm, onlara keçmişdə də qayğı göstərmişəm, bunu indi də edirəm və nə qədər də varam – edəcəyəm.

**S u a l: Cənab prezident, səfəriniz çərçivəsində Bakı-Ceyhan kəməri ilə əlaqədar tranzit tarifi üzrə danışıqlarınız olacaqmı?**

**C a v a b:** Bilirsiniz ki, orada hər şey həll olunubdur. Ancaq Gürcüstan tərəfindən bəzi şərtlər, bizim üçün, nəinki bizim üçün, ümumiyyətlə, iqtisadi nöqteyi-nəzərdən heç bir çərçivəyə sığmayan bəzi məsələlər qaldırılır. Bizim nümayəndə heyətləri görüşüblər. İki-üç gün bundan öncə mən bizim Dövlət Neft Şirkətində bu işlə məşğul olan Valeh Ələsgərovu yenə də ora göndərmişəm. O, orada məşğul olur. İndi mən gələn kimi orada məlumat alacağam ki, vəziyyət nə yerdədir. Çünki bizim məqsədimiz bundan ibarətdir ki, tezliklə bu məsələləri qurtaraq, kommersiya müqaviləsini imzalayaq, bu müqavilələr Azərbaycan, Gürcüstan və Türkiyə parlamentlərinin ratifikasiyasından keçsin və tezliklə işə başlayaq.

Bir gün bundan öncə mən Türkiyənin prezidenti cənab Süleyman Dəmirəl ilə də bu barədə danışırdım. O da, mən də, hamımız bu fikirdəyik. Çünki əgər bu, bir az geciksə, sonra ümumiyyətlə, bu kəmərin tikilməsi müəyyən qədər gecikəcək və bu da hər bir ölkə üçün zərərdir.

**S u a l : Cənab prezident, bazar günü Rusiyada keçiriləcək prezident seçkilərində Putinin qalib gələcəyi şübhə doğurmur. Əgər Putin qalib gələrsə, Azərbaycana təsiri necə ola bilər?**

**C a v a b:** Onu seçkidən sonra görərik.

**S u a l: Cənab prezident, Gürcüstanda vaxtı yaxınlaşan prezident seçkilərini necə dəyərləndirirsiniz?**

**C a v a b:** Sən iki dəfə sual verirsən, bu yazıqları qoymursan sual versinlər. Dəyərləndirirəm, indi gedib orada dəyərləndirəcəyəm.

**S u a l: Cənab prezident, Saparmurad Niyazov ilə telefon danışığınızda belə cümlə işlədilib ki, ola bilsin, sənədlər Bakıda imzalanacaqdır.**

**C a v a b:** Bəli, o özü bunu dedi ki, ola bilər, sənədlər Bakıda imzalansın. Mən də buna etiraz etmirəm. Çünki ayın 8-də burada türkdilli ölkələrin dövlət başçılarının görüşü olacaqdır. Əgər o bu addımı atıb bunu etsə, biz buna etiraz etmirik.

**J u r n a l i s t:** Cənab prezident, mümkünsə...

**H e y d ə r Ə l i y e v:** Sən mənə sual verirsən, sonra da gedib həmişə pis şeylər yazırsan. Mən də həmişə sənə baxıram, görürəm ki, belə balaca qızsan.

**J u r n a l i s t :** Cənab prezident, bir qrup ziyalı son günlər dövlət himninin mətninə dəyişiklik edilməsi haqqında təkliflər irəli sürüblər.

**H e y d ə r Ə l i y e v:** Dövlət himninin?

**J u r n a l i s t:** Bəli. Əhməd Cavadın sözlərinə yazılmış himnin.

**H e y d ə r Ə l i y e v:** Mən bunu bilmirəm.

**S u a l: Bəxtiyar Vahadzadə redaktə edilməsini, Zəlimxan Yaqub ümumiyyətlə, dəyişilməsini təklif edirlər. Sizin bu təkliflərə münasibətiniz necədir?**

**C a v a b:** Vallah, mən bunu səndən eşidirəm. Ancaq əgər onlar bir dəyişiklik etmək istəyirsə, gərək bunu mən prezident kimi biləm, ondan sonra öz fikrimi deyə bilərəm. Bilirsiniz, mən ümumiyyətlə, vaxtilə yazılmış şeylərin dəyişilməsinin tərəfdarı deyiləm.

**S u a l: Cənab prezident, deyirlər ki, Siz o vaxtkı hadisələrdə, çevriliş cəhdlərində iştirak etmiş bəzi siyasi xadimləri əfv etmək fikrindəsiniz. Bu doğrudurmu?**

**C a v a b:** Mən indiyədək nə qədər adamı əfv etmişəm. 5 mindən çox adamı əfv etmişəm. Yenə də əfv edəcəyəm. Kim özünü yaxşı aparsa, əfv edəcəyəm. Sağ olun.

## GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZE İLƏ TƏKTƏBƏK GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Tbilisi,*
*«Krsanisi» dövlət iqamətgahı*

*22 mart 2000-ci il*

**E d u a r d  Ş e v a r d n a d z e:** Əziz dostum, qardaşım, prezident Heydər Əliyev! Sizi Gürcüstan torpağında qarşılamaq mənə böyük şərəf verir. Xoş gəlmisiniz. Sizin Gürcüstana səfərinizin xüsusi əhəmiyyəti var.

Dəvətimi qəbul edib Tbilisiyə rəsmi səfərə gəldiyinizə görə Sizə ürəkdən minnətdarlığımı bildirirəm. Bu səfər müstəqil dövlətlərimiz arasındakı münasibətlərin inkişafında keyfiyyətcə yeni mərhələ açır.

**H e y d ə r  Ə l i y e v:** Gürcüstana rəsmi səfər etmək barədə dəvətə, mənə və Azərbaycan nümayəndə heyətinə göstərilən səmimi və xoş münasibətə görə təşəkkür edirəm, əziz dostum və qardaşımla yenidən görüşməyimdən dərin məmnunluq duyuram.

Biz bu gün müstəqil Azərbaycan və Gürcüstan dövlətləri arasında münasibətlərin inkişafına dair hərtərəfli, geniş müzakirələr aparacaq, regional, beynəlxalq miqyaslı məsələlər barədə ətraflı fikir mübadiləsi edəcəyik.

Xəzərin zəngin karbohidrogen yataqlarının işlənilməsinə və enerji ehtiyatlarının dünya bazarlarına nəqlinə, o cümlədən XX əsrin sonunun ən böyük və nadir regional layihələrindən olan Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəmərinin reallaşdırılması ilə bağlı məsələlərə xüsusi diqqət yetirməliyik.

**E d u a r d  Ş e v a r d n a d z e :** Bakı-Tbilisi-Ceyhan neft kəmərinə dair sazişin imzalanması məhz bu layihənin təşəbbüskarı və müəllifi olan Azərbaycan prezidenti Heydər Əliyevin ardıcıl və məqsədyönlü siyasəti, qətiyyətli mövqeyi, əzmkarlığı sayəsində gerçəkləşdi. Tariflər məsələsinin həllində Sizin qərarınızı yüksək qiymətləndirir və Sizə dərin minnətdarlığımı bildirirəm.

**H e y d ə r  Ə l i y e v:** Bütün bunlarla yanaşı əlbəttə ki, biz mühüm məsələ – Cənubi Qafqazda və ümumən Qafqazda təhlükəsizlik məsələsi haqqında ətraflı fikir mübadiləsi aparmalıyıq. Onu da xüsusi qeyd etməyi vacib bilirəm ki, ölkələrimiz arasındakı ənənəvi, tarixi dostluq münasibətlərinin müstəqillik dövründə daha da dərinləşdirilməsinin və genişləndirilməsinin əhəmiyyəti xüsusi ilə böyükdür. Hələ 1996-cı ildə bəyan etdiyimiz «Qafqazda sülh» təşəbbüsünün aktuallığını bir daha qeyd edərdim. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ və Abxaziya-Gürcüstan münaqişələrinin sülh yolu ilə tezliklə aradan qaldırılması, regionda sülhün, təhlükəsizliyin və sabitliyin bərqərar edilməsi çox vacibdir.

**E d u a r d  Ş e v a r d n a d z e:** Səmimi dostluq, mehriban qonşuluq və strateji tərəfdaşlıq əsasında qurulan Azərbaycan-Gürcüstan münasibətlərinin geniş imkanları və perspektivləri vardır.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN VƏ GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZENİN TƏKBƏTƏK GÖRÜŞÜ BAŞA ÇATDIQDAN SONRA HƏR İKİ ÖLKƏNİN NÜMAYƏNDƏ HEYƏTİ ARASINDA AZƏRBAYCAN–CÜRCÜSTAN DANIŞIQLARINDA ÇIXIŞ

*Tbilisi,*
*Gürcüstan prezidentinin iqamətgahı*

*22 mart 2000-ci il*

Cox hörmətli Eduard Amvrosiyeviç!
Hörmətli xanımlar və cənablar, dostlar!

Sizin hamınızı Azərbaycan xalqı adından səmimi-qəlbdən salamlayıram və sizə ən dərin hörmət və ehtiramımı bildirirəm.

Əziz dostum Eduard Amvrosiyeviç, Gürcüstana rəsmi səfərə gəlmək barədə dəvətinizə görə sizə təşəkkür edirəm.

Xalqlarımız, ölkələrimiz arasında, habelə Gürcüstan prezidenti ilə Azərbaycan prezidenti arasında münasibətlər elə xarakter daşıyır ki, bəzən düşünürsən ki, dəvətlərə xüsusi lüzum yoxdur. Biz bir-birimizə dəvətlərsiz, protokolsuz gəlib-gedirik və bu, bizim üçün adi praktikaya çevrilmişdir.

Mən Gürcüstana indiki dövrdə gəlməyi çox istəyirdim. Arzum yerinə yetdi, mən rəsmi dəvət aldım. Buna görə sağ olun.

Səmimiyyətlə və mehribanlıqla qarşılandığımıza görə sizə təşəkkür edirəm. Təyyarənin pilləkəni yanından başlayaraq indiyədək siz mənə, nümayəndə heyətimizin üzvlərinə, bizim səfərimizə çox böyük hörmət göstərirsiniz. Sağ olun.

Təbii ki, bunun həmişə əhəmiyyəti var, hərçənd, təkrar edirəm, münasibətlərimiz adi protokol çərçivəsindən o dərəcədə kənara çıxmışdır ki, burada da bütün bunlarsız ötüşmək olardı. Amma nə etmək olar, protokol protokoldur.

Eduard Amvrosiyeviç, siz məlumat verdiniz ki, biz sizinlə, demək olar, iki saat təkbətək danışdıq. Əgər bu protokol qaydası olmasaydı, əgər sonrakı tədbirlər olmasaydı, onda yəqin ki, daha çox danışmaq olardı. Lakin hesab edirəm ki, bunun üçün hələ imkanımız olacaqdır. Qarşıda axşam, gecə, eləcə də sabahkı gün var.

İki saatlıq söhbətimiz barədə dediklərinizi tamamilə təsdiqləyirəm. Öz tərəfimdən demək istəyirəm ki, mən dost, qardaş ölkəyə gəlmişəm.

Gürcüstanla Azərbaycan arasında münasibətlər həmişə çox mehriban və səmimi, qardaşcasına olmuşdur. Fəxr edə bilərik ki, tarixdə xalqlarımız arasında heç zaman, heç bir münaqişə, toqquşma baş verməyibdir. Hərçənd belə şeylər nəyisə bölüşdürə bilmədikdə bəzən hətta qardaşlar arasında da olur. Lakin Gürcüstan və Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra münasibətlərimiz keyfiyyətcə yeni xarakter almışdır. Hesab edirəm ki, bu dövr ərzində dostluq münasibətlərimizin möhkəmlənməsi və inkişafı üçün çox işlər görülmüşdür.

Buna baxmayaraq, hər bir belə görüş yeni addımdır, yeni irəliləyişdir, dostluğun möhkəmlənməsi, mövqelərin razılaşdırılması, fikir mübadiləsidir. Axı indi həyat bunu tələb edir. Biz çox mürəkkəb bir zəmanədə yaşayırıq. Gürcüstanda da, Azərbaycanda da daxili və xarici problemlər olduqca çoxdur. Odur ki, fikir mübadiləsi aparmağa, məsləhətləşməyə, bir-birinin rəyini öyrənməyə ehtiyac həmişə var. Buna görə də mən bizim bu imkanımıza şadam.

Bu gün biz çox şeydən danışdıq. Bununla bərabər, mən belə başa düşdüm ki, noyabrın 18-də İstanbulda, ATƏT-in üzvü olan dövlətlərin başçılarının görüşü zamanı Bakı-Tbilisi-Ceyhan neft kəmərinə dair imzalanmış sazişin daha da rəsmiləşdirilməsi prosesinə nöqtə qoymağımız söhbətimizin ən qiymətli hissəsi olmuşdur.

Şübhəsiz ki, indiyədək gördüyümüz bütün işlər bizi indi olduğumuz səviyyəyə qaldırmışdır. Lakin bu, hələ yalnız başlanğıcdır, biz bütün sahələrdə, xüsusən Xəzər dənizinin, habelə digər xəzəryanı regionların enerji ehtiyatlarından istifadə edilməsi kimi sahədə əməkdaşlığımızın böyük yolunun əvvəlindəyik.

Çox böyük məmnunluq hissi ilə demək olar ki, biz uğurlu əməkdaşlığı təmin edə bilmişik. Biz Bakı–Tbilisi–Ceyhan neft kəmərinin reallığa çevrilməsi üçün, bu sazişi İstanbulda təntənəli şəraitdə imzalamağın mümkün olması üçün çox işlər görmüşük.

Bununla belə, məlum oldu ki, hələ həll edilməli məsələlər də qalmışdır. Bütün bu müddətdə biz onlarla məşğul olmuşuq. Həqiqətən, ekspertlərimiz, - istər Gürcüstan tərəfindən, istərsə də Azərbaycan tərəfindən, - çox işləmişlər. Bununla belə, vaxt gedir. Müxtəlif dairələr noyabrda İstanbulda imzaladığımız sazişə müxtəlif cür qiymət verirlər. Məlumdur ki, bu böyük layihənin çoxlu tərəfdarları olduğu kimi, çoxlu əleyhdarları da var.

Biz sizinlə bu layihənin iştirakçılarıyıq və əməkdaşlıq etdiyimiz ölkələrin də, bu baxımdan bizi fəal dəstəkləyən ölkələrin də olması məsələnin bir tərəfidir. Məsələnin digər tərəfi isə ondan ibarətdir ki, ümumən dünyada elə ölkələr və elə qüvvələr də var ki, onlar bunu istəmirlər. Əgər onlar bunu istəmirlərsə, deməli, müstəqilliyimizin, Cənubi Qafqazda, bütün Qafqazda təhlükəsizliyin möhkəmlənməsini istəmirlər, Gürcüstanla Azərbaycan arasında, təkcə bizim aramızda deyil, həm də Mərkəzi Asiya ölkələri, Azərbaycan, Gürcüstan, Türkiyə və təbii ki, Avropa Birliyi, Qərb ölkələri arasında dostluğu istəmirlər.

Bu gün biz sizinlə həmin məsələ barəsində ətraflı fikir mübadiləsi apardıq. Nə gizlədim, mən buraya gəlməyə hazırlaşarkən ekspertlərimizə indiyədək həll edilməmiş məsələnin qəti şəkildə həlli üçün, kommersiya sazişinin imzalanması prosesini tamamilə başa çatdırmaq, müqavilənin ratifikasiyası və məsələnin əməli həllinə başlamaq üçün yollar tapmağı tapşırdım.

Məlumdur ki, söhbət tranzit tariflərindən gedirdi. Bu tariflər müəyyənləşdirilmişdi. Lakin Gürcüstanın daha böyük tariflərə ehtiyacı vardı. Biz isə bundan ötrü imkanlar tapmalı idik. Odur ki, mən necə olursa-olsun məsələnin həlli yolunu tapmağı tapşırdım. Azərbaycan Dövlət Neft Şirkətindəki mütəxəssislərimiz gəlib dedilər ki, özümüzdən kəsib Gürcüstana güzəştə getməkdən başqa ayrı yol yoxdur, bu halda məsələ həll edilə bilər.

Təbii ki, biz bütün bunları hərtərəfli müzakirə etdik və mən buna razılıq verməyi qərara aldım. Bu gün bunu dostum Eduard Amvrosiyeviçə bildirdim. Düşünürəm ki, bununla da biz müzakirələrə son qoyduq, nöqtə qoyduq. Biz hətta razılığa gəldik ki, aprel ayı ərzində bütün razılaşmalar aparılsın, bütün kommersiya sazişləri imzalansın və aprelin axırlarında – mayın əvvəllərində bu sənədlər ratifikasiya edilmək üçün Gürcüstan, Azərbaycan və Türkiyə parlamentlərinə verilsin.

Yəni, şadam ki, biz məsələnin həlli yolunu tapa bildik. Bu, Azərbaycanın Gürcüstana münasibətini, bizi nə kimi böyük dostluq hissləri birləşdirdiyini, ölkəmizin bu dostluq hisslərini necə yüksək qiymətləndirdiyini, onların möhkəmlənməsinə və inkişafına nə kimi əhəmiyyət verdiyini və nəyin naminə yeni güzəştlərə getdiyini əyani şəkildə əks etdirir. Ona görə də şadam ki, biz bunu etməyə nail olduq. Düşünürəm ki, həmin məsələ bu gün həll etdiyimiz ən mühüm məsələdir.

Əslinə qalsa, bizim indiyədək həll edə bilmədiyimiz məsələlər yoxdur və zənnimcə, gələcəkdə də ola bilməz. Çünki indi Gürcüstanla Azərbaycan arasında münasibətlər səmimilik, mehriban qonşuluq, həqiqi dostluq əsasında qurulur. Bu, xalqlarımızın, dövlətlərimizin hökmüdür, iradəsidir. Bu, Gürcüstan prezidentinin və Azərbaycan prezidentinin iradəsidir.

Mən bütün bu prosesdə, yəni ölkələrimiz arasında dostluq münasibətlərinin inkişafı və möhkəmlənməsi prosesində dostum Eduard Amvrosiyeviç Şevardnadzenin rolunu və fəaliyyətini yüksək qiymətləndirirəm. Bunun keçmişdə də çox böyük əhəmiyyəti olmuşdur. Lakin dövlət müstəqilliyi əldə edildikdən sonra bu, son dərəcə mühümdür.

Vacib olan budur ki, biz dövlət müstəqilliyi mövqeyində, həqiqətən, möhkəm dayanmışıq. Demokratik, hüquqi, dünyəvi dövlət yaratmaq, onu möhkəmləndirmək və inkişaf etdirmək, iqtisadiyyatı bazar münasibətləri əsasında inkişaf etdirmək, bütün ölkələrlə, xüsusən də qarşımızda duran sosial-iqtisadi məsələlərin həllində bizə yardım göstərməkdən ötrü Gürcüstana da, Azərbaycana da öz sərmayələrini qoya bilən ölkələrlə münasibətlərimizi möhkəmlətmək və inkişaf etdirmək yolunu tutduğumuz barədə baxışlarımız da indiki halda tamamilə uyğun gəlir.

Qafqazda, Cənubi Qafqazda təhlükəsizlik məsələsi Gürcüstan üçün də, Azərbaycan üçün də çox mühüm məsələdir. Gürcüstanla Azərbaycan arasındakı, prezident Şevardnadze ilə prezident Əliyev arasındakı dostluq münasibətləri Azərbaycanda da, Gürcüstanda da sabitliyin qorunub saxlanması, bu sabitliyin möhkəmləndirilməsi və təhlükəsizliyin təmin edilməsi üçün mühüm amildir.

Doğrudur, qarşımızda hələ çox problemlər durur. Bilirsiniz ki, Ermənistanla Azərbaycan arasında münaqişə hələ həll edilməyibdir, Azərbaycan bu münaqişədən çox əzab-əziyyət çəkir - ölkəmizin ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır, bir milyondan çox azərbaycanlı öz doğma yerlərindən zorla çıxarılmışdır və ağır şəraitdə, çadırlarda yaşayır. Gürcüstan Abxaziya münaqişəsindən çox əziyyət çəkir, rəqəmlər sizə məndən də yaxşı məlumdur.

Lakin, gördüyünüz kimi, bizim dostluğumuz da möhkəmdir, taleyimiz də çox oxşardır. Ona görə də Qafqazda, Cənubi Qafqazda təhlükəsizliyin tamamilə təmin olunması, - yeri gəlmişkən, biz bu barədə ilk dəfə 1996-cı ilin martında Tbilisidə bəyanat vermişdik, - bütün bu məsələlərin həllini tələb edir.

Bununla yanaşı, biz bu məsələlərin həllini gözləyə bilmərik. Biz Cənubi Qafqazda təhlükəsizliyin və sülhün təmin edilməsi üçün öz mövqelərimizi mümkün qədər möhkəmləndiririk. Burada da Gürcüstanın, həm prezident kimi, həm də dünya miqyasında çox nüfuzlu siyasi xadim kimi Eduard Amvrosiyeviç Şevardnadzenin böyük rolu var.

Ona görə bu görüşümüz də bunların hamısını bir daha təsdiq edir ki, birlikdə həyata keçirməyə başladığımız layihələr gerçəkləşəcək, həm iqtisadi, həm də siyasi əməkdaşlığımızı genişləndirmək üçün qarşımızda hələ çox imkanlar vardır.

Eduard Amvrosiyeviç, dəvətə görə, bugünkü görüşə görə Sizə bir daha təşəkkürümü bildirirəm, bu gözəl imkana görə şadam.

## AZƏRBAYCAN–GÜRCÜSTAN SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA BİRGƏ BƏYANAT VƏ MƏTBUAT KONFRANSI

*22 mart 2000-ci il*

Gürcüstan prezidenti Eduard Şevardnadzenin dəvəti ilə 22–23 mart 2000-ci il tarixlərində Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev Gürcüstanda rəsmi səfərdə olmuşdur.

Ölkələrindəki siyasi, iqtisadi və sosial proseslərin gedişinə dair aparılmış danışıqlar və fikir mübadiləsi zamanı ikitərəfli əməkdaşlığın daha da inkişafı və dərinləşməsi məsələləri, qarşılıqlı maraq kəsb edən aktual regional və beynəlxalq problemlər müzakirə olunmuşdur.

Tərəflər iki dövlət arasındakı strateji tərəfdaşlığa əsaslanan ikitərəfli əlaqələrin yüksək səviyyəsini məmnuniyyətlə təsdiq etmişlər.

Tərəflər beynəlxalq hüquq normalarına uyğun olaraq müstəqil, suveren, demokratik Azərbaycan və Gürcüstan dövlətlərinin qurulmasında, habelə XXI əsrdə dövlətlərarası münasibətlərin keyfiyyətcə yeni səviyyəsinin inkişafı üçün qarşılıqlı surətdə maraqlı olduqlarını qeyd etmişlər.

Tərəflər XXI əsrdə ayırıcı xətlərsiz Avropanın qurulmasının tarixi zəruriliyini təsdiq etmişlər.

Tərəflər yeni beynəlxalq reallıqlar şəraitində regionda sabitliyin əsaslarının təmin edilməsi və təhlükəsizliyin yeni sisteminin formalaşdırılması prosesinə yardım edilməsi baxımından Azərbaycan-Gürcüstan əməkdaşlığının möhkəmləndirilməsinin artmaqda olan əhəmiyyətini qeyd etmişlər.

Tərəflər əmin olduqlarını bildirmişlər ki, dövlət suverenliyi, hüquq bərabərliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, bir-birinin daxili işlərinə qarışmamaq, mübahisələrin sülh yolu ilə həll olunması prinsiplərinə, habelə hamı tərəfindən tanınmış digər beynəlxalq hüquq normaları və prinsiplərinə riayət olunması Cənubi Qafqaz regionunda sülhün və təhlükəsizliyin təminatıdır.

Tərəflər region dövlətlərinin beynəlxalq miqyasda tanınmış sərhədlərinin zorla dəyişdirilməsinə yönəlmiş, dövlətlərin təhlükəsizliyini və ərazi bütövlüyünü təhlükə altına alan, insan hüquqları və əsas azadlıqlarını, demokratiya prinsiplərini və ümumbəşəri dəyərləri sarsıdan təcavüz aktlarını, təcavüzkar separatizmi və terrorizmin bütün forma və təzahürlərini pisləmiş və bu təhlükələrə qarşı mübarizədə birgə fəaliyyəti inkişaf etdirmək arzusunda olduqlarını bildirmişlər.

Qeyd olunmuşdur ki, Azərbaycan Respublikası və Gürcüstan arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyin möhkəmləndirilməsi haqqında 8 mart 1996-cı il tarixli müqavilə, 8 mart 1996-cı il tarixdə Tbilisidə imzalanmış Qafqaz regionunda sülh, təhlükəsizlik və əməkdaşlıq haqqında bəyannamə, Azərbaycan Respublikası və Gürcüstan arasında strateji əməkdaşlığın daha da dərinləşdirilməsi haqqında 18 fevral 1997-ci il tarixli bəyannamə qarşılıqlı münasibətlərin möhkəm bazasını təşkil edir və Cənubi Qafqaz regionunda sülhün və təhlükəsizliyin təmin olunmasına yönəldilmiş əsaslı sənədin hazırlanması üçün zəmin yaradır. Tərəflər Azərbaycan Respublikasının prezidenti H.Ə.Əliyevin Cənubi Qafqazda Təhlükəsizlik və Əməkdaşlıq Paktı haqqında ATƏT-in İstanbul sammitində irəli sürdüyü təklifi və ATƏT-in İstanbul sammitinin nəticələrini yüksək qiymətləndirmiş, habelə XXI əsrdə Avropada Təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsinə yönəldilmiş Avropa Təhlükəsizlik Xartiyasının və sammitin keçirildiyi zaman qəbul olunmuş digər sənədlərin mühüm əhəmiyyətini qeyd etmişlər.

Tərəflər BMT, ATƏT, Avroatlantika Əməkdaşlıq Şurası, Avropa Şurası, MDB və digər beynəlxalq təşkilatlar və forumlar çərçivəsində əməkdaşlığı gələcəkdə də davam etdirməyə hazır olduqlarını bildirmiş və Avropa təhlükəsizliyinin yeni strukturunun səmərəliliyinin, hər şeydən əvvəl, bütün dövlətlər tərəfindən götürülmüş öhdəliklərin lazımi şəkildə yerinə yetirilməsindən, ATƏT, Avropa Şurası, Avroatlantika Əməkdaşlıq Şurası, Avropa Birliyi, NATO, BMT arasında qarşılıqlı fəaliyyət mexanizmlərinin yaradılmasından asılı olacağını təsdiq etmişlər.

Tərəflər Dağlıq Qarabağ münaqişəsi və Gürcüstanda Abxaziya münaqişəsi üzrə BMT və ATƏT-in qərarlarının və bu təşkilatlar çərçivəsində qəbul olunmuş digər sənədlərin tezliklə həyata keçirilməsinin zəruriliyini təsdiq etmişlər. Tərəflər qəti əmin olduqlarını bildirmişlər ki, bu münaqişələrin həlli dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərin toxunulmazlığına hörmət və riayət edilməsinə əsaslanmalıdır və Cənubi Qafqaz dövlətləri arasında sülhün, sabitliyin və etimadın əldə olunması üçün etibarlı təminat yaradacaqdır.

Tərəflər GUÖAM çərçivəsində əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsindən məmnun olduqlarını bildirmiş və müntəzəm məsləhətləşmələr və qarşılıqlı fəaliyyət mexanizmlərini təkmilləşdirmək və möhkəmləndirmək niyyətində olduqlarını təsdiq etmişlər.

Tərəflər Avrasiya nəqliyyat dəhlizinin tam miqyaslı fəaliyyətinin, böyük İpək yolunun bərpası, TRASEKA və İNOGEYT proqramlarının reallaşdırılmasının tezləşdirilməsi məqsədi ilə birgə əməli tədbirlərin həyata keçirilməsinin müstəsna əhəmiyyətini qeyd etmişlər.

Danışıqlar zamanı prezidentlər Xəzər regionundan neftin nəqlində əsas ixrac neft boru kəməri kimi Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin tikilməsi və istismara verilməsi üzrə, o cümlədən tranzit üçün tariflər üzrə bütün əsas prinsipial məsələləri tamamilə razılaşdırmış və cari ilin aprel ayında bütün zəruri sənədlərin hazırlanmasının başa çatdırılmasına tam hazır olduqlarını təsdiq etmişlər.

Tərəflər enerji daşıyıcılarının beynəlxalq bazarlara nəqli üzrə Transxəzər əməkdaşlığı prosesinin hərtərəfli inkişafı və dərinləşdirilməsində maraqlı olduqlarını bildirmişlər.

Prezidentlər Qara dəniz İqtisadi Əməkdaşlığının inkişafını müsbət qiymətləndirmiş və bu təşkilatın institusional cəhətdən möhkəmləndirilməsi üzrə görülmüş tədbirlərin vacibliyini qeyd etmişlər.

Tərəflər demokratik dəyişikliklərə, insan hüquqlarının qorunmasına, milli azlıqların hüquqlarına hörmət edilməsinə, BMT və ATƏT-in əsas sənədlərindən irəli gələn bütün öhdəliklərin yerinə yetirilməsinə sadiq olduqlarını bir daha təsdiq etmiş və hüquqi demokratik dövlətlər qurmaq əzmində olduqlarını qeyd etmişlər.

Tərəflər Azərbaycan Respublikası ilə Gürcüstan arasında dövlət sərhədinin delimitasiya və demarkasiyasının mühüm əhəmiyyətini qeyd etmiş və dövlət komissiyalarının işinin davam etdirilməsinin zəruriliyini təsdiq etmişlər.

Tərəflər təhsil, elm və mədəniyyət məsələləri üzrə əməkdaşlığın inkişafı və dərinləşməsində səyləri və hərtərəfli mübadilələri dəstəklədiklərini ifadə etmişlər.

Tərəflər iqtisadiyyatın bütün sahələrində qarşılıqlı faydalı əməkdaşlığın inkişafına kömək etmək, həmçinin bu əməkdaşlıq üçün əlverişli şəraitin təmin olunmasına dair tədbirlər həyata keçirmək əzmində olduqlarını təsdiq etmişlər.

Tərəflər Gürcüstanda yaşayan azərbaycanlıların və müvafiq olaraq, Azərbaycanda yaşayan gürcülərin hüquqlarına riayət olunması və mənafelərinin qorunması məsələlərinə böyük əhəmiyyət verdiklərini və onlara qayğı göstərilməsini dövlət siyasətinin mühüm sahəsi hesab etdiklərini bir daha təsdiq etmişlər.

Tərəflər həyata keçirilmiş səfərin nəticələrini müsbət qiymətləndirərək və danışıqların səmərəli xarakterini qeyd edərək, əməkdaşlığın mehriban qonşuluq, dostluq və qarşılıqlı yardım ruhunda davam etdirilməsinə və genişləndirilməsinə səy göstərəcəklərini bəyan etmişlər.

Tbilisi şəhərində 22 mart 2000-ci il tarixdə, hər biri Azərbaycan, gürcü və rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

| | |
|---|---|
| **Azərbaycan Respublikasının Prezidenti** | **Gürcüstan Prezidenti** |
| **Heydər Əliyev** | **Eduard Şevardnadze** |

* * *

S u a l: (*Gürcüstan televiziyasının 1-ci kanalı*): **Sual hər iki prezidentədir. Tariflər üzrə razılaşma əldə olunduğu barədə sizin bəyanatlarınızla əlaqədar xahiş edirəm dəqiqləşdirəsiniz - konkret olaraq hansı tarif barədə qərar qəbul edilmişdir?**

**E d u a r d Ş e v a r d n a d z e:** Tariflər elə tariflərdir. Bakı–Tbilisi–Ceyhan neft kəməri çəkilir və tariflərin səviyyəsi də, təbii olaraq, bu kəmərin gücü, buraxılış qabiliyyəti nəzərə alınaraq müəyyən ediləcəkdir. Biz normalar barəsində razılığa gəldik.

O ki qaldı daha konkret rəqəmlərə və konkret faktlara, biz Heydər Əliyeviçlə sabah, yaxud birisi gün xüsusi mətbuat konfransı keçirmək barədə razılığa gəlmişik. Məsələlərin bütün təfərrüatı, bütün kompleksi bu mətbuat konfransında ictimaiyyətin nəzərinə çatdırılacaqdır.

**H e y d ə r Ə l i y e v:** Tarifin nə demək olduğu aydındır və yəqin ki, onu izah etməyə ehtiyac yoxdur. Söhbət neft kəməri çəkilən ölkənin ərazisi ilə neft göndərilməsinə görə tranzit xidmətlərindən gedir. Bu neft kəməri çox uzundur, təxminən 1800 kilometrdir, Bakıdan başlayıb Tbilisidən keçərək Türkiyənin Ceyhan limanınadək gedəcəkdir. Eduard Amvrosiyeviçin dediyi kimi, tariflərin dəyəri də hər ölkənin ərazisində neft kəmərinin uzunluğundan asılı olaraq müəyyən edilir. Buna görə də nəqlə görə tarifləri, yəni onların ərazilərindən çəkilmiş boru ilə neftin keçməsinə görə gəliri həm Azərbaycan, həm Gürcüstan, həm də Türkiyə öz ərazilərindəki boruların gücünə və uzunluğuna uyğun olaraq almalıdırlar.

İstanbulda əsas saziş imzalandıqdan sonra çoxsaylı danışıqlar aparıldı. Bəzi əməli məsələləri həll etmək üçün Türkiyədə, Azərbaycanda, Tbilisidə danışıqlar keçirildi. Məsələlər həqiqətən mürəkkəb idi. Lakin Azərbaycan, Gürcüstan və Türkiyə ekspertləri onları işləyib hazırladılar. Gürcüstan üçün tariflər məsələsi həll edilməmiş

qalırdı. Burada açıq demək lazımdır ki, Gürcüstan daha böyük tariflər iddiasında idi. Amma bütün boru kəməri üzrə tariflərin ümumi dəyəri dəyişdirilə bilməz.

Biz çox müzakirə etdik və gizlətmirəm, buraya gəlməzdən əvvəl mən ekspertlərimizi yanıma çağırıb, onlara məsələnin həlli yolunu tapmağı tapşırdım, çünki biz buna görə layihənin həyata keçirilməsini ləngidə bilmərik. Bundan əlavə, bu məsələ ətrafında xoşagəlməz çox söhbətlər gedirdi.

Ekspertlərimiz gəlib mənə dedilər ki, məsələnin həllini tapmaq mümkündür. Necə? Deyirlər ki, biz Azərbaycan üçün tranzit tariflərindən Gürcüstanın xeyrinə imtina etməliyik. Mən qərar qəbul etməli idim və qəbul etdim. Bununla da hər şey qurtardı. Beləliklə, bunun ümumi işimiz olduğunu, neft kəmərinin inşasına tezliklə başlamalı olduğumuzu nəzərə alaraq, Azərbaycan öz ərazisi ilə tranzit üçün ona düşən tarifləri Gürcüstana güzəştə getdi.

**E d u a r d  Ş e v a r d n a d z e:** Mətbuat konfransında adətən əl çalmırlar, lakin, gəlin bu ənənəni pozaq.

**S u a l** (*«Yeni Azərbaycan» qəzeti*)**: Sual cənab Şevardnadzeyədir. Sizin özünüzün dəfələrlə nəzərə çarpdırdığınız kimi və ən yeni tarixin sübut etdiyi kimi, Gürcüstanda yaşayan azərbaycanlılar sizin ən sadiq elektoratınızdır. Dünən siz Marneuli rayonunda olmusunuz. Cənab Şevardnadzenin indiki platforması Gürcüstanda əsrlərdən bəri yaşayan azərbaycanlıların vəziyyətinin daha da yaxşılaşması üçün nə vəd edir?**

**E d u a r d  Ş e v a r d n a d z e:** Gürcüstanda yaşayan bütün vətəndaşların tam hüquq bərabərliyini Konstitusiya təmin edir. Biz Konstitusiyamızın hər bir bəndinə, hər bir ifadəsinə, hər bir sözünə əməl olunmasına ciddi göz qoyuruq.

O ki qaldı azərbaycanlıları narahat edən bəzi problemlərə, bu problemlər gürcüləri də, ermənilər də, yunanları da, kürdləri də, ərazimizdə yaşayan bütün başqalarını da narahat edir. Bunlar, başlıca olaraq, sosial problemlərdir – pensiyaların ödənilməsi problemləridir. Təəssüf ki, biz pensiyaları çox gec ödəyirik. Əmək haqqının, xüsusən müəllimlərin əmək haqqının ödənilməsi ilə bağlı problemlər, bəzi digər problemlər də var.

Bununla yanaşı, biz gücümüz çatan problemləri həll etmişik, özü də pis həll etməmişik. Kənddə, hətta şəhərdə yaşayan hər bir vətəndaş torpaq sahibi olmuşdur. Torpaq sahibi olmaq hüququ haqqında şəhadətnamələri mən özüm təqdim etmişəm. Marneuli rayonunun və digər rayonların bütün sakinləri - azərbaycanlılar da, ermənilər də, gürcülər də bu hüquqa malikdirlər.

Məşğulluq sahəsində müəyyən işlər görülmüşdür. İndi vəziyyət ümumən yaxşılaşır. Hərçənd, Marneuli rayonunda bəzi problemlər var. Dünən mən fəallar qarşısında çıxış etdim və belə bir fikir söylədim ki, biz Marneuli rayonunun sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması sahəsində bir neçə il üçün tədbirlər işləyib hazırlamalıyıq. Rayon çox böyükdür, əhalisi çoxdur, məşğulluq problemi var və biz onu həll edəcəyik.

Azərbaycan məktəbləri fasiləsiz fəaliyyət göstərir. Uşaqların Azərbaycan dilində təhsil aldığı 187 məktəbimiz var. Bu məktəblərin hamısı kadrlarla təmin edilmişdir, ali məktəblərimizdə kadrlar hazırlayan fakültələr fəaliyyət göstərir, lakin gənclərin müəyyən qismi Bakıda və Azərbaycanın digər şəhərlərində hazırlıq keçirlər.

Daha bir məsələ barəsində. Milliyyətcə azərbaycanlı vətəndaşların özlərinin təşəbbüsü ilə biz tədris proqramına xüsusi fənn - dövlət dilinin öyrədilməsi fənni daxil etmişik. Dövlət dilini bilməyən adamlara dövlətin, elmin və başqa sahələrin idarə olunmasında iştirak etmək təbii ki, çətindir. Buna görə də deməliyəm ki, öz uşaqlarını doğma Azərbaycan dilində oxutmaq hüququna malik olan və bu imkanla real surətdə təmin edilmiş azərbaycanlı əhali əlavə olaraq dövlət dilini də öyrənmək öhdəliyi götürmüşdür. Biz onlara bu işdə də kömək edirik.

Parlamentimizin deputatı seçilmiş azərbaycanlılar qanunvericilik hakimiyyətinin işində fəal iştirak edirlər, bəziləri bir sıra nazirliklərdə və baş idarələrdə vəzifələrə irəli çəkilmişlər, tədricən irəli çəkiləcək perspektivli adamların kifayət qədər uzun bir siyahısı var. Vəziyyət bax, belədir.

**S u a l** (*Gürcüstan*)**: Sual cənab Əliyevədir. Cənab Prezident, Siz Dağlıq Qarabağda Qukasyana qarşı edilmiş terroru necə qiymətləndirirsiniz? Bu, radikal qüvvələrin hakimiyyəti ələ keçirmək cəhdidir, yoxsa əksinə? Yoxsa, bu, siyasətlə, hakimiyyətlə bağlı deyildir? Bu, Dağlıq Qarabağda münaqişənin nizama salınmasına, bütövlükdə Cənubi Qafqazın təhlükəsizliyinə necə təsir göstərə bilər? Sağ olun.**

**H e y d ə r  Ə l i y e v:** Bilirsiniz, Dağlıq Qarabağda Qukasyana qarşı həyata keçirilmiş terror aktı barədə mən yalnız bu gün səhər xəbər tutdum. Onun təfərrüatı mənə məlum deyildir. Buna baxmayaraq, terror terrordur və ona hər hansı izahat verməyə lüzum yoxdur.

Bunun Ermənistan–Azərbaycan münaqişəsi, Dağlıq Qarabağ münaqişəsi probleminin həlli üçün nə kimi əhəmiyyəti olacağına gəldikdə, bunları deyə bilərəm: Azərbaycanda biz Ermənistan–Azərbaycan münaqişəsinin dincliklə nizama salınmasının təmin edilməsi barədə qəti mövqe tutmuşuq. Bu, nə deməkdir? Bu o deməkdir ki, Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş və ancaq azərbaycanlılar yaşamış rayonlarından çıxmalıdırlar, Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir və Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində ən yüksək özünüidarə statusu verilə bilər. Bu məsələnin dincliklə həllinin formulu belədir. Bununla əlaqədar biz artıq neçə illərdir danışıqlar aparırıq. Son vaxtlar bilavasitə Ermənistan prezidenti Robert Koçaryanla mənim bir neçə görüşüm və danışıqlarım olmuşdur.

Bilirsiniz ki, oktyabrın 27-də Yerevanda daha ağır terror aktı törədilmişdir. Onda olduğu kimi, indi də Azərbaycan bütün bu işlərə qarışmamaq mövqeyi tutur.

Deməliyəm ki, 1991–93-cü illərdə, Azərbaycanda daxili siyasi vəziyyətin qeyri-sabit olduğu, müxtəlif qanunsuz silahlı dəstələrin hakimiyyət uğrunda mübarizə apardığı dövrdə və 1993-cü ilin əvvəllərində ölkəmizdə əslində vətəndaş müharibəsinin başlandığı vaxtda Ermənistan silahlı qüvvələri bu vəziyyətdən, yəni Azərbaycandakı qeyri-sabitlikdən istifadə edərək, Azərbaycanın bəzi rayonlarını işğal edə bildilər. Yeri gəlmişkən, onların özləri də həmin dövrdə bu vəziyyətdən istifadə etdiklərini danmırlar.

Biz heç vaxt belə mövqe tutmamışıq və tutmayacağıq. Biz atəşkəs haqqında 1994-cü il tarixli sazişimizə sadiqliyi saxlayırıq və atəşkəs rejiminin pozulmasına yönəldilmiş hər hansı hərəkətə öz tərəfimizdən yol verməyəcəyik, xüsusən də Ermənistan üçün bu mürəkkəb dövrdə.

Biz başa düşürük ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli Ermənistanda da, Azərbaycanda da tam sabitlik şəraitində mümkün ola bilər. İndi Azərbaycanda bu sabitlik tamamilə təmin edilmişdir. Ermənistanda isə, bildiyiniz kimi, oktyabr terror aktından sonra müəyyən dəyişikliklər baş vermişdir. Təbii ki, Dağlıq Qarabağda Qukasyana qarşı terror aktının da öz mənfi nəticələri ola bilər. Lakin arzu edirik ki, bu mənfi nəticələr mümkün qədər tez aradan qaldırılsın, münaqişənin dinckliklə nizama salınmasına dair danışıqları davam etdirə bilməyimiz üçün Ermənistanda, Dağlıq Qarabağda sabitlik bərqərar olsun.

**S u a l** *(«Azadlıq» radiosunun rus xidməti)*: **Sual cənab Şevardnadzeyədir. Eduard Amvrosiyeviç, Rusiya Federasiyası prezidentinin seçkilərində Vladimir Putin qalib gələrsə, Rusiyanın və Cənubi Qafqaz ölkələrinin qarşılıqlı münasibətlərinin perspektivləri, sizcə, necə olacaqdır? Siz Rusiya dövlətinin yeni başçısından konkret olaraq nə gözləyirsiniz?**

**Şəxsən siz Gürcüstanda qarşıdakı prezident seçkilərində müvəffəqiyyət qazanmaq imkanlarınızı necə qiymətləndirirsiniz? Siz birinci dövrəsində qalib gəlmək niyyətindəsinizmi, yoxsa, fikrinizcə, ikinci dövrə labüddür? Sağ olun.**

**E d u a r d Ş e v a r d n a d z e:** MDB ölkələrinin bütün prezidentləri Moskvada zirvə görüşündə olarkən Vladimir Putinlə görüşdülər. Kollektiv görüşlərdən sonra fərdi görüşlər, söhbətlər oldu. Mənim də belə söhbətim oldu. Təsadüfi deyil ki, sonra, demək olar, bütün prezidentlər mətbuat konfransında çıxış edərək öz münasibətini, öz mövqeyini açıqladılar. Biz hamımız – digər müstəqil dövlətlərin nümayəndələri Rusiyanın siyasətində daha böyük realizm olacağına ümid bəsləyərək və inanaraq Vladimir Vladimiroviç Putini bacardığımız qədər dəstəklədik.

O ki qaldı bizim Cənubi Qafqaz ölkələrinə, xüsusən Azərbaycana və Gürcüstana, bir daha çox qarşılıqlı anlaşmaya, dövlətlərimizin suverenliyinə, müstəqilliyinə hörmət ediləcəyinə ümid bəsləyirik. Burada problemlər var. Məsələn, hələ 1994-cü ildə imzalanmış böyük müqavilə Rusiyada indiyədək ratifikasiya edilməmişdir. Başqa problemlər də var. Əlbəttə, indi bunların hamısını konkretləşdirməyə vaxt yoxdur.

Mən cənab Putinlə söhbət etdim və məndə elə təsəvvür yarandı ki, o, Cənubi Qafqaz ölkələri ilə, o cümlədən Gürcüstanla və yaqin Azərbaycanla da münasibətlərin yaxşılaşmasına, tamamilə sağlamlaşmasına nail olmağı ürəkdən istəyir. Heydər Əliyeviç onunla söhbət etmişdir.

Zənnimcə, cənab Putin prezident seçiləcəkdir. Mən münasibətlərimizdə müsbət dəyişikliklər yaranacağına çox ümid bəsləyirəm. Biz Rusiya ilə əməkdaşlığa – iqtisadiyyatda da, siyasətdə də, beynəlxalq təşkilatlarda da, hər cəhətdən əməkdaşlığa həvəs göstəririk. Amma tam hüquq bərabərliyi və ölkələrimizin müstəqilliyinə hörmət edilməsi şərti ilə.

O ki qaldı mənim Gürcüstan prezidenti seçilməyimin perspektivlərinə, bu perspektivlər var. Mən bu barədə dəfələrlə demişəm, hər halda, mən əminəm, başqalarını bilmirəm.

Siyasətimizdə hər hansı köklü dəyişikliklər baş verəcəkmi? Xarici siyasətə, ən yaxın qonşularımızla, Rusiya, Qərb ölkələri, Avropa strukturları ilə münasibətlərə gəldikdə, zənnimcə, biz mövqeyimizi, mənafelərimizi, coğrafi-strateji mənafelərimizi kifayət qədər dəqiq ifadə etmişik. Biz yanılmamışıq. Bu siyasət bütün dünyada realist siyasət kimi tanınmışdır və biz müəyyən nüfuza malikik.

O ki qaldı daxili problemlərə, bəli, burada dəyişikliklər - yaxşılığa doğru dəyişikliklər olacaqdır. Biz iqtisadiyyatın inkişafına, sosial sahədə vəziyyətin yaxşılaşmasına daha çox diqqət yetirəcəyik. Mən pensiyaların, əmək haqqının ödənilməsi ilə bağlı problemlərdən və başqa məsələlərdən danışdım. Büdcə ilə bağlı problemlər də var. Bütün bu problemlərin həlli daxili işlərimizdə, daxili siyasətimizdə bizim üçün öncül istiqamət olacaqdır.

Birisigün məni dəstəkləyənlər – vəkillərim və başqaları qarşısında çıxış edəcəyəm. Mən öz proqramımı açıqlamaq fikrindəyəm. Zənnimcə, proqramım diqqətəlayiqdir.

## GÜRCÜSTAN İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*Tbilisi,*
*Z.Paliaşvili adına Tbilisi Dövlət Opera və Balet Teatrı*

*22 mart 2000-ci il*

Əziz prezident, əziz dostum, əziz Eduard Şevardnadze!

Hörmətli xanımlar və cənablar, dostlar!

Sizi, bütün gürcü xalqını, gözəl Gürcüstanın bütün vətəndaşlarını ən səmimi və xoş arzularla ürəkdən salamlayıram!

Bu gözəl məmləkətdə - qardaş Gürcüstanda yenidən olmağımdan çox böyük fərəh hissi duyuram. Mən isə buraya dostum və qardaşım, prezident Eduard Şevardnadzenin dəvəti ilə rəsmi səfərə gəlmişəm.

Mən buraya xalqlarımıza, ölkələrimizə, regionumuza aid məsələləri bir daha və yenidən müzakirə etməyə gəlmişəm. Lakin təkcə bunun üçün gəlməmişəm.

Bu gün, Gürcüstan torpağına qədəm qoyduğumuz andan böyük diqqətlə, heyrətamiz qonaqpərvərlik və mehribanlıqla əhatə olunmağımızla əlaqədar mən çox böyük məmnunluq hissi keçirirəm.

Ona görə çox böyük məmnunluq hissi keçirirəm ki, dostum Eduard Şevardnadze ilə bir çox məsələlər barəsində yenidən səmimiyyətlə, qardaşcasına fikir mübadiləsi apardıq və bir daha yəqin etdik ki, biz sadəcə dostlar deyilik, iki qardaş xalqın, qardaş ölkələrin başçılarıyıq, xalqlarımızın milli mənafeləri ilə, dövlətlərimizin müqəddəratı ilə bağlı məsələlərdə eyni mövqelərdəyik.

Əziz dostum, Gürcüstana rəsmi səfərə gəlmək dəvətinə görə, bu gün sizinlə gördüyümüz böyük və səmərəli işə görə, heyrətamiz qonaqpərvərliyə və mehribanlığa görə sizə ürəkdən təşəkkür edirəm. Çox sağ olun.

Bu gün biz bir çox məsələləri müzakirə etdik. Hər şeydən öncə, ölkələrimizin, dövlətlərimizin indisinə və gələcəyinə aid məsələləri müzakirə etdik. Yenə də belə bir yekdil rəyə gəldik ki, biz xoşbəxt adamlarıq, gürcü xalqı da, Azərbaycan xalqı da xoşbəxtdirlər ki, milli azadlıq, dövlət müstəqilliyi əldə etmişlər, Dünya Birliyinin tam hüquqlu üzvləri olmuşlar və bu yolla uğurla irəliləyirlər.

Xalqlarımızın tarixi zəngindir, gürcü xalqı da, Azərbaycan xalqı da zəngin mədəniyyətə, zəngin ənənələrə və özünəməxsusluğa malik qədim xalqlardır. Biz əsrlərin çətin sınaqlarından çıxmışıq. İndi, XX əsrin sonunda əldə etdiyimiz imkana– azad və müstəqil olmaq imkanına əvvəllər heç zaman malik olmamışıq.

Biz Eduard Şevardnadze ilə saysız-hesabsız söhbətlər aparmışıq. Yeri gəlmişkən, Azərbaycan prezidenti kimi mənim bütün prezidentlik fəaliyyətim ərzində elə bir dostum olmayıb ki, onunla Eduard Şevardnadze ilə görüşdüyüm qədər görüşmüş olum. Belə ki, söhbətlərimizdə biz xalqlarımızın – Gürcüstanın və Azərbaycanın milli mənafelərinə aid problemlərdə, inkişafımızın perspektivlərinə, gələcəyimizə aid problemlərdə tam həmfikirik.

Xalqlarımız sıx dostluq telləri ilə həmişə bağlı olmuşlar. Biz gürcü və Azərbaycan xalqlarının qonşu kimi yaşadıqları bütün tarix ərzində onların dostluğunu sübut edən minlərlə fakt, misal göstərə bilərik. Xalqlarımızın ən böyük nailiyyəti ondan ibarətdir ki, gürcülərlə azərbaycanlılar arasında heç zaman heç bir münaqişə, mübahisə, inciklik olmayıbdır. Bu, heyrətamiz haldır. Ola bilsin ki, dünyada belə şeyə nadir halda rast gəlinir.

Təbii ki, bütün bunlar gürcü və Azərbaycan xalqlarının təbiəti, qəlbi ilə bağlıdır. Ona görə də əcdadlarımız bizə böyük bir sərvət - dostluq, şərəfli, səmimi dostluq, qardaş dostluğu irs qoymuşlar. Biz bir regionda, qonşuluqda yaşayaraq, bir-birimizi həmişə dəstəkləmişik və bir-birimizin uğurlarına həmişə sevinmişik.

Bu keçmişdir, bu, gürcü və Azərbaycan xalqlarının ən yaxşı adamlarının yaratdıqları tarixdir. Lakin indi biz ölkələrimizin, xalqlarımızın tarixinin yeni mərhələsindəyik,- dediyim kimi, dövlət müstəqilliyi mərhələsindəyik.

Bəli, biz dövlət müstəqilliyi əldə etmişik. Onu bizə tale bağışlamışdır. Ancaq bu müstəqilliyi qoruyub saxlamaq, ölkəni həqiqətən suveren, azad etmək artıq talenin deyil, xalqların işidir, xalqların iradəsidir. Əlbəttə, bu iş xeyli dərəcədə bu xalqların liderlərindən asılıdır.

Bu gün iftixar hissi ilə demək olar ki, bütün bu müstəqillik illəri ərzində Gürcüstan, gürcü xalqı çox böyük çətinlikləri və maneələri, kənardan təzyiqi, ölkənin daxilindəki ağır prosesləri, vətəndaş müharibəsini və bir çox hadisələri dəf edərək, abxaz və osetin münaqişələrindən keçərək ağır sınaqlardan çıxdı və indi Gürcüstanda gözəl, sabit ictimai-siyasi vəziyyət hökm sürür. Bütün insanlar ölkəni necə daha da yaxşılaşdırmaq, öz müstəqilliyini necə daha da möhkəmlətmək barədə düşünürlər.

Eyni hadisələr Azərbaycanda da baş vermişdir və baş verir. Xalqlarımızın, dövlətlərimizin taleləri keçmişdə də bir çox cəhətdən oxşar olmuşdur. Lakin biz dövlət müstəqilliyi əldə etdikdən sonra ölkələrimizin taleləri xüsusilə oxşar olmuşdur. Yəni biz, demək olar, eyni mürəkkəb və çətin problemlərlə qarşılaşmışıq.

Azərbaycan hələ dövlət müstəqilliyi əldə etməzdən əvvəl hərbi münaqişə ilə, Ermənistanın Azərbaycan ərazisinin bir hissəsini - Dağlıq Qarabağı qoparıb, özünə birləşdirmək cəhdi ilə qarşılaşmışdır. Bu cəhd Ermənistan tərəfindən Azərbaycana qarşı hərbi təcavüzə gətirib çıxardı, müharibə getdi. Qan töküldü, müxtəlif səbəblər üzündən Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin 20 faizini – Dağlıq Qarabağı və onunla həmsərhəd rayonları işğal etdi, işğal olunmuş rayonlardan bir milyondan çox azərbaycanlını zorla qovdu. Bu insanlar artıq neçə illərdir çox ağır şəraitdə, əksəriyyəti də çadırlarda yaşayır.

Bu gün Tbilisidə narın yağış yağır. Biz gələndə başımızın üstünə çətir tutmuşduq, çünki yağmurlu havadır və gərək özünü qoruyasan. Ancaq təsəvvür edin, çadırlarda yaşayan adamlarımız yağış, qar yağanda, qışın şaxtasında, yayın qızmarında, istisində nələr çəkirlər. Siz onların şəraitinin necə ağır olduğunu təsəvvür edirsinizmi?

Bütün bunlara baxmayaraq, 1994-cü ildə biz atəşkəs haqqında saziş bağladıq və münaqişənin sülh yolu ilə aradan qaldırılmasına çalışırıq, əlbəttə, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi, işğal altındakı ərazilərin azad olunması, insanların öz əvvəlki yaşayış yerlərinə qayıtması və təbii ki, Dağlıq Qarabağa ən yüksək özünüidarə statusu verilə biləcəyi şərtilə.

Gürcüstan da, demək olar, eyni problemlə qarşılaşmışdır - abxaz münaqişəsi, ağır şəraitdə yaşayan nə qədər qaçqın var, osetin münaqişəsi və bir çox digər hallar.

Lakin bu, hamısı deyildir. Ölkələrimiz – Gürcüstan da, Azərbaycan da müstəqillik, suverenlik barədə möhkəm mövqe tutaraq, öz məsələlərini öz xalqlarının milli mənafeləri xeyrinə həll edərək, kənardan müxtəlif qüvvələrin təzyiqinə məruz qalırlar. Daxili vəziyyəti sabitləşdirməyimiz Gürcüstan üçün də, Azərbaycan üçün də çox böyük nailiyyətdir. Belə ki, əgər ölkələrimizdə normal şərait olmasa, - biz isə belə şəraitin olmadığı dövrü yaşadıq, - əgər sabitliyə nail olmasaydıq, onda, əlbəttə, biz sosial və iqtisadi məsələləri həll edə, hüquqi, demokratik, dünyəvi dövlət qura, iqtisadi islahatlar apara, ölkələrimizin inkişafı üçün xarici sərmayələri cəlb edə bilməzdik və bundan sonra da cəlb edə bilmərik. Yəni öz ölkələrimizin müstəqilliyini möhkəmlətməklə və daxili həyatla bağlı vəzifəmizin bir hissəsini yerinə yetirmişik, amma Gürcüstan qarşısında da, Azərbaycan qarşısında da hələ çox problemlər durur.

Digər hissə – xarici qüvvələrdir. Bəli, biz müstəqil siyasət aparırıq və aparacağıq. Bütün bunlardan danışmaqda məqsədim bir daha onu deməkdir ki, bizi – məni və dostum Eduard Şevardnadzeni – Gürcüstan prezidentini, gürcü xalqının liderini – ilk öncə siyasi baxışlarımız, suverenlik, dövlət müstəqilliyi, onun qorunub saxlanması və möhkəmlənməsi problemlərində siyasi mövqeyimiz bağlayır.

Bir dəfə Eduard Amvrosiyeviç bəyan etmişdi ki, - bu, onun sözləridir, onları xatırlatmaq istəyirəm, - biz bir-birimizə and vermişik ki, bu yolla gedəcəyik, bu yoldan dönməyəcəyik və ölkələrimizi – Gürcüstanı və Azərbaycanı nəyin bahasına olursa-olsun müstəqil, azad, suveren və çiçəklənən ölkələr edəcəyik. Biz bunu etdik.

Bu, yeni şəraitdə həyatın bütün sahələrində əməkdaşlığımızı şərtləndirən zəmindir. Deməliyəm ki, bu insani əlaqələr, hazırda Gürcüstanla Azərbaycan arasında mədəniyyət, təhsil, iqtisadiyyat sahələrində mövcud olan əlaqələr digər gənc müstəqil ölkələr üçün örnəkdir. Bu, ona görə mümkün olmuşdur ki, xalqlarımız buna can atırlar, adamlarımız bunu istəyirlər. Bir də ona görə ki, biz - prezidentlər bu siyasəti aparırıq, öz xalqımızı məhz bu yola yönəldirik və bu da öz nəticələrini verir.

Bilirsiniz ki, Azərbaycan həm daxili, həm də xarici xarakterli böyük çətinlikləri dəf edərək, öz iqtisadiyyatının inkişafında iri addım atmışdır. Biz hələ 1995-ci ildə iqtisadi böhranın qarşısını aldıq. Bu böhran zamanı istehsalın səviyyəsi hər il 20-25 faiz aşağı düşürdü. 1996-cı ildən iqtisadi artım və buna müvafiq olaraq əhalinin gəlirinin artımı, ölkəmizin iqtisadiyyatının əsas sahələri inkişaf etməyə başlamışdır.

Bütün bunlar hər şeydən əvvəl iqtisadi islahatların nəticələri olmuşdur. Bununla bərabər, Xəzər dənizinin çox zəngin enerji ehtiyatlarını bütün dünyanın üzünə açaraq, böyük həcmdə sərmayələr cəlb edə bilməyimizin də çox böyük əhəmiyyəti var.

Açığını deyəcəyəm, Azərbaycan qədim neft ölkəsi kimi tanınır. Hələ 150 il bundan əvvəl Azərbaycanda, yeri gəlmişkən, dünyada ilk dəfə olaraq sənaye üsulu ilə neft çıxarılmağa başlanmışdır. Dənizdə neft hasilatına da dünyada ilk dəfə Azərbaycanda başlanmışdır. Lakin indiyə qədər hasil edilən malik olduğumuz çox zəngin neft və qaz ehtiyatlarının, xüsusən də dənizdəki ehtiyatların ancaq cüzi bir hissəsidir. Məhz müstəqillik şəraiti öz təbii sərvətlərimizin, öz taleyimizin sahibi olmağımıza və öz məsələlərimizi özümüzün həll etməyimizə imkan vermişdir.

Bu, asan olmamışdır. Bu, çətin idi. Lakin biz iradə, möhkəm xarakter nümayiş etdirdik və istədiyimizə nail olduq. Xəzər dənizindəki «Çıraq», «Azəri» və «Günəşli» yataqlarının işlənilməsi və neft hasilatı haqqında dünyanın 11 ən iri neft şirkəti ilə 1994-cü ildə ilk müqavilə imzalandı. Onu «Əsrin müqaviləsi» adlandırdılar və bu, həqiqətən belədir.

Sonra başqa müqavilələr bağlandı. Ötən beş ildə biz Xəzər dənizinin Azərbaycan sektorunda neft və qaz hasilatına dair 19 müqavilə imzalamışıq. Biz bunu öz sektorumuz daxilində etmişik. Ancaq bu, o qədər də asan olmamışdır. Ona görə ki, bizə mane olur, bunu etməyə imkan vermirdilər. Amma biz özümüzü öz taleyimizin sahibləri hesab edərək, seçdiyimiz yolla getdik.

Bununla yanaşı, biz Xəzər dənizinin, yəni onun digər sektorlarının da böyük imkanlarını bütün dünya üçün açdıq. Ona görə də hazırda Xəzər hövzəsi enerji ehtiyatlarının miqdarına görə dünya iqtisadiyyatında mühüm yer tutur, xarici sərmayədarların çox böyük diqqətini cəlb edir.

Biz bu məsələlərin həllinə başladıqda, təbii ki, hasil edəcəyimiz neft və qazın ixracı məsələləri də qarşıya çıxdı. Biz bu məsələlərdə də Gürcüstanla fəal əməkdaşlığa başladıq. Eduard Amvrosiyeviç indi bu barədə çox ətraflı danışdı.

Onun dediklərinin hamısı ilə razıyam. Amma mənim barəmdə lap çox danışması ilə o qədər də razı deyiləm. Hərçənd, onun dostluq hisslərini başa düşürəm və dostcasına söylədiyi sözlərə görə ona ürəkdən təşəkkür edirəm.

Biz əməkdaşlığın yeni mərhələsinə başladıq, özü də məhz Gürcüstanla başladıq. Təbii ki, Türkiyə ilə, Qərb ölkələri ilə də əməkdaşlıq edirdik. Çox keçmədi ki, bu əməkdaşlıq öz nəticələrini verdi. Biz Bakı–Supsa neft kəmərini çəkdik. Bu gün biz fikir mübadiləsi apararkən Gürcüstan Neft Şirkətinin prezidenti dedi ki, Bakı-Supsa neft kəmərinin tikintisinə təkcə Gürcüstan ərazisində 25 min adam cəlb edilmişdi. Yəni, bu adamlar işlə təmin olunmuşdular, əmək haqqı almışlar. Özü də yüksək əmək haqqı, hər biri orta hesabla 400 dollar almışdır.

Bu, yalnız tikinti dövründə olmuşdur. Bəs istismar dövrü? Bildiyiniz kimi, Poti limanı çox böyükdür, amma indi o, tamam başqa əhəmiyyət kəsb edir, çünki orada nəhəng neft terminalı var. Beləliklə, İpək yolu, - Eduard Amvrosiyeviç burada onun haqqında gözəl danışdı, - proqramının həyata keçirilməsi Azərbaycan kimi, Gürcüstanı da, həqiqətən, ümdə ölkəyə çevirmişdir.

Azərbaycan Şərqdən gələn İpək yolunun üstündə yerləşir. Gürcüstan da İpək yolunun üstündədir, bu yol Azərbaycan vasitəsilə Şərq ilə Qərbi birləşdirir. Azərbaycan Xəzər dənizində iri bir liman olaraq, Şərqdən Qərbə doğru gedən İpək yolu proqramının həyata keçirilməsi üçün qapıdır. Gürcüstan Qara dənizdəki limanları ilə Qərbi Şərqlə birləşdirmək üçün qapıdır. Bir sözlə, ölkələrimizin coğrafi mövqeyi, - şükürlər olsun ki, Allah bizi məhz burada yerləşdirmişdir, - çox əlverişli imkanlar yaradır. Lakin bu imkanlardan istifadə etmək, şübhəsiz, bizim işimizdir. Sevinc hissi ilə deyə bilərəm ki, Gürcüstan da, Azərbaycan da bu işin öhdəsindən gəlirlər.

İndi böyük layihələr həyata keçirilir. Bakı-Supsa boru kəməri işləyir. Cari ildə bu kəmərlə yəqin ki, yeddi milyon ton neft ixrac ediləcəkdir. Ancaq başlıcası, əlbəttə, Bakı-Tbilisi-Ceyhan ixrac boru kəməridir. Eduard Amvrosiyeviç bu barədə çox ətraflı danışdı. Yalnız onu əlavə edim ki, bəli, bu, XX əsrin sonunda ən iri layihədir, bəli, bu neft kəməri hələlik hazırda neft çıxardığımız yataqdan neftin ixracı üçün nəzərdə tutulmuşdur. Lakin illik gücü 50–60 milyon ton,- bunu gələcəkdə artırmaq da mümkündür, - bu kəmər sonra Xəzər dənizinin nəinki Azərbaycan sektorundan, həm də başqa sektorlarından neft ixracını təmin edəcəkdir. Hər halda, Qazaxıstan artıq bu layihəyə qoşulmuşdur və biz onu birlikdə həyata keçiririk.

Ötən ilin noyabrında İstanbulda təntənəli şəraitdə birlikdə sazişi imzalamağımız böyük işdir. Lakin bu gün çox böyük məmnunluq hissi ilə demək istəyirəm ki, bundan sonra bütün kommersiya məsələlərini qəti olaraq həll etmək, bu sazişləri Türkiyə, Gürcüstan, Azərbaycan parlamentlərinə ratifikasiyaya təqdim etmək və işə başlamaq üçün Türkiyə, Gürcüstan və Azərbaycan ekspertlərinin təfsilatlar, konkret məsələlər üzərində gərgin çalışmaları da böyük işdir.

Bu gün biz həmin məsələni müzakirə etdik. Çətinliklər çox idi. Türkiyə, Gürcüstan və Azərbaycan ekspertlərinin görüşü zamanı bu çətinliklər aradan qaldırılmışdı. Bir məsələ- Gürcüstan üçün tariflər məsələsi qalırdı. Layihədə müəyyənləşdirilmiş həmin mümkün tariflər üzrə- onlar Türkiyə, Gürcüstan və Azərbaycan üçün müvafiq surətdə bölüşdürülür,- əlbəttə, Gürcüstan daha böyük tariflərə malik olmaq istəyirdi. Amma bunu haradan götürməli? Axı tariflərin həddi müəyyənləşdirilib, layihəni sərmayələşdirən şirkətlər kiməsə daha çox tariflər verilməsi üçün əlavə vəsait ayırmayacaqlar.

Danışıqlar gedir, gedirdi. Lakin biz dostuq, dostlar isə bir-birini dəstəkləməlidir. Xalqlarımız dostdurlar, Şevardnadze ilə Əliyev dost, qardaşdır. Buna görə də, Eduard Amvrosiyeviçin, bayaq dediyim kimi, hələ bir həftə əvvəl, biz buraya gəlməyə hazırlaşarkən mən ekspertlərimizə məsələnin həlli yolunu tapmağı tapşırdım. Onlar gəlib mənə dedilər ki, məsələnin həlli yolunu tapmışlar. Soruşdum: necə? Onlar deyirlər: yolu budur ki, Azərbaycan öz tariflərini Gürcüstana güzəştə getməlidir. Soruşuram: bəs bunu necə etmək olar? Deyirlər: bu, Sizin – prezidentin iradəsidir. Deyirəm: yaxşı. Budur, bu gün mən bəyan etdim, əslinə qalsa, biz bunu birgə bəyanatımızda əks etdirmişik və indi sizə, bütün Gürcüstan vətəndaşlarına deyirəm: Azərbaycan tərəfi bu layihənin həyata keçirilməsi üçün yeni güzəştlərə getmişdir, bu neft kəməri üzrə öz tariflərini bütünlüklə Gürcüstana güzəştə getmişdir və beləliklə, biz bütün bu məsələlərin həllinə nöqtə qoymuşuq.

Bunu yalnız qardaşlar edə bilərlər. Biz isə qardaşıq. Gürcü və Azərbaycan xalqları əbədi olaraq qardaşdır və biz bu qardaşlıq münasibətlərini gələcək nəsillərə ötürəcəyik. Bu qardaşlığın bünövrəsini müasir dövrdə, hər halda, son 30 ildə ardıcıl surətdə biz - Eduard Şevardnadze və bəndəniz qoymuşuq.

Gürcüstan çox zəngin ənənələrə, çox zəngin mədəniyyətə malik ölkədir, özünəməxsusluğu ilə və təbii ki, zəngin ənənələri ilə bütün dünya ölkələrinin diqqətini bütün dövrlərdə cəlb etmiş ölkədir. XX əsr ölkələrimiz üçün – Gürcüstan və Azərbaycan üçün asan olmamışdır. Biz iki dünya müharibəsini, 70 illik sosializm quruluşu dövrünü yaşadıq, azadlığa çıxdıq və müstəqil olduq. Amma, zənnimcə, Gürcüstanın, gürcü xalqının son 30 ildə qazandığı uğurları Eduard Amvrosiyeviçin xidməti hesab etmək lazımdır. O, əvvəlki vaxtlarda, yaxın keç-

mişdəki ağır dövrdə olduğu kimi, bu gün də bütün dünyanın gözündə gürcü xalqının layiqli oğlu, öz millətinin layiqli nümayəndəsidir.

İndi Gürcüstanın və Azərbaycanın malik olduqları iqtisadi və intellektual potensial illərlə, bir çox nəsillər tərəfindən yaradılmışdır. Bilirəm ki, Gürcüstanda çox şey 70–80-ci illərdə, Eduard Şevardnadzenin Gürcüstan Respublikasına rəhbərlik etdiyi illərdə yaradılmışdır. Bunu inkar etmək və heç bir halda unutmaq olmaz.

Əgər bu potensial olmasaydı, onda, əlbəttə, Gürcüstan üçün də, Azərbaycan üçün də çox-çox çətin olardı. Odur ki, Eduard Amvrosiyeviçin xidməti gürcü xalqının tarixində çox böyük bir dövrdür.

Mən Eduard Amvrosiyeviçi 30 ildən artıqdır şəxsən tanıyıram. Yəni, biz keçmişdə nazir, sonra öz respublikalarımızın rəhbərləri olmuşuq. Daha sonra taleyin hökmü ilə hər ikimiz Moskvada işləmişik, Gürcüstan üçün çox ağır dövrdə, onun əslində dağıldığı, məhv edildiyi dövrdə isə Eduard Şevardnadze öz ölkəsinə, öz xalqının yanına qayıtdı və bütün bəlaları və çətinlikləri böyük zəhmət bahasına aradan qaldırdı, öz xalqını indiki səviyyəyə çıxartdı.

Bütün bu illərə bələdəm. Mən Azərbaycana Eduard Amvrosiyeviç Gürcüstana qayıdandan bir qədər sonra qayıtmışam. Lakin, hər halda, onun bütün bu 30 ildən artıq bir dövrdə öz xalqına necə sədaqətlə xidmət etdiyini və xidmət etməkdə olduğunu, öz xalqı üçün nə qədər böyük işlər görməyə necə çalışdığını və bu gün də çalışmaqda olduğunu bilirəm.

Müstəqilliyə bu yaxınlarda qovuşan ölkələrdə keçid dövrünün belə çox ağır şəraitində siyasi liderdən, onun bacarıq və qabiliyyətindən, istedadından, müdrikliyindən çox şey asılıdır. Gürcü xalqının xoşbəxtliyi ondadır ki, o illərdə də Gürcüstana Eduard Şevardnadze kimi belə müdrik, istedadlı siyasi xadim və dövlət xadimi başçılıq etmişdir, və müstəqillik dövründə də o, yenidən xalqına gərək olmuşdur. O, öz xalqının çağırışı ilə vətənə qayıtdı və böyük çətinliklərdən keçərək onu hamar yola çıxartdı.

Azərbaycanda biz Gürcüstanın həyatını diqqətlə izləyirik, - mən qardaşlıq duyğularımızı, qardaşlıq münasibətlərimizi nəzərdə tuturam. Eduard Amvrosiyeviçin keçmişdə öz xalqı üçün necə böyük işlər gördüyünü, indi də çox işlər görməkdə olduğunu bilirəm. Onu uzun illərdən bəri tanıyan, SSRİ-nin tərkibində yaşadığımız dövrün şəraitinə bələd olan, bir çox mürəkkəb problemlərlə qarşılaşdığımız son illərdə Qafqazdakı şəraitə bələd olan bir insan kimi sizə - qardaşlarıma, gürcü xalqına, bütün Gürcüstan vətəndaşlarına deyirəm: bu adamı qoruyun, onun kimi liderinizin olmasının qədrini bilin. Gürcüstanın sabit, müstəqil, inkişaf etmiş və çiçəklənən ölkə olması üçün Eduard Amvrosiyeviç sizə hələ çox-çox illər gərəkdir.

Gürcüstanla Azərbaycan arasında dostluq münasibətlərinin inkişafında və möhkəmlənməsində Eduard Amvrosiyeviçin olduqca böyük xidmətləri var. Bir daha demək istəyirəm ki, biz keçmişin üstündən qələm çəkməməliyik. 70-80-ci illərdə, Azərbaycan rəhbəri olduğum dövrdə mən Eduard Şevardnadzenin Azərbaycan xalqına, Azərbaycan rəhbəri kimi özümə dostluq, mehribanlıq hisslərini həmişə hiss etmişəm. Biz məhz buna görə dostluq edə bilirdik, xalqlarımızın dostluğunu təmin edə, o illərdə ölkələrimizi yüksək səviyyəyə qaldıra bildik.

Biz Tbilisidə, Bakıda dəfələrlə görüşmüşük, insanlar qarşısında çıxış etmişik, dostluqdan danışmışıq. Amma bu gün keçmişə nəzər salaraq deyirəm ki, bu sözlər səmimi idi, xalqlarımız arasında dostluğu həqiqətən möhkəmlətmək arzusundan irəli gəlirdi və öz nəticələrini vermişdir. Bu nəticələr ondan ibarətdir ki, Azərbaycanda da, Gürcüstanda da həmin ağır dövrdə, - mən 90-cı illərin əvvəllərini nəzərdə tuturam, - çətinliklər çəkən Azərbaycan və gürcü xalqları bir-biri ilə dostluq münasibətləri saxlayırdılar. Bunda Eduard Amvrosiyeviç Şevardnadzenin çox böyük xidməti var.

Gürcüstanda təxminən yarım milyon azərbaycanlı yaşayır. Onlar öz vətənində, tarixi torpağında yaşayırlar, onlar yerli əhalidir. Onlar burada məhz ona görə bərabər hüquqlu vətəndaşlar kimi yaşayırlar ki, burada insanlar arasında milli əlamətə görə fərq qoyulmur. Eduard Amvrosiyeviç bu gün mətbuat konfransında Konstitusiyaya istinad etdi. Bəli, Konstitusiya - əsasdır. Lakin dövlət, xüsusən onun başçısı bu məsələlərin həlli üçün müvafiq tədbirlər görməsə, Konstitusiya özlüyündə onları həll etmir.

Bu gün Eduard Amvrosiyeviçin dediyi kimi, o ağır dövrdə 800 azərbaycanlı ailəsi öz doğma ocaqlarından çıxarılmışdı. Azərbaycanlılara qarşı o dövrdəki bütün bu ayrı-seçkilik münasibətləri məhz Eduard Amvrosiyeviç Gürcüstana yenidən başçılıq etdikdən sonra dayandırılmışdır. Odur ki, Gürcüstanda yaşayan azərbaycanlılar əsrlər boyu dostluq və qardaşlıq şəraitində yan-yana yaşadıqlarına görə öz qardaşlarına – gürcü xalqına həmişə minnətdardırlar. Lakin soydaşlarımız onlara daim çox böyük qayğı və diqqət göstərdiyinə görə Eduard Amvrosiyeviç Şevardnadzeyə də minnətdardırlar.

Azərbaycan xalqının nümayəndələri yəqin ki, burada iştirak edirlər. Mən onlara, Gürcüstanda yaşayan bütün azərbaycanlılara müraciət edirəm - siz öz taleyinizdən arxayın ola bilərsiniz, çünki biz sizin arxanızda durmuşuq, Azərbaycan xalqının sadiq dostu Eduard Şevardnadze sizin arxanızda durmuşdur.

Eduard Amvrosiyeviç, mən bu mövzuda hələ bir saat danışsam da, ürəyimdə olanların hamısını söyləyib qurtara bilmərəm. Amma, hesab edirəm ki, dediklərimin hamısı gürcü xalqına, şəxsən sizə bəslədiyim duyğuların ancaq bir hissəsi olsa da, bu barədə danışmaq imkanı mənim üçün, hər halda, böyük məmnunluqdur.

İndi Sizin ölkəniz - Gürcüstan mühüm sınaq qarşısındadır. Aprelin 9-da prezident seçkiləri keçiriləcəkdir. Əlbəttə, indi seçkilər demokratikdir, bir çox adamlar hesab edirlər ki, onlar dövlət başçısı ola bilərlər. Bu, təkcə

Gürcüstanda deyil, demək olar, bütün ölkələrdə belədir. Məsələn, bizim Azərbaycanda azı iyirmi adam hesab edir ki, onlar hökmən prezident olmalıdırlar, halbuki onların bunun üçün əsasları və imkanları azdır. Amma demokratiyadır, heç nə edə bilməzsən. Bilirəm ki, Sizdə də kifayət qədər namizəd qeydə alınmışdır.

Əlbəttə, biz – Eduard Amvrosiyeviç və mən - ölkələrimizdə demokratiyanı möhkəmlətmək və dərinləşdirmək mövqeyində qətiyyətlə dayanmışıq. Gürcüstanda demokratikləşdirmənin böyük uğurları olmasında, Gürcüstanın nüfuz qazanmasında və Avropa Şurasına, Ümumdünya Ticarət Təşkilatına üzv qəbul edilməsində, bütün bunlarda Eduard Amvrosiyeviçin çox böyük xidməti var.

İndi bütün ölkələr tərəfindən Gürcüstana çox böyük maraq göstərilməsi və ona geniş dəstək verilməsi - bütün bunlar Eduard Amvrosiyeviçin olduqca böyük şəxsi xidmətidir. Buna görə də seçkilərdə sizin nə etməli olduğunuzu sizə mən deməli deyiləm. Bu, öz işinizdir. Lakin mən demişəm və bir daha deyirəm, öz təcrübəmə və bir çox ölkələrin təcrübəsinə əsasən deyirəm ki, qazanılmış müstəqilliyin bir çox çətinlikləri, mürəkkəb halları dəf etdiyi, müxtəlif islahatların çətinliklə aparıldığı, xarici xarakterli çox çətinliklərin olduğu ölkələrdə nüfuzlu siyasi xadim gərəkdir, elə bir adam gərəkdir ki, ona inansınlar, öz talelərini ona etibar edə bilsinlər.

İndi Gürcüstanda belə bir insan Eduard Amvrosiyeviç Şevardnadzedir. Mən əminəm ki, gürcü xalqı aprelin 9-da düzgün qərar qəbul edəcək, müdriklik, ağıl-zəka göstərəcək və seçkilər gürcü xalqının milli mənafelərinə uyğun olan nəticələr verəcəkdir.

Bununla bərabər, - mən öz hisslərimi gizlətmirəm, - bu gün mətbuat konfransında Eduard Amvrosiyeviçə sual verildi və o, belə cavab verdi, eyni sözləri mən də deyə bilərdim: biz Moskvada MDB ölkələri dövlət başçılarının iclasında olarkən fikir mübadiləsi apardıq və hərə öz rəyini söylədi. Biz Vladimir Putinin Rusiyada qarşıdakı seçkilərdə prezident vəzifəsinə namizədliyini dəstəklədiyimizi bildirdik. Hamı danışdı - Eduard Şevardnadze də, Heydər Əliyev də, digər MDB ölkələrinin prezidentləri də. Burada qəbahətli bir şey yoxdur və prezident vəzifəsinə Eduard Şevardnadzeyə səs verdiyimi deməklə heç nəyi pozmuram.

Bu gün Eduard Amvrosiyeviçlə mən xalqlarımız arasındakı sarsılmaz dostluqdan danışdıq. Son illərdə ölkələrimiz, suveren, müstəqil dövlətlərimiz arasında münasibətlər strateji tərəfdaşlıq xarakteri almışdır. Biz həmin prinsipləri bu gün imzalanmış birgə bəyanatda bir daha açıqladıq, bir daha bəyan etdik ki, Gürcüstanla Azərbaycan arasında, iki müstəqil dövlət arasında strateji tərəfdaşlıq münasibətləri yaranmışdır və möhkəm şəkildə mövcuddur. Bütün bunlarda Eduard Amvrosiyeviç Şevardnadzenin çox böyük xidməti var.

Buna görə də çoxillik dostluğumuzu, Eduard Amvrosiyeviçin Azərbaycan və gürcü xalqları arasında dostluğun yaranmasına və möhkəmlənməsinə bir çox onilliklər ərzində sanballı töhfə verdiyini nəzərə alaraq, müstəqillik illərində dövlətlərimiz arasında münasibətlərin strateji tərəfdaşlıq münasibətlərinə çevrilməsi üçün Eduard Şevardnadzenin son dərəcə çox işlər gördüyünü nəzərə alaraq, Azərbaycan prezidentinin fərmanı ilə Eduard Amvrosiyeviç Şevardnadze müstəqil Azərbaycan Respublikasının ali mükafatı – «İstiqlal» ordeni ilə təltif edilmişdir.

Azərbaycanın bu yüksək mükafatını dostuma, Gürcüstan prezidenti Eduard Şevardnadzeyə bu gün məhz Gürcüstanda, burada, Tbilisidə, bu gözəl salonda təqdim etmək üçün mənə imkan verildiyinə görə şad və xoşbəxtəm.

## AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZENİN ADINDAN TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ

*Tbilisi*
*«Krsanisi» dövlət iqamətgahı*

Əziz Eduard Amvrosiyeviç!
Hörmətli dostlar, xanımlar və cənablar!

Qonaqpərvərliyə görə, mehriban dostluq hisslərinə görə, bu gözəl qəbula görə və Gürcüstan torpağında bizə bağışladığınız gözəl bayrama görə sizin hamınıza bir daha və yenidən təşəkkür etmək istəyirəm.

Hələ gənclik, hətta yeniyetmə yaşlarımda Gürcüstana gələrkən Tbilisidə olmağıma həmişə sevinirdim. Axı mən Naxçıvanda doğulmuşam və boya-başa çatmışam. Siz bunu bilirsiniz. O vaxtlar, 1941-42-ci illərədək Naxçıvana birbaşa dəmir yolu yox idi. Buna görə də Bakıya gəlib çıxmaq üçün biz çar Nikolayın əsrin əvvəllərində Bakıdan Tbilisi və Yerevan vasitəsilə Naxçıvana, oradan da Culfaya, İran sərhədinədək çəkdirdiyi dəmir yolu ilə qatarda üç gün səyahət etməli olurduq.

Qatarla gedirdik, təbii ki, əvvəlcə atamla, sonralar isə tək gedirdim. Tbilisidə Naxçıvan–Tbilisi qatarından düşüb Tbilisi–Bakı qatarına minmək lazım gəlirdi. Bu qatarların hərəkəti arasında 12 saat vaxt fərqi vardı. Qatar Tbilisiyə çatanda mən bundan istifadə edərək, dərhal ondan düşür, Tbilisini gəzib dolaşır və ona heyran qalırdım. Axı o vaxtlar mən Bakıda deyil, Naxçıvanda yaşayırdım, fərq böyük idi - mən valeh olur və sevinirdim.

Bəzən, bilet tapa bilməyəndə isə mən Tbilisi vağzalında gecələməli olurdum. Bir neçə dəfə belə olmuşdu. Mən vağzaldakı skamyaların üstündə yatırdım. Bəlkə başqaları da nə vaxtsa, haradasa belə etmişdir, mən isə bunu ancaq Tbilisidə etməli olurdum.

Amma mən bundan da ləzzət alırdım. O vaxtlar gürcü dili mənə çox da tanış deyildi və ona görə də diqqətlə qulaq asırdım ki, görüm gürcücə necə danışırlar. Bu, elə xoşuma gəlirdi ki, mən də gürcücə danışmaq istəyirdim. Yəni, azərbaycanlıların Gürcüstana böyük səmimiyyəti və hətta məhəbbəti həmişə - keçmiş zamanlarda, keçmiş əsrlərdə də olmuşdur. Bu, görünür, xalqımızın genlərində var.

Bilirsiniz ki, Tbilisidə görkəmli azərbaycanlılar yaşayıb-yaratmışlar. Özü də, Tbilisi, Gürcüstan onlar üçün vətən olmuşdur. Doğrudur, onların bəziləri burada doğulmuş və boya-başa çatmışlar. Bəziləri isə buraya gələrək, burada fəaliyyət göstərmişlər. Axı o vaxtlar Tbilisi Cənubi Qafqazın paytaxtı idi. Çar imperiyası ölkələrimizi quberniyalara və qəzalara bölmüşdü, amma çar canişini Tbilisidə otururdu. Buna görə də, - həm də təkcə buna görə yox, - Tbilisi nəinki Qafqazda, Rusiyada da hamını cəlb edirdi. Mənim həmyerlim, yeri gəlmişkən, görkəmli insan – yazıçı, publisist, filosof – Cəlil Məmmədquluzadə Naxçıvan kəndlərindən birində doğulsa da, Qori gimnaziyasını bitirdikdən sonra ömrünün xeyli hissəsini Tbilisidə yaşamışdır. O, əsrin əvvəllərində bütün müsəlman şərqində – Azərbaycanda, İranda, Türkiyədə, Mərkəzi Asiyada çox böyük şöhrət qazanmış «Molla Nəsrəddin» jurnalını məhz burada nəşr etməyə başlamışdı.

İndi «Molla Nəsrəddin» jurnalına baxarkən düşünürsən - ilahi, biz demokratiyadan, azadlıqdan danışırıq. Halbuki bunların hamısı jurnalda olmuşdur. Orada necə karikaturalar var idi! Yeri gəlmişkən, bu karikaturaları çox məşhur Azərbaycan rəssamı Əzim Əzimzadə çəkirdi. O, bizim Azərbaycan xalqının nümayəndələri sırasından olan ayrı-ayrı tiplərin elə karikaturalarını çəkirdi ki, indi onlara baxdıqda heyran olursan.

Yəni, demək istəyirəm ki, Tbilisi bizim üçün həmişə sevimli şəhər, Gürcüstan isə sevimli ölkə olmuşdur. Buna görə də buraya hər bir gəlişim mənim üçün və hesab edirəm ki, məni müşayiət edənlər üçün də böyük sevincdir. Buraya gəldiyimiz andan əhatə olunduğumuz şərait isə bu sevinci qat-qat artırır, heyranlıq doğurur.

Doğrudur, gecədən keçmişdir. Belə vaxtda həkimlər adətən deyirlər ki, indi kefir içib yatmaq lazımdır. Amma biz sizinlə belə bir gözəl məclisdəyik. Yəni demək istəyirəm ki, mən 50 il əvvəl Tbilisiyə gələndə də sevinirdim, bu gün prezident, Azərbaycan dövlətinin başçısı kimi də sevinirəm ki, bu gözəl torpaqda və dostların əhatəsindəyəm, ən başlıcası isə, dostum və qardaşım Eduard Amvrosiyeviç Şevardnadze ilə birlikdəyəm.

Bu gün biz böyük iş gördük. Hesab edirəm ki, Paliaşvili adına Opera Teatrında yaxşı görüşümüz oldu. Bu, Azərbaycan və gürcü xalqları arasında dostluq gecəsidir, Şevardnadze ilə Əliyev arasında dostluq gecəsidir. Bu gecə bir daha və yenidən təsdiq edir ki, biz əbədi dostlarıq, azad xalqlar, müstəqil dövlətlər kimi bundan sonra da inamla, bir-birimizi dəstəkləyərək bu yolla gedəcəyik.

Elə bugünkü söhbətlərimizin də məzmunu qarşılıqlı anlaşmadan, qarşılıqlı dəstəkdən və bir-birimizə dərin hörmətdən ibarət oldu. Mən burada Azərbaycana, Azərbaycan xalqına çox böyük hörmət hiss etdim. Eduard Amvrosiyeviç Azərbaycan haqqında, dostluğumuz haqqında və mənim haqqımda olduqca çox səmimi sözlər

söylədi. Eduard Amvrosiyeviç, dediyiniz bu sözlərə görə sizə çox minnətdaram. Sizin şəxsən mənə bəslədiyiniz daxili hisslərinizbaxımından ola bilsin ki, müəyyən qədər ifrata vardınız. Amma hər halda, bütün bunların xalqlarımız üçün böyük əhəmiyyəti var. Xalqlarımız artıq cavan olmayan iki insanın necə dostluq etdiyini, - onlar bir il deyil, on il deyil, onilliklərlə dostluq edirlər və biz hələ çox illər dostluq edəcəyik, - görməli və bilməlidirlər.

Bir sözlə, Eduard Amvrosiyeviçlə biz böyük həyat yolu keçmişik və qarşımızda hələ böyük bir yol durur. Çünki tarix gürcü və Azərbaycan xalqlarının taleyi üçün üzərimizə məsuliyyət, tarixi məsuliyyət qoymuşdur. Odur ki, biz, böyük həyat təcrübəsi olan insanlar bunun nə demək olduğunu başa düşürük, məsuliyyətin nə demək olduğunu bilirik. Biz, bu etimada layiqli olmaq üçün hər şey edəcəyik.

Bu gün dediyim kimi, Gürcüstan üçün çox böyük işlər görmüş Eduard Amvrosiyeviç indiyədək etdiklərindən də çox etmək imkanına malikdir. Mən buna inanıram.

Siz öz prezidentinizi, öz liderinizi tanıyırsınız. Onu mən də tanıyıram. Ola bilsin ki, sizin çoxunuzdan yaxşı tanıyıram. Çünki biz xaraktercə bir-birimizə çox yaxınıq, hər ikimiz öz həyatımızı xalqımıza xidmətə həsr etmişik. Buna görə mən onu tanıyıram. Onun necə saf qəlbli insan, necə məsuliyyətli insan olduğunu, necə çox işlədiyini bilirəm. Bilirəm ki, ən gənc yaşlarından başlayaraq onun bütün həyatı öz xalqına xidmətə həsr edilmişdir.

Səmimi qəbula görə, dostluğa görə bir daha təşəkkür edirəm və gürcü xalqına xoşbəxt gələcək arzulamaq istəyirəm.

Eduard Amvrosiyeviç dedi ki, bəli, biz - gürcü xalqı da, Azərbaycan xalqı da keçmişdə çox şey itirmişik. Bu itkilər artıq tarixdə qalmışdır. Biz irəliyə, gələcəyə baxmalıyıq. Bu gün məruz qaldığımız bütün çətinliklərə baxmayaraq, gürcü xalqının da, Azərbaycan xalqının da gələcəyi işıqlıdır, gözəldir. Bunun əsasını bizim azadlığımız, müstəqilliyimiz və öz taleyimizin sahibi olmağımız təşkil edir. Öz torpağının, öz taleyinin tam hüquqlu sahibi olan gürcü xalqı, təbii ki, öz ölkəsini gözəl diyara çevirməyə qadirdir. Belə də olacaqdır.

Bu, dostum Eduard Amvrosiyeviç Şevardnadzenin səyləri sayəsində olacaqdır. Əminəm ki, o hələ bir çox illər işləyərək, Gürcüstanı ən yüksək səviyyəyə qaldıracaq, ölkəni irəliləyə biləcəyi yola çıxaracaqdır.

Eduard Amvrosiyeviç, mən bu gün demişəm və bir daha deyirəm. Aprelin 9-da seçkilərdir. Doğrudur, bu, böyük sınaqdır. Lakin mən qəti əminəm ki, xalq müdrikdir, xalq bilir, xalq qiymətləndirir. Gürcüstanın parçalandığı və dağıldığı hərc-mərclik dövründə sizə məhz xalq müraciət etdi. Halbuki burada, ilahi, nə qədər siyasi xadim vardı, amma xalq məhz sizə müraciət etdi, çünki Gürcüstanda sizin tayınız-bərabəriniz yoxdur, hər halda, son 50 ildə. Buna görə də xalq sizə müraciət etdi, çünki bilirdi ki, siz onu hərc-mərclikdən çıxaracaqsınız. Çıxartdınız da.

Bilirəm ki, sizin təcrübəniz, beynəlxalq aləmdə nüfuzunuz, biliyiniz, ən başlıcası isə, öz vətəninizə, öz torpağınıza, öz xalqınıza sədaqətiniz sizə bu tarixi vəzifəni yerinə yetirməyə imkan vermişdir. Siz onu yerinə yetirmisiniz. Buna görə də xalq sizə minnətdar olmalıdır. Əminəm ki, bu minnətdarlıq aprelin 9-da Gürcüstan prezidenti seçkiləri zamanı ifadə ediləcək və Eduard Şevardnadze prezident seçiləcəkdir. Biz hamımız onu təbrik edəcəyik və əlbəttə, mən andiçmə mərasiminə gələcəyəm.

Eduard Amvrosiyeviç, sizin sağlığınıza!

Əziz dostlar, sizin sağlığınıza!

Gürcü xalqının sağlığına!

Gürcü və Azərbaycan xalqlarının qardaşcasına dostluğu şərəfinə!

Sağ olun!

## GÜRCÜSTAN PARLAMENTİNİN DEPUTATLARI İLƏ GÖRÜŞDƏ NİTQ

*Tbilisi*

*23 mart 2000-ci il*

Zati-aliləri Gürcüstan prezidenti Eduard Şevardnadze!
Zati-aliləri Gürcüstan parlamentinin sədri Zurab Jvaniya!
Hörmətli deputatlar, əziz dostlar!

Mən sizin hamınızı səmimi-qəlbdən salamlayıram və dost, qardaş Gürcüstanın parlamentində yenidən çıxış etmək imkanı əldə etməyimdən çox məmnun olduğumu bildirirəm.

Xatırlayıram, dörd il bundan öncə mən Gürcüstana ilk rəsmi səfərə gəldiyim zaman sizinlə birlikdə burada, parlamentdə olmuşdum və mənə sizin qarşınızda nitq söyləmək nəsib olmuşdu. Bu gün, dörd il keçəndən sonra və arxada qalmış illərə nəzər salanda qətiyyətlə demək olar ki, Gürcüstan və Azərbaycan tarixi nöqteyi-nəzərdən bu qısa zamanda öz dövlət müstəqilliyini möhkəmləndirib, yüksəldib və artıq bizim dövlətlərimiz tam müstəqil, suveren, azad və güclü dövlətlərə çevriliblər.

Bizim xalqlarımız qədim zamanlardan qonşuluqda yaşayaraq bir-biri ilə dost, qardaş olmuşlar. Gürcüstan və Azərbaycan xalqlarının bu dostluğu, demək olar ki, dünyada nümunədir. İndi, Gürcüstan da, Azərbaycan da dövlət müstəqilliyini əldə edəndən sonra biz - yəni dövlət, hökumət başçıları, parlament sədrləri müxtəlif ölkələrə səfərlər edirik və bizim ölkələrə rəsmi səfərlərə nümayəndə heyətləri gəlir. Adətən belə səfərlər zamanı və xarici ölkələrin nümayəndələrini qəbul edən zaman biz bir-birimizlə tanış oluruq, əlaqə qururuq və ziyarət etdiyimiz ölkələr çox vaxt bizim üçün tamamilə yeni ölkələr olur.

Ancaq Gürcüstan-Azərbaycan əlaqələri bunlardan tamamilə fərqlidir. Ona görə ki, bizim üçün bir-birimizi tanımağa, bir-birimizin ölkələri ilə tanış olmağa və bir-birimizi öyrənməyə ehtiyac yoxdur. Biz qədim zamanlardan bir-birimizi tanıyırıq, hər birimiz qədim zamanlardan digər ölkəni yaxşı bilirik və artıq qədim zamanlardan dostluq, qardaşlıq əlaqələri saxlayırıq. Ancaq, təbiidir ki, burada fərq də var. O da ondan ibarətdir ki, artıq biz müstəqil dövlətlərik, azad xalqlarıq və bu səfərlər, görüşlər zamanı qədim köklərə malik olan dostluq əlaqələrimiz əsasında öz müstəqil dövlətlərimizin inkişaf etməsi, böyüməsi, irəliləməsi və müstəqil dövlətlər kimi sıx əməkdaşlıq etməsi məsələlərini ətraflı müzakirə edirik.

Məhz buna görə də mənim bu rəsmi səfərim zamanı - əziz dostum, qardaşım, prezident Şevardnadzenin dəvəti ilə Gürcüstana rəsmi səfərim zamanı dünən biz ölkələrimiz arasında əlaqələri bir daha müzakirə etdik, təhlil etdik və onların bütün sahələrdə inkişaf etməsi üçün yeni tədbirlərin həyata keçirilməsini müəyyən etdik. Bunların hamısı da bizim imzaladığımız sənədlərdə və xüsusən Gürcüstan və Azərbaycan prezidentlərinin birgə bəyanatında öz əksini tapdı. Dünən bizim imzaladığımız birgə bəyanat ötən illərdə gördüyümüz işlərə yekun vurub və Gürcüstan-Azərbaycan dostluq, qardaşlıq əlaqələrinin bugünkü səviyyəsini əks etdiribdir. Bunun da əsas mənası ondan ibarətdir ki, bizim müstəqil dövlətlərimiz arasındakı əlaqələr indi dostluq, sıx əməkdaşlıq və strateji tərəfdaşlıq xarakteri daşıyır.

Mən dünənki danışıqlarımızdan və imzaladığımız sənədlərdən, əldə etdiyimiz nəticələrdən həddən ziyadə məmnunam və buna görə, mənə - Azərbaycan prezidentinə və Azərbaycanın nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə, dostluq münasibətinə görə dostum, qardaşım Eduard Şevardnadzeyə və sizin hamınıza dərin təşəkkürümü bildirirəm.

Dövlət müstəqilliyimizi əldə edəndən sonra Gürcüstan-Azərbaycan əlaqələrinin bu qədər sürətlə inkişaf etməsində, təbiidir ki, Gürcüstanın və Azərbaycanın parlamentlərinin də fəaliyyəti yüksək qiymətə malikdir.

Gürcüstan parlamenti ilə Azərbaycan parlamenti arasında olan əlaqələr bizim xalqlarımız arasındakı dostluq, qardaşlıq əlaqələrini və iki ölkənin prezidentləri arasında olan dostluq, qardaşlıq əlaqələrini tamamilə əks etdirir. Buna görə də Gürcüstan–Azərbaycan əlaqələrinin inkişaf etməsində göstərdiyiniz xidmətlərə görə, hörmətli dostlar, bu gün mən sizə – Gürcüstan parlamentinin deputatlarına təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Sizin parlament yaxın vaxtlarda keçirilmiş, demokratik yolla aparılmış seçkilərdə yaranmış yeni parlamentdir. Seçkilərdə əldə etdiyiniz uğurlara görə və müstəqil Gürcüstanın parlamentinin deputatı seçildiyinizə görə sizi - deputatların hər birini təbrik edirəm. Dost kimi ümidvar olduğumu bildirmək istəyirəm ki, yeni parlament Gürcüstanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində, qanunvericiliyin inkişaf etdirilməsində və gürcü xalqının müstəqillik yolu ilə inamla getməsində öz xidmətlərini göstərəcəkdir.

Dövlət müstəqilliyi əldə edəndən sonra ötən səkkiz il müddətində Gürcüstanın və Azərbaycanın keçdikləri yol və qarşılaşdıqları problemlər, demək olar ki, eynidir və bir-birinə çox bənzəyir. Siz də, biz də öz dövlət müstəqilliyimizi əldə edərkən çox ağır problemlərlə rastlaşdıq: ölkələrimizin daxilində ictimai-siyasi sabitliyin pozulması, xaos, vətəndaş müharibəsinin başlanması; bizim xalqlarımızın iradəsindən, istəyindən asılı

olmayaraq xalqlarımızın, ölkələrimizin hərbi münaqişələrə cəlb edilməsi; ölkələrimizin müstəqillik yolu ilə getməsinə xaricdən və daxildən müxtəlif maneələrin göstərilməsi və bir sıra başqa çox ağır və çətin problemlər.

Gürcüstan da, Azərbaycan da bu səkkiz ili məhz belə çətinlikləri yara-yara keçmişdir. Ancaq bu gün biz xoşbəxtik ki, qarşıya çıxan bütün çətinliklərin öhdəsindən gələ bildik, ölkələrimizin müstəqilliyini qoruyub saxlaya bildik və müstəqillik yolu ilə inamla irəliyə gedirik.

Müstəqillik əldə edəndən sonra Gürcüstan xalqının qazandığı nailiyyətlər, uğurlar dost, qardaş ölkə kimi bizi həmişə sevindiribdir. Biz bütün bunları çox mehribanlıqla həmişə izləmişik və əldə etdiyiniz nailiyyətlər münasibətilə bu gün mən sizi böyük dostluq hissi ilə təbrik edirəm. Bu, gürcü xalqının iradəsini, öz milli azadlığını yüksək qiymətləndirməsini nümayiş etdirir, gürcü xalqının dövlət müstəqilliyi, milli azadlıq yolu ilə inamla getməsini nümayiş etdirir. Sizin iradəniz, öz xalqınıza, öz vətəninizə sədaqətiniz, bundan sonra da müstəqilliyinizi qorumaq əzminiz bizdə böyük fərəh hissi doğurur və dost, qonşu ölkə kimi biz bunu yüksək qiymətləndiririk.

Bütün bunlar gürcü xalqının iradəsinin nəticəsidir. Bütün bunlar Gürcüstanın mütəfəkkir insanlarının, müstəqillik uğrunda çalışan siyasi xadimlərinin nailiyyəti, xidmətidir. Bütün bunların əldə olunmasında Gürcüstanın prezidenti, mənim dostum və qardaşım, hörmətli Eduard Şevardnadzenin xüsusi xidmətləri var.

Sizin dost, qardaş ölkə ilə daim maraqlandığıma görə, ölkənizdə gedən prosesləri bir dost kimi şəxsən izlədiyimə görə mən bu gün cəsarətlə deyə bilərəm ki, əgər o ağır, çətin dövrdə, Gürcüstan parçalanmaq təhlükəsi qarşısında olduğu bir zamanda, Gürcüstanda xaos hökm sürdüyü bir zamanda, Gürcüstanda vətəndaş müharibəsi mövcud olduğu bir zamanda xalqınız, siz - gürcü xalqının mütərəqqi insanları böyük siyasi xadim, böyük dövlət xadimi Eduard Şevardnadzeni yenidən Gürcüstana dəvət etməsəydi və o, Gürcüstanda yenidən hakimiyyətə gəlməsəydi, bu nailiyyətləri əldə edə bilməyəcəkdiniz.

Hörmətli dostlar!

Bizim ölkəmiz də həmin bu çətinliklərdən keçib və bu gün artıq inamla irəliləyir. Biz Azərbaycanda 1991–1993-cü illərdə mövcud olan hərc-mərcliyə, hakimiyyətsizliyə, qanunsuzluğa, cəzasızlığa son qoyduq və 1993-cü ildə başlanmış vətəndaş müharibəsinin qarşısını aldıq. Ondan sonrakı illərdə – 1994-cü ildə, 1995-ci ildə Azərbaycanın qanuni hökumətini silahla devirmək cəhdlərinin qarşısını aldıq. Sonrakı illərdə Azərbaycanı başqa xata-bəlalardan xilas etdik və 1995-ci ildə Azərbaycanda ictimai-siyasi sabitlik yaratdıq. O vaxtdan indiyə qədər bizim xalqımız rahat və çox sabit ictimai-siyasi şərait içərisində yaşayır, öz müstəqil dövlətini qurur.

Biz 1990-1991-ci illərdən başlayaraq 1994-1995-ci illərə qədər Azərbaycanda iqtisadi, siyasi böhran keçirdik. Bu böhranın əsas səbəblərindən biri Ermənistanın Azərbaycana torpaq iddiası edərək, Dağlıq Qarabağı Azərbaycandan ayırıb özünə birləşdirmək məqsədi daşıyaraq etdiyi hərbi təcavüz olmuşdur. Bunun nəticəsində müharibə başlanmışdır, qan tökülmüşdür və nəhayət, müxtəlif səbəblərdən Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. İşğal olunmuş torpaqlardan bir milyondan artıq azərbaycanlı öz yerindən-yurdundan zorla çıxarılıb, didərgin düşüb və ağır vəziyyətdə, çadırlarda yaşayır.

Bütün bunlara, Azərbaycana vurulmuş bu zərbələrə baxmayaraq, biz 1994-cü ilin may ayında Ermənistanla Azərbaycan arasında atəşkəs haqqında saziş imzaladıq və beş ildən artıqdır ki, bu sazişə riayət edirik. Artıq indi müharibə yoxdur, qan tökülmür. Ancaq sülh də yoxdur və Azərbaycanın ərazi bütövlüyü pozulmuş şəkildə qalır.

Bütün ötən illərdə biz məsələnin sülh yolu ilə həll olunması üçün çalışmışıq. Bilirsiniz ki, bu məsələ ilə ATƏT-in Minsk qrupu 1992-ci ildən məşğuldur. Minsk qrupuna həmsədrlik edən Rusiya, Amerika Birləşmiş Ştatları, Fransadır, onun başqa üzvləri də var. Bütün başqa vasitələrdən də istifadə edirik. Məsələni sülh yolu ilə həll etmək üçün son zamanlar mən bilavasitə Ermənistanın prezidenti Robert Koçaryanla da bir neçə görüşlər, danışıqlar keçirmişəm. Ancaq təəssüflər olsun ki, indiyə qədər məsələni həll edə bilməmişik.

Bunu həll etmək yolları da çətin deyildir. Burada beynəlxalq hüquq normalarına istinad etmək, məsələni onların əsasında həll etmək lazımdır. Beynəlxalq hüquq normalarına əsaslanaraq və beynəlxalq təşkilatların qəbul etdiyi qərarları əsas tutaraq, biz hesab edirik ki, məsələni sülh yolu ilə həll etmək olar. Bunun üçün Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş torpaqlarını azad etməlidir, öz yerlərindən didərgin düşmüş azərbaycanlılar o torpaqlara qayıtmalıdır, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır və Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək dərəcəli özünüidarə hüququ verilə bilər.

Təəssüf ki, Ermənistan tərəfinin qeyri-konstruktiv mövqeyi nəticəsində biz indiyə qədər sülh əldə edə bilməmişik. Ancaq son zamanlar Ermənistan prezidenti Robert Koçaryanla mənim aramda keçirilən bir neçə görüş və danışıqlar ümid verir ki, biz bu məsələnin həll olunmasına yaxınlaşırıq, bəlkə də bunun həll edilməsinə nail ola bilərik. Bunun üçün hər iki tərəf kompromisə getməlidir. Biz bu kompromisləri müzakirə edirik. Əgər bunları müzakirə edə bilsək və başqa məsələlər barəsində ümumi bir razılığa gələ bilsək, güman edirəm ki, tam sülhə nail ola bilərik.

Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması və sülhün tamamilə təmin edilməsi təkcə Azərbaycan və Ermənistan üçün yox, bütün Cənubi Qafqaz üçün çox vacib məsələdir, bütün Qafqaz regionu üçün vacib məsələdir. Bu, Cənubi Qafqazda sülhün, əmin-amanlığın yaranmasına və son vaxtlar bizim irəli sürdüyümüz Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktının yaranmasına yaxşı şərait yarada bilər.

1996-cı ildə Tbilisidə prezident Şevardnadze ilə mən Qafqazda, Cənubi Qafqazda sülh haqqında bəyanat elan etdik. Keçən ilin noyabr ayında İstanbulda - ATƏT-in zirvə görüşündə mən öz çıxışımda Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq paktının yaranması haqqında təklif irəli sürdüm. Eyni təkliflə Türkiyənin prezidenti hörmətli cənab Süleyman Dəmirəl də çıxış edibdir.

Bunlar hamısı dünyanın ən mürəkkəb regionlarından biri olan Qafqazda və xüsusən Cənubi Qafqazda sülhün, təhlükəsizliyin və əməkdaşlığın yaranması üçün yaxşı əsasdır. Amma bunun üçün münaqişələrə son qoyulmalıdır. O cümlədən Abxaziya münaqişəsinə son qoyulmalıdır, Gürcüstanın ərazi bütövlüyü təmin olunmalı və öz yerlərindən-yurdlarından didərgin düşmüş insanlar - indi Gürcüstanda qaçqın vəziyyətində yaşayan insanlar öz yerlərinə qayıtmalıdırlar. Əgər belə olarsa, bütün bu münaqişələr ləğv edilərsə, əgər biz Cənubi Qafqazda sülh əldə edə biləriksə, Cənubi Qafqazın çox böyük gələcəyi və çox böyük inkişaf imkanları var.

Biz Azərbaycanda bunu istəyirik, bunu arzulayırıq. Mən yaxşı bilirəm ki, Gürcüstan da bunu istəyir. Bu məsələ prezident Eduard Şevardnadze ilə mənim aramda aparılan təkbətək danışıqların əsas mövzularından biri olmuşdur. Yəni Cənubi Qafqazın iki dövlətinin başçıları - Gürcüstan dövlətinin başçısı Eduard Şevardnadze və Azərbaycan dövlətinin başçısı Heydər Əliyev bu təşəbbüslə çıxış edirlər, bu arzularla çalışırlar, buna nail olmaq istəyirlər. Lazımdır ki, digər tərəflər də məhz bu istiqamətdə hərəkət etsinlər ki, biz Cənubi Qafqazda sülh və təhlükəsizlik şəraiti yarada biləк.

Onu da bilmək lazımdır ki, və xüsusən Ermənistan tərəfi onu yaxşı bilməlidir ki, əgər üç Cənubi Qafqaz ölkəsi arasında sülh əldə olunarsa, bizim ölkələrimiz arasındakı iqtisadi əməkdaşlıq qısa bir zamanda ölkələrimizin iqtisadiyyatının inkişafını təmin edəcək və xalqlarımızın rifah halını daha da yüksəldəcəkdir. Bunu son illər Gürcüstan ilə Azərbaycan arasında bütün sahələrdə həyata keçirilən əməkdaşlıq və xüsusən iqtisadiyyat sahəsində əməkdaşlıq çox gözəl nümayiş etdirir.

Mən sizə bildirdim ki, biz 1995-ci ildə iqtisadi böhrandan çıxdıq. Ondan sonra Azərbaycanın iqtisadiyyatı inkişaf dövrünü yaşayır. Bizim iqtisadi göstəricilərimiz hər il artır. Keçən il Azərbaycanda ümumi daxili məhsulun həcmi 7,4 faiz, sənaye istehsalı təxminən 3,5 faiz, kənd təsərrüfatı istehsalı təxminən 7 faiz artmışdır. Bu ilin iki ayının göstəricilərindən də görünür ki, biz bu minvalla irəliyə gedirik. Azərbaycanda 1994-cü ilə qədər davam edən yüksək inflyasiyanın qarşısını aldıq. Əgər 1994-cü ildə inflyasiya ildə 1400-1600 faiz idisə, indi üç-dörd ildir ki, Azərbaycanda inflyasiya yoxdur.

Biz büdcənin bütün tələblərini təmin edirik və büdcədən maliyyələşdirilən bütün təşkilatlarda maaşları, pensiyaları vaxtlı-vaxtında veririk. Fevral ayının da bütün maaşları və pensiyaları verilibdir.

Təbiidir ki, bunlar hamısı bizim həyata keçirdiyimiz iqtisadi islahatların, Azərbaycanın bazar iqtisadiyyatı yolu ilə uğurla getməsinin nəticəsidir, Azərbaycanda hüquqi, demokratik dövlət quruculuğu prosesinin həyata keçirilməsinin nəticəsidir. Ancaq Azərbaycanın iqtisadi siyasətində əsas istiqamətlərdən biri də odur ki, Azərbaycan öz qapılarını xarici investisiya üçün açıbdır. Bunun nəticəsində də 1994-cü ildən başlayaraq Azərbaycanın böyük təbii sərvətlərinin- Xəzər dənizinin Azərbaycan sektorunda olan neft və qaz yataqlarının müştərək işlənilməsi üçün dünyanın çoxsaylı böyük neft və qaz şirkətləri Azərbaycana gəlib, biz işə başlamışıq və bunların əməli nəticəsini görürük.

Azərbaycanın Xəzər dənizindəki sektorunda olan zəngin neft yataqlarının böyük gələcəyi var. Biz 1994-cü ildə ilk böyük müqavilə – «Əsrin müqaviləsi» deyilən müqaviləni imzaladıq. Onun əməli surətdə həyata keçirilməsini təmin etdik. 1997-ci ildə o müqavilədən irəliyə gələn neft hasilatının başlanmasını təntənəli surətdə qeyd etdik. Məmnunam ki, prezident Eduard Şevardnadze də bu mərasimdə iştirak etdi.

Biz bu neftin ixrac olunması üçün lazımi neft kəmərlərinin yaranmasını təmin etdik. Birinci neft kəməri Şimala – Novorossiyskə, ikinci neft kəməri Qərbə – Gürcüstana, Supsaya çəkildi. Bakı-Supsa neft kəmərini keçən ilin aprel ayında Supsada, Potidə təntənəli şəraitdə açdıq. İndi bu neft kəməri vasitəsilə 5 milyon tona qədər neft ixrac olunur.

Təbiidir ki, bütün bu nailiyyətlərin əldə edilməsində xarici investisiyanın Azərbaycana cəlb olunması və Azərbaycanın zəngin neft, enerji ehtiyatlarının müştərək işlənilməsi üçün imzalanmış müqavilələrin xüsusi rolu var. Məmnuniyyət hissi ilə qeyd edirəm ki, Cənubi Qafqazda hələ tam sülhün, əmin-amanlığın olmadığı bir şəraitdə, münaqişələrin ləğv edilmədiyi bir şəraitdə, Ermənistanla Azərbaycan arasında sülhün yaranmadığı bir şəraitdə Azərbaycanla Gürcüstan arasında sıx əməkdaşlıq həyata keçirilir. Demək olar ki, həyatımızın bütün sahələrində, o cümlədən iqtisadi sahədə. Gürcüstan bütün sahələrdə bizim üçün çox etibarlı tərəfdaş olduğu kimi, iqtisadi sahədə də tərəfdaşımızdır. Biz bütün imkanlarımızdan istifadə edirik ki, böyük neft layihələrinin həyata keçirilməsində Gürcüstanla iqtisadi əməkdaşlığı genişləndirək və Gürcüstanı bu iqtisadi əməkdaşlığa daha da çox cəlb edək.

Bakı-Supsa neft kəməri və bu neft kəmərinin qısa bir müddətdə bu qədər səmərəli fəaliyyət göstərməsi mənim dediyim sözlərə əyani sübutdur.

Beş ildir ki, biz gələcəkdə hasil olunacaq neftin nəqli üçün əsas ixrac neft kəməri haqqında çox işlər görürük. Bu kəmərin adı əvvəlcə Bakı-Ceyhan idi. 1998-ci ilin oktyabr ayında Ankarada Bakı–Ceyhan kəməri haqqında Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan prezidentlərinin imzaladıqları bəyanatda biz bu kəmərin adını dəyişdirib Bakı–Tbilisi–Ceyhan kəməri adlandırdıq.

Azərbaycanın neft yataqlarının böyük imkanları var. Bunlar hələ bir əsr yox, bir neçə əsr Azərbaycana, həm də təkcə Azərbaycana yox, dünya iqtisadiyyatına öz xidmətini göstərəcəkdir. Son zamanlar Azərbaycanda – Xəzər dənizində böyük qaz yataqları da aşkar olunubdur. Bunların hamısının işlənilməsində və yanacağın ixrac olunmasında biz Gürcüstanla əməkdaşlıq edirik, bundan sonra da edəcəyik və əsas ixrac kəmərlərini Gürcüstan ərazisindən keçirməyə çalışacağıq.

İndi bizim əsas vəzifəmiz Bakı-Tbilisi-Ceyhan neft kəmərinə dair keçən ilin noyabr ayında İstanbulda imzalanmış müqavilənin kommersiya tərəflərini müəyyən edib onun tikintisinə başlamaqdır. Son iki-üç ay ərzində Türkiyə, Gürcüstan, Azərbaycan arasında bir çox danışıqlar getmiş, meydana çıxmış bir çox məsələlər müzakirə olunmuş, onların həlli yolları tapılmışdır.

Amma Gürcüstan tərəfindən qaldırılmış bir məsələnin həlli dünənə qədər tapılmamışdı. Biz dünən bunu da həll etdik. Azərbaycan Gürcüstan ilə dostluq, qardaşlıq əlaqələrini yüksək qiymətləndirərək və gələcəkdə Gürcüstan-Azərbaycan əlaqələrini daha da inkişaf etdirmək məqsədi ilə dünən bəyan etdi, yəni mən - Azərbaycan prezidenti bəyan etdim ki, Bakı-Tbilisi-Ceyhan kəməri ilə ixrac olunacaq neftin tranzit tariflərinin həcmi barəsində aparılan danışıqlara son qoyulmalıdır. Buna son qoymaq üçün də mən Azərbaycana məxsus olan tranzit tariflərindən Gürcüstanın xeyrinə imtina etdim və o tariflərin Gürcüstana verilməsi haqqında bəyanat verdim.

Hesab edirəm ki, mənim Gürcüstana bu rəsmi səfərimin və Gürcüstan prezidenti, hörmətli dostum Eduard Şevardnadze ilə dünən apardığımız danışıqlarımızın ən əsas nəticəsi və ən əsas nailiyyəti məhz budur. Dünən biz bütün bu danışıqlara son qoyduq və Bakı–Tbilisi–Ceyhan neft kəmərinin artıq inşasına başlamaq üçün qəti qərarlar qəbul etdik.

Biz nümayəndə heyətlərinə göstəriş verdik ki, qısa bir zamanda, hər halda, aprel ayı ərzində müəyyən xırda məsələləri də həll etsinlər və kommersiya sazişlərini imzalasınlar. Ondan sonra biz bütün bu sazişi, hamısını birlikdə ölkələrimizin parlamentlərinə ratifikasiyaya verək.

Bu proqramın, layihənin həyata keçirilməsinin gələcək qrafikləri mənə yaxşı məlum olduğuna görə sizə bildirirəm ki, əgər biz aprel ayında bu məsələləri qurtarmasaq və aprelin sonuna - may ayının əvvəlinə qədər Gürcüstan parlamenti, Türkiyə parlamenti, Azərbaycan parlamenti bunu ratifikasiya etməsə, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin inşasına başlanması bir qədər təxirə düşəcəkdir.

Biz – Türkiyə prezidenti Süleyman Dəmirəl, Gürcüstan prezidenti Eduard Şevardnadze, Azərbaycan prezidenti Heydər Əliyev öz üzərimizə düşən vəzifələri tamamilə yerinə yetirdik. İndi vəzifə sizindir – parlamentlərindir. Parlamentlər bu müqavilələri nə qədər tez ratifikasiya etsələr, biz bir o qədər tez işə başlayacağıq. Ona görə mən sizə müraciət edirəm ki, bu sənədlər Gürcüstan parlamentinə gələndə onları çox ləngitməyin, çox süründürməyin. Onlara tezliklə baxın, onları ratifikasiya edin və imkan verin ki, biz işə başlayaq.

**Z u r a b J v a n i y a:** Cənab prezident, biz elə indi ratifikasiya etməyə hazırıq.

**H e y d ə r Ə l i y e v:** Beləliklə, demək, məsələ həll olundu. Onda qoy Zurab Jvaniya ratifikasiya sənədinə imza atsın. Əlbəttə, mən sizinlə zarafat edirəm. Güman edirəm, siz sərəncamınıza verilən bütün sənədlərə diqqətlə baxacaqsınız və görəcəksiniz ki, biz nə qədər çox iş görmüşük, onları qiymətləndirəcəksiniz. Təbiidir ki, öz səlahiyyətlərinizi həyata keçirərək sənədlərə öz münasibətinizi göstərəcəksiniz və əmin olduğumu bildirmək istəyirəm ki, onu ratifikasiya edəcəksiniz.

Əziz dostlar!

Mənim bu səfərim Gürcüstanın həyatında qarşıda duran böyük bir siyasi hadisəyə təsadüf edir. Aprel ayının 9-da Gürcüstanda prezident seçkiləri keçiriləcəkdir. Təbiidir ki, hər ölkədə prezidenti xalq seçir, çünki biz müstəqillik əldə edəndən sonra Gürcüstan da, Azərbaycan da demokratiya yolu tutubdur. Biz bu demokratiya yolu ilə gedirik və heç vaxt bu yoldan dönməyəcəyik. İnanıram ki, Gürcüstanda aprel ayının 9-dakı prezident seçkiləri Gürcüstanın demokratiya prinsiplərinə sadiq olduğunu dünyaya bir daha nümayiş etdirəcəkdir.

Hər bir vətəndaş öz istədiyi namizədə səs verəcəkdir. Ancaq mən Gürcüstan vətəndaşlarının əksəriyyətinin fikrini bilirəm. Çünki mən 30-40 ildir Gürcüstanla sıx əlaqədəyəm və bilirəm ki, Gürcüstan vətəndaşları seçkilərdə Gürcüstanın bu günü və gələcəyi haqqında dərindən düşünəcəklər, Gürcüstanda əldə edilmiş sabitliyin nə qədər qiymətli olduğunu dərk edəcəklər, Gürcüstanın dünya miqyasında, yəni xarici siyasətdə əldə etdiyi böyük nailiyyətləri qiymətləndirəcəklər. Onlar bütün bu nailiyyətlərin təşkilatçısının fəaliyyətinə, yəni Eduard Şevardnadzenin fəaliyyətinə layiqli qiymət verəcək və səslərini məhz Eduard Şevardnadzeyə verəcəklər.

Biz dost kimi çox sevinirik ki, sizdə son parlament seçkiləri çox mütəşəkkil keçdi, demokratik şəraitdə keçdi və yeni parlament keyfiyyətcə əvvəlki parlamentdən fərqlənir. Təbiidir ki, bu da Gürcüstan dövlətinin, onun prezidenti Eduard Şevardnadzenin, Gürcüstan parlamentinin apardığı düzgün daxili və xarici siyasətin nəticəsidir. Təbiidir ki, Gürcüstanın Avropa Şurasına qəbul olunması həmin bu xarici siyasətin gözəl bir nəticəsidir. Burada mən parlamentin və parlament sədri Zurab Jvaniyanın fəaliyyətini də yüksək qiymətləndiri-rəm. Amma ən əsas - prezident Eduard Şevardnadzenin apardığı ağıllı, düşünülmüş xarici siyasəti Gürcüstanda demokratik prinsiplərin həyata keçirilməsinin nəticəsi kimi yüksək qiymətləndirirəm.

Əziz dostlar! Mən sizin vaxtınızı çox aldım, amma ürəyimdə olan sözləri sizə demək istədim. Sözümün sonunda onu bildirmək istəyirəm ki, Gürcüstan dövlət müstəqilliyini səkkiz ildə çox layiqincə həyata keçiribdir.

Bu dövlət müstəqilliyinin daimi olması üçün, sarsılmaz, əbədi olması üçün Gürcüstanda aprel ayının 9-dakı seçkilər də, təbiidir ki, xalqın əksəriyyətinin əhval-ruhiyyəsini əks etdirərək, yüksək səviyyədə keçəcəkdir.

Əgər biz Gürcüstan prezidentinin seçilməsi haqqında Azərbaycanda paralel olaraq seçki işi yaratsaq, mən sizi əmin edirəm ki, Eduard Şevardnadze 100 faiz səs alacaqdır. Amma, təbiidir ki, biz sizin daxili işlərinizə qarışmırıq və mənim bu sözlərimi də bir dost sözü kimi qəbul edin.

Eyni zamanda mənim öz dostum, qardaşım haqqında söz deməyə haqqım var. Gürcü xalqına öz fikrimi bildirməyə mənim haqqım var. Bu haqdan, bu imkanlardan istifadə edərək bir də deyirəm ki, Azərbaycan prezidenti olaraq mən Eduard Şevardnadzeyə səs verirəm. Ümid edirəm ki, Gürcüstan əhalisinin əksəriyyəti də Eduard Şevardnadzeyə səs verəcək və müstəqil Gürcüstanın həyatında yeni mərhələ başlanacaqdır.

Əziz dostlar, hörmətli sədr!

Hörmətli parlament deputatları!

Məni səbrlə dinlədiyinizə görə sizə təşəkkür edirəm. Sizinlə bu görüşümdən çox məmnun olduğumu bildirirəm. Sizin hamınıza, bütün dost, qardaş gürcü xalqına səadət və müstəqillik yolunda yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

## GÜRCÜSTAN MİLLİ TELEVİZİYASINA MÜSAHİBƏ

*Tbilisi*

*23 mart 2000-ci il*

**S u a l: Heydər Əliyeviç, Siz gürcü və Azərbaycan xalqlarının indiki mərhələdə qarşılıqlı münasibətlərini necə qiymətləndirirsiniz?**

**C a v a b:** Mən bu barədə dünən də, bu gün də kifayət qədər danışmışam. Buna baxmayaraq, deyə bilərəm ki, Azərbaycan-Gürcüstan münasibətləri həmişə çox dostcasına, qardaşcasına olmuşdur, bu münasibətlər artıq yüzilliklər ərzindən mövcuddur.

Lakin dövlət müstəqilliyi əldə edildikdən sonra bu münasibətlər, təbii olaraq, keyfiyyətcə ayrı xarakter daşımağa başlamışdır. Yeni şəraitdə, müstəqil, suveren dövlətlər olaraq Gürcüstanın da, Azərbaycanın da daxili və xarici xarakterli bir çox mürəkkəb məsələləri həll etdikləri şəraitdə Gürcüstanla Azərbaycan arasında münasibətlər daha yaxın və daha yüksək olmuşdur. Çünki bu münasibətlər artıq nəinki xalqlar arasındadır, həm də dövlətlər, suveren dövlətlər, ölkələr arasındadır. Deməli, burada artıq olduqca çox məsələlər meydana çıxır. Söhbət xalqların dostluğundan getdikdə, bu dostluq qarşılıqlı yardım, mehriban qonşuluqdur, yəni bir adamın başqa birisi üçün nə edə biləcəyi deməkdir. Söhbət dövlətlərarası münasibətlərdən, müstəqil dövlətlər arasındakı münasibətlərdən getdikdə isə, burada qarşıya çox məsələlər çıxır – hər bir ölkənin seçdiyi yol barəsində mövqelər, xarici siyasət sahəsində mövqelər, regionda vəziyyətə, dünyada baş verən proseslərə aid mövqelər bir-birinə nə dərəcə uyğun gəlir. Yəni çox şeylər var.

Əgər bütün bunları cəmləşdirsək, iqtisadi əməkdaşlığın, mədəniyyət, təhsil, elm sahəsində əməkdaşlığın inkişafının yeni təkan aldığını da buraya əlavə etsək, onda, zənnimcə, münasibətlərimiz ən yüksək səviyyədədir.

**S u a l: Cənab prezident, Gürcüstanın və Azərbaycanın eyni bir problemi var - onların ərazi bütövlüyü pozulmuşdur. Necə bilirsiniz, bu problemi ölkələrimiz özləri həll etməyə qadirdirmi, yoxsa Dünya Birliyinin köməyi olmadan mümkün deyildir?**

**C a v a b:** Dağlıq Qarabağ üstündə Ermənistanla Azərbaycan arasındakı münaqişəyə, habelə Abxaziyadakı münaqişəyə kənardan müdaxilə olmasaydı, onda, şübhəsiz, müstəqil dövlətlər olan ölkələrimiz onları özləri həll edərdilər.

Dağlıq Qarabağda baş vermiş münaqişəni götürün. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, orada qədimdən bəri azərbaycanlılar yaşamışlar, sonra oraya ermənilər gəlmişlər. XX əsrin əvvəllərində orada ermənilər az idi. Münaqişə başlayan vaxtadək Dağlıq Qarabağda 170 min adam yaşayırdı, onların 30 faizi azərbaycanlılar, 70 faizi ermənilər idi.

Əgər bu problem dövlətimizin hüdudlarından kənara çıxmasaydı, əgər bu problemin arxasında Ermənistan, - o, əslinə baxsan, bu münaqişəyə lap əvvəldən cəlb edilmişdir, - durmasaydı, onda, əlbəttə, biz öz erməni vətəndaşlarımızla ümumi dil tapardıq, razılığa gələrdik. Mən demişəm ki, artıq onlar muxtar vilayət statusuna malik idilər, biz onlara ən yüksək özünüidarə statusu veririk, yəni adına görə, o, respublika olacaq, səlahiyyətlərinə görə isə, keçmişdə başa düşdüyümüz adi muxtar respublikaya nisbətən daha böyük muxtariyyət olacaqdır.

Hesab edirəm ki, biz ümumi dil tapardıq və razılığa gələrdik, burada məsələlər olmazdı. Amma Ermənistan müdaxilə etdi, bu, hətta müdaxilə də deyildir. Bu, əslində, Ermənistanla Azərbaycan arasında münaqişədir. Buna baxmayaraq, biz – Ermənistan və Azərbaycan bu problemi hər halda, daha sadəcə və asan həll edə bilərdik, nəinki hər bir başqa ölkə öz mənafelərini güddüyü bir şəraitdə. Yəni başqa ölkələrin müdaxiləsi var.

Bir tərəfdən, indi biz bəzi ölkələrin – Azərbaycan və Ermənistan üçün bunlar ATƏT-in Minsk qrupudur, indi ona Amerika Birləşmiş Ştatları, Rusiya və Fransa başçılıq edirlər - dəstəyi və ya müdaxiləsi, vasitəçiliyi olmadan keçinə bilmirik. Digər tərəfdən, mən və Ermənistan prezidenti Robert Koçaryanla bilavasitə danışıqlar aparmağa başladıqda, biz hiss etdik ki, irəliləyə bilərik.

Mənə elə gəlir ki, bunlar abxaz münaqişəsinə də aiddir. Zənnimcə, müdaxilə olmasaydı, bu münaqişəyə, yəni onun olmasına müxtəlif ölkələr tərəfindən maraq göstərilməsəydi, onda Gürcüstan dövləti abxazlarla razılığa gəlməyə imkan tapardı və razılığa da gələrdi. Bir sözlə, burada başqa ölkələrin müdaxiləsi var və bu, xeyir əvəzinə bəzən ziyan gətirir.

**S u a l: Bir siyasətçi kimi və bir insan kimi Eduard Şevardnadzeyə siz xarakteristika verə bilərsinizmi?**

**C a v a b:** Əlbəttə. Mən bu barədə dünən də, bu gün də danışmışam.

Mən onu 1968-ci ildən, yəni 30 ildən artıqdır tanıyıram. Bu müddət ərzində bizim aramızda şəxsi münasibətlər, yoldaşlıq münasibətləri olmuşdur. Bu, mənim hansısa bir dövlət xadimini sadəcə olaraq tanımağıma bənzəmir. Bizim

aramızda şəxsi insani münasibətlər yaranmışdı. O, Gürcüstanın daxili işlər naziri idi, mən isə Azərbaycanın dövlət təhlükəsizliyi naziri idim. Təbii ki, biz işlə əlaqədar tanış olmuşduq. Lakin tezliklə aramızda şəxsi insani münasibətlər yaranmışdı.

Sonralar taleyimiz çox oxşar olmuşdur. 1969-cu ildə mən Azərbaycan KP MK-nın birinci katibi seçildim, 1972-ci ildə isə Eduard Şevardnadze Gürcüstan KP MK-nın birinci katibi seçildi. Təbii ki, öz respublikalarımızın başçıları kimi biz əməkdaşlıq etməyə borclu idik. Amma öz dövlət vəzifələrini yerinə yetirərək əməkdaşlıq etmək bir şeydir, sırf dostluq münasibətlərinə malik olmaq isə başqa şeydir. Ona görə də dostluq münasibətlərimiz, şübhəsiz, çox böyük rol oynamışdır. Yəni Gürcüstanla Azərbaycan arasında münasibətləri inkişaf etdirmək kimi dövlət funksiyalarımızın həyata keçirilməsində insani, ailəvi, dostluq münasibətlərimizin çox böyük rolu vardı.

Sonra tale elə gətirdi ki, hər ikimiz Siyasi Büronun üzvü kimi Moskvada işlədik. Mən əvvəlcə, 1982-ci ildə, Eduard Amvrosiyeviç isə sonra, 1985-ci ildə. Mən həm də Nazirlər Soveti sədrinin birinci müavini idim, o, xarici işlər naziri idi. Biz Siyasi Büronun iclaslarında birlikdə olurduq.

Sonralar talelərimiz bir qədər müxtəlif cür oldu. 1987-ci ildə mən bəzi səbəblərə görə istefaya getdim, Eduard Amvrosiyeviç vəzifəsini davam etdirdi, işlədi. Bildiyiniz kimi, sonra mən Moskvanı tərk etməli oldum. 1990-cı ilin yanvarında Bakıdakı məlum hadisələrdən, Azərbaycan xalqına qarşı hərbi təcavüz edildikdən sonra mən Kommunist Partiyasından çıxdığımı bildirdim və getdim. Amma mən Bakıda yaşaya bilmədim. Öz vətənimə, Naxçıvana getdim, orada yaşadım.

Eduard Amvrosiyeviç Moskvada qalmaqda davam etdi. Lakin Gürcüstanda çox ağır vəziyyət yarandıqda xalq onu tələb etdi və o, respublikaya gəldi, yəni o, Gürcüstana mən Azərbaycan rəhbərliyinə gəldiyimdən əvvəl gəlmişdir. Ancaq burada fərq o qədər də böyük deyil - bir ildən bir qədər artıqdır.

Budur, hər ikimizin taleyi elə gətirdi ki, biz Gürcüstana və Azərbaycana artıq yeni şəraitdə başçılıq etməli olduq. Baxın, necə böyük dövrdür! Bu da mənə onun haqqında çox dəqiq və aydın danışmağa əsas verir - o, son dərəcə gözəl, sadə, qəlbi açıq, təvazökar, çox ünsiyyətli insandır, onunla dostluq etmək çox asandır. Bilirəm ki, o, ailəcanlıdır, dostluq etdiyi adamlarla dostluğa çox sadiqdir. Əlbəttə, o, qeyri-adi dövlət xadimi, siyasi xadimdir. Hesab edirəm ki, o, XX əsrdə gürcü xalqının ən görkəmli dövlət, siyasi xadimlərindən biridir.

Zənnimcə, gürcü xalqının çox böyük xoşbəxtliyi ondadır ki, xalq özünə belə bir insan tapmış, onu irəli çəkmişdir. Bu insan, Eduard Amvrosiyeviç Şevardnadze artıq 30 ildən çoxdur ki, adi bir vətəndaş kimi deyil, ölkənin rəhbəri kimi xalqın taleyi ilə bağlıdır. Buna görə də onu təcrübəli siyasətçi, böyük beynəlxalq nüfuza malik insan hesab edirəm. Gürcüstanda işlədiyi dövrdə də onun nüfuzu var idi. Lakin Eduard Amvrosiyeviç Siyasi Büronun üzvü, xarici işlər naziri kimi Moskvada işləyən dövrdə bu nüfuz daha da artmışdır.

Buna görə də bir daha deyim ki, bu, gürcü xalqı üçün böyük səadətdir. Onu qorumaq lazımdır. O, Gürcüstana da, Qafqaza da, bizim hamımıza da gərəkdir.

**S u a l: Cənab prezident, axırıncı sualımdır. Siz gürcü xalqına nə arzu edə bilərsiniz?**

**C a v a b:** Bilirsiniz, indi gürcü xalqı öz tarixinin ağır dövrünü keçirir. Amma biz, yəni Sovetlər İttifaqının süqutundan sonra dövlət müstəqilliyinə qovuşan bütün xalqlar da belə bir dövrü yaşayırıq.

Bu, bəzi ölkələrdə mürəkkəb, digərlərində isə asan keçir. Amma iş elə gətirmişdir ki, Gürcüstanda da, Azərbaycanda da oxşar problemlər, münaqişələr var, bizdə gedən proseslər əslində eyni proseslərdir. Gürcü xalqına arzu edirəm ki, o, bütün bu çətinliklərə, necə deyərlər, mərdliklə dözsün. Yəni demək istəyirəm ki, mən bu çətinliklərin arxasında, bu mürəkkəb problemlərin arxasında Gürcüstanın gözəl gələcəyini görürəm. Bunun üçün zəmin ölkənin müstəqilliyidir, gürcü xalqının bir çox yüzilliklərdən sonra dövlət müstəqilliyinə qovuşmasıdır. Öz taleyinin, öz ölkəsinin, öz torpağının sahibi olan xalq, öz dövləti, öz dövlətçiliyi olan xalq çox şeyə qadirdir. Gürcü xalqı isə hər cəhətdən çox istedadlıdır. Gürcü xalqının istedadı belə şəraitdə özünü daha çox büruzə verəcək və o, şübhəsiz, gözəl gələcəyə malik olacaqdır.

Arzu edirəm ki, xalq bu gözəl gələcəyə doğru səbrlə, təmkinlə, müdrikliklə, cəsarətlə irəliləsin.

**M ü x b i r:** Cənab prezident, çox sağ olun. Sizə ən xoş arzularımızı bildiririk.

**H e y d ə r Ə l i y e v:** Sağ olun.

***Müsahibəni Gürcüstan Milli Televiziyasının***
***müxbiri Georgi Kalandiya aparmışdır.***

## GÜRCÜSTANDAN BAKIYA QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*23 mart 2000-ci il*

**S u a l: Cənab prezident, Gürcüstana rəsmi səfəriniz başa çatdı. Səfərin nəticələri barədə nə deyə bilərsiniz?**

**C a v a b:** Mən belə başa düşdüm ki, səfərin gedişi Azərbaycan televiziyası vasitəsilə canlı yayımlanıbdır. Siz bunların əsas hissəsini görmüsünüz, eşitmisiniz və bu barədə təəssüratlarınız vardır. Mənə gəldikdə isə, hesab edirəm ki, bu, çox vacib bir səfər idi.

Gürcüstan ilə Azərbaycan arasında çox sıx dostluq, əməkdaşlıq münasibətləri vardır və bu əlaqələr həmişə inkişaf edibdir. Biz tez-tez görüşürük – mən Gürcüstanda oluram, Gürcüstan prezidenti də Azərbaycana gəlir. Sonra bizim ölkələrin baş nazirləri görüşürlər və qarşılıqlı səfərlər edirlər. Biz beynəlxalq təşkilatların toplantılarında da çoxlu görüşlər keçiririk. Ancaq Azərbaycan prezidentinin Gürcüstana rəsmi səfəri 1996-cı ilin mart ayında olubdur. Ona görə də indi belə bir rəsmi səfər zəruri idi. Mən dəvət almışdım və ona görə də Gürcüstana getdim.

Hesab edirəm ki, bütün danışıqlarımızın hamısı çox səmərəli oldu. Biz Şevardnadze ilə təkbətək görüş keçirdik, bütün məsələləri müzakirə etdik. Sonra isə nümayəndə heyətlərimizin iştirakı ilə görüş oldu və nəhayət, biz çox mühüm bir bəyanat imzaladıq. Bu bəyanat mətbuatda dərc olunacaqdır, siz onu oxuyacaqsınız. Bizim əməkdaşlığımızın bütün sahələri, yəni indiyədək görülən işlər, əldə olunan nəticələr və ölkələrimizin bundan sonrakı əməkdaşlığının əsas istiqamətləri orada öz əksini tapıbdır. Söhbət ondan gedir ki, biz bütün sahələrdə – siyasi, iqtisadi, elm və mədəniyyət sahələrində əməkdaşlığımız strateji tərəfdaşlıq xarakteri daşıyır. Biz bunları əks etdirdik.

Tbilisi Dövlət Akademik Opera və Balet Teatrında Gürcüstan ictimaiyyəti ilə görüşdə prezident Eduard Şevardnadzenin çıxışı və mənim çıxışım, təbii ki, Gürcüstan-Azərbaycan dostluğunun gözəl bir nümunəsinə çevrildi. Siz gördünüz ki, mən «İstiqlal» ordenini ona təqdim etdim.

Bu gün parlamentdə mənim çıxışım da çox böyük hərarətlə qarşılandı. Onların bildirdiyinə görə, hamı – təkcə Şevardnadzenin tərəfdarları yox, bütün müxalifət nümayəndələri də mənim dediyim sözləri alqışlarla qarşılayırdılar. Təkcə orada yox, Dövlət Akademik Opera və Balet Teatrında keçirilən görüşdə də bu ölkənin müxalifət nümayəndələrinin hamısı iştirak edirdi. Onların da hamısı mənim dediyim bütün sözləri dəstəkləyirdilər, alqışlayırdılar, əl çalırdılar. Eduard Şevardnadze, Baş nazir, parlamentin sədri bunu mənə söyləyirdilər. Çünki salondakılardan kimin müxalifət, kimin iqtidar nümayəndəsi olduğunu onlar bilirlər. Mən onları o qədər də seçə bilmirəm və belə məqsəd də daşımıram.

Yəni bunların hamısı ümumiyyətlə, Gürcüstanın ictimaiyyəti tərəfindən çox müsbət qarşılanıbdır. Təbiidir ki, bu görüşün mənası, bəlkə də əsas mənalarından biri ondan ibarətdir ki, aprelin 9-da Gürcüstanda prezident seçkiləri keçiriləcəkdir. Mənim bu ölkəyə səfərim, Azərbaycanın Gürcüstana münasibəti, Azərbaycan prezidenti kimi mənim Eduard Şevardnadzeyə şəxsi münasibətim, onun haqqında dediyim sözlər və sair – əlbəttə ki, bunlar hamısı Eduard Şevardnadzenin seçilməsinə bizim tərəfdən göstərilən dəstəkdir. Mən bunu orada açıq demişəm, bildirmişəm.

Hesab edirəm, bu seçkilərdə Şevardnadze seçilməlidir və ümid edirəm ki, seçiləcəkdir. Burada da biz Gürcüstan xalqına və Gürcüstan prezidentinə öz dostluq münasibətimizi göstərdik. Bu qədər. Yenə də sözünüz var?

**S u a l: Cənab prezident, Siz Rusiyada seçkiqabağı vəziyyəti necə qiymətləndirirsiniz və bu vəziyyət demokratik normalara, Sizcə, nə dərəcədə uyğundur?**

**C a v a b:** Bilirsiniz, təəssüf ki, mən bu barədə çox az informasiyaya malikəm. Gördüyünüz kimi, iki gündür respublikadan ayrılmışam və televiziya ilə heç nə görməmişəm və sair. Bundan əvvəl, hesab edirəm ki, orada hər şey normal gedir. Şübhə etmirəm ki, Vladimir Putin prezident seçiləcəkdir. Ona görə ki, seçkilərə hazırlıq demokratik yolla gedir.

Bəs sizin bu hazırlığın demokratik getmədiyini söyləməyə hər hansı əsasınız varmı? Əgər sizin əsasınız yoxdursa, mənim də əsasım yoxdur.

**S u a l: Cənab prezident, Siz tariflər barədə Tbilisidə çox gözlənilməz bir qərar verdiniz. Mümkünsə, bu barədə bir qədər ətraflı söhbət açasınız.**

**C a v a b:** Bəli, qərar verdim və məsuliyyəti də öz üzərimə götürdüm.

**S u a l: Bunun əsas səbəbi nə idi?**

**C a v a b:** Əsas səbəbi o idi ki, biz noyabr ayında İstanbulda Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri haqqında sazişi imzaladıq. Bunu Türkiyənin, Azərbaycanın, Gürcüstanın, Qazaxıstanın prezidentləri və

Amerikanın prezidenti cənab Bill Klinton imzaladılar. Bu sazişin bir sıra kommersiya cəhətləri vardır. Bundan sonra onları həll etmək lazım idi. Onları da bizim nümayəndə heyətləri – Türkiyənin, Gürcüstanın, Azərbaycanın nümayəndə heyətləri həll edirdilər, müzakirə edirdilər. Türkiyədə, Azərbaycanda, Gürcüstanda bir neçə dəfə görüşlər keçirilmişdi. Aparılan bu görüşlər nəticəsində ardıcıl surətdə həmin məsələlər barədə hər bir tərəfdən olan bəzi müəyyən narazılıqların, yaxud təkliflərin hamısı ilə əlaqədar razılıq əldə edilmişdi.

Gürcüstan bir neçə təklif irəli sürmüşdü. Onlar həm ekologiya, həm əsas ixrac boru kəmərinin təhlükəsizliyinin təmin olunması, həm bu kəmərin keçdiyi ərazilərdə yerin alınması, həm də tariflər ilə əlaqədar təkliflər irəli sürmüşdülər. Bu təkliflərə bir neçə dəfə baxılmışdı. Nəhayət, Gürcüstan tərəfi həmin dörd təklifdən üçünü götürmüşdü, yəni Türkiyənin, Azərbaycanın təklifləri ilə razılaşmışdı.

Ancaq onlar tariflər barədə danışıqlar aparır, deyirdilər ki, Gürcüstan tranzit ölkəsidir, iqtisadi cəhətdən onun imkanları azdır. Ona görə də onlar daha yüksək tarif əldə etmək istəyirdilər. Ancaq, təbiidir ki, bu tarifin də bir iqtisadi qanunu var. Bu tariflər əsas ixrac boru kəmərinin uzunluğu, yəni nə qədər kilometr olması, onun neft ixracetmə imkanları və başqa parametrlərə görə hesablanır. Türkiyənin tarifləri hesablanmışdı, onlar bunu qəbul etmişdilər. Gürcüstanın və Azərbaycanın da tarifləri hesablanmışdı.

Ancaq Gürcüstan daim bizə müraciət edirdi ki, onların tariflərini qaldıraq. Onların tariflərini artırmaq üçün gərək biz ya Türkiyənin tariflərindən nə isə kəsəydik, ya da Azərbaycanın tarifindən götürəydik.

Biz Türkiyəyə toxunmadıq, öz tariflərimizdən bir hissəsini onlara təklif etdik. Amma bu da onları qane etmədi. Vəziyyət belə idi ki, bundan çıxış yolu tapmaq lazım idi. Çünki bu kommersiya müqavilələri gərək tezliklə imzalansın, aprelin axırına qədər tamam olsun və parlamentlərin ratifikasiyasına verilsin. Ratifikasiya da tez olmalıdır ki, artıq iyun ayının axırında Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşasının başlanması üçün investorlar öz işlərini görsünlər və tikinti işləri başlansın. Əgər biz bu sahədə müəyyən qədər geciksək, investorların prinsiplərinə görə, onda ola bilər ki, həmin gecikmə bizə daha da çox zərər gətirsin, ola bilər, bu işin başlanması hətta bir il təxirə düşsün.

Ona görə də onların dəfələrlə müraciətini və dünən mənə çoxlu xahişlərini nəzərə alaraq ölçdüm-biçdim, fikirləşdim və qərar qəbul etdim ki, Azərbaycan öz tariflərini Gürcüstana verir və beləliklə də Gürcüstana yenidən yardım edir. Mən belə bir qərar qəbul etdim və bununla da məsələ həll olundu.

**S u a l: Cənab prezident, Bakı-Ceyhan neft kəməri ilə bağlı problemlər həll edildikdən sonra ehtimal olunan «İran variantı» gündəlikdən çıxır, yoxsa qalır?**

**C a v a b:** Bilirsiniz, gəlin tələsməyək. Biz beş ildir ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsi üzərində işləyirik. Görürsünüz, biz noyabr ayında sazişi imzalamışıq, indi mart ayı sona çatır, hələ bu işi başa çatdıra bilmirik. Burada bir çox ciddi hərəkətlər etmək, risklərə getmək lazımdır. Mən dünən çox böyük bir riskə getdim və məsuliyyəti də öz üzərimə götürdüm. Bilirsiniz, Azərbaycan 40 il ərzində ona məxsus olan tariflərdən imtina etmədi, onları Gürcüstana bağışladı. Mən bunu etdim ki, məsələ həll olunsun. İndi hələ bu məsələləri həll edirik. Sən İran haqqında niyə narahat olursan? Vaxt gələcək, o suallara da cavab verəcəyik.

**S u a l: Cənab prezident, bu, birtərəfli güzəşt idi, yaxud da bunun əvəzində Azərbaycan nə isə alacaq?**

**C a v a b:** Güzəşt birtərəflidir. Burada ikitərəfli güzəşt ola bilməz. Onlar bizdən xahiş edirlər, bunun əvəzində onlar bizə nə verə bilərlər? Bir halda ki, onlar xahiş edirlər ki, biz onlara kömək edək, burada ikitərəfli güzəşt ola bilməz.

**S u a l: Başqa çıxış yolu yox idi? Onların inadkarlığı nə ilə bağlıdır?**

**C a v a b:** İstəyirlər özlərinə müəyyən qədər iqtisadi yardım alsınlar. Aydındır.

**S u a l: Cənab prezident, bu layihədə Qərb də maraqlıdır. Bəs Qərb Azərbaycana nə isə vəd edə bilərmi?**

**C a v a b:** Ay kişi, nə vəd edəcəkdir? Biz böyük bir layihə həyata keçiririk. Demək olar ki, XX əsrin sonunda, prezident Bill Klintonun İstanbulda dediyi kimi, dünyanın ən böyük layihələrindən birini həyata keçiririk. Biz durub burada Qərbdən nə gözləyəcəyik? Layihənin öz xüsusiyyətləri vardır. Həmin layihənin həyata keçirilməsi Azərbaycanın gələcəyi üçün böyük faydalar verəcəkdir. İndi burada işə hələ başlamamış deyək ki, biz bunu etdik, Qərb də bizə bir kömək göstərsin, - bu, gülünc bir şeydir. Yaxşı olar ki, mənə elə-belə sualları verməyəsiniz.

**S u a l: Cənab prezident, Sizin gəlişinizi hamı səbirsizliklə gözləyirdi. Əfv ilə bağlı məlumat yayıldı, ən çox da bəzi ailələr gözləyirlər ki, Siz gələn kimi bu barədə fərman imzalayacaqsınız. Bu məlumat nə dərəcədə düzgündür? Bütün qəzetlər yazır ki, əfv olunanlar arasında İsgəndər Həmidov ilə Ənvər Qafarlı da vardır.**

**C a v a b:** Bilirsən, mən neçə dəfə əfv etmişəm, amnistiya haqqında Milli Məclisə neçə dəfə təkliflər vermişəm. Son illərdə 50 mindən artıq insan cəza yerlərindən məhz mənim təşəbbüsümlə qəbul edilən amnistiyalar və əfvlər nəticəsində azad olunubdur. Mən bu siyasətimi ardıcıl surətdə aparıram və aparacağam, bir qrup adamları da əfv edəcəyəm. Amma kimi əfv edəcəyəm – o, mənim işimdir. Sağ olun.

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD RƏFİQ TƏRARA**

Hörmətli cənab prezident!

Pakistan İslam Respublikasının milli bayramı – Pakistan gününün ildönümü münasibətilə sizi, dost və qardaş Pakistan xalqını məmnuniyyətlə təbrik edirəm.

Biz Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafını yüksək qiymətləndiririk.

Əminəm ki, xalqlarımızın tarixi köklərlə bağlı olan əlaqələri inkişaf edib dərinləşərək hər iki ölkənin mənafeyinə xidmət edəcəkdir.

Cənab prezident, Sizə cansağlığı və səadət, ölkənizə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *23 mart 2000-ci il*

**XALQ ARTİSTİ**
**ZƏROŞ XANIM HƏMZƏYEVAYA**

Hörmətli Xəroş xanım!

Sizi – Azərbaycan teatr sənətinin görkəmli nümayəndəsini 75 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Ömrünün yarıməsrlik bir dövrünü teatra həsr etmiş sənətkar kimi sizin Azərbaycan aktyorluq məktəbinin təşəkkül tapıb inkişaf etməsində xidmətləriniz vardır. Dünya klassiklərinin və Azərbaycan dramaturqlarının səhnə əsərlərində yaratdığınız rəngarəng obrazlarla siz teatr pərəstişkarlarının dərin hörmətini və rəğbətini qazanmısınız, Cəfər Cabbarlı dramaturgiyası sizin yaradıcılığınızda xüsusi yer tutur. Görkəmli dramaturqun əsərlərində böyük məhəbbətlə yaratdığınız qadın surətləri yüksək sənətkarlıq səviyyəsinə görə teatr tariximizdə özünəməxsus iz qoymuşdur. Həmin pyeslərdə aparıcı xətlərdən olan qadın azadlığı, qadınların maarifləndirilməsi, hüquqlarının müdafiəsi ideyaları sizin qəhrəmanlarınızın simasında böyük təsir gücünə malik olmuş, cəmiyyətdə qadınların layiqli yer tutması işinə təkan vermişdir.

Fitri istedad, ifa üslubunuza xas olan təbiilik, yüksək səhnə mədəniyyəti sizə həmişə öz həyatiliyi ilə seçilən müxtəlif taleli saysız-hesabsız surətlər yaratmağa imkan vermişdir. Respublikanın tanınmış teatr xadimi, mərhum həyat yoldaşınız İbrahim Həmzəyevlə birlikdə Naxçıvan Dövlət Dram Teatrının səhnəsində keçən sənət yolunuz 40–50-ci illərdə bu qədim diyarın mədəni həyatının canlanmasında mühüm rol oynamışdır. Həmin dövrü haqlı olaraq Naxçıvan teatrının «Həmzəyevlər dövrü» adlandırmaq olar. Milli teatr sənətimizin Kazım Ziya, Sidqi Ruhulla, Rza Əfqanlı, Mustafa Mərdanov, Ələsgər Ələkbərov kimi sönməz ulduzları ilə birlikdə oynadığınız hər bir tamaşa Naxçıvanın teatr tarixinə qızıl hərflərlə yazılmışdır.

Yüksək peşəkarlıq, seçdiyiniz sənətə vurğunluq və sədaqət, milli teatrımızın inkişafı yolunda göstərdiyiniz fədakarlıq gənc aktyorlar üçün əsl həyat məktəbidir. İnanıram ki, sənətkarların hələ neçə-neçə nəsli bundan sonra da həmin məktəbdən faydalanacaq, vətənə, xalqa, sənətə sevgi dərsi alacaqdır.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *27 mart 2000-ci il*

## AZƏRBAYCANDA MİLLİ MƏTBUATIN YARADILMASININ 125 İLLİYİ HAQQINDA

Azərbaycanın ictimai həyatının ən mühüm hadisələrindən biri olan milli mətbuatın formalaşması XIX əsrin ortalarına təsadüf edir. Azərbaycan və eləcə də bütün şərq aləmi üçün tamamilə yeni siyasi, mədəni və elmi ünsiyyət vasitəsi olan mətbuatın yaranması əslində ölkədə gedən mühüm ictimai-siyasi, iqtisadi və mədəni proseslərlə, o cümlədən maarifçilik hərəkatının, dünyəvi teatrın və yeni tipli məktəbin təşəkkül tapması ilə sıx bağlıdır.

1832-ci ildə «Tiflis əxbarı» qəzeti və 1845-ci ildə «Zaqafqazski vestnik» qəzetinə «Qafqazın bu tərəfinin xəbəri» adlı azərbaycanca buraxılan əlavə milli mətbuatın yaradılması istiqamətində atılmış ilk addımlar olmuşdur. Rəsmi bülleten xarakteri daşıyan həmin nəşrlər sözün əsl mənasında hələ qəzet adlandırıla bilməzdi.

Milli mətbuatımızın bünövrəsi 1875-ci il iyulun 22-də «Əkinçi» qəzetinin ilk nömrəsinin nəşri ilə qoyuldu. Bütün Qafqazda böyük əks-səda doğuran bu qəzetin naşiri də, redaktoru da, korrektoru da Azərbaycan milli maarifçilik hərəkatının banilərindən biri, təbiətşünas alim Həsən bəy Zərdabi idi. Qəzetin ərsəyə gəlməsində Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani və başqa ziyalıların böyük xidmətləri olmuşdur. Dövrünün görkəmli maarifçiləri olan bu şəxsiyyətlər «Əkinçi» qəzeti səhifələrində öz maarifçi və demokratik ideyalarını təbliğ edərək, ictimai, siyasi və bədii fikrin inkişafına böyük təsir göstərmişlər.

Mütərəqqi ideyaların carçısı və tribunası olan «Əkinçi» elm, maarif və mədəniyyətin, ədəbiyyat və incəsənətin inkişafına, yeni tipli məktəblərin yaradılmasının zəruriliyinə aid materiallar dərc edirdi. Qəzetin qazandığı ən böyük uğurlar ilk növbədə onun dilinin xalq dilinə yaxın, sadə və səlis olması idi. Xalqın elmi və mədəni cəhətdən tərəqqi etməsi uğrunda çalışan «Əkinçi» qadın azadlığı və qadın təhsili ideyasını təbliğ edən ilk Azərbaycan qəzeti olmuşdur. O, dini mövhumata, xurafata və cəhalətə qarşı kəskin çıxışlar edirdi. Qəzetdə təbiət elmləri və kənd təsərrüfatının inkişafı ilə bağlı elmi-kütləvi məqalələr verilirdi. «Əkinçi» Azərbaycandan kənarda da – Gürcüstan, Dağıstan, Özbəkistan və başqa yerlərdə yayılırdı.

Milli demokratik mətbuatın «Əkinçi» qəzeti tərəfindən bəyan edilmiş başlıca prinsipləri – maarifləşmə, müasirləşmə, məfkurə saflığı, ümummilli məqsədlərin təbliği, bəşəri dəyərlərin milli ənənələrlə üzvü vəhdəti, ədəbi dilin danışıq dilinə yaxınlaşdırılması, hadisələrin obyektiv işıqlandırılması Azərbaycanda milli demokratik mətbuatın gələcək inkişafı üçün təməl daşları rolunu oynadı.

1877-ci ildə «Əkinçi» qəzeti bağlandıqdan sonra müxtəlif səylər göstərilməsinə baxmayaraq, ölkəmizdə bir müddət azərbaycanca mətbu orqan çıxmamışdır. Ölkədə cərəyan edən ictimai proseslər və cari məsələlər bir müddət yerli rusdilli mətbuatda öz əksini tapırdı. Bakıda rus dilində çıxan ilk qəzet isə birinci nömrəsi 1871-ci ilin mart ayında işıq üzü görən «Bakinski listok» olmuşdur. 1876-cı ildə ikinci rusdilli qəzet «Bakinskiye izvestiya» nəşrə başlamışdır. Rusdilli qəzetlər içərisində daha uzunömürlü olmuş «Kaspi»nin 1897-ci ildən etibarən naşirliyini Hacı Zeynalabdin Tağıyev öz üzərinə götürmüş və təxminən həmin dövrdən onun redaktoru Əlimərdan bəy Topçubaşov, sonralar isə Əlibəy Hüseynzadə olmuşdur. Rus dilində nəşr edilən qəzetlər Azərbaycan səhifəsi yaratmaq təşəbbüsü göstərsələr də buna nail ola bilməmişlər.

1879-cu ildə Hacı Səid Əfəndi Ünsizadə Tiflisdə «Ziyayi-Qafqaziyyə» qəzetini çıxarmağa nail olmuşdur. Qəzetin cəmi 104 nömrəsi çıxdıqdan sonra 1880-ci ildə o, çapını dayandırmışdır. 1883–1891-ci illərdə Tiflisdə «Əkinçi» üslubunu davam etdirən «Köşkül» qəzeti və jurnalı çıxırdı.

XX əsrdə isə Azərbaycan dilində çıxan ilk qəzet Məmmədağa Şahtaxtinskinin 1903-cü ildə Tiflisdə buraxdığı ictimai-siyasi, iqtisadi, elmi, ədəbi «Şərqi-rus» qəzeti olmuşdur. Qəzetin Azərbaycanda ictimai fikir tarixinin inkişafında xüsusi yeri olmuşdur. Qəzetdə dünyəvi elmlər, ana dili, qadın azadlığı ilə bağlı mütərəqqi fikirlər öz əksini tapırdı. «Şərqi-rus» qəzeti Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Ömər Faiq Nemanzadə, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Əli Nəzmi kimi böyük maarifçiləri öz ətrafında birləşdirə bilmişdi. Qəzetin ən böyük xidmətlərindən biri də Cəlil Məmmədquluzadəni bir jurnalist kimi üzə çıxarması oldu. O, mətbuatda demokratik cərəyanın bərqərar edilməsində mühüm rol oynayan peşəkar bir redaktor kimi məhz bu qəzetdə yetişmişdir.

Artıq «Şərqi-rus» qəzeti ətrafında formalaşmış yaradıcı heyət Azərbaycanda mətbuatın inkişafının yeni mərhələsinin başlanması üçün zəmin yaratdı. Cəlil Məmmədquluzadənin təşəbbüsü, redaktorluğu və naşirliyi ilə 1906-cı il aprelin 7-də Tiflisdə həftəlik illüstrasiyalı ilk Azərbaycan satirik jurnalı – «Molla Nəsrəddin» işıq üzü gördü. 1918-ci ilədək Tiflisdə nəşr olunan jurnal 1921-ci ildə Təbrizdə, 1921–31-ci illərdə isə Bakıda çap olunmuşdur.

Mütərəqqi ideyaların carçısı olan «Molla Nəsrəddin» jurnalı müstəmləkəçilik siyasətini, geriliyi, mövhumatı amansız satira atəşinə tutur, Azərbaycan dilinin saflığı uğrunda ardıcıl mübarizə aparırdı. Kəskin və cəsarətli tənqidi çıxışlarına, acı həqiqətləri söylədiyinə görə daim hücum və təqiblərə məruz qalan jurnalın nəşri çap

senzurası tərəfindən dəfələrlə dayandırılmış, bir sıra nömrələri müsadirə olunmuş, redaktoru bir neçə dəfə məhkəmə məsuliyyətinə cəlb edilmiş, cərimə edilmişdir. Lakin bütün təqib və təzyiqlərə baxmayaraq, «Molla Nəsrəddin»in haqq səsi çox keçmədən Qafqazın hüdudlarını aşıb Rusiyada, türk aləmində, bütün Yaxın və Orta Şərqdə eşidildi. Jurnalın Mərkəzi Asiyada, Krımda, İrəvan, Kazan, Ufa, Həştərxan, Orenburq, Təbriz, Tehran, Ərzurum, İstanbul, Qahirə, Bombey, Kəlküttə və sair şəhərlərdə çoxlu oxucusu var idi.

«Molla Nəsrəddin» dövrünün mühüm siyasi hadisələrinə səs verir, milli oyanış prosesinə xidmət edirdi. Jurnalın mövzu və təsir dairəsi çox geniş idi. «Molla Nəsrəddin» Azərbaycan xalqının mütərəqqi qüvvələrini, demokratik ziyalıları öz ətrafında toplamışdı. Jurnalda Azərbaycanın görkəmli şair, yazıçı və jurnalistləri ilə yanaşı, Oskar Şmerlinq, İosif Rotter, Əzim Əzimzadə kimi rəssamlar da fəaliyyət göstərərək Azərbaycanda yeni rəssamlıq məktəbinin təməlini qoydular. «Molla Nəsrəddin»in müasir ədəbiyyat, maarifləşmə, demokratikləşmə uğrunda mübarizəsi, onun güclü satirası jurnalda əməkdaşlıq edən şair və yazıçıların yaradıcılıq istiqamətini müəyyən etmiş, onların görkəmli sənətkar kimi formalaşmasında həlledici amil olmuş, beləliklə də «mollanəsrəddinçilik» adlı böyük bir ictimai-ədəbi hərəkat yaranmışdı, Mollanəsrəddinçilər klassik Azərbaycan, şərq, rus və dünya bədii-publisist irsinin ənənələrindən, xalq yumorundan məharətlə bəhrələnərək, milli mətbuat tarixində satirik jurnalistikanın bünövrəsini qoymuş, Azərbaycan publisistikasını janr və üslub rəngarəngliyi ilə zənginləşdirərək onun inkişafında misilsiz rol oynamışlar.

Bu dövr Azərbaycanda uşaq və valideynlər üçün «Dəbistan», «Rəhbər», «Məktəb» kimi jurnalların buraxılması ilə də əlamətdar idi. Azərbaycan ziyalılarının fəal iştirakı ilə nəşr olunan «Həyat», «Füyuzat», «Təzə həyat», «Şəlalə», «Açıq söz», «Dirilik» kimi qəzet və jurnalların da mətbuatımızın inkişafında böyük rolu olmuşdur.

Əsrin əvvəllərində Azərbaycanda çıxan dövri mətbuat orqanları sözsüz ki, milli oyanış, milli özünüdərk proseslərinin aparıcı vasitələrindən biri olmuşdur.

Azərbaycanın 1918-ci il mayın 28-də öz müstəqilliyini qazanmasında milli mətbuatın da mühüm rolu olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin bütün xadimlərinin həm bir ruhda milli formalaşmasında, həm də, onların siyasi fəaliyyətinin gerçəkləşdirilməsində mətbuatın misilsiz xidmətləri vardır. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ümummilli platformadan çıxış edən «Azərbaycan» qəzetinin dahi Üzeyir bəy Hacıbəyov tərəfindən nəşr edilməsi ictimai-siyasi proseslərin milli mədəniyyətin inkişafı ilə nə qədər bağlı olduğunun ən bariz nümunəsidir. Əslində cümhuriyyət dövrü mətbuatının fəaliyyəti Həsən bəy Zərdabi ideyalarının, «Əkinçi» prinsiplərinin həyata keçirilməsinin yeni və çox mühüm mərhələsi idi. Təəssüf ki, bu mərhələnin ömrü az oldu.

XX əsrin 70 ildən artıq dövrü sovet mətbuatının fəaliyyət göstərdiyi illərə təsadüf edir. Bu dövrün də xüsusi yeri vardır. Məhz bu illərdə qəzet və jurnalların şəbəkəsi genişlənmiş, mətbuat kütləvi informasiya vasitələrinin yeni növləri hesabına zənginləşmişdir. Jurnalistikanın çeşidli növləri meydana çıxmışdır. Mətbuat daha çox partiyalı, sinfi olsa da, vətənpərvər jurnalistlərimiz öz qələmlərini daim xalqın xidmətində işlətmiş və bu yolda bəzən təqiblərə də məruz qalmışdır.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra mətbuatın inkişafı daha çox partiyalı mövqe ilə bağlı idi. Respublikanın «Kommunist» (ilk nömrəsi 1919-cu ildə çıxmışdır), «Bakinski raboçi» (1906-cı ildən çıxır), «Vışka» (1928-ci ildən çıxır), «Azərbaycan gəncləri», «Molodyoj Azerbaycana» (ilk nömrələri 1919-cu ildə çıxmışdır), «Bakı», «Baku» (1958-ci ildən çıxır), «Ədəbiyyat və incəsənət» (1934-cü ildən çıxır) və sair tanınmış mətbuat orqanlarında kommunist ideologiyası ilə bağlı məsələlərlə yanaşı, respublikanın iqtisadi, elmi, mədəni inkişafı ilə əlaqədar problemlər də öz əksini tapırdı. Xalqın həyatının işıqlandırılmasında ideoloji buxovların mövcudluğuna baxmayaraq, öz səhifələrində müxalif fikrə də yer verən, o dövr üçün doğrudan da vətənpərvər ruhlu məqalələr dərc edən mətbuat orqanlarının milli şüurun və özünüdərkin formalaşdırılmasında böyük rolu olmuşdur. Bu qəzetlərin xalqımızın dil, ədəbiyyat və mədəniyyətinə həsr etdiyi, azərbaycançılıq ideyasına xidmət edən yazıları totalitar rejim şəraitində belə, Azərbaycan jurnalistikasının mövqeyini nümayiş etdirir. Sovet hakimiyyəti illərində Azərbaycan mətbuatı kommunist ideologiyasının güclü təsiri altında fəaliyyət göstərsə də, o öz milli varlığını qoruyub saxlaya bilmiş, əldə etdiyi zəngin ənənələri davam etdirərək respublikanın ictimai-siyasi həyatında fəal rol oynamışdır. Məhz bu dövrdə publisistikanın tamamilə yeni bir növü – teleradio jurnalistikası təşəkkül tapdı. Mətbuatımızın coğrafiyası və ifadə vasitələri genişlənərək respublikanın ictimai-siyasi həyatının demək olar ki, bütün sahələrini əhatə etmişdir.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra həyatın bir çox sahələrində olduğu kimi, mətbuatın inkişafında da dönüş yarandı, siyasi plüralizm və söz azadlığını təmin etmək üçün mühüm işlər həyata keçirildi. Hələ Azərbaycan xalq Cümhuriyyəti illərindən sonra rüşeym halında inkişafını dayandırmış proseslər yenidən dirçələrək demokratik mətbuatın inkişafına xidmət etdi.

Azərbaycan mətbuatının sürətli inkişafı respublikamızda dünya standartlarına cavab verən müstəqil kütləvi informasiya vasitələrinin yaranmasına gətirib çıxardı. Bu gün hüquqi, demokratik dövlət və vətəndaş cəmiyyəti qurmaq istiqamətində irəliləyən Azərbaycanda 650-dən çox müxtəlif kütləvi informasiya vasitəsi – qəzet, jurnal, informasiya agentliyi və teleradio şirkətləri fəaliyyət göstərir. Bu da ölkəmizin mətbuatının inkişaf yolunda olmasına dəlalət edir.

Milli özünüdərkin bərqərar olmasında, vətənpərvərlik hisslərinin aşılanmasında, milli və ümumbəşəri dəyərlərin təbliğində müstəsna rol oynamış Azərbaycan mətbuatı xalqımızın azadlıq və müstəqillik uğrunda mübarizəsinə öz böyük töhfəsini vermişdir.

Yarandığı 125 il ərzində Azərbaycan milli mətbuatı zəngin və mənalı bir inkişaf yolu keçmişdir. Azərbaycan xalqının qədim ədəbi və mədəni irsə malik olması, Şərq və Qərb sivilizasiyasının qovuşduğu məkanda formalaşmış mədəniyyəti demokratik milli mətbuatın gələcək inkişafı üçün möhkəm zəmin yaratmışdır.

Azərbaycan mətbuatının ictimai-siyasi və mədəni hayatımızın inkişafındakı mühüm rolunu, respublikanın həyatında böyük əhəmiyyətini nəzərə alaraq qərara alıram.

Azərbaycanda demokratik mətbuatın yaradılmasının 125 illiyi təntənəli surətdə qeyd olunsun.

Bakı şəhəri, *27 mart 2000-ci il*

**BEYNƏLXALQ VALYUTA FONDUNUN**
**İCRAÇI DİREKTORU**
**CƏNAB H.KÖHLERƏ**

Hörmətli cənab Horst Köhler!

Sizi Beynəlxalq Valyuta Fondunun icraçı direktoru təyin olunmağınız münasibətilə təbrik edir və yeni fəaliyyətinizdə uğurlar diləyirəm.

Azərbaycanın Beynəlxalq Valyuta Fondu ilə sıx işgüzar əməkdaşlıq əlaqələri vardır. Beynəlxalq Valyuta Fondu ölkəmizdə həyata keçirilən iqtisadi islahatları dəstəkləmiş və bu sahədə öz dəyərli məsləhət və tövsiyələrini vermişdir. Güman edirəm ki, bundan sonra da Beynəlxalq Valyuta Fondu ilə əlaqələrimiz daha da möhkəmlənəcək və genişlənəcəkdir.

Sizinlə yaxın vaxtlarda görüşməyə və BVF ilə Azərbaycanın gələcək əməkdaşlığının istiqamətlərini müzakirə etməyə ümid bəsləyirəm. Sizi münasib vaxtda Azərbaycana dəvət edirəm.

Səmimiyyətlə, Sizin

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *27 mart 2000-ci il*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Sizi Rusiya Federasiyasının prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Prezident seçkilərində sizin qalib gəlməyiniz inandırıcı şəkildə sübut edir ki, Rusiyanın vətəndaşları dövlətçiliyi və hüquq qaydalarını möhkəmləndirmək, cəmiyyətin bütün sahələrində demokratik islahatlar həyata keçirmək istiqamətində sizin xəttinizi dəstəkləyirlər.

Əminəm ki, ölkələrimiz arasında dərin tarixi kökləri olan ənənəvi dostluq münasibətləri xalqlarımızın mənafeyi naminə, regionda sülh, sabitlik və tərəqqi naminə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, səadət və dövləti fəaliyyətinizdə böyük müvəffəqiyyətlər arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *27 mart 2000-ci il*

## XALQ ARTİSTİ ŞƏFİQƏ MƏMMƏDOVAYA

Hörmətli Şəfiqə xanım!

Sizi – Azərbaycan teatr və kinosunun görkəmli nümayəndəsini yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Siz Azərbaycan mədəniyyətinin inkişafında özünəməxsus yer tutan tanınmış sənətkarlardansınız. Siz hələ gənc yaşlarınızdan böyük uğurlar qazanaraq teatr sənətimizə yeni ab-hava, yeni ifa tərzi gətirmisiniz. Milli teatrımızın zəngin ənənələrini layiqincə davam etdirərək Azərbaycan səhnəsində dövrün tələblərinə uyğun müasir tipli qadın obrazları yaratmağa nail olmusunuz. Dünya və Azərbaycan dramaturgiyasının şah əsərlərində oynadığınız rollar teatr tariximizə əbədi daxil olmuşdur. Sizin ifa üslubunuza xas olan başlıca xüsusiyyət məhz qəhrəmanlarınızın zahiri effektlərdən qaçaraq tamaşaçıların diqqətini qabın obrazlarının daxili aləminə cəlb etməyə müvəffəq olmasıdır.

İstedad və bacarığınız iştirakçısı olduğunuz hər bir əsərin incəliklərini və estetik çalarlarının tam aydınlığı ilə açılmasına yönəlmişdir. Tamaşalarınızda cərəyan edən hadisələr pərəstişkarlarınızı daim ovsunlayaraq onları mənəvi iztirablar və daxili çarpışmalar keçirən faciəli surətlərin sehrli dünyasına aparır. Məhz buna görə yaradıcılığınızda Cavid dramaturgiyası xüsusi yer tutur və burada cərəyan edən xeyirlə şərin, işıqla zülmətin əbədi qarşıdurması sizin səhnə ifanızda müasir bir həyat konflikti kimi özünü büruzə verir.

Aktyor sənətinin incəliklərinə bələd olmağınız, gözəl nitq qabiliyyətiniz, yüksək insani keyfiyyətləriniz Azərbaycan kinosunda da oynadığınız rollara bənzərsiz xüsusiyyətlər vermişdir. Şəxsiyyətinizdən irəli gələn gözəllik, mərdlik, sədaqət və əməksevərlik bu rolların mahiyyətinə hopmuşdur. Həmin məziyyətlər sizin yaradıcılığınızı gənc aktyor nəsillərinə örnək olacaq məktəb səviyyəsinə qaldırmışdır və bu məktəb bacarığınızın, yüksək peşəkarlığınızın məhsulu olmaqla daim Azərbaycan mədəniyyətinin xidmətindədir. Sizin Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti və Bakı Musiqi Akademiyasının professoru kimi göstərdiyiniz fəaliyyət də bu baxımdan təqdirə layiqdir.

Teatr və kinomuzun inkişafı naminə xidmətləriniz daim layiqincə qiymətləndirilmişdir. Lakin aldığınız mükafatların ən dəyərlisi xalqımızın bir sənət adamı kimi sizə bəslədiyi dərin hörmət və məhəbbət olmuşdur.

Sizə cansağlığı, xoşbəxtlik və uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan RespublikasınınPrezidenti**

Bakı şəhəri, *29 mart 2000-ci il*

## 31 MART – AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT

Əziz həmvətənlər!

Xalqımızın çoxəsrlik zəngin, şərəfli qəhrəmanlıqlar və yüksək yaradıcılıq nümunələri ilə dolu, eyni zamanda mürəkkəb və keşməkeşli bir tarixi vardır. Bu tarixdə sevinc və kədər, qələbə və məğlubiyyətlər əkiz yaşamış, daim bir-birini əvəz etmişdir. Təsadüfi deyildir ki, ümumxalq təntənələri və ruh yüksəkliyi ilə qeyd etdiyimiz Novruz bayramından sonra, Sizə keçmişimizin kədərli, faciəli səhifələrini yad etmək üçün müraciət edirəm.

1998-ci ildən bəri Azərbaycan Respublikası hər il 31 martı azərbaycanlıların soyqırımı günü kimi dövlət səviyyəsində qeyd edir. Bu anma tədbirlərinin keçirilməsindən məqsəd, bir tərəfdən, soyqırımına məruz qalmış günahsız qurbanların müqəddəs xatirəsini yad etmək, onlara Allahdan rəhmət diləməkdir, digər tərəfdən isə tariximizin uzun illər obyektiv qiymətini almamış, təhrif olunmuş hadisələrinə yenidən nəzər salmaq, nəticələr çıxarmaq, gələcək üçün vəzifələr müəyyən etməkdir.

Azərbaycan xalqının tarixində artıq soyqırımı kimi siyasi və hüquqi qiymətini almış faciəli hadisələr öz başlanğıcını XIX əsrin əvvəllərindən götürür. Rusiya və İran arasında imzalanmış Gülüstan və Türkmənçay sülh müqavilələrindən sonra tarixi Azərbaycan torpaqlarında kütləvi şəkildə ermənilər məskunlaşdırılmağa başlanılmış, Qafqazın cənubunda Ermənistan dövlətinin yaradılması kursu yeridilmişdir. Eyni zamanda azərbaycanlıların öz qədim torpaqlarından, ata-baba yurdlarından qovulması, deportasiya prosesi həyata keçirilmişdir. Bu gün soyqırımı və deportasiya hadisələrinin xronoloji ardıcıllıqla yaddaşımızda bərpası faciələrimizin miqyasını və dəhşətlərini hərtərəfli hiss etməyə imkan verir.

1905–1907-ci illərdə Rusiya hakim dairələri tərəfindən himayə olunan və istiqamətləndirilən erməni millətçiləri azərbaycanlılara qarşı geniş miqyaslı qətllər və vəhşiliklər törətdilər. Bakıda və Azərbaycanın digər şəhər və kəndlərində qanlı hadisələr nəticəsində yüzlərlə yaşayış məntəqələri dağıdıldı, minlərlə azərbaycanlı erməni terrorunun qurbanı oldu. 1918-ci ilin martında antiazərbaycan ünsürlərin hökm sürdüyü, bolşevik-daşnak tərkibli Bakı kommunası tərəfindən əksinqilaba qarşı mübarizə pərdəsi altında milli qırğın törədildi, Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı. Bakıda və qəzalarda on minlərlə dinc əhali məhv edildi, memarlıq inciləri, məscidlər, məktəblər və digər mədəniyyət abidələri yandırılıb dağıdıldı.

Ermənilərin azərbaycanlılara qarşı yönəldilmiş deportasiya və soyqırımı siyasəti sovet hakimiyyəti illərində beynəlmiləlçilik pərdəsi altında məharətlə maskalanaraq həyata keçirilmişdir. Sovet Rusiyasının köməyi ilə Zəngəzur və bir sıra digər Azərbaycan torpaqları Ermənistan ərazisi elan edildi. Ermənilər türk-müsəlman respublikalarına qarşı ayrı-seçkilik siyasəti yürüdən SSRİ rəhbərliyinin qərarı ilə dövlət səviyyəsində 1948–1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına nail oldular.

Daim SSRİ rəhbərlərinin himayəsini və rəğbətini hiss edən ermənilər Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış etməkdə davam edirdilər. 80-ci illərin ortalarında yenidənqurma adlanan dağıdıcı proseslər vüsət götürdüyü zaman erməni ekstremizmi və separatçılığı yeni bir qüvvə ilə tüğyan etməyə başladı. SSRİ rəhbərliyi tərəfindən qızışdırılan münaqişə nəticəsində on minlərlə insan həyatına son qoyulmuş, yüz minlərlə soydaşımız öz tarixi torpaqlarından qovulmuşdur. Bir milyondan artıq azərbaycanlı öz doğma vətənində qaçqın və məcburi köçkün taleyinin ağrılarını və məşəqqətlərini yaşamağa məhkum edilmişdir. 1990-cı ilin yanvarında öz milli haqlarının və ərazi bütövlüyünün müdafiəsinə qalxan xalqımıza qarşı Konstitusiya borcunu yerinə yetirməkdən imtina edən SSRİ hakimiyyət orqanları və respublikanın o zamankı rəhbərliyi tərəfindən görünməmiş vəhşiliklər törədildi, yüzlərlə insan qətlə yetirildi, 1992-ci ilin fevralında keçmiş sovet qoşunlarının yaxından köməyi ilə erməni hərbi birləşmələri müasir tarixdə analoqu olmayan müdhiş faciə törətdilər. Azərbaycan şəhəri Xocalının minlərlə müdafiəçisi və dinc sakini öldürüldü, əsir alındı, şəhər yerlə yeksan edildi. Bu misilsiz vandalizm və soyqırımı aktlarından məqsəd xalqımızı qorxutmaq, onun mübarizə əzmini qırmaq idi.

Deportasiya prosesi etnik zəmində soyqırımı, insanların kütləvi qətli, yaşayış məntəqələrinin dağıdılması, milli mədəniyyət abidələrinin məhvi ilə müşayiət edilmişdir. XX əsrdə 2 milyona yaxın azərbaycanlı bilavasitə soyqırımı siyasətinin nəticələrini öz üzərində hiss etmişdir.

Məkrli və qəddar düşmənlərimizin məqsədyönlü şəkildə apardıqları soyqırımı və deportasiya siyasəti lap əvvəldən genişmiqyaslı, düşünülmüş informasiya müharibəsi ilə müşayiət olunmuşdur. Bu məqsədlə onlar öz arsenallarında olan ən müxtəlif üsul və vasitələrdən istifadə etmişlər. Nəticədə Azərbaycanın və bütün Qafqazın tarixi saxtalaşdırılmış, ermənilərin tarixi şişirdilərək qədimləşdirilmiş, azərbaycanlılara qarşı kəskin mənəvi təcavüz kampaniyası aparılmışdır. Qafqazda baş verən hadisələr şüurlu surətdə təhrif olunmuş Qərb və Rusiya ictimaiyyətinin nəzərində «yazıq, məzlum, əzabkeş erməni xalqı» obrazı formalaşdırılmışdır. Xalqımızın zəngin mədəniyyət abidələri, musiqisi və digər maddi-mədəniyyət nümunələri ermənilər tərəfindən mənimsənilib və bu

günün özündə də özününküləşdirilməyə cəhdlər göstərilir. Dünyanın müxtəlif ölkələrində yaşayan və mütəşəkkil fəaliyyət göstərən erməni icmaları, böyük dünya dövlətlərinin siyasi fəaliyyətlərinə təsir göstərə bilən erməni lobbisi onilliklər boyu planlı surətdə iş aparır.

Bunları deməkdə məqsədimiz informasiya mübarizəsi sahəsində fəaliyyət göstərməyin vacibliyini, qarşıda duran vəzifələrin genişliyini bütün vətəndaşlarımıza çatdırmaqdır. Azərbaycan dövləti, onun rəhbərliyi tərəfindən ölkə həqiqətlərinin, xalqımızın müsibətlərinin dünya ictimaiyyətinə çatdırılması, ayrı-ayrı ölkələrdəki Azərbaycan icmalarının, lobbi fəaliyyətinin gücləndirilməsi üçün xeyli işlər görülmüşdür. Lakin hələ çox işlər görülməlidir.

Əziz həmvətənlər! Qardaşlar, bacılar!

Gördüyünüz kimi, xalqımıza qarşı əsrlər boyu müntəzəm surətdə ağır cinayətlər törədilmiş, məkrli niyyətlər gerçəkləşdirilmişdir. Öz ağırlığına, miqyasına və nəticələrinə görə bunlar həm də bəşəriyyətə qarşı cinayətlər kimi xarakterizə olunmalı, beynəlxalq hüquqi-siyasi qiymətini almalı, onun ideoloqları və təşkilatçıları layiqincə cəzalandırılmalıdır. Bunu təmin etmək bizim hamımızın ümumi vəzifəmizdir.

Bunları söyləməklə biz bütöv xalqlara qarşı düşmənçilik təbliğ etmək fikrindən uzağıq. Bu yolun perspektivi yoxdur, onu gedənlər də səhvlərini gec-tez anlayacaqlar. Lakin eyni zamanda, bizim bu hadisələri, onların dərslərini unutmağa da haqqımız yoxdur. Tarixi yaddaşsızlıq və unutqanlıq xalqımızın taleyüklü tarixi problemlərinin həllində keçilməz maneələr yarada bilər. Bunların dərslərini mənimsəmək, nəticələrini aradan qaldırmaq, indiki və gələcək nəsilləri xalqımıza qarşı fəaliyyət göstərən düşmən qüvvələrə və planlara qarşı ayıq-sayıqlıq ruhunda düzgün tərbiyə etmək bizim vəzifəmizdir.

Bir daha soyqırımı qurbanlarının əziz xatirəsi qarşısında baş əyir, onlara Allahdan rəhmət diləyir, xalqımıza əmin-amanlıq, firavanlıq və müstəqil Azərbaycan dövləti naminə mətanətli mübarizə arzu edirəm.

Bakı şəhəri, *29 mart 2000-ci il*

**DÜNYA SƏHİYYƏ TƏŞKİLATININ AVROPA BÜROSUNUN REGİONAL DİREKTORU MARK DANZON İLƏ GÖRÜŞDƏ SÖHBƏT**

*Prezident sarayı*

*31 mart 2000-ci il*

**H e y d ə r Ə l i y e v:** Azərbaycana xoş gəlmisiniz. İndi Azərbaycan bir müstəqil dövlət kimi Dünya Səhiyyə Təşkilatı ilə yaxşı əlaqələr qurubdur. Bizim nazir mənə məlumat verir ki, sizin təşkilat ilə Azərbaycanın əlaqələri indi Azərbaycan üçün faydalı və səmərəlidir. Mən bundan çox məmnunam.

Sizin təşkilatınız qədim bir təşkilatdır. Təbiidir ki, bütün insanlar üçün ən vacib olan təşkilatlardan biridir. Dünyada ən böyük problemlərdən biri insanların sağlamlığıdır. Ona görə də sizin sahəniz hər tərəfdə hörmət qazanır, o cümlədən biz ona çox hörmətlə yanaşırıq.

Mən ümumiyyətlə, çox məmnunam ki, Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən sonra bütün başqa beynəlxalq təşkilatlara daxil olduğu kimi, sizin təşkilata da daxil olubdur. Artıq biz hiss edirik ki, sizin təşkilat Azərbaycanda bəzi xəstəliklərlə mübarizədə, səhiyyə işlərinin təşkil olunmasında bizə müəyyən yardımlar edir. Eyni zamanda ümid edirik ki, bu əməkdaşlıq bundan sonra daha da səmərəli olacaqdır. Güman edirəm, sizin Azərbaycana bu səfəriniz, Azərbaycan ilə daha da yaxından tanış olmağınız, təbiidir ki, bizim əməkdaşlığımıza gələcəkdə yardım edəcəkdir. Xoş gəlmisiniz.

**M a r k D a n z o n:** Cənab prezident, Sizə dərin minnətdarlığımı bildirirəm ki, Siz bu gün məni qəbul etmisiniz. Bu, bizim üçün, Dünya Səhiyyə Təşkilatı üçün böyük bir şərəfdir ki, Siz bizi qəbul etmisiniz.

Cənab prezident, Sizin bütün dünyada nüfuzunuzdan və ümumiyyətlə, səhiyyə sahəsində gördüyünüz işlərdən bizim xəbərimiz vardır. Hətta biz bilirik ki, bir çox xəstəliklərə qarşı Siz amansız mübarizə aparmısınız. Bir fakt kimi Sizə deyə bilərəm ki, biz 1995-ci ildə poliomielitə qarşı mübarizə apardığımız zaman Siz də respublikanın bütün əhatəsinə bu xəstəliyə qarşı vaksin vurulmasına kömək etmisiniz, daha doğrusu, bu tədbirlərin həyata keçirilməsinə rəhbərlik etmisiniz. Deyə bilərəm ki, məhz Sizin kimi şəxsiyyətin sayəsində respublikada böyük dəyişikliklərin baş verdiyi bir şəraitdə səhiyyə sahəsində də böyük işlər görülməlidir. Əlbəttə, bu işlərin bir texniki tərəfi vardır. Lakin Sizin kimi bir şəxsiyyətin rəhbərlik etdiyi ölkədə sağlamlığın ən birinci sıraya, önə çəkilməsi çox böyük əhəmiyyətə malikdir.

Cənab prezident, Sizə məmnuniyyətlə deməliyəm ki, mən bu vəzifəyə yeni seçilmişəm. Amma bu vəzifəyə keçməmişdən əvvəl də sizin respublikanızla, Səhiyyə Nazirliyi ilə çox gözəl əlaqələrim vardır. Sizi bir daha əmin edirəm ki, bu əlaqələr daha yüksək səviyyədə olacaqdır və biz daha sıx əməkdaşlığa nail olacağıq.

Ümumiyyətlə, bizim təşkilatın Azərbaycanla, Azərbaycanın Səhiyyə Nazirliyi ilə birgə əməkdaşlıq proqramı vardır. Mən daha yaxından izləyəcəyəm ki, bu əməkdaşlıq planı həyata keçirilsin. Bununla bağlı əlimdən gələni edəcəyəm ki, Azərbaycan ilə bu əməkdaşlıq sayəsində respublikanıza həm diqqət, həm də kömək getdikcə artsın. Xüsusilə yoluxucu xəstəliklərə qarşı mübarizədə bizim əməkdaşlığımız daha yüksək səviyyəyə qalxacaqdır.

Cənab prezident, deməliyəm ki, sizin ölkəniz səhiyyənin bir çox sahələrində gözəl nəticələr əldə etmişdir, uğurlara nail olmuşdur. Onlardan biri də malyariyaya qarşı mübarizədir. Sizin ölkəniz bu sahədə çox böyük uğurlar əldə etmişdir. Hətta bəzi Avropa ölkələri ilə müqayisə etdikdə belə, sizin uğurlarınız göz qabağındadır və bu da bizi ruhlandırır.

Siz bilirsiniz ki, ümumiyyətlə biz həm Avropada, həm də dünyada vərəm xəstəliyinin çoxalması ilə bağlı çox böyük narahatlıq keçiririk. Bu xəstəliyə qarşı mübarizədə sizin respublika çox ciddi bir mövqe tutmuşdur, buna qarşı çox ciddi mübarizə aparır. Baxmayaraq ki, mənim Azərbaycana indiki səfərim çox qısadır, lakin mən burada bu sahədə çox şeyi, ümumiyyətlə səhiyyə sahəsində çox işlərin görüldüyünü öyrəndim. Onu da demək istəyirəm və çox məmnunluqla qeyd edirəm ki, bütün bu işlərin hamısına Siz rəhbərlik edirsiniz. Bir hadisə də məni daha çox sevindirir ki, səhiyyə sahəsində, xəstəliklərə qarşı mübarizə sahəsində sizin ölkənizdə artıq qanunvericilik bazası da yaradılmışdır.

Cənab prezident, icazə verin, sözümün sonunda bir daha Sizə heyranlığımı, hörmətimi və bir də rahatlığımı bildirim. Ona görə rahatlığımı bildirim ki, kim olursa-olsun, buraya gəlib səhiyyə ilə maraqlanarsa, Sizin kimi rəhbərin- səhiyyəyə bu qədər ciddi münasibət göstərən bir rəhbərin öz ölkəsində səhiyyə problemlərinə belə ciddi yanaşmasını görəndə həmin adamda rahatlıq əmələ gələcəkdir. Biz də bunu çox yaxşı başa düşürük. Çünki Siz özünüz də dediniz ki, səhiyyə sahəsi, sağlamlıq doğrudan da insan üçün ən vacib problemlərdən biridir. Sizin özünüzün bu işə bu cür diqqətiniz bizdə daxili rahatlıq yaradır. Gördüyünüz bütün bu işlərə görə, xalq qarşısında olan borcunuzu şərəflə yerinə yetirdiyinizə görə Sizə minnətdarlığımı bildirirəm və yenə də deyirəm

ki, bizim nümayəndələrin hansısa Azərbaycana gəlsə, bu ölkədə bu işləri görəndə onda bir daxili rahatlıq yaranacaqdır.

**H e y d ə r  Ə l i y e v:** Sağ olun, təşəkkür edirəm. Azərbaycanda görülən işlər barəsində dediyiniz xoş sözlər və verdiyiniz qiymət bizim üçün çox əzizdir. Ancaq mən düşünürəm ki, səhiyyə elə sahədir ki, burada daim işləri təkmilləşdirmək lazımdır. Hansısa bir xəstəliyin qarşısı alınıbsa, bundan arxayın olmaq olmaz. Gərək çox ciddi olasan ki, o, yenidən başlamasın.

Məsələn, malyariya xəstəliyi vaxtilə Azərbaycanda tamamilə ləğv olunmuşdu. Amma müəyyən bir zamanda arxayınçılıq və bu işə diqqətsizlik olduğuna görə Azərbaycanda malyariya xəstəliyi yenidən baş verdi. Biz hesab edirdik ki, artıq Azərbaycanda bu problem yoxdur. Amma bu, yenidən meydana çıxdı. Mən bunu ona görə deyirəm ki, bizim Səhiyyə Nazirliyi heç də arxayınçılığa yol verməsin.

Sizin verdiyiniz bu yüksək qiymətlərdən biz təbii ki, ruhlanırıq və bizim səhiyyə işçiləri də ruhlanmalıdır. Ancaq eyni zamanda yenə də deyirəm, - siz həkimsiniz, bu sahənin mütəxəssisisiniz, məndən yaxşı bilirsiniz, amma mən də bir insan kimi bilirəm, - gərək daim keşikdə olasan ki, qarşısı alınmış bu xəstəliklər yenidən başlanmasın. Ona görə də sizinlə əməkdaşlıq dövründə gərək bizə ciddi nəzarət edəsiniz. Təbiidir ki, həm də yardım edəsiniz. Biz isə gərək çalışaq ki, bu yardımlardan səmərəli istifadə edək, bütün bu yoluxucu xəstəlikləri Azərbaycanda ləğv edək. Biz bunu edə bilərik. Baxmayaraq ki, indi bizdə bir neçə problemlər vardır, - yəqin onları nazir sizə deyibdir, - buna baxmayaraq, sizinlə birlikdə biz bütün bu yoluxucu xəstəlikləri Azərbaycanda ləğv edə bilərik, onların qarşısını ala bilərik.

Sizin indiyə qədər göstərdiyiniz qayğıya, yardıma görə təşəkkür edirəm. Ümid edirəm ki, əməkdaşlığımız bundan sonra daha da səmərəli olacaqdır.

## «KİTABİ-DƏDƏ QORQUD» EPOSUNUN ALMANİYANIN DREZDEN ŞƏHƏRİNİN KRAL KİTABXANASINDA SAXLANILAN ƏLYAZMASININ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİNƏ BAĞIŞLANMIŞ FAKSİMİLESİNİN AZƏRBAYCAN ELMLƏR AKADEMİYASININ MƏHƏMMƏD FÜZULİ ADINA ƏLYAZMALAR İNSTİTUTUNA VERİLMƏSİ HAQQINDA

Xalqımızın möhtəşəm ədəbi abidəsi olan «Kitabi-Dədə Qorqud» eposunun 1815-ci ildə Almaniyanın Drezden Kral Kitabxanasında aşkara çıxarılmış ən mükəmməl nüsxəsi bu günədək orada saxlanılmaqdadır.

Azərbaycan Respublikası prezidentinin 21 fevral 1999-cu il tarixli 98 saylı sərəncamı ilə təsdiq edilmiş «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planının 25-ci bəndinə uyğun olaraq 1999-cu il oktyabrın 8-də Drezden şəhərində «Kitabi-Dədə Qorqud»a həsr edilmiş yubiley mərasimi keçirilərkən Almaniyanın Saksoniya əyalətinin Elm və İncəsənət üzrə Dövlət Nazirliyi və Kral Kitabxanası tərəfindən həmin əlyazmanın orijinala çox yaxşı şəkildə hazırlanmış faksimilesi Azərbaycan Respublikasının prezidentinə hədiyyə edilmək üçün Azərbaycan nümayəndə heyətinə təqdim olunmuşdur. Həmin faksimile Azərbaycan tətbiqi sənət ustaları tərəfindən məharətlə, Dədə Qorqud dövrünü əks etdirən milli ornamentlərdən istifadə olunmaqla cildlənmişdir.

Belə bir aksiyanın Almaniya Federativ Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlığın genişləndirilməsi istiqamətində atılmış addım kimi qiymətləndirərək «Kitabi-Dədə Qorqud» irsinin gələcək nəsillərə daha dolğun çatdırılmasını və onun tədqiqatçılarının mötəbər bir nüsxədən istifadəsini təmin etmək məqsədi ilə qərara alıram:

1. «Kitabi-Dədə Qorqud» eposunun Almaniyanın Drezden şəhərinin Kral Kitabxanasında saxlanılan əlyazmasının Azərbaycan Respublikasının prezidentinə bağışlanmış faksimilesi Azərbaycan Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutuna verilsin.

2. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *3 aprel 2000-ci il*

**BEYNƏLXALQ MUSİQİ XADİMLƏRİ İTTİFAQININ SƏDRİ,**
**SSRİ XALQ ARTİSTİ İRİNA ARXİPOVAYA**

Hörmətli İrina Konstantinovna!

Sizi–dünya opera sənətinin görkəmli nümayəndəsini əlamətdar yubileyiniz münasibətilə təbrik edir və sizə cansağlığı, səadət, uğurlar arzulayıram.

Böyük müğənnilik istedadınız güclü temperament, yüksək intellekt, cazibədar xarici görkəm, təsirli aktyor ifaçılığı ilə vəhdət təşkil edərək sizə dünya şöhrəti gətirmişdir. Yaratdığınız bir çox obrazlar gənc sənətkarlar nəsli üçün ifaçılıq etolonuna çevrilmişdir. Rus və dünya klassikasının opera səhnəsində və konsert estradasında ifa etdiyiniz şah əsərləri rus mədəniyyəti tarixinin parlaq səhifəsi olaraq əbədi yaşayacaqdır.

Siz bir çox teatrların səhnələrində görkəmli sənət ustaları ilə birlikdə çıxış edərək ayrı-ayrı dövrlərə və müxtəlif üslublara mənsub olan əsərləri əhatə edən zəngin repertuar yarada bilmisiniz. Tarixi səciyyə daşıyan silsilə konsertlərdə rus romansının sizin tərəfinizdən yaradılmış antologiyası istedadınızın yeni çalarlarını açmaqla yanaşı, faktiki olaraq bütöv bir musiqi janrına yeni nəfəs vermişdir. Sizə müasir bəstəkarların əsərlərinin gözəl interpretatoru kimi XX əsrin musiqi mədəniyyəti xəzinəsinə daxil olmuş bir çox əsərləri bənzərsiz ifa etmək müyəssər olmuşdur. İfaçılıq fəaliyyətiniz, əslində, seçdiyiniz peşənin hüdudlarını çoxdan aşaraq zəmanəmizin rəmzlərindən birinə çevrilmişdir.

Siz musiqi mədəniyyətinin bütöv bir dövrünün parlaq nümayəndəsi olaraq Moskva Dövlət Konservatoriyasının professoru kimi pedaqoji fəaliyyətinizlə yanaşı, böyük ictimai iş də aparırsınız. Bu, MDB ölkələrinin ümummədəni məkanını qoruyub saxlamaq və mədəni əlaqələrimizi inkişaf etdirmək üçün olduqca vacibdir.

Bakıda vokalistlərin dahi müğənni, Azərbaycan peşəkar vokal məktəbinin banisi Bülbülün xatirəsinə həsr olunmuş beynəlxalq müsabiqəsi keçirilərkən gənc istedadların üzə çıxarılması və tərbiyə edilməsi sahəsində göstərdiyiniz xüsusi səyləri respublikamızda yüksək qiymətləndirirlər. Artıq ənənəyə çevrilmiş Bülbül adına bu beynəlxalq müsabiqənin münsiflər heyətinin sədri kimi sizin gəlişinizi Azərbaycan 2000-ci ildə yenə də gözləyir. Şübhəsiz ki, bu, Azərbaycan-Rusiya mədəni əlaqələrinin daha da möhkəmləndirilməsi və inkişaf etdirilməsi işinə kömək edəcəkdir.

Xoşbəxtlik və yaradıcılıqla dolu uzun illər diləyirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *3 aprel 2000-ci il*

**SENEQAL RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ƏBDU DİUFA**

Hörmətli cənab prezident!

Seneqal Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və dost Seneqal xalqını ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Seneqal Respublikası arasında dostluq və əməkdaşlıq münasibətləri inkişaf edərək xalqlarımızın mənafeyinə xidmət edəcəkdir.

Cənab prezident, Sizə cansağlığı və uğurlar, ölkənizə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *3 aprel 2000-ci il*

**BAKI PEDAQOJİ KADRLARIN**
**İXTİSASARTIRMA VƏ YENİDƏN**
**HAZIRLANMA İNSTİTUTUNA**

Hörmətli təhsil işçiləri!

Əziz müəllimlər!

Sizi – ölkənin bütün təhsil işçilərini Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidən Hazırlanma İnstitutunun 60 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan maarifinin, təhsilinin inkişafında, xüsusən pedaqoji kadrların ixtisasının artırılması və yenidən hazırlanması işinin təşkilində institut əhəmiyyətli rol oynamışdır. Onun 60 illik yubileyi isə ölkəmizdə təhsil sahəsində islahatların aparıldığı bir dövrə təsadüf edir. Təhsil sahəsində əsaslı yeniləşmənin gerçəkləşməsində pedaqoji kadr amili böyük əhəmiyyətə malikdir. İslahatın uğurla həyata keçirilməsi də ilk növbədə rəhbər pedaqoji işçilərin, müəllim və tərbiyəçilərin yaradıcı işindən, müasir təlim texnologiyalarına daha dərindən yiyələnmək bacarığından çox asılıdır.

Azərbaycan maarifinin XX əsrdə əldə etdiyi nailiyyətlərin bir çoxu pedaqoji kadrların hazırlıq səviyyəsi və bilavasitə institutun fəaliyyəti ilə qırılmaz surətdə bağlı olmuşdur. İnstitut 60 illik fəaliyyəti dövründə Azərbaycan müəllimlərinin, pedaqoji işçilərin müntəzəm olaraq ixtisasının artırılması, qabaqcıl təcrübənin öyrənilməsi və yayılması sahəsində mühüm işlər görmüşdür. Bu 60 il ərzində institut Azərbaycan məktəbi üçün on minlərlə müəllimin professional ustalığının, ixtisasının artırılması və yenidən hazırlanması üzrə elmi-metodiki mərkəzlərdən birinə çevrilmişdir. İnstitut pedaqoji kadrların ixtisas artırılması və yenidən hazırlanması işi ilə yanaşı, elmi-pedaqoji tədqiqatların aparılması sahəsində də uğurlar əldə etmişdir. Respublikanın ümumtəhsil məktəblərində müasir dövrün tələblərinə cavab verən yeni ixtisasların tətbiqi sahəsində də institutun nailiyyətləri vardır.

İnstitut XX əsrdə təhsilimizdə bərqərar olmuş ənənələri bu gün də davam etdirir, pedaqoji kadrların yetişdirilməsi naminə var qüvvəsini sərf edərək ölkəmizdə təhsil islahatının həyata keçirilməsinə öz töhfəsini verir. Əminəm ki, siz müstəqil Azərbaycanın milli və ümumbəşəri dəyərlər əsasında beynəlxalq standartlara, demokratik prinsiplərə əsaslanan milli təhsil sisteminin qurulması işinə, dövlətçiliyimizin inkişafına bundan sonra da sədaqətlə xidmət göstərəcəksiniz.

Bu əlamətdar gündə sizə – institutun kollektivinə, məzunlarına, respublikamızın bütün təhsil işçilərinə böyük uğurlar diləyir, hər birinizə cansağlığı və xoşbəxtlik arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *4 aprel 2000-ci il*

**YAPONİYANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB YOŞİRO MORİYƏ**

Hörmətli cənab Baş nazir!

Yaponiyanın Baş naziri seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Yaponiya arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətlərinə böyük əhəmiyyət verirəm. Ümidvaram ki, ölkələrimiz arasındakı əlaqələr xalqlarımızın rifahı naminə daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Yaponiya xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *6 aprel 2000-ci il*

## TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ VI ZİRVƏ GÖRÜŞÜNDƏ VƏ «KİTABİ-DƏDƏ QORQUD» DASTANININ 1300 İLLİYİNƏ HƏSR OLUNMUŞ YUBİLEY TƏNTƏNƏLƏRİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN BAKIYA GƏLMİŞ QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN BİNƏ HAVA LİMANINDA QARŞILANMA MƏRASİMİNDƏ BƏYANAT

*7 aprel 2000-ci il*

*Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı*

Mən böyük dostumuz, Qazaxıstan Respublikasının prezidenti, hörmətli Nursultan Nazarbayevi Azərbaycanda ürəkdən salamlayıram.

Mənim dəvətimi qəbul edib, Azərbaycana rəsmi səfərə gəldiyinə görə ona təşəkkürümü bildirirəm.

Ümidvaram ki, görüşlərimiz və danışıqlarımız zamanı biz ikitərəfli münasibətlərimizin bir çox məsələlərini müzakirə edəcəyik, əlbəttə, bir çox digər məsələlər barəsində fikir mübadiləsi aparacağıq. Bu səfər Qazaxıstan ilə Azərbaycan arasında dostluq münasibətlərinin və sıx əməkdaşlığın daha da möhkəmlənməsi, genişlənməsi işinə xidmət edəcəkdir.

Sizi ürəkdən salamlayıram.

*Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin bəyanatı*

Mehribancasına və qardaşcasına qarşılandığıma görə təşəkkür edirəm. Mən bunu Azərbaycan torpağında həmişə duyuram.

Əvvəla, mən Heydər Əliyeviçin dəvəti ilə rəsmi səfərə gəlmişəm. İkincisi, türkdilli dövlətlərin başçılarının görüşü olacaqdır. Üçüncüsü, biz ümumi əcdadımız olan Dədə-Qorqudun yubileyini qeyd edəcəyik. Bütün bunlar baharın əvvəlində çox xoş və yaxşı hadisələrdir.

Əlbəttə, biz tariximizə, mədəniyyətimizə, dilimizə, ənənələrimizə görə həmişə yaxın olmuşuq. Ona görə də mehriban qonşuluq münasibətlərini möhkəmlətmək bizim – biz Xəzərin birləşdirdiyi qonşularıq – vəzifəmizdir və bunu həmişə edirik. Heydər Əliyeviç dəvət etdikdə, məni haraya və nə vaxt çağırırsa, həmişə gəlirəm.

Biz 9 yeni sənəd imzalayacağıq. Bu sənədlər Qazaxıstan-Azərbaycan münasibətlərinin inkişafında yeni pillə olacaqdır.

## AZƏRBAYCAN PREZİDENTİNİN QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ NURSULTAN NAZARBAYEV İLƏ TƏKBƏTƏK GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Prezident sarayı*

*7 aprel 2000-ci il*

**H e y d ə r Ə l i y e v:** Hörmətli cənab Nursultan Nazarbayev! Sizi səmimi-qəlbdən salamlayıram və mənim dəvətimi qəbul edərək ölkəmizə rəsmi səfərə gəldiyinizə görə Sizə təşəkkürümü bildirir, Qazaxıstan prezidentinin bu səfərinin böyük əhəmiyyət daşıdığını vurğulayıram.

Xalqlarımızın qədim ənənələrə malik tarixi əlaqələri vardır. Respublikamız öz dövlət müstəqilliyini əldə etdikdən sonra Azərbaycan ilə Qazaxıstan arasında dostluq, əməkdaşlıq münasibətlərinin gündən-günə möhkəmlənməsi hər iki tərəf üçün çox faydalı olmuşdur.

Qazaxıstana rəsmi səfərimi, nüfuzlu beynəlxalq təşkilatların tədbirlərində, MDB-nin zirvə toplantılarında keçirdiklərim görüşləri, apardığım danışıqları həmişə məmnunluqla xatırlayıram. Mən ölkələrimizin nümayəndə heyətlərinin qarşılıqlı səfərlərini, imzalanmış dövlətlərarası və hökumətlərarası sənədləri müsbət dəyərləndirirəm. Azərbaycan ilə Qazaxıstan arasında siyasət, iqtisadiyyat, mədəniyyət, təhsil, elm və digər sahələrdə əlaqələrin durmadan inkişaf etməsini razılıqla qarşılayıram.

Xəzər dənizinin enerji ehtiyatlarının birgə işlənilməsini, hasil edilən nefti dünya bazarına çıxaracaq boru kəmərlərinin yaradılması sahəsində əlaqələrin hazırkı vəziyyətini məmnunluqla qeyd etmək istəyirəm. Nəzərə çarpdırmaq istəyirəm ki, beynəlxalq əməkdaşlığın parlaq nümunəsi olan Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəmərinin çəkilməsi ilə bağlı 1998-ci ilin oktyabrında qəbul edilmiş Ankara bəyannaməsi. 1999-cu ilin noyabrında ATƏT-in İstanbul zirvə görüşü zamanı imzalanmış sazişlər tarixi əhəmiyyət daşıyır və bütün bunları ölkələrimizin daha da inkişafı, regionumuzun təhlükəsizliyi, xalqlarımızın xoşbəxt gələcəyi baxımından mühüm addım kimi dəyərləndirirəm.

Tarixi İpək yolunun bərpasına dair Avropa Birliyinin himayəsi altında 1998-ci ilin sentyabr ayında Bakıda keçirilmiş beynəlxalq konfransdan sonra TRASEKA proqramının həyata keçirilməsi sahəsində görülmüş işləri yüksək qiymətləndirirəm və Qazaxıstan neftinin Azərbaycan ərazisi vasitəsilə dünya bazarına nəqlinin böyük əhəmiyyət daşıdığını bildirirəm.

Sizə məlumdur ki, ölkəmiz üçün ən ağrılı bir problem də var. Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupu çərçivəsində və birbaşa danışıqlar aparırıq.

**N u r s u l t a n N a z a r b a y e v:** Cənab prezident, Azərbaycana rəsmi səfərə dəvətinizə, mənə və başçılıq etdiyim nümayəndə heyətinə göstərilən qardaşlıq münasibətinə, qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirirəm. Mən də ölkələrimizin əməkdaşlığının sürətlə inkişaf etməsindən çox məmnun qaldığımı vurğulayıram.

Azərbaycan ilə bütün sahələrdə əlaqələrin sıxlaşdırılmasına Qazaxıstanın böyük maraq göstərdiyini nəzərinizə çatdırır və bir sıra beynəlxalq, regional təşkilatlarda dövlətlərimizin əməkdaşlığının daha da möhkəmləndirilməsinin vacib olduğunu bildirirəm.

Əminəm ki, imzalanacaq yeni sənədlər Azərbaycan-Qazaxıstan əməkdaşlığının inkişafı üçün yeni yollar açacaqdır. Azərbaycan tərəfinin səyləri nəticəsində Bakı-Aktay bərə keçidinin nəhayət, yenidən işə salınması dost ölkələrimizin ticarət sahəsində əlaqələrinin səviyyəsini qaldırmağa yaxşı imkan yaradacaqdır.

Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsi üçün ATƏT-in Minsk qrupu çərçivəsində və birbaşa aparılan danışıqların gedişinə Qazaxıstanın da həmişə diqqət yetirdiyini vurğulayıram. Ümidvar olduğumu bildirirəm ki, bu danışıqlar tezliklə öz müsbət nəticələrini verəcəkdir.

Aprelin 8-də Bakıda türkdilli dövlətlərin başçılarının VI zirvə görüşü və aprelin 9-da «Kitabi-Dədə Qorqud» dastanının 1300 illiyinə həsr edilən yubiley təntənəsi keçiriləcəkdir. Əminəm ki, bu tədbirlər xalqlarımız və ölkələrimiz arasında çoxtərəfli əməkdaşlığı daha da genişləndirəcəkdir.

**H e y d ə r Ə l i y e v :** Həm də eyni köklərə malik mədəniyyətimizin, adət-ənənələrimizin, milli-mənəvi dəyərlərimizin dirçəlməsi yolunda böyük perspektivlər açacaqdır*.

---

* Prezidentlər ikitərəfli əlaqələrin daha da dərinləşdirilməsi, tarixi İpək yolunun, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin daha səmərəli işləməsi üçün əməkdaşlığın möhkəmləndirilməsi, regionda vəziyyət və bir sıra digər məsələlər barədə də ətraflı fikir mübadiləsi apardılar.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN VƏ QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN TƏKBƏTƏK GÖRÜŞÜ BAŞA ÇATDIQDAN SONRA HƏR İKİ ÖLKƏNİN NÜMAYƏNDƏ HEYƏTİ ARASINDA AZƏRBAYCAN-QAZAXISTAN DANIŞIQLARINDA ÇIXIŞ

*Prezident sarayı*

*7 aprel 2000-ci il*

**H e y d ə r Ə l i y e v:** Zati-aliləri cənab prezident, hörmətli Nursultan Nazarbayev!
Hörmətli qonaqlar!
Sizi Azərbaycanda ürəkdən salamlayıram və səmimi- qəlbdən "Xoş gəlmisiniz!" deyirəm.

Hörmətli Nursultan Nazarbayev, mənim dəvətimi qəbul edib Azərbaycana rəsmi səfərə gəldiyinizə görə sizə təşəkkürümü bildirirəm.

Azərbaycanda rəsmi səfərdə olduğunuz vaxtdan dörd il keçmişdir. Bu müddətdə ölkələrimiz, dövlətlərimiz, xalqlarımız arasında münasibətlər uğurla inkişaf etmişdir. Biz sizinlə dəfələrlə görüşmüşük - mən Qazaxıstana səfər etmişəm, biz sizinlə Astanada, beynəlxalq forumlarda, MDB-nin zirvə toplantıları zamanı görüşmüşük və həmişə əlaqə saxlamışıq. Bir çox nümayəndə heyətlərimiz qarşılıqlı səfərlər etmişlər. Əslinə baxsan, bütün bunlar da münasibətlərimizin inkişafına təkan vermişdir.

Buna baxmayaraq, biz daha da irəliləməli, yeni-yeni məsələləri həll etməliyik. Bu baxımdan əlbəttə ki, sizin Azərbaycana rəsmi səfərinizin bizim üçün çox böyük əhəmiyyəti var.

Biz sizinlə təkbətək görüş zamanı bir çox məsələlər barəsində fikir mübadiləsi apardıq və bir daha gördük ki, keçmiş zamanlarda ümumi köklərə, ümumi tarixə, ümumi taleyə malik olmuşuq. Biz dövlət müstəqilliyi əldə etdikdən sonra daha çox qarşılıqlı anlaşmaya və sıx əməkdaşlığa ehtiyac duyuruq.

Ölkələrimiz arasında əməkdaşlıq, şübhəsiz, geniş spektrə malikdir, hərçənd, ola bilsin, biz əmtəə dövriyyəsinin həcmindən razı qala bilmərik və s. Buna baxmayaraq, əməkdaşlıq var, inkişaf edir. Ən başlıcası isə böyük perspektivlər var.

Bizim sizinlə əməkdaşlığımız üçün Xəzər dənizinin enerji ehtiyatlarının mənimsənilməsində xüsusilə böyük imkanlar var. Mən sevinirəm ki, biz sizinlə bu məsələdə eyni mövqe tuturuq, şübhəsiz, öz sektorlarımızın hüdudları daxilində Xəzər dənizinin enerji ehtiyatlarından ölkələrimizin mənafeləri naminə istifadə olunmasını zəruri hesab edirik.

Siz bilirsiniz ki, bununla əlaqədar biz 1994-cü ildən başlayaraq xarici neft şirkətləri ilə çox müqavilələr imzalamışıq və 1997-ci ildə ilk nefti çıxarmışıq, iki neft kəməri - Bakı-Novorossiysk və Bakı-Supsa kəmərlərini çəkmişik, neft ixrac edirik. Lakin bu, yalnız başlanğıcdır. İndiyədək görülmüş bütün işlər, şübhəsiz, göstərir ki, bu baxımdan gələcək çox maraqlı və zəngindir.

Biz sizinlə dəfələrlə fikir mübadiləsi aparmışıq və şadam ki, biz eyni mövqelərdəyik. Siz Qazaxıstanda, Xəzərin özünüzə aid sektorunda böyük iş görürsünüz və mən bunu sevinclə izləyirəm. Əminəm ki, siz orada böyük nəticələr əldə edəcəksiniz, deməli, biz bu sahədə də əməkdaşlığı genişləndirəcəyik.

Nursultan Abişoviç, Bakı–Tbilisi–Ceyhan neft kəməri haqqında 1998-ci ildə Türkiyədə Ankara bəyannaməsini imzalamağımızı və 1999-cu ilin noyabrında İstanbulda, ATƏT-in zirvə görüşü zamanı Bakı–Ceyhan neft kəməri haqqında böyük sənəd imzalamağımızı mühüm hadisə hesab edirəm. Yeri gəlmişkən, Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klinton da bizim imzalarımıza qoşuldu.

Sizə məlumat verməliyəm ki, bundan sonra biz - Türkiyə, Azərbaycan və Gürcüstan - fəal işləyirik, çox görüşlər keçirmişik, bu neft kəmərinin dəyərini müəyyənləşdirmişik. Kommersiya məsələlərinə dair Gürcüstanla danışıqlarda bəzi çətinliklər vardı. Lakin bu layihənin həyata keçirilməsinə başlaya bilməyimiz üçün Azərbaycan Gürcüstan tərəfinə güzəştə getdi və yaxın vaxtlarda Vaşinqtonda Türkiyə, Azərbaycan və Gürcüstan nümayəndə heyətlərinin görüşü olacaqdır. Onlar kommersiya məsələlərini bir daha müzakirə edəcək, ən başlıcası isə maliyyələşdirmə mənbələrini müəyyənləşdirmək üçün Dünya Bankı, Eksimbank, digər maliyyə mənbələri ilə danışıqlar aparacaqlar.

Biz - Türkiyə, Azərbaycan və Gürcüstan - razılığa gəlmişik ki, apreldə kommersiya sənədlərinin imzalanmasını başa çatdırmalı və kompleks şəklində bütün sazişi öz parlamentlərimizin ratifikasiyasına təqdim etməliyik, onu nəzərdə tuturuq ki, bu ratifikasiya may ayında edilsin və neft kəmərinin tikintisi məsələsi ilə məşğul olan konsorsium cari ilin iyununda layihənin əməli surətdə reallaşdırılmasına başlaya bilsin. Hesab

edirəm ki, bütün bunlar mümkün olacaqdır və onların vəd etdikləri kimi, Bakı–Tbilisi–Ceyhan neft kəməri 2002-ci ildə istismara verilə bilər.

Yəni, quruda çıxarılan və dənizdə çıxarılacaq Qazaxıstan nefti üçün, əlbəttə, neft ixracının indi istifadə etdiyiniz digər variantları ilə yanaşı, böyük imkan açılır. Sizin özünüzün dediyiniz kimi və bizim də hesab etdiyimiz kimi, bu marşrut sizin üçün çox faydalı olacaqdır.

Siz bilirsiniz ki, neft kəməri olmadan da biz dünya bazarlarına ixrac üçün Qazaxıstandan neftin daşınmasını həyata keçiririk. Son beş ildə biz Batumiyədək, oradan isə Qərbə təxminən 5 milyon ton neft göndərmişik. Biz bu birgə işimizi bundan sonra da davam etdirməyə və göndərilən neftin həcmini hətta artırmağa da hazırıq. Bir sözlə, belə düşünürəm ki, biz bu sahədə çox işlər görmüşük və gələcək üçün böyük imkanlar var.

Əlbəttə, biz təkcə neft sahəsində deyil, digər bütün sahələrdə də əməkdaşlığı inkişaf etdirməliyik. Bakı-Aktau bərə-keçidini açmağımız Qazaxıstanın şimal vilayətləri üçün də, Azərbaycan üçün də artıq öz müsbət nəticələrini verir. Belə düşünürəm ki, biz ticarət-iqtisadi əlaqələrimizi fəallaşdırmaq üçün bu imkanları bundan sonra da inkişaf etdirəcəyik.

Biz bir çox digər məsələlərdə də eyni mövqelərdəyik. Yəni Qazaxıstanda da, Azərbaycanda da demokratik, hüquqi, dünyəvi dövlətlər qurulur, biz bazar iqtisadiyyatı, özəlləşdirmə yolu ilə gedirik. Deməliyəm ki, bütün bunlar Azərbaycanda öz əməli nəticələrini verir.

Siz bilirsiniz ki, 1990-cı ildən başlayaraq Azərbaycanda daxili ictimai-siyasi vəziyyət çox ağır idi. Vəziyyəti ağırlaşdıran o idi ki, 1988-ci ildən etibarən Ermənistan Dağlıq Qarabağı Azərbaycandan qoparmaq məqsədi ilə ölkəmizə qarşı təcavüz başlamışdı. Müharibə başlandı, onun nəticəsində müxtəlif səbəblərə görə Azərbaycan ərazisinin 20 faizi işğal edilmişdir, işğal olunmuş torpaqdan bir milyondan çox azərbaycanlı qovulmuşdur, onlar ağır şəraitdə, çadırlarda yaşayırlar.

Lakin 1994-cü ildə biz atəşkəsə razılıq verdik, müharibəni dayandırdıq. Hesab edirəm ki, bu da böyük işdir – qan tökülmür, müharibə getmir. Biz danışıqlar aparırıq, amma hələlik sülhə nail olmamışıq.

ATƏT-in Minsk qrupu, onun həmsədrləri – Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa ardıcıl iş aparırlar. 1999-cu il ərzində biz dincliklə nizamasalma prosesini sürətləndirmək üçün Azərbaycan və Ermənistan prezidentləri arasında birbaşa görüşlər keçirmişik. Mövqelərimiz müəyyən qədər yaxınlaşmışdı və biz hansısa nəticələr əldə edə bilərdik. Ancaq ötən ilin oktyabrında Yerevanda baş vermiş terror aktı bu prosesi əslində dayandırdı və indi bizim fəal danışıqlar üçün hələlik imkanlarımız yoxdur.

Lakin mən sizə demişəm və bir daha bəyan edirəm, əminəm ki, biz – ATƏT-in Minsk qrupu, Azərbaycan və Ermənistan prezidentləri, - danışıqlar prosesinə yenidən başlayacağıq və məsələnin dincliklə nizama salınmasına nail olacağıq. Əlbəttə, bir şərtlə ki, məsələ beynəlxalq hüquq normaları əsasında həll edilsin, o mənada ki, işğal olunmuş ərazilər azad edilsin, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun, qaçqınlar öz daimi yaşayış yerlərinə qayıtsınlar. Həm də biz bəyan etmişik və bəyan edirik ki, Dağlıq Qarabağa Azərbaycanın tərkibində ən yüksək özünüidarə statusu verilə bilər.

1994-cü ildə atəşin dayandırılması, əlbəttə, vəziyyəti sabitləşdirməyə şərait yaratdı. Lakin, bildiyiniz kimi, biz Azərbaycanı əslində parçalayan daxili qüvvələri zərərləşdirmək üçün çox işlər görməli olduq. 1993-cü ildə burada vətəndaş müharibəsi başlandı və Azərbaycan fəlakət qarşısında, parçalanmaq qarşısında idi. Biz bütün bunları dəf edə bildik. Sonra iki dəfə – 1994-cü və 1995-ci illərdə – dövlət çevrilişi cəhdləri oldu. Biz bunların da qarşısını aldıq. Terror aktları cəhdləri oldu, biz bunlara da davam gətirdik.

Təxminən 1995-ci ildən başlayaraq biz Azərbaycanda ictimai-siyasi vəziyyəti sabitləşdirə, iqtisadiyyatın səviyyəsinin aşağı düşməsini dayandıra və onun artımına başlaya bildik. 1996-cı ildən bəri bizdə ümumi daxili məhsulda da, sənaye istehsalında da, kənd təsərrüfatı istehsalında da, digər göstəricilər üzrə də artım davam edir. İnflyasiyanın qarşısını aldıq, artıq neçə ildir ki, bizdə inflyasiya yoxdur. Biz əmək haqqını və pensiyanı vaxtında veririk. Mart ayı üçün bütün pensiyalar və əmək haqqı ödənilmişdir. Ötən il ümumi daxili məhsul 7 faiz, sənaye istehsalı 3 faizdən bir qədər çox, kənd təsərrüfatı istehsalı 7 faiz artmışdır. Biz cari ilin birinci rübünü də artımla başa çatdırmışıq.

Əlbəttə, bütün bunlar iqtisadi islahatlar aparılmasının nəticəsidir. Siz bilirsiniz ki, biz torpaq islahatı aparmışıq, torpağı tamamilə kəndlilərə vermişik. Bu isə bizə bitkiçilik, heyvandarlıq məhsullarını, bütün digər kənd təsərrüfatı məhsullarını artırmağa imkan yaratmışdır.

Biz kiçik və orta özəlləşdirməni başa çatdırmışıq, indi iri obyektlərin özəlləşdirilməsi haqqında qanun qəbul edirik, tezliklə bu prosesə də başlayacağıq. Biz digər iqtisadi islahatlar da aparırıq.

Əlbəttə, plüralizm, demokratiya, azadlıq yaradılması da Azərbaycanda indi mövcud olan vəziyyəti təmin edir.

Biz Qazaxıstandakı hadisələri böyük fərəh hissi ilə izləyirik və bilirik ki, orada gedən demokratikləşdirmə prosesləri, islahatlar aparılması öz nəticələrini verir.

Bu yaxınlarda ümumi azad seçkilər əsasında sizin yenidən Qazaxıstan prezidenti seçilməyinizi alqışlamışam və alqışlayıram. Əlbəttə, siz öz ölkənizin inkişafı üçün çox işlər görmüsünüz və görürsünüz. Bizi isə sizinlə ümumi tarixi köklər də, bugünkü təxminən oxşar vəziyyətimiz də birləşdirir. İndiki görüşümüz, imzalanmağa hazırlanmış sənədlər də, şübhəsiz, öz nəticələrini verəcəkdir.

İndiyədək biz 50-dən çox dövlətlərarası, hökumətlərarası, idarələrarası sənəd imzalamışıq. Bu gün yeni sənədlər imzalanacaqdır. Odur ki, bu, sizin Azərbaycana rəsmi səfirinizin konkret, əməli nəticəsidir.

Sizə bir daha təşəkkürümü bildirirəm və ümidvaram ki, sizinlə bu gün də, sabah da məsələləri müzakirə etməyə imkanımız olacaqdır.

Sabah türkdilli dövlətlərin başçılarının görüşü keçiriləcəkdir. Bizim üçün bu da çox mühüm hadisədir. Birisi gün ümumi tarixi sərvətimizin yubileyini - "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyini də sizinlə birlikdə qeyd edəcəyik.

Buna görə də şadam ki, Azərbaycanda bütün bu tədbirlər keçirilərkən siz bizimlə olacaqsınız. Təbii ki, bu, bizə söhbət etməyə, fikir mübadiləsi aparmağa, Qazaxıstan ilə Azərbaycan arasında dostluğu və həqiqi qardaşlıq münasibətlərini bir daha nümayiş etdirməyə imkan verəcəkdir.

**N u r s u l t a n  N a z a r b a y e v:** Heydər Əliyeviç, rəsmi səfərə gəlmək üçün dəvətinə görə, qardaşcasına qonaqpərvərliyinə görə, qəbula görə çox sağ olun.

Mən sizin ölkənizə həmişə məmnuniyyətlə gəlirəm, dəvətinizi qəbul edirəm, çünki xalqlarımız arasında yalnız xeyirxahlıq və qardaşlıq hissləri olub, heç bir mənfi hallar olmayıbdır və yoxdur. Bu yaxşı münasibətlər hər iki dövlətin tərəqqisinə xidmət edir, bir-biri üçün dəstəkdir.

Siz danışıqlarımızın ayrıca bir hissəsində müzakirə etdiyimiz məsələlərdən danışdınız. Buna görə də mən onları təkrar etmək istəməzdim. Mən sizin fikirlərinizlə və dediyiniz təkliflərlə tam razıyam.

Hesab edirəm ki, ikitərəfli iqtisadi münasibətlərimizin yaxşılaşması üçün ticarəti qaldırmaq lazımdır. Bu, hər şeyin əsasıdır. Ölkələrimiz arasında əmtəə dövriyyəsinin cəmi 25 milyon dollar olması nə sizi, nə də bizi qane etmir. Mənimlə birlikdə hökumətin altı üzvündən, "Qazaxoyl", "Qazaxtransoyl" şirkətlərinin və digər şirkətlərin prezidentlərindən ibarət mötəbər nümayəndə heyəti gəlmişdir. Ümidvaram ki, onlar bu gün də, sabah da öz həmkarları ilə gələcək əməkdaşlığımızın mövzusuna dair konkret danışıqlar aparacaqlar.

Ekspertlərimiz, hökumətlərimiz 9 sənəd hazırlamışlar, bunlar əməkdaşlıq üçün yeni yollar açacaq, dövlətlərimiz arasında müqavilə-hüquqi bazanı tamamlayacaqdır. Buna görə də istərdim, hökumətlərimizə tapşıraq ki, ölkələrimiz arasında ticarətin nə üçün artmamasının səbəblərini bir daha araşdırsınlar.

Mənə deyirlər ki, tarifləri razılaşdırmaq lazımdır. Axı problem nədədir? Dövlətdaxili prosedurlar zəif gedir - biz məhz nəyin getmədiyini deməliyik və bu məsələləri aradan götürərik. Deyirlər ki, Azərbaycan ərazisində dəmir yolu tarifləri mane olur. Bu gün biz sizinlə bu barədə də danışdıq. Əgər bunlar varsa, onları müzakirə etmək lazımdır.

Deyirlər ki, hamımızın imzaladığı TRASEKA proqramı çərçivəsində əməkdaşlığı fəallaşdırmaq işində bizim tərəfimizdən həll edilməli hansısa məsələlər var. Biz onları aradan qaldırmalıyıq.

İkitərəfli razılaşmalar barəsində ötən il oktyabrın 22-də biz iqtisadi əməkdaşlıq proqramı imzaladıq. Gərək hökumətlər bu məsələləri nəzərdən keçirib konkret surətdə həll etsinlər. Bizim iqtisadi əməkdaşlıq üzrə ikitərəfli komissiyamız var. Biz tərəfdən ona Baş nazirin müavini Əhmədov başçılıq edir. Heydər Əliyeviç, biz bu komissiyaya həmin məsələləri müzakirə etməyi tapşırmalıyıq.

Məni çox sevindirir ki, sizin ölkəniz sayəsində bərə keçidi 9 ildən sonra, nəhayət, açılmışdır. Qazaxıstandakı azərbaycanlılar sizə, Azərbaycandakı qazaxlar isə bizə gəlməyə başladıqda, Aktau limanında necə böyük sevinc olduğunu təsəvvür edə bilməzsiniz. Düşünürəm ki, bu, cari ildə ticarəti tamam başqa səviyyəyə qaldıracaqdır. Biz bunu alqışlayırıq.

Biz Aktau limanının birinci hissəsinin tikintisini başa çatdırmışıq. Neft göndərilir. Ötən il biz 2 milyon ton neft verdik. Onun həcmini 10 milyon tonadək artırmaq olar. Quru yüklər üzrə göstərici də hələlik 2 milyon ton həcmindədir, lakin biz bu həcmi artıra bilərik. İndi biz bunun üzərində işləyirik.

Hesab edirəm ki, başlıca əngəl daşıma imkanlarının olmaması idi. Bir halda ki, bu yol açılmışdır, onda gəlin, onu birlikdə inkişaf etdirək.

Dəqiq bilirəm, sizin adamlarınız şaddırlar ki, öz məhsullarını alıcılıq qabiliyyətli regiona gətirirlər, burada da öz növbəsində şaddırlar ki, tərəvəzin, meyvənin, Azərbaycandan gələn bütün malların qiymətləri aşağı düşür. Bax bu, bir-birimizə konkret köməkdir. Zənnimcə, bu sahədə bütün problemləri aradan götürmək lazımdır.

Baş nazirə müraciət etmək istəyirəm. Şirkətlərimiz sizdən iki tanker almaq arzusundadırlar. Mənə dedilər ki, siz bunu hansısa borcların hesabına etmək barədə razılığa gəlmisiniz. Bu, qardaş köməyi olardı. Əlbəttə, tankerlər əsasən sizin olacaqdır, amma istərdik ki, Qazaxıstanın da bayrağı altında bir-iki tanker üzsün. Əgər bu mümkündürsə, onda xahiş edərdim ki, bu məsələni diqqətlə müzakirə etsinlər.

Heydər Əliyeviç, Xəzər dənizinin statusu barədə oxşar mövqe tutduğumuza görə təşəkkür edirik. Mən, öz tərəfimdən, bu məsələni güclü şəkildə irəliləbirəm, siz bizi dəstəkləyirsiniz. Biz həmçinin minnətdarıq ki, siz Asiyada etimad tədbirlərinə dair müşavirə haqqında bizim təşəbbüsümüzü dəstəkləyirsiniz.

Mən xahiş etmişəm, Azərbaycanın Qazaxıstandakı səfirliyi bizim yeni paytaxtımıza köçsün ki, o, bizim yanımızda olsun. Biz ona kömək edəcəyik.

Əgər qısaca danışsaq, onda deməliyəm ki, bizim sizinlə əməkdaşlığımızın yolunda heç bir problem yoxdur.

Əlbəttə, biz Azərbaycanla Ermənistan arasında münaqişə ilə əlaqədar narahatlıq keçiririk. Təəssüf ki, bu, hər iki dövlətə, Allahın qonşu etdiyi ölkələrə öz münasibətlərini normal surətdə qurmağa mane olur. Hesab etmirəm ki, bunu erməni xalqı başa düşmür. Axı münaqişədən o da əziyyət çəkir.

Sizin nə kimi səylər göstərdiyinizi bilirəm. Qan tökülməsi sizin gəlişiniz sayəsində dayanmışdır. Heydər Əliyeviç, qan tökülməməsi, adamların rahat yaşaması Azərbaycan xalqı və region qarşısında sizin şəxsən çox böyük xidmətinizdir. Şübhəsiz ki, siz böyük iş görmüsünüz.

Bilirsiniz ki, bu məsələnin danışıqlar yolu ilə dincliklə həllinə gəlib çıxmağınız üçün mən də öz imkanlarımız daxilində hər vasitə ilə bütün tərəflərə təsir göstərməyə çalışıram. Hesab edirəm ki, bunu hər iki ölkənin sadə adamları istəyirlər. Bu işdə sizə uğurlar arzulayıram. Biz hər cəhətdən köməyə gəlməyə hazırıq.

Siz regiona, əməkdaşlığımıza, türkdilli dövlətlərin əməkdaşlığına, MDB daxilində, GUÖAM Təşkilatında münasibətlərimizə aid siyasi məsələlər barəsində mənim mövqeyimi bilirsiniz. Biz sizinlə oxşar mövqelər tuturuq.

Yanacaq-energetika kompleksinə gəldikdə, mövqeyimiz sizə məlumdur. Biz Bakı–Ceyhan marşrutunu dəstəkləyirik. İndi biz aprel-may aylarında Xəzərin şelfində qazma işlərinin qurtarmasını böyük səbirsizliklə gözləyirik. Nəticələr əldə edən kimi Qazaxıstan dərhal bu marşruta qoşulacaqdır. Çünki Qazaxıstanın əlavə neftinin nəqli üçün başqa imkan yoxdur. Əlbəttə, biz hər şeydən öncə şimali Xəzər neft kəmərini gözləyirik. Bu, bir çox dövlətlərin, o cümlədən Amerika Birləşmiş Ştatları, Böyük Britaniya şirkətlərinin mülkiyyətidir. Payın təxminən 20 faizi Rusiyaya və Qazaxıstana, qalan hissəsi isə bizdə neft çıxaran şirkətlərə mənsubdur.

Lakin neftin yeni həcminin neft çıxarılması, şübhəsiz, yeni marşrut tələb edəcəkdir. Mən demişəm və indi də təsdiqləyirəm ki, biz bu məsələdə əməkdaşlıq edəcəyik. Zənnimcə, bu, ölkələrimizin xeyrinədir və kiminsə əleyhinə deyildir. Bunu iqtisadiyyat tələb edir. Ümidvaram və əminəm ki, bu marşrut xalqlarımızı daha da yaxınlaşdıracaq, əməkdaşlıq və ticarət üçün böyük imkanlar açacaq və ölkələrimiz arasında əmtəə dövriyyəsi artacaq və biz bir-birimizlə iqtisadi cəhətdən daha sıx bağlı olacağıq. Bu, siyasi və insani münasibətləri möhkəmləndirəcəkdir.

Bilirik ki, Azərbaycan neftçiləri yüksək səviyyəli mütəxəssislərdir. Sovet İttifaqı dövründə də, əvvəllər də belə olmuşdur. Bizim neftçilər də pis mütəxəssislər deyillər, ötən il biz ilk neft hasilatının 100 illiyini qeyd etdik. Düşünürəm ki, bu sahədə də əməkdaşlıq öz bəhrələrini verəcəkdir. Sizin dənizdə hasilat üzrə mütəxəssisləriniz var, biz buna da arxalanmaq istəyirik. Bugünkü məsələlərə gəldikdə, bizimkilər mənə məlumat verdilər ki, bürokratik problemlər var, əlbəttə, onları həll etmək lazımdır. Məsələn, Türkiyə şirkətinə mənsub olan terminal, - sabah mən oraya gedəcəyəm, - bu yolda həmişə əngəllər törədir.

**H e y d ə r Ə l i y e v:** Bağışlayın, o, həmin terminal deyildir. Sabah siz böyük terminala, Səngəçal terminalına gedəcəksiniz.

**N u r s u l t a n N a z a r b a y e v:** Lakin bizim neftimizin gəldiyi terminal da var.

Heydər Əliyeviç, bir halda ki, biz belə bir heyətlə qonaq gəlmişik, ümidvaram ki, bütün məsələləri həll edəcəyik.

**H e y d ə r Ə l i y e v:** Bəli, bütün məsələləri.

**N u r s u l t a n N a z a r b a y e v:** Yoxsa, biz bir balaca inciyə bilərik. Çünki siz gürcülərlə bütün məsələləri həll edirsiniz, amma bizimlə yox.

**H e y d ə r Ə l i y e v:** Həll edərik, həll edərik.

**N u r s u l t a n N a z a r b a y e v:** Nümayəndə heyətimizdə bütün sahələrin nümayəndələri - energetika, nəqliyyat, ticarət, kommunikasiyalar, mədəniyyət, təhsil, informasiya, xarici işlər nazirləri var. Görürsünüzmü, necə nümayəndə heyətidir! Bu, ona görədir ki, biz bu səfərə böyük əhəmiyyət veririk.

Heydər Əliyeviç, ünvanımıza söylədiyiniz xoş sözlərə görə sizə bir daha təşəkkür edirəm. Şəxsən sizə, əsrlərdən bəri ümumi ənənələrimiz, ümumi mədəniyyətimiz olan Azərbaycan xalqına mənim xalqımın bəslədiyi səmimi hisslərə və dərin hörmətə siz heç vaxt şübhə etməməlisiniz. "Kitabi- Dədə Qorqud" eposunun yubileyində biz bunu bütün dünyaya deyəcəyik ki, bu, kiminsə əleyhinə deyil, ancaq sülhə, dostluğa, mehriban qonşuluğa yönəldilmişdir. Bu, mədəni inkişafa, öz əcdadlarımızın, öz tariximizin bir daha xatırlanmasına yönəldilmişdir. Allaha şükür ki, bu dövrdə xalqlarımıza belə imkan qismət olmuşdur.

İcazə verin, sizə, burada iştirak edən dostlarımızın hamısına, Azərbaycan nümayəndə heyətinin üzvlərinə ən xoş diləklərimizi bildirək, əmin-amanlıq, sakitlik və sülh arzulayaq.

**H e y d ə r Ə l i y e v:** Nazirlərin hamısı, Nazirlər Kabineti buradadır, onların bütün məsələləri müzakirə etməyə imkanı olacaqdır. Mən Baş nazirə bu işi əlaqələndirməyi, bütün məsələləri müzakirə etməyi tapşırıram. Əlbəttə, biz mövcud məsələlərin, - onlar isə o qədər də çox deyil, - həlli yollarını tapmalıyıq. Zənnimcə, bunların hamısı ediləcəkdir.

**N u r s u l t a n N a z a r b a y e v:** Heydər Əliyeviç, mən bu fikirdəyəm ki, cari ildə biz əmtəə dövriyyəsinin həcmini üç dəfə artıraraq, 100 milyon dollara çatdırmalıyıq. Lakin bu da az olacaqdır.

**H e y d ə r Ə l i y e v:** Doğrudur. Bax, məhz onlar müəyyənləşdirəcəklər ki, bunu necə etmək lazımdır. Bunu isə, şübhəsiz, etmək gərəkdir.

Yaxşı, sağ olun. Başqa suallar yoxdursa, biz sənədlərin imzalanmasına keçə bilərik.

## AZƏRBAYCAN – QAZAXISTAN SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA BİRGƏ BƏYANAT VƏ MƏTBUAT KONFRANSI

*Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı*

Zati-aliləri, Qazaxıstan Respublikasının prezidenti hörmətli Nursultan Nazarbayev!
Hörmətli qonaqlar, xanımlar və cənablar!

Qazaxıstan prezidentinin Azərbaycana səfəri bizim respublikamızın həyatında, Qazaxıstan-Azərbaycan münasibətlərində mühüm hadisədir.

Biz bu gün bir çox məsələlər barəsində fikir mübadiləsi etmək, danışıqlar aparmaq və mühüm sənədlər imzalamaq imkanı əldə etdik.

Qazaxıstan-Azərbaycan münasibətləri dostluq, qardaşlıq xarakteri daşıyır. Azərbaycan və Qazaxıstan öz dövlət müstəqilliklərini qazandıqdan sonra biz əməkdaşlığımızın inkişafı üçün çox işlər görmüşük. Həm də kifayət qədər yaxşı müqavilə-hüquqi baza yarada bilmişik. İndiyədək bizim dövlətlərimiz, hökumətlərimiz, ayrı-ayrı idarələrimiz arasında 50-dən çox sənəd imzalanmışdır. Bu gün bunlara daha 10 sənəd əlavə olundu. Bu, çox yaxşı nəticədir.

Prezident Nazarbayevlə təkbətək görüşümüz zamanı biz dövlətlərarası münasibətlərimizlə bağlı bir çox məsələlər, regionumuzun, MDB-nin problemlərinə, beynəlxalq problemlərə aid məsələlər barəsində fikir mübadiləsi apardıq. Sevindirici haldır ki, biz münasibətlərimizin və baxışlarımızın eyni olduğunu gördük.

Başlıcası odur ki, Qazaxıstan ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq ildən-ilə inkişaf edir və möhkəmlənir. Bu gün biz münasibətlərimizin bundan sonra da inkişafı, onların hərtərəfli dərinləşməsi üçün imkanlar açdıq.

Mənim dəvətimi qəbul edib rəsmi səfərə gəldiyinə görə, bizim artıq çox iş görə bildiyimizə görə prezident Nazarbayevə olduqca minnətdaram. Sabah yenə görüşlər olacaqdır. Hörmətli prezident Nazarbayev o birisi gün də Azərbaycanda olacaq ki, bu da ona bizim həyatımızla yaxından tanış olmaq imkanı verəcəkdir.

Hörmətli prezident, bu gün mühüm sənədlər imzalaya bildiyimizə görə sizə təşəkkür edirəm. Sözü sizə verirəm.

*Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin bəyanatı*

Heydər Əliyeviç, sağ olun!

Qardaş ölkə Azərbaycana rəsmi səfər etmək barədə dəvətinizə görə sizə təşəkkürümü bildirirəm. Biz bu səfərə böyük məmnuniyyətlə gəlmişik.

Nümayəndə heyətimizin tərkibində hökumətimizin altı üzvü, ölkəmizin idarələrinin nümayəndələri var. Bu, səfərə olan böyük marağı göstərir. Zənnimcə, dövlətlərimiz arasında münasibətləri yeni səviyyəyə qaldırmağın vaxtı çatmışdır.

Mən sizin indicə dediklərinizin hamısı ilə razıyam. Biz bütün bu məsələləri müzakirə etdik. Ölkələrimiz arasında ticarətin indiki həcmi potensial imkanlara cavab vermir.

Təşəkkürümü bildirmək istəyirəm ki, Bakı ilə Aktau arasında 9 il bundan əvvəl dayanmış bərə keçidi yenidən işləməyə başlamışdır. Biz Aktau çox böyük limanın tikintisini başa çatdırmışıq və bu, bizə ölkələrimiz arasında mal dövriyyəsini kəskin şəkildə artırmağa imkan verəcəkdir.

Bərə keçidi Azərbaycanın məhsul istehsalçılarına ödəmə qabiliyyətli bazar tapmağa, qazaxıstanlılara isə daha aşağı qiymətlərlə mallar, xüsusilə ərzaq malları almağa imkan yaratmışdır.

Zənnimcə, imzalanmış sənədlər ölkələrimiz arasında ticarətə yeni imkanlar açır, bu isə dövlətlərarası münasibətlərdə əsas cəhətdir. Bütün qalan münasibətlər iqtisadi münasibətlər zəminində qurulur.

Biz Xəzər dənizi, neftin və qazın Bakı-Ceyhan marşrutu ilə nəqli məsələsində də eyni mövqedəyik.

Əlbəttə, Qazaxıstan son illərdə Azərbaycanın iqtisadiyyatında, mədəni inkişafında nail olduğu uğurları izləyir və çox istəyir ki, regionda sülh bərqərar olsun. Biz regionda baş verən prosesləri, Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması sahəsində Heydər Əliyev tərəfindən göstərilən böyük səyləri izləyirik. Biz bu münaqişənin sülh yolu ilə qurtarmasını çox istəyirik və imkan daxilində buna kömək edirik.

MDB daxilində münasibətlər məsələlərində, TRASEKA layihəsi barəsində də bizim mövqelərimiz eynidir. Son illər tankerlərlə, sonra isə Bakı vasitəsilə böyük miqdarda neft göndərməyimiz də ölkələrimiz arasında mal dövriyyəsini yüksəltmək üçün imkandır.

Hesab edirəm ki, Qazaxıstan ilə Azərbaycan arasında heç bir iqtisadi, siyasi və digər problemlər yoxdur. Biz bütün istiqamətlərdə – iqtisadiyyatda, siyasətdə, mədəniyyətdə əməkdaşlıq edirik və bu əməkdaşlıq xalqlarımızın, dövlətlərimizin naminə ilbəil artmalıdır.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

**S u a l: (***Frans Press Agentliyinin Azərbaycandakı müxbiri***): Cənab Nazarbayev, siz Qazaxıstan neftinin Bakı–Tbilisi–Ceyhan boru kəməri sistemi ilə ixracının perspektivlərini necə görürsünüz? Siz bu boru kəməri ilə neft vurulmasının həcminə təminat verməyə hazırsınızmı, əgər hazırsınızsa, onda nə vaxt? Sağ olun.**

**N u r s u l t a n N a z a r b a y e v:** Bu məsələnin tarixi hamıya məlumdur. Həmin prosesin digər iştirakçıları kimi, Qazaxıstan da vaxtilə Ankara Bəyannaməsini, Amerika Birləşmiş Ştatları prezidentinin iştirakı ilə İstanbul bəyannaməsini imzalamışdır. Qazaxıstan neftin Bakı–Ceyhan marşrutu ilə nəql edilməsini dəstəkləyir.

Biz konkret həcm göstərməmişik, ona görə ki, sizə məlum olduğu kimi, 2001-ci ildə Şimali Xəzər neft kəməri istifadəyə veriləcəkdir. Burada iştirak payının təxminən 20 faizi Rusiyanın, bir o qədəri də bizimdir, qalan pay xarici şirkətlərə məxsusdur. Biz "Tengiz" yatağından çıxarılan nefti bu boru kəməri ilə nəql edəcəyik.

Lakin biz Xəzər dənizi şelfində qazma işlərinin qurtarmasını gözləyirik. Proqnozlarımıza görə, bunun nəticələri ehtiyatlarımızı dəfələrlə artıracaqdır. Odur ki, bizə neftimizi dünya bazarına nəql etmək üçün yeni marşrutlar lazım olacaqdır. Biz həmin həcmə çatdıqdan sonra, şübhəsiz, hamımız üçün vacib olan bu layihəyə dərhal qoşulacağıq.

**S u a l** *("Kazaxstanskaya pravda" qəzeti)***: Bu gün biz neftdən danışırıq. Lakin Qazaxıstanın ixracının taxıl kimi eyni dərəcədə mühüm sahəsi də var. Bilmək istərdim, Azərbaycana taxıl satışı məsələləri müzakirə edildimi? Sağ olun.**

**H e y d ə r Ə l i y e v:** Deyə bilərəm ki, Qazaxıstan çox iri taxıl istehsalçısıdır. Biz isə taxıla olan tələbatımızı hələlik ödəyə bilmirik, hərçənd, Azərbaycanda onun istehsalı ildən-ilə artır. Buna görə də kənardan taxıl gətiririk, amma bunu daha dövlət xətti ilə etmirik. Artıq bütün bunlar özəlləşdirilib, özəl şirkətlərin ixtiyarındadır. Onlar nə qədər bacarırlarsa, bir o qədər də taxıl gətirirlər.

Əlbəttə, indi taxıl çoxdur. 1994-cü ildə, bütün bunlar dövlətin ixtiyarında olduğu dövrdə nə kimi çətinliklər çəkdiyimizi xatırlayıram. Daha haralara müraciət etmirdik, nə qədər xərc çəkirdik və necə çətin yaşayırdıq. Yadımdadır, 1995-ci ildə mən Nursultan Abişoviçdən bizə taxıl göndərilməsini xahiş etdim və biz razılığa gəldik. Lakin sonra biz çörəyin və taxılın qiymətlərini sərbəstləşdirdik, bunların hamısını özəl sektora verdik. Biz bununla daha məşğul olmuruq.

Bilirəm ki, Qazaxıstandan bizə taxıl gətirir, burada satırlar. Bununla özəl şirkətlər məşğul olur. Çox istəyirəm ki, Azərbaycanın da, Qazaxıstanın da özəl şirkətləri bu sahədə daha uğurla əməkdaşlıq etsinlər. Çünki Qazaxıstan taxılı çox keyfiyyətlidir. Çörək bişirənlər haradan və hansı taxılı almaq lazım olduğunu bilirlər. Hər halda, Azərbaycan firmalarının Qazaxıstandan satın aldıqları taxılın həcminin artması, təbii olaraq, ölkələrimiz arasında əmtəə dövriyyəsinin də artmasına təsir göstərəcəkdir.

**N u r s u l t a n N a z a r b a y e v:** Biz ənənəvi olaraq Azərbaycana ərzaq taxılı göndərirdik. Son qarmaqarışıqlıq illərində bütün bunlar pozuldu, əsasən də ona görə ki, məhsulun Rusiya ərazisi ilə aparılmasına böyük tariflər qoyulmuşdu. Lakin Bakı ilə Aktau limanı arasında yol açıldıqdan sonra gəmilərlə gündə 2 milyon tondan çox məhsul daşımaq imkanı yarandı. Biz yük terminalı tikirik. Mənə elə gəlir ki, bu terminal rəqabət qiyməti üzrə taxıl göndərməyə imkan verəcəkdir.

Mənə deyiblər ki, bu il sizə Qazaxıstandan 150 min tonadək ərzaq taxılı gətiriləcəkdir.

**S u a l** ("Naş vek" qəzeti, Azərbaycan)**: Sual hər iki prezidentədir. Xəzərin statusunun müəyyən edilməsi məsələsi hansı mərhələdədir? Xəzər dənizinin səthindən birgə istifadə barədə Rusiyanın təklifi necə qiymətləndirilir? Sağ olun.**

**H e y d ə r Ə l i y e v:** Bilirsiniz, Xəzərin hüquqi statusu haqqında məsələ gündəlikdə artıq çoxdan durur. Xəzəryanı ölkələrin nümayəndə heyətləri çox görüşlər keçirmiş, müxtəlif variantları müzakirə etmişlər. Ancaq bu görüşlər hələlik bir nəticə verməmişdir.

Siz bilirsiniz ki, Azərbaycan lap əvvəldən Xəzərin həm suyun səthi üzrə, həm də dənizin dibi üzrə sektorlara Xəzəryanı ölkələr arasında bölünməsi mövqeyində durur. Biz 1993-cü ildən başlayaraq bunda israr edirik. Doğrudur, o vaxt biz bu baxımdan tək idik. Sonra proseslər ona gətirib çıxardı ki, digər ölkələr də dənizin sektorlara bölünməsi mövqeyinə keçməyə başladılar. Məlumdur ki, Qazaxıstan Rusiya ilə orta xətt haqqında saziş imzalamışdır. Düşünürəm ki, Xəzər dənizinin statusunu birdəfəlik müəyyənləşdirmək üçün biz bu danışıqları davam etdirməliyik. Bizim mövqeyimiz belədir.

**N u r s u l t a n N a z a r b a y e v:** Gördüyünüz kimi, Qazaxıstan və Azərbaycan tərəflərinin mövqeləri əsasən uyğun gəlir. 1998-ci ildə mən və Rusiya prezidenti sahillərdən eyni uzaqlıqda olan orta xətt haqqında saziş imzalamışıq. Biz bu əsasda işləyirik, çünki Xəzərin mərkəzi üzrə Qazaxıstan yalnız Rusiya ilə, cənubda isə

Türkmənistanla həmsərhəddir. Azərbaycan və Türkmənistan isə həm də İranla həmsərhəddir. Buna görə də belə düşünürəm ki, mövqelər yaxınlaşır.

Hər dövlət öz sektorunda iş aparır və bu mövqe belə sututarların bölgüsünə dair dünya konvensiyasına, məncə, uyğundur. Buna görə də bütün dövlətlər, əlbəttə, belə bir ümumi qənaətə gəlməlidirlər ki, Xəzər dənizi əmin-amanlıq, etimad dənizi olmalı və bütün Xəzəryanı ölkələrin firavanlığına xidmət etməlidir. Ən başlıcası, belə saziş vasitəsilə Xəzər dənizinin çox həssas ekologiyasının və bioloji ehtiyatlarının, onun təkindəki ehtiyatların mühafizəsinə gəlib çıxmaqdır. Bütün dövlətlər birlikdə işləmək üçün ümumi qənaətə, ortaq məxrəcə gəlməlidirlər. Qazaxıstanın mövqeyi bundan ibarətdir. Bilirəm ki, Azərbaycanın da mövqeyi bu cürdür.

**S u a l (*Qazaxıstanın "Xabar" milli agentliyi*): Hörmətli Heydər Əliyeviç, hörmətli Nursultan Abişoviç, siz xatırlatdınız ki, söhbətiniz zamanı MDB daxilində qarşılıqlı münasibətlərdən danışmısınız. Dəqiqləşdirmək istərdim: siz Rusiyada prezident seçkilərindən sonra bu ölkə ilə qarşılıqlı münasibətlər məsələsini müzakirə etmisinizmi? Sağ olun.**

**H e y d ə r Ə l i y e v:** Bəli, biz bu məsələ barədə fikir mübadiləsi apardıq. Sizə məlumdur ki, Rusiyada prezident seçkilərindən əvvəl, yanvarın 25-də Moskvada MDB ölkələri dövlət başçılarının görüşü olmuşdur. Orada biz fikir mübadiləsi apardıq və bütün prezidentlər - birlik ölkələrinin dövlət başçıları bildirdilər ki, Rusiya prezidenti vəzifəsi uğrunda seçki kampaniyasında Vladimir Vladimiroviç Putini dəstəkləyirlər.

Məsələn, mən şadam, zənnimcə, Nursultan Abişoviç də şaddır ki, arzumuz çin oldu və Vladimir Vladimiroviç Putin Rusiyanın prezidenti seçildi.

Biz buna böyük ümidlər bəsləyirik, çünki dəfələrlə demişik ki, Müstəqil Dövlətlər Birliyi öz təyinatını hələlik doğrultmur, öz fəaliyyətini hələlik səmərəli həyata keçirmir.

Son illər bu birliyin mövcudluğu müəyyən dərəcədə formal xarakter, hətta protokol xarakteri daşımışdır. Ona görə də birliyin daha dinamik və səmərəli olması üçün çox güclü impuls gərəkdir. Şübhə yoxdur ki, biz, - Azərbaycan, bilirəm, həm də Qazaxıstan, - MDB çərçivəsində fəal əməkdaşlığa həvəs göstəririk, çünki birlik ölkələrinin hər biri bundan böyük fayda götürə bilər, xüsusən də iqtisadiyyat sahəsində.

Lakin indiyədək olanlar bundan ötrü lazımi şərait yaratmamışdır. Təkrar edirəm, biz böyük ümidlər bəsləyirik ki, Vladimir Putin öz prezident vəzifələrinin icrasına başlayandan sonra, yəqin ki, MDB-nin fəaliyyətində yeni mərhələyə qədəm qoymağımız üçün addımlar, - təbii ki, təkcə onun tərəfindən deyil, həm də bütün MDB dövlət başçıları tərəfindən, - atılacaqdır.

Aydındır ki, MDB-nin meydana gəldiyi vaxtdan Rusiya birliyimizdə üstün mövqe tutur. Ona görə də biz axırıncı görüşümüzdə Vladimir Vladimiroviç Putini yekdilliklə MDB Dövlət Başçıları Şurasının sədri seçdik. İnanırıq ki, Rusiyanın yeni prezidenti ümidlərimizi doğruldacaqdır.

**N u r s u l t a n N a z a r b a y e v:** Biz Rusiyada istər Dumaya, istərsə də prezident vəzifəsinə seçkiqabağı mübarizələrin başa çatmasını alqışlayırıq. Ümidvarıq ki, bütün istiqamətlərdə fəal və dəqiq siyasət aparılacaqdır.

Heydər Əliyeviçin dediyi kimi, indi, hər şeyin müəyyən edildiyi, bütün prezidentlərin öz yerlərində olduğu bir vaxtda MDB ölkələri dövlət başçılarının, habelə gömrük dördlüyünün sammiti keçiriləcəkdir. MDB dövlətlərinin inteqrasiyası üçün bu gün həll edilməmiş başlıca məsələ azad ticarət zonası və gömrük rüsumlarının eyniləşdirilməsi haqqında müqavilənin bütün ölkələr tərəfindən ratifikasiya olunmasından ibarətdir. İndiki vəziyyət normal ticarət etməyə imkan vermir. Razılaşmalar əldə edilmişdir. Yaşayarıq, görərik. Zənnimcə, istər birgə yaşayışın tarixi təcrübəsinə, istərsə də əvvəlki iqtisadi əlaqələrə əsaslanaraq, MDB dövlətləri arasında inteqrasiyanın inkişaf etdirilməsi, etimadın möhkəmləndirilməsi həm Rusiyanın qonşularının, həm də Rusiyanın özünün mənafelərinə uyğundur. Əminəm ki, məhz bu cür siyasət aparılacaqdır.

Qazaxıstan Rusiya ilə sıx dostluq münasibətlərinə sadiqdir, siz bunu yaxşı bilirsiniz, çünki o, bizim ticarət meydanımızdır. Rusiya bizim ən yaxın qonşumuzdur, dövlətlərdən hər birinin müstəqilliyi və suverenliyi şəraitində Qazaxıstan onunla bərabərhüquqlu münasibətlər yaratmaq istəyir. Vladimir Putin axırıncı sammitdə bu cür bəyanat vermişdir. Əminəm ki, belə də olacaqdır.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ADINDAN QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ NİTQ

*Bakı,*
*«Xəzər» mərkəzi*

*7 aprel 2000-ci il*

Zati-aliləri, Qazaxıstan Respublikasının prezidenti hörmətli Nursultan Nazarbayev!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu gün mən bizə rəsmi səfərə gəlmiş dostumuz, Qazaxıstan prezidenti Nursultan Nazarbayevi Azərbaycanda, Bakıda salamlamağıma şadam.

Ənənəvi dostluq münasibətlərimizin, dostluğumuzun, bütün sahələrdə əməkdaşlığımızın daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsi üçün bu səfərin böyük əhəmiyyəti var.

Hörmətli prezident, dəvətimi qəbul edib Azərbaycana rəsmi səfərə gəldiyinizə görə sizə təşəkkür edirəm. Biz ötən vaxt ərzində çox işlər görməyə müvəffəq olduğumuzun şahidiyik. Başlıcası budur ki, biz görüşdük, bir çox məsələlər barəsində mənimlə prezident Nazarbayev arasında açıq, dostcasına fikir mübadiləsi oldu. Mən bu söhbətdən son dərəcə şad və məmnunam. Hesab edirəm ki, Qazaxıstan ilə Azərbaycan arasında münasibətlərin, prezident Nazarbayevlə mənim aramda olan dostluğun daha da inkişaf etməsi üçün bu görüşün böyük əhəmiyyəti var.

Xalqlarımız eyni köklərə, eyni tarixə, bir çox çətinliklərlə dolu olan ümumi keçmişə malikdirlər. Bizim xalqlarımızı ümumi milli mənəvi dəyərlərimiz - dil, adət və ənənələr birləşdirir. Lakin belə tarixi, çoxəsrlik ənənələrə malik olan xalqlarımızın bir-birinə indiki kimi belə yaxın olmaq imkanı, təəssüf ki, yox idi.

Qazaxıstanın və Azərbaycanın dövlət müstəqilliyi əldə etmələri, əlbəttə, xalqlarımız üçün tarixi hadisədir. Biz bunu yüksək qiymətləndiririk. Bu gün söhbətlərimiz zamanı da hər ikimiz bəyan etdik ki, dövlət müstəqilliyinin, suverenliyin bundan sonra da qorunub saxlanması və möhkəmləndirilməsi bizim ən birinci vəzifəmizdir və tarixin üzərimizə qoyduğu vəzifələri, şübhəsiz, dönmədən yerinə yetirəcəyik.

Biz tarixi münasibətlərimizin bərpa edilməsi, yeni şəraitdə Qazaxıstanla Azərbaycan arasında əməkdaşlığın təmin olunması üçün müstəqillik illərində çox işlər görmüşük. Lakin biz görülmüş işləri qiymətləndirməklə yanaşı, bu gün diqqəti nöqsanlara, həll edilməmiş məsələlərə də yönəltdik və müvafiq nazirliklərimizə tapşırdıq ki, əməkdaşlığımızın inkişafı üçün əlavə tədbirlər görsünlər.

Bundan ötrü imkanlar böyükdür. Biz bunu təkbətək söhbət zamanı da, nümayəndə heyətləri arasında danışıqlar zamanı da dedik.

Əminəm ki, gələcəkdə daha səmərəli əməkdaşlıq etmək imkanımız olacaqdır, çünki Qazaxıstan da, Azərbaycan da müstəqilliyi, demokratiyanı, siyasi plüralizmi möhkəmlətmək, iqtisadi islahatlar aparmaq, bazar iqtisadiyyatını həyata keçirmək yolunu seçmişlər. Bu yolla gedərək Qazaxıstan və Azərbaycan böyük uğurlar qazanmışlar. Lakin bu, istədiyimiz yüksək məqsədlərə nail olmağımız üçün yalnız bir zəmindir.

Qazaxıstan ərazisinə görə də, əhalisinə görə də, iqtisadi potensialına görə də böyük ölkədir. Qazaxıstan Xəzər dənizində qonşumuzdur. Lakin başlıcası budur ki, Qazaxıstan Azərbaycanın dostudur, etibarlı dostudur.

Bu gün Nursultan Abişoviç Qazaxıstanın son illərdə əldə etdiyi əməli nəticələrdən çox ətraflı danışdı. Bu, bizi çox sevindirir. Biz yaxşı bilirik ki, Qazaxıstanın müstəqillik illərində əldə etdiklərinin hamısı bütün qazax xalqının, bütün Qazaxıstan vətəndaşlarının çox böyük əməyinin nəticəsidir. Ancaq eyni zamanda, bütün bunlarda başlıca xidmət Qazaxıstanın prezidentinə, dostumuz Nursultan Nazarbayevə məxsusdur.

Dostum Nazarbayev kimi, mən də bizim şəraitimizdə ölkəni müstəqillik yolu ilə aparmağın necə çətin olduğunu gözəl bilirəm, Qazaxıstan prezidenti Nazarbayevin qarşısında nə qədər problemlər, nə qədər çətinliklər durduğunu bilirəm. Lakin şadam ki, o, bunları uğurla həll edir. Mən şadam ki, Qazaxıstan müstəqil, suveren dövlət kimi inkişaf edir. Mən şadam ki, iqtisadi inkişaf, xalqın həyat səviyyəsinin, rifahının yüksəldilməsi üçün Qazaxıstanın qarşısında böyük perspektivlər açılır.

Qardaş, dost qazax xalqına, bütün Qazaxıstan vətəndaşlarına, bizim dostumuz, prezident Nazarbayevə bu tarixi yolda ürəkdən uğurlar arzulayıram!

Müstəqil, suveren Qazaxıstanın şərəfinə badə qaldırmağı təklif edirəm!

Qardaş, dost qazax xalqının şərəfinə!

Dostumuz, Qazaxıstanın prezidenti çox hörmətli Nursultan Nazarbayevin şərəfinə! Sizin sağlığınıza!

Bir çox görkəmli, böyük insan türk xalqlarının birliyini vəsf etmişlər və indi biz bu barədə utanmadan söhbət açırıq.

Xəzər dənizi Qazaxıstanın və Azərbaycanın sahillərini həmişə qucmuşdur. Lakin indi, müstəqillik əldə edildikdən sonra, Aktau limanı yaradıldıqdan sonra ölkələrimiz arasında mal dövriyyəsinin həcmini bir neçə dəfə artırmaq üçün nadir imkan meydana gəlmişdir. Əvvəla, biz Qazaxıstan bazarını sizin mallarınızın üzünə açırıq. Sizin adamlarınız bizdə mal satmaq imkanı qazanırlar, biz buraya çox sərfəli yolla gəlirik. İkincisi, Xəzərin böyük nefti. Ona pis mövqedən yanaşıldıqda bizim hamımızın arasını vura bilər, istər siyasətçilər, istərsə də xalqlar ağıl-kamalla yanaşsalar, o, bizim hamımıza xidmət edə bilər. Biz İpək yolundan, TRASEKA layihəsindən, Transxəzər və Transqafqaz dəhlizlərindən danışırıq – indi bunların hamısı gündəlikdədir.

Mən belə hesab etdim ki, Azərbaycana rəsmi dövlət səfərinə gəlmək barədə Heydər Əliyeviçin dəvəti onun müdrikliyindən və münasibətlərimizə yeni nəfəs, yeni təkan vermək vaxtı çatmasının başa düşülməsindən irəli gəlir. Mən səfərimizi və qarşılıqlı münasibətlərimizi məhz belə başa düşmək istərdim.

Əziz dostlar, mənə elə gəlir ki, bir-birimizə şirin sözlər deməyə, təzim etməyə lüzum yoxdur. Xalqlarımız bir-birini bizsiz də çoxdan sevirlər. Odur ki, biz – onların liderləri, sadəcə olaraq, yol açmalı, maneələr yaratmamalıyıq. Ünsiyyət yollarını isə adamlar, xalqlar özləri tapacaqlar.

Heydər Əliyeviç, Sizin sağlığınıza, Azərbaycan xalqının rifahı naminə çox böyük əməyinizin şərəfinə badə qaldırmaq istəyirəm! Siz qan tökülməsini, Ermənistanla Azərbaycan arasında müharibəni dayandırmısınız. Bu gün Azərbaycan xalqı əzab-əziyyət çəkir, bir milyon qaçqınınız var. Biz qardaş olaraq narahatlıq keçiririk, Sizin – iki qonşunun, ümumiyyətlə, iki yaxın xalqın əmin-amanlığa və sülhə qovuşması üçün öz tərəfimizdən mümkün olan hər şeyi edirik.

Bütün dünyanın qloballaşmadan danışdığı indiki vaxtda inteqrasiya zamanın hökmüdür. İndi bütün dünya deyirsə ki, biz informasiya cəmiyyətinə keçirik, onda əlaqələr, sərhədlərin açılması, hər şeydən sərbəst istifadə edilməsi zamanın hökmüdür. Heydər Əliyeviç, mənə elə gəlir ki, biz xalqlarımız üçün məhz bu yolları açırıq.

İcazə verin, sizə möhkəm cansağlığı, niyyətlərinizin həyata keçməsi yolunda uğurlar, qardaş Azərbaycan xalqına sülh və tərəqqi arzulayım. Sizin sağlığınıza!

**BAKIDA TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ VI ZİRVƏ GÖRÜŞÜNDƏ TƏBRİK NİTQİ**

*«Gülüstan» sarayı*

*8 aprel 2000-ci il*

Zati-aliləri, hörmətli dövlət başçıları!

Xanımlar və cənablar!

Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində türkdilli dövlətlərin başçılarının VI zirvə görüşündə sizi salamlamağımdan çox şadam.

Türkiyə Republikasının prezidenti zati-aliləri cənab Süleyman Dəmirəli və Türkiyə nümayəndə heyətinin üzvlərini ürəkdən salamlayıram.

Qazaxıstan Respublikasının prezidenti zati-aliləri cənab Nursultan Nazarbayevi və Qazaxıstan nümayəndə heyətinin üzvlərini ürəkdən salamlayıram.

Qırğızıstan Respublikasının prezidenti zati-aliləri cənab Əsgər Akayevi və Qırğızıstan nümayəndə heyətinin üzvlərini ürəkdən salamlayıram.

Türkmənistan Məclisinin sədri zati-aliləri cənab Səhhət Muradovu və Türkmənistan nümayəndə heyətinin üzvlərini ürəkdən salamlayıram.

Özbəkistan Respublikası Ali Məclisinin sədri zati-aliləri cənab Erkin Xəlilovu və Özbəkistan nümayəndə heyətinin üzvlərini ürəkdən salamlayıram.

Türkdilli dövlətlərin başçılarının VI zirvə görüşü kimi mühüm bir forumun təşkilatçısı olmaq və qardaş dövlətlərdən gəlmiş yüksək səviyyəli qonaqları, əziz dostları qəbul etmək ölkəmiz üçün böyük şərəfdir. Əminəm ki, bu görüş və onun nəticələri bizim regionda müxtəlif sahələrdə çoxtərəfli əməkdaşlığımızın inkişafı, sülhün möhkəmləndirilməsi, sabitlik və inam, dostluq və qarşılıqlı əməkdaşlıq üçün böyük əhəmiyyət kəsb edir.

Sevindirici haldır ki, türkdilli dövlətlərin başçılarının VI zirvə görüşü türk xalqlarının mədəni irsinin qədim və ayrılmaz bir hissəsi sayılan, Azərbaycan xalqının tarixi eposu «Kitabi-Dədə Qorqud»un 1300 illik yubileyinin geniş qeyd olunduğu bir vaxta təsadüf edir.

Hörmətli dövlət başçıları!

Xanımlar və cənablar!

Bildiyiniz kimi, türkdilli dövlətlərin başçılarının V zirvə görüşü Qazaxıstanda, Astanada keçirilmişdir. İcazə verin, türkdilli dövlətlərin başçılarının V zirvə görüşünün Astana şəhərində yüksək səviyyədə keçirilməsinə görə Qazaxıstan Respublikasına sammit iştirakçıları adından və şəxsən öz adımdan minnətdarlığımı bildirim.

## TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ VI ZİRVƏ GÖRÜŞÜNDƏ VƏ «KİTABİ-DƏDƏ QORQUD» DASTANININ 1300 İLLİYİNƏ HƏSR OLUNMUŞ YUBİLEY TƏNTƏNƏLƏRİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN BAKIYA GƏLMİŞ TÜRKİYƏ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLİN BİNƏ HAVA LİMANINDA QARŞILANMA MƏRASİMİNDƏ BƏYANAT VƏ MƏTBUAT KONFRANSI

*8 aprel 2000-ci il*

*Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı*

Bizim əziz dostumuz, qardaşımız, ən əziz qonağımız, hörmətli prezident Süleyman Dəmirəl yenə də Azərbaycandadır. Bütün Azərbaycan xalqı bu gəlişi, səfəri gözləyirdi. Mən çox məmnunam ki, hörmətli Süleyman Dəmirəl bizim dəvətimizi qəbul edib, vaxt tapıb gəlibdir.

Bu gün Bakıda türkdilli dövlətlərin başçılarının VI zirvə görüşü keçiriləcəkdir. Bizim hamımızın tarixi abidəsi olan "Kitabi-Dədə Qorqud"un 1300 illiyi sabah təntənəli surətdə bayram ediləcəkdir. Ancaq bütün bu tədbirlərin, təntənəli mərasimlərin hamısına ən yüksək qiymət verən və onların hamısını daha da yüksək səviyyəyə qaldıran - Türkiyə Cümhuriyyətinin prezidenti, əziz dostumuz, qardaşımız Süleyman Dəmirəlin bu tədbirlərdə iştirak etməsidir. Ona görə də mən sizə təşəkkür edirəm, bundan məmnunam və xalqımız sizi səbirsizliklə gözləyir.

*Türkiyə Prezidenti Süleyman Dəmirəlin bəyanatı*

Qardaş, dost və qonşu Azərbaycana gəlməkdən fövqəladə sevinc duyuram. Əziz qardaşım prezident Heydər Əliyevin və Azərbaycan dövlətinin, xalqının bizə göstərdiyi böyük qonaqpərvərlikdən çox məmnunuq. Biz ikinci vətənimiz olan Azərbaycana ayaq basdığımız ilk andan bu qonaqpərvərliyi hiss edirik.

Mən qardaş Azərbaycan xalqına uğurlar diləyirəm, onları sevgi və hörmətlə salamlayıram. Bu gün və sabah burada xeyli işlərimiz vardır. Biz böyük türk dünyasının qardaş xalqları olaraq, dünyada sülhə, bərabərliyə, təhlükəsizliyə nümunə göstərərək irəliyə doğru inamla addımlayırıq.

Mən Azərbaycana gəlməyimdən duyduğum xoş hissləri təkrar-təkrar ifadə etmək istəyirəm.

* **

**S u a l: Cənab prezident Süleyman Dəmirəl, Siz bundan sonra da türkdilli ölkələrlə belə yaxın təmasda olacaqsınızmı?**

**C a v a b:** Bəli, əlaqələrimiz daha da sürətlə davam edəcəkdir.

**S u a l: Cənab prezident Heydər Əliyev, Siz bu gün cənab Süleyman Dəmirəli necə qarşılayırsınız?**

**C a v a b:** Mən onu həm dostum, həm qardaşım, həm də dünyanın ən böyük siyasət, dövlət adamı, türk dünyasının ən böyük şəxsiyyətlərindən biri kimi qarşılayıram. Sağ olun.

## TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ VI ZİRVƏ GÖRÜŞÜNDƏ AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN NİTQ

*«Gülüstan» sarayı*

*8 aprel 2000-ci il*

Hörmətli dövlət başçıları!
Hörmətli Məclis başçıları!
Xanımlar və cənablar!

Türkdilli dövlətlərin başçılarının VI zirvə görüşünün Azərbaycanda keçirilməsi xalqımızın və dövlətimizin həyatında əlamətdar hadisədir.

Azərbaycan xalqı adından hörmətli dövlət başçılarına, məclis başçılarına, nümayəndə heyətlərinin üzvlərinə, bütün qonaqlara dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Böyük məmnuniyyət hissi ilə qeyd edirəm ki, türkdilli dövlətlərin başçılarının 1 Ankara görüşündən ötən dövr ərzində bizim birliyimiz inkişaf edib, möhkəmlənib və gələcək üçün böyük ümidlər yaradıb. Bu illər ölkələrimizin, dövlətlərimizin arasında bütün sahələrdə əlaqələr genişlənib, əməkdaşlığımız öz səmərəsini göstərib.

Bunlar bizim xalqlarımızın əldə etdiyi tarixi nailiyyətin, milli azadlığımızın, dövlət müstəqilliyimizin parlaq nəticəsidir.

Türkiyə Cümhuriyyətinin, mərhum Turqut Özalın, hörmətli prezident Süleyman Dəmirəlin nəcib təşəbbüsü, türkdilli dövlətlərin başçılarının iradəsi və arzusu ilə 1992-ci ilin oktyabrında Ankarada keçirilən zirvə görüşü və qəbul edilən Ankara Bəyannaməsi bizim ölkələrimizin həyatında tarixi hadisə olmuşdur və bu gün öz bəhrələrini verir.

Ötən illər ərzində türkdilli dövlətlər birliyi çərçivəsində əldə etdiyimiz nailiyyətlərdə, şübhəsiz ki, hər bir dövlətin, hər bir dövlət başçısının payı var. Ancaq böyük məmnuniyyət hissi ilə biz Türkiyə Cümhuriyyətinin prezidenti, hörmətli Süleyman Dəmirəlin bu sahədə xidmətlərini xüsusi qeyd etməliyik. Biz bu gün qeyd etməliyik ki, bu yeddi il ərzində türkdilli dövlətlər birliyinin yaşamasında və inkişaf etməsində o, böyük səylər qoymuşdur. Böyük dövlət xadimi, siyasi xadim, dünyada tanınmış böyük bir şəxsiyyət olan Süleyman Dəmirəl bizim birliyin bu cür uğurla davam etməsində xüsusi rol oynamışdır. Bütün bunlara görə, təbiidir ki, biz hamımız ona təşəkkür etməliyik.

Azərbaycan xalqı adından, bütün Azərbaycan vətəndaşları adından bu dəyərli işlərinə və səmərəli fəaliyyətinə görə əziz dostum, qardaşım Süleyman Dəmirələ hədsiz minnətdarlığımı, təşəkkürümü bildirirəm.

Bu gün toplaşdığımız VI Bakı zirvə görüşü bir daha təsdiq edir ki, xalqlarımız və ölkələrimiz arasında çoxtərəfli əməkdaşlıq birinci növbədə müştərək mədəniyyətimizin, adət-ənənələrimizin, tariximizin, milli-mənəvi dəyərlərimizin bərpası yolunda gözəl nəticələr vermiş, gələcək üçün geniş perspektivlər açmışdır.

Bu baxımdan, mühüm addımlardan biri kimi, xalqlarımızın milli-mədəni irsinin öyrənilməsi və əlaqələndirilməsi məqsədi ilə TÜRKSOY təşkilatının yaradılmasını çox uğurlu hadisə hesab edirəm.

Bizim zirvə görüşlərimiz daha bir nəcib ənənənin təməlini qoymuşdur. Bu, dahi şəxsiyyətlərimizin, milli mədəniyyətimizin korifeylərinin, bəşər mədəniyyətinin inciləri sayılan milli eposlarımızın əlamətdar ildönümlərini, xalqlarımızın həyatındakı mühüm və tarixi hadisələri birlikdə bayram etməyimizdir. "Manas" eposunun 1000, Əmir Teymurun 660, Məhəmməd Füzulinin 500, Abay Kunanbayevin 150 illiyinin, Qazaxıstanın yeni paytaxtı Astananın açılışının birlikdə bayram edilməsi buna əyani sübutdur.

Sabah, aprelin 9-da isə biz türkdilli xalqların milli eposu, ümumi sərvətimiz olan "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinə həsr olunan yubiley mərasimlərində iştirak edəcəyik. Bu yubiley YUNESKO-nun qərarı ilə bütün dünyada keçirilir.

Belə yubiley tədbirlərinin birlikdə keçirilməsində əsas məqsəd xalqlarımızın əsrlər boyu yaratdığı zəngin mənəvi irsi indiki nəsillərə qaytarmaq, eyni kökə, eyni tarixə malik olduğumuzu bir daha dərk etməkdir. Digər tərəfdən, belə yubiley tədbirlərini keçirməklə biz nümayiş etdiririk ki, İbn-Sinanın, Nizaminin, Nəvainin, Yunis İmrənin, Füzulinin, Məhdimqulunun, Mahmud Kaşqarinin, Abayın, bir çox başqa dahilərimizin yaradıcılığı, "Kitabi-Dədə Qorqud", "Manas", "Alpamış" kimi ölməz dastanlar təkcə bizim xalqlarımıza məxsus deyil. Onlar həm də bütün bəşəriyyətin mədəni sərvətidir.

Sarsılmaz tarixi tellərlə bağlılığımızla bərabər, məqsəd və vəzifələrimizin, həll etdiyimiz problemlərin oxşarlığı ölkələrimizi və xalqlarımızı birləşdirən güclü amildir. Dərin razılıq hissi ilə qeyd etmək istəyirəm ki, Ankarada keçirilmiş birinci görüşümüzdən sonrakı dövr ərzində türkdilli dövlətlərin ikitərəfli münasibətləri daha da inkişaf etmiş, aramızda yüksək səviyyəli çoxlu səfərlər, beynəlxalq məclislərdə görüşlər və danışıqlar

olmuşdur. Bu görüşlər və danışıqlar zamanı elə mühüm dövlətlərarası sazişlər imzalanmışdır ki, onların həyata keçirilməsi dövlətlərimizin müstəqilliyinin möhkəmlənməsinə, xalqlarımızın rifahının yüksəlməsinə kömək edəcəkdir.

Türkdilli dövlətlərin başçıları arasında sıx şəxsi ünsiyyət, mehriban dostluq və qardaşlıq münasibətləri yaranmışdır. Bu isə ən çətin məsələlərin əlbir səylərlə həll olunmasına kömək edir. Bunun nəticəsidir ki, ölkələrimiz bir sıra iri beynəlxalq layihələr çərçivəsində müvəffəqiyyətlə əməkdaşlıq edirlər.

Bu gün hamımızı birləşdirən layihələrdən biri Xəzər dənizindən enerji daşıyıcılarının hasil edilməsi və onları dünya bazarlarına çıxaracaq infrastrukturların yaradılmasıdır.

Beynəlxalq əməkdaşlığın ən parlaq nümunəsi olan Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin çəkilməsi ilə bağlı 1998-ci il oktyabrın 29-da qəbul edilmiş Ankara Bəyannaməsi, təxminən bir il sonra ATƏT-in son sammiti zamanı imzalanmış tarixi İstanbul müqaviləsi ölkələrimizin gələcək inkişafı, regionumuzun təhlükəsizliyi və çiçəklənməsi, nəhayət, dünya iqtisadi sisteminə inteqrasiya, xalqlarımızın tərəqqisi və xoşbəxt gələcəyi baxımından ən mühüm mərhələlərdir. ATƏT-in İstanbul zirvə görüşündə Transxəzər boru kəməri haqqında imzalanmış sənəd də böyük əhəmiyyətə malikdir.

Şübhə yoxdur ki, neft ehtiyatlarının işlənilməsi iqtisadi fayda ilə yanaşı, bizim xalqlarımıza həm də böyük siyasi üstünlüklər qazandırır. Enerji resurslarının birgə hasilatı, dünya bazarlarına çıxmaq üçün neft və qaz kəmərlərinin çəkilməsi ölkələrimizin mənafeyini dünyanın çox inkişaf etmiş ölkələri ilə birləşdirəcək və regionun təhlükəsizliyinin, sabitliyinin və tərəqqisinin təminatçısına çevriləcəkdir.

Ölkələrimizin iqtisadiyyatının dirçəlməsində mühüm rolu olan TRASEKA və Böyük İpək Yolunun bərpası layihələrini xüsusi qeyd etmək lazımdır. TRASEKA proqramını yerinə yetirib Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizini gerçəkləşdirməklə biz həm iqtisadi inkişaf və yeni iş yerlərinin açılması üçün imkan yaradır, həm də xalqlarımızın yaxınlaşmasına və qarşılıqlı surətdə zənginləşməsinə kömək edir, regionumuzda sülh və sabitlik şəraitini möhkəmləndiririk.

Tarixi Böyük İpək Yolunun bərpasına dair 1998-ci il sentyabrın 7-8-də Avropa Birliyinin himayəsi altında Bakıda dünyanın 32 dövlətinin və 15 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə keçirilmiş beynəlxalq konfransın böyük əhəmiyyəti olmuşdur. Böyük İpək yolunun bərpa edilməsi, TRASEKA proqramının həyata keçirilməsi Avropa Birliyi məkanından başlayıb Qafqazdan, Xəzər dənizindən keçməklə Mərkəzi Asiyaya uzanacaq - Şərqlə Qərbi, Avropa ilə Asiyanı birləşdirəcək bu nəqliyyat dəhlizi gerçəkliyə çevrilərək xalqlarımızın rifahının yüksəlməsinə böyük töhfə verəcəkdir. Bu, layihənin reallaşmasında da türkdilli dövlətlər açar rolunu oynayır.

Ötən ilin aprelində ABŞ-ın paytaxtı Vaşinqtonda biz NATO-nun 50 illiyinə həsr olunmuş təntənəli iclasda iştirak etdik. Elə həmin vaxt senator Sem Braunbəkin təşəbbüsü ilə ABŞ Senatında İpək Yolu ölkələrinin dövlət başçılarının, Amerika Birləşmiş Ştatları administrasiyasının yüksək səviyyəli nümayəndələrinin, konqresmenlərin iştirakı ilə konfrans keçirildi. Konfrans bizim məqsəd birliyimizi, Böyük İpək Yolunun bərpa edilməsində fəal iştirak etmək, əməkdaşlığımızı inkişaf etdirmək arzusunda olduğumuzu bir daha təsdiq etdi.

XX əsrin sonu dünyanın geosiyasi mənzərəsini dəyişdirmiş hadisələrlə əlamətdardır. Xalqlarımızın öz müstəqilliyini əldə etməsi, demokratik inkişaf yolunu seçərək irəliləməsi tariximizdə yeni səhifələr açır.

Lakin bununla yanaşı, dünyada separatçılıq, terrorizm, dini ekstremizm təhlükəsi heç də azalmamışdır, əksinə, artmışdır. Məhz Ermənistanın hərbi təcavüzü nəticəsində Ermənistan-Azərbaycan hərbi münaqişəsi yaranmışdır. Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır, bir milyondan artıq azərbaycanlı hələ də qaçqındır və çadır şəhərciklərində ağır şəraitdə yaşayır. Azərbaycan tərəfi ardıcıl surətdə sülhsevər siyasət yeridərək münaqişənin beynəlxalq hüquq normalarına uyğun surətdə ədalətli həllinə, işğal olunmuş ərazilərimizin azad edilməsinə və qaçqınların doğma yurdlarına qayıtmasına çalışır.

1994-cü ilin may ayında Ermənistanla atəşkəs haqqında saziş əldə edilib və ona əməl olunur. ATƏT-in Minsk qrupu, onun həmsədrləri Rusiya, ABŞ və Fransa məsələnin sülh yolu ilə həll olunması uğrunda çalışır. Lakin Ermənistanın beynəlxalq hüquq normalarına riayət etməməsi, qeyri-konstruktiv mövqe tutması məsələnin həll olunmasına maneə yaradır.

Münaqişənin həll olunmasında irəliləyiş əldə edilməsi məqsədi ilə son vaxtlar Ermənistan prezidenti ilə Azərbaycan prezidenti arasında bir neçə görüş keçirilmişdir. Sülhə nail olmaq üçün qarşılıqlı kompromislərə gedilməsi zərurəti bildirilmişdir. Lakin oktyabr ayında Ermənistanda baş vermiş terror hadisəsi, Ermənistanda mövcud olan daxili vəziyyət bu danışıqların davam etdirilməsinə imkan vermir.

Biz əminik ki, sülh danışıqları davam edəcək, məsələnin ədalətli həllinə, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasına, qaçqın və köçkünlərin öz yerlərinə qayıtmasına nail olacağıq.

Ermənistanın Azərbaycana hərbi təcavüzü bizim xalqımıza böyük zərbələr vurmuşdur. Biz bu münaqişəni aradan qaldırmaq üçün var qüvvəmizlə çalışırıq. Amma bildiyiniz kimi, təhlükə sovuşmayıb. Hər bir hərbi təcavüzün qarşısı vaxtında alınmalıdır və Dünya Birliyi belə təhlükələri aradan qaldırmaq üçün qəti tədbirlər görməlidir. Vəziyyətdən hamı düzgün nəticə çıxartmalıdır. Separatizmin, terrorizmin, dini ekstremizmin qarşısını almaq üçün Dünya Birliyi, eləcə də türkdilli dövlətlər birliyi səmərəli birgə fəaliyyət göstərməlidirlər.

ATƏT-in İstanbul sammitində Azərbaycan Respublikası Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktının qəbul edilməsi barədə təkliflə çıxış etdi. Biz bölgədə sabitliyin və sülhün bərqərar olmasına gətirib çıxaracaq Qafqaz paktının yaradılması haqqında Türkiyə Cümhuriyyətinin prezidenti hörmətli Süleyman Dəmirəlin dünyanın 12 ölkəsinin başçılarına etdiyi müraciəti alqışlayırıq. Bu təkliflərin həyata keçirilməsi üçün biz səylərimizi birləşdirməliyik. Beləliklə, biz baş verə biləcək təhlükələrin qarşısını ala bilərik.

Hörmətli dövlət başçıları!

Hörmətli Məclis başçıları!

Xanımlar və cənablar!

Sizi Azərbaycan Respublikasının paytaxtı Bakıda bir daha salamlayıram, şəxsən sizə, sizin xalqlarınıza səadət və firavanlıq arzulayıram. Əminəm ki, görüşlərimizin böyük əhəmiyyəti vardır və onlar bizim dostluq və qardaşlığımızın möhkəmlənməsinə, türkdilli dövlətlər və xalqlar arasında çoxtərəfli əlaqələrin daha da inkişaf etməsinə qiymətli töhfə verir.

Diqqətinizə görə təşəkkür edirəm.

## TÜKDİLLİ DÖVLƏTLƏRİN BAŞÇILARININ BAKI BƏYANNAMƏSİ

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev, Qazaxıstan Respublikasının prezidenti Nursultan Nazarbayev, Qırğızıstan Respublikasının prezidenti Əsgər Akayev, Türkiyə Respublikasının Rrezidenti Süleyman Dəmirəl, Türkmənistan Məclisinin sədri Səhhət Muradov və Özbəkistan Respublikası Ali Məclisinin sədri Erkin Xəlilov 2000-ci il aprelin 8-də Bakı şəhərində yüksək səviyyədə altıncı görüş keçirmişlər.

Dövlət başçıları,

Dövlətlərarası əməkdaşlığın bütün sahələrində dostcasına, bərabərhüquqlu və qarşılıqlı surətdə faydalı münasibətlərin yüksək səviyyəsini vurğulayaraq və tarix, dil və mədəniyyətin ümumiliyini əsas tutaraq,

- müstəqillik, suverenlik, ərazi bütövlüyü və dövlət sərhədlərinin pozulmazlığı, hüquq bərabərliyi, bir-birinin daxili işlərinə qarışmamaq prinsiplərinə hörmət bəslənməsi, zor işlətməkdən və zor işlətməklə hədələməkdən, iqtisadi və hər hansı digər təzyiq metodlarından imtina edilməsi əsasında dövlətlərin siyasi və iqtisadi təhlükəsizliyini möhkəmlətməyə, təbii ehtiyatlardan tam və səmərəli istifadə olunması əsasında xalqların rifahını yüksəltməyə, milli iqtisadiyyatları dinamik inkişaf etdirməyə çalışaraq,
- türkdilli dövlətlərin başçılarının birinci görüşünü - yüksək səviyyədə müntəzəm görüşlərin bünövrəsini qoymuş görüşünü keçirmək barədə Türkiyənin təşəbbüsünü xüsusi vurğulayaraq, 1992-ci il 31 oktyabr tarixli Ankara bəyanatının, 1994-cü il oktyabrın 19-da İstanbulda, 1995-ci il avqustun 28-də Bişkekdə, 1996-cı il oktyabrın 21-də Daşkənddə və 1998-ci il iyunun 9-da Astanada qəbul olunmuş bəyannamələrin varisliyini təsdiq edərək,
- BMT nizamnaməsinin, ATƏT-in Helsinki Yekun aktının və digər əsas sənədlərinin məqsəd və prinsiplərinə sadiq olduqlarını ifadə edərək,
- dostluq, mehriban qonşuluq və qarşılıqlı surətdə faydalı əməkdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsinin onların dövlətlərinin xalqlarının ümdə mənafelərinə uyğun olduğunu, sülh və təhlükəsizlik işinə xidmət etdiyini hesab edərək,
- XXI əsrə qədəm qoyarkən qarşılıqlı surətdə faydalı və bərabərhüquqlu əməkdaşlığa yeni təkan verilməsinin zəruriliyini nəzərə çarpdıraraq,
- ölkələr arasında münasibətlərin vəziyyətini və əməkdaşlığı inkişaf etdirməyin perspektivlərini nəzərdən keçirərək, bir sıra beynəlxalq və regional problemlər barədə fikir mübadiləsi apararaq, bəyan edirlər:

1. Dövlət başçıları yüksək səviyyədə Bakı görüşünün faydalı olduğunu və vaxtında keçirildiyini məmnunluqla qeyd etmiş, müxtəlif sahələrdə çoxtərəfli və ikitərəfli əməkdaşlığın, habelə beynəlxalq təşkilatlar çərçivəsində sıx qarşılıqlı fəaliyyətin daha da inkişaf etdirilməsi və dərinləşdirilməsinin zəruriliyini vurğulamışlar.
2. Dövlət başçıları demokratiya prinsiplərinə, insan hüquqlarına əməl olunmasına, habelə bazar iqtisadiyyatının inkişaf etdirilməsinə möhkəm sadiq olduqlarını bir daha təsdiq etmişlər.
3. Dövlət başçıları Bakıda yüksək səviyyədə altıncı görüşün «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyinin geniş bayram edildiyi dövrdə keçirilməsini alqışlayaraq, elm, mədəniyyət, təhsil, informasiya mübadiləsi sahəsində əməkdaşlıqdan məmnun qaldıqlarını ifadə etmiş, ölkələri arasında bu əlaqələrin daha da inkişaf etdirilməsinə və möhkəmləndirilməsinə tərəfdar olduqlarını bildirmiş, türkdilli dövlətlərin xalqlarının ümumi tarixinə, mədəniyyətinə aid olan və dünya əhəmiyyətinə malik əlamətdar tarixlərin bayram edilməsinə dair birgə proqramların işlənib hazırlanmasında və həyata keçirilməsində TÜRKSOY təşkilatının fəallığını yüksəltməyin zəruriliyini qeyd etmişlər.
4. Dövlət başçıları təsdiq etmişlər ki, tarixi böyük İpək yolunun bərpası iqtisadi potensialın inkişafında mühüm rol oynayacaq və region dövlətlərinin qarşılıqlı surətdə faydalı iqtisadi əməkdaşlığını möhkəmləndirəcəkdir.

Dövlət başçıları tarixi İpək yolunun bərpasına dair 1998-ci ilin sentyabrında Bakı şəhərində beynəlxalq konfransın keçirilməsində, «Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafına dair beynəlxalq nəqliyyat haqqında əsas çoxtərəfli saziş»in imzalanmasında Azərbaycan Respublikası prezidentinin rolunu yüksək qiymətləndirmiş və konfransda qəbul olunmuş sənədləri, habelə bundan əvvəl əldə edilmiş və ixrac-idxal yüklərinin maneəsiz keçməsini təmin etmək üçün əlverişli şərait yaradılmasına yönəldilmiş razılaşmaları yerinə yetirmək əzmində olduqlarını bildirmişlər.

Dövlət başçıları türkdilli dövlətlərin rəhbərləri tərəfindən irəli sürülmüş və tarixi böyük İpək yolunun bərpası sahəsində əməkdaşlığın daha da möhkəmləndirilməsinə və inkişaf etdirilməsinə yönəldilmiş digər təşəbbüsləri də alqışlayırlar.

5. Dövlət başçıları öz ölkələrinin zəngin təbii ehtiyatlarının, ilk növbədə, təbii qazın və neftin işlənilməsi və hasilatının, habelə hidroenerji ehtiyatlarından istifadə olunmasının xüsusi əhəmiyyətini bir daha vurğulamış,

birgə layihələrin marağı olan dövlətləri, beynəlxalq maliyyə təsisatlarını, özəl strukturları cəlb etməklə həyata keçirilməsinə tərəfdar olduqlarını bildirmişlər.

Dövlət başçıları enerji ehtiyatlarının hasilatı və nəqli ilə bağlı məsələlər üzrə əməkdaşlığın, Avrasiya nəqliyyat dəhlizinin yaradılmasının və fəaliyyət göstərməsinin mühümlüyünü qeyd etmişlər. Dövlət başçıları karbohidrogen ehtiyatlarının dünya bazarlarına nəqli zamanı ekoloji təhlükəsizliyə böyük əhəmiyyət verirlər.

6. Dövlət başçıları Xəzər regionu ölkələrinin karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılmasına dair 1998-ci il oktyabrın 29-da imzalanmış Ankara bəyannaməsinin mühümlüyünü təsdiq etmiş, habelə bu istiqamətdə öz fəaliyyətlərini gücləndirməyin zəruriliyini bildirmişlər.

Dövlət başçıları neftin Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri ilə nəql edilməsinə dair 1999-cu il noyabrın 18-də İstanbul bəyannaməsinin və sazişinin, habelə Türkmənistan-Azərbaycan-Gürcüstan-Türkiyə-Avropa Transxəzər qaz kəmərinin reallaşdırılmasının prinsipləri haqqında hökumətlərarası bəyannamənin imzalanmasını yüksək qiymətləndirmiş və onların tezliklə həyata keçirilməsinin vacibliyini qeyd etmişlər.

7. Dövlət başçıları ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığı inkişaf etdirməyin aktuallığını vurğulamış və iştirakçı ölkələrin regionunda ekoloji şəraitin sabitləşdirilməsi sahəsində beynəlxalq miqyasda təxirəsalınmaz tədbirlər görülməsinə çağırmışlar.

8. Dövlət başçıları iqtisadi islahatlar aparılması və xalq təsərrüfatının idarə edilməsi, elmi-texniki yardım proqramlarının həyata keçirilməsi və kadrlar, o cümlədən kiçik və orta sahibkarlıq sahəsində kadrlar hazırlanması məsələlərinə dair təcrübə və informasiya mübadiləsini davam etdirməyin zəruri olduğunu bildirmişlər.

Dövlət başçıları ayrı-ayrı türkdilli dövlətlər arasında mülki aviasiya sahəsində başlanmış əməkdaşlıq prosesini qeyd etmişlər.

9. Dövlət başçıları elm, mədəniyyət, incəsənət, ədəbiyyat, təhsil, səhiyyə, mətbuat, radio, kino və televiziya, turizm, idman sahəsində və digər sahələrdə əlaqələri dərinləşdirməyin mübadilələri genişləndirməyin vacibliyini də təsdiq etmişlər.

10. Dövlət başçıları parlamentlər, mərkəzi və yerli hakimiyyət orqanları, ictimai təşkilatlar və başqa qeyri-hökumət təşkilatları arasında əməkdaşlığı davam etdirməyin zəruriliyini vurğulamışlar.

11. Dövlət başçıları regional və qlobal miqyasda sülhün, sabitliyin və təhlükəsizliyin təmin olunması naminə açıqlığa və geniş qarşılıqlı fəaliyyətə, münaqişələrin dincliklə aradan qaldırılmasına sadiq qaldıqlarını təsdiq etmiş və ümumi sülhün və təhlükəsizliyin qorunub saxlanması işində BMT-nin, ATƏT-in və digər beynəlxalq təşkilatların fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinə kömək göstərməyə hazır olduqlarını bildirmişlər.

Dövlət başçıları Cənubi Qafqazda və Mərkəzi Asiyada sülhün, sabitliyin və təhlükəsizliyin bərqərar edilməsinə dair ATƏT-in İstanbul sammitində və digər səviyyələrdə irəli sürdükləri təşəbbüslərin mühümlüyünü vurğulamış və əmin olduqlarını bildirmişlər ki, bu təşəbbüslərin həyata keçirilməsi regionda və bütün dünyada sülhün və sabitliyin təmin edilməsi işinə töhfə verəcəkdir.

12. Dövlət başçıları gərginliyin güclənməsinə, qaçqınların və köçkünlərin artmasına, humanitar vəziyyətin gərginləşməsinə, sosial-iqtisadi infrastrukturun dağılmasına gətirib çıxaran və dövlətlərin təhlükəsizliyinə qorxu yaradan təcavüzün və münaqişə regionlarının hərbləşdirilməsinin hər cür təzahürlərini pisləmişlər.

Dövlət başçıları BMT Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan münaqişəsinə dair qətnamələrinə tərəfdar olduqlarını bildirərək, bu münaqişəni ATƏT-in Lissabon sammitinin üç prinsipi əsasında sülh yolu ilə aradan qaldırılmasını dəstəklədiklərini bir daha təsdiq etmişlər.

13. Dövlət başçıları narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz istehsalı və dövriyyəsinin miqyasından və artmaq meyllərindən, habelə onların qeyri-leqal tranziti üçün iştirakçı dövlətlərin ərazilərindən istifadə olunmasının mümkünlüyündən narahatlıqlarını ifadə edərək, narkobiznesə qarşı mübarizədə əlaqələndirilmiş tədbirlər həyata keçirmək, hüquq pozuntularının həmin növləri barədə operativ məlumat verilməsi üçün vahid informasiya bankı yaratmaq və beynəlxalq birliyin səylərinə, o cümlədən BMT-nin narkotik maddələrə nəzarət proqramına kömək göstərmək əzmində olduqlarını təsdiq etmişlər.

14. Dövlət başçıları terrorizmə, dini ekstremizmə və separatizmə qarşı mübarizədə beynəlxalq əməkdaşlığın səmərəli mexanizmini yaratmağın, habelə bu sahədə informasiya mübadiləsinin zəruriliyini bir daha vurğulamışlar.

15. Dövlət başçıları türkdilli dövlət başçıları görüşlərinin katibliyinin mühüm rolunu qeyd etmiş və Türkiyədə daimi katiblik yaratmağı qərara almışlar.

16. Dövlət başçıları qarşılıqlı anlaşma və etimad ruhunda keçmiş altıncı görüşün nəticələrindən razı qaldıqlarını yekdilliklə ifadə etmişlər.

Dövlət başçıları aparılmış konstruktiv və səmərəli danışıqların xalqlar arasında dostluğun, geniş və hərtərəfli əməkdaşlığın inkişaf etdirilməsinə və möhkəmləndirilməsinə böyük töhfə verdiyini qeyd etmiş və vurğulamışlar ki, altıncı görüş, şübhəsiz, türkdilli dövlətlərin xalqları arasında sıx əlaqələrin daha da dərinləşməsində, habelə regionda sülhün və sabitliyin təmin edilməsində mühüm mərhələ olmuşdur.

Dövlət başçıları Türkiyə Respublikasının prezidenti Süleyman Dəmirələ minnətdarlığını bildirmiş və türkdilli dövlətlərin başçıları arasında qarşılıqlı anlaşmanın və etimadın yaranmasında və möhkəmlənməsində,

onların dövlətləri arasında dostluq və qardaşlıq münasibətlərinin inkişafında, habelə türk xalqlarının yaxınlaşmasında və həmrəyliyində mühüm rolunu qeyd etmişlər.

Prezident H.Əliyev Azərbaycan xalqına dostcasına dəstək verdiklərinə və xoş arzularına görə qardaş dövlətlərin liderlərinə səmimi təşəkkürünü bildirmişdir.

Türkdilli dövlətlərin nümayəndə heyətlərinin başçıları N.Nazarbayev, Ə.Akayev, S.Dəmirəl, S.Muradov, E.Xəlilov mehribancasına, səmimi qarşılandıqlarına və qonaqpərvərliyə görə Azərbaycan xalqına və prezident H.Əliyevə təşəkkür etmişlər.

17. Dövlət başçıları görüşlərin faydalı olduğunu təsdiq edərək, yüksək səviyyədə növbəti görüşün 2001-ci ilin aprelində İstanbul şəhərində keçirilməsini qərara almışlar. Görüşün qəti tarixi diplomatik kanallarla razılaşdırılacaqdır.

Bəyannamə 2000-ci il aprelin 8-də Bakı şəhərində hər biri rus və türk dillərində olmaqla, altı əsl nüsxədə tərtib edilmişdir, həm də bütün mətnlər eyni qüvvəyə malikdir.

| | |
|---|---|
| **Azərbaycan Respublikasının Prezidenti** | **Heydər Əliyev** |
| **Qazaxıstan Respublikasının Prezidenti** | **Nursultan Nazarbayev** |
| **Qırğızıstan Respublikasının Prezidenti** | **Əsgər Akayev** |
| **Türkiyə Respublikasının Prezidenti** | **Süleyman Dəmirəl** |
| **Türkmənistan Məclisinin sədri** | **Səhhət Muradov** |
| **Özbəkistan Respublikası Ali Məclisinin sədri** | **Erkin Xəlilov** |

## TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ VI ZİRVƏ GÖRÜŞÜ BAŞA ÇATDIQDAN SONRA ONUN YEKUNLARINA DAİR BİRGƏ MƏTBUAT KONFRANSI

*«Gülüstan» sarayı*

*8 aprel 2000-ci il*

*Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı*

Hörmətli xanımlar və cənablar!

Hörmətli mətbuat nümayəndələri!

Bu gün Bakıda, Azərbaycanda əlamətdar bir hadisə baş verdi. Türkdilli dövlətlərin başçılarının VI zirvə görüşü keçirildi və o, uğurla sona çatdı. Keçirilmiş zirvə görüşünün əsas məzmunu və mənası ondan ibarətdir ki, biz bu birliyimizin varlığını bir daha təsdiq etdik, türkdilli dövlətlər birliyinin ötən 8 ildə keçdiyi şərəfli yolu qeyd etdik, əməkdaşlığımızın səmərəli olduğunu bəyan etdik, gələcək işlər üçün fikirlərimizi bildirdik və təkliflərimizi verdik.

Sevindirici haldır ki, bütün dövlət başçıları və məclis başçıları, yəni türkdilli dövlətlərin burada iştirak edən nümayəndələrinin hamısı türkdilli dövlətlər birliyinin işinin gələcəkdə eyni istiqamətdə təşkil olunmasının vacibliyini ifadə etdilər. Biz bir daha əmin olduq ki, türkdilli dövlətlər birliyi xalqlarımız, millətlərimiz üçün lazımdır. Əmin olduq və bir daha inandıq ki, 1992-ci ildə Ankarada bu birliyin təməlini qoyanlar çox böyük işlər görüblər. Bu, Türkiyə Cümhuriyyətinin və bizim əziz dostumuz, qardaşımız Süleyman Dəmirəlin təşəbbüsü ilə olmuşdur. Hamımız bəyan etdik ki, türkdilli dövlətlər birliyinin bu illərdə yaşamasında, inkişaf etməsində və bu qədər yüksək səviyyəyə çatmasında Türkiyə Cümhuriyyətinin xüsusi rolu vardır.

Bu gün bizim hər birimiz hörmətli dostumuz, qardaşımız, Türkiyə Cümhuriyyətinin prezidenti Süleyman Dəmirələ böyük minnətdarlıq hissi ilə müraciət edirik. Çünki bu 8 ildə bu birliyimizin yaşamasında, inkişaf etməsində və bir-birimizə yaxınlaşmağımızda, tarixi köklərimizin araşdırılıb bərpa edilməsində, bütün sahələrdə iş birliyimizin təmin olunmasında Türkiyə Cümhuriyyətinin prezidenti, əziz dostumuz, qardaşımız hörmətli Süleyman Dəmirəlin böyük xidmətləri olmuşdur. Ona görə də hamımız onun böyük xidmətlərini bir səslə qeyd etdik. Qəbul olunmuş bəyannamədə bu, öz əksini xüsusi olaraq tapdı.

Hesab edirəm ki, VI zirvə görüşünün Bakı bəyannaməsi bizim gələcəyimiz üçün mühüm bir proqram xarakteri daşıyır. Biz hamımız bəyan etdik ki, biz bundan sonra da bu yolla gedəcəyik. Yəni türkdilli dövlətlər birliyi var, yaşayır, gələcək üçün lazımdır və gələcək nəsillərə də xidmət edəcəkdir.

Mən ancaq bunları deyə bilərəm. Hörmətli Süleyman Dəmirələ söz verirəm.

*Türkiyə Prezidenti Süleyman Dəmirəlin bəyanatı*

Hörmətli mətbuat nümayəndələri!

Türkdilli dövlətlərin başçılarının VI zirvə görüşünün yüksək səviyyədə keçməsi üçün böyük işlər görmüş, həmişə olduğu kimi qonaqpərvərliyi ilə bizi şərəfləndirmiş Azərbaycan prezidenti, əziz qardaşım, hörmətli Heydər Əliyevə və onun şəxsində qardaş Azərbaycan xalqına öz təşəkkürlərimi bildirmək istəyirəm.

Türkdilli dövlətlərin başçılarının zirvə görüşü ilk dəfə 1992-ci ildə Ankarada keçirilmiş, sonra İstanbulda, Bişkekdə, Daşkənddə və Astanada davam etdirilmişdir. Bu gün Bakıda keçirilən türkdilli dövlətlərin başçılarının VI zirvə görüşündə bir daha gördük ki, bu toplantılar daha güclü surətdə təşkilatlanmışdır. Mən bunu böyük məmnuniyyətlə qeyd etmək istəyirəm.

Biz türkdilli dövlətlərin beynəlxalq və regional təşkilatlarda əməkdaşlığı və ikitərəfli əlaqələrinin möhkəmləndirilməsi məsələlərindən ətraflı danışdıq. Aktual problemlərə, məsələlərə, gələcəyə baxışımızda həmfikir olduğumuzu məmnuniyyətlə gördük. Bu bənzərlik münasibətlərimizin inkişaf etdirilməsində və qüvvətləndirilməsində qardaş xalqlarımız arasındakı tarixi və mədəni bağlardan qaynaqlanan qüvvətli bir iradəyə güc əlavə edir.

Türkiyə, eləcə də zirvə toplantısında iştirak edən bütün tərəflər ATƏT-in İstanbul bəyannaməsində də əks etdirilmiş beynəlxalq terrorizm, ifrat zorakılıq, mütəşəkkil cinayətkarlıq, narkotik maddələr və silah qaçaqçılığı kimi pozucu faktlara qarşı mübarizədə həmrəydirlər.

Nəticə etibarilə, türkdilli ölkələrin başçılarının bu gün Bakıda keçirilən VI zirvə toplantısı ölkələrimiz arasındakı həmrəyliyi, qarşılıqlı sevgi və hörməti daha da gücləndirmiş, eyni tarixi və mədəniyyəti paylaşan, fərqli ləhcələrdə də olsa eyni dildə danışan ölkələr XXI əsrə istiqamətlənən tale və könül birliyi nümayiş etdirmişlər. XXI əsrə qədəm qoyarkən türkdilli ölkələrin həmrəyliyinin əhəmiyyətini bir daha ifadə etmək

istəyirəm. Önümüzdəki əsrin Avrasiya qitəsinə, bu bölgəyə nələr, hansı fürsətlər gətirməkdə olduğunu bir daha müzakirə etmək imkanı tapdıq. Önümüzdəki on il ərzində bölgədə ötən on ildəkinə nisbətən daha mühüm dəyişikliklər olacaqdır. Mədəni dünya ilə inteqrasiya baxımından da mühüm dəyişikliklər olacağına inanıram. Böyük bir fikir bərabərliyi içindəyik. Bunu ifadə etməkdən xüsusi məmnuniyyət duyuram. Təşəkkür edirəm.

*Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin bəyanatı*

Bizim bütün fikirlərimiz yenicə qəbul etdiyimiz Bakı bəyannaməsində şərh olunmuşdur. Ümidvaram ki, sizin hamınızın bu bəyanatla tanış olmaq imkanınız var. Bugünkü sammitin yekunları barədə isə Heydər Əliyev və Türkiyə prezidenti Süleyman Dəmirəl indicə öz fikirlərini bildirdilər. Mən onların qənaətləri ilə razıyam və suallarınıza cavab verməyə hazıram.

*Qırğızıstan Prezidenti Əsgər Akayevin bəyanatı*

Mən bizim yaşlı yoldaşlarımızın fikirləri ilə tam razıyam.

* * *

**S u a l** (*"Kaspian investor" jurnalı, Azərbaycan*)**: Mənim sualım Türkiyə prezidentinədir. Cənab Süleyman Dəmirəl, xahiş edirəm deyəsiniz, Azərbaycan qazının Türkiyə bazarına göndərilməsi məsələsinə Türkiyənin münasibəti necədir? Türkiyə bu məsələyə dair yaxın vaxtlarda müqavilə imzalamağa hazırdırmı? Ekspert qrupları bu məsələ üzrə nə vaxt işə başlayacaqlar? Sağ olun.**

**H e y d ə r Ə l i y e v:** Bəli, artıq məlumdur ki, son vaxtlar Azərbaycanın Xəzər dənizində olan sektorunda 1994-cü ildən aparılan işlər, dünyanın böyük neft şirkətləri ilə apardığımız müştərək işlər Xəzər dənizinin çox zəngin neft və qaz sərvətlərini daha da aydın aşkar edibdir. O cümlədən, 1996-cı ildə "Şahdəniz" neft və qaz yatağı haqqında imzalanmış müqavilənin həyata keçirilməsi 1999-cu ildə o nəticəni veribdir ki, "Şahdəniz" yatağında çox zəngin qaz ehtiyatları vardır. Əlbəttə, neft kondensatı da var, amma əsas qazdır. İlkin məlumatlara görə, bu ehtiyat 1 trilyon kubmetrdən artıqdır, amma deyirlər ki, ondan da çox olacaqdır.

Ona görə də bizimlə birlikdə, müştərək iş görən xarici neft şirkətləri bu qazın ixrac olunmasını bizim qarşımızda məsələ kimi qoyublar. Bu qazın ixrac olunmasını, əgər mümkündürsə, iki vasitə ilə nəzərdə tuturuq. Birinci, əgər Türkmənistan qazının Türkmənistan-Xəzər dənizi-Azərbaycan-Gürcüstan-Türkiyə marşrutu ilə getməsi ötən ilin noyabr ayında ATƏT-in İstanbul sammitində imzalanmış müqavilə üzrə həyata keçirilərsə, həmin o qaz kəməri ilə biz də Azərbaycan qazının bir hissəsini ixrac etmək istəyirik və bu barədə həm Türkmənistan ilə, həm də Türkiyə ilə danışıqlar aparmışıq. Amma eyni zamanda, biz Türkiyə ilə danışıqlar aparırıq ki, bununla bərabər, paralel olaraq biz Gürcüstan ərazisindən Türkiyəyə müstəqil bir qaz kəməri çəkək. Əgər biz buna nail ola bilsək, 2002-ci ildə çıxan qazı Türkiyəyə ixrac edə bilərik. İndi bu danışıqlar gedir və hesab edirəm ki, bunlar uğurlu olacaqdır.

**S ü l e y m a n D ə m i r ə l:** Hörmətli Heydər Əliyevin sözlərinə əlavə olaraq demək istəyirəm ki, Türkiyənin qaza ehtiyacı vardır. Hazırda Türkiyə ildə 10 milyard kubmetr qaz alır. Bunun 6 milyardı Rusiyadandır, 4 milyardın da bir qismi Əlcəzairdən, bir qismi isə Misirdəndir. Hazırda Türkiyənin ildə 25 milyard kubmetr qaza ehtiyacı vardır. Qarşımızdakı on il içərisində ildə 53 milyard kubmetr, önümüzdəki iyirmi ildə isə ildə 83 milyard kubmetr qaza ehtiyac vardır. Azərbaycanda bu gün nə qədər qaz olsa, Türkiyə onun hamısını almağa hazırdır. Ona görə də biz "Şahdəniz" yatağından çıxacaq qazı gözləyirik.

Bizim Türkmənistanla Türkiyəyə 30 milyard kubmetrlik qaz boru xəttinin çəkilməsi barədə müqaviləmiz vardır. Mən on gün əvvəl Türkmənistanda idim. Türkmənistanla Türkiyə arasında anlaşma vardır. Bu anlaşmaya görə qaz Xəzər dənizindən keçən bir boru xətti ilə Türkiyəyə qədər nəql ediləcək və Türkiyəyə təhvil veriləcəkdir. Türkiyə 30 milyard kubmetr qazın 16 milyardını özü istifadə edəcək, 14 milyardını isə satacaqdır. Amma bunun həyata keçməsi üçün bu xəttin çəkilməsi lazımdır. Bu işi də bir şirkətlər konsorsiumu yaranıbdır, onlar görəcəkdir. Həmin şirkətlər konsorsiumunun da Türkmənistanla anlaşması vardır. Onlar qazı gətirib bizə təhvil verdikdən sonra onu alacağıq. Bunun həyata keçməsi lazımdır.

Hörmətli cümhur başkanı, əziz qardaşım Əliyev də söylədi, - bu 30 milyard kubmetrlik boru xətti ilə 5 milyard kubmetr Azərbaycan qazı, 25 milyard kubmetr də Türkmənistan qazı ixrac olunması barədə Azərbaycanla Türkmənistan danışmışlar.

Onu da bildirim ki, Türkiyə Rusiyadan da qaz alır. Qara dənizdən keçən "mavi axın" boru xəttindən də 15 milyard kubmetr qaz alacaqdır. Türkiyənin qaz aldığı ölkələrin bir-biri ilə rəqabət aparması təkcə danışıq deyildir. Türkiyənin ehtiyacları çoxdur. Hansı ölkə Türkiyəyə qaz satmaq istəyirsə, onun hamısını almağa yetərincə hazırdır.

**S u a l** (*Qazaxıstan*)**: Mənim sualım Qazaxıstan prezidentinədir. Cənab prezident, Qazaxıstan Bakı–Ceyhan boru kəməri ilə nə qədər neft nəql etmək niyyətindədir?**

**N u r s u l t a n   N a z a r b a y e v:** Bakı–Ceyhan neft kəməri problemini biz çoxdan müzakirə edirik. Qazaxıstan İstanbulda bəyannamə imzalamışdır.

Qazaxıstanda hazırda çıxarılan neft Şimali Xəzər boru kəməri ilə nəql ediləcəkdir. Lakin biz Xəzər şelfində məhsuldar laya çatmaq ərəfəsindəyik, orada çox böyük miqdarda neft, eyni zamanda qaz var. Şimali Xəzər boru kəmərinin ümumi gücü ilk vaxtlar 48 milyon ton olacaqdır. Qazaxıstan onun vasitəsilə 25 milyon ton neft nəql edə biləcəkdir. Ancaq Qazaxıstan yaxın illərdə 100 milyon tonadək neft ixrac etmək niyyətindədir, buna görə ona digər neft kəmərləri də gərəkdir. Biz bu istiqaməti götürürük. Hansı həcmdə neft nəql ediləcəyini isə bu həcm məlum olduqda bildirəcəyik.

**S u a l (*Qırğızıstan*): Əsgər Akayeviç, sammitdə terrorizm və dini ekstremizm problemi müzakirə edildimi? Əgər müzakirə edildisə, sammitin bütün iştirakçıları bu məsələdə həmrəy idilərmi? Sağ olun.**

**Ə s g ə r   A k a y e v:** Terrorizmə, dini ekstremizmə qarşı mübarizədə səylərin birləşdirilməsi bugünkü sammitin əsas məsələlərindən biri idi. Biz bəşəriyyətin və iqtisadiyyatın gələcək sabit inkişafından ötrü təhlükəsizliyi, əmin-amanlığı qoruyub saxlamaq üçün bu bəlaya qarşı mübarizədə səylərimizi birləşdirməyin zəruriliyi məsələsində hamı yekdil olduğuna görə dövlət başçılarına, nümayəndə heyətlərinin başçılarına çox minnətdarıq.

**S u a l (*Türkiyə*): Hörmətli Süleyman Dəmirəl, bu, sizin Türkiyəni təmsil etdiyiniz son zirvə toplantısıdır. Belə olan halda hörmətli Saparmurad Niyazov və hörmətli İslam Kərimov bu toplantıda niyə iştirak etmədilər? Bunu necə qiymətləndirirsiniz?**

**İkinci sualım belədir: Transxəzər qaz boru xəttinə dair anlaşma olmalı idi. Bəlkə Türkmənbaşı bu toplantıda elə buna görə iştirak etməmişdir?**

**S ü l e y m a n   D ə m i r ə l:** Burada Türkmənbaşını Səhhət Muradov təmsil edir. O, məclis başkanıdır. Deməli, Türkmənistan bu toplantıda iştirak etmişdir. Yəni Türkmənbaşının əvəzində Məclis sədrinin iştirak etməsi Türkmənistanın iştirak etməsi deməkdir. Burada sənədlərin altına toplantıda kim iştirak edirsə, o da həmin ölkəni təmsil edərək onun adından imza atır.

İkinci sualınıza gəlincə, hörmətli Kərimov hörmətli cümhur başkanı Əliyevə daha öncə məktub yazaraq toplantıda iştirak edəcəyini bildirmişdi. Son zamanlar onun bir sıxıntısı olmuşdur. Onu da burada Məclis başkanı Xəlilov əvəz edir. Yəni bu toplantı öz işini uğurla başa çatdırdı.

Bu toplantıda sonuncu dəfə iştirakım məsələsinə gəldikdə isə, mənim çalışmam hələ davam edir. Mənim çalışmam mayın 16-sı axşama qədər davam edəcəkdir. Demək, mayın 16-sı axşama qədər dövlət başında çalışacağam və həmin müddətə qədər bu xidməti kimsə edə bilməz. Bunda da çaşdırıcı elə bir şey yoxdur.

**S u a l (*Azərbaycan*): Sualım hazırkı sədr Heydər Əliyevə və əvvəlki sədr Nursultan Nazarbayevədir.**

**Daimi fəaliyyət göstərən katiblik yaradılması haqqında qərarınızı Sizin ittifaqı strukturca formalaşdırmaq, onu hansısa təşkilati struktura çevirmək arzusu və səyi hesab etmək olarmı? Bu katibliyə nə kimi məsələləri həll etmək səlahiyyəti veriləcəkdir? Sağ olun.**

**N u r s u l t a n   N a z a r b a y e v:** Ötən il Astanada keçirilmiş beşinci sammitdə biz - dövlət başçıları katiblik yaradılması haqqında təklifi qəbul etdik. Zənnimcə, başlıca vəzifə ondan ibarət idi ki, ümumiyyətlə, qəbul etdiyimiz qərarların icrasına nəzarət edəcək və ya bunu izləyəcək birgə orqanımız olsun və növbəti iclasın hazırlanması, bu iclasların səmərəli olması üzərində daim işləsin, sənədlərin razılaşdırılmasında hamının rəylərini nəzərə alsın. Odur ki, texniki orqan kimi belə bir katiblik, sadəcə, zəruridir. Buna görə də biz onu yaratdıq. Onu Türkiyədə, İstanbulda yerləşdirməyi qərara aldıq.

Biz hansısa fövqəlmilli struktur yaradılmasından danışmadıq. Lakin hesab edirəm ki, bu görüşlərimiz özlüyündə çox mühümdür. Görüşlərin özləri, bu və ya digər dövlətdə, qarşılıqlı münasibətlərimizdə meydana gələn problemlər barəsində, hər bir dövlətin rifahı naminə həllinə ölkələrimizin rəhbərlərinin təsir göstərə biləcəyi problemlər barəsində fikir mübadilələri vacibdir. İnteqrasiya, hər hansı birlik yalnız o halda səmərəli ola bilər ki, bu, bütün dövlətlərə sərfəli olsun. Müəyyən bir texniki struktur da bütün rəyləri nəzərə almalıdır.

**H e y d ə r   Ə l i y e v:** Mən Nursultan Abişoviçin dedikləri ilə tam razıyam. Əlavə etməyə sözüm yoxdur. Biz ümumi fikirdəyik. Özü də təkcə biz yox. Bütün dövlət başçıları, bütün nümayəndə heyətlərinin başçıları dövlət başçılarının Astanadakı beşinci görüşündə də, bu gün də yekdil olmuşlar. Məncə, biz düzgün hərəkət etmişik.

## AZƏRBAYCAN PREZİDENTİ ADINDAN TÜRKDİLLİ DÖVLƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ

*Bakı,*
*«Xəzər» mərkəzi*

*8 aprel 2000-ci il*

Zati-aliləri, Türkiyə Cümhuriyyətinin prezidenti, əziz dostumuz, qardaşımız Süleyman Dəmirəl!

Zati-aliləri, Qazaxıstan Respublikasının prezidenti, dostumuz, qardaşımız Nursultan Nazarbayev!

Zati-aliləri, Qırğızıstan Respublikasının prezidenti cənab Əsgər Akayev!

Zati-aliləri, Özbəkistan Respublikası Ali Məclisinin sədri cənab Erkin Xəlilov!

Zati-aliləri, Türkmənistan Məclisinin sədri cənab Səhhət Muradov!

Zati-aliləri, YUNESKO-nun baş direktoru cənab Koisuro Matsuura!

Zati-aliləri, Fransa parlamentinin qocaman üzvü, Azərbaycan xalqının böyük dostu cənab Jak Bomel!

Hörmətli qonaqlar!

Hörmətli xanımlar və cənablar!

Bu gün biz türkdilli dövlətlər birliyinin Azərbaycanda, Bakıda VI zirvə görüşünün işini başa çatdırdıq. Bu, Azərbaycan xalqı, bizim ölkəmiz, millətimiz üçün çox əlamətdar, deyə bilərəm ki, tarixi hadisədir.

Türkdilli dövlətlər birliyinin əsası 8 il bundan öncə, 1992-ci ilin oktyabr ayında Ankarada, Türkiyə Cümhuriyyətinin, bizim əziz dostumuz, qardaşımız Süleyman Dəmirəlin təşəbbüsü və türkdilli dövlətlərin başçılarının iradəsi ilə qoyulubdur. Biz məmnunuq ki, nəhayət, VI zirvə görüşü Azərbaycanda, Bakıda keçirildi.

Bu gün biz türkdilli dövlətlər arasında olan dostluğu, əməkdaşlığı, qardaşlıq əlaqələrini bir daha təsdiq etdik. Gələcəkdə bütün sahələrdə əməkdaşlığımızın inkişaf etməsi üçün yekdil fikirdə olduğumuzu bildirdik və Bakı bəyannaməsini qəbul etdik.

VI zirvə görüşünün Bakı bəyannaməsi türkdilli dövlətlərin istək və arzularını əks etdirir və bizim gələcək dostluğumuzun, qardaşlığımızın, əməkdaşlığımızın inkişafı üçün çox dəyərli bir sənəddir.

Biz hamımız - dövlət başçıları, məclis başçıları Türkiyə Cümhuriyyətinin prezidenti, əziz dostumuz, qardaşımız Süleyman Dəmirəlin türkdilli xalqların, dövlətlərin birliyinin yaranmasında və 8 il ərzində uğurlu fəaliyyət göstərməsində böyük xidmətlərini məmnuniyyətlə və minnətdarlıq hissi ilə qeyd etdik.

Türkdilli ölkələrin bütün dövlət başçıları bu gün öz xalqlarının, dövlətlərinin fikrini ifadə edərək VI zirvə görüşündə çox dəyərli çıxış etdilər. Ancaq əziz dostumuz, qardaşımız, Türkiyə Cümhuriyyətinin prezidenti Süleyman Dəmirəlin böyük mənalı, məzmunlu, müfəssəl nitqi bizim hamımızı heyran etdi. Hamımızın fikrincə, əziz Süleyman Dəmirəlin nitqi bizim üçün böyük proqram xarakteri daşıyan bir tarixi sənəddir.

Hörmətli Süleyman Dəmirəl həm bizim xalqlarımızın qədim kökləri, tarixi keçmişi və birliyi haqqında, həm tarixin müəyyən bir mərhələsində bizim bir-birimizdən ayrı düşməyimiz barədə, həm də ölkələrimiz dövlət müstəqilliyini əldə edəndən sonra bir-birimizə yenidən qovuşmağımız və bu gün bunun nə qədər böyük əhəmiyyət daşıması haqqında çox gözəl, dəyərli fikirlər söylədi.

Əziz dostum, qardaşım!

Mən güman edirəm, burada olan dövlət başçılarının və məclis başçılarının fikrini ifadə edərək, bu gün VI Bakı zirvə görüşündə fəal iştirak etdiyinizə və çox dəyərli, tarixi nitqinizə görə sizə bir daha təşəkkür edirəm.

Bu gün biz məmnuniyyət hissi keçiririk ki, VI zirvə görüşü uğurla başa çatıbdır və gələcək üçün böyük perspektivlər açıbdır. Əvvəlki zirvə görüşləri kimi, bu zirvə görüşü də bizim millətlərimiz, xalqlarımız, dövlətlərimiz arasında olan dostluğu, əməkdaşlığı bir daha dünyaya nümayiş etdirdi.

Əziz dostlar, mən sizin hamınızı türkdilli dövlətlər birliyinin VI Bakı zirvə görüşünün uğurla başa çatması münasibətilə təbrik edirəm. Bütün türkdilli dövlətlərə, onların xalqlarına, vətəndaşlarına səadət, xoşbəxtlik və rifah arzu edirəm.

Mən badələrimizi türkdilli dövlətlərin, xalqların şərəfinə qaldırmağı rica edirəm!

Bizim birliyin gələcəkdə inkişaf etməsi şərəfinə!

Türkdilli dövlətlərin başçılarının, birinci növbədə dostumuz, qardaşımız, Türkiyə Cümhuriyyətinin prezidenti Süleyman Dəmirəlin şərəfinə!

Qazaxıstan Respublikasının prezidenti, dostumuz, qardaşımız Nursultan Nazarbayevin şərəfinə!

Qırğızıstan Respublikasının prezidenti, dostumuz, qardaşımız Əsgər Akayevin şərəfinə!

Özbəkistan Pespublikasının prezidenti, dostumuz, qardaşımız İslam Kərimovun şərəfinə!

Özbəkistanı burada təmsil edən Ali Məclisin sədri Erkin Xəlilovun şərəfinə!

Türkmənistan prezidenti, dostumuz, qardaşımız Saparmurad Niyazovun şərəfinə!

Türkmənistanı burada təmsil edən Məclis sədri Səhhət Muradovun şərəfinə!

Bütün qonaqların şərəfinə!

Əziz dostlar!

Xanımlar və cənablar!

Türkdilli dövlətlər birliyində hər bir dövlət bərabər hüquqa malikdir. Bu birlik məhz beynəlxalq hüquq normaları, prinsipləri əsasında qurulmuşdur. Birlikdə hər bir dövlət başçısı eyni hüquqa malikdir. Deyə bilərəm ki, ötən 8 il müddətində türkdilli dövlətlərin başçılarının hər biri bu birliyin inkişaf etməsi və möhkəmlənməsi üçün faydalı işlər görübdür və öz xidmətlərini göstəribdir.

Ancaq bizim bu birliyin ötən 8 il ərzində yaşamasında, möhkəmlənməsində və inkişaf etməsində əziz dostumuz, qardaşımız Süleyman Dəmirəl hamıdan çox iş görüb, hamıdan dəyərli fəaliyyət göstərib və bizim hamımıza örnək olubdur.

Bizim xalqlarımızın müştərək milli, mənəvi dəyərləri, ənənələri vardır. Keçmiş adət-ənənələrimizə görə hər ailədə bir ağsaqqal olur. Bizim bu birliyimizi bir ailə hesab etmək olar. Bu ailənin də ağsaqqalı, türkcə desək, abimiz, əziz dostumuz, qardaşımız Süleyman Dəmirəldir. Türkdilli ölkələrin bütün dövlət başçılarının ona hədsiz sevgisi və məhəbbəti vardır.

Hörmətli Süleyman Dəmirəlin bizim hər birimizə olan hədsiz məhəbbəti, sevgisi, dostluq qayğısı məlumdur. Bizim hər birimiz əziz dostumuz, qardaşımız Süleyman Dəmirəlin qayğısını, diqqətini, xalqlarımıza və şəxsən biz dövlət başçılarına olan dostluq münasibətini həmişə hiss etmişik.

Süleyman Dəmirəl Türkiyə Cümhuriyyətində 50 il müddətində böyük dövlət xadimi, siyasi xadim kimi yaşayıb, inkişaf edib və öz ölkəsinə, xalqına böyük xidmətlər göstəribdir.

Cənab Süleyman Dəmirəl böyük dövlət xadimi, siyasi xadim kimi dünya miqyasında böyük hörmətə malikdir. Biz hamımız beynəlxalq təşkilatların toplantılarında, zirvə görüşlərində iştirak edirik. Dostumuz Süleyman Dəmirəl bu beynəlxalq təşkilatlarda yenə də bizim hamımızı başına yığır. Eyni zamanda, müşahidə edirik ki, bütün dünya ölkələrinin başçıları, beynəlxalq təşkilatların üzvləri hörmətli Süleyman Dəmirələ nə qədər böyük münasibətlə yanaşırlar. Hörmətli Süleyman Dəmirəlin beynəlxalq aləmdə, beynəlxalq siyasətdə olduqca böyük xidmətləri və çox görkəmli yeri vardır.

Mən bir faktı demişəm, bir daha xatırlatmaq istəyirəm. 1975-ci ildə ATƏM-in təməli qoyularkən Helsinki paktını qəbul etmək üçün oraya 35 dövlətin başçıları toplaşmışdı. Hörmətli Süleyman Dəmirəl Türkiyə Cümhuriyyətinin Baş naziri kimi həmin Helsinki toplantısının iştirakçısı olmuşdur. Helsinki paktının altında Süleyman Dəmirəlin imzası vardır. Həmin toplantıda iştirak etmiş ölkələrin dövlət xadimləri, siyasi xadimlər içərisində yalnız Süleyman Dəmirəl həm yaşayır, həm də siyasi fəaliyyət göstərir. Orada iştirak edənlərin indi heç biri yoxdur. Amma dostumuz Süleyman Dəmirəl var, yaşayır, çox gərgin fəaliyyət göstərir və bundan sonra da göstərəcəkdir.

Mən bu badələri bizim əziz dostumuz, qardaşımız, ağsaqqalımız, abimiz Süleyman Dəmirəlin şərəfinə qaldırmağı xahiş edirəm. Biz ona cansağlığı, uzun ömür və gələcək işlərində yeni-yeni uğurlar arzulayırıq. *

---

* Rəsmi qəbulda Türkiyə prezidenti Süleyman Dəmirəl də nitq söylədi.

## «KİTABİ-DƏDƏ QORQUD» DASTANININ 1300 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YUBİLEY MƏRASİMİNDƏ NİTQ

*Respublika sarayı*

*9 aprel 2000-ci il*

Hörmətli dövlət başçıları!
Hörmətli məclis başçıları!
Hörmətli qonaqlar!
Hörmətli xanımlar və cənablar!

Bu gün Azərbaycan xalqı möhtəşəm "Kitabi-Dədə Qorqud" eposunun 1300 illiyini böyük bayram kimi təntənə ilə qeyd edir. Bu yubiley bizim üçün, bütün türk dünyası üçün, bəşər mədəniyyəti üçün müstəsna əhəmiyyəti olan tarixi bir hadisədir. Bu, bizim tarixi köklərimizə, milli ənənələrimizə, milli-mənəvi dəyərlərimizə, mədəniyyətimizə, elmimizə, xalqımızın çoxəsrlik tarixinə olan hörmət, ehtiram bayramıdır. Bu, bizim milli azadlığımızın, dövlət müstəqilliyimizin bayramıdır.

Azərbaycan xalqının, bütün türkdilli xalqların böyük tarixi abidəsi olan «Kitabi-Dədə Qorqud» 1300 ildir ki, yaşayır. Əgər 1300 ildən də öncə «Kitabi-Dədə Qorqud» dastanının yaranması üçün xalqlarımızın nə qədər səylər qoyduğunu və nəhayət, bu tarixi abidəni yaratdığını nəzərə alsaq, onda təsəvvür edə bilərik ki, bizim xalqlarımızın nə qədər qədim tarixi, dərin kökləri və nə qədər zəngin mədəniyyəti vardır.

1300 il ərzində «Kitabi-Dədə Qorqud» böyük, möhtəşəm, şanlı yol keçmişdir. «Kitabi-Dədə Qorqud» bütün çətinliklərə, məhdudiyyətlərə baxmayaraq, 1300 il ərzində bizim xalqlarımıza mənəvi qida olmuş, onların yaşamasına, mübarizə aparmasına, öz milli mənliyini dərk edib, hifz etməsinə daim yardım göstərmişdir.

Ancaq onu da qeyd etmək lazımdır ki, biz «Kitabi-Dədə Qorqud»un 1300 illik tarixinə yüksək qiymət verərək, etiraf etməliyik ki, son üç il ərzində Azərbaycanda «Kitabi-Dədə Qorqud» irsinin öyrənilməsi, tədqiq edilməsi, təbliğ olunması sahəsində böyük işlər görülmüş və bunlar «Kitabi-Dədə Qorqud»u bizim xalqımıza, bütün türk dünyasına, türkdilli xalqlara tanıtmış və onun nə qədər zəngin sərvət olduğunu bütün dünyaya nümayiş etdirmişdir.

Dünən Türkdilli Dövlətlər Birliyinin VI Bakı zirvə görüşü öz işini uğurla sona çatdırdı. Biz bu zirvə görüşündə Türkdilli Dövlətlər Birliyi yaranan vaxtdan keçmiş 8 il ərzində gördüyümüz işləri təhlil etdik, ona nəzər saldıq və böyük nailiyyətlər əldə etdiyimizi bildirdik. Təbiidir ki, Türkdilli Dövlətlər Birliyinin yaranması türk dünyasında, bizim xalqlarımızın hər birinin həyatında tarixi hadisə olmuşdur. Amma 8 il ərzində onun yaşaması, inkişaf etməsi, genişlənməsi bu birliyin yaranmasının bir tərəfdən nə qədər zəruri olduğunu nümayiş etdirdi, ikinci tərəfdən də bu birliyin bizim xalqlarımız üçün gələcəkdə nə qədər gərəkli olduğunu göstərdi. Ötən illərdə əldə etdiyimiz nailiyyətlər bizim ümumi səylərimizin nəticəsidir. Ancaq eyni zamanda, qeyd etmək lazımdır ki, Türkiyə Cümhuriyyətinin, əziz dostumuz, qardaşımız Süleyman Dəmirəlin təşəbbüsü ilə yaranmış Türkdilli Dövlətlər Birliyi, təbiidir ki, birinci növbədə Türkiyə Cümhuriyyətinin böyük xidmətlərini göstərir.

Bu gün biz hamımız VI zirvə görüşünü uğurla başa çatdıraraq, xalqlarımızın müştərək tarixi abidəsi olan «Kitabi-Dədə Qorqud»un yubileyinə toplaşmışıq. Bu yubileyə daha da çox əhəmiyyət verən, onun səviyyəsini qaldıran odur ki, biz onu türkdilli dövlətlərin başçıları ilə birlikdə keçiririk. Mən bu yubileydə iştirak edənlərin, bizim dəvətimizi qəbul edib Azərbaycana gələnlərin hamısına təşəkkürümü bildirirəm və onların hamısını səmimi-qəlbdən salamlayıram.

Türkiyə Cümhuriyyətinin prezidenti, Azərbaycan xalqının böyük dostu, əziz qardaşım Süleyman Dəmirəli salamlayıram!

Qazaxıstan Respublikasının prezidenti, hörmətli qonağımız, əziz dostum, qardaşım Nursultan Nazarbayevi salamlayıram!

Qırğızıstan Respublikasının prezidenti, əziz dostum, qardaşım Əsgər Akayevi salamlayıram!

Özbəkistan Respublikası nümayəndə heyətinin başçısı, Özbəkistan Ali Məclisinin sədri hörmətli Erkin Xəlilovu salamlayıram!

Türkmənistan Respublikası nümayəndə heyətinin başçısı, Türkmənistan Məclisinin sədri hörmətli Səhhət Muradovu salamlayıram!

YUNESKO təşkilatının baş katibi, hörmətli qonağımız cənab Koisuro Matsunranı salamlayıram!

Azərbaycan xalqının böyük dostu, Fransa parlamentinin qocaman üzvü, veteranı cənab Jak Bomeli salamlayıram!

Məmnuniyyət hissi ilə qeyd edirəm ki, «Kitabi-Dədə Qorqud»un yubileyinə dünyanın bir çox ölkələrindən ictimai-siyasi xadimlər, alimlər, yazıçılar qonaq gəlmişlər, Azərbaycanda keçirilən elmi konfranslarda iştirak

etmişlər. Onlar bizimlə bərabər buradadırlar. Mən Azərbaycana gəldikləri üçün qonaqlarımızın hamısına təşəkkürümü bildirirəm, onların hamısını səmimi-qəlbdən salamlayıram.

«Kitabi-Dədə Qorqud»un son üç ildə tədqiq, təbliğ olunması Azərbaycan xalqına çox böyük faydalar verdi. Biz öz tarixi köklərimizi, milli-mədəni irsimizi bir daha dərk etməyə başladıq. Artıq biz dərk edirik ki, Azərbaycan xalqı, bütün türkdilli xalqlar dünya sivilizasiyasına nə qədər böyük töhfələr vermişlər. Bunların içərisində «Kitabi-Dədə Qorqud»un xüsusi yeri vardır.

«Kitabi-Dədə Qorqud» bizim ana kitabımızdır. Dədə Qorqud bizim ulu babamızdır, əcdadımızdır. Biz fəxr edirik ki, «Kitabi-Dədə Qorqud» kimi tarixi abidəmiz vardır, fəxr edirik ki, «Kitabi-Dədə Qorqud» kimi ulu əcdadımız vardır.

«Kitabi-Dədə Qorqud» xalqları, millətləri daim birliyə, sülhə dəvət edibdir. 1992-ci ildə Türkdilli Dövlətlər Birliyinin yaranması Dədə Qorqud vəsiyyətlərinin yerinə yetirilməsinin parlaq nümunəsidir.

Biz dövlət müstəqilliyimizi əldə edəndən, milli azadlığımıza çatandan sonra bu birliyin təmin olunması üçün böyük imkanlar əldə etmişik və bu birliyin bizim xalqlarımız üçün nə qədər əhəmiyyətli olduğunu dərk etmişik.

«Kitabi-Dədə Qorqud»un birliyə çağırışı bu gün hər birimiz üçün lazımdır. Dövlət müstəqilliyi yolu ilə gedən, ölkədə hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu aparan Azərbaycanda milli birlik, milli həmrəylik hər şeydən vacibdir.

Bu gün biz «Kitabi-Dədə Qorqud»un 1300 illik yubileyini təntənəli bayram edərək, onun bu vəsiyyətlərinə sədaqətimizi bildiririk və bəyan edirik ki, Azərbaycan xalqı müstəqillik yollarında qarşıda duran bütün ağır və çətin məsələlərin həll edilməsində daha da bir, daha da əlbir olacaqdır və daim irəliyə doğru gedəcəkdir.

«Kitabi-Dədə Qorqud» qəhrəmanlıq dastanıdır. Biz «Kitabi-Dədə Qorqud»un vəsiyyətlərindən bu gün həyatımızda istifadə edərək, xalqımızda vətənə məhəbbət, sevgi, sədaqət, vətənpərvərlik hisslərini daha da artırırıq. «Kitabi-Dədə Qorqud» bu gün bizə çox gərəklidir.

«Kitabi-Dədə Qorqud» insanları, xalqları sülhə, barışa dəvət edibdir. Bizim xalqımız bu gün «Kitabi-Dədə Qorqud»un bu vəsiyyətlərinə sadiqdir. Ermənistan tərəfindən Azərbaycana edilən təcavüz nəticəsində torpaqlarımızın 20 faizi işğal olunubdur, işğal edilmiş ərazilərdən bir milyondan artıq azərbaycanlı yerindən-yurdundan didərgin düşüb çadırlarda ağır vəziyyətdə yaşayırlar. Biz böyük zərbələr almışıq. Amma bunlara baxmayaraq, Azərbaycan xalqı yenə də bütün dünyaya öz sülhsevərlik siyasətini nümayiş etdirir. Biz Dədə Qorqud yolu ilə gedirik. Biz sülh yolu ilə gedirik. Biz bu münaqişəni sülh yolu ilə həll etmək istəyirik. Biz bütün ölkələrdə, xüsusən türkdilli ölkələrdə sülhün, əmin-amanlığın bərqərar olunmasını istəyirik. Beləliklə, bu gün biz bu yubiley günündə Dədə Qorqud vəsiyyətlərinə sədaqətimizi bir daha nümayiş etdiririk.

«Kitabi-Dədə Qorqud» özündə böyük elmi, mədəni, mənəvi fikirlər cəmləşdirən abidədir. İndiyə qədər «Kitabi-Dədə Qorqud»un öyrənilməsi və bugünkü nəsillərə çatdırılması yolunda xeyli iş görülübdür. Xüsusən son üç il ərzində yubiley komissiyasının üzvləri, Azərbaycanın alimləri, tədqiqatçıları, yazıçıları, ictimai xadimləri tərəfindən görülən işlər yüksək qiymətə malikdir. Ona görə də bu gün, bu yubiley günü mən «Kitabi-Dədə Qorqud»un tədqiqi, təbliği ilə məşğul olmuş və bu yubiley mərasimlərinə çox dəyərli elmi əsərlər, kitablar hazırlamış alimlərimizə, yazıçılarımıza, bütün vətəndaşlarımıza təşəkkür edirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, onlar bu yubiley tədbirlərindən ruhlanaraq öz elmi işlərini bundan sonra da davam etdirəcəklər. «Kitabi-Dədə Qorqud» dastanının hələ açılmayan səhifələri, hələ bu günə qədər məlum olmayan fikirləri bundan sonra aşkar ediləcək, Azərbaycan xalqının bugünkü və gələcək nəsillərinə və bütün türk dünyasına çatdırılacaqdır.

Biz bu gün böyük iftixar hissi keçiririk. Çünki bizim «Kitabi-Dədə Qorqud» kimi böyük tarixi abidəmiz vardır. Çünki bu gün biz sərbəstik, azadıq, müstəqilik və öz tarixi keçmişimizi, öz mənəvi dəyərlərimizi, öz mədəniyyətimizi olduğu kimi təhlil edib xalqımıza, millətimizə və gələcək nəsillərə çatdırmağa qadirik.

«Kitabi-Dədə Qorqud» yubileyinin ən böyük mənası, əhəmiyyəti ondan ibarətdir ki, bu, bizim milli azadlığımızı, dövlət müstəqilliyimizi, sərbəstliyimizi bir daha nümayiş etdirir. «Kitabi-Dədə Qorqud» vəsiyyətləri bizə deyir ki, daim müstəqillik yolu ilə getmək, Azərbaycanın milli azadlığını və dövlət müstəqilliyini əbədi etmək bizim hər birimizin qarşısında duran ali məqsəddir. Bu məqsədə nail olmaq üçün mən sizin hamınıza, bütün Azərbaycan xalqına, bütün Azərbaycan vətəndaşlarına böyük uğurlar arzulayıram. Sağ olun.

## TÜRKİYƏ CÜMHURİYYƏTİNİN PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLƏ «AZƏRBAYCAN RESPUBLİKASININ FƏXRİ VƏTƏNDAŞI» ADININ VERİLMƏSİ MƏRASİMİNDƏ NİTQ

*9 aprel 2000-ci il*

Hörmətli xanımlar və cənablar!
Əziz dostlar!
Bu gün «Kitabi-Dədə Qorqud»un 1300 illiyi həqiqətən xalqımızın milli bayramına, türk dünyasının, türkdilli xalqların bayramına çevrildi və türk xalqlarının sarsılmaz birliyini bir daha nümayiş etdirdi.

Dövlət başçıları, məclis başçıları və YUNESKO-nun baş katibi «Kitabi-Dədə Qorqud»un yubileyi ilə əlaqədar burada çox dəyərli sözlər dedilər və çox dəyərli fikirlər ifadə etdilər. Bu münasibətlə onların hamısına təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Türkiyə Cümhuriyyətinin prezidenti, Azərbaycan xalqının böyük dostu, mənim əziz qardaşım Süleyman Dəmirəlin bu gün «Kitabi-Dədə Qorqud» haqqında, türk xalqlarının birliyi haqqında, Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı haqqında söylədiyi böyük nitq bizim hamımızda böyük ruh yüksəkliyi yaratdı və çox yüksək qiymətə malikdir.

Əziz dostumuz!
Mən bugünkü bu parlaq, dərin məzmunlu, çox dəyərli tarixi nitqinizə görə sizə xüsusi təşəkkür edirəm. Sizi əmin edirəm ki, nitqinizdəki sözlər, məsləhətlər, fikirlər bizim gələcək işlərimizdə daim öz əksini tapacaqdır.

Türkiyə Cümhuriyyətindən əziz dostumuz Süleyman Dəmirəllə bərabər, bizim bir çox başqa dostlarımız da burada iştirak edirlər. Türkiyə Cümhuriyyətinin böyük nümayəndə heyətinin «Kitabi-Dədə Qorqud» yubileyində iştirak etməsi Türkiyə-Azərbaycan dostluğunun, qardaşlığının yeni parlaq bir nümunəsidir.

Dünən biz Türkdilli Dövlətlər Birliyinin zirvə görüşündə birliyin gördüyü işlər haqqında danışarkən Türkiyə Cümhuriyyətinin prezidenti əziz Süleyman Dəmirəlin xidmətlərini yüksək qiymətləndirdik. Bu gün isə mən bir daha bildirmək istəyirəm ki, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra Türkiyə-Azərbaycan dostluğunun, qardaşlığının, əməkdaşlığının yaranmasında və ötən illər ardıcıl surətdə inkişaf etməsində əziz dostumuz Süleyman Dəmirəl xüsusi xidmətlər göstərmişdir.

Hörmətli dostumuz Süleyman Dəmirəl Türkiyə Cümhuriyyətinin, bütün türk dünyasının ən görkəmli şəxsiyyətlərindən biridir. 50 illik gərgin siyasət və dövlət işlərində fəaliyyəti dövründə o, öz xalqına, Türkiyəyə, öz millətinə sədaqətlə xidmət etmiş və bu gün də xidmət edir. Türkiyə Cümhuriyyətində böyük öndər Mustafa Kamal Atatürkün yolu ilə türk xalqının böyük uğurlar qazanmasında, Atatürk irsinin davam etdirilməsində hörmətli Süleyman Dəmirəlin xüsusi rolu vardır. Ona görə də həm öz ölkəsində, həm Azərbaycanda, həm türkdilli digər dövlətlərdə, həm də bütün dünyada əziz Süleyman Dəmirəl böyük hörmət qazanmış, dünyanın ən böyük siyasi xadimlərindən biri kimi tanınmışdır.

Ötən illər biz hörmətli Süleyman Dəmirəlin qardaşlıq, dostluq münasibətini daim hiss etmişik. Onun Azərbaycan xalqına olan məhəbbətini, sevgisini hiss etmişik. Onun bizim xalqa göstərdiyi qayğını və diqqəti daim hiss etmişik. Azərbaycanın ağır illərində, Ermənistan Azərbaycana hərbi təcavüz etdiyi zaman, xalqımız öz torpaqlarının müdafiəsinə qalxdığı vaxt əziz dostumuz Süleyman Dəmirəl daim Azərbaycan xalqı ilə bir yerdə olmuşdur.

Sonrakı illərdə Azərbaycanda ictimai-siyasi sabitlik yarananda, ölkəmiz müstəqillik yolu ilə gedərək hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesini apararkən hörmətli Süleyman Dəmirəlin dəstəyini daim hiss etmiş, onun məsləhətlərindən bəhrələnmiş, qayğı və diqqətini hiss etmişdir.

Türkiyə xalqı bizim qardaş xalqımızdır. Türkiyə Cümhuriyyəti - böyük Atatürkün yaratdığı cümhuriyyət yaşadığı illərdə bütün türkdilli xalqlar üçün örnək olmuşdur, o, Azərbaycan xalqı üçün böyük örnəkdir. Biz bunları həmişə yüksək qiymətləndirmişik. Bütün bu dostluğun, qardaşlığın səbəbi ondan ibarətdir ki, - bu gün dəfələrlə deyildiyi kimi,- biz eyni kökə, eyni milli-mənəvi ənənələrə, eyni mədəniyyətə, eyni tarixə mənsub olan xalqlarıq. Eyni zamanda, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra tarixi keçmişimizi bərpa etmək, tarixi köklərimizi araşdırmaq və bir-birimizə yaxınlaşmaq, təbiidir ki, Türkiyə-Azərbaycan əlaqələrində yeni bir mərhələ yaratmışdır.

Biz Türkiyədə Azərbaycana nə qədər sevgi, məhəbbət olduğunu hiss edirik. Bizim qardaşlarımız - Türkiyə Cümhuriyyətinin bütün vətəndaşları da bilirlər və mən bu gün də bəyan edirəm bilsinlər ki, Azərbaycan xalqı Türkiyə Cümhuriyyətini, hər bir türkü ürəkdən, qəlbdən sevir, ona öz hörmət və ehtiramını bildirir.

Bu gün Türkiyə Cümhuriyyətində türk xalqının ən görkəmli, ən dəyərli, ən hörmətli ictimai-siyasi, dövlət xadimi kimi tanınan bizim dostumuz, qardaşımız Süleyman Dəmirəldir. Biz Azərbaycana olan dostluq münasibətinə görə ona hədsiz minnətdarıq. Dəfələrlə Azərbaycana gəlib bizimlə bərabər olduğuna görə ona hədsiz minnətdarıq. Həmişə Azərbaycanın qayğıları ilə yaşadığına görə ona hədsiz minnətdarıq. Bu gün yenidən

Azərbaycana gəlib «Kitabi-Dədə Qorqud» yubileyində fəal iştirak etdiyinə və söylədiyi çox dəyərli nitqinə görə ona bir daha hədsiz minnətdarlığımı, təşəkkürümü bildirirəm.

Bütün bu əlaqələrimizi, əziz dostum, qardaşım Süleyman Dəmirəlin Azərbaycan xalqına göstərdiyi diqqəti, qayğını yüksək qiymətləndirərək mən Süleyman Dəmirələ «Azərbaycan Respublikasının fəxri vətəndaşı» adı verilməsi haqqında dünən fərman imzalamışam.

Əziz dostumuz, qardaşımız, Azərbaycan sizin doğma vətəninizdir. Siz Azərbaycanın əbədi dostusunuz. Sizə olan sevgimiz, məhəbbətimiz hər bir azərbaycanlının, bütün Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır. Biz Sizi daim Azərbaycanda görmək, Azərbaycanda Sizə daim öz qonaqpərvərliyimizi bildirmək istəyirik. Biz sizinlə daim əlaqədə olmuşuq, bu gün də əlaqədəyik, gələcəkdə də əlaqədə olacağıq.

Mən müstəqil Azərbaycanda «Azərbaycan Respublikasının fəxri vətəndaşı» adı verilməsi haqqında ilk dəfə fərman imzalamışam. Bu ad indiyədək heç kəsə verilməyibdir. Bu ad Süleyman Dəmirələ, Azərbaycan xalqının böyük dostuna verilibdir.

Əziz qardaşım!

Mən Azərbaycanın fəxri vətəndaşlığı haqqında sənədləri təqdim edərək Sizə möhkəm cansağlığı, uzun ömür, səadət, xoşbəxtlik və bütün gələcək işlərinizdə yeni-yeni böyük uğurlar arzulayıram. Bu, Azərbaycanın fəxri vətəndaşlığının nişanıdır. Bu fərmandır, bu da onun vəsiqəsidir. Mən bunları Sizə təqdim edirəm, buyurun.

## TÜRKİYƏ CÜMHURİYYƏTİNİN PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLİN İŞTİRAKI İLƏ «KOÇBANK AZƏRBAYCAN» BANKININ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ

*9 aprel 2000-ci il*

**Süleyman Dəmirəl:** «Koçbank» çağdaş bank adını qazanmışdır. Bu bankı çox önəmli hesab edirəm. O, Türkiyə-Azərbaycan münasibətlərinə, yalnız Türkiyə-Azərbaycan münasibətlərinə deyil, Azərbaycanın inkişafına gözəl, etibarlı təsir göstərəcəkdir. Hər şey çox yaxşı inkişaf etməkdədir. Qarşıdakı illərdə bunların hamısını görəcəyik. Bu bank həm çox uğurlu olacaq, həm də çox yaxşı xidmətlər göstərəcəkdir. Uğurlar diləyirəm.

**Heydər Əliyev:** Süleyman bəy, «Koç» Türkiyənin və demək olar ki, dünyanın ən böyük şirkətlərindən biridir. Bilirik ki, Türkiyədə də, Türkiyənin xaricində də «Koç» çox işlər görmüşdür. «Koçbank»ın Azərbaycana gəlməsini mən alqışlamışam. Sizinlə bu barədə telefonda danışanda, siz mənə dediniz ki, «Koçbank»a Azərbaycanda işləməyə imkan vermək lazımdır. Siz dediniz ki, bank gələndən sonra «Koç»un bura başqa sərmayələri də gələcəkdir. Ona görə də mən onları gözləyirəm. Təkcə Bakıda yox, başqa işlər də görmək lazımdır. Sizin pulunuz çox, iş görmək imkanınız çox, gəlin, buraya para qoyun, yatırım qoyun, iş görün, pul qazanın. Sizə uğurlar diləyirəm.

**Süleyman Dəmirəl:** Bunların ayaqları çox yüngüldür. Bunlar bir yerə gedirlərsə, demək, orada çox önəmli işlər olacaqdır. Çünki başqaları bunlara diqqət yetirir, bunlara baxırlar. Bunlar hara gedirlərsə, oraya başqaları da gəlirlər. Yalnız özləri gəlmir, başqalarını da gətirirlər. İndi ona görə gəliblər ki, bura başqaları da gəlsin.

**Heydər Əliyev:** Mən buna inanıram. Birinci sizin dediyiniz sözlərə inanıram, ikinci onlara inanıram.

Türkiyə prezidenti Süleyman Dəmirəlin və Azərbaycan prezidenti Heydər Əliyevin «Koçbank Azərbaycan» bankının fəxri qonaqlar kitabına ürək sözləri:

*«Koçbank» Türkiyə-Azərbaycan əlaqələrində çox önəmli bir rolu təmsil edir. Dünyaya açıq ola bilməyin ən önəmli ehtiyaclarından biri bankdır. «Koçbank» yalnız Türkiyə-Azərbaycan əlaqələrində deyil, Azərbaycanın iqtisadi inkişafında mühüm rol oynayacaqdır. Türkiyənin bu qurumunun Bakıya gəlməsi eyni zamanda həm türklər, həm də əcnəbilər üçün etibarlılıq əlamətidir. Uğurlar diləyirəm.*

*Süleyman Dəmirəl*
*Türkiyənin Cümhur başkanı*
*9 aprel 2000-ci il»*

*«Koçbank»ın Azərbaycanda işə başlaması əlamətdar hadisədir. Ümid edirəm ki, bu, Türkiyə-Azərbaycan iqtisadi əlaqələrinin inkişafında səmərəli nəticələr verəcək. Uğurlar arzulayıram.*

*Heydər Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*
*9 aprel 2000-ci il»*

## BAKI TÜRK ŞƏHİDLİYİNİN VƏ XATİRƏ ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*9 aprel 2000-ci il*

Zati-aliləri, Türkiyə Cümhuriyyətinin prezidenti hörmətli Süleyman Dəmirəl!
Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu gün biz əlamətdar hadisə münasibətilə buraya toplaşmışıq. Ancaq bu günə qədər, son iki gündə Azərbaycanda tarixi hadisələr baş verir. Türkdilli dövlətlər birliyinin VI zirvə görüşü Bakıda, Azərbaycanda keçirildi. Biz dövlətlərimizin, xalqlarımızın, millətlərimizin daha da bir olması, yaxınlaşması, sıx əməkdaşlıq etməsi üçün çox dəyərli qərarlar qəbul etdik, böyük bəyannamə imzaladıq. Bu gün biz hamımızın ulu babası olan «Kitabi-Dədə Qorqud» dastanının 1300 illiyini bir yerdə təntənəli bayram kimi qeyd etdik.

Bu da təsadüfi deyildir. Çünki biz- türk xalqları, türkdilli xalqlar bir kökə, bir dilə, eyni dinə, bir milli adət-ənənəyə mənsubuq. Bizim bu köklərimiz o qədər dərindir ki, 1300 il bundan öncə bizim bütün xalqlarımızın ulu babası olan «Kitabi-Dədə Qorqud»u indi yenidən oxuyuruq, yenidən dərk edirik, yenidən anlayırıq. Bu bayram mərasimlərində bütün dünyaya bəyan edildi ki, bizim nə qədər müdrik əcdadlarımız olubdur, xalqımız dünya mədəniyyətinə, sivilizasiyasına böyük şəxsiyyətlər veribdir. Onların içərisində ən qədimi ulu babamız Dədə Qorquddur.

Biz bir yerdə olaraq həmişə bir-birimizi qorumuşuq, bir-birimizə yardım etmişik. Dədə Qorqud da həmişə deyibdir ki, bir olun, əl-ələ verin. Nə qədər bir olsanız, əl-ələ versəniz, o qədər də uğurlu, o qədər də qalib olacaqsınız.

Bu gün biz böyük incəsənət əsərinə baxırdıq. Orada Dədə Qorqudun yazıları əsasında Qazan xan oğlunu cəngavərliyə hazırlamaq üçün ona ox verir. Oğlu bir oxu dizinə vuraraq sındırır. Amma sonra bir neçəsini verir, sındıra bilmir. Bu onu göstərir ki, bir olsanız, sizi heç kəs qıra bilməz, heç kəs dağıda bilməz, heç kəs sizə qalib gələ bilməz. Ona görə də əsrlər boyu bizim birliyimiz həmişə qalibiyyət gətirmişdir.

XX əsrdə Azərbaycan xalqının taleyi çox ağır mərhələlərdən keçibdir. Rusiya imperiyası dağıldıqdan sonra Azərbaycan böyük təhlükə və faciələr qarşısında olubdur. Ermənilər XX əsrdə Azərbaycan xalqına qarşı bir neçə dəfə soyqırımlar həyata keçiriblər. Onlardan ən dəhşətlisi 1918-ci il mart ayının 31-də Bakıda keçirilən soyqırımıdır. Təkcə Bakıda yox, Azərbaycanın bütün bölgələrində belə soyqırımlar keçirilmişdir. Minlərlə, on minlərlə günahsız azərbaycanlılar qətlə yetirilmişlər.

Bəli, o zaman Azərbaycan, Bakı bir çox ölkələrin maraq dairəsinə çevrilmişdi. Burada, azərbaycanlıların qədim torpağında yadellilər hökm sürmək istəyirdilər, Azərbaycanı, Bakını öz əllərinə keçirmək istəyirdilər. O vaxt döyüşlərdə bizə yardım etməyə gələn türk ordusunun cəngavər, qəhrəman oğulları olmuşdur. Mənim əziz dostum, qardaşım Süleyman Dəmirələ dəfələrlə demişəm ki, Nuru Paşanı, Xəlil Paşanı Bakıda indiyə qədər hamı xatırlayır. Vaxt keçib, zaman keçib, sovet hakimiyyəti illərində bu tarix tamamilə pozulub, qaralanıb, bu tarixi öyrənməyə insanların imkanları olmayıb. Ancaq o adlar, həmin adların arxasında olan qəhrəman türk əsgərləri xalqımızın qəlbində yaşayıbdır.

Bəli, onlar burada torpağa veriliblər. Türkiyədən gəlmiş qardaşlarımız, şəhid olanlar və azərbaycanlı şəhidlər bir yerdə məzara qoyulmuşlar. Bura, Bakının bu hissəsi ilk dəfə o vaxt məzarlığa çevrilmişdi. Ancaq sovet hakimiyyəti illərində bu məzarlar dağıdılmış, pozulmuş, insanlar bu məzarları ziyarət etməkdən məhrum olmuşlar. Burada park salınmış, parka heç azərbaycanlı olmayan, 20-ci illərdə Azərbaycana başçılıq edən, Rusiyadan gəlmiş Kirovun adı verilmişdi. Onun heykəli də Bakının ən yüksək nöqtəsində qoyulmuşdu. Yəni bu məzarların üzərində park düzəldib, insanları burada şənləndirmək, gəzdirmək niyyəti olmuşdur. Bəli, bu, on illərlə davam etmişdir.

1990-cı ildə Azərbaycan xalqına qarşı sovet imperiyası tərəfindən, Moskva hakimiyyəti tərəfindən yeni bir təcavüz başlandı. Azərbaycan xalqı öz azadlığı, müstəqilliyi uğrunda ayağa qalxdığına görə və artıq kommunist rejiminə dözmədiyinə görə, meydanlara, küçələrə çıxdığına görə yanvarın 19-dan 20-nə keçən gecə Bakıya sovet ordusunun qoşunları yeridildi, tanklar gətirildi, küçələrdə günahsız insanlar şəhid oldular. O şəhidlər burada torpağa verildilər.

Bilirsiniz ki, 1988-ci ildən Ermənistan Azərbaycana qarşı hərbi təcavüzə başlayıbdır, müharibə gedibdir. Bizim qəhrəman oğullarımız torpaqlarımızın qorunması uğrunda şəhid olublar. O şəhidlərin çoxu da burada torpağa veriliblər. Onların məzarları buradadır.

Bu da tamamilə tarixin həqiqətləridir ki, vaxtilə Azərbaycanı qorumaq üçün türk əsgərləri, Azərbaycan qəhrəmanları burada bir yerdə şəhid olublar. 1990-cı illərdə şəhid olanlar da buradadırlar. Ona görə də bütün bu yer indi artıq Şəhidlər xiyabanıdır və Şəhidlər xiyabanında biz şəhidlərimizin xatirəsinə böyük bir abidə

ucaltmışıq. Orada əbədi məşəl yanır. Burada isə indi biz 1918-ci ildə şəhid olmuş türk əsgərlərinin məzarları üzərində yeni bir abidə ucaltmışıq. Burada həm türk əsgərlərinin, həm də Azərbaycan qəhrəmanlarının məzarları bir yerdədir.

Bu gün biz - bu da bir rəmzi məna daşıyır – «Dədə Qorqud» eposunun 1300 illik yubileyini bir yerdə bayram etdik, türk ölkələrinin birliyini dünyaya bir daha nümayiş etdirdik. Bu gün də bu şəhidləri yad edirik, onların xatirəsi qarşısında baş əyirik və onların xatirəsinə ucaldılmış bu abidənin açılışına gəlmişik. Mən çox məmnunam ki, bu abidəni biz Azərbaycan xalqının əziz dostu və qardaşı Süleyman Dəmirəlin iştirakı ilə açırıq. Burada olan bizim adamlar deyirlər ki, bu abidə çoxdan hazırlanıbdır. Mənə dəfələrlə demişdilər ki, bunu açmaq lazımdır. Ancaq mən demişdim ki, yox, əgər bizim dostumuz, qardaşımız, Türkiyə Cümhuriyyətinin prezidenti Süleyman Dəmirəl Azərbaycana gəlməsə,- o, tez-tez gəlirdi, - fürsət tapmasa, biz bunu açmayacağıq. Bu fürsət indi bizim əlimizə keçib, abidəni bir yerdə açırıq.

Hörmətli dostum və qardaşım!

Mən sizə Azərbaycan xalqı adından bir daha təşəkkür edirəm. Bütün türk xalqına təşəkkür edirəm. Burada şəhid olmuş türk əsgərlərinin qohum-əqrəbasına öz təşəkkürümü bildirirəm və bu əsgərlərin simasında qəhrəman türk ordusuna, bu gün dünyanın ən güclü ordularından biri olan Türkiyə Cümhuriyyətinin ordusuna təşəkkürümü bildirirəm və bu şəhidlərə Allahdan rəhmət diləyirəm. Allah rəhmət eləsin, qəbirləri nurla dolsun.

## «KİTABİ - DƏDƏ QORQUD» DASTANININ 1300 İLLİK YUBİLEYİ ŞƏRƏFİNƏ AZƏRBAYCAN PREZİDENTİ ADINDAN TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA NİTQ

*«Gülüstan» sarayı*

*9 aprel 2000-ci il*

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

İki gündür ki, Azərbaycan, Azərbaycanın paytaxtı Bakı böyük bayram əhval-ruhiyyəsi ilə yaşayır. Dünən biz Türkdilli Dövlətlər Birliyinin VI zirvə görüşünü keçirdik və məmnuniyyət hissi ilə deyə bilərəm ki, türkdilli dövlətlərin başçılarının bu zirvə görüşü uğurla başa çatdı. Bu, böyük hadisədir. Çünki türk xalqları, türk dilində danışan xalqlar və türkdilli müstəqil dövlətlər son illərdə birlik yaratmağa və bu birlik çərçivəsində dövlətlərin, xalqların mühüm məsələlərini həll etməyə, qarşılıqlı faydalı əməkdaşlıq qurmağa fürsət tapıblar.

Biz dünən, ayın 8-də Türkdilli Dövlətlər Birliyinin səkkiz illik həyat yoluna yüksək qiymət verdik, hamımız eyni fikirdə olduq. Bir daha qeyd etmək istəyirəm ki, Türkdilli Dövlətlər Birliyinin yaranmasında və bu səkkiz il müddətində yaşamasında, uğurla fəaliyyət göstərməsində Türkiyə Cümhuriyyətinin və xüsusən Türkiyə Cümhuriyyətinin hörmətli prezidenti, mənim əziz dostum, qardaşım Süleyman Dəmirəlin xüsusi xidmətləri olmuşdur. Biz onu dünən xüsusi qeyd etdik.

Türkdilli Dövlətlər Birliyinin nə qədər gərəkli olmasını və onun işinin nə qədər səmərəli olmasını biz hamımız bu gün, «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyi ilə əlaqədar keçirilən təntənəli mərasimdə hiss etdik. Türkdilli xalqların milli oyanışı, dirçəlişi, dövlət müstəqilliyini əldə etməsi, öz tarixi köklərini dərindən öyrənməsi, dərk etməsi məhz belə gözəl nəticələr veribdir. Onun da ən parlaq nümunəsi «Kitabi-Dədə Qorqud» dastanının yubileyini hamımızın bir yerdə, o cümlədən müxtəlif ölkələrdən Azərbaycana gəlmiş qonaqlarla bir yerdə təntənəli qeyd etməyimizdir. Mən əminəm ki, Türkdilli Dövlətlər Birliyi bundan sonra da yaşayacaq, öz fəaliyyətini genişləndirəcək və xalqlarımızın daha da yaxınlaşması üçün, xüsusən bizim xalqlarımızın tarixini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini daha da dərindən öyrənmək üçün çox böyük faydalar verəcəkdir.

Azərbaycan xalqının, bütün türk xalqlarının tarixi abidəsi, mədəniyyət abidəsi, elm abidəsi, fəlsəfə abidəsi olan «Kitabi-Dədə Qorqud»un 1300 illik yubileyini qeyd etmək, deyə bilərəm ki, Azərbaycanın çoxəsrlik tarixində indiyə qədər bizim qeyd etdiyimiz bayramların, yubileylərin hamısından üstündür. Biz bundan nəyə nail olduq? Son üç il müddətində Azərbaycanda indiyə qədər heç vaxtlar olmadığı kimi, «Kitabi-Dədə Qorqud»un tədqiqinə, təhlilinə, onun mənasının və məzmununun dərindən öyrənilməsinə, böyük əsərlərin yaranmasına və ən əsası isə «Kitabi-Dədə Qorqud»un bizim xalqımıza - Azərbaycan xalqına yenidən qayıtmasına nail olduq. «Kitabi-Dədə Qorqud»un 1300 il yaşı olduğunu bütün dünyaya bəyan etdik. Tarixdə - nəinki Azərbaycan tarixində, dünya tarixində – «Kitabi-Dədə Qorqud»un yaşı dəqiq, düzgün müəyyən olundu.

«Kitabi-Dədə Qorqud»u dünayaya tanıtdıq. YUNESKO çərçivəsində «Kitabi-Dədə Qorqud»un yubiley mərasimlərinin keçirilməsi, Drezdendə, Moskvada, Türkiyənin bir çox şəhərlərində, başqa yerlərdə «Kitabi-Dədə Qorqud»un 1300 illik yubileyinin keçirilməsi və bununla bərabər yaranmış əsərlər, üç il müddətində «Kitabi-Dədə Qorqud»un təbliğ olunması «Kitabi-Dədə Qorqud» dastanını bütün dünyaya tanıtdı.

Xalqımız, Azərbaycanın bütün vətəndaşları bu üç il ərzində «Kitabi-Dədə Qorqud» ruhu ilə yaşamış və bizim apardığımız işləri, son yubiley tədbirlərini böyük məmnuniyyət hissi ilə alqışlamış və dəstəkləmişlər. Ancaq bəziləri də var ki, deyirlər: «Belə yubileylərin keçirilməsi nəyə lazımdır?». Hətta bəyan edirlər ki, «Bu, keçmiş sovet sisteminin yaratdığı adət-ənənələrdir və biz bundan imtina etməliyik». Bəziləri deyirlər ki, «Ölkəmizin ərazisinin 20 faizi işğal olunduğu zaman, işğal edilmiş ərazilərdən bir milyon vətəndaşı didərgin düşüb, qaçqın və köçkün vəziyyətində çadırlarda ağır şəraitdə yaşadığı bir zaman, indi bir çox iqtisadi çətinliklərlə rastlaşdığımız zaman belə təntənələrin, belə yubileylərin keçirilməsi nəyə lazımdır?».

Mən belələrinə əvvəl də cavab vermişəm, bu gün də cavab verirəm və onların hamısına deyirəm ki, bəli, belə yubileylərin hazırlanması, keçirilməsi bizim xalqımız üçün, millətimiz üçün olduqca vacibdir və lazımdır. Bunlar bizim vətəndaşlarımıza, azərbaycanlılara, bu gün yaşayanlara və gələcək nəsillərə göstərir ki, biz kimik, haradan gəlmişik, haradayıq, hara gedirik. Biz beləliklə, özümüz öz varlığımızı, öz milli köklərimizi dərk edirik. Biz belə yubileylərlə öz keçmişimizə, öz zəngin tariximizə hörmət və ehtiramımızı, qayğı və diqqətimizi ifadə edirik. Biz belə yubileylərlə dost, qardaş ölkələrlə, xalqlarla bir kökə, bir mədəniyyətə, bir milli-mənəvi ənənələrə mənsub olduğumuzu bir daha təsdiq edirik və bugünkü, gələcək nəsillərə nümunə göstəririk.

Təbiidir ki, hər bir xalqın tarixi çox maraqlı səhifələrlə doludur. Azərbaycan xalqı əsrlər boyu öz varlığını hifz edib, bunun üçün döyüşüb, vuruşub, mübarizə aparıb, şəhidlər verib, torpağını itirib, torpağını yenidən bərpa edib, bir çox çətin günlər, ağır günlər keçiribdir. Amma Azərbaycan xalqı yaşayıb, inkişaf edib, bütün itkilərə baxmayaraq bu gün böyük xoşbəxtliyə çıxıbdır, dövlət müstəqilliyini və milli azadlığını əldə edibdir.

Zəngin tariximizi əks etdirən çox əsərlər var, kitablar var, maddi əşyalar var. Ancaq bunların hamısının içərisində bizim milli mədəniyyətimizi, milli- mənəvi dəyərlərimizi əks etdirən əsərlər hamısından qiymətlidir və bu gün üçün, gələcək üçün hamısından da gərəklidir. Bu baxımdan «Kitabi-Dədə Qorqud» dastanının, Azərbaycan tarixində görkəmli yer tutmuş böyük şəxsiyyətlərin, böyük əsərlərin və xüsusən mədəniyyətimizə, ədəbiyyatımıza aid olan əsərlərin əvəzsiz qiyməti vardır və onların hər birinin yubileyini keçirərək biz bir daha, bir daha öz milliliyimizi, zəngin mədəniyyətə malik olduğumuzu, qədim, zəngin tarixə malik olduğumuzu nümayiş etdiririk, təsdiq edirik, xalqımıza bir daha çatdırırıq və bütün dünyaya bəyan edirik.

Bunların içərisində «Kitabi-Dədə Qorqud» dastanı xüsusi yer tutur. Ötən üç il ərzində xalqımız bunu özü üçün aşkar etdi, dünya bununla tanış oldu və nəhayət, son günlər keçirilən elmi konfranslar və bugünkü təntənəli bayram mərasimi bunu əyani surətdə sübut etdi. Bunlar hamısı hər bir azərbaycanlının milli qürur hissini yüksəldir, onda iftixar hissi doğurur. Bunlar hamısı bizim xalqımızın nə qədər zəngin mədəniyyətə, böyük tarixə və dərin köklərə malik olduğunu göstərir. Bunlar hamısı və xüsusən «Kitabi-Dədə Qorqud» bizim hamımızda böyük iftixar hissi yaradır.

Biz fəxr edirik ki, «Kitabi-Dədə Qorqud» kimi böyük tarixi abidəmiz var. Biz fəxr edirik ki, Dədə Qorqud övladlarıyıq. Biz fəxr edirik ki, Dədə Qorqud elində yaşayırıq. Biz fəxr edirik ki, «Kitabi-Dədə Qorqud» bütün türkdilli dövlətlərə mənsub olaraq, eyni zamanda və birinci növbədə Azərbaycan xalqına mənsubdur. Fəxr edirik ki, biz «Kitabi-Dədə Qorqud»un sahibiyik, onu yaşadacağıq və gələcək nəsillərə daha da böyük töhfələrlə verəcəyik.

Bu gün bayram mərasimləri ən zirvə nöqtəsinə çatdı. Amma bizim «Kitabi-Dədə Qorqud» dastanının öyrənilməsi, təbliğ, tədqiq olunması işimiz bununla bitmir. Bu, bizim işimizin ancaq başlanğıcıdır. Son üç ildə görülən işləri mən çox yüksək qiymətləndirirəm və bu münasibətlə yaranmış dövlət komissiyasının üzvlərinə və «Kitabi-Dədə Qorqud» yubileyinin hazırlanması dövründə fəaliyyət göstərmiş hər bir vətəndaşımıza, alimlərimizə, ziyalılarımıza, yazıçılarımıza, incəsənət, mədəniyyət xadimlərimizə dərin təşəkkürümü bildirirəm.

«Kitabi-Dədə Qorqud» dastanının yubiley mərasimlərində iştirak etmiş qardaş türkdilli dövlətlərin dövlət başçılarına, nümayəndə heyətlərinin üzvlərinə bir daha öz təşəkkürümü bildirirəm. Bizim dəvətimizi qəbul etmiş və «Kitabi-Dədə Qorqud» yubileyinə gəlmiş hörmətli qonaqlarımızı – qorqudşünasları, alimləri, yazıçıları, ictimai-siyasi xadimləri səmimi-qəlbdən salamlayıram və bizimlə bərabər olduqlarına görə onlara minnətdarlığımı bildirirəm.

Hesab edirəm ki, bu gün «Dədə Qorqud» yubileyinin, təntənəli bayram mərasimlərinin keçirilməsi çox yüksək səviyyədə oldu, hamımızda böyük ruh yüksəkliyi yaratdı və bunun üçün zəhmət çəkmiş, iş görmüş insanların hamısına təşəkkür edirəm.

Yubiley mərasiminin bugünkü rəsmi hissəsi çox məzmunlu və çox maraqlı oldu. Qonaqlarımız - dövlət başçıları, məclis başçıları çox dəyərli çıxışlar etdilər. Amma bununla bərabər, «Dədə Qorqud» yubileyini qeyd etmək üçün bizim mədəniyyət, incəsənət xadimləri tərəfindən hazırlanmış, xüsusi mövzu üzərində qurulmuş bədii hissə də çox yüksək qiymətə layiqdir.

Türk tarixini, türk mədəniyyətini, türk dilini çox gözəl bilən Azərbaycan xalqının böyük dostu, prezident Süleyman Dəmirəl mənimlə yan-yana oturmuşdu və bədii hissəni əvvəldən axıra qədər maraqla izlədi, ona çox yüksək qiymət verdi, çox heyran olduğunu bildirdi. Təbiidir ki, - bu, bizim özümüzünküdür, - mənim dediyim sözlər, ola bilər, subyektiv xarakter daşısın, ancaq həqiqətən bu gün «Dədə Qorqud» yubileyinin bədii hissəsi Azərbaycan mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, teatr sənətinin, musiqi sənətinin, balet sənətinin, rəqs sənətinin nə qədər yüksək səviyyədə olduğunu əyani surətdə göstərdi.

Bədii hissəni hazırlamış və bu gün bizə təqdim etmiş Azərbaycanın dəyərli mədəniyyət, incəsənət xadimlərinə bu gözəl əsər üçün xüsusi minnətdarlığımı bildirirəm.

Bizim yubiley təntənələrində çoxlu xarici qonaqlar iştirak edirlər. Ən çox qonaq Türkiyə Cümhuriyyətindən gəlibdir və bunlar təkcə qorqudşünaslar, elm, mədəniyyət xadimləri deyildir. Belələri də çoxdur, ancaq qonaqlarımızın içərisində dövlət xadimləri var, valilər var, siyasi xadimlər var. Bunların hamısının Dədə Qorqud irsinə bu qədər maraq göstərməsi, Azərbaycana gəlib elmi konfranslarda iştirak etməsi və bugünkü yubiley təntənələrində iştirak etməsi xüsusi qiymətə layiqdir və buna görə də mən onlara təşəkkür edirəm.

Sizi, Azərbaycan xalqını, bütün Azərbaycan vətəndaşlarını təbrik edirəm. Gözünüz aydın olsun, 1300 il yaşı olan Dədə Qorqud yenidən Azərbaycana gəlmiş, bizimlə bərabərdir.

Dədə Qorqud dühasının şərəfinə, Azərbaycan xalqının zəngin mədəniyyətinin, ədəbiyyatının şərəfinə, xalqımızın zəngin tarixinin şərəfinə, bütün Azərbaycan xalqının şərəfinə, müstəqil Azərbaycan dövlətinin şərəfinə, Azərbaycanın bütün vətəndaşlarının şərəfinə badələri qaldırmağı xahiş edirəm. Sizin hamınıza cansağlığı, səadət, xoşbəxtlik arzulayıram.

Rəsmi qəbulda YUNESKO-nun baş direktoru Koisuro Matsuura çıxış etdi və «YUNESKO medalı»nı Azərbaycan prezidentinə təqdim etdi.

**H e y d ə r  Ə l i y e v:** Hörmətli cənab Matsuura!

Biz Sizi, beynəlxalq təşkilat YUNESKO-nun Baş direktorunu Azərbaycanda görməkdən çox məmnunuq. Azərbaycan YUNESKO ilə həmişə çox sıx əlaqələr saxlamışdır. Biz 70-ci illərdə Azərbaycan xalqının böyük şairi Nəsiminin 600 illik yubileyini qeyd edən zaman YUNESKO-nun baş direktoru cənab Mbou bizimlə bərabər olmuşdur. Ondan sonra Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonrakı illərdə YUNESKO ilə bizim əlaqələrimiz daha da sıxlaşıbdır və sizdən öncə YUNESKO-nun baş direktoru olmuş cənab Mayoru da biz burada, bu «Gülüstan» sarayında salamlamışıq və alqışlamışıq. Ona görə də bizim üçün çox xoşdur ki, YUNESKO-nun baş direktoru üçüncü dəfə Azərbaycana səfər edir.

Siz, cənab Matsuura, bu yaxın vaxtlarda YUNESKO-nun baş direktoru seçilmisiniz. Biz Azərbaycan olaraq Sizin baş direktor seçilməyinizə, yəni Yaponiya nümayəndəsinin baş direktor seçilməsinə səs vermişik və mən çox məmnunam ki, müstəqil dövlətlər, yəni yeni müstəqillik əldə etmiş dövlətlər içərisində belə böyük bayram təntənələrində, güman edirəm, Siz birinci dəfə iştirak edirsiniz. Sizin birinci səfəriniz Azərbaycana olubdur. Mən bunlara görə Sizə təşəkkür edirəm.

Mənim üçün çox əziz və qiymətli olan «YUNESKO medalı»nı və xüsusən böyük şəxsiyyət Eynşteynin surəti olan medalı mənə təqdim etməyiniz münasibətilə Sizə minnətdarlığımı bildirirəm. Sizə şəxsən cansağlığı arzu edirəm. Bu böyük beynəlxalq təşkilatın başçısı vəzifəsində Sizə uğurlar arzulayıram və Sizi yenidən Azərbaycana dəvət edirəm.

Mən çox məmnunam ki, qısa bir zamanda Siz Azərbaycanın tarixi ilə yaxşı tanış ola bilmisiniz və çox məmnunam ki, siz artıq «Kitabi-Dədə Qorqud»u bəzi azərbaycanlılardan yaxşı bilirsiniz.

Cənab baş direktor, Sizin şərəfinizə! Bir daha Sizə cansağlığı arzu edirəm, yeni-yeni uğurlar arzulayıram.

* * *

Rəsmi qəbulda Avropa Şurası Parlament Assambleyasının Azərbaycan üzrə məruzəçisi, Fransa parlamentinin deputatı Jak Bomel çıxış etdi.

**H e y d ə r  Ə l i y e v:** Hörmətli cənab Jak Bomel!

Çox məmnunam ki, Siz mənim dəvətimi qəbul edib Azərbaycana, «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyinə gəlmisiniz. Siz Azərbaycanın böyük dostusunuz, mənim şəxsi dostumsunuz. Bu yubiley mərasimlərində sizin Azərbaycana gəlməyiniz və bizimlə bərabər olmağınız bir daha göstərir ki, Siz nə qədər səmimi və etibarlı dostsunuz. Bütün ötən illərdə biz Fransa parlamenti ilə, Avropa Şurası ilə əməkdaşlıq etdiyimiz zaman Siz bu əməkdaşlığın inkişaf etməsinə çox xidmətlər göstərmisiniz. Bizim ictimaiyyət Sizi tanıyır, ancaq mən Sizi bir də təqdim etmək istəyirəm.

Cənab Jak Bomel Fransa parlamentinin ən qədim, ən qocaman üzvlərindəndir. O, böyük Şarl de Qollun silahdaşı olub və onun hökumətinin naziri olubdur. Ancaq mən «qocaman» deyəndə onu demək istəmirəm ki, Siz qocasınız. Siz gəncsiniz və bizim hamımızdan da gəncsiniz.

Əziz dostum, mən Sizinlə həmişə görüşərkən, danışarkən əlinizi sıxıram. Siz də mənim əlimi sıxırsınız. Mən görürəm, Sizin əlinizdə nə qədər güc var. Ona görə də deyirəm ki, siz çox gəncsiniz. Amma bundan əlavə, Siz çox yaxşı bir insansınız. Bizim xalqımızı, bizim millətimizi, bizim ölkəmizi yaxşı tanımısınız. Bizim üçün ən əziz odur ki, siz Azərbaycana tam obyektiv gözlərlə baxırsınız. Bunu ona görə demək istəyirəm ki, təəssüflər olsun ki, hələ bizə qərəzli münasibət göstərənlər də vardır. Amma biz səmimi dostluğu, etibarlı dostluğu həmişə yüksək qiymətləndirən bir xalqıq. Mən məmnunam ki, Siz bu gün bizimlə bir yerdəsiniz.

Mən təklif edirəm, bizim bu salonda olan bütün qonaqlarımız ayağa qalxıb, badələri mənim əziz dostum, qardaşım, Fransanın veteranı Jak Bomelin şərəfinə qaldıraq.

* * *

Rəsmi qəbulda Türkiyənin «Mərmərə qrupu» Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri Akkan Suver çıxış edərək vəqfin «XX əsrin dövlət adamı» barədə qəbul etdiyi təbrik mesajını Azərbaycan prezidentinə təqdim etdi.

**H e y d ə r  Ə l i y e v:** Əziz dostum, qardaşım Akkan Suver!

Hörmətli xanımlar, cənablar!

Mən bir neçə ildir ki, Türkiyədə böyük yer tutan «Mərmərə qrupu»nun fəxri sədri seçilmişəm və bundan da çox böyük qürur hissi keçirirəm.

Əziz dostum, qardaşım, Türkiyə Cümhuriyyətinin prezidenti Süleyman Dəmirəl ilə bərabər belə hörmətli təşkilatın – «Mərmərə qrupu»nun fəxri sədri olmaq mənim üçün böyük şərəfdir.

Əziz dostlarım, siz mənə daim çox diqqət, qayğı göstərirsiniz, hörmət göstərirsiniz. Mən çox məmnunam ki, siz böyük «Kitabi-Dədə Qorqud»un 1300 illik yubileyinə gəlmisiniz və burada, necə deyərlər, candan bütün tədbirlərdə iştirak edirsiniz.

Siz keçən illərdə də mənə çox fəxri adlar vermisiniz. İndi sizin mənə bu qayğınıza, diqqətinizə görə və mənim türk dünyasında, qeyd etdiyiniz kimi, tarixi İpək yolunun bərpasında, Bakı–Ceyhan neft kəmərinin tikilməsi işində xidmətlərimə yüksək qiymət verərək məni bu mükafata layiq gördüyünüzə görə təşəkkür edirəm.

«Mərmərə qrupu»na, əziz dostum, sizə bir daha öz hörmət, ehtiramımı bildirirəm, sevgimi, məhəbbətimi bildirirəm. Xahiş edirəm, sizin vəqfin bütün üzvlərinə mənim salamlarımı, ehtiramımı, sevgilərimi çatdırasınız və əmin ola bilərsiniz ki, mən sizin vəqfinizlə, «Mərmərə qrupu» ilə sona qədər bərabər olacağam. Təşəkkür edirəm və badələrimizi, qədəhlərimizi sizin şərəfinizə qaldırmağı rica edirəm. Sağ olun, var olun. Sizə uzun ömür, cansağlığı və yeni nailiyyətlər arzulayıram.

* * *

Rəsmi qəbulda Azərbaycan incəsənət ustalarının konsertindən sonra Türkiyədən, İrandan, İraqdan, Qazaxıstandan, Qırğızıstandan, Türkmənistandan, Gürcüstandan, Fransadan və digər ölkələrdən gəlmiş, eləcə də Azərbaycanı təmsil edən tanınmış elm, mədəniyyət , incəsənət adamları, ictimai-siyasi xadimlər ilə görüşdəki söhbəti.

**Əli Doğramacı** (*Türkiyə*): Hörmətli prezident, burada Sizinlə bərabər olmaq bizim üçün böyük şərəfdir.

**Sadiq Tural** (*Türkiyə*): Cənab prezident Sizə çox minnətdarıq.

**Heydər Əliyev:** Bayburtlular Türkiyədə «Dədə Qorqud»u daha çox sevirlər.

**Sadiq Tural:** Sağ olun. «Dədə Qorqud» hamımızın ortaq atasıdır. Siz bu gün «Dədə Qorqud»u ən gözəl şəkildə canlandırdınız. Bütün bunlara görə Sizə hörmət və ehtiramımı ərz edirəm.

**Şerdust** (*İran*): Cənab prezident, Sizi təbrik edirəm. Ömrünüz uzun olsun.

**Heydər Əliyev:** Günü-gündən cavanlaşırsan, gözəlləşirsən.

**Şerdust:** Çox sağ olun. Sizin gözəl gözlərinizdə belədir. Cənab prezident, biz «Dədə Qorqud»un yubileyini dörd ay bundan əvvəl Təbrizdə də qeyd etmişik. Bu kitab həmin tədbirdəki məruzələrin xülasəsidir. «Dədə Qorqud» dastanını cavanlar üçün ayrıca nəşr etmişik. Bu kitab da Naxçıvan şairlərinin şeirlərinin toplusudur, İranda nəşr olunubdur. Bunları Sizə təqdim edirəm.

**Heydər Əliyev:** Çox sağ ol. Sən orada İran-Azərbaycan dostluğu, qardaşlığı sahəsində çox yaxşı işlər görürsən. Azərbaycan İranda da Azərbaycandır, Azərbaycanda da Azərbaycandır. Sən bunları orada hamısına da de. İran böyük bir dövlətdir, bütöv dövlətdir. Hər dövlətin bütövlüyü beynəlxalq hüquq normaları ilə təsdiq olunmuşdur. Azərbaycan da bütöv dövlətdir, Türkiyə də bütöv dövlətdir və hər bir dövlətin dövlət bütövlüyünü, torpaq bütövlüyünü biz hamımız saymalıyıq və onunla hesablaşmalıyıq. Amma Təbrizi çox istəyirəm.

**Rəşad Gənc** (*Türkiyə*)**:** Möhtərəm prezidentim, professor Sadiq Tural bizim Atatürk Yüksək Qurumunun Mədəniyyət Mərkəzinin sədridir. O, bu yubiley üçün «Dədə Qorqud»la bağlı 16 kitab çap etdirdi və onları buraya gətirdik.

**Heydər Əliyev:** Bəli, mənə Süleyman bəy dedi ki, belə kitablar var.

**Rəşad Gənc:** O həm də ««Dədə Qorqud» ensiklopediyası»nı hazırlamış komitədə çalışır.

**Heydər Əliyev:** Çox gözəl. Amma çox gözəl ensiklopediya yaratdıq. Sən onu gördün?

**Rəşad Gənc:** Bəli, gördüm. Həqiqətən də çox dəyərlidir. Allah razı olsun.

**Heydər Əliyev:** Çox sağ olun, çox məmnunam. Sizin hamınızı salamlayıram. Xoş gəlmisiniz! Sabah kim gedirsə, yaxşı yol, amma kim qalsa görüşəcəyik. Sağ olun, təşəkkür edirəm.

**Svetlana Ketsba** (*Gürcüstan mədəniyyət nazirinin müavini, Abxaziyanın mədəniyyət naziri*): Heydər Əliyeviç, fürsət düşmüşkən, demək istərdim, bu gün «Dədə Qorqud»la əlaqədar baş vermiş hadisə göstərdi ki, Azərbaycan tamam yeni dövrə - öz qaynaqlarını daha yaxşı tanıdığı və irəlilədiyi dövrə qədəm qoymuşdur.

Bizimlə - Gürcüstanla, Gürcüstan xalqı ilə dostluq etdiyinizə görə, Azərbaycanla Gürcüstanın doğma qardaşlar olmasına görə Sizə son dərəcə minnətdarıq.

Müdrikliyinizə görə, irəliyə baxmağı bacardığınıza görə, böyük siyasətçi olduğunuza görə, xalqlarımız üçün çox böyük işlər gördüyünüzə görə Sizə minnətdaram.

Siz böyük dövlət təcrübəsinə, zəngin biliyə və olduqca böyük erudisiyaya malik insansınız. Sizin müdrikliyiniz bir də ondadır ki, adamı ilk baxışdan başa düşməyi, hadisələrin mahiyyətinə dərhal varmağı bacarırsınız və eyni zamanda nurlu və gözəl, mənəvi-əxlaqi qanunlara sadiq insan olaraq qalırsınız, bu qanunlardan kənarda isə nə həqiqi insani amallar var, nə də ülvi amallar.

Sağ olun. Azərbaycan həmişə mənim qəlbimdədir.

**Heydər Əliyev**: Mən bu yaxınlarda sizdə, Gürcüstanda oldum. Yadınızdadırmı?

**S v e t l a n a  K e t s b a:** Bəs necə!
**H e y d ə r  Ə l i y e v:** Siz məni dinləyirdinizmi? Mən orada çıxış edirdim.
**S v e t l a n a  K e t s b a:** Bəli, dinləyirdim.
**H e y d ə r  Ə l i y e v:** Mən Gürcüstana kömək etdim, Azərbaycanın tariflərini güzəştə getdim.
**S v e t l a n a  K e t s b a:** Bilirik ki, Siz bizim əsl dostumuzsunuz.
**H e y d ə r  Ə l i y e v:** Bu gün orada işlər necədir?
**Z u r a b  Q u m b e r i d z e** (*Gürcüstanın Azərbaycandakı səfiri*): Heydər Əliyeviç, bildirmək istəyirəm ki, elə indicə Eduard Amvrosiyeviç böyük üstünlüklə qələbə qazanmışdır. Seçicilərin 75 faizindən çoxu ona səs vermişdir. Seçkilərdə Gürcüstan əhalisinin təqribən 70 faizi, o cümlədən Bakıda təxminən 300 adam, - bu, Bakı üzrə 95 faiz deməkdir, - iştirak etmişdir.
**S v e t l a n a  K e t s b a:** Çox sağ olun.
**H e y d ə r  Ə l i y e v:** Sağ olun. Bir də gəlin.
**S v e t l a n a  K e t s b a:** Siz bizə gəlin. Gəlişinizə həmişə şad olacağıq.
**Ş a m i l  C ə m ş i d o v** (*qorqudşünas alim*): Cənab prezident, Allah Sizə cansağlığı versin, Sizi bu millətin üstündən əskik eləməsin. Siz bu gün elə bil məni quyudan çıxartdınız.
**H e y d ə r  Ə l i y e v:** Görürsən, əməli saleh adam gec də olsa, tez də olsa həmişə qalxacaqdır. Doğrudan da, bütün qorqudşünasları quyudan qaldırdım. Amma bu, bir şəxsi məsələ deyil. Bu, millət məsələsidir. Bu, xalq məsələsidir. Bu, nə sənin, nə mənim, nə onun, nə o birisinin şəxsi məsələsi deyil.
**Ş a m i l  C ə m ş i d o v:** Onu ancaq Sizin kimi böyük adamlar, Sizin kimi böyük rəhbər qiymətləndirə bilər.
**H e y d ə r  Ə l i y e v:** Çox sağ olun. Çox məmnunam. Görürsünüz, burada elə salonun yarısı Türkiyədən gəlmişdir. Burada bizim yazarlarımız da çoxdur. Biz nə qədər etsək, yenə də Dədə Qorqudun borcundan çıxa bilmərik. Biz ona borcluyuq.
**Ə b d ü l l ə t i f  B ə n d ə r o ğ l u** (*İraq)*: Möhtərəm prezident, Sizi təbrik edirəm.
**H e y d ə r  Ə l i y e v:** Çox sağ olun. Biz səninlə 40 ildir dostuq. İndi orada vəziyyət necədir, İraqda işlər necədir? Türkmanlar necə yaşayırlar?
**Ə b d ü l l ə t i f  B ə n d ə r o ğ l u:** Sağlıq-salamatlıqdır. Hər şey yaxşıdır. Onlar da yaxşı yaşayırlar.
**H e y d ə r  Ə l i y e v:** Çox gözəl. Hələ otuz il bundan öncə bir Bəndəroğlu vardı. Biz onu tanımırdıq, amma kitablar yazırdı, hamısı bizim Azərbaycan dilində.
**Ə b d ü l l ə t i f  B ə n d ə r o ğ l u:** Cənab prezident, o mənəm.
**H e y d ə r  Ə l i y e v:** O sənsən, bilirəm, mən səni əvvəl də görmüşdüm. Türkman dili, Azərbaycan dili demək olar ki, eynidir.
**Ə b d ü l l ə t i f  B ə n d ə r o ğ l u:** Bəli, elədir. «Dədə Qorqud»un yubileyini çox yüksək səviyyədə qeyd etdiyinizə görə Sizə dərin minnətdarlığımı bildirirəm.
**X u r a m a n  Q a s ı m o v a** (*xalq artisti*): Cənab prezident, çox sağ olun, Sizi təbrik edirik, belə gözəl yubiley keçirdiniz. Sizi konsertimizə dəvət etmək istəyirik.
**H e y d ə r  Ə l i y e v:** Konsert nə vaxt olacaqdır?
**X u r a m a n  Q a s ı m o v a:** Bu ayın 21-də.
**H e y d ə r  Ə l i y e v:** Harada olacaqdır?
**X u r a m a n  Q a s ı m o v a:** Respublika sarayında, mədəniyyət nazirliyi və mədəniyyət dostları fondu keçirir. Simfonik orkestrin iştirakı ilə yeni əsərlərlə çıxış etmək istəyirik. Siz gəlsəydiniz çox xoşbəxt olardıq.
**H e y d ə r  Ə l i y e v:** Lap yaxşı, gələrəm. Sağ olun.

Azərbaycanın incəsənət ustaları ilə görüşü, uğurlu çıxışlarına görə onlara təşəkkürü, yeni yaradıcılıq arzuları:

**H e y d ə r  Ə l i y e v:** Çox gözəl tamaşa idi. Düzdür, mən bir az şübhə edirdim, Anara da dedim, amma çox yaxşı alındı. Siz bunu sonra belə bir nömrə kimi təkrar edə bilərsiniz.
**P o l a d  B ü l b ü l o ğ l u:** Cənab prezident, Türkiyənin mədəniyyət nazirindən bu tamaşanın orada göstərilməsinə dair təklif almışıq.
**H e y d ə r  Ə l i y e v:** Cənab Süleyman Dəmirəl də mənə dedi. Bu tamaşanı aparıb orada göstərmək olar. Orada belə səhnə varmı?
**P o l a d  B ü l b ü l o ğ l u:** Bəli, valilər də təklif edirlər ki, qədim yerdə - Efesdə və ya başqa yerdə nümayiş etdirək.
**H e y d ə r  Ə l i y e v:** Amma burada da tamaşa kimi təkrar etmək olar. Çünki biz gördük, televiziyada elə təəssürat yaranmır. Amma xalqımız qoy gedib görsün.
**P o l a d  B ü l b ü l o ğ l u:** Cənab prezident, tamaşa şəklində teatrda yenidən göstərərik.

**GÜRCÜSTAN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB EDUARD ŞEVARDNADZEYƏ**

Əziz Eduard Amvrosiyeviç!

Gürcüstan prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə sizi ürəkdən təbrik edirəm.

Prezident seçkilərində sizin qələbəniz ölkənin müstəqilliyi və suverenliyinin möhkəmlənməsinə, cəmiyyətin demokratikləşdirilməsinə, bazar islahatları aparılmasına, Dünya Birliyi ilə inteqrasiyaya yönəldilmiş xəttinizin qardaş Gürcüstan xalqı tərəfindən dəstəkləndiyinə inandırıcı sübutdur.

Əminəm ki, ölkələrimiz arasındakı ənənəvi dostluq, mehriban qonşuluq və tərəfdaşlıq münasibətləri xalqlarımızın mənafeləri, regionda sülh, sabitlik və tərəqqi naminə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və dövlət fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *10 aprel 2000-ci il*

## TÜRKİYƏLİ QONAQLARLA GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*10 aprel 2000-ci il*

**H e y d ə r Ə l i y e v:** Bir daha deyirəm, xoş gəlmisiniz! Çox məmnunam ki, siz mənim dəvətimi qəbul edib gəldiniz. «Dədə Qorqud»un yubileyini bir yerdə keçirdik və siz burada elmi konfranslarda iştirak etdiniz, ölkənizi bir daha gördünüz. Əsas da odur ki, həmişə bir yerdəyik. Dədə Qorqud bizim babamızdır və onun vəsiyyəti də odur ki, həmişə bir yerdə olun, bir-birinizdən ayrılmayın. Keçmiş vaxtlarda ayrı düşmüşük, amma indi artıq birləşirik. Ona görə də mən sizinlə görüşməyimdən çox məmnunam. Hər üçünüz mənim çox hörmət etdiyim adamlarsınız. Siz Türkiyənin çox görkəmli alimlərisiniz, professorlarısınız. Mən əziz dostumu xatırlayıram, 1994-cü ildən mən ilk dəfə Türkiyəyə gedəndə Hacəttəpə Universitetinin rektoru idi.

**Y ü k s ə l B o z ə r:** Hörmətli prezident, onda bizə böyük şərəf verdiniz.

**H e y d ə r Ə l i y e v:** Türkiyə universitetlərində mənə çox fəxri doktor adı veriblər. Amma ilk dəfə fəxri doktor adını 1994-cü ildə Hacəttəpə Universitetindən aldım. Çox-çox məmnunam.

Mənim dostum Rəşad Gənc də, bilirəm ki, Azərbaycanı çox sevən adamdır, çox böyük professordur, alimdir və eyni zamanda Atatürk Beynəlxalq Sülh Mükafatı Komissiyasının başında duran adamdır. Çox gözəl bir haldır ki, gəlib. Siz Azərbaycana birinci dəfədir gəlirsiniz, yoxsa əvvəllər gəlmisiniz?

**R ə ş a d G ə n c:** Hörmətli cümhur başkanım, dördüncü dəfədir gəlirəm.

**H e y d ə r Ə l i y e v:** Dördüncü dəfə. Amma mənim gördüyüm birinci dəfədir. Ola bilər ki, digər vaxtlar gələndə məni görməmisiniz.

**R ə ş a d G ə n c:** Hörmətli prezident, birinci dəfə 1991-ci ildə gəldik. O zaman mərhum Ziya Bünyadov Şərqşünaslıq İnstitutunun direktoru idi. Biz onun dəvəti ilə 35 nəfər tarixçi ilə birlikdə gəldik. O zaman Atatürkün anadan olmasının 110-cu ildönümü və türk-sovet əlaqələrinin yaranmasının 70-ci ili münasibətilə burada beynəlxalq konfrans keçirildi. Uzun fasilədən sonra, Sizin prezidentliyiniz zamanı iki dəfə – bir dəfə ötən il Bakıda milli özünüdərk mövzusunda keçirilən beynəlxalq simpoziuma, bir də Almatıya gedərkən yolüstü buraya gəldim. Bu isə dördüncü səfərimdir.

**H e y d ə r Ə l i y e v:** Çox gözəl, çox məmnunam. Əli bəy ilə də biz çox görüşmüşük. Hamımızın ağsaqqalımız İhsan Doğramacı və onun oğlu Əli bəy Doğramacı hazırda Bilkənd Universitetinə başçılıq edir. Çox məmnunam ki, sən də buradasan. Hamınızı görməkdən çox məmnunam.

**Y ü k s ə l B o z ə r**: Hörmətli prezidentimiz, «Kitabi-Dədə Qorqud» təntənələrini təşkil etməklə bütün türk cümhuriyyətlərində yaşayan hamımıza yeni işıq tutdunuz. Çünki gələcəyimizin nə olduğunu daha yaxşı bildikcə hara gedəcəyimiz daha aydın olur. Siz bizi bir-birimizə yaxınlaşdırdınız, keçmişimizi xatırlatdınız və keçmişimizi daha yaxşı araşdırmaq üçün bizə əsas verdiniz. Sizə dərin təşəkkür edirik.

Hörmətli cümhur başkanım, eyni zamanda dünən hamımızın gözləri sevincdən yaşardı. Tədbirlərdə Sizi cümhur başkanımız hörmətli Süleyman Dəmirəl ilə birlikdə görmək bizi çox sevindirdi. Allaha çox şükür etdik ki, Türkiyənin başında Süleyman bəydir, burada da siz. Böyük şəxsiyyətlər olan sizlər türk millətlərinə və dövlətinə böyük şərəf gətirdiniz.

Biz şükür edirik ki, Azərbaycan – Türkiyə Dotsluq Fondu üçün də yer ayrılmışdır. Bir çox layihələrimiz vardır. Hörmətli səfiriniz bunların hamısını yaxşı bilir. İnşallah, yaxın bir zamanda o gözəl evi də tamamlayıb Sizə ərz edəcəyik.

**R ə ş a d G ə n c**: İcazənizlə, mən də bir neçə kəlmə söz demək istəyirəm. Birincisi, mən öz minnətdarlığımı bildirmək istəyirəm ki, zati-alilərinin xüsusi qonağı kimi Azərbaycana gəldim, «Dədə Qorqud» təntənələrində iştirak etmək fürsəti qazandım. İndi də bizi qəbul etdiniz. Bu, mənim həyatımda nail olduğum ən böyük şərəfdir. Bunun üçün Sizə təkrar-təkrar təşəkkür edirəm.

İkincisi, «Kitabi-Dədə Qorqud» ilə bağlı Azərbaycanda, Türkiyədə, başqa türk cümhuriyyətlərində, dünyanın digər ölkələrində bir çox beynəlxalq toplantılar oldu, tədqiqat aparıldı, məqalələr, kitablar çap edildi. Amma «Dədə Qorqud» dastanının 1300 illik yubileyinin qeyd olunması barədə fərmanı ilk dəfə prezident Heydər Əliyev imzaladı. Üç ildir tədbirlər həyata keçirilir və bu günə qədər görülənlərin, həm elmi toplantı, simpozium kimi qeyd olunanların ən böyüyü Sizin rəhbərliyiniz, hümmətiniz, himayənizlə oldu. Mən bu təntənələr, simpoziumlar, tamaşalar, musiqilər, tədqiqatlar ilə ölkədə milli özünüdərkin bina inşa edilən kimi necə anlanıldığını gözlərimlə daha yaxından gördüm, tanıdım. Həqiqətən, Azərbaycana bu dördüncü gəlişim hamısından üstün oldu. Sizin gördüyünüz bütün işlər böyük dövlət adamlığınızın, böyük dövlətçilik təcrübənizin, böyük milli özünüdərk anlayışının çox gözəl nümunələrini bizə göstərdi.

Mən burada Türkiyə Atatürk Yüksək Qurumunun alim üzvlərinə bu sözləri dedim: «Şahnamə» əsərini yazmış Firdovsidən Soltan Mahmud Qəznəvi «bu işlə nə yapdın?» deyə soruşduğu zaman Firdovsi cavab vermişdir ki, «bu farsdilli əsərlə əcəm xalqını, İran millətini diriltdim. Çünki onların dilləri unudulurdu».

Demək olar ki, Siz «Dədə Qorqud»un 1300 illik yubileyi ilə Azərbaycanda milli özünüdərki yenidən diriltdiniz, Azərbaycan insanlarına özlərini tanımalarını anlatdınız. Buna görə də Sizə minnətdarlığımı bildirirəm.

Üçüncüsü, Akkan Suver axşam Sizə hörmətli prezidentimiz Süleyman Dəmirəl ilə bağlı dedi ki, Türkiyədə Süleyman Dəmirəl bəyə qarşı bizim göstərdiyimiz anlayışsızlığın, vəfasızlığın əksinə olaraq, Siz burada ona qat-qat ehtiram göstərdiniz. Hava limanından şəhərə gələnə qədər, burada Sizin qonağınız kimi və təkrar hava limanında təyyarəyə mindirilib yola salana qədər ona göstərilən yüksək hörmət və ehtiramdan gözlərimiz sevincdən yaşardı. Biz bunu qürur hissi ilə izlədik. Siz Beynəlxalq Atatürk Sülh Mükafatını aldığınız zaman mərasimdə söylədiyiniz nitqdə «Süleyman bəyə sahib çıxın, Süleyman bəyi buraxmayın, Siz buraxsanız belə, biz buraxmayacağıq» demişdiniz. Siz gerçəkdən də buraxmadığınızı bu dəfə çox böyük vəfv örnəyi kimi göstərdiniz. Türkiyəyə çox böyük bir alicənablıq və qədirbilənlik dərsi verdiniz. Ona görə Sizə təkrar-təkrar minnətdarlığımı ifadə edirəm.

İcazənizlə, bir məsələni də söyləmək istəyirəm. Mən 1993-cü ildən Atatürk Yüksək Qurumuna sədrlik edirəm. Çox məmnunam ki, 1993-cü ildən bu günə qədər, 1999-cu ildə Beynəlxalq Ataturk Sülh Mükafatı həm Atatürkü bütün fikirləri ilə çox yaxından bilən, həm Atatürkün milli özünüdərk, milli dil, milli tarix, milli kimlik sahəsindəki bütün icraatlarını Azərbaycanda tətbiq edən, Azərbaycan Cümhuriyyətini idarə edən və gələcəkdə idarə edəcək kadrları da bir çiçək yetişdirən kimi əlinin altında yetişdirən bir böyük atatürkçüyə, Azərbaycan dövlətinin Atatürkünə, Azərbaycan Respublikasının Atatürkünə nəsib oldu. Bu mükafat ən layiqli insana verildi. Mən bundan çox şadam, çox qürur və çox iftixar hissi duyuram. Bizi qəbul etdiyinizə görə Sizə bir daha təşəkkür edirəm.

**Ə l i D o ğ r a m a c ı**: Hörmətli prezidentim! Bu səfərimiz zamanı Bakıdakı universitetlərin rektorları ilə görüşdük və bəzi fikir mübadiləmiz oldu. Əgər icazə versəniz, bunu Sizə qısa şəkildə ərz edim.

**H e y d ə r Ə l i y e v:** Buyurun.

**Ə l i D o ğ r a m a c ı:** Bundan əvvəlki illərdə Bilkənd Universitetinin Azərbaycandakı qardaşlarımızın xidmətləri belə olmuşdur:

Buradan müəllimlər Bilkəndə gəlib ingilis dili və digər ixtisaslar üzrə xüsusi kurslar keçmişlər və onların bütün xərclərini öz üzərimizə götürmüşük. Banklarda, fabriklərdə çalışan orta səviyyəli insanları Bilkəndə gətirib onlara maliyyə, mühasibat və digər dərslər keçmişik. İndiki səfərimiz zamanı apardığımız danışıqlarda bəzi yeni məsələlər müzakirə olundu. İngilis dili üzrə müəllimlər magistr proqramı almaq üçün buradan Bilkəndə gələcəklər. Onlara bir il təhsil üçün qalmağa yer, ayda 130 dollar xərclik verəcəyik. Amma onların bir az ingilis dilini bilmələri lazımdır. Bununla bağlı təkliflərimizi Bakı Dövlət Universitetinə, digər ali təhsil ocaqlarının rektorlarına bildirdik. Onlar da bunu arzu etdiklərini söylədilər. Önümüzdəki bir ay ərzində oraya ingilis dili müəllimlərini aparacağıq. Bu proqramı amerikalılarla bərabər həyata keçiririk.

Bilkənd Universitetinin kitabxanasından Türkiyədəki digər universitetlər – Ərzurum, Ədirnə universitetləri və başqaları istəyirlərsə, onlara bir ay ərzində kitablar göndəririk. Biz pul almırıq, yol xərclərini özləri verirlər və bir ay oxuduqdan sonra geri qaytarırlar. Biz bu xidməti Türkiyənin hüdudlarında edirik. Bu gün Bakı Dövlət Universitetinin rektoru ilə görüşümüzdə belə bir xidməti onlara da göstərə biləcəyimizi söylədik. Biz Bakı Dövlət Universitetində internetə bərabər daxil olmuşuq. Yəni Bilkənd kitabxanasında nə varsa, onlar barədə məlumat almaq mümkün olacaqdır. Biz dedik ki, tələbələr Bakı Dövlət Universitetinin kitabxanasına gəlib Bilkənddən hansı kitabların gətirilməsini istəsələr, həmin kitabları hazırlayıb həftədə bir dəfə Ankarada «Azərbaycan Hava Yolları» Dövlət Konserninin nümayəndəliyinə verə bilərik. Əgər «Azərbaycan Hava Yolları» bunu Bakıya təmənnasız gətirərsə, işimiz yaxşı olar. Çünki biz pul almayacağıq və Bakı Dövlət Universiteti həmin kitablardan bir ay istifadə edib geri göndərəcəkdir. Ümumiyyətlə, biz bir ildə 18 min kitabı bu şəkildə Türkiyəyə paylayırıq. Belə olan halda, yəni «Azərbaycan Hava Yolları» Konserninin nümayəndələri bu işə dəstək verərlərsə, qardaş ölkənin müəllimləri və tələbələri də bu imkanı qazanacaqlar.

Biz tələbələrə təbii elmlər, iqtisadiyyat və başqa ixtisaslar üzrə magistr və doktorantlıq üçün xüsusi kurslar təşkil edə biləcəyimizi söylədik. Bunu da bir ay ərzində tətbiq edəcəyik.

Cənab prezident, başqa bir məsələ də vardır, amma ona Sizin yol göstərməyinizə ehtiyacımız vardır.

İngilis dilində dərs deyənlər üçün Kembric Universitetinin beynəlmiləl orta təhsil proqramı və beynəlxalq bakalavr hazırlayan proqramı vardır. Biz Bilkənddə bunu çox yaxşı tətbiq edirik. Bu proqramı öyrənənlərin universitetə daxil olduqdan sonra geniş perspektivləri olur. Belə bir işin tələbələrdən gələn gəlir hesabına həyata keçməsi mümkün deyildir. Bilkənddə bunun üçdə bir hissəsi tələbədən gəlir, yerdə qalanı fəqvlər tərəfindən verilir. Əgər belə bir sistemin Azərbaycanda olmasını arzu edirsinizsə bu, belə ola bilər. Yəni hər hansı ərazi bir vəqfə verilsin və orada tikiləcək binadan əldə olunan gəlir bu məktəbə xərclənsin.

Həmçinin burada bir peyk antenası qurmaq lazımdır. Buna 150-200 min ABŞ dolları sərf olunar və biz bunu edə bilərik. Bu peyk antenası vasitəsilə internetə girməklə dünyaya yeni bir qapı açılır. Demək, məktəbin ayrıca

interneti olur və bu, bütün Azərbaycana xidmət göstərəcəkdir. Buradan əldə edilən gəlir məktəbin olacaqdır. Təbii ki, məktəbi yaşatmaq üçün əlavə gəlir lazımdır. Belə bir sistem olarsa, bu, uzun illər Azərbaycanın gələcək nəsillərinə fərqli bir təhsil imkanı verər. Bu sahədə məsləhətinizi və təkliflərinizi eşitməyə və qəbul etməyə hazırıq.

**H e y d ə r Ə l i y e v**: Sağ olun. Təşəkkür edirəm. Sizin bu fikirləriniz çox dəyərlidir, əhəmiyyətlidir. Siz bizim universitetlərlə danışmısınız.

Dövlətimizin başçısı prezidentin köməkçisi Dilarə Seyidzadəyə müraciətlə dedi: Sən lazımi şəxslərlə əlaqə saxlayıb öyrənərsən, bizim tərəfimizdən nə lazımdırsa, onu edərik.

Mən bunların hamısını çox dəyərli hesab edirəm, qəbul edirəm. Ancaq bunu əməli surətdə həyata keçirmək üçün gərək mənə bizim universitetlərdən bu barədə məlumatlar versinlər.

**R ə ş a d G ə n c:** Cənab prezident, icazə verin, bir cümlə ilə digər bir fikrimi çatdırım.

Sizin ev sahibliyinizlə türkdilli əlaqələrin dövlət başçılarının VI zirvə toplantısı keçirildi. Bununla bağlı həm bədii proqramda, həm dünən axşamkı ziyarətdə Siz ifadə etdiniz ki, bu işlərin bu günə qədər gəlib çatmasında cənab Süleyman Dəmirəlin böyük əməyi vardır. Ancaq Siz VI zirvə görüşündə «Türkdilli Dövlətlər Birliyi» deyə çıxış etdiniz. Mən buna görə də Sizə dərin təşəkkürümü, minnətdarlığımı ərz edirəm. Yəni indiyə qədər bunun rəsmən adı «Türkdilli Dövlətlər Birliyi» kimi ifadə olunmamışdı, ilk dəfə Siz səsləndirdiniz. Yəni bunun isim babası, fikir babası Siz oldunuz. Mən inanıram ki, inşallah, bunun memarı da Siz olacaqsınız.

Mən zati-alinizə Ankarada da demişdim, - Sizin gözəl sözünüzlə biz bir millət, iki dövlətik. O halda bizim iki cümhur başkanımız vardı. 35-40 gündən sonra cümhur başkanı kimi təkcə Siz qalacaqsınız və bu bayrağı VI zirvədən Türkdilli Dövlətlər Birliyinə Siz aparacaqsınız. Buna görə də təşəkkür edirəm.

**H e y d ə r Ə l i y e v:** Sağ olun. Təşəkkür edirəm. Sizin bu yubiley mərasimləri haqqında dediyiniz çox dəyərli və xoş sözlərə görə hamınıza çox təşəkkür edirəm.

Həqiqətən, bu günlər Azərbaycanda olan hadisələr tarixi bir əhəmiyyət, tarixi bir xarakter daşıyır. Çünki biz – türkdilli dövlətlərin başçıları yenidən toplaşdıq və çox dəyərli bir bəyannamə qəbul etdik. O, mətbuatda veriləcəkdir, bununla tanış olacaqsınız. Çox dəyərlidir.

Biz son dəfə 1998-ci ildə Astanada toplaşmışdıq. Ondan sonra bizim yenidən toplaşmağımız çox əhəmiyyət kəsb edir və bütün dünyaya nümayiş etdirdik ki, bəli, türkdilli dövlətlər, türk kökü olan dövlətlər, bir kökə, bir mədəniyyətə, bir milli-mənəvi ənənələrə, bir tarixə malik olan dövlətlər fürsət tapıbdır ki, müştərək işlər görsünlər, birlikdə olsunlar. Biz bunu dünyaya nümayiş etdirdik. Bu, çox gözəl keçdi. Ancaq həqiqətən mən bunu orada, bizim simpoziumda da dedim, «Dədə Qorqud» yubileyində də dedim, - bunun təşkilatçısı Türkiyə Cümhuriyyətidir və 1992-ci ilin oktyabr ayında bu dövlətlərin başçıları ilk dəfə Ankarada toplaşıblar. Mən birinci zirvə görüşündə olmamışam. Çünki onda mən dövlət başçısı deyildim. Amma ikinci zirvə görüşündə mən varam. Bəli, bu, ilk dəfə Ankarada toplanıbdır. Mərhum Turqut Özal və prezident Süleyman Dəmirəl bu işin başında durublar, təşəbbüs ediblər. Ancaq ondan sonrakı dövrdə ikinci zirvə görüşünə artıq Süleyman Dəmirəl başçılıq edirdi. İkinci zirvə görüşünü biz İstanbulda keçirdik. Bu illərdə hörmətli Süleyman Dəmirəlin bütün bu dövlətlərin özünü dərk etməsi, inkişaf etməsi, yaxınlaşması sayəsində xidmətləri həqiqətən həddindən çox böyükdür.

Bəlkə bunu Türkiyədə bilmirlər. Mən çalışdım ki, bunu Türkiyədə öz çıxışlarımda – həm Atatürk mükafatını mənə verəndə, sonra mən gedib İspartada Süleyman Dəmirəl adına universitetdə böyük bir nitq söylədim, başqa vaxtlarda da dedim. Türkiyə Cümhuriyyəti həm böyük bir dövlət olaraq, həm qədim bir dövlət olaraq, təbiidir ki, bizim hamımız üçün örnəkdir. Biz, yəni digər türkdilli dövlətlər müstəqilliyimizi 8-9 il bundan öncə, 1991-ci ilin sonunda almışıq. Biz ondan öncə heç vaxt birləşə bilməzdik. Ona görə də bizim hələ çox böyük problemlərimiz vardır. Amma bu yolu Türkiyə Cümhuriyyəti Mustafa Kamal Atatürkün başçılığı ilə və sonra onun işinin davamçıları ilə birlikdə keçibdir. Biz isə bunu hələ indi keçirik. Bütün bu səbəblərə görə də Türkiyə həmişə bu işlərin başındadır, bu gün də başındadır və hörmətli Süleyman Dəmirəl burada həqiqətən çox xidmətlər göstəribdir. O, dəfələrlə bütün bizim ölkələrdə olubdur: bir dəfə yox, iki dəfə yox, bəlkə on dəfə Azərbaycanda da, Türkmənistanda da, Qazaxıstanda da, Qırğızıstanda da, Özbəkistanda da. Təkcə rəsmi ziyarətlər deyil, müəyyən hadisələr münasibətilə olubdur.

Yaxud da, elə bir müddət bundan öncə dedi ki, mən Türkmənistana gedirəm. Yəni orada nə bir bayram var idi, nə bir rəsmi tədbir var idi. Amma getdi, bir də görüşdü – bir neçə məsələni müzakirə etmək lazım idi. Yəni onun bu dinamik xarakteri ilə və çox dinamik fəaliyyəti ilə Türkiyədə gördüyü işlərlə bərabər, təbiidir ki, bizim ölkələrimizdə xalqlarımızın özünü dərk etməsində və xüsusən də Türkdilli Dövlətlər Birliyinin həqiqətən birliyə çevrilməsində çox böyük xidmətləri olmuşdur. Ona görə də biz qəbul etdiyimiz bəyannamədə bunu əks etdirdik və orada öz nitqlərimizdə dedik, sonra da mən «Kitabi-Dədə Qorqud» yubileyində də bu fikirləri dedim.

Süleyman Dəmirəl Türkiyə üçün çox işlər görübdür. Mən bunu dünən də, o birisi gün də demişəm. Təkrar etmək istəmirəm. Keçmişdə də, amma son on il ərzində də – məsələn, bizim bu dövlətlər müstəqillik alan zaman Süleyman Dəmirəl Baş nazir idi. 1993-cü ilin may ayından o prezidentdir. Bu müddət bizim ölkələrimiz üçün çox ağır bir dövr olubdur, çətin dövr olubdur. Ona görə bizə bir dayaq lazım idi, belə bir arxa lazım idi. Bu da həmişə Türkiyə olubdur və Türkiyədə də bu işləri hamıdan çox bilən, hamıdan çox qəlbində saxlayan, bunun

gələcək üçün nə qədər əhəmiyyətli olduğunu hamıdan çox bilən məhz Süleyman Dəmirəldir. Ona görə də Azərbaycan xalqının, şəxsən mənim səfəri zamanı ona göstərdiyimiz hörmətimiz, sevgimiz, məhəbbətimiz tamamilə təbiidir. Bu, elə bu gün deyil, hər dəfə belədir.

Bir neçə ay bundan öncə hörmətli Süleyman Dəmirəl Baş qərargah rəisi Kıvrıkoğlu ilə birlikdə buraya gəlmişdi. Onu eyni hörmət, eyni təntənə ilə qarşıladıq. Mən onu Azərbaycanın ən yüksək ordeni- siz dövlət nişanı deyirsiniz – «İstiqlal» ordeni ilə təltif etdim və bunu təntənəli şəraitdə, yenə də böyük toplantıda təqdim etdim və ürəyimdə olan sözləri ona dedim.

Mən dünən ona «Azərbaycanın fəxri vətəndaşı» adını verdim. Doğrudur, bu, ilk dəfə verilir. İndiyə qədər heç bizim fikrimizdə də yox idi ki, bəlkə belə bir ad təsis edək. Ancaq mən bu adı məhz hörmətli Süleyman Dəmirəl üçün təsis etdim. Çünki onun Türkiyə Cümhuriyyətində gördüyü bütün işlərə görə və son on ildə gördüyü işə görə, Azərbaycanla Türkiyə əlaqələrindəki bu böyük fəaliyyətinə görə və böyük uğurlarına görə, təbiidir ki, onun «Azərbaycanın fəxri vətəndaşı» adı almaq hüququ var. Onu bizim hava limanından şəhərə qədər xalqın böyük məhəbbətlə qarşılamasını, yola salmasını siz gördünüz. Yaxud, dünən bizim Respublika sarayında ona insanlar nə qədər hörmət, nə qədər sevgi-məhəbbət göstərirdilər.

Dünən biz burada 1918-ci ildə şəhid olmuş türk əsgərlərinin abidəsini açdıq. O abidəni də çoxdan yaratmışdıq. Bilirəm, Türkiyədə belə bir istək var idi. Ancaq bu, indiyə qədər yerinə yetirilməmişdi. Mən isə bu barədə qərar qəbul etdim. Mən ən gözəl ərazidə yer verdim. Onlar keçmişdə elə orada torpağa veriliblər. Ona görə bu yeri ayırdım. Belə bir gözəl abidə yarandı. Amma bu abidə 1999-cu ilin əvvəlində yaranıbdır. Mən dedim ki, ancaq Süleyman Dəmirəl bura gələndə onunla birlikdə açacağıq. Keçən dəfə gələndə onun vaxtı, fürsəti olmadı. Başqa işləri var idi. Mən ona dedim. Dedi ki, gələn dəfə açarıq. Ona görə də bu dəfə abidəni bir yerdə açdıq. Bu da böyük bir hadisədir. Yəni bu, Azərbaycan – Türkiyə əlaqələrinin qədimliyini göstərir və Türkiyənin vaxtilə Azərbaycanı erməni qırğınından xilas etməsini xatırladır. Ümumiyyətlə, 1918-ci ildə Azərbaycanı dağıdırdılar, parçalayırdılar. Əgər bu olmasaydı, Azərbaycan ayaq üstə durmasaydı, bəlkə də bu gün Azərbaycan yox idi. Başa düşürsünüz, o vaxtlar Azərbaycanı dağıtmaq istəyirdilər.

Bütün bunlara görə təbiidir ki, Süleyman Dəmirəl bizim xalqımızın qəlbindədir. Mənim üçün isə o, - demişəm, - əbədi qardaşdır.

Mən o vaxt Türkiyədə həm Atatürk mükafatını alarkən, həm başqa yerlərdə çıxış edəndə demişdim ki, siz bilin, Süleyman Dəmirəli qorumaq lazımdır. Süleyman Dəmirəl Türkiyə Cümhuriyyətinə bundan sonra da lazımdır. Türkiyə xalqına lazımdır. Ancaq eyni zamanda dedim ki, o, bizə də lazımdır. Sizdən də çox bizə lazımdır, türkdilli dövlətlərə lazımdır. Onu qoruyun, onu saxlayın, onu əlinizdə möhkəm saxlayın.

Amma mən yenə də nikbinəm. Heç bir şey olmayıbdır. Süleyman Dəmirəl türk dünyasında, Türkiyə Cümhuriyyətində, Azərbaycanda, başqa türkdilli dövlətlərdə var və olacaqdır. Süleyman Dəmirəl hələ çox işlər görəcəkdir. Mən buna inanıram. Ona görə heç mən də narahat deyiləm, bundan siz də narahat olmayın.

Sizin burada çox gözəl sözləriniz, gözəl fikirləriniz oldu. Təbiidir ki, bunlar hamısı məni sevindirir. Yenə də deyirəm, sizinlə söhbətimə başlayanda da dedim ki, hər biriniz böyük alimsiniz, Türkiyənin çox tanınmış insanlarısınız. Sizin dediyiniz sözlərin qiyməti, çəkisi çox ağırdır. Yəni hər birinin əhəmiyyəti vardır. Ona görə də bunların hamısı bizim gələcəyimizə xidmət edir.

Bizim bu «Dədə Qorqud» yubileyinin də keçirilməsinin – bunu mən dünən də iki-üç dəfə dedim – böyük əhəmiyyəti odur ki, biz kökümüzü bir də gördük və dünyada göstərdik, gələcəyimizin işığını açdıq. Gələcəyimiz də «Kitabi-Dədə Qorqud» işığı altında olacaqdır, onun şüarı altında olacaqdır, onun günəşi altında olacaqdır. Bunların hamısını bir yerdə etdik və çox məmnunam ki, Türkiyədən çoxsaylı nümayəndələr gəlmişdir. Bir çox valilər gəlmişdilər, - dünən axşam onlarla görüşdüm, - alimlər gəlmişdilər. Bu da təbiidir. Çünki bizim, yəni Türkiyə ilə Azərbaycanın yaxınlığı qədər başqa ölkələrin belə yaxınlığı yoxdur.

Ona görə mən sizə bir də təşəkkür edirəm və ümidvaram ki, bizim bu günlərdə bir daha təməlini qoyduğumuz, - yəni təməli çoxdan qoyulubdur, o təməlimizi bir az da möhkəmləndirdik, siz dediyiniz kimi, sementlədik, ora bir az da sement artırdıq, - dostluq, qardaşlıq daha da çox yaşayacaqdır. Mən buna əminəm.

**Y ü k s ə l B o z ə r**: Bizi qəbul etdiyinizə, vaxt ayırdığınıza görə minnətdarlığımızı bildiririk. Sizi o gözəl tədbirlərə görə təbrik edirik, hörmət və ehtiramımızı ərz edirik.

**H e y d ə r Ə l i y e v:** Sağ olun.

## AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ AZƏRBAYCAN ÜZRƏ MƏRUZƏÇİSİ, FRANSA PARLAMENTİNİN DEPUTATI JAK BOMEL İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*10 aprel 2000-ci il*

Hörmətli dostumuz Jak Bomel!
Hörmətli qonaqlar!
Sizə bir daha təşəkkür edirəm ki, mənim dəvətimi qəbul edib Azərbaycana gəlmisiniz və bizim üçün tarixi əhəmiyyəti olan «Kitabi-Dədə Qorqud»un yubiley mərasimlərində fəal iştirak edirsiniz. Siz bu gəlişinizlə müstəqil Azərbaycana, xalqımıza, Azərbaycan xalqının keçmiş tarixinə, mədəniyyətinə, tarixi köklərinə öz hörmətinizi ifadə etdiniz. Mən bunu çox yüksək qiymətləndirirəm. Güman edirəm, siz hiss etdiniz ki, təkcə mən yox, bizim hökumətimiz, xüsusən ictimaiyyətimiz də bunu çox yüksək qiymətləndirir. Bununla bir daha nümayiş etdirdiniz ki, siz həqiqətən Azərbaycan xalqı ilə səmimi dostluq əlaqələri saxlayırsınız.

Mən bilirəm ki, öz ölkəniz Fransada da, Avropa Şurasında da işləriniz çoxdur. Çünki son illər sizinlə əlaqə saxlayaraq bilirik ki, həmişə çox məşğul olursunuz. Ancaq vaxt tapıb Azərbaycana gəlmisiniz. Güman edirəm, siz də razı olmalısınız ki, bu yubiley mərasimlərində, keçirilən elmi simpoziumlarda iştirak edərək Azərbaycanın tarixini daha da yaxşı tanıdınız. Təbiidir ki, bu, birinci növbədə bizim üçün lazımdır. Amma güman edirəm ki, sizin üçün də lazımdır. Siz artıq bizim üçün bir növ azərbaycanşünas kimi qəbul olunursunuz. Ona görə də Azərbaycanın keçmişini, tarixini, qədim mədəniyyətini bilməyiniz bir mütəxəssis, azərbaycanşünas kimi sizi daha da zənginləşdirir. Mən sizə təşəkkür edirəm.

**J a k B o m e l**: Cənab prezident, mən hər şeydən əvvəl onu demək istəyirəm ki, Sizin tərəfinizdən dəvət edilmək şərəfinə nail olduğum üçün özümü çox xoşbəxt hiss edirəm. Bir də ona görə ki, bu dəvət xalqınız üçün xüsusi əhəmiyyət daşıyan iki böyük hadisənin – türkdilli dövlətlərin başçılarının zirvə görüşünün və «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyinin təntənəli surətdə qeyd edildiyi bir vaxta düşdü.

Cənab prezident, mən Sizə bir daha minnətdarlığımı bildirirəm. Çünki mən Sizin tərəfinizdən xüsusi şərəfə nail oldum. Birincisi ona görə ki, aprelin 9-da keçirilən rəsmi qəbulda Siz məni öz stolunuzun arxasında, YUNESKO-nun baş direktoru ilə yanaşı əyləşdirdiniz. İkincisi isə ondan bir gün əvvəl türkdilli dövlətlərin başçıları üçün təşkil etdiyiniz rəsmi qəbulda da Siz məni dövlət başçıları ilə eyni stol arxasında oturmaq şərəfinə qovuşdurdunuz.

Cənab prezident, istəyirəm Sizə məsləhət verəm ki, bir qədər ehtiyatlı olmaq lazımdır. Belə fikirləşirəm ki, əgər bu cür davam etsə, deyəsən, mən Fransadan daha çox Azərbaycanda məşhur olacağam. Bir gün də məcbur qalıb burada keçirilən seçkilər zamanı gəlib namizədliyimi verərəm və seçkilərdə keçə bilərəm.

**H e y d ə r Ə l i y e v:** Bu, çox gözəl olar. Bizim parlamentə Sizin kimi bir adam lazımdır.

**J a k B o m e l:** Mən bunu heç vaxt yadımdan çıxarmayacağam.

**H e y d ə r Ə l i y e v:** Ola bilsin, bizim Mürtuz Ələsgərov bundan narahat olsun. Çünki qorxuram, sonra parlamentin sədri olmaq istəyəsiniz.

**J a k B o m e l:** Yaşımı nəzərə alsaq, heç olmasa, onda mən Sizin Milli Məclisin ağsaqqalı ola bilərəm. Cənab prezident, çünki bu nöqteyi-nəzərdən Siz məndən yaşca çox-çox kiçiksiniz.

**H e y d ə r Ə l i y e v:** Biz bu barədə sonra danışarıq. Amma sizin bu fikriniz çox dəyərlidir. Çünki siz bizim parlamentdə olsanız, onda nə Avropa Şurasında, nə də Avropa Birliyində deməyəcəklər ki, Azərbaycanda demokratiya var, ya yoxdur, insan hüquqları qorunur, ya qorunmur. Bir halda ki, Jak Bomel kimi bir adam Azərbaycanın parlamentindədir, demək, orada hər şey düzdür.

**J a k B o m e l:** Cənab prezident, bu zarafatlarıma baxmayaraq, indi ciddi deyirəm, - mən həm də çox məmnunam, xoşbəxtəm ki, Sizin səhhətinizi əla vəziyyətdə görürəm. Çünki bu günlər ərzində mən də Sizin yanınızda olmuşam. Bu iş rejimi ilə, belə bir dinamika ilə işləmək başqa insanlar üçün, hətta müxtəlif yaşlarda olan bütün adamlar üçün də həddindən artıq çətin olardı. Mən çox şadam ki, sağlamlığınız belə gözəl, yüksək vəziyyətdədir.

Cənab prezident, mən bir məsələni də deməkdən çox məmnunluq duyuram. Bildirmək istəyirəm ki, Fransa Respublikasının prezidenti Jak Şirak Sizə yenə də əvvəlki kimi yaxşı münasibət bəsləyir. O, Sizin burada gördüyünüz işlərə heyrandır və bütün bu işlərinizdə Sizə tam dəstəyini göstərir.

Mən demək istəyirəm ki, Fransa ilə Azərbaycan arasında yaratdığınız bu dostluq münasibətləri çox mühüm bir amildir. Mən əminəm ki, elə bu amil Azərbaycanın Avropa Şurasına daxil olmasında və beynəlxalq aləmdə, regionda oynadığı rolun daha da yüksəlməsində xüsusi əhəmiyyət daşıyacaqdır.

Əlbəttə, bu dostluq həm də öz ifadəsini Azərbaycan ilə Fransa arasında siyasi, iqtisadi, mədəni sahələrdə əlaqələrin daha da gücləndirilməsində tapmalıdır. Mən bunları bir də ona görə deyirəm ki, həm Sizin dövlətin gələcəyi ilə bağlı, həm də sülh problemləri, insan hüquqları ilə əlaqədar ölkələrimizin mövqeləri eynidir.

Mən arzu edərdim ki, Azərbaycan ilə Fransanın həm mədəni, həm də iqtisadi sahələrdə əməkdaşlığı daha da inkişaf etdirilsin, bu iki ölkə arasında sənaye və texnoloji əlaqələr baxımından bir qütb yaransın və bu, ölkələrimizin münasibətlərini daha da yaxınlaşdırsın.

Azərbaycanın dövlət müstəqilliyindən danışarkən onu deyə bilərəm ki, general de Qoll tərəfdarı kimi, mənim fikrimcə, Sizin ölkənin inkişafını təmin etmək üçün ümumi bir tarazlıq yaradılmalıdır, yəni maraqlar nöqteyi-nəzərindən hər hansı bir tərəfə daha çox əyilmə meylləri olmamalıdır. Müxtəlif ölkələrlə münasibətlər elə qurulmalıdır ki, onların heç biri, hətta Fransa gələcəkdə Azərbaycana hər hansı siyasi təzyiq göstərmək iqtidarında olmasın. Əlbəttə, mən əminəm ki, bu, mümkün olacaqdır. Bunun üçün biz ölkələrimizin, xalqlarımızın bir-birini daha yaxından tanımasına səylər göstərməliyik, xüsusilə informasiya mübadiləsini daha da genişləndirməliyik.

Cənab prezident, Sizə olan dostluq münasibətlərim imkan verir səmimiyyətlə deyəm ki, Azərbaycanın Avropada tanınması sahəsində hələ bu gün də müəyyən problemlər, çatışmazlıqlar vardır. Mən xüsusilə Fransanı misal çəkmək istəyirəm.

Cənab prezident, mənim bu dediklərim xüsusi əhəmiyyət daşıyır. Sizin ölkəniz Avropa Şurasına daxil olmaq ərəfəsini – mən xüsusilə mayın 3-də keçiriləcək müzakirələri nəzərdə tuturam – və bu dövrü güclü təbliğat kampaniyası ilə müşayiət etməlidir. Yeri gəlmişkən deyim ki, elə mənim özüm on il bundan əvvəl Azərbaycanı tamamilə tanımırdım, ancaq müəyyən kitablardan oxuduğum bəzi məlumatlarım var idi. Vaxtilə mənim bildiyim əsas məlumat o idi ki, Fransanın mərhum prezidenti general de Qoll 1944-cü ildə Moskvaya gedərkən bir gecə Bakıda qalmışdı. Digər məlumatım bu idi ki, cənab Rostropoviç Bakıda anadan olmuşdur.

Cənab prezident, mən son illər Bakıya tez-tez gəldiyim üçün Azərbaycanda gedən prosesləri çox yaxşı bilirəm və hər dəfə də Sizin ölkədə baş verən tərəqqini görürəm. Bu, sadəcə nəzakət xatirinə bildirilən sözlər deyildir. 70 ilin zülmətindən çıxan Azərbaycan çox böyük uğurla güclü bir dövlətə çevrilir. Mən sadəcə enerji – neft, qaz sahəsində əldə edilən nailiyyətləri demirəm, Azərbaycan həqiqətən regionda siyasi cəhətdən güclü bir dövlətə çevrilir.

Mənim fikrimcə, bu nailiyyətlərin hamısını hər şeydən əvvəl bir amillə bağlamaq lazımdır. Ölkənin parlaq gələcəyini təmin edən əsas amil Azərbaycandakı möhkəm sabitlikdir. Cənab prezident, mən onu da bildirmək istəyirəm ki, Azərbaycanda bu sabitlik məhz Sizin şəxsi fəaliyyətiniz, səyləriniz nəticəsində mümkün olmuşdur.

Cənab prezident, ölkənizin qazandığı müvəffəqiyyətlər, əldə etdiyiniz tərəqqi, ümumiyyətlə, demokratiya sahəsində nailiyyətləriniz, - baxmayaraq ki, bəzi müxalif qüvvələr bir qədər başqa cür danışırlar, - təkcə son zamanlar həyata keçirdiyiniz tədbirlər, türkdilli dövlətlərin başçılarının sammiti məni tam inandırır ki, Siz bu vəzifədə Azərbaycan xalqına hələ çox lazımsınız.

Mən daxili sabitlikdən danışdım. Əlbəttə, xarici sabitlikdən də danışmaq lazımdır. Ölkəniz çox güclü dövlətlərlə əhatə olunmuşdur. Həmin ölkələrin hər biri sərhədlərdən boylanaraq sizə baxır və bu qonşuların da hər birinin öz iddiaları vardır. Məsələ burasındadır ki, bu dövlətlər bu regionu nə vaxtsa yenidən öz nəzarətləri altına almaq iddiasındadırlar. Lakin siz öz müstəqilliyinizi qorumalısınız. Azərbaycan Qafqazda yeganə ölkədir ki, onun ərazisində xarici dövlətin hərbi bazası yoxdur.

Cənab prezident, Siz dünya, beynəlxalq aləm, region çərçivəsində düzgün xarici siyasət həyata keçirirsiniz. Mən Sizi müəyyən mənada Fransanın keçmiş prezidenti general de Qolla müqayisə edirəm. Siz onun kimi mövqe tutaraq, bütün bloklardan kənarda duran bir siyasət yeridirsiniz. Fikrimcə, elə buna görə də Azərbaycanın Avropa ilə münasibətlərinin daha da yaxşılaşdırılması xüsusi əhəmiyyət daşıyır. Əslində, Avropa bütün sahələrdə Sizin dəstəyinizdir. Bu isə Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına kömək edir.

Mən Sizin ölkəyə dəfələrlə gələrək, xalqınıza dost münasibəti bəsləmişəm, siyasət adamlarınızla yaxın əlaqələr qurmuşam, Azərbaycanda özümə çoxlu dost qazanmışam. Onlardan biri də cənab Murtuz Ələsgərovdur. Mən Milli Məclisin bir çox deputatları ilə də görüşmüşəm.

Dünən mən Bakı Dövlət Universitetində oldum. Orada doğrudan da çox yüksək səviyyəli adamların əhatəsində idim. Universitetin müəllimləri, tələbələri ilə görüşməkdən böyük şərəf duydum. Mənə elə gəlir ki, məhz belə seçmə adamlar Azərbaycanın gələcəyinin, demokratik yolla inkişafının təmin olunmasında mühüm rol oynayacaqlar.

Mən Fransaya qayıtdıqdan sonra burada gördüklərimin hamısını həmkarlarıma danışacağam. Çalışacağam ki, Fransanın siyasi dairələrində Azərbaycanın vəziyyətini və onun qarşılaşdığı problemləri daha yaxşı başa düşsünlər.

Vaxtilə Fransa Avropada təhlükəsizlik və sabitlik paktını həyata keçirmək üçün addımlar atdığı kimi, indi də Azərbaycan Qafqaz regionunda təhlükəsizlik və əməkdaşlıq paktını həyata keçirmək niyyətindədir.

Cənab prezident, mən həmişəki kimi çox danışdım. Sizə çox dərin dostluq hissləri bəslədiyim üçün ürəyimdə olanların hamısını Sizə demək istədim. Mən Sizin ildən-ilə qazandığınız yeni uğurlara heyran olduğumu mütləq bildirməliydim. Bildirməliydim ki, Azərbaycanın öz qonşuları və Avropa Şurası ilə gələcək münasibətlərinin

inkişafına inamım çox möhkəmdir. Əminəm ki, Azərbaycan siyasi məsuliyyət hissini bilən, bütün demokratik, insan hüquqları təsisatları ilə birlikdə nümunəvi bir ölkə olacaqdır.

Cənab prezident, mən Sizə ən səmimi arzularımı və ən xoş ümidlərimi çatdırıram. Çox sağ olun.

**H e y d ə r  Ə l i y e v**: Cənab Jak Bomel, siz həqiqətən çox dəyərli və əhəmiyyətli fikirlər irəli sürdünüz. Bu onu göstərir ki, siz həqiqətən ölkəmizin dostusunuz və Azərbaycana çox qayğı göstərirsiniz. Siz çox ağıllı və ölkəmizin gələcəyi üçün lazımlı məsləhətlər verdiniz.

Mən sizə çox təşəkkür edirəm. Çox məmnunam ki, siz dostum prezident Jak Şirakın mənə olan münasibətini bir daha bildirdiniz və onun salamlarını mənə çatdırdınız.

Bildirmək istəyirəm ki, prezident Jak Şirakla rəsmi olaraq dövlət başçısı kimi biz ilk dəfə 1997-ci ildə görüşmüşük. Qısa bir zamanda aramızda çox səmimi dostluq əlaqələri yaranıbdır. Mən prezident Jak Şirakla hər görüşümdən sonra çox fikirləşirəm və bu insanın nə qədər böyük təcrübəyə, ağıllı siyasətə malik olduğunu bir daha dərk edirəm.

Mən yaxşı bilirəm ki, prezident Jak Şirak Ermənistan – Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün çox böyük səylər göstərmişdir və göstərir. Son dəfə biz ötən ilin noyabrında İstanbulda ATƏT-in zirvə toplantısında görüşdüyümüz zaman çox ətraflı söhbət etdik. O, Ermənistan prezidenti Robert Koçaryanla mənim görüşümü çox yüksək qiymətləndirdi. Təbiidir ki, Ermənistan prezidenti ilə apardığım danışıqların məzmunu və razılıqlarımız haqqında onda müəyyən məlumat var idi. Cənab Jak Şirak bunları çox dəstəklədi və xüsusən mənim bu sahədə apardığım siyasətə çox yüksək qiymət verdi. O inanırdı ki, biz sülhə nail olacağıq. Çox cəsarətlə mənə dedi ki, siz bu yolu tutmusunuz, bu yolla ki, getməlisiniz, əgər sülhə nail olsanız, mən təkcə Fransanın yox, bütün Avropanın imkanlarını səfərbər edəcəyəm ki, bu sülh yaranma işinə kömək etsinlər. Mən çalışacağam ki, xüsusən sülh yaranandan sonra bütün maliyyə mərkəzləri ölkənizin bərpası işində sizə kömək göstərsinlər.

Təəssüflər olsun ki, oktyabrın sonunda Ermənistanda baş vermiş terror hadisəsi və bundan sonra Ermənistanda yaranmış vəziyyət bizim birbaşa danışıqlarımızın davam etməsinə imkan vermədi. Ancaq əminəm ki, biz müəyyən vaxtdan sonra bu danışıqları davam etdirəcəyik. İnanıram ki, prezident Jak Şirak bu məsələlərin həll olunmasında çox fəal iştirak edəcək, həm Fransanın, həm də Avropa Birliyinin imkanlarından istifadə edərək bu işlərin həyata keçirilməsinə kömək göstərəcəkdir.

Siz son illər Azərbaycanda əldə olunmuş nailiyyətləri – həm iqtisadi inkişaf, həm daxili, həm xarici sabitliyin təmin olunması, həm də demokratiyanın inkişaf etməsi, dövlət quruculuğu sahəsində qazandığımız uğurları yüksək qiymətləndirdiniz. Mən, düzü, bundan çox ruhlanıram və sizə çox təşəkkür edirəm.

Mənim şəxsi fəaliyyətimə də çox yüksək qiymət verdiniz. Hətta səhhətimlə maraqlanıb onun yaxşı olduğunu bildirdiniz. Mən buna görə də sizə təşəkkür edirəm. Səhhətim çox yaxşıdır. Dostum Süleyman Dəmirəl mənimlə vidalaşarkən dedi ki, həkimlərin sözü mənə lazım deyil, son üç gündə sən çox böyük həkimlərin testini keçdin və bu testlər göstərdi ki, səhhətin həddindən artıq yaxşıdır.

Cənab Bomel, mən sizə baxıram, - necə sağlamsınız, necə gözəl hafizəniz var. Sizin, yoxsa mənim yaşlı olmağımın o qədər də əhəmiyyəti yoxdur. Amma hesab edirəm ki, siz məndən cavansınız. Dünən axşam keçirilən rəsmi qəbulda bizim milli rəqslərimizə siz çox maraqla baxarkən mən bunu bir daha təsdiq etdim.

**J a k  B o m e l:** Mən həmin rəqsləri və rəqs edənləri çox yüksək qiymətləndirirəm.

**H e y d ə r  Ə l i y e v:** Bəli, mən də yüksək qiymətləndirirəm.

**J a k  B o m e l:** Bilirsiniz, mən onu da demək istəyirəm ki, qafqazlıların gözəlliyi də çox qədim bir ənənədir.

**H e y d ə r  Ə l i y e v:** Amma gözəlliyi də hər adam qiymətləndirə bilmir. Gözəlliyi qiymətləndirmək üçün də xüsusi keyfiyyətlər lazımdır. Bir sözlə, siz də, mən də sağlamıq. Biz hələ bundan sonra da sizinlə bərabər çox işlər görəcəyik.

Çox məmnunam ki, siz bildirdiniz ki, mən hələ uzun müddət Azərbaycana lazımam. Mən də hesab edirəm ki, lazımam. Çünki çoxlu planlarım var, gərək onları həyata keçirəm. Sizin dediyiniz kimi, mən Azərbaycanı bundan da güclü, qüvvətli və yüksək iqtisadiyyata, sosial həyata malik olan bir dövlətə çevirməliyəm. Tarix bu missiyanı mənim üzərimə qoyubdur. Mən də bunu axıradək yerinə yetirməliyəm.

Siz general Şarl de Qollun siyasəti haqqında hər dəfə danışırsınız, bu dəfə də bu barədə söhbət açdınız. Təbiidir ki, general Şarl de Qoll dünyanın ən böyük şəxsiyyətlərindən biridir. Həm İkinci dünya müharibəsi zamanı, həm də ondan sonra Şarl de Qollun gördüyü işlər əsrlər boyu yaşayacaqdır və öz qiymətini itirməyəcəkdir. General Şarl de Qoll mənim üçün bir çox baxımdan həm idealdır, həm də örnəkdir.

Sizin dediyiniz tarazlı siyasəti, Azərbaycanın müstəqilliyini qorumaq siyasətini aparmaq mənim bugünkü siyasətimin əsasını təşkil edir. Təbiidir ki, bu siyasət, Avropa ilə əlaqələrimizi daha da genişləndirmək, əməkdaşlıq etmək mənim xarici siyasətimin əsas istiqamətlərindən biridir. Bizim Avropa Şurasına daxil olmağımız da bunun üçün böyük imkanlar yaradacaqdır.

Mən bilavasitə Fransa ilə əlaqələrimizin inkişaf etməsi üçün çox çalışıram. Amma xüsusən, iqtisadi əlaqələrimizin genişləndirilməsi sahəsində hələ ki, istədiyimizə nail ola bilməmişəm. Doğrudur, Azərbaycanın neft sektorunda Fransanın «Total», «Elf akiten» şirkətləri çox böyük yer tutublar.

Xatirimdədir, 1993-cü ilin dekabr ayında mən prezident Fransua Mitteranın dəvəti ilə Parisə ilk dəfə rəsmi səfərə getmişdim. Onunla görüşərkən mənə dedi ki, əgər Fransa ilə iqtisadi əlaqələr yaratmaq istəyirsənsə, birinci növbədə «Elf akiten»lə əlaqə qur. Onun bu məsləhətlərinə riayət edərək mən «Elf akiten»i Azərbaycana gətirdim. Həmin şirkət indi Azərbaycanda çox böyük qaz ehtiyatları olan məşhur «Şahdəniz» yatağının birgə işlənilməsi barədə imzalanmış müqavilədə özünəməxsus pay almışdır.

Sonra biz «Total» şirkətini buraya gətirdik. Mən sizə onu da deyim ki, Amerikanın «Şevron» şirkəti ilə «Total» «Abşeron» yatağında çox böyük işlər görürlər. Həmin yatağın çox böyük perspektivləri vardır. «Şevron» şirkətinin prezidenti mənə deyibdir ki, görərsiniz, biz «Şahdəniz» yatağından bir neçə dəfə çox qaz aşkar edib sizə təhvil verəcəyik. Burada müqavilə payının böyük bir hissəsi «Total»a məxsusdur.

Ancaq təbiidir ki, qeyri-neft sektorunda da bizim əməkdaşlığımız genişlənməlidir. Bu əməkdaşlıq var. Fransanın bir sıra şirkətləri Azərbaycanda fəaliyyət göstərirlər. Ancaq mən bunları kafi hesab etmirəm. Mən bütün tədbirləri görəcəyəm ki, bizim iqtisadi əlaqələrimiz daha da genişlənsin.

Fransa Avropada çox mühüm rol oynayır. Fransa Azərbaycanın dostudur, ona görə də biz bu ölkə ilə bütün sahələrdə əlaqələrimizi genişləndirəcəyik.

Siz dediniz ki, biz may ayının 3-dək təbliğati işləri gücləndirməliyik. Onu da bildirdiniz ki, ən böyük təbliğatçı siz özünüzsünüz. Bu fəaliyyətinizə görə sizə təşəkkür edirəm. Ancaq məsləhətinizi nəzərə alaraq, cənab Murtuz Ələsgərov və mənim aparatımın rəhbəri əlavə təkliflər verməlidirlər. Çünki mayın 3-nə çox az vaxt qalır. Biz hansısa yeni tədbirlər görməliyik.

Cənab Jak Bomel, sizinlə dostluğumuz Azərbaycana çox böyük faydalar gətirir. Mən bu dostluq münasibətinə görə sizə bir daha təşəkkür edirəm. Bilin ki, biz bunu qiymətləndiririk. Xalqımız dostluqda çox etibarlıdır. Prezident Heydər Əliyev isə daha da çox etibarlıdır.

**J a k B o m e l:** Cənab prezident, mən bunu bilirəm, hətta hiss edirəm. Mən onu bildirmək istəyirəm ki, bu sədaqət hissləri bizim ölkələrimiz arasındakı dostluqda, necə deyərlər, sement rolunu oynamalıdır və bu, ən vacib amillərdən biri olmalıdır.

Cənab prezident, yeri gəlmişkən, mən Sizin ailəniz haqqında bir neçə kəlmə demək istəyirəm. Mən dünən Sizin ailənin bir neçə üzvünü gördüm. Sizin oğlunuzu, gəlininizi və nəvələrinizi gördüm. Mən bununla bağlı Sizi həm də bir baba kimi təbrik edirəm. Mən özüm də babayam, ona görə də Sizi bir baba kimi təbrik edirəm.

**H e y d ə r Ə l i y e v:** Sağ olun, çox təşəkkür edirəm. Mən bununla çox məmnunam. Siz də, mən də babayam. Babalar adətən həm uşaqlarını, həm də nəvələrini çox sevərlər. Görünür, burada da bizim xasiyyətlərimiz uyğundur, bir-birinə bənzərdir. Mənim oğluma, nəvələrimə diqqət yetirdiyinizə görə təşəkkür edirəm.

Dostum cənab Jak Şiraka mənim salamımı, ən dərin hörmətimi və ən xoş arzularımı çatdırın. Sizə isə möhkəm cansağlığı və uğurlu fəaliyyət arzulayıram. Dünən də dedim ki, sizin əlinizdə güc çoxdur. Həmin güc daim sizinlə olsun.

**J a k B o m e l:** Cənab prezident, bu xoş sözlər üçün mən Sizə minnətdarlığımı bildirirəm. Onu da demək istəyirəm ki, noyabr ayında seçkilər zamanı yəqin ki, yenidən Azərbaycana gələcəyəm.

**H e y d ə r Ə l i y e v:** Mütləq gəlin. Sizsiz seçkilər keçməz. Sağ olun.

## TÜRKİYƏNİN «MƏRMƏRƏ QRUPU» VƏQFİNİN SƏDRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*11 aprel 2000-ci il*

**H e y d ə r Ə l i y e v:** Mən sizi salamlayıram. Bir daha təşəkkür edirəm ki, siz gəldiniz. Hamımızın ulu babası Dədə Qorqudun yubileyində iştirak etdiniz. Mən gördüm ki, doğrudan daxildən gələn qərarla iştirak etdiniz. Yenidən Azərbaycandasınız, Azərbaycanın bu günü ilə tanış olursunuz. Mən bundan çox məmnunam. Bir daha təşəkkür edirəm.

**A k k a n S u v e r:** Sayın cümhur başkanı, Siz bizim vəqfin fəxri sədri seçilmisiniz. Mən hər zaman görürəm ki, çiynimdə iki böyük yük var: biri bizim cümhur başkanımız Süleyman Dəmirəlin qarşısında, digəri isə Azərbaycanın böyük övladı, zati-aliləri Heydər Əliyevin qarşısında məsuliyyətimdir. Bunu nəzərə alaraq əgər izn verirsinizsə, fəaliyyətimiz barədə zati-alinizə məlumat vermək istəyirəm.

Biz ötən il bir Baş nazirin, doqquz nazirin və 17 ölkənin nümayəndələrinin iştirakı ilə 2-ci Avrasiya iqtisadi zirvəsini böyük uğurla keçirdik. Azərbaycan bu toplantıya 20 nəfərlik bir heyətlə qatıldı. Nümayəndə heyətinə o zaman ticarət naziri işləyən cənab Fərhad Əliyev və respublika Prezidentinin İcra Aparatından hörmətli Əli Həsənov başçılıq edirdilər.

Siz bu toplantıya çox gözəl bir təbrik göndərdiniz. İqtisadi zirvəyə həsr etdiyimiz kitabda həmin təbriki və Sizin şəklinizi bizim cümhur başkanının təbriki ilə birlikdə dərc etmişik. İzn versəniz, mən əvvəlcə bu kitabı zati-alinizə təqdim etmək istərdim.

**H e y d ə r Ə l i y e v:** Sağ olun. Çox gözəl kitabdır.

**A k k a n S u v e r:** Neft şirkətindən də İlham bəyin tapşırığı ilə Valeh Ələsgərov gəlmişdi. Bizim Böyük Millət Məclisinin sədri Yıldırım Akbulutun, enerji və təbii qaynaqlar naziri cümhur Ərsümərin də iştirak etdikləri toplantıda Valeh Ələsgərov gözəl çıxış etdi.

Osmanlı imperatorluğunun 700 illiyi ilə bağlı tədbirimizi biz zəlzələdən əvvəl keçirdik. Həmin toplantıya Yunanıstandan, ABŞ-dan, İsraildən, Fransadan və Vatikandan tarixçilər çağırdıq. Türkiyənin qocaman, 97 yaşlı tarixçisi Camal Qutay və professor İldar Ortaylı da dəvət olunmuşdular. Camal Qutay Atatürkü görmüş bir insandır. Toplantıda Türkiyə ermənilərinin patriarxı Mutafyan da vardı. Həmin toplantıda bir qərar qəbul etdik, günümüzün ən tolerant şəxsiyyəti kimi zati-aliləri Heydər Əliyevi seçdik. Mutafyan da heç bir söz demədi, ona da imza etdirdik. Bu, 1999-cu il iyulun 10-da olmuşdur. Həmin qərarı zati-alinizə təqdim edəcəyəm.

Bu qış bir iftar məclisi təşkil etdik. Oraya bir çox dinlərin rəhbər xadimləri dəvət olunmuşdular. Onlara da iftar açdırdıq.

Sizin də şərəfləndirdiyiniz ATƏT-in zirvə görüşündən bir gün əvvəl toplantı keçirilmişdi. Orada çıxış edərək 16 yaşından aşağı uşaqların zorla əsgərliyə çağırılmasını pislədim.

«Mərmərə qrupu»nu təmsil edən xanımlarımız yanvar ayında Sürixdə dünya qadınlar konfransında iştirak etmişlər. Orada bizim cümhur başkanımızla bərabər, sizin adınızı da vurğulayıblar.

Sizə hörmət və sayqı ilə xəbər vermək istəyirəm ki, ötən həftə BMT-nin iqtisadi və sosial komissiyası «Mərmərə qrupu» Vəqfini üzvlüyə qəbul etmişdir. Bu barədə rəsmi xəbəri alanda sizə məlumat verəcəyik.

Azərbaycandakı 20 Yanvar faciəsi və Xocalı soyqırımı ilə əlaqədar konfrans keçirdik. Konfransa İstanbul Universitetindən alimlər, mətbuat nümayəndələri gəlmişdilər.

Anadolunun şərqindən birinci sinifdə oxuyan uşaqların bir qrupunu hərbçilərimiz tətil günlərində İstanbula gətirmişdilər. Biz də onları bir günlüyə götürüb yedirtdik, paltar verdik, söhbət etdik. Söhbətdə bizim generallarımız da vardı. Mən onlara bildirdim ki, bizim vəqfin iki başkanı var – sayın Süleyman Dəmirəl və zati-aliləri Heydər Əliyev.

Dünən sizin gənclər və idman naziri Əbülfəs Qarayevlə görüşərkən mənə təklif etdi ki, türk olimpiadası keçirək. Mən bunu bizim idman işlərinə baxan dövlət nazirimizə bildirəcəyəm.

**H e y d ə r Ə l i y e v:** Yaxşı olar.

**A k k a n S u v e r:** Bu gün mən cənab İlham Əliyevi ziyarət etdim. Əgər izn versəniz, iyun ayında onu «Mərmərə qrupu» Vəqfinə qonaq dəvət etmək istəyirik. Gəlsin və bizə neft haqqında, Bakı – Ceyhan haqqında məlumat versin. «Mərmərə qrupu» Vəqfində «Heydər Əliyev» salonu yaratmışıq. İstərdik ki, İlham bəy həmin salonun açılış lentini kəssin.

Bu gün Bədən Tərbiyəsi və İdman Akademiyasında çıxış edib «Mərmərə qrupu» Vəqfi haqqında məlumat verdim. Sizin barənizdə, bizə göstərdiyiniz yüksək diqqət barədə bacardığım qədər danışdım.

Sayın cümhur başkanım, səmimi sözlərimdir, siz türklərin qədirbilənlik, insansevərlik, dostluq, qardaşlıq keyfiyyətlərini bazar günü misilsiz şəkildə göstərdiniz. Mən ağladım. Bu gün səhər bizim böyük elçimizin yanında idim, dedi ki, mən ağladım. Çox narahat oldum ki, Süleyman bəy də ağlayacaq.

Siz misilsiz nitq söylədiniz. Bizi çox məmnun etdiniz. Zati-alinizdən tutmuş Azərbaycanın ən kiçik övladına qədər hamınıza minnətdaram. Dostluğu çox gözəl şəkildə göstərdiniz. İnanın, biz haqlıyıq ki, Sizə «başkanımız» dedik. Bir müddət sonra tarix həqiqi başkanımızı niyə seçdiyimizi bizə göstərdi. Sizə minnətdarıq. İzn versəniz, builki kitabımızı da Sizə təqdim edərdim. Burada da zati-alinizin «Mərmərə qrupu» haqqında dediyi sözlər, fotoşəkilləriniz var.

Türkiyədə pensiyaçı generalların bir dərnəyi var – Mustafa Kamal dərnəyi. 1947-ci ildə yaradılıbdır. Dərnək zati-alinizə bir məktub və Atatürkün qeyri-adi şəkli olan hədiyyə göndəribdir. Lütfən qəbul edin. Mən 1974-cü ildə «Köylü baş bakan Dəmirəl» adlı bir kitab yazmışdım. Onu Sizə təqdim etmək istəyirəm. Bundan əlavə, 2-ci Avrasiya iqtisadi zirvəsi adından bir çini vaza təqdim etmək istəyirəm. O, Sultan Əbdülhəmid dövründən bəri işləyən zavodda hazırlanmışdır.

**H e y d ə r Ə l i y e v:** Çox gözəl. Süleyman Dəmirəl 1968-ci ildə, Baş nazir olanda Sovetlər Birliyinə, Azərbaycana da gəlmişdi. O vaxt biz burada onunla dost olduq.

Əziz dostum, siz «Mərmərə qrupu»nun son vaxtlar gördüyü işlər haqqında mənə çox geniş məlumatlar verdiniz. Bunlar həqiqətən müstəsna əhəmiyyətə malik olan işlərdir.

Sizin vəqflə tanış olduğum ilk gündən mən hiss etdim ki, təşkilatınız nə qədər mötəbər, geniş fəaliyyət göstərən bir təşkilatdır, faydalı işlər görən təşkilatdır. Yəni gördüyünüz hər bir işin faydası var. Siz Türkiyə Cümhuriyyəti üçün, Türkiyə ilə digər ölkələr arasında dostluq əlaqələrinin yaranması üçün, xüsusən Türkiyə – Azərbaycan əlaqələrinin inkişafı üçün çox iş görürsünüz. Ona görə çox məmnunam ki, vaxtilə məni İstanbulda «Mərmərə qrupu»nuza dəvət etdiniz. Mən o günü xatırlayıram. Məni öz sıralarınıza aldınız və seçdiniz. Son dəfə keçirdiyiniz tədbirdə, təbiidir ki, imkanım olmadı iştirak edim. Ancaq mən məktub göndərdim, mənim məsul işçim Əli Həsənov da gəlmişdi.

Məmnunam ki, siz artıq ikinci kitabı da buraxmısınız. Çox sağ olun. Hesab edirəm ki, indiyə qədər sürətlə inkişaf edən əlaqələrimiz bundan sonra səmimiliklə, etibarlılıqla davam edəcəkdir. Mən «Mərmərə qrupu» Vəqfinin bütün üzvlərinə təşəkkür edirəm, hörmət və ehtiramımı hamısına yetirin. Hesab edirəm ki, siz Türkiyə – Azərbaycan dostluğunun, qardaşlığının daha da möhkəm olması üçün çox işlər görürsünüz. Bu, çox vacibdir.

Təbiidir ki, Azərbaycan üçün Türkiyə dost, qardaş ölkədir. Ancaq dövlətlərarası, xalqlararası, millətlərarası əlaqələr elədir ki, bunu gərək daim və daim inkişaf etdirəsən. Əgər az müddət fasilə versən, nə isə unudula bilər. Yəni bu, elə bir işdir ki, daim inkişafda olmalıdır. Təbiidir ki, bu da bir yolla, iki yolla olmur, çox yollar var. Məsələn, Türkiyə Cümhuriyyətinin prezidenti, mənim əziz dostum, qardaşım Süleyman Dəmirəllə şəxsi əlaqələrim, - bir var ki, rəsmi olaraq iki prezidentin əlaqəsi var, bir də var ki, şəxsi dostluq əlaqələri, - bax, bu şəxsi dostluq əlaqələri prezidentlər kimi bizim əlaqələrimizin çox səmimi olmasına, eyni zamanda cümhuriyyətlərimizin, xalqlarımızın daha da səmimi olmasına çox böyük imkanlar yaradır.

Siz həm mənim dostum, çox əziz dostum Süleyman Dəmirəli çox sevirsiniz, - o sizin vəqfin yaradıcısı, başçısıdır, - sonra da məni özümüzə yaxınlaşdırmısınız, öz sıralarınıza almısınız. Mən çox məmnunam. Verdiyiniz kitablara görə təşəkkür edirəm. Vaza doğrudan da nadir bir şeydir. Çox təşəkkür edirəm ki, zəhmət çəkib bunu mənim üçün yaratmısınız. Ancaq mənim üçün hamısından əziz, təbiidir ki, Atatürklə bağlı hədiyyədir. Bunun adını da bilmirəm. Bir var ki, heykəl deyirlər, barelyef deyirlər, amma bunu içəridən ediblər. Xüsusi ustalıqla ediblər. Doğrudan da, elə bil, hər tərəfdən sənə baxır. Çox orijinaldır. Birincisi, ona görə ki, hamımızın ən böyük atamız, ən böyük insan saydığımız şəxsiyyətin, türk dünyasının öndəri olan Mustafa Kamal Atatürkün surətidir. İkincisi də, onu yaradanlar bu işi çox böyük sevgi-məhəbbətlə görüblər və bu cür orijinal bir formada hazırlayıblar. Bu, asan bir iş deyildir, bunu hər adam edə bilməz. Deyirsən ki, bunu pensiyaçı generallar ediblər – bu, daha da mühümdür.

**A k k a n S u v e r:** Bütün hərbi qışlalarda bu var. Bizim cümhur başkanının sarayında da bunu görə biləcəksiniz, yenicə verilmişdir. Buraya ziyarətim ərəfəsində generallardan belə bir şey istəmək ağlıma gəlməmişdi. Onlar özləri məndən soruşdular ki, aprelin ilk həftəsi keçiriləcək toplantıya gedəcəksənmi? Dedim ki, Azərbaycana «Dədə Qorqud»un 1300 illiyinə gedəcəyəm. Dedilər ki, sayın cümhur başkanını görmək şansın varmı? Dedim ki, həm var, həm yox. İş olar, tədbirləri olar, görə bilmərəm. Amma çalışacağam. Dedilər ki, sənə bir əmanət verəcəyik, cümhur başkanına verdiyimiz hədiyyədən birini apararsanmı? Dedim ki, şərəflə götürərəm.

**H e y d ə r Ə l i y e v:** Çox sağ olun. Mən bir daha qeyd edirəm ki, siz Türkiyə – Azərbaycan dostluğu və qardaşlığının inkişafında, möhkəmlənməsində çox böyük xidmətlər göstərirsiniz. Ona görə bir daha təşəkkür edirəm. Mən bu dostluğa sadiqəm və sadiq olacağam, sizin mənə göstərdiyiniz bu hörmət-ehtirama görə həmişə «Mərmərə qrupu» ilə bir yerdəyəm.

**A k k a n S u v e r:** Allah qismət edərsə, bu ilin oktyabrında 3-cü Avrasiya iqtisadi zirvəsini keçirəcəyik. Oraya yenə yüksək səviyyədə bir heyət göndərilməsinə izn versəniz, bizi bəri başdan sevindirərsiniz. Keçən toplantıda Sizin hörmətli böyük elçiniz əvvəldən axıra qədər bizimlə bir yerdə oldu.

Bir məsələ barədə də təşəkkürümü bildirirəm. Siz məni ilk dəfə tanıdığınız vaxt, toplantıya getməzdən əvvəl, «Homo» otelində Vaqif bəyi gördünüz. Dediniz ki, haradan tapdınız? Dedim ki, əgər izn versəniz, bizim Avrasiya katibliyinə Vaqif bəy başçılıq etsin. Sizə minnətdaram ki, hörmətli və mükəmməl bir yoldaş qazandıq.

**H e y d ə r Ə l i y e v:** Doğrudur, Azərbaycanın çox dəyərli adamlarından biridir.

**A k k a n S u v e r:** Sayın cümhur başkanım, mənim boksla da bir az əlaqəm var, doqquz ildir Türkiyə Boks Federasiyasının vitse-prezidentiyəm. Sizin İdman Akademiyasının rektoru da Azərbaycanın Boks Federasiyasının rəhbəridir. Bu gün oradakı çıxışımı da o təşkil etdi. Dünyanın hər yerində idmançılara bir hədiyyə verirlər, adətdir. Mənim 58 yaşım var, çox hədiyyələr almışam. Amma bugünkü kimi hədiyyəni həyatım boyu almamışdım. Mənə üzərində zati-alinizin portreti olan xalça verdilər. Mən bunu vəqfimizin ən gözəl yerində asacağam. Ağacan bəy onu mənə hədiyyə etdi.

Sizinlə bugünkü görüşümdən çox təsirləndim. Siz hər zaman bizi sevindirirsiniz. Mən də deyirəm ki, cənabi Allah da Azərbaycanı və onun böyük övladı Heydər Əliyevi hər zaman sevindirsin.

**H e y d ə r Ə l i y e v:** Çox sağ olun. Bilirsiniz ki, İlham Əliyev də Azərbaycan Milli Olimpiya Komitəsinin prezidentidir. Boksçulara, başqa idmançılara da çox yardımlar edir.

**A k k a n S u v e r:** Bizdə yeni cümhur başkanı seçildikdən sonra İlham bəyin gəlməsini gözləyirik.

**H e y d ə r Ə l i y e v:** Mən bunu mütləq təmin edəcəyəm. Sağ olun.

## BAKI HAVA LİMANI KOMPLEKSİNİN İŞİ İLƏ ƏLAQƏDAR KEÇİRİLƏN MÜŞAVİRƏDƏ ÇIXIŞ

*Prezident sarayı*

*13 aprel 2000-ci il*

Bugünkü müşavirə Azərbaycanın hava limanı, aeroport kompleksinin işi ilə əlaqədar bizə daxil olan siqnallarla bağlıdır. Mən bu müşavirəni çağırmağı çox vacib bilmişəm. Çünki bu siqnallar bizi çox narahat edir. Təbiidir ki, bunu sübut etməyə ehtiyac yoxdur.

İndiki zamanda hər bir ölkənin, o cümlədən müstəqil Azərbaycanın hava limanı, aeroportu onun əsas giriş qapısıdır, xüsusən uzaq və yaxın xarici ölkələrlə əlaqələr saxlamaq, müxtəlif əlaqələr - həm işgüzar, həm insani, həm də başqa əlaqələr saxlamaq üçündür. Son illər biz bunun üçün böyük vəsait istifadə edərək yeni aeroport kompleksi tikdik. Yəni bunun tikintisi hələ 1981-ci ildə başlanmışdı, ancaq sonra dayandırılmışdı. Biz ayrı-ayrı banklardan kreditlər aldıq, beynəlxalq hava limanının binasını tikib istifadəyə verdik, təntənəli surətdə açılışını keçirdik. Biz özümüz də, təkcə biz yox, başqa ölkələrdən gələnlər də onunla tanış olarkən dedilər ki, bu, həqiqətən beynəlxalq standartlara, müasir tələblərə cavab verən aeroport kompleksidir.

Mən bu kompleksin tikintisi başa çatmamışdan əvvəl, hələ açılış olmamışdan qabaq gedib onunla bir daha tanış olarkən həm bizim «Azərbaycan Hava Yolları» Dövlət Konserni AZAL-ın rəhbərliyinə, həm də orada fəaliyyət göstərəcək bütün nazirliklərə və təşkilatlara dedim ki, sizin birinci borcunuz işlərinizi beynəlxalq standartlar səviyyəsində qurmaqdan ibarətdir, bu gözəl binanı, buradakı gözəl avadanlığı, şəraiti daim bu səviyyədə saxlamaq və bəlkə də artırmaqdan ibarətdir. Mən bunları nə üçün dedim? Çünki təəssüflər olsun ki, biz əvvəllər də, indi də rastlaşırıq - dəyərli bir şey yaranır, amma onun istismarı elə təşkil olunur ki, o, get-gedə öz əvvəlki keyfiyyətini itirir və xeyir gətirmək əvəzinə zərər gətirir.

Mən bu sözləri deyərkən keçmiş təcrübəyə istinad edirdim. Çünki bilirdim ki, bizdə belə hallar olubdur. Mən bu sözləri havadan götürüb demirdim. Hamı mənə söz verdi ki, bəli, biz burada çox yaxşı iş təşkil edəcəyik. Amma indi gələn siqnallar onu göstərir ki, orada iş əvvəldən də yaxşı təşkil olunmayıbdır, ötən aylarda, ötən dövrdə də işlər get-gedə yaxşılaşmaq əvəzinə pisləşibdir.

Mən Baş nazir Artur Rasizadəyə tapşırdım ki, gələn bütün bu siqnalları araşdırsın. O, siqnalları araşdırdı, sonra mənə məlumat verdi. Doğrusu, bu məlumatlar məni dəhşətə gətirdi. Burada bizim bir neçə dövlət orqanlarının fəaliyyətində olan ciddi qüsurlar yaratdığımız gözəl işi nəinki ləkələyir, eyni zamanda respublikamızın adını ləkələyir. Xaricdən müxtəlif məqsədlər üçün gələn qonaqlar - onların əksəriyyəti buraya iş görmək üçün gəlir - çox çətinliklərlə, bəzən də qanunsuz hərəkətlərlə rastlaşırlar. Öz vətəndaşlarımız, yaxud xaricdən buraya sadəcə öz şəxsi məqsədləri üçün gələn vətəndaşlar bəlkə bundan da pis vəziyyətlə üzləşirlər.

Yaranmış vəziyyət məni çox narahat edir. Buna görə də mən bu müşavirənin təcili olaraq çağırılmasını lazım bildim. Doğrudur, hər kəsin öz işi ilə məşğul olması prinsipi təmin edilsə, ölkənin prezidentinin belə işlərlə məşğul olmasına ehtiyac yoxdur və ümumiyyətlə, məşğul olmamalıdır. Ancaq nə edə bilərəm ki, bizim bu məsələlərə məsul olan təşkilatlar, onların başçıları, hökumət, dövlət adamları nəinki məsuliyyətsizlik göstərirlər, hətta özləri, yəni onların işçiləri, təmsil olunduqları təşkilatlar müxtəlif qanunsuz işlər görürlər və rəhbərlər də buna göz yumurlar, bəlkə də bəzən onları dəstəkləyirlər.

Buna görə də mən bu nöqsanların hamısının bu gün burada açılıb deyilməsini tələb edirəm. Təbiidir, bundan sonra ciddi, çox təcili tədbirlər görülməlidir ki, həmin nöqsanlar aradan qaldırılsın. Bu nöqsanlar, indi orada yaranmış vəziyyət bizim işimizə hər tərəfdən zərər verir.

Bununla yanaşı, mən iqtisadi məsələlərlə məşğul olan nazirləri, təşkilat rəhbərlərini bu gün buraya dəvət etmişəm. Ona görə ki, bu məsələlər bir-biri ilə bağlıdır. Mən bu məsələni ayrıca müzakirə edəcəyəm. Azərbaycanda fəaliyyət göstərən xarici şirkətlərin nümayəndələri ilə, investorlarla görüşəcəyəm, Azərbaycanın öz iş adamları, sahibkarları ilə görüşəcəyəm. İş görmək üçün onların qarşısına çıxan çətinliklər haqqında bizdə həddindən çox məlumatlar vardır. Mən onlarla görüşüb daha da geniş məlumat alandan sonra bu sahələrdə işləyən bizim bəzi nazirliklər, təşkilatlar haqqında çox ciddi tədbirlər görəcəyəm.

Bu nə deməkdir? Bu o deməkdir ki, Azərbaycanda elə aeroportdan başlayaraq, ölkəmizin müxtəlif nazirliklərində, təşkilatlarında, müəssisələrində buraya investisiya qoymaq, iş görmək üçün xaricdən gələn şəxslərə, şirkətlərə müxtəlif səbəblərdən maneçilik törədirlər, bəzən onların işlərini pozurlar. Təbiidir ki, bu da Azərbaycanın iqtisadiyyatına böyük zərbələr vurur, bizim apardığımız siyasətə, bazar iqtisadiyyatı prinsiplərinə, xarici investisiyanın ölkəmizə cəlb olunması prinsiplərinə - hansılar ki, biz öz iqtisadiyyatımızın inkişafı üçün onları əsas götürmüşük - zərbələr vurur. Ancaq mən bu məsələni ayrıca müzakirə edəcəyəm.

Bizim bu sahədə olan nazirliklərin, təşkilatların rəhbərlərini mən buraya dəvət etmişəm, çünki bir-biri ilə bağlıdırlar. Amma onlar bu gün özləri üçün nəticə çıxarsınlar. Mən bir neçə gündən sonra bu məsələ ilə ayrıca məşğul olacağam. Çünki bu, daha da geniş məsələdir.

Mənə verilən məlumatlardan, təbiidir, aşkar olur ki, bizim hava limanında, aeroportda yaranmış vəziyyətdə birinci növbədə «Azərbaycan Hava Yolları» Dövlət Konserni günahkardır. Amma təkcə o, günahkar deyildir. Orada fəaliyyət göstərən bir neçə nazirliklərimizin nümayəndələri də vardır. Bu, bizim sərhəd qoşunlarıdır, Dövlət Gömrük Komitəsidir, Daxili İşlər Nazirliyidir, prokurorluqdur - hüquq-mühafizə orqanlarıdır.

Mən sonra fikrimi deyəcəyəm. Amma dəhşətə gəlirəm ki, bütövlükdə AZAL konserninin günahı hamısından çoxdur. Bir çox təşkilatlar nə üçün orada belə yaramaz işlər görürlər və respublikanın ümumiyyətlə, işinə xeyir gətirmək əvəzinə, zərər verirlər?

Ona görə də mən təklif edirəm ki, Cahangir Əsgərov məlumat versin. Mən səndən tələb edirəm ki, düzgün, obyektiv məlumat ver. Öz günahlarınız, səhvləriniz haqqında da, gəlib orada öz funksiyalarını ifa edən təşkilatların buraxdıqları nəinki səhvlər, sui-istifadə, qanun pozuntuları barədə də ətraflı məlumat ver.

**C a h a n g i r   Ə s g ə r o v** (*Azərbaycan Hava Yolları» Dövlət Konserninin baş direktoru*): Hörmətli cənab prezident!

İcazə verin, mən rusca danışım, bəzi məsələlər, terminlər var ki, bunları Azərbaycan dilində demək mənə çətindir.

**H e y d ə r   Ə l i y e v:** Yaxşı, danış rusca. Mən bilmirəm, siz nə vaxt öz dilinizi öyrənəcəksiniz, bunun üçün neçə il lazımdır? Biz səkkiz ildir müstəqil dövlətik. Yaxşı, danışın.

**C a h a n g i r   Ə s g ə r o v:** Hörmətli cənab prezident!

Sizin diqqətiniz və bilavasitə iştirakınız sayəsində son üç ildə mülki aviasiyada köklü dəyişikliklər baş vermişdir: Bakı hava limanında aerovağzal kompleksi istismara verilmiş, burada sərnişinlərə xidmət üçün lazımi şərait yaradılmış, sərnişinlərin kompüter vasitəsilə qeydiyyatı sistemi tətbiq edilmiş, xarici aviaşirkətlərə ofis otaqları ayrılmış və...

**H e y d ə r   Ə l i y e v:** Tələsmə, yavaş danış ki, başa düşə bilək. Sən burada prezidentin qarşısında hesabat verirsən, amma sözləri elə bil avtomatdan atırsan və aydın deyil ki, nə danışırsan...

**C a h a n g i r   Ə s g ə r o v:** Cənab prezident, bir az həyəcanlıyam, ona görə.

**H e y d ə r   Ə l i y e v:** Bax, bu onu göstərir ki, sən nə danışdığını dərk etmirsən. Çünki orada yazdıqlarını sənə ən yüksək sürətlə oxumaq lazımdır. Görünür, rəhbər işçi kimi hələ öyrəşməmişsən. Buyur.

**C a h a n g i r   Ə s g ə r o v:** Havada hərəkətin idarə edilməsi sistemi yenidən qurulmuş və modernləşdirilmişdir ki, bu da Azərbaycan ərazisi üzərindən uçan hava gəmilərinin miqdarını artırmağa imkan vermişdir. Bakı hava limanına təxirəsalınmaz yardım layihəsi başa çatdırılmış, qalxma-enmə zolaqları modernləşdirilmiş, «BOİNQ-747» təyyarəsi üçün dayanacaq tikilmiş, təyyarənin uçuş xəttinə çıxması yolu istifadəyə verilmiş, qalxma-enmə zolaqlarının işıq-siqnal sistemi modernləşdirilmişdir.

Bu layihəyə əsasən xarici aviaşirkətlərin beynəlxalq standartlara uyğun olan yeni, müasir meteoroloji təminatı istifadəyə verilmişdir. Avtomatlaşdırılmış meteostansiya sistemi tətbiq edilmişdir. Bu sistem bütün dünyaya, o cümlədən ərazimizin üzərindən uçan təyyarələrə günün 24 saatı ərzində avtomatik rejimdə informasiya çatdırmağa imkan verir.

Bakı hava limanının bütün dünya limanları ilə sabit əlaqəsini təmin etməyə imkan yaradan yeni ATS işə salınmışdır. Sərnişinlərə və təyyarələrə xidməti yaxşılaşdırmaq üçün yeni perron avtobusları, sərnişin pilləkənləri, yük arabacıqları, yükvurma-yükboşaltma işlərini mexanikləşdirmə vasitələri, təyyarələrin yedəyə alınması üçün vasitələr alınmışdır.

Uçuşların təhlükəsizlik səviyyəsini və aviasiya yanacağının keyfiyyətini təmin etmək üçün yaxın günlərdə Bakı hava limanında yeni yanacaqdoldurma kompleksi açılacaqdır. Bu kompleks aviasiya yanacağını beynəlxalq standartlar üzrə hazırlamaq üçün aparat və vasitələrlə təchiz edilmişdir.

«Azərbaycan Hava Yolları» Dövlət Konserninin strukturu beynəlxalq tələblərə müvafiq surətdə yenidən qurulmuş və müstəqil müəssisələrin yeni yaradılmış şəbəkəsi kompleksdə çevik mobil sistem təşkil etmişdir. Bu sistem Azərbaycan Respublikasının hava limanlarında aviasiya xidmətini yüksək səviyyədə təmin etməyə imkan verir.

Mülki aviasiyanın hüquqi bazasında mühüm dəyişikliklər edilmişdir. Mülki aviasiyanın fəaliyyətinin bütün istiqamətlərdə, xüsusən uçuşların təhlükəsizliyini təmin etmək məsələlərində tənzimləyən sənəd paketləri hazırlanmışdır ki, bu da 1999-cu ilin noyabrında İKAO komissiyası tərəfindən qeyd olunmuşdur, məlumat üçün: əgər 1996-cı ildə komissiya «AZAL» Dövlət Konsernini yoxlayarkən hüquqi bazamızın və sənədlərimizin beynəlxalq standartlara uyğun gəlmədiyi barədə bizə 100 irad tutmuşdursa, ötən ilin noyabrında 11 irad qalmışdı.

«Azərbaycan Hava Yolları» Dövlət Konserninin xarici aviaşirkətlərlə işini təmin edən hüquqi bazanın hazırlanmasına xüsusi diqqət yetirilir. Azərbaycan Respublikasının ərazisində xarici aviaşirkətlərin fəaliyyəti Azərbaycan Respublikasının bu şirkətlərin təmsil etdikləri dövlətlərlə imzaladığı hava rabitəsi haqqında hökumətlərarası sazişlərə müvafiq surətdə həyata keçirilir. Bu günədək Azərbaycan Respublikası 18 dövlətlə –

Belçika, Bolqarıstan, Böyük Britaniya, Almaniya, Hollandiya, Gürcüstan, Misir, İtaliya, Qazaxıstan, Livan, Polşa, Rusiya, Rumıniya, Türkmənistan, Türkiyə, Özbəkistan, Ukrayna və Fransa ilə hava rabitəsi haqqında hökumətlərarası saziş imzalamışdır.

Bundan əlavə, aviasiya orqanları ilə razılaşmaya uyğun olaraq, dövlətlər arasında uçuşların paraflanmış müqavilələrə əsasən yerinə yetirilməsi də mümkündür. Bunlar 16 dövlətdir – Avstriya, İran, İsveçrə, Latviya, Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Hindistan, Pakistan, İsrail, Yunanıstan, İordaniya, Honkonq, Küveyt, Suriya, Çexiya və Çin.

Hazırda «Türk Hava Yolları», «Sviseyr», «Britiş Mediterian», «Lüfthanza» xarici aviaşirkətləri və MDB ölkələrinin 25 aviaşirkəti, o cümlədən Rusiyanın 18, Ukraynanın 2, Özbəkistan, Qazaxıstan, Belarus, Türkmənistan və Gürcüstanın hərəsinin bir aviaşirkəti Azərbaycan Respublikasının hava limanında uçuşları yerinə yetirir.

Bakı hava limanında xarici aviaşirkətlərin təyyarələrinə xidməti dövlət mülki aviasiya konserninin aşağıdakı müəssisələri həyata keçirirlər: qalxma və enmə üzrə xidmətlər göstərən Bakı hava limanı; təyyarələrə, sərnişinlərə və yük müştərilərinə yerüstü və kommersiya xidmətini yerinə yetirən yerüstü xidmət müəssisəsi; havada hərəkəti idarə edən «Azəravianaviqasiya» müəssisəsi, təyyarələrə aviasiya yanacağı və sürtgü materialları dolduran «AZALoyl» müəssisəsi; aviasiya təhlükəsizliyini, sərnişinlərin, yüklərin, baqajın yoxlanılmasını və hava gəmilərinin mühafizəsini təmin edən aviasiya təhlükəsizliyi müəssisəsi. Texniki xidmətlə məşğul olan «Aviasiya-Texniki Mərkəz» və təyyarədə yemək verilməsini təmin edən «Abel-AZAL» müəssisələri də xidmət göstərir.

Aviaşirkətlərə xidmətlə məşğul olan müəssisələrdə 5100 adam çalışır. Qeyd etmək lazımdır ki, mütəxəssislərimizin biliyinin hələ lazımi səviyyədə olmaması ona gətirib çıxarır ki, indi biz Bakı hava limanında bu aviaşirkətlərə beynəlxalq standartlara müvafiq xidmət göstərə bilmirik. Bu, ən əvvəl dil səddi ilə, - mən ingilis dilini bilməməyi nəzərdə tuturam, - mütəxəssislərimizin texniki səviyyəsinə aid məsələlərlə bağlıdır.

Hazırda Dövlət Konserni mütəxəssislərimizin texniki səviyyəsinin yüksəldilməsi sahəsində böyük iş görür, onlar ixtisasartırma kurslarına göndərilir. Aviaşirkətlərlə razılaşmalara əsasən bu kurslar xaricdə keçilir. Pedaqoqlar dəvət edilir, bizim Mülki Aviasiya Akademiyasının bazasında kadrların ixtisasının artırılması və hazırlanması kursları keçilir.

Bu iş aparılır və avtovağzal kompleksinin açılışında və ondan əvvəl, tikintinin gedişi ilə tanışlıq üçün burada olarkən tutduğunuz iradları əsas götürmüşük və onların üzərində işləyirik. Bu, çox uzunmüddətli və ciddi proqramdır, burada böyük irəliləyişlərlə yanaşı, bizim, mülki aviasiyanın yerinə yetirməli olduğu hələ böyük həcmdə iş də var.

Xarici aviaşirkətlərə xidmətlə bağlı aviamüəssisələrin işi Beynəlxalq Mülki Aviasiya Təşkilatının tövsiyələrindən, bu təşkilatla razılaşdırılmış və hava gəmilərinə xidmət zamanı yol verilmiş məsrəflər nəzərə alınmaqla müəyyənləşdirilmiş təchizat və rüsumlardan istifadə etməklə müqavilə əsasında qurulur.

Məlum olduğu kimi, «KLM» və «Əmirlik Hava Xətləri» şirkətləri bu ilin aprelindən öz uçuşlarının yerinə yetirilməsini dayandırmışlar. Bu aviaşirkətlərin Azərbaycandan getməsi faktı bizi çox narahat etmişdir. Bakı hava limanının ərazisində yerləşən bütün müəssisələrin və idarə orqanlarının işi ətraflı təhlil olunmuşdur. MDB və Avropa ölkələrinin hava limanlarında göstərilən xidmətlər üzrə qiymət siyasəti müqayisəli təhlilin əsasını təşkil etmişdir.

Cənab prezident, biz müqayisəli xarakteristika hazırlamışıq. Burada həm MDB ölkələrinin, həm də Avropa ölkələrinin hava limanları göstərilmişdir. Bu cədvəldən aşkar görünür ki, Bakı hava limanında göstərilən xidmətlərin qiymətləri ən ucuzdur. Təhlili arayışda Daşkənd, Bişkek, Sankt-Peterburq, Almatı, Tbilisi, Kiyev, London, Frankfurt və İstanbul hava limanları nəzərə alınmışdır. Məsələn, əgər Bakı hava limanında yerüstü xidmət 1680 dollardırsa; bu rəqəm Sankt-Peterburqda 2160, Londonda 1800, Almatıda 2187 və Frankfurtda 3060 dollardır. Eyni xidmətlərdir, amma bu cədvəldən göründüyü kimi, onlar Bakı hava limanında xeyli ucuzdur.

**H e y d ə r Ə l i y e v:** Bura bax, özümüzü Frankfurtla müqayisə etmək lazım deyildir. Frankfurtda qiymətlər hətta üç dəfə baha olsa da, oraya reyslər onsuz da yerinə yetiriləcəkdir. Siz isə özünüzü Frankfurtla müqayisə edirsiniz. Siz başa düşürsünüz, ya yox?

**C a h a n g i r Ə s g ə r o v:** Cənab prezident, burada hava limanları misal üçün göstərilmişdir. Daşkənd...

**H e y d ə r Ə l i y e v:** Frankfurt. Frankfurtda hər gün, hər dəqiqə dünyanın hər yerindən təyyarələr gəlib enir və uçub gedir. Bu, nəyə başa gəlsə də. Çünki oraya gedən sərnişinlər xidmət üçün nə qədər haqq ödəyəcəklərini nəzərə alır və bilirlər, bundan nə qədər gəlir götürəcəklərini bilirlər. Sən isə Frankfurtu misal çəkirsən və bütün bunlarla da ola bilsin o qədər də başı çıxmayan adamlara sübut etmək istəyirsən ki, sizdə hər şey normaldır.

İşə daha ciddi yanaşın, Frankfurtla müqayisə ciddi müqayisə deyildir. Buyur.

**C a h a n g i r Ə s g ə r o v:** Cənab prezident, cədvəldən görünür ki, Bişkekdə qiymətlər Bakı hava limanındakına nisbətən xeyli yüksəkdir. Qiymətlər Almatıda, Kiyevdə, Daşkənddə də yüksəkdir. Təhlil göstərir

ki, qiymətlər bizim hava limanında aşağıdır. Buna görə də hesab edirik ki, aviaşirkətlərin Azərbaycanı Bakı hava limanında xidmət qiymətlərinin yüksək olduğuna görə tərk etməsi barədə bu yaxınlarda mətbuatda yayılmış məlumat əsassızdır, həqiqətə uyğun deyildir.

Azərbaycanda akkreditə edilmiş aviaşirkətlərin nümayəndələri ilə də görüşlər keçirilmişdir. Danışıqlar zamanı bu şirkətlərin çıxıb getməsinin səbəbləri müzakirə olunmuşdur. «KLM» və «Əmirlik Hava Xətləri» şirkətlərinin bildirdiklərinə görə, uçuşların dayandırılması haqqında qərar qəbul edilməsi Bakı hava limanında xidmətlə bağlı olmayan iqtisadi səbəblərə əsaslanır. Həmin bu tərketməni onların müvəqqəti hal kimi qiymətləndirdikləri barədə rəsmi məktublar və rəsmi razılaşmalar buna sübutdur. Onlar həmin qərarı sərnişinlərin sayının azalması, sərnişin daşımalarının olmaması, bu reyslərin zərərliliyi nəticəsində qəbul etmişlər. Bu, Azərbaycan xətlərindən getmək barədə onların daxili qərarıdır.

O ki qaldı «Britiş Eyrveys»in getməsinə, indiki halda bu, çıxıb getmək deyil, tərəfdaşın dəyişdirilməsidir. Bu gün «Britiş Eyrveys» orta tutumlu təyyarələri olmadığından, o, həmin xətti özünün törəmə şirkəti olan «Britiş Mediterian»a güzəştə getmişdir. «Britiş Mediterian» aviaşirkəti London – Bakı arasında reysləri ən yeni modifikasiyalı «AEROBUS-320» təyyarələri ilə – eyni tezliklə, lakin sərnişinlər üçün daha əlverişli cədvəllə yerinə yetirəcəkdir.

«Lüfthanza» aviaşirkətinin MDB ölkələri üzrə baş direktoru və onun Bakıdakı nümayəndələri ilə Almaniyanın səfiri cənab Zibekin iştirakı ilə görüş keçirilmişdir. Bu görüşdə əməkdaşlığın perspektivləri, «Lüfthanza Karqo» aviaşirkətinin «BOİNQ-747» təyyarələri ilə həyata keçirilən tranzit reyslərinin Azərbaycana cəlb olunması, 2000-ci ilin noyabrından «Lüfthanza» tipli təyyarələrin «BOİNQ-747» təyyarəsi ilə müqayisə edilən «AEROBUS-340» təyyarələri ilə əvəz olunması məsələləri müzakirə edilmişdir.

«Lüfthanza» aviaşirkəti bu təkliflərlə çox maraqlandı və biz materialı işləmək və həmin layihəni həyata keçirmək üçün yaxın vaxtlarda bir sıra görüşlər keçirmək barədə razılığa gəldik.

Görüşdə Bakı hava limanında xidmətlər üçün əlavə dəyər vergisi tutulması ilə əlaqədar «Lüfthanza» tərəfindən bir sıra iddialar irəli sürülmüşdür. Dəlil olaraq belə bir fakt gətirilmişdir ki, dünyanın heç bir hava limanında xidmətlər üçün əlavə dəyər vergisi tutulmur. Həmin məsələ ilə əlaqədar Baş nazirin müavini Abid Şərifovun yanında müşavirə keçirilmiş və indi bu məsələyə baxılır.

Cənab prezident, qayda-qanun yaratmaq və sərnişinlərin yoxlanılması və onlara nəzarət edilməsi zamanı rəsmiyyəti sadələşdirmək üçün Milli Təhlükəsizlik Nazirliyinin və Daxili İşlər Nazirliyinin, Gömrük Komitəsinin birgə səyləri ilə böyük iş görülmüşdür. 1999-cu ilin martında biz idarə orqanlarının hava limanı ərazisində qarşılıqlı fəaliyyətinin sxemini təsdiq etmişik.

Həmin sxemə əsasən birmənalı şəkildə demək olar ki, əvvəlki illərlə müqayisədə yaxşılığa doğru böyük dəyişikliklər var. Həmin sxem prinsipcə yerinə yetirilir, heç bir idarə tərəfindən pozulmur. Lakin ortaya problemlər də çıxır. Mən onlardan bir qədər sonra danışacağam.

Əgər sərnişinin gediş və gəliş marşrutunu izləsək, onda aydın olar ki, onu nə kimi əngəllər gözləyir, o, öz yolunda nə kimi çətinliklərlə qarşılaşır. Bu, sərnişinlərin qeydiyyatı ilə, pasport, gömrük nəzarəti, viza ilə bağlı problemlərdir. Bunlar mürəkkəb və heç də birmənalı olmayan problemlərdir.

Cənab prezident, icazə versəydiniz, mən sərnişinin Bakı hava limanına gəlməsindən tutmuş, təyyarəyə minənədək keçdiyi bütün nəzarətədək qət etdiyi marşrutdan başlayardım. Sərnişin Bakı hava limanına öz avtonəqliyyatı ilə gəlir və bu zaman kütlə, natəmiz paltarlı adamlar peyda olaraq, baqajı aerovağzal kompleksinə daşımaq xidməti göstərmək üçün arabacıqlarla maşınların yanına qaçırlar.

**H e y d ə r  Ə l i y e v:** Bu harada olur?

**C a h a n g i r  Ə s g ə r o v:** Hava limanının qarşısındakı meydanda.

**H e y d ə r  Ə l i y e v:** Məgər bu ərazi sizin deyil?

**C a h a n g i r  Ə s g ə r o v:** Bizim ərazidir.

**H e y d ə r  Ə l i y e v:** Elə isə bu adamlar niyə oradadır?

**C a h a n g i r  Ə s g ə r o v:** Cənab prezident, Binə, Şüvəlan, Mərdəkan qəsəbələrindən gələn adamları bir tərəfdən qovursan, digər tərəfdən yenə gəlirlər. Bu, çox pis haldır. Azərbaycanın mülki aviasiyası olaraq biz...

**H e y d ə r  Ə l i y e v:** Sizin orada özünüzün xidmət şöbəniz varmı?

**C a h a n g i r  Ə s g ə r o v:** Cəmi 10 nəfər yükdaşıyanımız var.

**H e y d ə r  Ə l i y e v:** Onlar çatdırmırlar, nədir?

**C a h a n g i r  Ə s g ə r o v:** Çatdırırlar və bütün dünyada olduğu kimi, sərnişinlərin öz baqajını özlərinin aparması üçün kifayət qədər arabacıq var. Amma, çox təəssüf ki, xüsusi məşğuliyyəti olmayan həmin adamlar arabacıqları ələ keçirir və onlar bu arabacıqlarla...

**H e y d ə r  Ə l i y e v:** Və siz də bunun qarşısında acizsiniz.

**C a h a n g i r  Ə s g ə r o v:** Biz acizik və bu məsələdə kömək göstərilməsini xahiş edərdim ki, hamımız birləşib…

**H e y d ə r  Ə l i y e v:** Sizə bəs kim kömək etməlidir?

**C a h a n g i r  Ə s g ə r o v:** Zənnimcə, Daxili İşlər Nazirliyi ilə meydanda müvafiq postlar qoyulması üçün razılığa gəlsək...

**H e y d ə r  Ə l i y e v:** Nə üçün razılığa gəlmirsiniz? Bunun üçün sizi buraya çəkib gətirmək lazımdır, hə?

**C a h a n g i r  Ə s g ə r o v**: Cənab prezident, bu bizim təqsirimizdir.

**H e y d ə r  Ə l i y e v:** Bəs nə üçün?

**C a h a n g i r  Ə s g ə r o v:** Bu məsələləri həll etmək çətindir. Bir daha deyirəm...

**H e y d ə r  Ə l i y e v:** Çətin olan nədir? Nə?

**C a h a n g i r  Ə s g ə r o v:** Bilirsinizmi, adamı bir tərəfdən qovursan, başqa tərəfdən gəlir. Sadəcə olaraq, mümkün deyildir. Bu ərazini əslində bağlamaq lazımdır.

**H e y d ə r  Ə l i y e v:** Onda sən nə üçün işləyirsən? Mən səni azad edib, başqasını təyin edəcəyəm. Belə rəhbər işçi mənə lazım deyildir. Bu nə işdir?

Əgər sizin orada öz təşkilatınızın işini təmin etməyə gücünüz çatmırsa, AZAL-dır, Daxili İşlər Nazirliyidir, orada o qədər polis var, o qədər sərhədçi var, o qədər nə bilim nə var, hətta prokuror var, filan var, əgər buna sizin gücünüz çatmırsa, onda siz nəyə lazımsınız? Danış. Sonra, danış, danış...

**C a h a n g i r  Ə s g ə r o v:** Cənab prezident, hava limanının ərazisini, onun vağzalyanı meydanını tamamilə təmizləmək üçün, yadınızdadır, böyük reyd keçirilmişdir. Biz bütün bu budkaları, kolbasa, duşbərə və ləvəngi köşklərini yığışdırdıq və sizin qayğınız sayəsində, bu mürəkkəb dövrdə belə çətinliklə tikilmiş gözəl hava limanı binasının ucaldığı vağzalyanı meydanın təmiz ərazisinə baxanda ürək açılır.

Bütün məsələ ondadır ki, hazır proqram var, xaricdən sərmayə cəlb edilmişdir – svetofordan başlanan yolun yenidən qurulması üçün şərikimiz bizə 1 milyon 200 min dollar məbləğində sərmayə vermişdir...

**H e y d ə r  Ə l i y e v:** Dayan, yolun ora dəxli yoxdur.

**C a h a n g i r  Ə s g ə r o v:** Cənab prezident, var. İzacə verin, deyim.

**H e y d ə r  Ə l i y e v:** Dayan. Birincisi, sən deyirsən ki, indi orada ətrafdakı binaları prezidentin köməyi ilə dağıtdılar, təmizlədilər. Bəs niyə belə olur? Sən orada oturmusan, gözünü yumursan, gəlib aeroportun ətrafında hərə özünə bir bina, köşk, nə bilim, restoran, başqa şey tikib. Bu, sənin günahındır, Bakı Şəhər İcra Hakimiyyətinin, Əzizbəyov Rayon İcra Hakimiyyətinin günahıdır. Üç il lazım oldu ki, mən sizi məcbur edim. Mən bu işə Baş naziri, başqalarını qatdım ki, oralar təmizlənsin. İndi deyirsən ki, oranı təmizlətmisiniz, çox yaxşı olubdur.

Bəs niyə özünüz başa düşmürdünüz ki, Azərbaycanın əsas qapısının ətrafında oranın bütün görkəmini, əhvalını korlayan, atmosferi xarab edən o cür işlərin görülməsinə icazə vermək lazım deyildir? Bəs siz niyə bunu bilmirdiniz? Niyə? Onun qarşısını almaq daha da asan idi, nəinki onları oradan söküb-dağıtmaq.

Dediyim kimi, siz hamınız birlikdə onun qarşısını ala bilərdiniz. Amma bunu etmədiniz. Çünki hər biriniz başınızı ora-bura soxursunuz ki, məsuliyyətə girməyəsiniz. Ancaq mən sizi məcbur etdim. Bəli, inzibati tədbirlər gördüm. Oranı təmizlədilər. İndi hamınız da deyirsiniz ki, biz günahkar deyilik, prezident günahkardır. Biz günahkar deyilik, o günahkardır. Mən günahkaram? Mən günahkar deyiləm, siz günahkarsınız. Mən heç bir şeydə günahkar deyiləm. Mən sadəcə, istəyirəm ki, bizim şəhərimiz, meydanlarımız, xüsusən paytaxtımızın giriş yeri olan hava limanı, onun ətrafı təmiz, mədəni olsun. Ona görə də mən məsuliyyəti öz üzərimə götürdüm, orada hamınız tərəfindən, ayrı-ayrı mafiozlar tərəfindən yaranmış qeyri-qanuni, ümumiyyətlə, lazım olmayan şeyləri dağıtdım. Bəli, dağıtdım, özümə qarşı narazılar yaratdım. Bəlkə də yüzlərlə adam məndən narazı qaldı, sizdən razı qaldı. Amma bu, məni narahat etmir. Çünki məni dövlətimin, xalqımın, Bakı şəhərinin mənafeyi narahat edir. Ona görə də mən hər şeyə gedirəm. Bundan sonra da gedəcəyəm.

İndi durub burada deyirsən «sağ olun ki, oranı təmizlətdirdiniz» və sairə. Yol məsələsinin buraya dəxli yoxdur. Danış. Bilirəm ki, yolu genişləndirmək istəyirsən. Yaxşı, genişləndirərik. Sən əsas mövzunu qoyub niyə yol haqqında danışırsan?

**C a h a n g i r  Ə s g ə r o v:** Cənab prezident, o yolla bağlı layihədə bir məsələ var. Orada şlaqbaum...

**H e y d ə r  Ə l i y e v:** Mən o məsələni eşitmək istəmirəm. Bilirsən, sən məni kənara çəkmə. Mən o məsələni bilirəm. O məsələni həll etmək lazımdırsa, edəcəyik. Amma onun bu məsələyə dəxli yoxdur. Yolun orada yaranmış biabırçı vəziyyətə dəxli yoxdur. Danış.

**C a h a n g i r  Ə s g ə r o v:** Hava limanında işlə əlaqəsi olmayan kənar şəxslərin istər vağzalyanı sahəyə, istərsə də hava limanı ərazisindəki binanın içərisinə keçməsinin qarşısını tamamilə almaq üçün yaxın vaxtlarda birgə reydlər keçirəcəyik və bu barədə razılaşma var.

Biz bəzən belə bir halla rastlaşırıq ki, AZAL-da yükdaşıyan işləyən bu 10 adam qeydiyyat piştaxtalarına yaxınlaşa bilmir, onları buraxmırlar, heç yerdə işləməyən adamlar üçün isə «yaşıl işıq» yanır, onlar bütün zonaları gəzib-dolaşaraq müştərilər tapır, onlara xidmət göstərirlər.

Cənab prezident, sərnişinlərimiz hava limanının girişində gömrük nəzarəti ilə qarşılaşırlar. Demək olar ki, təyyarəyə minmək üçün gömrük nəzarətində vəziyyət yaxşılaşmışdır, lakin hələ çox işlər görülməlidir. Cənab prezident, icazə versəydiniz, hava limanının ərazisində yerləşən idarə orqanlarını təhlil edərdim. Mən öz fikrimi söyləyirəm.

İstərdik ki, gömrük nəzarətində üç girişin daim, gecə-gündüz açıq olması ilə bağlı dəyişikliklər edilsin. Bizim hava limanı saatda 1600 sərnişinə xidmət etmək iqtidarındadır. Cəmi bir giriş işlədiyinə görə, - çünki

gömrük orqanları üç girişin üçünü də həmişə aça bilmirlər, - hava limanının buraxılış qabiliyyəti azalır, bununla əlaqədar növbələr yaranır. Bu, sərnişinlərimizi incidir və onlara narahatlıq yaradır.

Narahatlığa ikinci səbəb gedən və gələn sərnişinlərin hamısının ucdantutma nəzarətdən keçirilməsidir. Yəni, sərnişinlərin əslində bütün 100 faizi gələndə də, gedəndə də gömrük nəzarətindən keçir. Beynəlxalq normalara və təcrübəyə görə, - biz bu məsələni araşdırmışıq, - dünyanın bütün hava limanlarında ayrı-ayrı sərnişinlər, yəni ya xarici görkəminə görə şübhəli görünən, ya da alınmış siqnallara əsasən adamlar nəzarətdən keçirilir. Bizim hava limanında isə sərnişinlərin əslində100 faizi nəzarətə məruz qalır.

**H e y d ə r Ə l i y e v:** Bu harada yazılıb ki, belə olmalıdır? Hansı qanunda, təlimatda yazılıb, yaxud bunu kim icad eləyib? Bizdə nə üçün belədir?

**C a h a n g i r Ə s g ə r o v:** Azərbaycanın Gömrük Qanununa əsasən.

**H e y d ə r Ə l i y e v:** Belə qanun?

**C a h a n g i r Ə s g ə r o v:** Bizdə qanun var, Azərbaycanın qanunvericilik aktına əsasən.

**H e y d ə r Ə l i y e v:** Sonra.

**C a h a n g i r Ə s g ə r o v:** Sonra. Sərnişin gömrük nəzarətindən keçərək, 24 piştaxta düzəldilmiş qeydiyyat zonasına gəlir. Bütün sərnişinlər ötən il idarə orqanlarının qarşılıqlı razılığına əsasən təsdiq etdiyimiz sxem üzrə özlərini qeyd etdirməzdən əvvəl daxili işlər orqanlarında qeydiyyatdan keçməyə məcburdurlar – orada bir-iki adam oturub bütün pasportları yoxlayır, qeydə alır, ştamp vururlar və sərnişin qeydiyyat piştaxtasına yalnız bundan sonra yaxınlaşa bilər. Hava limanında iki təyyarənin olması kifayətdir ki, sərnişinlərin qeydiyyatını keçirən daxili işlər orqanının nümayəndəsi qarşısında uzun növbə düzülsün.

Cənab prezident, bəri başdan deyim ki, zənnimcə, tamamilə real təklif var. Bizim hava limanında biletlər avtomatik çap edilir və bütün qeydiyyat piştaxtaları kompüterləşdirilib. Əgər daxili işlər orqanına bu informasiyaya malik olmaq lazımdırsa, onu sərnişinlərin qeydiyyatı zamanı qeydiyyat piştaxtasından və ya sərnişin pasport nəzarəti zonasına düşdükdə «Sərhəd Qoşunları» piştaxtasından ala bilər. Yəni, bu məsələ çox böyük narahatlıq yaradır.

**H e y d ə r Ə l i y e v :** Bu da qanunda yazılıb?

**C a h a n g i r Ə s g ə r o v:** Bu, bizim sxemdə yazılıb. Biz bu sxemi keçən il təsdiq etmişik.

**H e y d ə r Ə l i y e v:** Həmin sxemi kim təsdiq edib?

**C a h a n g i r Ə s g ə r o v:** Cənab prezident, icazə verin, mən sxemi sizə göstərim. Onu Respublika Daxili İşlər Nazirliyi təsdiq edib.

**H e y d ə r Ə l i y e v:** Respublika Daxili İşlər Nazirliyi özbaşına sxem təsdiq edə bilər?

**C a h a n g i r Ə s g ə r ov:** Bəli, cənab prezident, belə sxem var. İcazə verin, sizə göstərim.

**H e y d ə r Ə l i y e v:** Əşi, mən axı ona niyə baxacağam? Əgər bizim ümumi aeroportumuza hər bir nazir gətirib öz sxemini qoyacaqsa və bu da beynəlxalq normalara ziddirsə, bəs buna niyə yol verirsiniz?

Mən yenə də deyirəm, sən günahkarsan. Çünki beynəlxalq normaları sən bilirsən, sən deməlisən ki, bu olmaz. Sözünə baxmırlarsa, gəlib Baş nazirə müraciət etməlisən, mənə müraciət etməlisən. Amma indi mən səni gətirib burada sıxışdırıram, sən də hər məsələyə bir izahat tapırsan.

Hərə özünə bir sxem yaradıb. İndi sən deyirsən ki, bu da sizə maneçilik etdi?

**C a h a n g i r Ə s g ə r o v:** Bəli.

**H e y d ə r Ə l i y e v:** Yaxşı, sən deyirsən ki, iki təyyarə dayanan kimi, polisin qarşısında növbə düzülür. Bəs sən niyə buna biganə qalırsan?

**C a h a n g i r Ə s g ə r o v:** Mən biganə qalmıram.

**H e y d ə r Ə l i y e v:** Bəs nə edirsən?

**C a h a n g i r Ə s g ə r o v:** Daxili işlər naziri ilə dəfələrlə söhbət olmuşdur. Cənab prezident, onlar bunu onunla izah edirlər ki, bizdə axtarışda olan adamlar var, buna görə də bu nəzarəti mütləq biz özümüz keçirməliyik.

**H e y d ə r Ə l i y e v:** Başqa ölkələrdə axtarışda olan cinayətkarlar yoxdur?

**C a h a n g i r Ə s g ə r o v:** Var.

**H e y d ə r Ə l i y e v:** Bəs onlar bunu tətbiq edirlər?

**C a h a n g i r Ə s g ə r o v:** Edirlər.

**H e y d ə r Ə l i y e v:** Yox, bu cür sistem tətbiq edirlər?

**C a h a n g i r Ə s g ə r o v:** Yox, etmirlər.

**H e y d ə r Ə l i y e v:** Yaxşı, başın işləmir, sən niyə indiyədək düşünmürsən ki, başqa böyük ölkələrdə də cinayətkarlar var, orada da cinayətkarları axtarırlar. Axtaranlardan da biri polisdir. Həmin ölkələrdə bu şeylər yoxdur. Sən niyə onlara demirsən ki, nə üçün siz bunu gətirib buraya qoymusunuz? Əgər onlara deməyə qorxursansa, gəl bizə de. Sonra.

Demək, polisin də işi belə. Yenə nə var? De görüm.

**C a h a n g i r Ə s g ə r o v:** Cənab prezident, axtarışla əlaqədar təklif var ki, axtarış sistemini Bakı hava limanında pasport nəzarəti üçün qoyulmuş bir kompüterdən çıxarsınlar.

Biletlərin qeydiyyatından və baqaj təhvil verildikdən sonra sərnişin pasport nəzarəti piştaxtasına gəlir. Pasport nəzarəti qanuna uyğun olaraq aparılır, lakin sərnişinlərin psixoloji vəziyyətinə çox pis təsir göstərən incə bir məsələ var – pasportda hər hansı xırda dəyişikliklərə və ya vergülə görə Sərhəd Qoşunları sərnişini pasport nəzarətindən keçməkdən uzaqlaşdırır və o, rütbəcə böyük olan zabitin gəlməsini gözləyir. Hər reysdən 10-15 adam növbəyə durur və gözləyir...

**H e y d ə r Ə l i y e v:** Nə qədər?

**C a h a n g i r Ə s g ə r o v:** Hər reysdən 10-15 sərnişin qalır, çünki onların pasportunda hansısa dəyişikliklər var. Yalnız rütbəcə böyük olan zabit bu pasportlara baxdıqdan sonra həmin sərnişinlər uçuşa buraxılırlar.

Bu nəzarətdən keçdikdən sonra növbədə Aviasiya Təhlükəsizliyi İdarəsi durur – bu, bizim təşkilatdır, partlayış təhlükəsi olan maddələrin aşkara çıxarılması üçün orada qoyduğumuz kameraların köməyi ilə sərnişinlərə gecə-gündüz nəzarət edilir. Orada çox böyük problemlər var idi. Lakin biz onları aradan qaldırmağa çalışırıq. Sərnişinlərdən pul qoparmaq halları olmuşdur. Cənab prezident, bütün bunların qarşısı alınmışdır. Son 2,5 ildə bu təşkilatda çalışmış 2,5 min adam işdən azad edilmişdir. Yəni, bu müəssisənin əslində bütün kollektivi üç dəfə dəyişdirilmişdir və indi biz xidmətin daha yüksək səviyyəsinə gəlib çıxmışıq.

Sərnişin bütün bu nəzarətləri keçdikdən sonra təyyarəyə keçidə gəlir, burada hər iki tərəfdə sərhəd xidmətinin uniformalı əsgərləri dayanırlar. Onların görkəmi xoşagəlməz ovqat doğurur.

**H e y d ə r Ə l i y e v:** Xoşa gəlməyən nədir?

**C a h a n g i r Ə s g ə r o v:** Sərnişinlər uniforma və əsgər çəkmələri geyinmiş bu adamların arasından keçirlər.

**H e y d ə r Ə l i y e v:** Yəni, onlar bu dəhlizdən keçirlər?

**C a h a n g i r Ə s g ə r o v:** Bəli, onlar belə dəhlizdən keçirlər və təyyarəyə minməzdən əvvəl pilləkənin yanında sərnişinlərin pasportları yenidən yoxlanılır.

**H e y d ə r Ə l i y e v:** Pasportları yenidən yığırlar?

**C a h a n g i r Ə s g ə r o v:** Sərnişinlərin pasportlarını yenə yoxlayırlar.

**H e y d ə r Ə l i y e v:** Kim, sərhədçilər?

**C a h a n g i r Ə s g ə r o v:** Bu cür ikiqat yoxlama metodu da heç yerdə tətbiq olunmur və buna görə də biz bunun aradan götürülməsini zəruri hesab edərdik. Sərhəd Qoşunlarının nümayəndələri ilə çox görüşlər olmuşdur, amma məsələ həll edilməmişdir. Belə çıxır ki, sərnişin unutduğundan, yaxud hər hansı digər səbəblərdən ya pasportuna, ya da minik talonuna ştamp vurdurmayıbsa, ona deyirlər ki, uça bilməzsən. Bundan sonra o, bu ştampı vurdurmaq üçün pasport nəzarətinə qayıdır. Belə bir vəziyyət yaranır – bütün bu vurnuxmadan sonra əldən salınmış, incidilmiş sərnişin təyyarəyə minir və hətta ən yaxşı şirkətin hava gəmisində göstərdiyi heç bir xidmət onun təyyarəyə minik zamanı pozulmuş əhval-ruhiyyədən xilas olmasına kömək etmir.

Cənab prezident, sərnişin buraya gələndə də bu cür yol qət edir. Təyyarə gəlib yerə enir, dayanacağa doğru istiqamət götürür, lakin sərhədçinin iştirakı olmadan pilləkən vermək, təyyarənin qapısını açmaq olmaz. Bu da qanundur. Bu məsələni açıqlamaq barədə bəyanat və sorğularıma cavab verib deyirlər ki, olmaz. Deyirlər ki, sərnişin harasa qaça, nə isə edə bilər. Məncə, o, heç nə edə bilməz, çünki hava limanının zonası qorunur, dayanacağın özü də qorunur. Odur ki, sərnişinin aradan çıxması problemi sadəcə olaraq yoxdur. Buna baxmayaraq, qapı sərhədçinin nəzarəti altında açılır və bütün sərnişinlər yalnız bundan sonra çıxırlar.

**H e y d ə r Ə l i y e v:** Onlar qapını vaxtında açırlarmı?

**C a h a n g i r Ə s g ə r o v:** Cənab prezident, bəzən sərhədçinin gec gəlib çıxması ilə əlaqədar ləngimə halları olur.

**H e y d ə r Ə l i y e v:** Niyə?

**C a h a n g i r Ə s g ə r o v:** Təyyarənin yerə enməsindən 20 dəqiqə əvvəl bütün xidmətlər xəbərdar edilir və onların hamısı həmin vaxtadək hava gəmisinin dayanacağı yerdə olmalıdır. Lakin sərhədçi heç də həmişə vaxtında gəlib çıxmır. Buna görə də bəzən təyyarə dayanır, onun mühərrikləri söndürülmüşdür, təyyarənin qapıları bağlıdır və hamı...

**H e y d ə r Ə l i y e v:** Sərhədçini gözləyir.

**C a h a n g i r Ə s g ə r o v:** Bəli.

**H e y d ə r Ə l i y e v:** Sonra.

**C a h a n g i r Ə s g ə r o v:** Biz təyyarədən çıxdıqdan sonra aerovağzal kompleksinə keçirik və sərhədçilərlə görüşürük. Bu gün onlar vizaların yoxlanması, axtarış funksiyalarını və digər funksiyaları yerinə yetirirlər. Sənədlərin təqdimi prosesində sərnişinlə sərhədçi arasında çox böyük ixtilaf düşür. Bizə bir neçə məlumat gəlmişdir ki, sərnişindən dəvətnaməni göstərməyi tələb edirlər, onu kimin qarşıladığını, ona kimin xidmət etdiyini soruşurlar...

**H e y d ə r Ə l i y e v:** Sərhədçilər?

**C a h a n g i r Ə s g ə r o v:** Bəli.

**H e y d ə r Ə l i y e v:** Bunun onlara nə dəxli var?

**C a h a n g i r Ə s g ə r o v:** Bunun onlara heç bir dəxli yoxdur.

Sərnişin pasport nəzarətindən keçdikdən sonra gömrük zonasına daxil olur. Bayaq dediyim kimi, Azərbaycana gələn sərnişinlərin tam 100 faizi bu zonada gömrük nəzarətindən keçir. Bu da təbii olaraq narazılıq doğurur, böyük növbələr yaradır və sərnişinin, xüsusən də bizə hər hansı işlə əlaqədar gələn adamın ovqatını poza bilər. Ondan soruşmağa başlayırlar: siz nə gətirirsiniz, necə gətirirsiniz? Əl çantasından tutmuş hər şey tamamilə, əsaslı surətdə yoxlanılır.

**H e y d ə r  Ə l i y e v:** Gömrük yoxlayır?

**C a h a n g i r  Ə s g ə r o v:** Bizdə, AZAL Dövlət Konsernində olmuş qonaqlar, gömrük deklarasiyasında belə bir sualın olmasına, sadəcə, təəccüblənirdilər: «Siz neçə dənə qızıl saat gətirirsiniz, qızıl zənciriniz və ya qızıl sırğanız varmı?». Əcnəbilər məsələnin nə yerdə olduğunu heç cür başa düşə bilmir və məndən soruşurlar: «Biz nə üçün gömrük deklarasiyasında qızıl saatımız olub-olmadığını yazmırıq?». Deyirəm ki, bəlkə orada bir səhv var, biz onu düzəldərik. Lakin deklarasiyada bu günədək belə bəndlər var.

Sonra. Sərnişin gömrük nəzarətindən keçərək yenidən DİN nümayəndəsi ilə qarşılaşır. O...

**H e y d ə r  Ə l i y e v:** Polisi nəzərdə tutursan?

**C a h a n g i r  Ə s g ə r o v:** Bəli. O, girişdə dayanır və pasportları yenidən yoxlayır ki, görsün, sərnişinlər arasında axtarışda olan qaçqınlar və cinayətkarlar varmı.

**H e y d ə r  Ə l i y e v:** Sonra.

**C a h a n g i r  Ə s g ə r o v:** Cənab prezident, biz sərnişinin marşrutu ilə keçərkən görürük...

**H e y d ə r  Ə l i y e v:** Sən oraya və geriyə olan bu marşrutdan danışdın?

**C a h a n g i r  Ə s g ə r o v:** Bəli.

**H e y d ə r  Ə l i y e v:** Deməli, sən gömrüyün nə etdiyindən, polisin nə etdiyindən danışdın. Bəs sərhədçilər nə edirlər?

**C a h a n g i r  Ə s g ə r o v:** Sərnişinlərin sənədlərinə irad tutaraq, onları incidirlər. Mən bu barədə də danışdım.

**H e y d ə r  Ə l i y e v:** Sonra.

**C a h a n g i r  Ə s g ə r o v:** Cənab prezident, biz bu marşrutdan keçdikdən sonra gördük ki, Azərbaycandan gedən və ölkəmizə gələn sərnişin nə kimi problemlərlə, əzab-əziyyətlə və maneələrlə qarşılaşır.

Lazımi qayda-qanun yaradılması və sərnişinlərə lazımi səviyyədə xidmət göstərilməsi, sərnişinin 30-40 dəqiqə ərzində əzab-əziyyətə məruz qaldığı bu rəsmiyyətçiliyin aradan qaldırılması məqsədi ilə, zənnimizcə, bir neçə konkret tədbir təklif etmək lazımdır. Sizin icazənizlə, biz strukturları hava limanında işləyən və sərnişinlərə xidmətə cəlb olunmuş nazirliklərə və baş idarələrə təklif edirik ki, attestasiya keçirsinlər və öz bölmələrinin sıralarını səriştəsiz və nalayiq adamlardan təmizləsinlər.

Sərhəd nəzarətinin mövcud strukturu bazasında yüksək ixtisaslı immiqrasiya xidməti – məhz pasport-viza nəzarəti məsələləri ilə məşğul olacaq xidmət yaratmaq lazımdır. Yəni sərhəd nəzarəti bizdə immiqrasiya xidməti funksiyasını yerinə yetirir. Beynəlxalq normalara görə, bütün hava limanlarında sərhəd qoşunları hər yerdə deyil, ancaq perimetr üzrə dururlar. Gediş və gəliş üçün bilavasitə yoxlamanı isə immiqrasiya xidməti həyata keçirir. Bax, bizdə belə xidmət yoxdur. Buna görə də, zənnimcə, Milli Təhlükəsizlik Nazirliyinin tərkibində elə bir xidmət yaratmaq lazımdır ki, o, beynəlxalq tələblərə uyğun olsun.

Sonra. Bizim hava limanında viza yardımı olmadığına görə həddindən çox problem yaranır. Yəni ölkəyə vizasız gəlmək hüququ olan sərnişin sərhəd nəzarətinə müraciət edir, ona qəbz verirlər, o, həmin qəbzlə Daxili İşlər Nazirliyinə müraciət etməlidir, orada ertəsi gün viza alır. Dünyanın bir çox hava limanlarında, hansında ki, sərnişinlərin ölkəyə vizasız gəlmək rejimi tətbiq edilir, orada Xarici İşlər Nazirliyi nümayəndələri xüsusi yerə malikdir. Onların əli altında ölkəyə daxil olması qadağan edilmiş şəxslərin axtarıldığına dair məlumat bankı var və onun əsasında pullu viza verirlər. Bu məsələ üzrə təklifimiz belədir – vizaların bilavasitə Binə beynəlxalq hava limanında verilməsi məsələsinin həlli üçün burada Xarici İşlər Nazirliyinin nümayəndəliyi açılsın.

Növbəti təklifimiz – axtarışda və ya operativ nəzarətdə olan sərnişinlərin axtarışı sistemləri birləşdirilsin, bütün bu funksiyalar immiqrasiya xidmətinə verilsin. Həmin sərnişinlər aşkara çıxarıldığı halda bu xidmət onları müvafiq orqanlara təhvil verərdi. Binə hava limanı kompüter texnikası ilə təchiz edilmişdir və məlumat bankına malikdir. Bu axtarış tədbirlərini onun sayəsində həyata keçirmək olar.

Sonra. Sərnişinlərin təhlükəsizliyi məsələləri ilə bağlı ayrı-ayrı faktlar istisna olmaqla, sərnişinlərin təkrar yoxlanılmasının bütün növləri qadağan edilsin. Bütün gedən və gələn sərnişinlərə ucdantutma gömrük nəzarəti aradan qaldırılsın, şübhəli şəxslərə seçmə gömrük nəzarətinin bütün dünyada qəbul olunmuş praktikasına keçilsin, müvafiq sərəncamlar hazırlansın ki, immiqrasiya qaydalarına uyğun olaraq, sərnişinlərin deportasiyasına görə aviamüəssisənin bölmələri məsuliyyət daşıyırlar. Cənab prezident, bu nə deməkdir? Yəni, bu gün Bakı hava limanında sərnişinlərin deportasiyasına görə məsuliyyət daşıyan orqanımız yoxdur. Bütün dünyada sərnişinlərin deportasiyasına görə məsuliyyəti aviaşirkətin özü daşıyır. Buna görə də əgər aviaşirkət sərnişinin viza və pasportunun qaydasında olduğunu təsdiqləyərək, onun qeydə alınması haqqında qərar qəbul edibsə, sonra deyə bilməz ki, onun pasportu qaydasında deyil və ya yoxdur. Zənnimcə, bunu aviaşirkətin müstəsna hüququ etmək lazımdır.

Strukturları sərnişinlərə xidmətə cəlb olunmuş bütün nazirliklərin və baş idarələrin rəhbərlərinə tapşırılsın ki, xidməti təhqiqat aparsın və işin texnologiyasının pozulmasına dair hər hansı, hətta cüzi bir fakta görə təqsirkarları sərt cəzalandırsınlar.

Cənab prezident, biz bu gün Binə beynəlxalq hava limanı ilə bağlı iradları və faktları qəbul edirik. Bu faktlar həqiqətən var. Bu, çox böyük, çox mürəkkəb və incə işdir. Aviasiya biznesi standart deyildir, mürəkkəb rəqabətli biznesdir. Azərbaycanın mülki aviasiyası tərəfindən yol verilən bütün neqativ hallar mülki aviasiyanın da, bütövlükdə şəhərimizin, dövlətimizin də ümumi obrazına təsir göstərir. Buna görə də, müsaidənizlə, icazə verin irəli sürülmüş bütün iradları əsas kimi götürək və sizə söz verirəm ki, indi mülki aviasiyada olan nöqsanlar yaxın vaxtlarda Bakının hava limanında olmayacaqdır.

**H e y d ə r Ə l i y e v:** Yeni aeroport kompleksi neçə vaxtdır istifadəyə verilibdir?

**C a h a n g i r Ə s g ə r o v:** Cənab prezident, 8 aydır.

**H e y d ə r Ə l i y e v:** İndi sən burada təkliflər verirsən. Özün də oradakı qeyri-normal vəziyyəti burada bizə çatdırdın. Bəs sən bunları görə-görə və bu cür də fikirlərin, təkliflərin olduğu halda niyə bir adama müraciət etməmisən? Kimə müraciət etmisən, nə tədbir görmüsən? Demək, sən bunu görmək istəmirdin. İndi sən burada deyirsən ki, sərnişin belə olur, elə olur. Orada 15 dəqiqə, burada 25 dəqiqə gecikəndən, hətta təyyarəyə minəndən sonra gətirib orada ona lap kabab da versən, onun kefi düzəlməyəcəkdir. Çünki gəlib aerovağzalın qabağında düşəndən təyyarəyə minənə qədər o, cəhənnəm əzabı çəkir.

Sən burada bunu bizə izah etdin. Çox gözəl. Bəs sən ki, bunu görürsən, sənə böyük bir etimad göstərilib, biz səni belə böyük bir təşkilata başçı qoymuşuq, - niyə sən indiyə qədər ölçü götürmürsən? Əgər ölçü götürə bilmirsənsə, nə üçün heç kəsə müraciət etmirsən? Nə üçün mən bu məsələləri gərək başqa yerdən biləm? Sən məlumat verməmisən, bizim hüquq-mühafizə orqanları bir məlumat verməyibdir, Nazirlər Kabineti məlumat verməyibdir. Mən başqa yerlərdən məlumat almışam və Baş nazirə göstəriş vermişəm ki, məşğul olsun. İndi sizi gətirib buraya çıxarmışam, deyirsiniz ki, bəli, bu da var, o da var. Təkliflər də verirsən ki, hansılarını həyata keçirmək lazımdır. Mən başa düşmürəm, onda siz nəyə lazımsınız?

Ona görə də mən bu gün müşavirəyə başlayanda da dedim, indi də deyirəm, - birinci günahkar AZAL-ın baş direktoru Cahangir Əsgərovdur. Hava limanını təhvil verməmişdən əvvəl mən gəlib oranı gəzən zaman elə bil, bu şeyləri görürdüm. Çünki bilirdim ki, bizim köhnə aeroportda nə cür qanun pozuntuları vardır, insanları necə incidirlər. Dedim, indi biz burada şərait yaratmışıq, xərc, zəhmət çəkmişik, dövlətin pulunu xərcləmişik. Amma siz 8 ayda onu biabırçı vəziyyətə salmısınız. Əgər indi mən sizi buraya dəvət etməsəydim, bu işə qarışmasaydım, elə belə də gedirdi, get-gedə daha da pis olacaqdı. Səni də bu maraqlandırmır. Əyləş.

* * *

**H e y d ə r Ə l i y e v:** Artur, mən sənə bu məsələni araşdırmağı tapşırmışdım, görünür, o, hər şeyi demədi.

**A r t u r R a s i z a d ə** (*Azərbaycan Respublikasının Baş naziri*): Hörmətli cənab prezident!

Hörmətli müşavirə iştirakçıları!

Bugünkü müşavirənin keçirilməsi və diqqətimizin cəlb olunduğu məsələ ölkənin infrastrukturunun, onun aparıcı sahələrindən birinin – mülki aviasiyanın inkişafına respublikanın hörmətli prezidentinin şəxsən necə böyük əhəmiyyət verməsi faktını bir daha təsdiq edir.

Zənnimcə, bizim aerovağzal kompleksinin inkişaf mərhələlərini burada bir daha xatırlatmaq yerinə düşərdi. Mən bunun şahidiyəm və ona görə də bu barədə tam məsuliyyət hissi ilə danışa bilərəm.

Hələ 1981-ci ildə, ölkəmizin prezidentinin, o vaxtlar respublikamızın rəhbərinin şəxsi səyləri sayəsində, - mən bunu Dövlət Plan Komitəsinin keçmiş işçisi kimi bilirəm, - limitdənkənar tikinti kimi bu aerovağzal kompleksi üçün necə çətinliklə icazə alınmışdı. Bilirsiniz ki, belə tikintilər üçün İttifaqın mərkəzi orqanlarından çoxlu vəsait almaq asan deyildi. Lakin bu edildi, kompleks müasir səviyyədə layihələşdirildi və onun tikintisinə başlandı.

Təəssüf ki, 80-ci illərin axırları – 90-cı illərin əvvəllərində bütün ölkənin düşdüyü vəziyyətlə əlaqədar bu istiqamətdə işlər tamamilə dayandırıldı və yalnız cənab prezident ölkəyə rəhbərliyə qayıdaraq, vəziyyətin sabitləşdirilməsinə nail olduqdan sonra onun həyata keçirdiyi təxirəsalınmaz tədbirlər arasında bütövlükdə mülki aviasiyanın daha da inkişaf etdirilməsi tədbiri də var idi.

Hətta aerovağzal kompleksinin tikintisinə və inkişafına başlanmazdan əvvəl, cənab prezidentin Almaniyaya rəsmi səfəri zamanı, hava limanımızın təhlükəsizliyini yüksəltmək üçün razılaşma əldə edilmiş və 0,75 faizlə 40 il müddətinə güzəştli kredit alınmışdı. İndi bu limanın yeni uçuş zolağı, bütün naviqasiya sistemi bizə müxtəlif ölkələrin hava gəmilərini ən yüksək səviyyədə qəbul etməyə imkan verir.

Aerovağzal kompleksinin tikintisini qısa müddətdə başa çatdırmaq haqqında qərar qəbul edilmiş və həyata keçirilmişdir. Cənab prezidentin tapşırığı ilə mən cənab Nazarbayevi yola salarkən o, necə güclü bir aerovağzal kompleksi tikdiyimizə diqqət yetirdi. Onlar belə kompleksin tikintisinə yenicə başlayırlar. Bu faktlar ölkəmizin maddi-texniki bazasının yaradılmasına, infrastrukturun inkişafına necə böyük əhəmiyyət verildiyini sübut edir.

**H e y d ə r Ə l i y e v:** Gedib görmüşük, belə bir kompleks nə Kiyevdə, nə Moskvada, - vaxtilə orada Şeremetyevo kompleksi tikilib, elə bir şey deyil, nə bizim qonşu Gürcüstanda, nə Özbəkistanda, nə Qazaxıstanda, nə

Moldovada var. Mən əsasən MDB-nin üzvü olan ölkələri dedim. Doğrudan da, Türkmənistanda yeni bir hava limanı tikiblər, ancaq bizim aerovağzal kompleksi ilə onu heç müqayisə etmək olmaz. Ona görə də sən düz deyirsən. Mən Nursultan Nazarbayevi də, Əsgər Akayevi də qarşılayanda, bu yaxınlarda Leonid Kuçma buraya gələndə – onların hamısı bizim hava limanına heyranlıqla baxırdılar ki, necə gözəldir. Özü də onlar bizim aerovağzalın memarlıq cəhətdən gözəlliyini də çox yüksək qiymətləndirdilər.

**A r t u r R a s i z a d ə:** Cənab prezident, bütün bunlarla yanaşı, onun təkcə xarici görünüşü deyil, həm də müasir avadanlığı da var.

Mən köhnə, yararsız texnologiyanı əvvəlki hava limanından yenisinə heç bir halda köçürməmək barədə cənab prezidentin sözlərini, onun göstərişini yaxşı xatırlayıram.

Lakin etiraf etmək lazımdır ki, köhnə, 90 faiz yararsız olan texnika, təəssüf ki, yeni hava limanına köçürülmüşdür.

Cənab prezidentin tapşırığı ilə mən Azərbaycanda akkreditə olunmuş bir çox ölkələrin səfirləri ilə – Amerika Birləşmiş Ştatlarının, Böyük Britaniyanın, Almaniyanın səfirləri, habelə «Lüfthanza»nın və «Britiş-Eyrveys» şirkətini əvəz etmiş yeni şirkətin nümayəndələri ilə görüşmüşəm. Bizim aerovağzal kompleksində yaranmış vəziyyət barədə onların söylədikləri iradları eşidəndə xəcalət çəkirdim.

Cənab prezident, mən baş direktorun hesabatını diqqətlə dinlədim, təəssüflər olsun, onlarda belə fikir yaranıb ki, şirkətlərin buradan getməsinin bütün səbəbi yalnız sərnişin axınının azalması ilə bağlıdır.

Bəli. Həqiqətən də ümumən dünyada, o cümlədən MDB ölkələrində bu hal var. Lakin bizim vəzifəmiz şirkətlər üçün elə şərait yaratmaqdan ibarətdir ki, buraya reyslər açmaq onlara sərfəli olsun. Digər tərəfdən, gəlin, servis sahəsində bizdən asılı olan hər şeyi edək ki, bu, faydalı olsun. Təəssüf ki, belə deyildir. Bütün fəlsəfə, bütün qüvvə heç bir fövqəladə hadisənin baş vermədiyini, hər şeyin normal, yaxud təxminən normal olduğunu sübut etməyə yönəldilmişdir. Lakin belə bəhanələrlə əsla razılaşmaq olmaz ki, hər şey sərnişin axınının azalması ilə bağlıdır. Bununla heç bir halda razılaşmaq olmaz. Hesab edirəm ki, bizim «Azərbaycan Hava Yolları» Konserninin rəhbərliyi bu problemə münasibətdə psixologiyasını prinsipcə dəyişməlidir.

Cənab prezident, səfirlər birmənalı şəkildə deyirdilər ki, bizim hava limanının yaranmış imici bəlkə də onların tanıdıqları bütün hava limanları arasında ən aşağı olanıdır. Özü də elə bir vəziyyətdə ki, ən müasir kompleks tikilmişdir. Ancaq verilən qiymət isə belədir.

Üstəlik, cənab prezidentin dediklərini inkişaf etdirsək, bu, təkcə gəlir məsələsi deyil, təkcə şəhərin, ölkənin giriş qapısı demək deyildir. Bu, ümumən ölkədə vəziyyət haqqında düzgün olmayan təsəvvür yaradır. Axı buraya biznesmenlər, rəsmi şəxslər, məmurlar, jurnalistlər və başqaları gəlirlər. Burada Əsgərovun haqqında dediyi maneələri, - mən hələ bunlara əlavə edəcəyəm, - keçəndən sonra harada işləyəcəkləri və necə işləmək mümkün olacağı barədə onlarda hansı təsəvvür ola bilər?

Yəni arabaların olmaması, - mən bunun üzərində hələ dayanacağam, - ilk baxışda kiçik fakt kimi görünür, amma bu, investisiyaları cəlb etmək üçün bütün şəraiti yaradan etibarlı, sabit dövlət kimi, ölkəmizin imicini sarsıdan çox ciddi nəticələrə gətirib çıxara bilər. Cənab prezident, mən başqa qənaətə gələ bilmərəm.

Konkret faktlar gətirirlər: bu aviasiya şirkətləri ilə sazişlər bağlanıb, məktub var. Şirkətin təşəkkür etməsi barədə onun cənab Əsgərova hansı məktubu yazdığını bilmirəm. Məndə burada məktublar var və əgər lazımdırsa, onları oxuyaram. Onlar mövcud olmuş faktlarla əlaqədar qəti etirazlarını bildirirlər.

«Lüfthanza»nın təyyarəsi hava limanına enir və ona yanacaq doldurmaq lazımdır. Yanacaqdolduranlar 2,5 min dollar tələb edirlər – pulu qabaqcadan ödəməlisən. Bilmirəm, birbaşa cibə qoyum, yoxsa kassa vasitəsi ilə ödəyim. Fərqi yoxdur. Təyyarəyə yanacaq doldurmaq lazımdır. Marşrutla yoluna davam etmək üçün saat yarım gecikir. Bu isə 660 dollar deməkdir. Üstəlik, biz burada tez-tez dünya praktikasına istinad edirik və etmək lazımdır, - lakin onu tətbiq etmək də lazımdır, - bu ödənişlər ayda iki dəfə və ya üç dəfə edilir. Vəssalam.

**H e y d ə r Ə l i y e v:** Şəxsi pulu necə tələb etmək olar? Bu ki, fırıldaqçılıqdır!

**A r t u r R a s i z a d ə:** Budur, cənab prezident, bu şirkətin nümayəndəsi və səfir mənə rəsmi məktub verirlər.

Mən ağır məqamlardan xüsusi olaraq danışıram, gizlətmirəm. Nə üçün? Ona görə ki, cənab prezident bizi açıq söhbət aparmağa çağırmışdır ki, buranı tərk etdikdən sonra hər birimiz müvafiq nəticə çıxaraq və tədbirlər görək. Bəlkə də, ola bilsin kiməsə xoş olmayacaqdır.

İkincisi. Tutaq ki, sərnişinlərə xidmət üçün servis tədbirləri görülməsi barədə «Lüfthanza» ilə saziş var. Biz servisin bütün bəndlərini sazişə müvafiq surətdə təmin etmədiyimizə görə şirkət deyir ki, bu işi öz üzərinə götürür. Yəni bir tərəfdən, servisin ümumi həcminin haqqını ödəyir, digər tərəfdən isə, işin bir hissəsini özü yerinə yetirir, çünki biz beynəlxalq standartlar səviyyəsində xidmət göstərilməsini bu və ya digər səbəblər üzündən hələ öyrənməmişik.

Mən onu da soruşmaq istəyirdim ki, indi hava limanının ətrafındakı ərazidən necə istifadə edilir? Orada avtomobil dayanacağı var. Onu əslində kim idarə edir? Deyirlər ki, hüquq-mühafizə orqanları – polis və prokurorluq. Burada arabalardan danışdılar, onlar kredit hesabına alınıbdır. Mən indi bir misal çəkəcəyəm. Televiziya buradadır və fikirləşirəm ki, hər şeyi açmağa dəyərmi?

**H e y d ə r Ə l i y e v:** Aç, aç.

**A r t u r R a s i z a d ə:** Ötən ilin axırlarında Yaponiyanın konsulu gəlmişdi. Ona araba lazım idi. Deyir ki, istəyərəm öz yükümü araba ilə özüm apararam, istəyərəm sifariş verərəm və bunu başqası aparar. Yox, araba yoxdur. Pul ödəmək lazımdır, çünki arabalar hansısa bir qrupdadır, ona müştəridən asılı olaraq bir neçə «şirvan» vermək lazımdır və sair, onda biz sizə araba verərik. O deyir: Əgər yazılıbsa ki, araba üçün pul ödəmək lazımdır, mən ödəməyə hazıram. Axı belə şey yoxdur.

Səfirlər deyirlər ki, bu, yəqin, rüsumsuz ticarət mağazası olmayan yeganə hava limanıdır. Restoran indiyədək 8 aydır işləmir.

**H e y d ə r Ə l i y e v:** Halbuki, orada nə qədər mağaza tikilmişdir.

**A r t u r R a s i z a d ə:** Cənab prezident, son vaxtlaradək gül mağazası yox idi. Bəlkə birisi kimisə qarşılayır. Axı bu mədəniyyətdir, kiçik bir məqamdır. Lakin bu, ölkənin imici məsələsidir, bunu nəzərə almaq lazımdır. Biz deyəndən bir neçə gün sonra mağaza açıldı.

**H e y d ə r Ə l i y e v:** Demək, biz bu işi araşdırmağa başlayandan sonra bunlar gül mağazası açıblar?

**A r t u r R a s i z a d ə:** Bəli. Hava limanında 8 aydır restoran işləmir. Axı oradan gəlir götürmək olardı. Biz nəyi gözləyirik?

**H e y d ə r Ə l i y e v:** Axı oradan gələn gəlirdən də gərək krediti qaytaraq. Bu, bizim babamızın pulu deyildir. Biz oranı sizə vermişik işlədəsiniz, gəlir götürək və bu gəlirlə krediti qaytaraq.

**A r t u r R a s i z a d ə:** Oradakı maşın dayanacaqlarından da, rüsumsuz mağazadan da gəlir gəlməlidir.

Cənab prezident, siz doğrudan da çox dəqiq deyirsiniz ki, bu kreditləri qaytarmaq lazımdır.

**H e y d ə r Ə l i y e v:** Necə yəni, sən özün mənə demədin ki, büdcədən beş milyon verildi? İndi biz büdcədən nə qədər qaytara bilərik?

**A r t u r R a s i z a d ə:** Bəli, dedim. İndi onu qaytarmağa imkanımız olmayacaqdır.

Ölkəmizə bir neçə dəfə gələn bu yapon Sumqayıtdakı kimya obyektində enerji blokunun tikintisində iştirak edir. Sərhədçilər deyirlər ki, sənin vizanın müddəti qurtarıbdır. O isə burada dəfələrlə olubdur. Onun pasportunu açsan görərsən ki, o, Azərbaycanda 10 dəfə olubdur. Sərhədçilər deyirlər. Sənin vizan yoxdur. Yaxşı, viza yoxdur, qayda ki var – o da çox yaramır, çünki sistem hələlik işləmir, deməli, kağız verməlidirlər, onu XİN-ə təqdim edirlər və iki gündən sonra pasport qaytarılır. Bizə 5-6 ildir gəlib-gedən, Sumqayıtda obyekt, - onun üçün Yaponiya hökuməti bizə kredit ayırıb, - tikən adama deyirlər. Dəvətnaməni göstər. O deyir: Məndə dəvətnamə yoxdur. Yaxşı ki, onda Nazirlər Kabinetinin məsul işçilərinin telefonları var. O, oraya zəng edir, Xarici İşlər Nazirliyinə zəng edir. Oradan hava limanına zəng vurub vəziyyəti izah edirlər; sərhədçi, məsələ ondadır ki, bu adam qonaqdır, buraya gəlib, ona kağız verin. Yox. Bundan sonra onu üç saat saxlayırlar, o isə astma xəstəliyi olan adamdır. O, Tokioya qayıdır və orada sərmayələrə dair konfransda deyir ki, onu hava limanında bilərəkdən üç saat saxladılar.

**H e y d ə r Ə l i y e v:** Bir dəqiqə dayan, mən sakit otura bilmirəm. Novruzov, o yapon casusdur, nədir? O, buraya terror etməyə gəlib? Bu nə biabırçılıqdır? Mən səni buraya çıxaracağam. A kişi, mən buna daha dözə bilmirəm. O, burada iş görən adamdır, yapondur, neçə dəfə Azərbaycana gəlibdir. Onun pasportunda vizası var, amma üç saat orada saxlayırsınız. Sizə ayıb deyilmi, utanmırsınızmı? Kimə xidmət edirsiniz? Dövlətə, ya kimə xidmət edirsiniz? Yaxud, dövlətin əleyhinə xidmət edirsiniz? Əyləş.

**A r t u r R a s i z a d ə:** Sərhədçilər yaponiyalıya deyiblər ki, qonaq gəlmisən də, bizə hədiyyədən, puldan ver.

**H e y d ə r Ə l i y e v:** Sərhədçilər deyib?

**A r t u r R a s i z a d ə:** Bəli, belə deyiblər.

**H e y d ə r Ə l i y e v:** Həmin o yaponlara deyiblər? Məncə bu, birinci hadisə deyil.

**A r t u r R a s i z a d ə:** Bu, yeganə hal deyildir.

Burada Əsgərov gediş və gəliş üçün keçidin texnologiyasını izah etdi, bunu təkrarlamaq istəmirəm. Cənab prezident, rüsvayçılıqlar daha çoxdur.

Elə o başabəla arabaların timsalında da görürük. Orada hüquq-mühafizə orqanları, konsern var. Əgər bu işdə qayda-qanun yaratmaq mümkün deyilsə, onda təbii olaraq, belə bir sual meydana çıxır: əgər biz görmürüksə, onda nə üçün hamı orada olmalıdır? Yox, əgər görürüksə və tədbir görmürüksə, onda nə üçün? Deməli, nə isə maraq var. Cənab prezident, əgər hər şeyi olduğu kimi göstərsək, onda deməliyəm ki, aerovağzal kompleksi gəlirli yerə çevrilmişdir. Beynəlxalq standartlara uyğun gələn bu və ya digər tədbirlər tətbiq edilməyə başlandıqda elə təsəvvür yaradırlar ki, guya bütün bunlar ölkənin təhlükəsizliyinin təmin olunması naminə edilir.

Mənə elə gəlir ki, bu, dözülməz vəziyyətdir, hamı müvafiq nəticələr çıxarmalıdır.

Sabitlik yaradılmışdır, islahatlar gedir, iqtisadiyyat sahəsində böyük çətinliklə müəyyən irəliləyiş əldə edilmişdir. Neftdən fayda gəlməyə başlamışdır, qeyri-neft sektoruna vəsait qoyulur və sair. Etimad böyükdür. Yaponiyalı ilə belə rəftar edilməsinə baxmayaraq, bizim daha böyük proqramımız var. Ayın axırında ərəb sərmayə təsisatları nümayəndələrinin bir qrupu gələcək və sair. Vaxtınızı buna almaq istəmirəm. Bütün bunların fonunda belə faktlar dözülməzdir.

Ona görə də bu sektora bilavasitə cavabdeh olanların hamısı, o cümlədən də biz, - cənab prezident, mən tənqidi öz ünvanıma da qəbul edirəm, - yaranmış vəziyyəti düzəltmək üçün ən ciddi nəticələr çıxarmalıyıq.

**H e y d ə r Ə l i y e v:** Bir sual. Sən mənə dedin ki, aerovağzalın qarşısındakı bu geniş meydan maşın dayanacağı üçün nəzərdə tutulub və hava limanı oradan gəlir götürməlidir. Maşın lazım olduğundan da çoxdur. Bundan hava limanı nə kimi gəlir götürür?

**A r t u r R a s i z a d ə:** Mən bunu onlardan soruşduqda cavab verə bilmədilər. Gəlir cüzidir, çünki havadarlar var.

**H e y d ə r Ə l i y e v:** Kimlərdir?

**A r t u r R a s i z a d ə:** Mənə deyirlər ki, polis və prokurorluqdur. O, edə bilməz. Burada bir dairə yaranıbdır. Ya da o, məsələni kəskinləşdirməli, həll etməlidir, lakin xoşagəlməz hallarla qarşılaşarsan və sair. Amma, görünür, orada olan bütün xidmətlərin əli var, ona görə də bu problemə barmaqarası baxmışlar.

**H e y d ə r Ə l i y e v:** Sən mənə dedin ki, orada aviasiya prokuroru var. Məncə, oranın sahibi əslində odur. Sən (*Cahangir Əsgərova müraciətlə*) Rəsizadəyə demişdin, o da mənə dedi. Elədirmi?

**C a h a n g i r Ə s g ə r o v:** Elədir.

**H e y d ə r Ə l i y e v:** Əyləş. Vəssalam?

**A r t u r R a s i z a d ə:** Mən hər şeyi dedim.

**H e y d ə r Ə l i y e v:** Yaxşı, əyləş. Əsgərov, restoran niyə 8 aydır işləmir?

**C a h a n g i r Ə s g ə r o v:** Cənab prezident, 16 şirkətlə danışıqlar aparırıq. İndi tender sənədləri hazırlayırıq.

**H e y d ə r Ə l i y e v:** Tender nəyə görədir?

**C a h a n g i r Ə s g ə r o v:** Ona görə ki, böyük obyektdir, təxminən 12 min kvadratmetr sahəsi var. İndi Azərbaycanda elə bir şirkət yoxdur ki, təklikdə onu icarəyə götürsün. Bir-iki aya qədər icarəyə verəcəyik.

**H e y d ə r Ə l i y e v:** Azərbaycanda hər döngədə bir restoran açılıbdır. Bakıda daha restoran əlindən tərpənməyə yer yoxdur. Mən bu restoranları bilmirəm, görmürəm, amma gələn qonaqlar bəzən deyirlər ki, filan restoran belə gəldi, filan restoran belə getdi. Bu təbiidir. İndi biz sərbəstlik vermişik, əgər əhalinin ehtiyacı varsa və restoranlar da əhaliyə xidmət edirsə, qoy olsun. Belə olan halda ən gözəl binanı, hansı ki, orada insanlara bu xidməti göstərmək lazımdır – onu boş saxlamısan. Axı sən oradan gəlir götürəcəksən. Mən yenə də deyirəm, biz aldığımız kreditləri qaytarmalıyıq. Yoxsa hesab edirsən ki, bunu sizin üçün müftə tikmişik?

Mağazaları niyə verməmisən, ona da şirkət lazımdır?

**C a h a n g i r Ə s g ə r o v**: Hamısını bir yerdə verəcəyik.

**H e y d ə r Ə l i y e v:** Bir yerdə?

**C a h a n g i r Ə s g ə r o v:** İcarəyə verəcəyik.

**H e y d ə r Ə l i y e v:** A kişi, icarəyə ver də. Mağazanı gərək restoranla bir yerdə icarəyə verəsən?

**C a h a n g i r Ə s g ə r o v:** Cənab prezident, hava limanının ərazisi rejim zonasıdır. Qanun çıxarmaq lazımdır ki, hava limanının ərazisi vergidən azad edilsin.

**H e y d ə r Ə l i y e v:** Yaxşı, niyə yazmamısan ki, qanun çıxmalıdır? Səkkiz aydır niyə yazmamısan? İndi yazacaqsan, çünki on gündür səni silkələyirik. İndi deyirsən ki, onu edirik, bunu edirik. Bəs bu səkkiz ayda harada idin, nə işlə məşğul idin? Restoranın işini təmin etməmisən, mağazaları işlətmirsən. Səni çağırıb burada bir az danışdırandan sonra gedib gül mağazası açdırmısan. Bu gül mağazasına da şirkət lazımdır? Bakıda avtomobillə gedirsən, hər tində bir gülsatan var, gülü küçədə satır. Amma sən ona bir mağaza versən, o gülsatana icarəyə versən ki, gətirib satsın, pul da qazanar, icarə haqqı da verər, camaata da xidmət edər.

Demək, bu, sənin səhlənkarlığındır. Amma səhlənkarlıq deyil, məsuliyyətsizliyindir. Dəhşət! Tamamilə dəhşətli bir şeydir! Mən təsəvvür eləyə bilməzdim. Millətinə, ölkəsinə, dövlətinə, nə cür deyim, zərbə vuran hal mən görməmişdim. Nə çətinliklə, nə əziyyətlə biz bunu yaratmışıq, indi gör bu adamlar buna nə cür münasibət göstərirlər.

Sərhəd Qoşunlarının komandanı, orada niyə belə vəziyyət yaratmısan? Nəyə nail oldunuz?

**A b b a s ə l i N o v r u z o v:** Cənab prezident, burada sərhədçilərə irad tutulan məsələlərin heç birini mənə heç kim deməyib, mənim xəbərim yoxdur. Mən altı ay bundan qabaq Bakı nəzarət-buraxılış məntəqəsinin rəisini – polkovniki götürüb getmişəm Cahangir Əsgərovun kabinetinə. Xahiş etmişəm ki, hava limanının xidmət rəislərini çağırsın, sərhədçilərə nə iradları varsa, mənə desinlər və nəzarətə götürüm.

Cahangir Əsgərov mənə bir irad tutub – təyyarənin pilləkəni yanındakı əsgərləri oradan götürüm. Mən də ona demişəm ki, pilləkənin yanındakı əsgərləri iki səbəbə görə götürə bilmirəm: birincisi, hava limanının ərazisində həddindən artıq lazım olmayan adamlar gəzirlər. Onlar can atırlar ki, gömrük xidmətindən, sərhəd xidmətindən keçməmiş təyyarəyə otursunlar. Belə hallar olub, biz tutmuşuq. İkincisi, gömrük, sərhəd nəzarətindən yayınıb təyyarəyə oturan vətəndaşlara dollar verirlər, biz bir nəfərdə bunu tutduq. «Azərbaycan Hava Yolları» Konserni bir təşkilatın mühasibinə buraxılış vərəqəsi verib ki, o, istədiyi vaxt hava limanına gəlib-gedə bilər. Həmin adam gömrük nəzarətindən keçirilmədən 90 min dolları bir nəfərə verərkən sərhədçilər tərəfindən tutulmuşdur. Belə hallar olmasa həmin əsgərlər orada lazım deyildir, mən onları bu gün oradan götürməyə hazıram.

**H e y d ə r  Ə l i y e v:** Tutaq ki, sərnişin gəlir, - burada danışdılar, - hansı yollardan keçir və sərhədçilər onları incidirlər. Bu, nəyə lazımdır?

**A b b a s ə l i  N o v r u z o v:** Cənab prezident, mən bilmirəm ki, hansı dəhlizdən söhbət açılır. Əgər mən buradayamsa, dəfələrlə mənimlə danışırlar, bir dəfə desinlər...

**H e y d ə r  Ə l i y e v:** A kişi, o, sənə niyə zəng edəydi? Niyə açırsan? Hər biriniz özünüzü padşah hesab edirsiniz – o, mənə zəng eləsin! Bu, sənin vəzifəndir. Sənə orada o sistemi qurmağa kim ixtiyar veribdir?

**A b b a s ə l i  N o v r u z o v:** Cənab prezident, mən bütün məsuliyyətimlə deyirəm, - orada belə bir dəhliz yoxdur.

**H e y d ə r  Ə l i y e v:** Var. O sistem ki, bu danışdı, o sistem beynəlxalq aeroportlarda yoxdur. Sən onu özündən qurmusan. Bunu nəyin əsasında qurmusan?

**A b b a s ə l i  N o v r u z o v:** Cənab prezident, mən orada belə dəhliz qurmamışam. Yoxdur.

**H e y d ə r  Ə l i y e v:** Orada o sistemi sən qurmusan?

**A b b a s ə l i  N o v r u z o v:** Yox, cənab prezident.

**H e y d ə r  Ə l i y e v:** Bəs kim qurub?

**A b b a s ə l i  N o v r u z o v:** Hansı sistemdən söhbət getdiyini mən bilmirəm.

**H e y d ə r  Ə l i y e v:** Orada Sərhəd Qoşunlarının xidmət sistemini sən qurmusan, yoxsa yox?

**A b b a s ə l i  N o v r u z o v:** Bəli, onlar ancaq pasportları yoxlamaq üçün dayanırlar.

**H e y d ə r  Ə l i y e v:** Sən qurmusan?

**A b b a s ə l i  N o v r u z o v:** Bəli, mən qurmuşam.

**H e y d ə r  Ə l i y e v:** Bəs niyə elə qurmusan? Nə üçün heç kəsdən icazə almamısan? Niyə özbaşına elə şey qurmusan?

**A b b a s ə l i  N o v r u z o v:** Cənab prezident, mən elə sistem qurmamışam, aeroportda yoxdur. Mən xahiş edirəm, komissiya yaradılsın...

**H e y d ə r  Ə l i y e v:** A kişi, necə yoxdur? Baş nazir burada danışmır?

**A b b a s ə l i  N o v r u z o v:** Bir nəfər yaponu deyirlər.

**A r t u r  R a s i z a d ə:** Xeyr, təkcə yaponlar deyil, Azərbaycanın nazirlərindən bir neçəsi bu yaxınlarda Norveçə səfərdən qayıdanda belə halla qarşılaşmışdı. Beş nazir təyyarənin içində qalmışdı, pilləkəni gətirib qoymurdular.

**Ə l i  Ə s ə d o v** (*prezidentin köməkçisi*): Bəli, cənab prezident, yanvar ayında sizin tapşırığınızla Norveçə səfər edib qayıdanda beş nazir təyyarədə qalmışdı. Norveçin səfiri də bizimlə idi, xəcalət çəkdik. Düz yarım saat qapını açmadılar. Nazirlər, biz özümüzü təqdim etdik, danışdıq, dedik. Ondan sonra yarım saat qapı açılmadı. Məqsəd də nə idi? Sərhədçi gəlməlidir, pasportları yoxlamalıdır. Hava limanı xidmətinin işçiləri gedir, sərhədçi gəlir, sərhədçi gedir, hava limanının xidmətçisi gəlirdi. Orada bizi səfirlə birlikdə yarım saat təyyarənin içində saxladılar.

**H e y d ə r  Ə l i y e v:** Nə deyirsən buna?

**A b b a s ə l i  N o v r u z o v:** Belə hal qəti yolverilməzdir, böyük qəbahətdir.

**H e y d ə r  Ə l i y e v:** A kişi, sən indi burada deyirsən, bu yolverilməzdir. Bu, sənin vəzifəndir! Səni nə üçün o vəzifəyə təyin eləmişik? Nə üçün general rutbəsi vermişik? Bütün bu imtiyazlardan istifadə edirsən, vəzifəni də yerinə yetirə bilmirsən. Mən səni azad edərəm, çıx get – əgər sən bu etimadı qiymətləndirə bilməmisənsə. Burada mənim sualıma da cavab verə bilmirsən.

Aeroportda bütün bu sistemlər müəyyən zonalar üzərində qurulmalıdır. Burada biz həmişə beynəlxalq normaları götürürük, onlara baxırıq, özümüzə uyğunlaşdırırıq. Bu sistemi orada sən qurmusan ki, sərnişinlər bütün yoxlamalardan sonra sərhədçilərin, nə təhər deyərlər, sərhədçi əsgərlərin dəhlizindən keçməlidir. Bu nədir, bu nə biabırçılıqdır? Sən aeroportu mühafizə edirsən, elə. Bəs bu nədir? Sərhədçi pasportu götürüb yaponu üç saat saxlayıbdır. Bu nədir? Gərək bunların hamısını gəlib sənə xüsusi məruzə eləsinlər? Ondan sonra da düşünəcəksən ki, sən bunu yerinə yetirə biləcəksən, yoxsa yox? Otur, bilirəm, sən heç bir şey deyə bilməzsən və mən sizin işiniz haqqında deyəcəyəm.

**K ə m a l ə d d i n  H e y d ə r o v** (*Dövlət Gömrük Komitəsinin sədri*): Möhtərəm cənab prezident!

Danılmaz həqiqətdir ki, sizin müdrik siyasətiniz, yüksək dövlətçilik məharətiniz və sarsılmaz qətiyyətiniz sayəsində Azərbaycan dövlətçiliyi xaosdan və dağılmaq təhlükəsindən qurtarmış, onun nüfuzu yüksəlmiş və haqq işi dünya səviyyəsində...

**H e y d ə r  Ə l i y e v:** Bunlar lazım deyil, bu sayaq sözlər bizə lazım deyildir. Burada siyasi müzakirə aparmırıq – nə qurtarıb, nə qurtarmayıbdır. Buraya işdən ötrü çağırmışıq ki, konkret cavab verəsiniz.

**K ə m a l ə d d i n  H e y d ə r o v:** Baş üstə. Gömrük Komitəsinin yeni strukturu təsdiq ediləndən sonra Binə gömrükxanasının bazasında hava nəqliyyatında Baş Gömrük İdarəsi yaradılmışdır.

Hava limanının açılışı zamanı, hətta açılışdan əvvəl söylədiyiniz sözlərə – köhnə hava limanında olan qurğularla bərabər, bütün şəxsi heyəti də yeniləşdirmək, vicdanlı insanları gətirmək və işlətmək lazımdır – prinsipinə əsaslanaraq, oraya təyin etdiyimiz gömrük əməkdaşlarını növbəti dəfə attestasiyadan keçirmişik. Buna baxmayaraq, cənab prezident, yeni attestasiyadan keçmiş və oraya təyin edilmiş əməkdaşlardan 30 nəfəri

hava limanı açıldıqdan sonra gömrük orqanından azad olunmuş, 42 nəfərə töhmət elan edilmişdir. 23 nəfər təkrar attestasiyadan keçirilmiş, 30 nəfər gənc əməkdaş ixtisasartırma kursuna, 3 nəfər TASİS proqramı çərçivəsində keçirilən seminarlara cəlb olunmuşdur.

Cahangir Əsgərov gömrük orqanlarının işində olan nöqsanlardan danışdı. Bəli, onun danışdıqlarında bəzi həqiqətlər var, amma bunlar tək-tək hallardır və biz qarşısını almağa çalışırıq. «İstrey» aparatlarının hamısının bir vaxtda açılmaması məsələsi tam həqiqətə uyğun deyildir. Çünki bəzi reyslər üst-üstə düşdüyünə görə orada mövcud olan aparatların əvəzinə Amerika Birləşmiş Ştatlarından alınıb gətirilmiş yeni «İstrey» aparatları qoyulmuşdur.

O ki qaldı başqa ölkələrdən gələrkən sərnişinlərin hava limanına daxil olması məsələsinə, təhvil verilmiş baqaj tam ayrı istiqamətdə yük şöbəsinə gedir. Əl baqajlarına gəldikdə isə, bizim qanunda elə bir şey göstərilməyib ki, bütün vətəndaşlar yoxlanılmalıdır.

**H e y d ə r Ə l i y e v**: Bəs niyə yoxlayırsınız?

**K ə m a l ə d d i n H e y d ə r o v:** Cənab prezident, biz bütün vətəndaşları yoxlamırıq. Ancaq şübhəli şəxsləri...

**H e y d ə r Ə l i y e v:** İndicə dedilər ki, hamısını yoxlayırsınız.

**K ə m a l ə d d i n H e y d ə r o v:** Xeyr, cənab prezident, yəqin bir balaca səhv məlumatdır. Biz bütün vətəndaşları yoxlamırıq. Bizim rəqəmlərimizdən də görünür ki, əgər onların hamısını yoxlasaq, çox böyük xaos yaranar.

**H e y d ə r Ə l i y e v:** Orda xaos var da. Belə xaosa görə mən sizi buraya çağırmışam. Xaos olmasaydı, mən niyə buraya çağırıram və niyə iki saatdır vaxtım itirilir? Sonra?

**K ə m a l ə d d i n H e y d ə r o v:** Cənab prezident, gördüyümüz tədbirlər nəticəsində fiziki şəxslərdən topladığımız rüsumlar ötən illərə nisbətən və yeni hava limanının yaxşı işləməsinə görə təxminən 2,5 dəfə artmışdır. Bununla yanaşı, söyləmək istəyirəm ki, oradakı hüquq – mühafizə orqanları arasında əvvəllər mövcud olan gərginliklər nisbətən də olsa aradan götürülmüşdür. Ancaq eyni zamanda müəyyən anlaşılmazlıqlar olur, bunları da aradan götürürük.

**H e y d ə r Ə l i y e v:** Aradan götürülməyib, sən nə danışırsan? İki saatdır orada olan biabırçılıqlardan danışırıq, sən isə deyirsən ki, aradan qaldırılıbdır. Nə aradan götürülübdür? Bir qızıl zəncirdir, nədir, deyirsən?

**C a h a n g i r Ə s g ə r o v:** Bəyannaməyə görə qızıl saat, qızıl üzük, qızıl boyunbağı olduğunu yazmaq tələb edilir.

**H e y d ə r Ə l i y e v:** Bu yazılmalıdır?

**K ə m a l ə d d i n H e y d ə r o v:** Bəli, cənab prezident, bəyannamə standart formadır.

**H e y d ə r Ə l i y e v:** Yəni bu, beynəlxalq aləmdə də belədir?

**K ə m a l ə d d i n H e y d ə r o v:** Yəni özü ilə apardığı qızıl əşyaları göstərir. Başqa bir əlavə yoxlamadan keçmirlər.

**H e y d ə r Ə l i y e v:** Hamınızın qızıl saatları var, özü də çox zəngindir. Başqa aeroportlardan gedəndə yoxlayırlar ki, sənin qızıl saatın var, ya yox?

**K ə m a l ə d d i n H e y d ə r o v:** Xeyr, cənab prezident.

**H e y d ə r Ə l i y e v:** Bəs burada niyə yoxlayırlar?

**K ə m a l ə d d i n H e y d ə r o v:** Bizdə də yoxlamırlar, sadəcə, bəyannamədə yazılır.

**H e y d ə r Ə l i y e v:** Sən Fransaya, Amerikaya, yaxud da Almaniyaya gedəndə bəyannamədə yazırsan ki, qızıl saatın var?

**K ə m a l ə d d i n H e y d ə r o v:** Bəyannamə tələb olunan ölkələrdə yazırıq.

**H e y d ə r Ə l i y e v:** Orada bəyannamə tələb olunur?

**K ə m a l ə d d i n H e y d ə r o v:** Bilirsiniz, cənab prezident, bu, keçmiş vaxtdan qalmış standart formadır.

**H e y d ə r Ə l i y e v:** Niyə keçmiş vaxtdan? Axı indi biz yeni vaxtdayıq.

**K ə m a l ə d d i n H e y d ə r o v:** Biz bunu ləğv eləməliyik.

**H e y d ə r Ə l i y e v:** Qolundakı saatı görüm, qızıldır?

**K ə m a l ə d d i n H e y d ə r o v:** Xeyr.

**H e y d ə r Ə l i y e v:** Biclik eləmisən, buraya gəlmisən, bilmisən ki, soruşacağam. Buradakıların 90 faizinin saatı qızıldır. Təkcə qızıl deyil, filanı-feşməkanı da var. Hamısı da dünyanı gəzibdir. Harada deyiblər ki, qızıl saatı bəyannamədə göstər? Bir çoxunuzun arvadları da qızıl bəzəkləri ilə oraya-buraya gedirdilər – bilirəm. Onlardan harada soruşurdular ki, brilyant kulondur, nə bilim, brilyant üzükdür, filandır, - bunu niyə bəyannaməyə salmamısan? Harada olubdur?

Keçmişdən var, sən indi bunu niyə edirsən? Sən keçmişdə yaşayırsan, ya indidə yaşayırsan? Sizin hər birinizin borcu ondan ibarətdir ki, bizi keçmişin bu yaramaz hallarından və sovet sistemindən qalmış, beynəlxalq normalara uyğun olmayan hallardan təmizləmək lazımdır. Bu da sənin borcundur, mənim borcum deyil ki!

Həm sərhədçilər, həm gömrükçülər, həm polis rüşvət alırlar. Niyə? Adi adamlardan rüşvət alırlar.

**Kəmaləddin Heydərov:** Cənab prezident, belə hallar olmuşdur.

**Heydər Əliyev:** Niyə, bu nə vaxt qurtaracaq?

**Kəmaləddin Heydərov:** Son üç ay ərzində biz 30 nəfəri işdən azad eləmişik.

**Heydər Əliyev:** Azad eləmisən, nəticə nədir?

**Kəmaləddin Heydərov:** Belə hallar nisbətən azalıb, amma yenə də var.

**Heydər Əliyev:** Niyə nisbətən? Niyə gərək əvvəldən zibilləyəydiniz ki, sonra da onu nisbətən yaxşılaşdırasınız? Otur.

Daxili işlər naziri. Usubov yoxdur, birinci müavin.

**Zahid Dünyamalıyev:** Möhtərəm prezident!

Mən sizin vaxtınızı almamaq üçün həm Əsgərov cənablarının hesabatında, həm də Rəsizadə cənablarının çıxışında polis orqanlarının ünvanına deyilmiş iradlar üzərində dayanmaq istəyirəm.

**Heydər Əliyev:** Dayan görüm. Azərbaycanda bu söz haradan çıxıbdır – «cənabları, cənabları?» (Xarici işlər naziri Vilayət Quliyevə müraciətlə): Sən dilçisən, bəlkə deyə bilərsən?

**Vilayət Quliyev:** Çarizm dövründə sənədlərdə işlənirdi. Amma müraciət edəndə «cənab» demək lazımdır.

**Heydər Əliyev:** Biz «mister» deyirik də, elə dünyada da. İndi, nə bilim, «Əsgərov cənabları, Rasizadə cənabları», nə bilim, «Vilayət Quliyev cənabları, o birisi cənabları...». Axı niyə «cənabları»? Neçə nəfər adamdır ki, «cənabları» deyilsin?

**Vilayət Quliyev:** Köhnə vaxtda şahlara, yüksək rübbəli şəxslərə «cənabları» deyərdilər.

**Heydər Əliyev:** «Cənabları». İndi burada hamısı şahdır?

**Vilayət Quliyev:** Türkiyədə Dəmirəl haqqında danışanda cəm halda deyirlər.

**Heydər Əliyev:** Yox, yox. «Sayın cümhur başkanı».

**Vilayət Quliyev:** O müraciətdir.

**Heydər Əliyev:** Bu da müraciətdir də. Türkiyədə çox gözəl bir müraciət var. Orada nə «cənabları», nə başqaları var. Orada gözəl bir çöz var: sayın cümhur başkanı, sayın bakan. Sayın Vilayət Quliyev, sayın filankəs.

Burada «cənabları» sözünü kim çıxarıb, - mən başa düşmürəm. Mağazada oturanlara da deyirlər ki, «filankəs cənabları». Mən prezidentəm, istəmirəm ki, mənə «cənabları» deyəsiniz. Elə bilməyin ki, mən özümə görə deyirəm. Əgər «cənab prezident» desə, mənim üçün bəsdir. Çünki indi biz bunu qəbul eləmişik, dünyada da belədir. Mən xarici ölkələrdə nə qədər görüşlər aparıram, bəli, çoxu ingilis dilində danışır: «mister prezident», qurtardı.

Amma burada «cənabları, cənabları». Bir adam da yoxdur desin ki, - gərək buna da mən qarışam, - ay qardaş, bizim dilimizə bu sözü kim salıbdır, nə təhər salıbdır? İcra hakimiyyətinin başçısına deyirlər «filankəs cənabları», nə bilim, zavod direktoruna deyirlər «filankəs cənabları». Burada indi deyir «Əsgərov filankəs cənabları», «Baş nazir, - ola bilər, bəlkə bir azdan cənabları oldu, amma o da olmamalıdır, - cənabları».

**Zahid Dünyamalıyev:** Səhvimizi düzəldərik.

**Heydər Əliyev:** Yəqin sən də orada Usubova deyirsən ki, «Usubov cənabları». Usubov da sənə deyir ki, «Dünyamalıyev cənabları».

**Zahid Dünyamalıyev:** Bizdə müraciət forması hərbi qaydadadır, ona görə «cənabları» sözündən istifadə eləmirik.

**Heydər Əliyev:** Bəs bunu harada istifadə edirsən, niyə istifadə edirsən?

**Zahid Dünyamalıyev:** Dilimizə düşüb, görünür, ona görə.

**Heydər Əliyev:** Yaxşı. Mən elə çoxdan fürsət axtarırdım bu barədə deyim. Hərdənbir fürsət düşür. Mən xahiş eləyirəm və bizim mətbuat orqanlarına, radioya, televiziyaya da deyirəm ki, «cənabları» sözünü aradan götürmək lazımdır. Yəni bu, mənim əmrim deyil, prezident kimi əmr eləmirəm. Sadəcə, belə təcrübə yoxdur.

Vilayət Quliyev professordur, dilçidir, ədəbiyyatçıdır. O da deyir ki, keçmişdə şahlara, padşahlara cəm şəklində «cənabları» deyirdilər. Bəli, var – zati-aliləri. Bunu ancaq dövlət başçılarına deyirlər. Amma burada belədir ki, hər bir adam «cənabları» olubdur. «Cənab» olar, olmalıdır. Bunu tək sənə demirəm, bütün bizim ictimaiyyətə deyirəm. Televiziya da yazır, hamıya çatdırsın. Danış.

**Zahid Dünyamalıyev:** Əsas iradlardan biri və birincisi Binə hava limanında polis orqanları tərəfindən pasport yoxlamalarının aparılmasıdır. Bildiyiniz kimi, 1995-96-cı illərdə Azərbaycan Respublikasında dövləti cinayət törədib məsuliyyətdən yaxa qurtarıb qaçıb gizlənən şəxslərin axtarışı Daxili İşlər Nazirliyi qarşısında qoyulmuş ən vacib, ən mühüm vəzifələrdən biridir. Bununla əlaqədar hələ 1996-cı ildən başlayaraq respublika Daxili İşlər Nazirliyi Bakının Binə hava limanında bu tədbirlərin görülməsini təşkil etmişdir.

Axtarışda olan cinayətkarların tutulub ədalət məhkəməsinə təhvil verilməsi...

**Heydər Əliyev:** Bilirsən nə var, düz demirsən. Bunu o vaxt təşkil eləməyiblər. Aeroportda polis elə 1991-ci ildə də olub. 1992-ci ildə də olub. 1993-cü ildə də olubdur. Özü də çox vaxt aeroportdakı polis hər

şeydər üstün olubdur. İndi sən deyirsən ki, 1995-1996-cı illərdə cinayətkarları axtaranda yaranıbdır. Düz demirsən, niyə belə yalan danışırsan? Niyə yalan məlumat verirsən?

**Z a h i d  D ü n y a m a l ı y e v:** Möhtərəm prezident, mən bu məsələnin necə olduğunu aydınlaşdırım. Deməli, son illər...

**H e y d ə r  Ə l i y e v:** A kişi, mən Moskvadan buraya 1990-cı ildə gəlmişəm, polis aeroportda idi. Naxçıvandan neçə dəfə buraya, aeroporta gəlmişəm, polis aeroportda idi. 1993-cü ildə mən buraya gələndən polis aeroportdadır. Sən deyirsən ki, 1995-1996-cı illərdə.

**Z a h i d  D ü n y a m a l ı y e v:** Möhtərəm prezident, sonradan polis aeroportdan çıxarılıbdır, indi siz dediyiniz səviyyədə deyildir. 1999-cu ilin martında təsdiq olunmuş texnoloji sxemə görə polis ancaq gözləmə zalında ictimai asayişin qorunması ilə məşğul olur. Bir nəfər elektron hesablama texnikasından istifadə etməklə pasportların qeydiyyatı ilə məşğul olur, iki nəfər isə gömrük zonası ilə sərhəd zonası arasında ictimai asayişin qorunması ilə məşğuldur. Yəni hər növbədə Bakı hava limanının daxilində 8 nəfərə qədər polis əməkdaşı fəaliyyət göstərir.

**H e y d ə r  Ə l i y e v:** Əsgərov, belədir?

**C a h a n g i r  Ə s g ə r o v:** Elədir.

**H e y d ə r  Ə l i y e v:** Onda sən niyə polisdən şikayət eləyirsən?

**C a h a n g i r  Ə s g ə r o v:** Düz deyir, cəmi 8 nəfər iştirak edir. Bir nəfər adam gedən bütün sərnişinləri qeyd edir, yazır. Qoy bütün məlumatları kompüterdən bir nəfər götürsün.

**Z a h i d  D ü n y a m a l ı y e v:** Möhtərəm prezident, üzr istəyirəm, çətinliyin yaranması, kompüter məsələsi barədə deyim. İndi, yəni hava limanı tam şəkildə, kompleks halında təhvil verildikdən sonra orada kompleks kompüter sistemi işləyir. Biz 1999-cu ilin mart ayında o sxemi təsdiq etdiyimiz vaxt həmin sistem işləmirdi. Ona görə də məcbur olduq, ayrıca kompüter qoyduq, orada da bir nəfər əməkdaşımız həmin kompüterdə işləyir. Respublikada axtarışda olan bütün cinayətkarlar haqqında məlumat bazası həmin kompüterə yerləşdirilibdir. Qeydiyyatdan keçənlər arasında bizim axtarışda olan hər hansı bir obyektimiz varsa, kompüter vasitəsilə bunu bilirik və lazımi tədbirləri görürük.

Bunun nəticəsində təkcə 1999-cu ildə biz müxtəlif növ cinayətlər törətmiş və axtarışda olan 260 nəfərədək şəxsi tutub istintaq orqanlarına təhvil vermişik. Əgər bu gün hava limanında doğrudan da kompüter sistemi işləyirsə, biz həmin sistemə qoşula və lazım olan informasiyanı götürə bilərik. Bu halda həmin bir nəfərin orada oturmasına heç bir ehtiyac qalmır.

**H e y d ə r  Ə l i y e v:** Əgər polis oradadırsa, niyə hava limanının qarşısındakı meydanda qanun-qaydanın təmin olunmasını təşkil etmirsiniz?

**Z a h i d  D ü n y a m a l ı y e v:** Bu, içəridə əl baqajlarını aparmaq üçün arabalarla bağlı məsələdir. Daxili işlər orqanları Bakı hava limanında rejim məsələləri ilə məşğul olmur. Yəni orada içəriyə buraxılma məsələsi ilə polis məşğul deyildir. Hava limanının təhlükəsizlik xidməti var, buna onlar cavabdehdirlər.

**H e y d ə r  Ə l i y e v:** Bəs o meydandakı maşınlar? Bir mafiya da onlara nəzarət edir.

**Z a h i d  D ü n y a m a l ı y e v:** Ola bilsin, mən bunu inkar eləmirəm. Ancaq əgər hava limanında dayanacaq varsa, mən belə hesab edirəm ki, onun girişi və çıxışı olmalıdır. Hava limanı tərəfindən, yaxud başqa orqanlar tərəfindən onlardan girib-çıxmaq haqqı yığılmalıdır. Yəni bu, ödənişli olmalıdır.

**H e y d ə r  Ə l i y e v:** Yığmırlar axı. Haqqı gərək liman yığsın, gəlir götürsün, dövlətin büdcəsinə versin, biz kreditləri qaytaraq. Ancaq bu, müxtəlif adamların cibinə gedir.

**Z a h i d  D ü n y a m a l ı y e v:** Oradan müxtəlif adamları çıxarmaq mümkündür. Çünki əgər biz özümüz orada tədbir görmürüksə, kimsə gəlib girəcəkdir.

**H e y d ə r  Ə l i y e v:** Çıxarın. Görmədin, dedilər ki, orada polislə prokuror hakimlik edir.

**Z a h i d  D ü n y a m a l ı y e v:** Mən başa düşürəm, cənab prezident, ola bilsin, orada polisin əli var.

**H e y d ə r  Ə l i y e v:** Necə yəni ola bilər, əli var?

**Z a h i d  D ü n y a m a l ı y e v:** Bu, dövlətin maşın dayanacağıdır, dövlət də orada qayda-qanun yaratmalıdır. Yəni onun iki qapısı olmalıdır – giriş və çıxış qapıları. Ondan sonra polis gəlib oraya əlini sala bilməz ki, - gətirin görüm, bu gün burada beş maşın olub, üç maşın olub, - onun haqqını götürsün.

**H e y d ə r  Ə l i y e v:** Orada, o böyük meydanda həddindən çox avtomobil var. Yenə də təkrar edirəm, mən son vaxtlar Azərbaycana ziyarətə gələn dövlət başçılarını – həm Ukrayna prezidenti Leonid Kuçmanı, həm Türkiyə prezidenti Süleyman Dəmirəli, həm Qazaxıstan prezidenti Nazarbayevi, həm Qırğızıstan prezidenti Akayevi qarşılayarkən və yola salarkən, onlar, birincisi, bizim yeni aerovağzal kompleksinə, bir də deyirəm, çox böyük heyranlıqla baxırdılar, ikincisi də, baxırdılar ki, nə qədər avtomobil var. Amma bilmirdilər ki, orada qanun-qaydasızlıq da var. Onlar deyirdilər ki, əgər sizin hava limanında bu qədər avtomobil varsa, demək, iş də var, insanlar işləyirlər. Bu qədər avtomobil varsa, demək, Azərbaycanda insanların nə qədər avtomobilə malik olması görünür. Xaricdən gələn bütün qonaqlar deyirlər ki, indi Bakıda olan qədər avtomobil dünyanın ona bərabər şəhərlərində yoxdur, burada «Mersedes»lərin sayı yoxdur.

Mən buna mənfi münasibət göstərmirəm və heç kimə də irad tutmuram. Bu, nəyi göstərir? Onu göstərir ki, bizim insanların rifah halı yüksəkdir. Bu «Mersedes»lərin sahibləri hamısı milyonçular deyillər ki! Demək,

insanların rifah halı yüksəkdir. Mən şəhərdə küçələrlə gedirəm. Hansı küçə ilə gedirsən, - onun o tərəfində də, bu tərəfində də iki cərgə avtomobil durubdur. Vaxtilə, on il, on beş il öncə Avropa ölkələrinə gedəndə buna təəccüb edirdik ki, bu nədir, avtomobil küçədə niyə durubdur? Çünki yer yoxdur.

Əgər hər küçədə bu qədər avtomobil durursa və bizim aerovağzalın qarşısında 400, 500, 600, nə bilim, 1000 dənə avtomobil durursa, demək, bu, Azərbaycanın müsbət imicini göstərir. Yenə də deyirəm, bizim qonaqlar bunu belə qiymətləndirirlər. Mən də belə fikirdəyəm.

Ancaq iş bundadır ki, biz orada o böyüklükdə meydan açmışıq, oraları təmizləmişik, avtomobillər gəlib o meydanda duranda sahibləri haqq verməlidirlər. Amma burada Əsgərov da deyir, Artur Rasizadə də deyir ki, aeroport onlardan haqq yığa bilmir. Dünən mənə demişdi ki, cəmisi 1000 dollar yığıbdır. Orada haqqı polis, prokuror yığır. Deyirlər ki, orada bir prokuror var, oranı bütünlüklə əlinə keçiribdir. Necə yanlışdır? Deyirlər də. Yanlışdır, sübut eləyin ki, yanlışdır.

**Zahid Dünyamalıyev:** Aydındır, möhtərəm prezident. Lazım olan tədbirləri görəcəyik.

**Heydər Əliyev:** Bir sözlə, mən hamınıza deyirəm. Sizdən qabaq dediyim sözlər sizə də aiddir, daxili işlər nazirinə də aiddir.

Yaxşı, sən deyirsən, elə şey ola bilməz. Mənə de görüm, ümumiyyətlə, aeroportda prokurorun olmasına nə ehtiyac var?

**Eldar Həsənov** (*baş prokuror*): Cənab prezident, prokurorluğun strukturunu siz təsdiq edirsiniz, bu, sizin qərarınızla müəyyən olunur. Ancaq istəyirəm ki, ədalət naminə bir şeyi biləsiniz. Aviasiya prokuroru Respublika Prokurorluğunun vicdanlı işçisidir. Əsgərovla onun arasında konkret məsələlər üzrə olan mübahisələri mətbuatın iştirakı ilə müzakirəyə çıxarmaq istəmirəm. Birmənalı şəkildə bildirirəm ki, prokuror haqlıdır. Əgər Əsgərov istəyirsə ki, prokuror da onun tabeliyinə keçsin, təzyiqlə qərarlar qəbul etsin, - bu, mümkün deyildir.

**Heydər Əliyev:** Mən tamamilə razıyam ki, prokuror Əsgərovun tabeliyinə keçə bilməz. Ancaq mən soruşuram – aeroportda prokuror nəyə lazımdır?

**Eldar Həsənov:** Axı bu, bizim səlahiyyətimizdə deyildir.

**Heydər Əliyev:** Kimin səlahiyyətidir, mənim səlahiyyətimdir?

**Eldar Həsənov:** Strukturu siz təsdiq edirsiniz.

**Heydər Əliyev:** Mən bunu başımdan çıxarmamışam ki. Bunu siz vermisiniz, mən də təsdiq eləmişəm.

**Eldar Həsənov:** Əvvəlki strukturu siz təsdiq eləməmisiniz. Bugünkü günə qədər Azərbaycanda həmişə aviasiya prokuroru olubdur.

**Heydər Əliyev:** Olubdur. İndi get Paris aeroportuna, nə bilim, London aeroportuna, bizim üçün daha yaxın olan İstanbul aeroportuna get, - orada prokuror var? Prokuror yoxdur və olmamalıdır. Nə üçün? Mən sənə sübut eləyim. Əgər sən deyirsənsə ki, mən təsdiq eləmişəm, birincisi, mən təsdiq eləməmişəm. Əgər hansı bir şeyi siz vermisiniz, mən təsdiq eləmişəmsə, demək, bunun müəllifi sizsiniz.

Bir halda ki, bu gün bu məsələləri araşdırırıq, mən deyirəm, - orada prokuror olmamalıdır. Nə üçün? Əgər orada bir cinayət baş verirsə, onunla polis məşğul olur. Polis onu saxlayır, dindirir, nə bilim, gətirir. Onu həbs etmək lazımdırsa, cinayət işi qaldırmaq lazımdırsa, onda gəlib prokurordan sanksiya alır. Orada hansı bir rayonun prokuroru varsa, getsin, ondan sanksiya alsın. Daha orada prokuror saxlamağa nə ehtiyac var? Mən deyirəm ki, bu, düzgün deyildir. İki-üç gündür ki, bu məsələləri deyirlər. Ümumiyyətlə, nəqliyyatda prokuror məsələsi məni düşündürür. Amma indi o barədə qəti bir şey deyə bilmərəm. Ancaq aeroportda ümumiyyətlə, prokuror xidməti lazım deyil, onu ləğv eləmək lazımdır.

## YEKUN NİTQİ

Güman edirəm ki, iki saat müddətində burada aparılan kəskin, sərt danışıq iştirak edənlərin hamısını tam aydın etdi ki, bizim işlərimizdə və çox mühüm sahələrimizdə ciddi nöqsanlar, qüsurlar var, vəzifəsindən sui-istifadə halları var, şəxsi mənafelərini güdərək bizim ümumi işimizə zərər vuranlar var. Konkret olaraq aeroportdakı vəziyyət buna çox əyani nümunədir.

İndi bu gün gördünüz ki, mən bu məsələlərdən bir neçə gün əvvəl xəbər tutan kimi, narahat olmağa, bugünkü müşavirəni çağırmağa və bu cür kəskin söhbət aparmağa əsasım vardır. Çünki bu işdə məsul olan şəxslərin – «Azərbaycan Hava Yolları» Dövlət Konserninin baş direktoru Cahangir Əsgərovun, Sərhəd Qoşunlarının komandanı Abbasəli Novruzovun və Milli Təhlükəsizlik Nazirliyinin, daxili işlər naziri indi Ramil Usubovdur, bu gün burada Zahid Dünyamalıyev iştirak edir, Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Heydərovun, təbiidir ki, orada prokuror da varsa, respublikanın baş prokuroru Eldar Həsənovun - hamınızın günahı vardır.

Əgər bizim dövlətin, hökumətin hər bir strukturunun dövlətə, xalqa ürəyi yansaydı, birincisi, çalışardı ki, o nöqsanları buraxmasın. Onlar çalışardılar ki, orada olan biabırçı hallara yol verməsinlər. İkincisi də, əgər kim bunu edə bilmirdisə, kim kimdənsə qorxurdusa, kim kimdənsə çəkinirdisə, kimsə kimi incitmək istəmirdisə, onda gəlib müraciət etsinlər.

Mən bugünkü təhlildən onu gördüm ki, əgər bu məsələlər indi bizə çatmasaydı və biz bu məsələ ilə məşğul olmasaydıq - mən Baş nazirə tapşırdım - və bugünkü müşavirə keçirilməsəydi belə də gedəcəkdi, aybaay bundan da pis olacaqdı, ondan sonra daha da pis vəziyyət yaranacaqdı.

Bizi birinci növbədə narahat edən - Artur Rasizadə burada dedi – «Azərbaycan Hava Yolları» Dövlət Konserninin xarici şirkətlərə xidmətində buraxdığı səhvlərdir. Mən Cahangir Əsgərovun buradakı çıxışı ilə tamamilə razı deyiləm. O, çıxışında dedi ki, nə bilim, Frankfurtda qiymət belədir, filan yerdə qiymət elədir. Hər halda, bizim məqsədimiz bundan ibarət olmalıdır ki, xarici aviasiya şirkətləri Azərbaycana gəlsinlər və ölkəmizə xidmət göstərsinlər. Bunun üçün də baxmaq lazımdır. Mən demirəm ki, biz ölkəmizi zərərə salmalıyıq, «Azərbaycan Hava Yolları» Dövlət Konserni bunun naminə zərər çəkməlidir, yəni maddi zərər, maliyyə zərəri çəkməlidir, yox. Elə bir vəziyyət yaratmaq lazımdır ki, həm biz zərər çəkməyək, bundan biz də gəlir götürək, ancaq bu vəziyyət onlar üçün də münasib olsun ki, buraya gəlsinlər.

Əgər siz ondan bir az aşağı qiymət qoyub xarici şirkətlərin buraya gəlməsini təmin etsəniz, yenə də gəlir götürəcəksiniz. Bəlkə az götürəcəksən, ancaq xeyir, mənfəət götürəcəksən. Həmin şirkət də mənfəət götürəcək, sərnişinlər də rahat gedəcəklər.

Yəni Azərbaycan indi müstəqil dövlətdir. İndi Azərbaycandan dünyanın hər yerinə insanlar gedir və dünyanın hər yerindən ölkəmizə insanlar gəlir. Deməк, təbiidir ki, birbaşa reyslər həm Azərbaycana xaricdən gələn insanlar üçün, həm də Azərbaycan vətəndaşlarının xaricə getməsi üçün çox yaxşı şərait yaradır.

Xatirimdədir, 1998-ci ildə mən İngiltərədə rəsmi səfərdə olarkən bu ölkənin xarici işlər naziri məndən bir xahiş etdi. Deyəsən, o vaxt Londondan Bakıya təyyarə bir reys gəlirdi. Böyük Britaniyanın xarici işlər naziri məndən xahiş etdi ki, icazə verin, Bakıya təyyarə iki reys etsin. Mən də gəlib fikirləşdim ki, bizim İngiltərəyə reysimiz var, bəlkə bu, ölkəmizə maddi cəhətdən zərər gətirəcək, amma icazə verdim. Sonra üç reys gəldi. Amma indi əvvəlki böyük təyyarəni dəyişiblər, ondan kiçik təyyarə bir dəfə reys edir.

Təbiidir ki, biz dünyada bu sahədə yaranmış ümumi vəziyyəti bilirik. Burada heç kim deməməlidir ki, bu, təkcə Azərbaycan üçündür. Çünki böyük xarici şirkətlərin bəziləri indi çox ciddi maddi çətinliklər içərisindədir. Amma səbəb təkcə bu deyildir. Səbəb bir də odur ki, - Baş nazir Artur Rasizadə dedi - onlar üçün burada yaranan şərtlər uyğun gəlməyibdir, bir də ki, onlara göstərilən xidmət keyfiyyətsiz olubdur.

Hələ burada deyilmədi, - mən eşitmişəm, belə fakt var ki, «Lüfthanza» şirkətinin təyyarəsi gəlib Bakıdan Aşqabada və yaxud başqa yerə gedəndə onların yüklərini saxlayıblar, boşaldıblar. Siz bunu bilmirsiniz, amma mən bilirəm. Cahangir Əsgərov bunu bilir. Belə məsələ olub?

**C a h a n g i r Ə s g ə r o v:** Bəli, olub.

**H e y d ə r Ə l i y e v:** Yaxşı, bu, nəyə lazımdır? Onlar da bundan çox inciyiblər. Heç bir səbəb olmadan onlara irad tutublar, təyyarənin yükünü boşaldıblar, yoxlamağa başlayıblar. Beləliklə, onları incidiblər. Mən bunu eşitmişəm.

Ona görə də «Azərbaycan Hava Yolları» Dövlət Konserninin vəzifəsi ondan ibarətdir ki, o, xarici aviasiya şirkətləri ilə işini düzgün qurmalıdır, xidməti beynəlxalq aeroportlarda olan səviyyəyə yüksəltməlidir və rüşvətxorluğu, cürbəcür çirkin halları aradan qaldırmalıdır.

Əgər gecə «Lüfthanza»nın təyyarəsinə benzin doldurmaq üçün nağd 2500 dollar tələb edirlərsə, bəs bundan da böyük biabırçılıq ola bilərmi? Sən ona sübut edə bilməzsən ki, bu, qanuni bir şeydir. Bütün xarici şirkətlərlə sizin maliyyə münasibətlərinizin hamısı banklar vasitəsilə həll edilir, nağd heç bir şey verilmir. Amma aeroportda gəlib deyirlər ki, bunu nağd ver. Özü də deyirlər ki, onun qiyməti 660 dollardır. Bu, hələ bizə məlum olan hallardır, nə qədər də məlum olmayanlar vardır.

Ona görə də mən AZAL Dövlət Konsernindən və Cahangir Əsgərovdan tələb edirəm ki, bütün bu nöqsanlar, birinci növbədə xarici ölkələrin şirkətləri ilə əlaqələrdəki nöqsanlar aradan qaldırılsın.

Nə etmək lazımdır? Ən əvvəl bu əlaqələri möhkəmləndirmək lazımdır. Bəzi reyslər dayanıb, həmin şirkətlərlə əlaqəyə girmək lazımdır. Onlar üçün də, bizim üçün də münasib şərtlər müəyyən edilməlidir və çalışmalısınız ki, həmin şirkətlərin reysləri bərpa olunsun.

Mən gələcək üçün də deyirəm ki, xarici aviasiya şirkətləri ilə sizin münasibətləriniz bizim dövlətin, müstəqil Azərbaycanın imicidir. Siz bunu bilməlisiniz. Bu məsələdə AZAL kənarda qalır, deyirlər ki, bu Azərbaycandır.

Digər məsələ həm Azərbaycana gələn, həm də Azərbaycandan gedən sərnişinlərə göstərilən xidmət və bu xidmətin pis vəziyyətdə olmasıdır. Deyə bilmərəm ki, bu sahədə səhvlər buraxılıb. Burada sadəcə, hər bir xidmət sahəsi, - bir tərəfdən AZAL, o biri tərəfdən gömrük xidməti, Sərhəd Qoşunları, digər tərəfdən Daxili İşlər Nazirliyi - hər bir təşkilatın nümayəndəsi öz şəxsi məqsədlərini güdərək orada qanunsuz qazanc əldə etmək, rüşvət almaq məqsədi ilə və başqa məqsədlərlə sərnişinlərin rahat gedib-gəlməsinə çox pis şərait yaradır. Bu, aradan qaldırılmalıdır. Burada deyilən və deyilməyən bütün nöqsanların hamısı aradan qaldırılmalıdır. Mən bunları bir daha təkrar etmək istəmirəm. Ancaq 8 ay bundan öncə istifadəyə verilmiş hava limanında belə vəziyyət yaranması dözülməzdir.

Yenə də deyirəm, mən fəxr edirəm ki, indi həm texnikasına, həm texnologiyasına, həm memarlıq quruluşuna, həm də rahatlığına- hər bir şeyinə görə Azərbaycanın tam yüksək, beynəlxalq səviyyədə olan belə bir aeroportu, hava limanı vardır. Mən bununla fəxr edirəm. Ancaq mən utanıram və inciyirəm. İnciyirəm ki, bu

obyekti, bu cür müəssisəni bu adamlara tapşırmışıq, onlar bunun qiymətini bilmirlər, yenə də deyirəm, öz şəxsi məqsədləri naminə bizim ölkəmizə zərər gətirirlər. Bunlar aradan qaldırılmalıdır.

Mən bu vəziyyətə görə birinci növbədə, AZAL-ın baş direktoru Cahangir Əsgərova töhmət verirəm. Sən bil ki, əgər bu nöqsanlar qısa müddətdə aradan qaldırılmasa, sənin o vəzifədə qalıb-qalmamaq məsələn həll olunacaqdır.

Sərhəd Qoşunlarının komandanı Abbasəli Novruzova töhmət verirəm, sənə də xəbərdarlıq edirəm. Sənin nəinki oradakı səhvlərin, bu gün buradakı danışığın da işə münasibətini göstərir. Bildirirsən ki, «mənə bunu deməyiblər, mənə onu deməyiblər». Deyirsən ki, sən bir xansan, gərək həmişə gəlib sənə səcdə etsinlər, bunu desinlər, ondan sonra bir iş görəsən? Bu, sənin vəzifəndir, işindir. Bilməlisən ki, hansı sahədə sənin işin nədən ibarətdir və bunu yerinə yetirməlisən. Yenə də deyirəm, sənə töhmət verirəm və ciddi xəbərdarlıq edirəm. Əyləş.

Daxili İşlər Nazirliyi- Ramil Usubova və birinci müavin kimi, Zahid Dünyamalıyev, sənə xəbərdarlıq edirəm. Tələb edirəm ki, bütün bu nöqsanlar qısa müddətdə aradan qaldırılsın.

Dövlət Gömrük Komitəsi, sənə ciddi xəbərdarlıq edirəm. Tələb edirəm ki, bu nöqsanları aradan qaldırasan. Bir dəstəni işə qoymusan, bir dəstəni işdən çıxarmısan, o biri dəstəni qoymusan, çıxarmısan, nə bilim, cəza vermisən- bu, sənin daxili işindir. Əgər iş normal vəziyyətə düşməyibsə, deməк, sən öz vəzifəni yerinə yetirə bilməmisən. Buna görə də sənə xəbərdarlıq edirəm. Əyləş.

Ancaq iş bununla qurtarmır. Mən hesab edirəm ki, bizim Nazirlər Kabineti də burada bütün bu nəzarəti unudubdur. Bu sahə ilə Abid Şərifov məşğuldur. Bəli, bu tikintidə o, çox iş gördü və mən onu qiymətləndirdim. Yəqin o, hesab edir ki, bundan sonra onun vəzifəsi qurtardı. Amma bilirsən ki, sən təkcə tikinti işinə cavabdeh deyilsən, sən nəqliyyata da cavabdehsən. Yaxşı, bir də ki, sən özün inşaatçısan. Biz həmin kompleksin tikintisinə bir belə zəhmət çəkmişik. Onun icraçılarından biri də sənsən. Sən necə dözürsən ki, orada vəziyyət elədir? Sən xırda adam deyilsən, Baş nazirin müavinisən. Biz sənə böyük etimad göstərmişik. Niyə məşğul olmursan? Ona görə də sən günahkarsan. Mən səndən tələb edirəm ki, bu münasibəti qurtar. Əyləş.

Mən buraya Dövlət Dəmir Yolu İdarəsinin rəisini və Xəzər Dəniz Gəmiçiliyi İdarəsinin rəisini də dəvət etmişəm. Siz orada təsadüfi oturmamısınız. Siz də sərnişin, yük daşıyırsınız. Sizin rəhbərlik etdiyiniz sahələrin bir sıra nöqtələrində də bütün bu xidmətlər - gömrük xidməti, sərhəd xidməti, polis və sair vardır. Mən indi sizi yoxlamamışam. Sizin də sahəniz bir az uzaqdır. Amma güman edirəm ki, sizdə də bu nöqsanlar vardır. Siz bunlardan özünüz üçün nəticə çıxarın.

Mən nəqliyyata rəhbərlik edən adam kimi, Abid Şərifovdan tələb edirəm və mənim köməkçim Əli Əsədova göstəriş verirəm ki, bu işə nəzarət etsinlər. Baxın görün, onlarda – Dövlət Dəmir Yolu İdarəsində və Xəzər Dəniz Gəmiçiliyi İdarəsində vəziyyət necədir. Mən sizə də xəbərdarlıq edirəm ki, bu işlə məşğul olasınız.

Mən bu gün müşavirənin əvvəlində dedim ki, bizim iqtisadi məsələlərlə məşğul olan nazirləri və təşkilatların rəhbərlərini buraya dəvət etmişəm. Məqsəd də ondan ibarətdir ki, bu müzakirədən hərə özü üçün nəticə çıxarsın. Çünki bu vəzifələr bir-birinə oxşardır.

Bizim siyasətimizin əsas istiqamətlərindən biri Azərbaycana xarici investisiyanın cəlb olunmasıdır. Biz bu sahədə çox böyük nailiyyətlər əldə etmişik. Neft sektorunda çox gözəl nailiyyətlərimiz vardır. Bəzi başqa sahələrə də investisiyalar gəlir. Ancaq bizim bir çox sahələrimiz var. Bu xarici investisiyalar hara gələ bilər? Xarici investorlar ölkəmizə gəlmək istəyirlər. Ancaq onlar gəlib burada iş görmək məqsədi ilə fəaliyyətə başlayanda müxtəlif maneçiliklərlə rastlaşırlar. Əgər maneələri ötüb keçə bilirlərsə, bir iş görürlər, keçə bilməsələr çıxıb gedirlər.

Buna görə də belə bir fikir yaranırdı ki, indi Azərbaycana investorlar az gəlir. Bəlkə də, məsələn, 1996, 1997-ci illərə nisbətən investorlar az gəlir. O vaxt neft şirkətləri, o biriləri gəlirdi, başqaları çox gəlirdi. Təbiidir ki, onlar çoxluq təşkil edirdi. İndi də gəlmək istəyənlər çoxdur. Ancaq gələnlərin bəziləri istəklərinə nail ola bilmirlər, inciyirlər, geriyə qayıdırlar. Beləliklə, Azərbaycana investisiya qoymaq məsələsi barəsində mənfi fikirlər yaranır.

Onlar çox şeylərlə rastlaşırlar. Birincisi, artıq bu fikir yayılıbdır ki, investisiya qoymaq istəyənlər hara gedirlərsə, həmin idarənin nümayəndəsi deyir ki, «burada mənim payım nə olacaqdır?». Artıq bu, böyük bir xəstəliyə dönübdür, yayılıbdır.

Bəziləri də məcburdur, iş görmək üçün deyir ki, «yaxşı, sənə bu qədər pay verirəm». Ona deyirlər ki, «yox, artıq ver». İndi buna nail olandan sonra bu adamın, necə deyərlər, macəraları, əzablı yolu başlanır. Gedib qeydiyyatdan keçməlidir,- onu incidirlər, yaxud orada da ondan rüşvət istəyirlər. Başqa bir yerdən keçməlidir,- orada incidirlər. Ona görə də xarici iş adamlarının bəziləri inciyir, tüpürüb çıxıb gedir.

Bunu edənlər bizim dövlət işində çalışan adamlardır. Bizim öz sahibkarlarımızın da iş görməsinə çox maneçilik törədənlər vardır. Hüquq-mühafizə orqanları, prokurorluq, Daxili İşlər Nazirliyi yenə də ayrı-ayrı şirkətləri yoxlayırlar. Nəyi yoxlayırlar, nədən ötrü yoxlayırlar?

Bu yaxınlarda bir şirkət haqqında mənə məlumat vermişdilər. Mən bizim aparatın işçisi Fuad Ələsgərova tapşırdım, o araşdırdı. Haradasa bir cinayət işi açıblar. Yaxşı, açıblar. Ondan ötrü 40 şirkəti yoxlayırlar ki, bununla sənin nə əlaqən vardır? Hər bir şirkəti yoxlayanda da, təbiidir ki, onun başqa tərəfi də var. Mən neçə

dəfə demişəm ki, prokurorluq, Daxili İşlər Nazirliyi, digər hüquq-mühafizə orqanları, bu şirkətlərdən əl çəkin. Sizin bu nəzarətiniz, bu istintaqınız lazım deyildir. Bunlardan dövlətimizə bir xeyir gəlmir. Ayrı-ayrı adamlar öz ciblərinə qanunsuz pul doldururlar, ancaq bizim iş adamlarının fəaliyyətinə, iqtisadiyyatımıza zərər gəlir.

Mən fikirləşirəm,- əgər bu iş adamlarından kimsə hansısa işi düz görmürsə, cəhənnəm, qoy düz görməsin, amma görsün, nəinki onun gördüyü işin qarşısını alsınlar, prokurorluq onu bir yerə, Daxili İşlər Nazirliyi o biri yerə, başqa təşkilat digər yerə dartsın. Bax, bu dartmağın nəticəsi nədir? Axı bu, Azərbaycana bir xeyir gətirmir. Sadəcə, ayrı-ayrı adamların,- hansılar ki, bu işlə məşğuldur,- onların cibləri dolur.

Yaxın zamanlarda mən digər çox böyük işlərlə məşğul olacağam. Təəssüflənirdim, çox narahat idim ki, bu məsələ üçün vaxt tapa bilmirəm. Amma bu gün vaxt tapmışam, artıq iki saat yarımdır ki, danışırıq. Mən bu yaxınlarda, birincisi, xarici ölkələrin burada iş görən şirkətlərinin nümayəndələri ilə ayrıca görüşəcəyəm. Əvvəlcədən xəbərdar edəcəyəm ki, onlar bütün dərdlərini mənə desinlər. Sonra Azərbaycanın öz iş adamları ilə görüşəcəyəm, onların dərdlərini öyrənəcəyəm və çox ciddi tədbirlər görəcəyəm. Mən əvvəlcədən xəbərdarlıq edirəm,- hansı təşkilat günahkar olsa, təbiidir ki, ona heç bir güzəşt olmayacaq. Ona görə də bir daha hamını xəbərdar edirəm,- bilin, bizim özəl sektorun inkişafına mane olmayın, bizim özəl sektorun inkişafına şərait yaradın. Xarici investisiyaların Azərbaycana gəlməsinə mane olmayın, onun qarşısını almayın, ona şərait yaradın, kömək edin. Belə olan halda iqtisadiyyatımız inkişaf edəcəkdir, xalqımızın rifahı yaxşılaşacaqdır, sizin özünüz, hər biriniz daha da yaxşı yaşayacaqsınız.

Mən güman edirəm ki, bugünkü müşavirədə iştirak edənlərin hamısı özləri üçün nəticə çıxaracaqlar. Hava limanındakı vəziyyəti isə kökündən düzəltmək üçün Baş nazir Artur Rasizadəyə tapşırıram ki, həm aerovağzalın özünün sistemini, - mən başa düşdüm ki, orada hərə özünə bir sistem yaradıb, - həm də beynəlxalq normaları, beynəlxalq təcrübəni əsas götürməklə onların hər birinə on gün vaxt qoy, öz təkliflərini versinlər. Sonra Dövlət Gömrük Komitəsi öz təklifini verməlidir ki, orada hansı sistem qurulmalıdır. Daxili İşlər Nazirliyi, Sərhəd Qoşunları, başqaları da öz təkliflərini verməlidirlər.

Köhnə sistemdə nə varsa - beynəlxalq təcrübəyə cavab verməyənlərin hamısı ləğv olunmalıdır. Bizim hava limanının işi beynəlxalq təcrübə, beynəlxalq normalar əsasında qurulmalıdır. Orada hərə özünə, necə deyərlər, bir ağa ola bilməz. Daxili İşlər Nazirliyi bir ağadır, Sərhəd Qoşunları, Milli Təhlükəsizlik Nazirliyi bir ağadır, Dövlət Gömrük Komitəsi bir ağadır, AZAL bir ağadır - bu, ola bilməz.

Kompleks bir sistem yaranmalıdır, orada hərənin funksiyası müəyyən edilməlidir. Onu gətirib mənə verəcəksiniz, bəlkə mən təsdiq etməliyəm, ya da sən- Baş nazir təsdiq etməlisən. Hər halda, mən buna baxmalıyam. İş də bunun əsasında qurulmalıdır. Yoxsa bunları başına buraxsan, bu danışıqdan bir ay sonra yaddan çıxacaq, həmin işləri yenə də tətbiq edəcəklər. Oldu? On gün vaxt verirəm.

Yaxşı, bir daha deyirəm,- bugünkü müşavirədən hamı özü üçün nəticə çıxartsın. Amma bir siz yox. Bugünkü müşavirə televiziya vasitəsilə veriləcəkdir. Mən bütün dövlət, hökumət orqanlarına, bizim bütün təşkilatlara müraciət edirəm- hərə özü üçün nəticə çıxartsın. Çünki bu nöqsanlar bu və ya başqa formada, həcmdə bizim dövlət, hökumət orqanlarının əksəriyyətində var. Biz bunları aradan qaldırmalıyıq. Ona görə də hər bir nazir, komitə sədri, təşkilat, şirkət rəhbəri, icra hakimiyyətinin başçısı özü üçün nəticə çıxarıb işində olan bütün nöqsanları aradan qaldırmalıdır. Sağ olun.

**DANİMARKANIN KRALİÇASI
ÜLYAHƏZRƏT II MARQRETEYƏ**

Ülyahəzrət!

Danimarka Krallığının milli bayramı – Kraliçanın təvəllüdü günü münasibətilə Sizi, kral ailəsinin üzvlərini və dost Danimarka xalqını səmimi-qəlbdən təbrik edirəm.

Mən Azərbaycan Respublikası ilə Danimarka Krallığı arasında təşəkkül tapmış münasibətlərin inkişafını yüksək qiymətləndirirəm.

İnanıram ki, ölkələrimiz arasındakı əlaqələr genişlənərək xalqlarımızın rifahının yüksəlməsinə, regionda sülhün və sabitliyin möhkəmlənməsinə xidmət edəcəkdir.

Fürsətdən istifadə edib Sizə cansağlığı və səadət, ölkənizə əmin-amanlıq və daha böyük tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *14 aprel 2000-ci il*

**DANİMARKA KRALLIĞININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB POL NİRUP RASMUSSENƏ**

Hörmətli cənab Baş nazir!

Danimarka Krallığının milli bayramı – Kraliçanın təvəllüdü günü münasibətilə sizi və dost Danimarka xalqını ürəkdən təbrik edirəm.

Mən Azərbaycan Respublikası ilə Danimarka Krallığı arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına böyük əhəmiyyət verirəm. Əminəm ki, qarşılıqlı səylərlə biz ölkələrimizin dostluq və hərtərəfli əməkdaşlıq əlaqələrinin xalqlarımızın rifahı naminə genişlənməsinə nail olacağıq.

Cənab Baş nazir, Sizə cansağlığı və fəaliyyətinizdə uğurlar, ölkənizə əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *14 aprel 2000-ci il*

## «KİTABİ-DƏDƏ QORQUD» DASTANININ 1300 İLLİK YUBİLEYİ ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ YEKUN İCLASINDA ÇIXIŞ

*Prezident sarayı*

*14 aprel 2000-ci il*

Hörmətli komissiya üzvləri!
Xanımlar və cənablar!

Üç il bundan öncə, elə aprel ayında «Kitabi-Dədə Qorqud»un 1300 illik yubileyinin keçirilməsi ilə əlaqədar fərman imzalandı. O fərmanın imzalanması ərəfəsində də bizim tarixçilər, ədəbiyyatçılar, alimlər arasında müxtəlif fikirlər var idi. Mübahisələr getmiş, təbiidir ki, müxtəlif fikirlər bildirilmişdi. Ancaq alimlərimiz, yazıçılarımız, tədqiqatçılarımız – hamısı birlikdə təklif verdilər ki, «Kitabi-Dədə Qorqud»un 1300 illiyi bütün sənədlərlə tamamilə təsdiq olunur və bu 1300 illiyi də biz qeyd etməliyik.

Üç il – bu, o qədər də böyük vaxt deyildir. Bəzən biz yubileylərdən 5-6 ay öncə qərar qəbul edirik ki, yubiley keçiririk. Yubiley də müəyyən mərasimlərlə, yaxud da bəzi nəşrlərlə sonlanır.

Ancaq mən hesab edirəm ki, bu yubiley bizim tariximizlə, ədəbiyyatımızla, mədəniyyətimizlə əlaqədar indiyə qədər Azərbaycanda keçirdiyimiz yubileylərdən ən müfəssəli olması, yəni dərin məzmunlu hazırlıq işləri görülməsi və xüsusən «Kitabi-Dədə Qorqud»un irsinin öyrənilməsi, haqqında əsərlər hazırlanması - ən böyük nailiyyət də «Kitabi-Dədə Qorqud» ensiklopediyası»nın yaradılmasıdır – baxımından fərqlənir. Bunlar hamısı dünyada «Kitabi-Dədə Qorqud»un 1300 illik yubileyini indiyə qədər keçirdiyimiz buna bənzər tədbirlərdən fərqləndirir.

Yubiley tədbirləri və bunun beynəlxalq səviyyədə keçirilməsi, yubiley tədbirlərində bir çox ölkələrdən qorqudşünasların, şərqşünasların, alimlərin, ictimai-siyasi xadimlərin gəlib iştirak etməsi, yubiley tədbirlərinin Türkdilli Dövlətlər Birliyi dövlət başçılarının və onlarla bərabər olan nümayəndə heyətlərinin iştirakı ilə keçirilməsi – bunlar hamısı, təbiidir ki, birincisi, «Dədə Qorqud» yubileyinə tam beynəlxalq xarakter verdi. YUNESKO-nun baş direktorunun öz iştirakı ilə «Dədə Qorqud» yubileyi haqqında vaxtilə YUNESKO tərəfindən qəbul olunmuş qərarın və həyata keçirilmiş tədbirlərin nəticəsi kimi bunu təsdiq etdi. İkinci tərəfdən də, tariximizi, keçmişimizi, zəngin mədəniyyətimizi xalqımıza bir daha, bir daha göstərdi.

Bir sözlə, bu üç il müddətində çox iş görülübdür. Bu işi də görən sizlərsiniz və sizlərlə bərabər böyük-böyük kollektivlərdir.

Mən bu gün komissiyanın iclasını iki məqsəd üçün çağırmışam. Birincisi, görülən işlərə yekun vurmaq, ikincisi də gələcək tədbirlər haqqında lazımi fikirləri müzakirə etmək və tədbirlər görməkdir.

Mən elə bilirəm, hamımızın yekdil fikri bundan ibarətdir ki, biz qarşımızda qoyduğumuz çox böyük milli, dövləti əhəmiyyət kəsb edən vəzifəni layiqincə yerinə yetirdik. Bunun yerinə yetirilməsində, yenə də deyirəm, bütün Azərbaycan xalqının səfərbər olduğunu biz hiss etdik. Burada gördüyünüz və bu üç il müddətində nəşr edilmiş kitablar, yaxud da başqa əsərlər ən yüksək səviyyədə olanlardır.

Amma bu üç il müddətində, demək olar ki, hər bir kollektivdə, hər bir şəhərdə, hər bir rayonda, hər bir qəsəbədə, kənddə Dədə Qorqud yada salındı, təbliğ olundu, Dədə Qorqudun tanınması üçün xeyli işlər görüldü. İndi demək olar ki, bizim xalqımız öz ulu əcdadını - Dədə Qorqudu tanıyır və güman edirəm ki, bundan sonra heç vaxt unutmayacaqdır.

Yaranmış əsərlər isə, təbiidir ki, gələcəkdə «Dədə Qorqud»un Azərbaycanda, digər türkdilli dövlətlərdə, başqa ölkələrdə təbliği üçün çox dəyərli işlərdir. Amma bununla bərabər, onlar xalqımızın təhsilində, təlimində, tərbiyəsində «Dədə Qorqud»dan istifadə olunması üçün çox əhəmiyyətlidir.

Bütün bu işləri görən dövlət komissiyasının üzvlərinə, alimlərimizə, tədqiqatçılarımıza, yazıçılarımıza, şairlərimizə, bəstəkarlarımıza, rəssamlarımıza - bütün mədəniyyət işçilərinə və bütün elm xadimlərinə, ziyalılarımızın hamısına təşəkkür edirəm. Kim nə iş görübsə, o, bu işlə xalqına xidmət edibdir. Təbiidir ki, hərə öz səlahiyyəti çərçivəsində, yaxud da imkanı dairəsində iş görübdür. Amma həqiqətən də çoxları buna öz payını veribdir. Payın böyük və ya kiçik olmasından asılı olmayaraq, mən hamıya təşəkkür edirəm.

Sizə dedim, məqsəd bir də ondan ibarətdir ki, bundan sonra nə etməliyik? Bəzən keçmiş zamanlarda belə olubdur ki, bu cür tədbirləri hazırlamışıq, keçirmişik və zirvə tədbirindən sonra bu unudulub, yaxud da nəticələri əməli işimizdə istifadə edilməyibdir. Ancaq- bunu dəfələrlə demişik və bu gün də təkrar etmək olar - biz bu yubileyi ona görə keçirtdik ki, xalqımız öz tarixini dərk edə bilsin, öz keçmişini, zəngin mədəniyyətini dərk edə bilsin, ikinci tərəfdən də, dünya bizim nə qədər zəngin tarixə, mədəniyyətə malik olduğumuzu bilsin. Bir də ki, bu, gələcək işlərimizdə istifadə edilsin. Əgər keçmiş dövrləri, sovet hakimiyyəti dövrünü götürsək, - biz başqa, bizim üçün yabançı olan oriyentirlərə əsaslanıb onların istiqamətində təhsil, təlim, tərbiyə işlərini aparırdıq. İndi

isə təkcə «Dədə Qorqud» deyil, bu cür çox böyük, dahiyanə tarixi abidələrimiz, tarixi əsərlərimiz, tarixi irsimiz var, onlardan istifadə etməliyik ki, xalqımız bundan sonra bunların ruhu ilə yaşasın, bu dastanlardan, bu əsərlərdən irəliyə gələn milli-mənəvi dəyərlərlə yaşasın.

Ona görə də biz konkret tədbirlər həyata keçirməliyik. Bunu özbaşına buraxmamalıyıq ki, hansı təşkilat nə cür istəyirsə eləsin. Təbiidir ki, hansı təşkilat, şəxs tərəfindən olur-olsun, şəxsi təşəbbüs yüksək qiymətləndirilməlidir. Amma eyni zamanda bu işi təşkil etmək lazımdır. Bax, bizim komissiyanın bugünkü iclasının ikinci məqsədi də bundan ibarətdir.

Mən istərdim ki, bizim komissiyanın sədr müavinləri söz demək istəyirlərsə desinlər. Ondan sonra mən başqalarına da imkan verə bilərəm. Ancaq vaxtı da çox almayaq, qısa zamanda bu işi qurtaraq.

Buyur, Elçin.

**E l ç i n Ə f ə n d i y e v** (*Azərbaycan Respublikası Baş nazirinin müavini, dövlət komissiyası sədrinin müavini*): Hörmətli cənab prezident!

Hörmətli komissiya üzvləri!

Hörmətli iclas iştirakçıları!

«Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyinin belə yüksək elmi, bədii-estetik səviyyədə, yüksək vətəndaşlıq səviyyəsində keçirilməsinin bilavasitə iştirakçısı, təşəbbüskarı, təşkilatçısı olduğunuz üçün, cənab prezident, Sizə bütün komissiya üzvlərinin təşəkkürünü və minnətdarlığını bildirirəm.

«Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyi mərasimləri bu günlərdə sona yetdi. Amma güman edirəm, burada «sona yetdi» sözü o qədər yerində işlənmir. Çünki bu yubiley mərasimi, oradakı çıxışlar, yubiley ərzində keçirilən görüşlər, qəbullar, simpozium, bu simpoziumdakı məruzələrin elmi səviyyəsi, burada gördüyümüz kitabların nəşri – bunların hamısı həm Azərbaycan mədəniyyətinin, həm də Azərbaycan ictimai fikrinin və müstəqil Azərbaycan Respublikasının müasir tarixinin çox əlamətdar və mən deyərdim ki, parlaq səhifələrinə çevrildi.

Cənab prezident, Sizin dediyiniz kimi, bu, bütün xalqın, millətin fəxarət, sevinc mənbəyinə çevrildi. Yubiley günlərində deyildiyi kimi, bu, böyük bir qayıdış idi. Bu, yalnız «Dədə Qorqud»un özümüzə qayıdışı deyildi, özümüzün özümüzə, öz soyumuza, kökümüzə qayıdışımız idi.

Mən çox prinsipial əhəmiyyətli bir məqamı da qeyd etmək istəyirəm ki, müstəqil Azərbaycan Respublikasında keçirilən bu yubiley etnik mənsubiyyətindən asılı olmayaraq ölkəmizin bütün vətəndaşlarının, yəni düşünən, başa düşən vətəndaşların bayramına və fəxarət mənbəyinə çevrildi. Mən bu fikri bir daha təkrar etmək istəyirəm ki, əslində, söhbət müasir müstəqil Azərbaycan Respublikasının özünün mənəvi təsdiqindən gedirdi. Müasir Azərbaycan Respublikasının paytaxtı Bakı müasir qorqudşünaslığın mərkəzinə çevrildi. Bəlkə daha da yüksək bir hadisə baş verdi. O da ondan ibarət oldu ki, respublikamızın paytaxtı Bakı elə bil ki, türk dünyasının, türkdilli ölkələrin mənəvi bir paytaxtına çevrildi. Bu yubiley sanki bugünkü gündən daha artıq, gələcək nəsillər üçün idi. Yəni o, gələcək nəsillərə göstərir ki, sən kimsən, hansı irsin sahibisən, hansı mənəviyyata sahib olmalısan. Təkrar edirəm, bu baxımdan yubiley olduqca ciddi elmi, mənəvi, siyasi əhəmiyyət daşıyır.

Cənab prezident, hörmətli komissiya üzvləri!

Mən bu barədə çox danışa bilərəm. Amma vaxtı çox almamaqdan ötrü məsələnin ikinci hissəsinə keçmək istəyirəm. Bu münasibətlə, yəni «Kitabi-Dədə Qorqud»la bağlı gələcəkdə görüləcək işlər baxımından biz cənab prezidentin təsdiq etdiyi tədbirlər planına uyğun olaraq böyük bir strateji, uzunmüddətli proqram layihəsi hazırlamışıq. Biz bugünkü iclasımızda irəli sürüləcək təkliflərdən də istifadə edib, həmin proqram layihəsini işləyib, cənab prezident, Sizə təqdim edəcəyik.

Mən vaxtınızı alıb bu layihəni oxumaq istəmirəm. Burada bir çox məsələlər öz əksini tapıbdır. Amma icazənizlə, özümün bir sıra şəxsi təkliflərimi, mülahizələrimi bildirmək istəyirəm.

Birincisi, cənab prezidentin sərəncamına uyğun olaraq Azərbaycanın paytaxtı Bakıda «Dədə Qorqud kompleksi»nin hazırlanması, tikilməsi, yaradılması işinə başlanıbdır. Əgər bu ifadə yerinə düşürsə, biz bunu canlı bir orqanizm kimi görmək istəyirik. Yəni bu, ancaq quru bir park şəklində yox, Parisdəki, Los-Ancelesdəki kimi, uşaqlar, yeniyetmələr üçün Disneyləndlər tipində bir yer olmalıdır. «Kitabi-Dədə Qorqud»un obrazları orada öz əksini tapmalıdır. Şübhəsiz ki, həmin parkda bizim heykəltəraşlığımızın nailiyyətləri hesab edilən əsərlər öz yerini tutmalıdır. Parkda müxtəlif əyləncə vasitələri olmalıdır.

Cənab prezident, Sizin sərəncamınızdan sonra biz, komissiya sədrinin müavinləri və komissiyanın üzvləri bir daha gedib o yerə baxdıq, oranı gəzdik. Həmin parkın yaxınlığında zoopark vardır. Biz belə fikirləşdik ki, zooparkın özünü də gələcəkdə bu kompleksin atributlarından birinə çevirək.

Bu, zooparkın özü üçün də çox faydalı olar. Yeri gəlmişkən, onu da demək istəyirəm ki, həmin zoopark Mədəniyyət Nazirliyinin, Bakı Şəhər İcra Hakimiyyətinin və orada çalışan insanların fədakarlığı ilə qorunub saxlanıbdır. Orada zooparkdan istifadə etmək mümkündür. Sözün qısası, demək istəyirəm ki, orada həm məzmun, həm də sırf təsviri baxımdan böyük, möhtəşəm, miqyaslı bir əsər kompleksi yaradılmalıdır.

Cənab prezident, Sizin tapşırığınızdan sonra bu sahədə çox ciddi işlər gedir. Əlaqədar təşkilatlar bütün bu işlərlə məşğuldurlar. Biz əsas təkliflərimizi yaxın vaxtlarda Sizə təqdim edəcəyik.

Mən hesab edirəm ki, ikinci məsələ son dərəcə ciddi məsələlərdən biridir. Bu, «Kitabi-Dədə Qorqud»un başqa dillərə tərcümə olunması məsələsidir. Biz bilirik ki, rus dilində «Kitabi-Dədə Qorqud» dastanı vardır. Onu akademik Bartold tərcümə edibdir. Bu yubiley münasibətilə biz həmin kitabı yenidən nəşr etdik. «Kitabi-Dədə Qorqud» fransız dilinə tərcümə edilib. Parisdə nəşr olunubdur. Əhməd Şmide «Kitabi-Dədə Qorqud»u alman dilinə tərcümə edib və Berlində nəşr etdiribdir. «Kitabi-Dədə Qorqud» italyan dilində də nəşr olunubdur.

Bu dastan Anadolu türkcəsində dəfələrlə nəşr edilibdir. Onun qırğız dilinə də tərcüməsi vardır. Amma bütün bunlara baxmayaraq, «Kitabi-Dədə Qorqud»un daha sanballı, daha miqyaslı tərcümə edilib dünya ictimaiyyətinin diqqətinə təqdim olunmasına böyük ehtiyac vardır, «Kitabi-Dədə Qorqud»un ingilis, fransız dillərinə və başqa dillərə tərcüməsi vardır, amma biz onun daha mükəmməl, daha təkmilləşdirilmiş bir nəşrinə nail olmalıyıq.

Cənab prezident, icazə verin, yeri düşmüşkən, bu tərcümə məsələsi barədə bir neçə kəlmə deyim. Çox təəssüflər olsun ki, ümumiyyətlə, biz öz klassik ədəbiyyatımızı dünya ictimaiyyətinin diqqətinə çatdırmağı bacarmamışıq. Uzağa getmirəm, ən yaxın keçmişimizdən bir misal çəkmək istəyirəm. Biz Cəlil Məmmədquluzadəni dünya ictimaiyyətinə layiqincə təqdim edə bilməmişik. Biz Cəlil Məmmədquluzadəni hətta rus oxucusuna da lazımınca çatdıra bilməmişik. Doğrudur, rəhmətlik Əziz Şərif və başqaları Cəlil Məmmədquluzadəni rus dilinə tərcümə etmişdilər. Amma bunlarla bərabər, biz Cəlil Məmmədquluzadənin istedadının ən mühüm cəhətlərini rus oxucusuna çatdıra bilməmişik. Mən onun əsərlərinin hələ ingilis, fransız, italyan dillərinə tərcüməsindən danışmıram.

Cənab prezident, yadıma gəlir, 1970-ci illərin əvvəllərində bilavasitə Sizin tapşırığınızla biz Mirzə Ələkbər Sabiri rus dilinə tərcümə etdik. Rəhmətlik İmran Qasımov o vaxt istedadlı rus satiriki hesab olunan Vasilyevi bu məsələ ilə əlaqədar Azərbaycana dəvət etdi. Siz o zaman ona böyük şərait yaratdınız, sonra bu adama ad verildi. O, həqiqətən Sabiri sidq ürəkdən tərcümə etdi. Amma onun bu sidq ürəkdən yanaşdığı tərcümədən sonra da Mirzə Ələkbər Sabir rus dilində həmin Sabir olmadı, M.Ə.Sabir yaradıcılığının duzu, istedadı rus oxucusuna olduğu kimi çatdırılmadı. O da təbiidir, çünki bu, ilk tərcümə idi.

**H e y d ə r   Ə l i y e v:** Sən deyirsən ki, Vasilyev o vaxt onu mükəmməl tərcümə etmədi. Nə üçün?

**E l ç i n   Ə f ə n d i y e v:** Vasilyev onu çox vicdanla tərcümə etdi. Ancaq Vasilyevin istedadının dərəcəsi Mirzə Ələkbər Sabirin istedadının dərəcəsinin müqabilində çox zəif idi. Amma bu, böyük bir hadisə oldu.

**H e y d ə r   Ə l i y e v:** Siz yazıçılar bilirsiniz, amma ola bilər, başqaları bilmir. Mən o vaxt bu işlə məşğul oldum. Biz Vasilyevi buraya gətirdik.

**E l ç i n   Ə f ə n d i y e v:** Bəli, Siz o vaxt onu qəbul etdiniz.

**H e y d ə r   Ə l i y e v:** Burada yaşamaq üçün ona şərait yaratdıq. Hətta o, burada xəstələndi, infarkt keçirdi. Biz onu burada iki ay müalicə etdirdik. Bunların hamısının üzərində mən durmuşdum. Mən Vasilyevlə dəfələrlə danışırdım, söhbət edirdim. O, vəfat edəndən sonra xanımı mənə məktublar yazmışdı.

Vasilyev özü deyirdi ki, Sabirin şeirləri, yaradıcılığı tərcümə üçün o qədər mürəkkəbdir ki, onu tərcümə etmək çox çətindir. Vasilyev kimi yüksək səviyyəli bir şair, tərcüməçi olmasaydı, biz Sabiri bəlkə də rus dilinə tərcümə etdirə bilməzdik.

**E l ç i n   Ə f ə n d i y e v:** Cənab prezident, tamamilə doğru deyirsiniz.

**H e y d ə r   Ə l i y e v:** Əgər sən istəyirsən, - Vasilyevdən başqa bir adam varsa, - Sabiri tərcümə etsin, bilmirəm, həmin adam ondan nə qədər yüksək, nə qədər aşağı olar.

**E l ç i n   Ə f ə n d i y e v:** Cənab prezident, tamamilə doğrudur. Mən onu demək istəyirəm ki, bu cür tərcümələr nə qədər çox olsa, yəni biz başqa bir istedadlı şairi dəvət edə bilsək, yaxud özümüz elə bir tərcüməçi yetişdirsək ki, Sabirin əsərlərini üçüncü və ya dördüncü variantda tərcümə etsin, onda bu tərcümə öz həqiqi qiymətini almaq imkanı qazanar. Söhbət həm rus dilinə, həm fransız, ingilis və başqa dillərə tərcümədən gedir. Bax, biz «Kitabi-Dədə Qorqud»un tərcüməsinə də bu baxımdan yanaşmalıyıq.

Bayaq mən dedim ki, «Kitabi-Dədə Qorqud» fransız dilinə tərcümə olunubdur. Bu, ilkin bir işdir. Amma bizim borcumuzdur ki, gələcəkdə bu işi daha geniş şəkildə təşkil edək.

Cənab prezident, mən fürsətdən istifadə edib demək istəyirəm ki, Yazıçılar Birliyinin nəzdində bir tərcümə mərkəzi var. Bu barədə Sizə vaxtilə məlumat vermişdim. İstedadlı yazıçı Afaq Məsud həmin mərkəzin müdiri, Vaqif Bayatlı Önər isə müavindir. Orada ixtisaslaşmış insanlar işləyirlər. Mən bir fikir kimi söyləmək istəyirəm ki, bəlkə gələcəkdə həmin mərkəzin nəzdində, bazasında, orada çalışan insanların imkanlarından istifadə edərək dövlət səviyyəsində bir idarə, yaxud komitə yaratmaq olar. O, həm «Kitabi-Dədə Qorqud»un, həm də ümumiyyətlə, Azərbaycan klassik ədəbiyyatının tərcüməsi ilə məşğul olsun.

Müasir dövrdə müstəqil Azərbaycan Respublikasında çatışmayan cəhətlərdən biri də terminologiya məsələsidir. Dünənəcən bu terminologiya rus dilində gəlirdi, biz onu rus dilində işlədirdik. Amma bu gün Azərbaycan özü bilavasitə Avropa ilə, Dünya Birliyi ilə əlaqədədir. Ölkəmizə çoxlu neft şirkətləri, digər şirkətlər gəlir. Bizdə yeni texnologiyanın terminologiyası yox dərəcəsindədir. Bütün bu işlərlə məşğul olmaq üçün belə bir tərcümə mərkəzinin, yaxud komitəsinin yaradılmasına son dərəcə mənəvi ehtiyac vardır ki, orada əsərlər, kitablar çap olunsun.

«Kitabi-Dədə Qorqud»un tənqidi nəşrləri çap edildi. Samət Əlizadənin hazırladığı kitab da nəşr olundu. Güman edirəm ki, gələcəkdə «Kitabi-Dədə Qorqud»un akademik nəşrinə, yəni akademik tənqidi mətninin nəşrinə çox böyük ehtiyac vardır. Bu, çox ciddi, əzab-əziyyət tələb edən bir məsələdir. Amma biz buna mütləq nail olmalıyıq. Biz gələcəkdə bu məsələni nəzərdə tutmalıyıq.

Biz dədəqorqudşünaslıqda son zamanlar bu qədər böyük elmi nailiyyətlər əldə etdik. O, Azərbaycanla bu dərəcədə bağlandı və Azərbaycan xalqı, respublikası Dədə Qorquda sahib çıxdı. Elə bilirəm ki, beynəlxalq «Dədə Qorqud» jurnalının nəşri pis olmazdı. Əgər biz ildə dörd, yaxud altı nömrəsi çap olunan sanballı elmi jurnal buraxa bilsəydik, güman edirəm, bu, ümumi işimizin xeyrinə olardı. Yalnız Azərbaycan dədəqorqudşünaslığında ən gözəl əsərləri, nümunələri orada dərc etmək çox fayda gətirərdi.

Cənab prezident, 1970-ci illərdə bilavasitə Sizin tapşırığınızla və təşəbbüsünüzlə biz «Sovet türkologiyası» adlı bir jurnal nəşr etdik. Həmin jurnal o vaxt Azərbaycanı Sovet İttifaqında – o zaman Sovet İttifaqı dünyanın təxminən yarısı demək idi – türkologiyanın mərkəzlərindən birinə çevirdi. Doğrudur, bu jurnal indi də nəşr olunur, amma indi onun mənzərəsi başqa cürdür.

Güman edirəm ki, məhz bu nöqteyi-nəzərdən «Kitabi-Dədə Qorqud» jurnalının buraxılması çox əlamətdar bir hadisə olardı.

Biz «Kitabi-Dədə Qorqud» ensiklopediyası»nı nəşr etdik. Bu ensiklopediya dədəqorqudşünaslıqda çox ciddi, sanballı və əhəmiyyətli bir hadisə oldu. Amma mən güman edirəm ki, 3-5 ildən sonra onun təkmilləşdirilmiş, elmi cəhətdən təkrar işlənmiş, əhatə dairəsi geniş, miqyası, elmi vüsəti daha artıq olan yeni nəşrinə ehtiyac vardır. Hesab edirəm ki, elə günü sabahdan bu işə başlamaq lazımdır.

Bilirsiniz ki, tədbirlər planında biz mükafat məsələsini də nəzərdə tutmuşduq. Biz bununla əlaqədar əsasnamə hazırlamışıq. «Dədə Qorqud folklor evi» artıq yaradılıb. «Kitabi-Dədə Qorqud»un 1300 illik yubileyi ilə bağlı keçirdiyimiz tədbirlər barədə kitablar nəşr olunacaqdır. Həmin kitablarda elmi simpoziumdakı məruzələr, yubiley toplantısındakı bütün çıxışlar, görüşlər öz əksini tapacaqdır.

Hörmətli cənab prezident!

Hörmətli iclas iştirakçıları!

Təkliflər çoxdur, mən bunların təfərrüatına varmıram. Biz proqram hazırlamışıq, bütün təkliflər orada öz əksini tapıbdır. Mən ümumi olaraq bu fikirləri söylədim və bununla kifayətlənirəm.

**H e y d ə r Ə l i y e v:** Tərcümə məsələsi bizim üçün həmişə çox vacib məsələ olubdur. Yəqin ki, bəziləri xatırlayırlar, - 70-ci illərdə şəxsən mənim üçün bu, mühüm bir problem kimi qarşımda durmuşdu. O vaxt biz tərcümə mərkəzi yaratmaq barədə qərar qəbul etdik. Ancaq o vaxtlar biz tərcümə deyəndə əsərlərimizin rus dilinə tərcüməsi və rus dilindən əsərlərin Azərbaycan dilinə tərcüməsi nəzərdə tutulurdu. Onda başqa tərcümə haqqında söhbət getmirdi.

Onu da deməliyəm ki, keçmişdə, ola bilər, 30-cu, 40-cı, 50-ci illərdə, hətta 60-cı illərdə də Azərbaycanda rus-Azərbaycan, Azərbaycan-rus tərcüməçiləri vardı və özü də çox dəyərli tərcüməçilər var idi. Çox yaxşı da tərcümələr edirdilər. Yəqin ki, yaşlı adamlar bunu xatırlayırlar. Bu, mənim xatirimdədir. Sonra, təbiidir ki, zaman gəlib keçdikcə bu kadrlar həyatdan köçdülər. Amma biz yeni tərcüməçi kadrları yarada bilmədik. Ona görə də 70-ci illərdə mən hiss etdim ki, bu sahədə bizim işimizdə müəyyən bir boşluq yaranıbdır. Əvvəllər yaranmış tərcüməçilər qrupu, özü də çox sanballı tərcüməçilər, - hətta birinin familiyası mənim yadımdadır, - Süleyman Məlikov, çox yüksək səviyyəli tərcüməçi idi, - yox idi.

O vaxt bu işi başladıq, amma sonra yəqin ki, davam etməyibdir. İndi isə bizdə məsələ tamamilə başqa cür durur. Yəni bu problem bu gün də aktualdır, bu gün üçün çox lazımdır. Ancaq indi təkcə rus-Azərbaycan, Azərbaycan-rus tərcüməsi yox, dünyanın məşhur dillərinə – ingilis, fransız, alman dillərinə, Şərq dillərinə, yəni ərəb, yaxud fars dillərinə tərcümə çox əhəmiyyətlidir.

Ona görə də mən bu məsələni çox aktual hesab edirəm. Ola bilər, bunu «Dədə Qorqud» tədbirlər proqramına da salaq. Ola da bilər ki, bu barədə ayrıca, xüsusi qərar qəbul edək. Bu da asan məsələ deyildir. Çünki belə kadrların hazırlanması bir ilin, iki ilin işi deyildir.

İndi bizdə tərcüməçilər var. Xarici ölkələrlə əlaqələrimizdə, görüşlərimizdə bu tərcüməçilərdən istifadə edirik, o cümlədən mən də. Amma elə tərcüməçi ki, dediyin sözü, yaxud da bizə deyilən sözü tamamilə tərcümə edə bilir – bunlar azdır, çox azdır. Bəlkə də şifahi tərcümə çətindir. Çünki yazı tərcüməsi bundan asandır, ona görə ki, müxtəlif lüğətlərdən və sairədən istifadə edirlər. Şifahi tərcümə ilə yazılı tərcümənin fərqi var. Ancaq sadəcə, onu demək istəyirəm ki, bunun üçün xüsusi kadrlar lazımdır. Xüsusi kadrlar hazırlamaqdan ötrü də onlar üçün stimul yaratmaq lazımdır. Onlar bilməlidirlər ki, bəli, əgər özlərini bu peşəyə həsr etsələr, onların həyatı, gələcəyi uğurlu olacaqdır. Sadəcə «tərcümə» hasil olmur. Bu, çox çətin prosesdir. Amma bunun bütün çətinliklərinə baxmayaraq, mən hesab edirəm ki, müstəqil dövlət kimi, bizim ölkəmiz inkişaf edir və biz bütün sahələrdə ilbəil səviyyəmizi qaldırmalıyıq və bu işlə də məşğul olmalıyıq. Ona görə mən bu barədə sadəcə, öz fikrimi dedim ki, biz bu sahədə hansısa bir qərar qəbul etməliyik – ya «Dədə Qorqud»la əlaqədar, ya da ayrıca.

**A n a r** (*Azərbaycan Yazıçılar Birliyinin sədri, dövlət komissiyası sədrinin müavini, Milli Məclisin deputatı*): Hörmətli cənab prezident!

Hörmətli komissiya üzvləri!

Xanımlar və cənablar!

«Dədə Qorqud» yubileyinin belə yüksək səviyyədə, geniş miqyasda, belə görünməmiş vüsətlə keçirilməsində müxtəlif strukturların, müxtəlif təşkilatların, müxtəlif adamların rolu və xidməti olubdur.

Amma ən böyük xidmət, əsas rol Sizindir, əsas iradə sahibi Sizsiniz, cənab prezident. Ona görə mən yazıçılar adından, ziyalılar adından Sizə bir daha dərin təşəkkürümü və minnətdarlığımı bildirmək istəyirəm.

Bir neçə il qabaq Sizin iştirak elədiyiniz «Manas» tədbirlərinə mən də getmişdim. Doğrusu, orada həsəd hissi duyurdum ki, «Manas»la bağlı necə yüksək tədbirlər keçirildi, nə qədər kitablar çap olundu. İndi mən böyük məmnunluqla, böyük şərəf hissi ilə deyə bilərəm ki, həm tədbirlərin keyfiyyəti, həm də çap edilmiş kitablar baxımından «Dədə Qorqud» yubileyi «Manas» yubileyindən qat-qat üstün oldu. Tamaşalar, filmlər, sərgilər, xalq şənlikləri, sarayda keçirilən tədbirlər – bunlar öz yerində. Amma burada gördüyümüz kitablar həm keyfiyyəti, həm sanbalı, həm də sayı etibarilə «Manas»la bağlı kitablardan üstündür.

Bu kitablardan biri də, Sizin qeyd etdiyiniz kimi, bəlkə də ən əhəmiyyətlisi «Dədə Qorqud» ensiklopediyası»dır. Siz bu ensiklopediyanın belə qısa vaxtda, bu cür yüksək səviyyədə çıxmasına göstəriş verdiniz. Siz bu ensiklopediyaya çox əhatəli, məzmunlu ön söz yazdınız və bu ön sözdə, başqaları ilə bərabər, mənim də az-çox işimə yüksək qiymət verdiniz. Buna görə də Sizə dərin təşəkkürümü bildirirəm.

Bu ön sözdə də, çıxışlarınızda da Siz dəfələrlə vurğulamısınız ki, «Dədə Qorqud» yalnız təkcə folklor və ədəbiyyat abidəsi olmaqla qalmır, xalqımızın mənşəyini, tarixini, estetikasını, etik baxışlarını – bir sözlə, bütün sahələrini əhatə edən bir abidə kimi çox önəmlidir. Bugünkü çıxışınızda da onu qeyd elədiniz ki, biz gələcək tədbirlər haqqında da fikir söyləməliyik. Mənim də bəzi təkliflərim var və onları Sizin nəzərinizə, komissiya üzvlərinin və burada toplaşanların nəzərinə çatdırmaq istəyirəm.

Mənə elə gəlir ki, biz bir Dədə Qorqud akademiyası yaratmalıyıq. Mən bu təklifi irəli sürdüm. Bu akademiya heç vəchlə Elmlər Akademiyasının humanitar institutlarına alternativ təşkil etməməlidir. Əksinə, bu akademiya ictimai əsaslarla, həmin institutların iştirakı və köməyi ilə, bizim ali təhsil ocaqlarının köməyi ilə, əsas da odur ki, Azərbaycandan kənarda yaşayan, Türkiyədən, Moskvadan, Orta Asiya respublikalarından olan qorqudşünasların, türkoloqların iştirakı ilə yaranmalıdır.

Türkiyədən gələn alimlər də dedilər ki, biz bu məsələyə həm mənəvi, həm də maddi dəstək verməyə hazırıq və bizim fikrimiz budur ki, həmin akademiya məhz Bakıda yaranmalıdır.

Bu akademiya nə ilə məşğul ola bilər? Əvvəla, «Dədə Qorqud» tədqiqatlarının, «Dədə Qorqud»un dünya dillərinə tərcümələrinin, «Dədə Qorqud»un tanıdılması işləri ilə intensiv məşğul ola bilər. Amma mənim fikrimcə, bu akademiya «Dədə Qorqud» çərçivəsindən çıxıb, ümumiyyətlə, bizim mədəniyyətimizin, türk xalqlarının mədəniyyətinin bir çox məsələlərinin həll olunmasında yardımçı ola bilər.

Bu məsələlər nədir? Hörmətli prezident, bilirsiniz ki, hələ 30-cu illərdə Azərbaycanda Mahmud Kaşqarinin «Divani-lüğət-it-türk» əsərinin mətni hazırlanıbdır. Rus dilində Dalın lüğəti məşhurdursa, bu lüğət türk xalqları üçün daha əhəmiyyətlidir. Çünki o, yalnız lüğət deyil, - orada şeir parçaları, nümunələr var, - ümumiyyətlə, bir ensiklopediyadır. Amma təəssüf ki, hazırlanmış həmin mətn Azərbaycanda çap olunmadı, Türkiyədə çap edildi. Sonra hətta özbəklər qabağa düşdülər, çap elədilər. Bu, qorqudşünaslar, türkoloqlar üçün su, hava kimi lazım olan bir kitabdır. Yaxud, İbn Mühənnanın məhz Azərbaycan dilinə həsr olunmuş lüğəti, onun çapı. Akademiya başqa bu kimi abidələrin də çapı ilə məşğul ola bilər.

Türk xalqlarının latın əlifbasının unifikasiya məsələsi – səslərlə hərflərin uyğunlaşdırılması məsələsi də çox önəmli bir məsələdir. Əlbəttə, Azərbaycan dilindən söhbət gedirsə, biz «ə», «x» hərflərini saxlamaqla, - bu hərflər bizə mütləq lazımdır, - eyni zamanda internet sisteminə girmək, əlaqələrin daha da intensivləşməsi üçün birinci növbədə Türkiyədə olan əlifbanı, - bəlkə onlar yeni səslər, hərflər qəbul eləməklə, - bir unifikasiyaya gətirmək vacibdir.

Türk xalqlarının terminologiyası məsələsi də çox vacibdir. Məsələn, türklər deyirlər ki, siz niyə «respublika» deyirsiniz, «cümhüriyyət» demirsiniz? Halbuki «respublika» bizim söz olmadığı kimi, «cümhuriyyət» də bizim söz deyil, ərəb sözüdür. Amma biz onların cavabında deyirik ki, siz niyə «mədəniyyət», «iqtisadiyyat», «siyasət» demirsiniz, «kültür», «ekonomi», «politika» deyirsiniz? Bəlkə də bu sözlər oturuşmuş sözlərdir. Amma bir çox terminlər var ki, bunları uyğunlaşdırmaq, bir araya gətirmək vacib məsələlərdəndir.

«Dədə Qorqud»un təbliği məsələsi, Sizin göstərişinizlə park məsələsi, başqa məsələlər, filmlər çəkilir – bunlar çox gözəl, önəmli məsələlərdir. Amma yəqin ki, gələcəkdə Bakıda Dədə Qorqud prospekti də olacaq, metronun «Dədə Qorqud» stansiyası da olacaq və ən balacalarından başlayaraq, bəlkə də «Dədə Qorqud»la bağlı oyuncaqlar, «Dədə Qorqud» personajlarının fiqurları hazırlanacaqdır.

Hörmətli prezident, mən başqa bir məsələyə keçmək istəyirəm. O da bizim uşaqlarla bağlı ədəbiyyatın yaranmasıdır. İndi 8-ci sinfə qədər dərslər latın əlifbası ilə keçirilir. Amma latın əlifbası ilə məktəbdənkənar ədəbiyyat, demək olar ki, çox azdır. Ona görə bəlkə də gələn əsrin ilk ilini «uşaq ədəbiyyatı ili» elan edib bu vasitə ilə uşaqlar üçün, - lap balacalardan başlamış 10-cu sinfə qədər uşaqları nəzərdə tuturam, - Azərbaycan klassik ədəbiyyatının ən vacib əsərlərini latın əlifbası ilə çap etməyi təklif edirəm. Homerdən, Firdovsidən, Şekspirdən, Puşkindən tutmuş bütün məşhur ədiblərin ən mühüm əsərlərini latın əlifbası ilə çap edib oxucularımıza çatdırmaq vacibdir.

Burada Siz tərcümə məsələsinə toxundunuz, mən o barədə də bir neçə kəlmə demək istəyirəm. Əvvəla, əlbəttə, bizim ədəbiyyatın xarici ölkələrdə təbliği çox mühümdür. Mən Türkiyədə işləyərkən uzun zaman çalışdım ki, orada heç olmasa Cəlil Məmmədquluzadənin kitabını buraxaq. O vaxtkı mədəniyyət naziri Fikri Çağlar da bu barədə söz verdi, amma nədənsə alınmadı.

Lakin Türkiyəyə bu dəfəki səfərimdə bunu reallaşdırdıq. «Cümhuriyyət» qəzetinə əlavə olaraq Cəlil Məmmədquluzadənin hekayələri, povestləri və pyeslərindən ibarət böyük bir kitab buraxılacaqdır.

İndiyə qədər Yazıçılar Birliyinin xətti ilə ingilis dilində Azərbaycan klassik şeirindən antologiya hazırlanıbdır. YUNESKO xətti ilə fransız dilində Azərbaycan hekayələri nəşr olunacaqdır. Bu işdə Ramiz Abutalıbov da iştirak etmişdir. Rus dilində də belə şeir, nəsr antologiyalarımızın nəşr olunması çox vacib məsələdir. Rus dilində bizim 30-cu illərdə bir antologiyamız çıxıbdır. Elçin burada dedi, - Vasilyev istedadlı şair idi, amma, əlbəttə, Sabir səviyyəsində şair deyildi. Sabiri tərcümə eləmək də asan məsələ deyildir. Amma o antologiyada Nəsiminin «Məndə sığar iki cahan, mən bu cahana sığmazam» şeirini Konstantin Simonov, demək olar ki, eyni-lə, dahiyanə şəkildə tərcümə etmişdi: «V menya vmestyatsya oba mira, no v etot mir ya ne vmeşşus». Yaxud, Füzulinin «Tutuşdu qəm oduna şad gördüyün könlüm» qəzəlini Antokolski eyni səviyyədə tərcümə etmişdi: «Peçalyu serdtse sojjeno, sçastlivoye koqda-to serdtse». Vidadinin şeirini Simonov eyni səviyyədə tərcümə eləmişdi. Əlbəttə, orada da zəif tərcümələr var idi.

Amma bu işi davam etdirmək lazımdır. Çünki rus dilində axırıncı antologiyanın çıxmasından, səhv eləmirəmsə, qırx il keçibdir. Qədimlərdən bu günə qədər dövrü əhatə edən Azərbaycan şeir antologiyasının rus dilində də nəşr olunması yaxşı olardı.

Hörmətli prezident, mən bilirəm ki, təklif vermək asan, bunları həyata keçirmək çətindir. Amma bir məsələni də demək istəyirəm. Əgər Dədə Qorqud akademiyası yaratmaq təklifi, burada deyilən başqa təkliflər də nəzərə alınarsa, bu işləri ancaq dövlət büdcəsinin üzərinə yıxmamalıyıq. Mənim fikrim budur. Sizinlə söhbətdə mən bir neçə dəfə bu təklifi irəli sürmüşdüm ki, Azərbaycanda Sizin adınıza bir fond yaradılsa, çox yaxşı olar. Bizdə imkanlı adamlar çoxdur. Amma bəziləri bu imkandan necə istifadə etməyi bilmir, digərləri bilmək istəmir, bəzilərinə də yol göstərmək lazımdır. Amma belə bir fond olsa və ədəbiyyat, mədəniyyət, sənət sahəsi burada mühüm yer tutsa, dövlət büdcəsinə artıq yük salmadan bütün bu tədbirləri həyata keçirmək olar.

Sizə bir daha təşəkkürümü bildirirəm.

Diqqətinizə görə hamınıza təşəkkür edirəm.

**F ə r a m ə z  M a q s u d o v** (*Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, dövlət komissiyası sədrinin müavini, Milli Məclisin deputatı*): Möhtərəm prezident!

Hörmətli iclas iştirakçıları!

Son günlər xalqımız möhtəşəm yazılı abidəmiz olan «Kitabi-Dədə Qorqud» dastanlarının 1300 illik yubiley təntənələrinin böyük qürur hissi doğuran xoş təəssüratı ilə yaşayır. Biz çağdaş günlərimizə Qorqud əxlaqı, Qorqud dili, Qorqud məkanı, Qorqud bahadırlığı zirvəsindən nəzər saldıq, müştərək gələcəyimizin ortaq siyasi, iqtisadi və mənəvi dəyərlərinin istiqamətlərini müəyyən etdik.

Möhtərəm prezident! «Kitabi-Dədə Qorqud» yubileyi tədbirlərinin belə geniş miqyasda, türk dövlətləri və türk xalqlarının gələcəyi üçün böyük siyasi və mədəni tutumu olan bir zəmində keçirilməsi Sizin otuz illik mədəniyyət siyasətinizin parlaq təzahürüdür. Dil, din, mənəviyyat və dövlətçilik sahəsindəki tarixi ənənələrimizlə müasir siyasi gerçəkliyi birləşdirməyin uzaqgörən, müdrik bəhrəsi kimi, «Kitabi-Dədə Qorqud» tədbirləri xalqımızın tarixində özünəməxsus yer tutacaqdır.

Təntənəli yubiley mərasiminin yüksək tribunasından yubiley komissiyasının işinə, alimlərimizin, mədəniyyət xadimlərimizin əməyinə verdiyiniz qiymətə görə Sizə təşəkkürümüzü bildiririk.

«Kitabi-Dədə Qorqud» mərasimləri bizim milli birliyimizin təntənəsinə çevrildi. Xalqla onun öndəri taleyüklü məsələlərdə bir düşünüb, bir danışır. Tariximizin ibrətamiz səhifəsinə çevrilmiş yubiley təntənəsində türkdilli dövlətlərin başçılarının, dünyanın çeşidli ölkələrindən gəlmiş alimlərin, mədəniyyət xadimlərinin çıxışları göstərdi ki, Siz türk xalqlarının güvənc yeri, müdrik öndərisiniz.

Son üç ildə keçirilmiş simpoziumlar, elmi tədqiqatların dərc olunmuş nəticələri, elmimizin tarixi nailiyyətləri Azərbaycanı qorqudşünaslığın mərkəzi kimi beynəlxalq miqyasda təsdiq etməklə yanaşı, bu abidənin kompleks şəkildə öyrənilməsinin vəzifələrini də müəyyən etdi.

Sonuncu beynəlxalq simpoziumda uzunmüddətli əməli fəaliyyət proqramı irəli sürülüb müzakirə olunmuşdur.

«Kitabi-Dədə Qorqud» dastanlarını vahid türk mədəniyyəti və dünya sivilizasiyaları zəminində öyrənmək, elmi araşdırmaların nəzəri tutumunu beynəlxalq elmi səviyyəyə yüksəltmək üçün akademiyanın «Dədə Qorqud» folklor evində beynəlxalq qorqudşünaslıq mərkəzinin yaradılması məqsədəuyğundur. Bu beynəlxalq elmi mərkəz dünya qorqudşünaslığını əlaqələndirməklə yanaşı, abidənin müasir dünya eposşünaslığı kontekstində tədqiqinin əsas istiqamətlərini müəyyənləşdirəcəkdir.

Buraya öncə abidənin elmi-tənqidi mətninin hazırlanması, bu məqsədlə beynəlxalq tərkibdə elmi redaksiya şurasının təsis edilməsi, əsərin elmi-tənqidi mətninin dünya dillərinə tərcüməsi və nəşri məsələləri daxildir. Bu mərkəz qorqudşünaslığın bütün dillərdə çıxan nümunələrinin kartotekasını və kitabxanasını yaradacaqdır.

«Kitabi-Dədə Qorqud» almanaxlarının nəşri, «Dədə Qorqud» lektoriyasının təşkili, internet xətti ilə informasiya proqramının hazırlanması, dastanların bağlı olduğu digər abidələr, coğrafi məkanlar, xalqlar və tarixi hadisələrlə əlaqədar kütləvi səciyyəli filmlərin çəkilişi də bu mərkəzin vəzifələrindən olacaqdır.

Beynəlxalq «Dədə Qorqud» mükafatının təsis edilməsi və hər iki ildən bir türkologiya sahəsindəki ən böyük uğurlara görə verilməsi də təklif olunur. İpək yolu marşturu ilə «Dədə Qorqud» dastanı festivallarının keçirilməsi bu abidənin geniş coğrafi ərazidə təbliği məqsədi daşıyacaqdır.

Qorqudşünaslıq sahəsində görüləcək tədbirlərin həlledici məqamı elmi araşdırmaların nəzəri vüsətindən asılıdır. Yeni qorqudşünaslıq müasir elmi-metodoloji və təhlili prinsipləri olan humanitar təfəkkürün zəminində meydana çıxmalıdır. Bu gün akademiyada tarixçi, etnoqraf, ədəbiyyatşünas, dilçi, filosof və sənətşünaslarımızın apardıqları araşdırmaların yeni nəticələrindən «Kitabi-Dədə Qorqud» dastanlarının kompleks tədqiqində səmərəli istifadə etməyin yollarını arayırıq.

İndi nəşrinə başladığımız çoxcildlik «Azərbaycan ədəbiyyatı tarixi»ndə «Kitabi-Dədə Qorqud» xüsusi yer tutmuşdur. Ədəbi fikrimizin fakt və hadisələrində Dədə Qorqud ənənələrini əyaniləşdirən ideyalar, bədii düşüncə elementləri, dil və poetika məqamları önəmli yer tutur.

Digər tərəfdən, dastanın Şərq ictimai-bədii təfəkkür işığında öyrənilməsi üçün Mahmud Kaşqarinin «Divani-lüğət-it-türk», Yusif Balasaqunlunun «Qutadqu-bilik», Əbülqazi Bahadır xanın «Şəcəreyi-tərakimə» əsərləri, o cümlədən oğuznamələrin nəşri və tədqiqinin genişləndirilməsi zərurəti meydana çıxır. Yeni tədqiqatların elmi nəticələri işığında ortaq türk ədəbi dili, ümumtürk əlifbası, ortaq terminologiya kimi məsələlərə baxılması ümumi işimizə şəksiz, fayda verəcəkdir.

Şübhəsiz, saydığımız mövzu və mətləbləri müasir düşüncə tərzinə malik, Şərq və Qərb mədəniyyətlərinə bələd olan mütəxəssislər həll etməlidirlər. Bu istiqamətdəki kadr hazırlığı da strateji proqramın tərkib hissəsidir.

Möhtərəm prezident! «Kitabi-Dədə Qorqud»un yubileyinin keçirilməsi haqqında Sizin fərmanınız, əslində, bütün tariximizi, ədəbi-mədəni keçmişimizi öyrənməkdə yeni bir mərhələnin ideya-siyasi və nəzəri-metodoloji əsaslarını yaratdı. Ümumtürkoloji və azərbaycanşünaslıq məqamlarının dialektik əlaqəsi, bir-birini tamamlaması ideyası Sizin verdiyiniz fərmanda öz dəqiq ifadəsini tapmışdır.

Sizi əmin edirəm ki, alimlərimiz tövsiyələrinizi əsas tutaraq, mənəvi irsimizin tədqiqi və təbliğində bütün imkanlarını səfərbər edəcəklər.

Diqqətinizə görə təşəkkür edirəm.

**B ə x t i y a r   V a h a b z a d ə** (*Azərbaycanın xalq şairi, dövlət komissiyasının üzvü, Milli Məclisin deputatı*): Hörmətli prezident!

Hörmətli iclas iştirakçıları!

Burada yubileylə əlaqədar nə qədər ki, söz deyildi, hamısı ilə şərikəm və hamısının altından böyük məmnuniyyətlə imza atmağa razıyam, imza ata bilərəm. Bizim yoldaşlarımız çox gözəl danışdılar, yubileyə yekun vurdular. Mən Sizin yadınıza yalnız bir cəhəti salmaq istəyirəm.

Hörmətli prezident!

Rəşad Gənc Sizinlə görüşəndə gözəl bir söz dedi. O dedi ki, bu yubiley bizi özümüzə, milli idraka qaytardı, milli idrakımızı yadımıza saldı. Həqiqətən, bu yubileyin bir cəhəti xüsusilə qeyd olunmalıdır ki, millət özünü tanıdı. Millət bildi ki, dədəsi, atası kimdir. Haradan gəldiyini bilməyən haraya gedəcəyini bilməz.

Gizli deyil, Siz dünənki müşavirədə bir neçəsini danladınız ki, ana dilində danışa bilmirlər, çünki onlar ana dilində təhsil almayıblar. Gizli deyil ki, bu gün də ana dilində təhsil almayanlar var. Mənə elə gəlir, bu adamlar da ayıldı, onlarda da milli şüur tərpəndi ki, mənim atam, babam kimdir. Bu mənada bu yubileyin çox böyük əhəmiyyəti oldu.

Mən istəyərdim ki, burada bir məsələni də Sizə xatırladam. Bizim komissiyanın iclaslarından birində mən çıxış edib dedim ki, siz nəzərdə tutduğunuz tədbirlər bizə maddi cəhətdən baha başa gələ bilər. İndiki müharibə şəraitində, maddi durumumuzun aşağı olduğu şəraitdə bunu bəlkə bir az qısaldaq. Bu günə etiraf etməliyəm ki, bizim qazandığımız daha çox oldu. Mən maddi tərəfini nəzərə alırdım, amma elə şeylər var ki, onları maddi tərəziyə qoymaq lazım deyil.

**H e y d ə r   Ə l i y e v:** Yəni qazandığımız itirdiyimizdən çox oldu.

**B ə x t i y a r   V a h a b z a d ə:** Bəli, qazandığımız itirdiyimizdən çox oldu. Doğrudur, bu kitabların, ensiklopediyanın nəşr olunması, xarici ölkələrdən adamların gəlməsi, təşkil edilən ziyafətlər üçün müəyyən xərc çəkilir və bu, bizim büdcəmizdən gedir. Amma nəticə nə oldu? Nəticə o oldu ki, biz özümüzü türkşünaslığın paytaxtı kimi tanıtdıq və göstərdik ki, biz kimik. Bütün dünya bizim kimliyimizi tanıdı.

Mənə elə gəlir, yoldaşlar – Anar müəllim də, Elçin müəllim də burada tamamilə doğru dedilər ki, bu işi davam etdirmək lazımdır. Onu dayandırmaq olmaz.

Mən bir-iki qeydimi də demək istəyirəm. Bəzi kitablara baxdım, oradakı şəkillərdə, xüsusən gözlərin qıyılmasında bir sıra Orta Asiya əlamətləri vardır. Bilmirəm, buna diqqət yetirmisiniz, yoxsa yox.

Orta Asiya xalqları tərəfindən indi təzə bir məsələ qaldırılıb ki, azərbaycanlılar buna sahib oldular, amma əslində guya bu, Azərbaycan abidəsi deyildir. Mən azərbaycanlı olduğuma görə demirəm, «Kitabi-Dədə Qorqud»da adı çəkilən coğrafi adların özü göstərir ki, bu abidə Azərbaycana məxsusdur. O gözüqıyıqlıq

məsələsini dedim, bilmirəm, fikrim sizə aydındır, yoxsa yox. Mənə elə gəlir ki, rəssamlar buna diqqət yetirməlidirlər.

**H e y d ə r Ə l i y e v:** Tamamilə aydındır. Bizdə qıyıq göz yoxdur.

**B ə x t i y a r V a h a b z a d ə:** Bizdə qıyıq göz yoxdur. Biz bir az Avropaya meylliyik.

**H e y d ə r Ə l i y e v:** Heç Avropada da belə göz yoxdur. Bizim gözümüz azərbaycanlılar gözüdür. Mən hesab edirəm, məmnun olmalıyıq ki, gözümüz də, insanlarımız da gözəldir.

**B ə x t i y a r V a h a b z a d ə:** Özümüz də gözəlik. Amma mən bəzi şəkillərdə o gözüqıyıqlığı gördüm. Rəssamlarımız bunu nəzərə almalıdırlar.

**H e y d ə r Ə l i y e v:** Sən düz deyirsən. Görünür, xəta ediblər.

**B ə x t i y a r V a h a b z a d ə:** Bu məsələdə ehtiyatlı olmaq lazımdır. Anar müəllim dedi ki, biz kompleks düzəldirik. Mən bunu bilmirdim. Əgər o düzələcəksə, biz rəssamlarımıza, heykəltəraşlarımıza bunları izah etməliyik ki, göz məsələsində ehtiyatlı olsunlar.

Doğrudan da o yubiley gecəsi xariqüladə bir gecə idi. Mən həmin yubiley gecəsinin bədii hissəsini nəzərdə tuturam. Oradakı dağ, dağın başındakı məşəl, Dədə Qorqudun gəlməsi və türk xalqlarının hərəsindən bir dahinin gəlməsi – bütün bunlar son dərəcə gözəl düşünülmüşdü və hamını heyran qoydu. İnanın ki, mən həqiqətən ağladım. Öz millətimin, tariximin böyüklüyünə məndə bir qürur hissi yarandı. Ona görə Sizə təşəkkürümüzü bildiririk, çox sağ olun.

Amma mənim yenə də bir qeydim var. Mən eşitdim ki, həmin tamaşanı Türkiyəyə aparmaq istəyirlər. Əgər onu Türkiyəyə aparmaq istəyirlərsə, oradakı çərkəzi paltar məsələsinə diqqət yetirmək lazımdır. Çərkəzi geyim bizim milli paltarımız deyildir. Yəni o, Dədə Qorqud dövrünün paltarı deyildir. Bu bizə ləzgilərdən və ya haradan gəlibsə, mən bilmirəm. Amma onu bilirəm ki, bu paltar bizə sonralar, bəylik dövründə gəlibdir. Bu məsələdə də bir az ehtiyatlı olmaq lazımdır.

Burada çox ciddi bir məsələ qaldırıldı. Hörmətli prezident, Siz də həmin məsələyə öz münasibətinizi bildirdiniz. Tərcümə məsələsi bizim həmişə yaralı yerimiz olubdur. Amma etiraf etmək lazımdır ki, Sovet İttifaqı dövründə bu iş Yazıçılar İttifaqı nəzdində gedirdi. Məsələn, mənim 14 kitabım rus dilinə tərcümə olunubdur. Bu, böyük məsələ idi. İndi bu məsələlərin həllinə bizim maddi imkanımız yoxdur. Bilmirəm, hazırda bunu təşkilati cəhətdən necə etmək mümkündür, amma bizim buna çox böyük ehtiyacımız var.

Mən burada əyləşənlərdən soruşmaq istəyirəm. Məsələn, mən Nizami Gəncəvinin əsərlərinin rus dilinə tərcüməsinin hansı səviyyədə olduğunu deyə bilmərəm, çünki rus dilinin incəliklərini yaxşı bilmirəm. Amma Azərbaycan dilinə tərcümədə də qüsurlar çoxdur. «Leyli və Məcnun», «Xosrov və Şirin» əsərlərinin tərcüməsi nisbətən yaxşıdır. Amma biz Cavad Heyətlə birlikdə oturmuşuq, onları tutuşdurmuşuq, Nizami Gəncəvinin əsərlərinin Azərbaycan dilinə belə tərcüməsi kafi deyildir. Nizami kimi dahinin əsərlərinin öz ana dilinə tərcüməsinin kafi səviyyədə olmaması böyük qüsurdur.

Dədə Qorqud akademiyasının yaradılması məsələsini siz bilərsiniz. Mən bu barədə fikrimi deyə bilmərəm. Amma istəyirəm bir məsələni deyim. Hörmətli prezident, «Divani-lüğət-it-türk» əsərinin bu vaxta qədər dilimizdə olmaması çox böyük qüsurdur. Bu əsər bütün türkdilli xalqların dillərinə tərcümə edilibdir. O, Türkiyədə çox gözəl nəşr olunubdur. Bu əsər məndə var.

Başqa vaxt deməyə imkanımız olmur, istəyirəm bir məsələni də deyim. Azərbaycanın orta məktəblərində artıq latın əlifbasına keçiblər. Yəni mənim nəvələrim artıq latın əlifbasını öyrənirlər. Amma mənim nəvələrim evimdə olan, kiril əlifbası ilə nəşr edilmiş kitabları oxuya bilmirlər. Yadımda qalmadı, Anar müəllim, yoxsa Elçin müəllim bu məsələni qaldırdı. Heç olmasa klassiklərimizin əsərləri latın qrafikası ilə nəşr olunmalıdır. Yəni uşaqlarımız dərsdənkənar vaxtlarda klassiklərimizi oxuya bilmirlər.

Hörmətli prezident, mənə elə gəlir ki, biz tamamilə latın qrafikasına keçməliyik. Qəzetlərə tapşırıq vermək lazımdır. İqtidar qəzetləri latın qrafikasına keçə bilmirlər, ona görə ki, onda onları oxuyan olmaz. Eləcə də müxalifət qəzetləri bir-biri ilə rəqabətdədir. Onların bəziləri əvvəllər bir səhifəni latın əlifbası ilə verirdilər. İndi buna da əməl etmirlər, çünki hamı istəyir ki, onun qəzeti daha çox oxunsun. Amma 20 yaşından yuxarı olan adamlar latın əlifbasını bilmirlər. Türklər mənə deyirlər ki, Atatürk zamanında əski ərəb əlifbasından latın əlifbasına keçmək məsələsi bir ildə həll olundu. Mənə elə gəlir, biz də bu barədə düşünməliyik, qəti qərar qəbul etməliyik. Bizim mətbuatımız latın əlifbasına keçməlidir. Əks halda, bu iş çox axsayacaqdır. Bizim 16-17 yaşlı cavanlarımız klassik ədəbiyyatımızla tanış deyillər. Bu qədər.

Diqqətinizə görə sağ olun. Təşəkkür edirəm.

**H e y d ə r Ə l i y e v:** Bəxtiyar müəllim, birincisi, düz deyirsiniz ki, vaxtilə sizin kitablarınız rus dilinə tərcümə olundu. Bu, çox əhəmiyyətlidir. Çünki bu gün hamı etiraf etməlidir ki, Rusiya böyük bir ölkədir. Rus dilindən həm Rusiyada, həm də keçmiş Sovetlər İttifaqı məkanında istifadə olunur, həmişə də istifadə olunacaqdır. Buna görə də bu gün məmnun olmalıyıq ki, o vaxtlar biz ədəbiyyatımızın çox hissəsini, o cümlədən müasir yazıçılarımızın, şairlərimizin əsərlərini rus dilinə tərcümə edə bildik. Dediniz ki, sizin 14 kitabınız rus dilinə tərcümə olunubdur. Bu, çox gözəldir. İndi sizin bir kitabınız da ingilis dilinə tərcümə olundu. Elədirmi?

**B ə x t i y a r V a h a b z a d ə:** Bəli, indi rus dilinə tərcümə yoxdur.

**H e y d ə r  Ə l i y e v:** Bir kitabınız ingilis dilinə tərcümə edildi. Amma gələcəkdə də olacaqdır.

**B ə x t i y a r  V a h a b z a d ə:** Allah qoysa.

**H e y d ə r  Ə l i y e v:** Siz Nizaminin əsərləri haqqında danışdınız. Bəlkə də burada xatırlayanlar var, mən keçmiş zamanlarda bu barədə bir neçə dəfə demişəm. Gərək bizim yazıçılar yaddan çıxarmasınlar ki, 1970-ci illərdə mənim təşəbbüsümlə Nizaminin əsərlərinin hamısı Moskvada «Xudojestvennaya literatura» nəşriyyatında neçə cilddə rus dilində nəşr olundu. İstəmirəm ki, siz mənim bu sözlərimi özümü tərifləmək kimi qəbul edəsiniz, amma bunlar tarixi hadisələrdir. Gərək bunlar unudulmasın. Biz bunu etdik. Bəli, bunu mən etdim. Burada qərar qəbul etdik, bilirsiniz ki, «Xudojestvennaya literatura» nəşriyyatı bunu çətinliklə nəşr etdi.

**E l ç i n  Ə f ə n d i y e v:** Cənab prezident, orada giriş sözünü yazmağı da Sizə təklif etmişdilər.

**H e y d ə r  Ə l i y e v:** Bəli, indi olan-olub, keçən-keçib, həmin o nəşriyyat mənə bir neçə dəfə müraciət etdi ki, bu işin təşəbbüskarı bir halda sizsiniz, ona giriş sözünü siz yazın. Hətta onun bir neçə variantını da yazıb mənə gətirdilər. Əvvəldən dedim ki, mən nə şairəm, nə yazıçıyam, - siyasət adamıyam. Olur ki, bəziləri özlərinə aid olmayan işlərdə iştirak edirlər. Ola bilər, mən yazım, bəlkə də hesab edirsiniz ki, bununla nəşriyyatın hörməti qalxacaqdır. Amma mən özüm bunu rəva görmürəm. Mən göstəriş verdim ki, qoy, bunu Mirzə İbrahimov yazsın. Bu, tarixi həqiqətdir, onu hamı bilməlidir.

**E l ç i n  Ə f ə n d i y e v:** Cənab prezident, onu hamı bilir ki, o vaxt Maksim Qorkinin «Seçilmiş əsərləri»nin 8 cildliyini növbəti beşilliyin planına keçirdilər, amma Nizaminin 5 cildliyini həmin ilin planına saldılar.

**H e y d ə r  Ə l i y e v:** Bəli, biz bunu etdik. Sizə onu da demək istəyirəm ki, mən bu işə Azərbaycanda başladım, amma sonra Moskvaya getdim. Bunun başlanğıcı mən Azərbaycanda işləyəndə qoyuldu. Amma sonrakı dövr mən Moskvada işlədiyim vaxta düşdü. Bunun da bizə xeyri dəydi. Çünki mən Baş nazirin birinci müavini vəzifəsini apardığım zaman – kitabları nəşr edən mətbuat komitəsi var idi – mətbuat komitəsi tamamilə mənə bağlı idi. Yəni ona mən rəhbərlik edirdim, nəşriyyatlar mənə bağlı idilər. Ona görə də Azərbaycanda olduğum vaxtdan daha çox orada imkanım və təsirim var idi. Mən bunu edirdim, vaxtaşırı mənim yanıma gəlirdilər, gətirib göstərirdilər.

O vaxtlar bu işlə bir gürcü xanım məşğul olurdu. O, şərqşünas idi, adı, familiyası indi yadımdan çıxıbdır. O da, başqaları da mənə deyirdilər ki, Nizaminin əsərlərinin rus dilinə tərcüməsi keyfiyyətli deyil. Burada da səbəb var. Səbəb də ondan ibarətdir ki, İkinci dünya müharibəsindən əvvəl qərar çıxarılmışdı ki, Nizaminin 800 illik yubileyi olsun. İkinci dünya müharibəsi ortaya düşdü. Xatirinizdədir, müharibə qurtarandan sonra Nizaminin yubileyi 1948-ci ildə qeyd edildi. Ola bilər, çoxları yaddan çıxarıblar, amma hamısı mənim xatirimdədir. Müharibə təzəcə qurtarmışdı ki, bu kitabları çox təcili tərcümə etməyə başladılar.

O vaxt Azərbaycan hökuməti – indi bunu da qeyd etmək lazımdır ki, o zaman Azərbaycanın başçısı Mircəfər Bağırov idi – qərar qəbul etdi və Rusiyadan bir çox dəyərli şairlər, tərcüməçilər buraya dəvət olundular. Onlar demək olar ki, burada aylarla yaşadılar və bu tərcüməni etdilər. Yəni vaxt çox dar idi. Onlar nə qədər yüksək səviyyəli, bilikli yazıçılar, şairlər, tərcüməçilər olsaydılar da, vaxt sıx idi. Ona görə də kim necə bacarırdı, o cür də tərcümə etdi. Biz Nizamini fars dilindən Azərbaycan dilinə tərcümə etmişik, onlar da bunu Azərbaycan dilindən rus dilinə tərcümə etdilər. Bilirsiniz, əlbəttə, ona görə də burada çoxlu itkilər vardır.

Deyəsən, «Sirlər xəzinəsi» poemasını Marietta Şaginyan tərcümə edibdir. Mən bunu əvvəl də bilirdim. Ancaq 1975-ci ildə biz Bakıda sovet ədəbiyyatı günləri keçirəndə o, buraya gəlmişdi. Mən onunla bir neçə görüş keçirdim. Bu barədə mənə ətraflı danışdı ki, onlar 1947-1948-ci illərdə burada nə qədər yaşayıblar və bu kitabların tərcüməsi ilə məşğul olublar. Həmin poemanı da o tərcümə edibdir.

Yəni mən bu bir neçə tarixi faktı deməklə birdirmək istəyirəm, - burada həqiqət var ki, Nizaminin əsərlərinin rus dilinə tərcüməsində də, Azərbaycan dilinə tərcüməsində də qüsurlar var. Baxmayaraq ki, o vaxt bunu fars dilindən Azərbaycan dilinə tərcümə edən şairlərimiz, tərcüməçilərimiz fars dilini yaxşı bilirdilər, indikilərdən də yaxşı bilirdilər. Təbiidir ki, bax, bunlara görə indi müstəqil Azərbaycan Respublikası kimi bizim qarşımızda duran vəzifə bu qüsurları aradan götürməkdən ibarətdir. Ancaq bunun üçün nə qədər vəsait, vaxt lazımdır.

Mən bununla onu demək istəmirəm ki, biz bu işi kənara qoymalıyıq. Biz perspektiv bir plan yaratmalıyıq. Siz bu barədə danışdıqca mən belə bir fikrə gəldim: biz «Kitabi-Dədə Qorqud»dan başqa, bir perspektiv plan yaratmalıyıq ki, bəlkə 10,15,20 il ərzində bunlar tədricən həyata keçirilsin. Biz bunun əsasını qoymasaq, bizdən sonra gələn nəsillər üçün bu, daha da çətin olacaqdır.

Bilirsiniz, nəsillər dəyişdikcə, bu şeylərin bəziləri unudulur. Məsələn, mən bunları sizə danışıram, çünki onların canlı şahidiyəm. Bilmirəm, burada oturanlardan mən yaşda olan var, yoxsa yox. Bu məsələlərin canlı şahidi olan bir-iki nəfər tapmaq mümkündür. Məsələn, 1948-ci ildə Nizaminin yubileyində iştirak edən adam var?

**B ə x t i y a r  V a h a b z a d ə:** Mən iştirak etmişəm.

**H e y d ə r  Ə l i y e v:** Daha kim var, əlini qaldırsın. Demək, Kamal Talıbzadə də iştirak edib.

Məsələn, Rəsul Rza iştirak edib, amma Anar iştirak etməyib. İlyas Əfəndiyev iştirak edib, lakin Elçin iştirak etməyib. Bülbül iştirak edib, ancaq Polad iştirak etməyib. Başa düşürsünüz də?

Yəni zaman keçdikcə, nəsillər dəyişdikcə bəzi dəyərlərin əhəmiyyətini itirirlər. Bəzən də elə insanlar meydana gəlir ki, deyirlər, - bu nədir, bunu o yana, onu bu yana at. Gəlin açıq danışaq, 7-8 il bundan əvvəl bizim tariximizə fikir verən var idimi? Bəxtiyar Vahabzadə düz deyir, tariximizə fikir verə bilən gərək milli ruhlu adam olsun. Milli ruhu, kökü olmayan və öz ana dilini, milli-mənəvi dəyərlərini dərk edə bilməyən adam bunu etməz. Bizdə belələri var. Xalq Cəbhəsinin hakimiyyəti vaxtında küçədən hakimiyyətə gələnlər belə hesab edirdilər ki, Azərbaycanın nə tarixi, nə mədəniyyəti bunlar üçün maraqlıdır, onlar üçün yalnız hakimiyyətləri maraqlıdır.

Bəxtiyar müəllimin fikirlərindən mənim beynimə gəldi, hesab edirəm ki, doğrudan da bəlkə böyük bir perspektiv plan hazırlayaq. Yenə də deyirəm, orada yazmaq olar ki, 5 ilə nə etmək, 10 ilə nə etmək, 15 ilə nə etmək olar, yaxud 20-30 ilə nə etmək olar ki, gələcək nəsillər üçün bunun əsasını qoyaq. Gələcək nəsillər millətimizə vəfalı olsalar bunları irəli aparарlar, olmasalar da hər halda, biz öz borcumuzu yerinə yetirmiş olarıq. Amma güman edirəm, gələcək nəsillərə qədər bunları həyata keçirməyə bizim – sizin də, mənim də öz imkanlarımız da vardır. Biz bunların çoxunu həyata keçirəcəyik.

Daha kim danışmaq istəyir? Vilayət Quliyev, buyur.

**V i l a y ə t   Q u l i y e v** (*Xarici işlər naziri, Dövlət Komissiyasının üzvü, Milli Məclisin deputatı*): Möhtərəm cənab prezident!

«Kitabi-Dədə Qorqud» dastanının yubileyinin yüksək səviyyədə keçirilməsi ilə əlaqədar burada deyilən fikirlərlə razılaşmaq lazımdır.

Təbii ki, bu yubiley bizim mədəniyyətimizin qədimliyini, özünəməxsusluğunu göstərməklə qalmadı, onun yüksək səviyyədə təşkili eyni zamanda Azərbaycana müəyyən siyasi dividendlər də qazandırdı. Mən ikicə faktı qeyd eləmək istəyirəm. YENESKO-nun baş direktoru Sizin dəvətinizlə ilk dəfə keçmiş sovet respublikalarından birinə gəldi. Ümumiyyətlə, bu, onun dünyanın bu hissəsinə ilk səfəri idi. Bu səfərdən sonra onun gəldiyi qənaət belə oldu ki, Azərbaycan həqiqətən qədim, zəngin, özünəməxsus mədəniyyətə malikdir və YUNESKO-nun tədbirlər proqramında Azərbaycanla bağlı səhifələr bundan sonra daha da çox üstünlük təşkil etməlidir.

Avropa Şurasının Azərbaycan üzrə məruzəçisi cənab Jak Bomel dəfələrlə ölkəmizə gəlmişdir. O, «Dədə Qorqud»la bağlı keçirilən tədbirlərə sözün həqiqi mənasında heyran qaldığını bildirdi və bir daha belə bir inamını vurğuladı ki, Azərbaycan təkcə tarix baxımından, coğrafi baxımdan yox, mədəniyyət baxımından, intellektual potensial baxımından da Avropanın bir hissəsidir və Avropa Şurasına ən yaxın zamanlarda üzv olmağa layiqdir.

Bildiyiniz kimi YUNESKO qarşıdan gələn XXI əsrin ilk on ilini «Dünya sülh mədəniyyəti illəri» elan etmişdir. Bu illərdə dünyada sülhə, barışa, humanist dəyərlərə üstünlük verilməsi ön plana çəkiləcək, əsas diqqət mərkəzində olacaqdır. Təbii ki, «Dədə Qorqud»un yubiley tədbirlərinin, təntənələrinin də bütün bu illərdə davam etməsi əlamətdar bir hadisəyə çevriləcəkdir.

Eyni zamanda YUNESKO özünün 2000-2001-ci illər üçün tədbirlər proqramına Azərbaycanla bağlı daha bir mühüm yubileyi daxil etmişdir. Biz bu günlərdə Parisdə bu haqda məlumat almışıq. Bu da orta əsrlərin böyük filosofu, alimi, humanist ziyalısı Nəsirəddin Tusinin anadan olmasının 800 illiyinin dünya miqyasında qeyd edilməsi barədədir. Hesab edirik ki, bu, «Dədə Qorqud» yubileyinin ab-havasının, ruhunun davam etdirilməsidir. Çünki Nəsirəddin Tusi dünyanın elm tarixinə ilk növbədə böyük humanist kimi daxil olmuşdur. Onun əsərləri, xüsusilə riyaziyyata, astronomiyaya, həndəsəyə dair əsərləri orta əsr Avropa alimlərinin stolüstü kitabları idi. O, eyni zamanda böyük moralist, böyük siyasətçi idi. Cənab prezident, yəqin ki, Sizin yaxın vaxtlardakı müvafiq sərəncamlarınızla, «Kitabi-Dədə Qorqud» yubileyinin davamı kimi, YUNESKO çərçivəsində Nəsirəddin Tusinin yubileyinin qeyd olunması, ümumiyyətlə, orta əsr Azərbaycan ədəbiyyatının, mənəviyyatının, elminin diqqət mərkəzinə gətirilməsi də öz yerini tutacaqdır.

Diqqətinizə görə sağ olun.

**H e y d ə r   Ə l i y e v:** Artıq mən göstəriş vermişəm, Nəsirəddin Tusi haqqında fərman hazırlanır.

**G ö v h ə r   B a x ş ə l i y e v a** (*Azərbaycan Milli Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun direktoru, dövlət komissiyasının üzvü, filologiya elmləri doktoru*): Mən Baxşəliyeva Gövhər, Şərqşünaslıq İnstitutunun direktoruyam.

**H e y d ə r   Ə l i y e v:** Səni tanımadım. Bilirəm, o vaxtlar mənim qızımla bir yerdə oxuyubdur, mən bunu tez-tez görürdüm. Zaman keçir, insan dəyişilir. Atası da vaxtilə bizdə maliyyə naziri idi – Baxşəliyev. Bəli, 70-ci illərdə mənim işlədiyim zaman. Onun qızı da mənim qızımla bir yerdə universitetin şərqşünaslıq fakültəsinin ərəb bölməsində oxuyurdu. Özü də yaxın əlaqələri olubdur. Sonra ayrı düşüblər.

**G ö v h ə r   B a x ş ə l i y e v a:** Aspiranturaya da bir yerdə daxil olmuşduq, minimumları da bir yerdə vermişdik.

**H e y d ə r   Ə l i y e v:** Sən də Moskvada qurtarmısan?

**G ö v h ə r   B a x ş ə l i y e v a:** Xeyr. Sevil burada daxil oldu, sonra Moskvaya getdi.

**H e y d ə r   Ə l i y e v:** Bəli, burada daxil oldu, sonra Moskvaya getdi. Yaxşı, buyur.

**G ö v h ə r   B a x ş ə l i y e v a:** Çox sağ olun. Cənab prezident, ilk növbədə mən bizim ulu abidəmiz, «Dədə Qorqud»un yubileyinin bu miqyasda qeyd olunması üçün yaratdığınız şəraitə görə institutumuzun

əməkdaşları adından Sizə dərin təşəkkürümüzü bildirirəm. Siz bu tədbirlə adınızı Azərbaycan mədəniyyətinin, ədəbiyyatının, tarixinin səhifələrinə bir daha, bir daha qızıl hərflərlə yazmış oldunuz.

Mən bir məsələ üzərində dayanmaq istərdim. Burada tərcümə mərkəzi haqqında danışıldı. Cənab prezident, bu, bizim ən ağrılı nöqtələrimizdən biridir. Bizim işçilər, əməkdaşlar Avropa ölkələrinə az-çox gedirlər, Parisin kitabxanalarında işləyirlər. Onlar çox böyük ağrı hissi ilə qayıdırlar ki, o ölkələrin kitabxanalarında Azərbaycan haqqında məlumat, demək olar, yox dərəcəsindədir.

Məsələn, bu yaxınlarda bir əməkdaşımız Oksforddan qayıtmışdır. O dedi ki, Ermənistan haqqında, ermənilərin tarixi, mədəniyyəti, ədəbiyyatı haqqında qalaq-qalaq kitablar var. Azərbaycan haqqında isə yalnız nazik bir kitabça var, o da Azərbaycanın İngiltərədəki səfirliyi tərəfindən hazırlanıbdır.

Cənab prezident, Avropa, Qərb mütəxəssisləri əsər yazanda, - düzdür, indi internetdən də məlumat alırlar, amma orada da bizim haqqımızda material azdır, - ilk növbədə kitabxanalara müraciət edirlər. Həmin kitabxanalarda isə bizim haqqımızda material yox dərəcəsindədir.

Odur ki, yaradılacaq tərcümə mərkəzi bəlkə bu işlərə də fikir versin. Təkcə Azərbaycanın abidələrinin, ədəbiyyatının tərcüməsi ilə kifayətlənməsin, həm də Azərbaycanın tarixinə, mədəniyyətinə, bir sözlə, keçmişinə, bu gününə aid mütəmadi olaraq, planlı şəkildə materiallar hazırlasın. İri həcmli kitablar mümkün deyilsə, ingilis dilində kiçik həcmli, kitabça şəklində kitablar hazırlayıb dünyanın bütün məşhur kitabxanalarına göndərsin. Özü də bu iş müntəzəm görülsün. O kitabxanaları bizim haqqımızda əsərlərlə doyurmalıyıq.

Dünya ictimaiyyəti Azərbaycan haqqında həqiqətləri bilməlidir. Cənab prezident, Azərbaycanı dünyaya birinci olaraq Siz tanıtdınız, böyük iş gördünüz. Dünyada «Azərbaycan» deyəndə ilk növbədə, demək olar, Sizi nəzərdə tuturlar. Ancaq Azərbaycan haqqında materiallar da yayılsa, biz informasiya boşluğundan bir növ çıxmış olarıq.

Burada tərcümə mərkəzi barədə dedilər. Bilirsiniz ki, daha peşəkar mütəxəssislər akademiyadadır. Şərq dillərinə tərcüməni bizim institut öz üzərinə götürə bilər.

Diqqətinizə görə çox sağ olun.

**H e y d ə r Ə l i y e v:** Mənə belə gəlir ki, burada çox danışmaq olar. Ancaq əsas fikirlər bildirildi. Ona görə də mən bir neçə kəlmə söz deyərəm, bununla da bitirərik. İndi daha da çox iş görmək lazımdır, nəinki danışmaq.

Ancaq öncə bir şeyi sizinlə məsləhətləşmək istəyirəm, - görürəm, burada çoxlu dilçilər, ədəbiyyatçılar var. Dünən mən burada bizim mühüm bir sahəmiz olan hava limanında qüsurlar, nöqsanlar və bizi çox narahat edən hallar ilə əlaqədar müşavirə keçirirdim. Yəqin ki, siz onu televiziya ilə izləyə bilmisiniz.

Bu, hər bir insana aiddir, bu məni ağrıdır. Ona görə də dünən müşavirəni də sərt keçirdim və bizim nazirləri çox ciddi tənqid etdim. Bəzilərinə də töhmət verdim.

Ancaq orada bir şey mənim ağlıma gəldi. Yəni onu çoxdan deyirdim. Yadınızdadır, biri çıxış edəndə başladı ki, nə bilim, «Əsgərov cənabları, Rəsizadə cənabları». Düzdür, ədəbiyyatçı kimi, Vilayət Quliyev bu barədə mənim fikrimin düzgün olduğunu təsdiq etdi. Amma yenə də demək istəyirəm: bu «cənabları» sözü haradan çıxıbdır? Niyə biz «cənabları» sözünü işlədirik, cəm şəklində müraciət edirik – cənabları? Vaxtilə biz bir-birimizə «yoldaş» deyirdik. Sonra bəziləri dedi ki, gəlin bir-birimizə «bəy» deyək. Keçmişdə bizdə «cənab» olub, «ağa» olubdur, elədir? «Bəy» sözü də olubdur. Yeni dövrdə «cənab» dünyada hər yerdə işlənilən sözdür. Ruslar da deyirlər «qospodin», məsələn, ingilisdillilər də deyirlər «mister». Yaxud ukraynalılar, polyaklar «pan» deyirlər, gürcülər «batono» deyirlər. Bunlar hamısı bir- mənalı sözlərdir. Bizdə də «cənab» sözü var. Məsələn, cənab Vahabzadə, cənab Anar, cənab Fəraməz Maqsudov. Amma deyəndə ki, «Əsgərov cənabları», «filan cənabları» - bu, neçə ildir mənim qulağımı deşir. Baxıram – televiziyada ona deyirlər «cənabları», buna deyirlər «cənabları». Fikirləşirəm ki, a balam, bu, bir adamdır, niyə buna «cənabları» deyirlər? Bu, bir neçə adam deyil ki!

Vilayət Quliyev dünən məlumat verdi ki, keçmişdə şahlara, padşahlara müraciət cəm şəklində olubdur. Bu həqiqətdir. İndi də var. Amma bu, müraciət forması deyildir. Rəsmi görüşlərdə dövlət başçısı dövlət başçısına müraciət edəndə belə deyir, məsələn, bizim dilimizdə «zati-aliləri» sözü var, rus dilində «vaşe prevosxoditelstvo» var. Amma bu, deyəsən, Qərb dillərində heç yoxdur. (Yerdən – «ekselens» sözü var). «Ekselens»i də çox işlədirlər, bizim türk qardaşlarımız da çox işlədirlər.

Bu, rəsmi hallardadır. Amma biz bir-birimizə müraciət edirik ki, cənab Anar, cənab Bəxtiyar müəllim, - bəlkə də «cənab» deyəndə «müəllim» demək lazım deyildir, - cənab Elçin, cənab Ramiz. Bu, bəs deyilmi? «Cənabları» sözündən biz xilas ola bilərik, yoxsa yox? Ya dünən mən səhv eləmişəm? Yəni siz ədəbiyyatçı, dilçi kimi, dünən mənim dediyim sözləri təsdiq edirsinizmi? (Yerdən səslər – bəli). Onda xahiş edirəm, gəlin bu «cənabları» sözünü aradan çıxardaq.

Mən dünən dedim, mənə də «cənabları» demək lazım deyildir. Elə «cənab prezident» deyin – qurtardı getdi, «cənab Heydər Əliyev» deyin – qurtardı getdi. İstəmirəm mənə nə «yoldaş» desinlər, nə «Heydər Əliyeviç» desinlər. Keçmişdəki kimi bəziləri indi də deyirlər. Düzdür, mən bunun qabağını kəsirəm.

**B ə x t i y a r V a h a b z a d ə:** Amma mümkün olmur, yenə «Heydər Əliyeviç» deyirlər.

**H e y d ə r  Ə l i y e v:** Sən ki, görürsən, mən dərhal ağzından vururam. Bilirsiniz, bu inersiyadır, öyrəniblər.

Deməк, bu məsələni də mən sizinlə yoxladım. Fikrimin düz olduğunu aydınlaşdırdım.

## YEKUN NİTQİ

Hörmətli dostlar!

Xanımlar və cənablar!

Mən hesab edirəm, biz bu gün «Kitabi- Dədə Qorqud» dastanının 1300 illik yubileyi ilə əlaqədar üç il bundan əvvəl başladığımız işə yekun vuraraq hamımız eyni fikirdəyik ki, birincisi, həqiqətən biz bu yubileyin keçirilməsi ilə əlaqədar düzgün qərar qəbul etmişik. İkincisi, bu üç ildə çox işlər görülübdür. Üçüncüsü, bu yubiley tədbirlərinin son mərhələsi həqiqətən həm elmi, həm ictimai, həm siyasi, həm də bədii nöqteyi-nəzərdən ən yüksək səviyyədə olmuşdur.

Təbiidir ki, bu, xalqımız üçün iftixar hissidir. Şəxsən mən çox qürur hissi keçirirəm ki, xalqımız, millətimiz öz tarixini, mənşəyini, keçmişini, mədəniyyətinin zənginliyini dünyaya bir daha sübut etdi. Xalqımız özü-özünü tanıdı, dərk etmək yoluna düşdü, haradan gəldiyini, kim olduğunu, hansı kökdən çıxdığını tamamilə dərk etdi. Ancaq əvvəl dediyim kimi, bu, işin başlanğıcıdır. Biz bu işi davam etdirməliyik.

Burada bir çox təkliflər irəli sürüldü. Mən hesab edirəm ki, bu təkliflərin əksəriyyəti qəbul oluna bilər və biz onların əksəriyyətini həyata keçirə bilərik. Buna görə də mən komissiya sədrinin müavinləri Elçin Əfəndiyevə, Anara, Fəraməz Maqsudova, Fatma Abdullazadəyə tapşırıram, - başqalarına o qədər də əziyyət verməyin, - siz bütün bu təkliflərin hamısını təhlil edin, baxın ki, nə vaxt nə etmək olar və mənim yanıma gəlin, məsləhətləşək. Təbiidir ki, komissiyanın hər bir üzvü də burada öz fikrini deyə bilər. Bəziləri öz fikirlərini bildirdilər, bir çoxları isə, gördüm, - istədilər danışsınlar, amma vaxt məhdudiyyətinə görə mümkün olmadı. Ancaq hərə öz fikrini desin. Onda bizim bu tədbirlərimiz daha da geniş və istədiyimiz şəkildə ola bilər.

Təbiidir ki, bu tədbirlər 1, 2, 3 il üçün yox, uzun bir müddətə nəzərdə tutulmalıdır. Bütün bu tədbirlərin hamısı dəyərlidir. Mən hesab edirəm ki, bunun içərisində bizim orta məktəblərdə, uşaqların, gənclərin təhsili ilə əlaqədar dərsliklərimizdə, kitablarımızda, hətta uşaq bağçaları üçün hazırlanan kitablarda «Dədə Qorqud» mövzusundan çox ətraflı istifadə olunmalıdır.

Bizim bütün ali məktəblərdə tariximizin, ədəbiyyatımızın müəyyən hissələrində «Dədə Qorqud»un tarixi, Dədə Qorqud haqqında məlumatlar, fikirlər məcburi qaydada mütləq öz əksini tapmalıdır. Ona görə də gərək bizim Təhsil Nazirliyi fikirləşsin, - bəlkə sentyabr ayına qədər dərsliklərə müəyyən əlavələr etmək olar? Fikirləşin, nə mümkün olar - indi, nə mümkün olmaz - sonra edərsiniz. Amma bunlar mütləq olmalıdır. Yəni biz bundan sonra millətimizi uşaqlıqdan öyrətməliyik ki, sənin kökün nədir, sənin millətinin kökü nədir, sənin ulu baban, əcdadın kimdir, bu millət haradan gəlibdir, nə çətinliklərlə gəlibdir və bu gün kimdən ibarətdir. Bu özünüdərk məsələsinə xüsusi fikir verməliyik.

Biz cürbəcür, müxtəlif mərhələlərdən keçmişik. İndi hər birimiz özümüzü müəyyən səviyyədə dərk edə bilirik. Bəziləri hələ indiyədək bir azərbaycanlı kimi özünü dərk edə bilmir. Yəqin ki, buna da zaman lazımdır, dərk edəcəkdir. Amma bizim gələcək nəsil, yəni uşaqlar gərək uşaq vaxtından bunu dərk etsinlər. Ona görə də bu, mühüm məsələlərdən biridir.

Mən başqa məsələlərə daha toxunmaq istəmirəm. Ancaq Bəxtiyar müəllim əlifba haqqında məsələ qaldırdı. Həqiqətən, gərək bizim burada da bir dəqiq proqramımız olsun. Bizim xalqımız tamamilə latın əlifbasına keçəcəkdir. Bunu özbaşına buraxsaq ki, kim nə cür keçir, nə vaxt keçir,- bu, bir az çətin olacaqdır. Burada müəyyən çətinliklər də var.

Doğrudur, deyirsiniz ki, indi qəzet oxuyanların çoxu kiril əlifbasını oxuyur, latın əlifbasını oxumur. Amma biz kiril əlifbasından nə qədər istifadə etsək, latın əlifbasını da o qədər bilməyəcəyik. Gərək gözləyək, latın əlifbasında təhsil alan adamlar 10 ildən sonra gəlib onu oxusunlar. Onda gərək biz 10 il kiril əlifbası ilə oxuyaq.

Biz bu keçid dövrünü özbaşına buraxa bilmərik, bunu tənzimləməliyik. Bunun tənzimlənməsi ilə əlaqədar mən həm Elçin Əfəndiyevə, həm Fatma Abdullazadəyə göstəriş verirəm, sizinlə birlikdə otursunlar, fikirləşsinlər və təklif irəli sürsünlər ki, nə etmək lazımdır.

Siz indi dedikcə, mən düşünürdüm. Məsələn, müxalifət qəzeti necə yazır- özü bilər. Bizim 2-3 dövlət qəzetimiz var, bəlkə onların tirajının bir hissəsini kiril əlifbası ilə, - yarısını, yaxud 30 faizini latın əlifbası ilə, 70 faizini kirillə verək? Kim latın əlifbası ilə oxuya bilirsə, oxusun. Beləliklə, alışdıraq. Başqa metodlardan da istifadə etmək olar. Hər halda, bunu etmək lazımdır.

İndi Bəxtiyar deyir ki, Türkiyədə bir ilin içərisində keçdilər. Əlbəttə ki, bu, bir az mübaliğəyə bənzəyir. İkincisi də, siz hamınız bilirsiniz ki, Azərbaycan latın əlifbasına Türkiyədən qabaq keçibdir. Mən orada bunu onlara dəfələrlə demişəm. Ərəb əlifbasından istifadə edən xalqlar içərisində latın əlifbasına birinci olaraq Azərbaycan keçibdir. Türkiyə də, Orta Asiya ölkələri də bizdən sonra keçiblər. Latın əlifbasına birinci Azərbaycan keçibdir. Bizim o dövrdəki insanların bu fəaliyyətini qiymətləndirmək lazımdır.

Amma 1939-cu ildə latın əlifbasından kiril əlifbasına keçmək mənim xatirimdədir. Mən sizə doğrusunu deyim, bu da böyük bir çətinlik yaratmışdı. Amma indi, məsələn, bu, mənim üçün çətin deyil. Bilirsiniz niyə? Çünki mən həm latın əlifbasını bilirdim, həm də rus dilini bilirdim. Rus dilini bildiyimə görə mən dərhal kiril əlifbasında oxuyub başa düşə bilirdim. Ancaq belələri azdır. İndi də azdır.

Ona görə də bu məsələ özbaşına qalmamalıdır. Siz müəyyən təkliflər hazırlayın, biz bunu da tənzimləyək.

Mən görülən işlərə görə sizin hamınıza bir daha təşəkkür edirəm və uğurlar arzulayıram.

Amma bir şeyi unutdum. Nəşr edilən bu kitablara görə sağ olun. Ancaq bunlar da sadəcə, sərgi üçün olmasın. Məsələn, mən soruşdum ki, ensiklopediyanın tirajı nə qədərdir? Dedilər ki, 2 mindir. 2 min kimə çatacaqdır? Ancaq kitabxanalara çatacaqdır. Təbiidir ki, biz bu ensiklopediyanı bu cür nəfis şəkildə böyük tirajla nəşr edə bilmərik. Ancaq biz onu sadə nəşrdə bir çox min tirajla nəşr edə bilərik.

**F a t m a A b d u l l a z a d ə:** 10 min hazırlanır.

**H e y d ə r Ə l i y e v:** 10 min hazırlanır, çox gözəl. Hazırlayın, elə olsun ki, bütün xalqımızı əhatə edə bilsin. Yoxsa, bunu sərgidə göstərdik, kitabxanaya qoyduq, - amma biz istəmirik ki, bu, kitab kimi, sadəcə kitabxanada olsun. Biz istəyirik ki, insanlar, xalqımız bundan istifadə etsinlər. Ona görə bunların da tirajı artırılmalıdır və sadə şəkildə nəşr edilməlidir ki, hamı alıb oxusun.

Burada nəfis şəkildə nəşr olunmuş eləcə də başqa, dəyərli kitablar var. Onların da tirajını artırmaq lazımdır ki, həqiqətən, onlar ayrı-ayrı qruplar, alimlər üçün yox, bütün kütlə üçün olsun. Bu da o məqsədlə bağlıdır ki, biz istəyirik, «Kitabi-Dədə Qorqud» ayrı-ayrı adamlar tərəfindən yox, kütlə tərəfindən bilinsin, hamı onu tanısın.

Sizə təşəkkür edirəm, hamınıza yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

**YUNANISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB KONSTANTİNOS SİMİTİSƏ**

Hörmətli cənab Baş nazir!

Yunanıstan Respublikasının Baş naziri vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Yunanıstan arasında təşəkkül tapmış münasibətlərə böyük əhəmiyyət verirəm. Ümidvaram ki, ölkələrimiz arasındakı əlaqələr xalqlarımızın rifahı naminə daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost yunan xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *14 aprel 2000-ci il*

**SURİYA ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB HAFİZ ƏL-ƏSƏDƏ**

Hörmətli cənab prezident!

Suriya Ərəb Respublikasının milli bayramı – Təxliyya günü münasibətilə Sizi və qardaş Suriya xalqını ürəkdən salamlayır və təbrik edirəm.

Əminəm ki, Azərbaycan Respublikası ilə Suriya Ərəb Respublikası arasındakı əlaqələr bundan sonra da genişlənərək xalqlarımızın rifahının yüksəlməsinə, ölkələrimizin tərəqqisinə xidmət edəcəkdir.

Cənab prezident, Sizə möhkəm cansağlığı və işlərinizdə uğurlar, xalqınıza sülh, səadət və çiçəklənmə arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *18 aprel 2000-ci il*

**ZİMBABVE RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ROBERT MUQABEYƏ**

Hörmətli cənab prezident!

Zimbabve Respublikasının milli bayramı – Müstəqilliyin elan edilməsi günü münasibətilə Sizi və dost Zimbabve xalqını səmimi-qəlbdən təbrik edir, Sizə cansağlığı və uğurlar, ölkənizə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Zimbabve Respublikası arasında dostluq və əməkdaşlıq əlaqələri xalqlarımızın rifahının yüksəlməsi naminə getdikcə inkişaf edib genişlənəcəkdir.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *18 aprel 2000-ci il*

## AVROPA ŞURASI VENESİYA KOMİSSİYASININ KATİBİ CANNİ BUKİKKİONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*18 aprel 2000-ci il*

**H e y d ə r Ə l i y e v:** Hörmətli qonaqlar, mən sizi Azərbaycanda salamlayıram və çox məmnunam ki, Avropa Şurasının Məhkəmə, Venesiya Komissiyası Azərbaycana belə diqqət göstərir. Bu, bizim üçün onu göstərir ki, Azərbaycanın Konstitusiya Məhkəməsi artıq yaxşı fəaliyyətdədir, yaxşı beynəlxalq əlaqələr qurubdur və Venesiya Komissiyası ilə, Avropa Məhkəməsi ilə olan əlaqələrin nəticəsində siz burada çox maraqlı tədbir keçirmisiniz. Sizin burada keçirdiyiniz tədbirin mövzusu da, ümumiyyətlə, çox əhəmiyyətlidir və xüsusən Azərbaycan üçün Konstitusiya Məhkəməsi insan hüquq və azadlıqlarının müdafiəçisi kimi əhəmiyyətlidir.

Həqiqətən, biz Konstitusiya Məhkəməsini, ümumiyyətlə, Azərbaycanda hüququn, azadlığın müdafiəçisi olan bir təşkilat kimi nəzərdə tuturuq və Konstitusiya ilə də Azərbaycanın Konstitusiya Məhkəməsinə belə bir rol ayrılıbdır.

Mən məmnunam ki, Azərbaycanın Konstitusiya Məhkəməsi öz üzərinə düşən bu mühüm vəzifəni artıq yerinə yetirir və bir də qeyd edirəm, sizin kimi mötəbər təşkilatlarla əməkdaşlıq edir.

İnsan hüquqları və azadlıqları indi dünyada ən mühüm məsələlərdən biridir. Demokratiya cəhətdən çox yüksək inkişaf etmiş ölkələrdə də bu problemlər vardır. Demokratiya yolu ilə gedən yeni müstəqil dövlətlərdə, təbiidir ki, bu problemlər daha da çoxdur. Bu keçid dövründə demokratiya yolu ilə gedən ölkələr, onların dövlətləri demokratiyanı inkişaf etdirərək insan hüquqlarının qorunmasını, insan azadlıqlarının təmin olunmasını nə cür həyata keçirirlər və nə etməlidirlər, - təbiidir ki, bu, ən mühüm məsələlərdən biridir.

Sizin Azərbaycanın Konstitusiya Məhkəməsi ilə birlikdə məhz bu mövzuya həsr olunmuş tədbirləriniz, təbiidir ki, bizim ictimaiyyətimiz üçün çox əhəmiyyətlidir və Azərbaycanın dövləti üçün də çox əhəmiyyətlidir. Buna görə də mən sizə təşəkkür edirəm.

Venesiya Komissiyası ilə bizim əlaqələrimiz artıq müəyyən bir tarixə malikdir. Bu, sizinlə birinci görüşümüz deyildir. Ancaq onu deyə bilərəm ki, bu müddətdə bizdə xeyli tərəqqi əldə edilmişdir. Azərbaycan indi Avropa Şurasına qəbul olunmaq ərəfəsindədir. Təbiidir ki, Avropa Şurasının Məhkəməsi ilə də əlaqələrin inkişaf etdirilməsi çox əhəmiyyətlidir.

Biz bilirik ki, tələblər çox yüksəkdir. Eyni zamanda dərk edirik ki, bir halda ki, biz bu yol ilə gedirik, demək, bu tələbləri yerinə yetirməyə məcburuq və yerinə yetirməliyik. Amma bu işdə nəzəriyyədən əlavə təcrübə də lazımdır. Sizin keçirdiyiniz bu tədbirlər, bu görüşlər, təbiidir ki, bizim təcrübəmizi artırır. Bir daha təşəkkür edirəm.

**C a n n i B u k i k k i o:** Cənab prezident, hər şeydən əvvəl icazə verin, Sizə deyim ki, mən və nümayəndə heyəti hər dəfə buraya gələndə belə böyük imtiyaza malik olaraq Sizin tərəfinizdən qəbul edilməyimizdən çox fəxr duyuruq və bu şərəfə nail olduğumuz üçün Sizə minnətdarlığımızı bildiririk. Mən deməliyəm ki, doğrudan da 1996-cı ildən bu günə kimi ildə bir dəfə görüşürük.

Cənab prezident, mən söhbətimə başlamazdan əvvəl, icazə versəydiniz, nümayəndə heyətinin üzvlərini Sizə təqdim edərdim. Onların hamısı burada Sizinlə birinci dəfə görüşmək şərəfinə nail olublar.

Cənab İqnasio Boraxo İspaniya Konstitusiya Məhkəməsinin elmi müşaviridir. Cənab Çezare Pinelli İtaliyanın Maçetara Universitetinin hüquq üzrə professorudur, bu sahədə mütəxəssisdir, Cənab Luici Ferrari Bravo insan hüquqları üzrə Avropa Məhkəməsinin hakimidir və San-Marino üzrə mütəxəssisdir. Xanım Fransiska Land Almaniyanın Federal Konstitusiya Məhkəməsinin hüquqi məsələlər üzrə mütəxəssisi, katibidir. Mənim həmkarım xanım Karolin Marten Avropa Şurasının Venesiya Komissiyası katibinin köməkçisidir. Cənab Edvard Anceletti isə Amerika Birləşmiş Ştatlarının Baltimor şəhərinin Dairə Məhkəməsinin hakimidir. Ümumiyyətlə, elə cənab Anceletti ilə birlikdə adlarını çəkdiklərimi götürsək, bu, bir İtaliya nümayəndə heyətidir. Buradakıların hamısının İtaliya ilə bağlı və bunların mənşəyinin də İtaliya ilə bağlı olmasına baxmayaraq, hər kəs bir ölkəni təmsil edir.

Cənab prezident, Sizə dedim ki, mən Bakıya 1996-cı ildən bu günə kimi gəlirəm. Mən indi burada doğrudan da elə bil xarici bir müşahidəçinin fikirlərini Sizə çatdırmaq istəyirəm. Cənab prezident, Sizə deməliyəm ki, mən hər dəfə Bakıya gələndə əvvəlkinə nisbətən burada böyük dəyişikliklər, inkişaf, yaxşılaşma və tərəqqi görürəm. Deməliyəm ki, bunu bütün sahələrə, xüsusən sosial, iqtisadi, insan hüquqları və demokratik sahələrə aid etmək lazımdır. Mən bu dəfə də gələndə ilk ən böyük dəyişikliyi Binə hava limanında gördüm.

Doğrudan da indi Sizin hava limanınız böyük bir ölkənin paytaxtına layiq hava limanıdır. Ümumiyyətlə, burada olduğum müddətdə paytaxtdan şimala – Xaçmaz rayonuna səfər edərkən, oranı gəzərkən sosial və iqtisadi sahələrdə olan dəyişikliklərin şahidi oldum, onları gördüm.

Bizim müşahidələrimizin nəticəsi budur ki, doğrudan da kənd təsərrüfatı sahəsində, heyvandarlıq sahəsində, hətta sosial sahədə, yəni yeni evlərin tikilməsi sahəsində çox böyük dəyişikliklər gördük. Bakı şəhərinə gəldikdə isə mən deməliyəm ki, doğrudan da hara baxırsan – orada tikinti, bərpa işləri gedir.

Mən inkişafın daha bir göstəricisini qeyd etmək istəyirəm. Biz burada buna da rast gəlirik. Bu da Bakı şəhərində maşınların hərəkətinin daha da sıxlaşmasıdır. Bu da inkişafın bir göstəricisidir. Əlbəttə, demokratik inkişaf bütün bunların hamısından daha vacibdir və Avropa Şurası üçün mühüm əhəmiyyət kəsb edir.

Cənab prezident, bilmirəm, Siz bunu xatırlayırsınız, ya yox, - mən keçən dəfə Sizinlə görüşəndə də qeyd etmişdim ki, doğrudan da demokratik inkişaf iqtisadi inkişafsız heç mümkün deyildir. Demək istəyirəm ki, əgər mədə boşdursa, onda demokratiyanı inkişaf etdirmək heç də asan deyildir. Bununla demək istəyirəm ki, bu nöqteyi-nəzərdən iqtisadiyyat ilə demokratiya eyni xətlə bir-biri ilə yanaşı irəliləməlidir.

Mən qeyd etdiyim müşahidələri, yəni bu inkişafı, tərəqqini bizə aid olan, məşğul olduğumuz sahədə də müşahidə etdik. Bizim işlədiyimiz, fəaliyyət göstərdiyimiz, daha yaxşı bildiyimiz sahə isə Konstitusiya qanunları və Konstitusiya Məhkəməsidir. Əlbəttə, biz burada olan zaman Konstitusiya Məhkəməsindən əlavə, başqa strukturlarla da, başqa hakimiyyət orqanları ilə də əməkdaşlıq etdik, onlarla birlikdə fəaliyyətdə olduq. Lakin indi biz əməkdaşlığı daha çox Azərbaycanın Konstitusiya Məhkəməsi ilə edirik. Biz təsdiq edə bilərik ki, doğrudan da Azərbaycanın Konstitusiya Məhkəməsi çox xeyirli, yaxşı iş görür.

Sizin özünüz Konstitusiya Məhkəməsinin insan hüquqlarının müdafiəsi sahəsində çox böyük rolunu qeyd etdiniz. Lakin ümumiyyətlə, biz Konstitusiya Məhkəməsinin funksiyasını bundan daha geniş görürük. Yəni Konstitusiya Məhkəməsi həm də hər hansı bir dövlətdə sabitliyin təminatçısı kimi çıxış edir. Konstitusiya Məhkəməsi yeri gəldikdə, ölkədə olan müxtəlif qüvvələr arasında tarazlıq da yarada bilər. Elə buna görə də, əlbəttə, Sizin dediyiniz kimi, onun rolu, funksiyası çox mühüm və vacibdir. Bununla belə, Konstitusiya Məhkəməsi öz vəzifələrini, funksiyalarını və öz səlahiyyətlərini həmişə sübut etməlidir. Bu, o Konstitusiya Məhkəməsidir ki, ümumiyyətlə, onu yaradanda qarşısında bu vəzifələri qoyub onun həyata keçirilməsi üçün səlahiyyətlər verilir. Artıq bir neçə illik fəaliyyəti müddətində Konstitusiya Məhkəməsi sübut etdi ki, o, yaxşı Konstitusiya Məhkəməsidir.

Cənab prezident, demək istəyirəm ki, bu nəticəni əldə etmək üçün Siz çox böyük rol oynamısınız. Cənab prezident, mən bunu ona görə deyirəm ki, yaxşı bilirəm ki, Siz Konstitusiya Məhkəməsini həm mənəvi cəhətdən, həm də maddi cəhətdən həmişə dəstəkləmisiniz.

Ümumiyyətlə, büdcəyə əsaslanaraq fəaliyyət göstərmək, əlbəttə, asantdır. Bununla bağlı demək istəyirəm ki, Siz həmişə hakimiyyət orqanlarına Konstitusiya Məhkəməsini ön plana çəkməyi, yəni onun bütün fəaliyyətinə diqqət yetirməyi tövsiyə etmisiniz. Çünki Siz istəməmisiniz ki, Konstitusiya Məhkəməsi müəyyən çətinliklər hiss etsin.

Cənab prezident, mən Sizin bu sahədə olan xüsusi rolunuza görə öz minnətdarlığımı bildirib Sizi təbrik edirəm.

Cənab prezident, mən hər dəfə gəlib burada Sizinlə görüşəndə, Sizinlə söhbət edəndə sözümün sonunda ümidvar olduğumu bildirirəm ki, Azərbaycan tezliklə Avropa Şurasının üzvü olacaqdır. Amma bu dəfə mən Sizə bu sözləri deməyəcəyəm. Mən bu dəfə Sizə bu sözləri ona görə deməyəcəyəm ki, artıq əminəm və qəti əmin olduğumu bildirirəm ki, Azərbaycan Avropa Şurasının üzvü olmağa hazırdır və Azərbaycan Avropa Şurasının üzvü olacaqdır. Əminəm ki, bu hadisə bu ilin iyun ayında həyata keçə bilər, ən geci isə bu hadisə sentyabr ayında ola bilər. Mənim üçün çox xoşdur deyim ki, Azərbaycan Avropa Şurasına İtaliyanın sədrlik etdiyi vaxt daxil olacaqdır.

Cənab prezident, demək istəyirəm ki, may ayında sədrliyə başlayacaq İtaliyanın ən birinci vəzifələrindən biri də odur ki, Azərbaycanın Avropa Şurasına üzv qəbul olunmasını təmin etsin. Azərbaycanın Avropa Şurasına üzv olmasında da Siz çox böyük rol oynamısınız.

Cənab prezident, ümumiyyətlə, mən bilirəm və öz aramızda demək istəyirəm ki, Azərbaycanın iqtisadi tərəqqisi, inkişafı Azərbaycanın Avropa Şurasına hələ bir qədər əvvəl üzv olmasına imkan verərdi. Lakin bu, ona görə kifayət etmədi ki, Azərbaycanın bu gün Dağlıq Qarabağ problemi vardır. Elə bu yolda da, cənab prezident, Sizin şəxsi təşəbbüsünüz, yəni Sizin Azərbaycan prezidenti kimi, Ermənistan prezidenti ilə birbaşa danışıqlara getməyiniz Azərbaycanın Avropa Şurasına üzv olması məsələsini həddindən çox reallaşdırdı. Mən ümid edirəm ki, Siz bu münaqişənin həllində də uğur qazanacaqsınız.

Cənab prezident, mən bir daha Sizə demək istəyirəm ki, Venesiya Komissiyası siyasi bir təşkilat olmasına baxmayaraq, öz sahəsinin bir mütəxəssisi kimi, bütünlüklə bu məsələlərin texniki tərəfində Sizə kömək etməyə hazırdır. Çox sağ olun.

**H e y d ə r Ə l i y e v:** Azərbaycan haqqında və son illər ölkəmizdə müşahidə etdiyiniz müsbət dəyişikliklər barədə söylədiyiniz fikirlərə görə sizə təşəkkür edirəm.

Sizinlə hər dəfə görüşəndə bildirmişəm ki, Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən sonra ardıcıl olaraq demokratiya yolu ilə gedir. Təbiidir ki, siz demokratiyanı bizdən yaxşı bilirsiniz. Bu, həm dövlət quruluşuna, həm insan azadlıqları və hüquqlarına, həm də siyasi plüralizmə, bazar iqtisadiyyatına aiddir. Bunun bir çox başqa elementləri də vardır. Yenə də deyirəm, siz onları bizdən yaxşı bilirsiniz. Bunların hamısına bir gündə, bir ayda, bir ildə nail olmaq mümkün deyildir.

Bəziləri hesab edirlər ki, dövlətin adı dəyişən kimi, gərək onun məzmunu da dərhal dəyişsin. Bu, qeyri-təbii bir məsələdir. Bir məsələ ki, insan fikri, psixologiyası ilə əlaqədardır, burada həmişə müəyyən bir proses gedir. Dövlətin də, hakimiyyət orqanlarının da bu demokratiyanı təmin etməsi, demokratik dövlət quruculuğu prosesini aparması üçün çoxlu tədbirlər, əməli iş görmək, qanunlar qəbul etmək lazımdır. Əsas odur ki, biz bu yolla inamla gedirik. Biz belə başa düşürük ki, demokratiyanın başlanğıcı var, amma sonu yoxdur. Siz də son həddə hələ gəlib çatmamısınız.

Biz demokratiyanın ilk mərhələsindəyik. İnsanlar bir marafon qaçışı edəndə, təbiidir ki, həmin məsafəni öz güclərinə qədər qət edə bilirlər. Məsələn, 100 metrlik məsafəni 10 saniyəyə, yaxud 9 saniyəyə qaçanlar vardır. Amma bu məsafəni heç bir insan 4 saniyəyə qaça bilməz. Analogiya olanda, bu, bəlkə də düz qəbul edilməz. Ancaq mən bunu loru dildə demək istəyirəm. Biz yolla nə qədər gücümüz var, o qədər qaçırıq. Amma dayanmırıq, geri də dönmürük, irəli gedirik.

Mən çox məmnunam ki, siz bunları müşahidə edirsiniz. Dediniz, Azərbaycan kimi ölkələrdə demokratiyanın inkişafı üçün iqtisadiyyat inkişaf etməlidir. Amma Azərbaycan üçün və bizə bənzər digər ölkələr üçün ictimai-siyasi sabitliyin təmin olunması mühüm şərtdir.

1991-ci ilin sonunda Azərbaycan müstəqilliyini qazananda elan etdi ki, o, demokratiya yolu ilə gedir. Amma bundan öncə Azərbaycanda daxili ictimai-siyasi vəziyyəti sabitləşdirmək lazım idi. Bu isə asan deyildi. Çünki Azərbaycanda çoxsaylı qanunsuz silahlı dəstələr var idi. Onlar hakimiyyət uğrunda bir-biri ilə mübarizə aparırdılar, çoxsaylı cinayətlər edirdilər. Azərbaycanda insanlar rahat yaşaya bilmirdilər, sosial-iqtisadi vəziyyət də ağır idi. Belə bir şəraitdə «demokratiya», «demokratiya» demək olar, amma demokratiya qurmaq mümkün deyildi.

Bizim üçün lazım idi ki, ölkədə ictimai-siyasi sabitliyi təmin edək. Bunu etdik. İndi Azərbaycanda sabitlik təmin olunubdur. Bizim üçün lazım idi ki, Ermənistan – Azərbaycan müharibəsini, döyüşlərini dayandıraq. Bunu etdik, 1994-cü ildə atəşin dayandırılması haqqında saziş imzaladıq və indiyə qədər atəş yoxdur.

Lazım idi ki, sosial-iqtisadi vəziyyətin geri düşməsini dayandıraq və onun inkişafını təmin edək. Buna da nail olduq. Biz 1995-ci ildən iqtisadiyyatın geri getməsini dayandırdıq. İndi ölkəmizin iqtisadiyyatı ilbəil inkişaf edir, iqtisadi islahatlar, özəlləşdirmə həyata keçirilir, bazar iqtisadiyyatı prinsipləri tətbiq olunur. Azərbaycana güclü xarici investisiya gəlir. Bunlar hamısı Azərbaycanda iqtisadiyyatın inkişafını təmin edir.

Doğrudur, hələ problemlər çoxdur. Çünki bu keçid dövrü bir ilə, iki ilə bitən deyil. Bu islahatlar davam etdirilməlidir. Biz insanların əksəriyyətini işlə təmin etməliyik. Yoxsulluq vəziyyətində yaşayan insanların iqtisadi təminatına nail olmalıyıq. Hər şeydən də əvvəl, biz Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarını azad etməliyik.

Bilirsiniz ki, Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. İşğalçı Ermənistan ordusu Azərbaycan torpaqlarından çıxmalıdır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Çadırlarda ağır vəziyyətdə yaşayan bir milyondan çox azərbaycanlı qaçqınlar, köçkünlər öz yerlərinə qayıtmalıdırlar. Biz bu istiqamətdə də çox iş görürük. Siz düzgün dediniz ki, Ermənistan prezidenti Robert Koçaryanla mənim görüşlərim bu məsələnin həll olunması üçün çox əhəmiyyətli amildir.

Yəni bizim nailiyyətlərimiz də var, amma biz bununla öyünmürük və arxayınlaşmırıq. Lakin həll ediləsi problemlərimiz də çoxdur. Biz bunları da bilirik və həmin problemləri həll etməyə çalışırıq. Bunun üçün isə zaman lazımdır.

Azərbaycandakı vəziyyəti obyektiv qiymətləndirdiyinizə görə mən sizə bir daha təşəkkür edirəm. Məmnunam ki, siz Azərbaycanın Avropa Şurasına qəbul olunacağı haqqında bizim üçün çox əhəmiyyətli sözlər söylədiniz. İtaliya Avropa Şurasına sədrliyə başlayan kimi, bu şuranın ilk qərarlarından biri Azərbaycanın qəbul edilməsi barədə olarsa, bu, çox gözəl olar.

Amma biz bilirik ki, Avropa Şurasına daxil olmaq bal yemək deyildir. Bu, bizim üzərimizə yeni məsuliyyətlər qoyur. Bu, bəlkə də bal yemək deyil, istiot yeməkdir. Ancaq istiot bizi qorxutmur. Ola bilər ki, bəzən o, ağzımızı yandıracaq, lakin biz ölkəmizi demokratiya yolu ilə daha da inkişaf etdirəcəyik. Ona görə də biz Avropa Şurasına daxil olmaq istəyirik. Belə halda, üzərimizə düşən məsuliyyəti də dərk edirik. Bilirik ki, bu da demokratik bir dövlət kimi, Azərbaycanın inkişafına çox böyük yardım göstərəcəkdir.

Bir daha deyirəm, burada toplaşmağınızın, çox mühüm məsələləri müzakirə etməyinizin özü də sizin həm Azərbaycana diqqətinizi, həm də ölkəmizdə demokratik mühitin mövcud olduğunu göstərir.

Biz bundan sonra da sizinlə səmərəli əməkdaşlıq etmək istəyirik. Sağ olun.

**C a n n i  B u k i k k i o:** Cənab prezident, mən onu demək istəyirəm ki, biz həmişə olduğu kimi, eyni dalğa üzərindəyik. Demokratiya inkişafa daim ehtiyacı olan bir anlayışdır. Əlbəttə, mən Sizinlə razıyam ki, bir neçə il ərzində, birdən-birə demokratiyanın ən yüksək səviyyəsinə çatmaq mümkün deyildir. Ona görə ki, bu çətindir.

Nəzərə alsaq ki, Azərbaycan xalqı neçə müddət sovet hakimiyyəti altında yaşamışdır, insanların mentalitetini, mədəniyyətini birdən-birə dəyişdirmək mümkün deyildir. Mən başa düşürəm ki, ictimai-siyasi sabitlik demokratiya yolu ilə inkişaf etmək üçün vacib şərtlərdən biridir.

Üç həftə bundan əvvəl mən Moldovada oldum. Biz cənab Luçinski ilə görüşdük. Mən söhbətimiz zamanı başa düşdüm ki, sabitliyi təmin etmək sahəsində onun da problemləri vardır. O, xahiş etdi ki, biz orada prezident və parlament tərəfindən təşkil olunmuş xüsusi komissiyanın işinə rəhbərlik edək. Yəni işin mahiyyəti ondan ibarətdir ki, ümumiyyətlə, bu komissiya Moldovanın yeni, elə bir Konstitusiyası üzərində işləməli idi ki, bu Konstitusiya Moldovanın sabitliyini təmin etməkdə mühüm rol oynasın.

Cənab prezident, mən Sizinlə razıyam ki, Avropa Şurasında istiot çoxdur. Biz Rusiyada baş vermiş dəhşətli hadisələr və Ukraynadakı hadisələrlə bağlı elə bu yaxınlarda bunun şahidi olduq. Əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycan heç vaxt belə bir vəziyyətlə qarşılaşmayacaqdır.

Cənab prezident, mən bilirəm ki, iradənin və təşəbbüsün olması belə bir işdə əsas məsələdir. Yəni bu yolda iradənin və təşəbbüsün olması mühüm şərtdir. Demisiniz, mən də bilirəm ki, Siz doğrudan da bu yolda çox təşəbbüskar və iradəlisiniz. Elə buna görə də Sizə təşəkkürümü bildirirəm.

**H e y d ə r Ə l i y e v:** Sizə bir daha uğurlar arzulayıram. Yenidən Azərbaycana gəlin. Bizim Konstitusiya Məhkəməsi də yaxşı işləyir. Onlar qısa müddətdə beynəlxalq aləmdə öz yerlərini tutublar. Sağ olun.

**AZƏRBAYCAN MEMARLARININ**
**XVI QURULTAYINA**

Hörmətli qurultay nümayəndələri!

Sizi və sizin şəxsinizdə bütün Azərbaycan memarlarını respublikamızın ictimai həyatında mühüm hadisə – Azərbaycan memarlarının XVI qurultayının açılışı münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan memarlıq sənətinin qədim zəngin ənənələri vardır. Memarlarımızın yaratdığı daş salnamələr – şəhərlər, körpülər, abidələr xalqımızın mənəvi zənginliyini əks etdirməklə yanaşı, dünya mədəniyyəti tarixinin parlaq səhifələrini təşkil edir, memarlıq məktəbimizin dahi nümayəndəsi Əcəmi Naxçıvaninin XII əsr Azərbaycan mədəniyyəti və ictimai fikrindəki intibahın parlaq təzahürlərindən olan yaradıcılığı uzun müddət Yaxın Şərq ölkələri memarlığına güclü təsir göstərmişdir. Memarların fədakar və səmərəli əməyi ilə yaradılmış sənət abidələri xalqımızın mədəni həyatının nadir incilərini təşkil edərək həmişə onun milli şüurunun, estetik zövqünün möhkəmlənməsinə və inkişafına xidmət etmişdir. Bu memarlıq abidələri öz əzəməti, orijinal üslubu və yüksək sənətkarlıq keyfiyyətləri ilə mütəxəssisləri indi də heyran edir.

Avropa və Asiyanın qovşağında yerləşən ölkəmizdə dünya memarlığının ən yaxşı ənənələri ilə milli xüsusiyyətlərin sintezini özündə əks etdirən güclü memarlıq məktəbi təşəkkül tapmışdır. Öz sələflərinin zəngin ənənələrini ləyaqətlə davam etdirən Azərbaycan memarları yeni axtarışları, tapıntıları və nailiyyətləri ilə bu gün də xalqımıza sevinc bəxş edirlər. Onlar ölkəmizin digər yaradıcı ziyalıları ilə birlikdə bütün postsovet məkanına xas olan mürəkkəb sosial-iqtisadi problemlərin həlli ilə yanaşı, milli-mənəvi dəyərlərin bərpa və bərqərar edilməsi sahəsində ciddi işin həyata keçirilməsində yaxından iştirak edirlər. Məhz onların əməyi sayəsində ölkəmizin şəhər və rayonlarının, xüsusilə paytaxtının siması son illərdə xeyli dəyişmişdir. Bu müddət ərzində əldə edilmiş nailiyyətlər bir tərəfdən ölkə iqtisadiyyatında baş verən müsbət dəyişikliklərlə bağlıdırsa, digər tərəfdən Azərbaycan memarlarının güclü potensiala malik olduğuna dəlalət edir.

Müstəqil Azərbaycan dövlətinin qarşısındakı mühüm vəzifələrin yerinə yetirilməsi memarların öz səylərini daha da artırmalarını zəruri edir. Bu vəzifələrdən biri də erməni təcavüzkarları tərəfindən işğal olunmuş torpaqlarımız azad edildikdən sonra oradakı şəhər və kəndlərimizin bərpasıdır. Ümidvaram ki, qurultayınız memarların qarşısında duran bütün problemləri müzakirə edərək Azərbaycan memarlıq məktəbinin XXI əsrdə inkişaf yollarının müəyyən olunmasında əhəmiyyətli mərhələ olacaqdır.

Qurultayınızın işinə böyük uğurlar arzulayır, hər birinizə cansağlığı, xoşbəxtlik və yeni nailiyyətlər diləyirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *19 aprel 2000-ci il*

## TÜRKİYƏNİN SƏHİYYƏ NAZİRİ OSMAN DURMUŞ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*19 aprel 2000-ci il*

**H e y d ə r   Ə l i y e v:** Hörmətli nazir!

Hörmətli qonaqlar!

Mən sizi Azərbaycanda salamlayıram. Xoş gəlmisiniz, səfa gətirmisiniz! Türkiyə ilə Azərbaycan arasındakı dostluq, qardaşlıq əlaqələri xüsusi xarakter daşıyır və bu əlaqələr daim inkişaf edir, genişlənir. Bu baxımdan, indi Türkiyənin səhiyyə nazirinin Azərbaycana gəlməsi və səhiyyə sahəsində əməkdaşlığın inkişaf etdirilməsi, təbiidir ki, bizim üçün çox əhəmiyyətlidir.

Səhiyyə sahəsi hər dövlət üçün, hər ölkə üçün mühüm bir sahədir. Keçmiş zamanlarda biz Sovetlər İttifaqının tərkibində olanda 70 il ərzində burada xüsusi bir səhiyyə sistemi qurulubdur. Səhiyyə pullu yox, pulsuz olubdur. Ancaq mən sizə deyərəm ki, çox da işlər görülübdür. İndi baxın, Azərbaycanda nə qədər xəstəxana binaları var, nə qədər ambulatoriya binaları var, nə qədər elmi-tədqiqat institutları var. Bunların heç birisi Azərbaycanda yox idi. 1920-ci ildə Azərbaycanda ola bilər ki, 10-15 azərbaycanlı həkim var idi. Ola bilər, iki-üç dəfə də ondan artıq yəhudi, yaxud rus həkimləri var idi. Amma sonra bizdə tibb institutu, daha sonra universitet yarandı.

Azərbaycanda Dövlət Universiteti 1919-cu ildə yarananda onun tərkibində tibb fakültəsi də olmuşdu. Amma sonra, təxminən 1930-cu ildə tibb fakültəsindən tibb institutu yarandı. Azərbaycanda nə qədər həkimlər hazırlanıbdır, nə qədər elmi-tədqiqat institutları yaranıbdır. Yəni sovet hakimiyyəti dövründə biz bu sosial sahədə ümumiyyətlə, çox nailiyyətlər əldə etmişik. Xüsusən də səhiyyə sahəsində. İndi bizdə həkimlərin sayı çoxdur. Amma bu keçid dövrü, təbiidir ki, səhiyyədə də çox gərginliklər yaradıbdır.

Mən keçmiş zamanlarda Azərbaycana rəhbərlik edərkən səhiyyə sahəsi ilə çox məşğul olurdum və o dövrdə, mənim işlədiyim dövrdə çox xəstəxanalar yarandı, çox böyük işlər görüldü. Sonra isə mən Moskvada Baş nazirin – siz buna «baş bakan» deyirsiniz – birinci müavini işləyirdim və səhiyyəyə tamamilə mən rəhbərlik edirdim. O vaxt orada sahənin iki nazirliyi var idi: biri Səhiyyə Nazirliyi, biri də Tibb Sənayesi Nazirliyi. Amma orada çox böyük elmi-tədqiqat institutları da var idi, çox böyük tibb mərkəzləri də var idi. Sizə deyə bilərəm ki, indi mən Rusiyanı başqa ölkələrlə müqayisə edirəm. Məsələn, Rusiyada, yəni Sovetlər İttifaqında səhiyyə çox inkişaf etmişdi, çox yüksək səviyyəli mütəxəssislər var idi.

Ancaq Sovetlər İttifaqı dağılanda, respublikalar müstəqillik alanda hər şey dağılmağa başladı. Sovetlər İttifaqının dağılması bizim üçün çox yaxşı oldu. Sovetlər İttifaqı dağılmasaydı biz müstəqillik əldə edə bilməzdik. Amma iş burasındadır ki, bununla bərabər çox şeylər də dağıldı: sənayedə çox şeylər dağıldı, iqtisadiyyatda çox şeylər dağıldı, təhsildə çox şeylər dağıldı və səhiyyədə də çox şeylər dağıldı.

Biz indi bunu yenidən qururuq və güman edirəm ki, indi biz müstəqil dövlət kimi dünya səhiyyə sistemində olan prinsipləri qəbul edərək qururuq. İndi görülən işlər də az deyildir, amma gələcəkdə görüləsi işlər də hələ çoxdur. Güman edirəm, sizin bura gəlməyiniz, buradakı vəziyyətlə tanış olmağınız Türkiyə ilə Azərbaycan arasındakı səhiyyə əlaqələri – həm müalicə məsələləri, həm profilaktika məsələləri, həm də elmi tədqiqatlar sahəsində çox xeyirli olacaqdır. Ona görə mən sizə təşəkkür edirəm ki, Azərbaycana gəlmisiniz və bildiyim kimi, iki gündür ki, burada bizim Səhiyyə Nazirliyi ilə bərabər işlər görürsünüz. Təşəkkür edirəm.

Mən sizi xatırlayıram. Mən sizinlə Türkiyədə görüşdüm və xüsusən İspartada bir yerdə idik. İsparta Universitetində gərək ki, siz də nitq söylədiniz, elədirmi?

**O s m a n   D u r m u ş:** Bəli.

**H e y d ə r   Ə l i y e v:** Mənim əziz dostum, qardaşım, cümhur başkanı Süleyman Dəmirəl orada çox gözəl bir nitq söylədi. Siz də nitq söylədiniz. Sonra, gərək ki, orada təhsil naziri var idi, o da nitq söylədi. Mən də bir nitq söylədim. Orada çox gözəl bir görüş oldu. Sizinlə orada tanış olmuşduq. İndi də Azərbaycana gəlmisiniz. Azərbaycana ilk dəfədir gəlirsiniz?

**O s m a n   D u r m u ş:** Bəli, ilk dəfədir gəlirəm.

**H e y d ə r   Ə l i y e v:** Bu, çox əhəmiyyətlidir. Çünki Azərbaycanı kənardan görməklə tanımaq olmaz. Azərbaycanı tanımaq üçün gərək Azərbaycanda olasan, Azərbaycana gələsən, Azərbaycanı gözünlə görəsən. Təşəkkür edirəm. Buyurun.

**O s m a n   D u r m u ş:** Hörmətli cümhur başkanım, mən də Sizə təşəkkür edirəm. Həmkarım hörmətli Əli İnsanovun dəvəti ilə Azərbaycana iki günlük səfərə gəlmişəm. Buraya ziyarətimiz çərçivəsində Azərbaycanın

müstəqillik qazandıqdan sonra inkişaf edən yeni səhiyyə müəssisələrini və yeni açılmış sağlamlıq ocaqlarını birlikdə gəzdik. Cənab nazir əvvəlcə bizi respublika 1 nömrəli Mərkəzi Klinik Xəstəxanasına apardı. Orada aparılan inşaat işləri ilə tanış olduq. Sonra Təcili Yardım Xidməti Mərkəzini ziyarət etdik. Bu, olduqca inkişaf etmiş gözəl bir mərkəzdir. Daha sonra Azərbaycan Dövlət Tibb Universiteti ilə tanış olduq, müxtəlif fakültələri gəzdik. Orada çox yüksək səviyyəli anatomiya muzeyini və bacarıqlı, qabiliyyətli professor-müəllim heyətini gördük. Orada, tarixi bir binada dərs verilən yerdə, içərisində insan maketləri olan, uşaqdan tutmuş böyüklərə qədər skeletlər olan muzeyin bir filialının Türkiyə universitetlərində yaradılmasının böyük faydası ola biləcəyini dedim.

Orada tələbələrlə, müəllimlərlə görüşlərimiz oldu. Həmin görüşdə tibb təhsilinin və tibb xidmətlərinin çox qiymətli olduğunu, bu sahədə texnologiyanın çox inkişaf etdiyini bildirdim, bu texnologiyanın Azərbaycana gətirilməsinin və qurulan təsislərin davam etdirilməsi üçün əsas şərtlərin - sizin ifadənizlə desək, yəni pullu şəkildə görülməsinin gərəkliyini söylədim. Belə olan halda həm çalışanlara, həm də o xidməti alan insanlara daha yaxşı qulluq göstəriləcəyini ifadə etdim.

Bizim Türkiyədən gələn və burada tibbi təhsil alan tələbələrin dərsliklə bağlı müəyyən problemləri vardır. Türkiyə Yüksək Öyrətim Qurumunun təhsil üçün hazırladığı kitablar, dərs proqramları və digərləri buradakı ilə eyni olmadığına görə tələbələr iki dəfə imtahan verdiklərini bildirdilər.

Avropa və Amerika təhsil məktəblərinin bu gün dünya tibbində irəlidə getdiyi məlumdur. Türkiyədə də belə məktəblər yaradılmışdır. Türkiyədəki tibb fakültələri və universitetlərinin bu gün Mərkəzi Avropanın bir çox universitetlərindən yaxşı səviyyədə olduğunu onların nəzərinə çatdırdım, latın dili ilə yazılan tibbi kitabların burada təhsil üçün vacibliyini vurğuladım. Adətən, anatomiyanı latınca öyrədirlər. Neçə illərdir bu sahədə çox dəyərli müəllimlər yetişibdir. Xüsusilə Azərbaycan Dövlət Tibb Universitetinin anatomiya, fiziologiya və s. kafedralarında yetərli bilikli, yaxşı təhsil verən kadrlar vardır. Ancaq klinik xəstəxanaların yenidən qurulmasına ehtiyac vardır.

Hörmətli həmkarım Əli İnsanov bu gün bizi Göz Xəstəlikləri İnstitutuna apardı, oranı gəzdik. Fövqəladə gözəl inkişafa nail olmuşlar, gözəl inkişaf vardır. Bina, texnologiya yenidən qurulmuş, insanlar gözəl bir şəkildə yaxşı işlər görürlər. Yaxşı iş görməyin şərti müasir texnologiyaya, yaxşı biliyə sahib olmaqdır.

Dünən imzaladığımız niyyət protokolu çərçivəsində 1 nömrəli mərkəzi klinik xəstəxanasında xidmət göstərəcək 40 həkimdən 20-sinin qruplar halında Türkiyənin çox təcrübəli yeddi xəstəxanasında, iyirmi klinikasında ixtisasartırma kursları keçməsi, təkrar təhsil alması işi qarşılıqlı surətdə yerinə yetiriləcəkdir. Bunu qısa müddətdə həyata keçirəcəyik. Burada o xəstəxana fəaliyyətə başlasa, çox yaxşı olacaqdır və o klinikada təhsil verən müəllimlərə, azərbaycanlı həkimlərə yardım etməyin vacibliyi söhbət zamanı qeyd olundu.

Biz bir qədər əvvəl hörmətli cümhur başkanı Süleyman Dəmirəl ilə birlikdə Vanda ürək-damar cərrahiyyə əməliyyatı aparılmasının şahidi olduq və bu, televiziya vasitəsilə canlı göstərildi. Eyni zamanda, Vanda xəstəxananın açılışı mərasimində burada ürək-damar cərrahiyyə əməliyyatı aparıla biləcəyini və bütün Azərbaycanda və Qafqazda seyr ediləcəyini, buranın tibb mərkəzi ola biləcəyini söylədik. Belə bir sistemin yaradılması çox önəmlidir.

Əgər bu, öz gəliri ilə özünü təmin edən bir qurum olarsa, xəstə, həkim, pul məsələləri aradan qaldırılarsa, belə bir sistemlə bizim həkimlərimiz, müəllimlərimiz gəlib sizin həkimlərinizlə işbirliyi qura bilər, birlikdə əməliyyat apara bilər və bunları bir-birinə öyrədə bilərlər. Həmin 40 nəfərlik həkim qrupu Türkiyədə əlavə təhsil aldıqdan sonra bütün işləri özləri görəcəklər. Belə olan halda Azərbaycan qonşularına da bu xidməti göstərən bir mərkəz ola bilər. Biz bunu düşünürük və ümid edirəm ki, bütün bunlar həyata keçəcəkdir.

Hörmətli cümhur başkanım, sizə Türkiyənin səhiyyə sistemi barədə qısa məlumat vermək istəyirəm. Türkiyə Cümhuriyyətində Səhiyyə Nazirliyinə tabe olan 735 xəstəxana vardır. Türkiyədəki 1230 xəstəxananın böyük hissəsi Səhiyyə Nazirliyinə aiddir. Bundan əlavə, universitet, özəl, vəqf xəstəxanaları kimi səhiyyə müəssisələri vardır. Hətta Türkiyədə yaşayan xaricilərin qurduğu xəstəxanalar da vardır. Bu xəstəxanalarda yataq sahəsinin yüzdə əllisindən çoxu Səhiyyə Nazirliyinə aiddir. Bəzi xəstəxanalarda bu, yüzdə səksəni keçir. Təhsil verən xəstəxanalarımızın sayı 30-a yaxındır. İndi 42 xəstəxanada iki növbədə çalışırlar. Türkiyədə cərrahlar böyük şəhərlərdə çox olduğu üçün müalicə xidmətini iki yerə böldük – səhərdən saat 16-dək və 16-dan gecə saat 12-yə qədər həkim qrupları çalışır, müayinə və müalicə xidmətləri göstərirlər. Bu da xəstəxanalarımızın vəziyyətini xeyli yaxşılaşdırdı. 1999-cu ildə sərmayə ilə çalışan xəstəxananın büdcəsi 35 trilyon türk lirəsi idi, bir ildə bu, 100 trilyon lirə oldu. Belə olan halda həm xidmətin səviyyəsi yüksəlir, həm də binalar yenidən qurulur. Hazırda işlərimiz bu yöndə davam edir.

Biz dünya səhiyyə təşkilatının üzvüyük. Hörmətli həmkarım ilə Cenevrədə görüşəcəyik. Bu xəstəxananın xidmətləri bəlli bir nöqtəyə gəlsə, bu işləri necə yerinə yetirəcəyimizi orada birlikdə müzakirə edəcəyik.

Sizin də bir az əvvəl ifadə etdiyiniz kimi, Azərbaycan müstəqilliyinə qovuşduqdan sonra xəstəxanalarda da ciddi dəyişikliklər baş vermişdir. İndi xəstəxanalarınızı yenidən qurmusunuz, həkimlərin sayını artırmısınız, xidmət səviyyəsini dəyişdirmisiniz. Bu, gözəl bir inkişafdır. Ümumiyyətlə, xəstəxanaların özü-özünə yetərli xəstəxana halına gəlməsi, universitetlərin Avropa və Amerika sistemi ilə inteqrasiyaya girməsi vacibdir. Əgər

Türkiyə universitetləri qısa zamanda Avropa və Amerika təhsil proqramına keçirsə, deməli, çox qısa zamanda bu imkanları səfərbər edən, iş bilən mütəxəssislərin köməyi ilə Azərbaycanın gözəl gələcəyini düşünürəm.

Mən fürsətdən istifadə edərək, Baş nazirin müavini hörmətli Dövlət Baxçalının salamını, hörmət və ehtiramını Sizə çatdırmaqdan məmnunluq duyuram.

**H e y d ə r  Ə l i y e v:** Sağ olun, təşəkkür edirəm. Sizin verdiyiniz bu məlumatlar və sizin fikirləriniz elə bizim fikirlərimizlə eynidir, üst-üstə düşür.

Mən bildirdim ki, bizim səhiyyə sistemi ölkəmizin bütün sahələri kimi, bir keçid dövrü yaşayır və bunun istiqaməti də ondan ibarətdir ki, Azərbaycanda səhiyyə sisteminin həm quruluşu, həm də təşkil edilməsi gərək Avropa, yəni Qərb, Amerika beynəlxalq standartlara get-gedə yaxınlaşsın. Çünki Amerikada və Avropa ölkələrində səhiyyə son vaxtlar çox inkişaf etmişdir. Həm xəstələri müalicə etmək üçün, yaxud cərrahiyyə əməliyyatı aparmaq üçün müxtəlif alətlər, cihazlar yaradılmışdır və onlardan istifadə olunur, həm də ki, həkimlərin, bütün səhiyyə işçilərinin biliyi, təcrübəsi, səviyyəsi çox artmışdır.

Türkiyə bu barədə çox irəliləyibdir. Yəni Türkiyə Qərblə – Avropa ilə, Amerika ilə bağlı olduğuna görə və o yol ilə getdiyinə görə o təcrübəni alıbdır, mənimsəyibdir. Mən çox sevindim ki, Türkiyədə indi siz deyirsiniz ki, Vanda açıq cərrahiyyə əməliyyatı aparılıbdır. Ancaq hələ Bakıda bu yoxdur. İndi Van ilə Bakını da müqayisə etmək olmaz. Bakı böyük bir şəhərdir, böyük bir elm mərkəzidir, böyük tibb mərkəzidir. Ancaq Türkiyəyə o xarici texnologiya, xarici bilik son illərdə çox güclü gəlibdir və siz xaricdə, yəni Avropada, Amerikada kadrlar hazırlamısınız, onlardan cihazlar, alətlər ala bilmisiniz, - yəni bu iləclardır, filanlardır, - onları ala bilmisiniz və bunu etmisiniz. Bu, çox təqdirəlayiq bir haldır. Mən buna çox sevinirəm.

Bilirsiniz, mən bir il bundan öncə Amerikada, Klivlenddə cərrahiyyə əməliyyatı keçirdim. Ondan sonra Azərbaycana dönərkən dostum, qardaşım hörmətli Süleyman Dəmirəl məni Türkiyəyə dəvət etdi ki, Azərbaycana qayıtmazdan əvvəl gəlim, orada bir az dincəlim. Gəldim, bir neçə gün Ankarada qaldım, sonra Antalyaya getdim. Mən elə bilirdim ki, Antalya bir istirahət yeridir, şəhəridir. Amma orada Antalyadan bir-iki həkim gəlib mənə baxırdı, onlar mənə dedilər ki, Antalya Universitetində nə qədər qəlb cərrahiyyə əməliyyatı aparıblar. İndi siz deyirsiniz ki, Vanda da keçirilibdir. Bu, böyük nailiyyətdir və bu barədə Türkiyədəki irəliləyişi çox yüksək qiymətləndirirəm.

Mən keçən ilin yanvar ayında, yəni ocaq ayında bir balaca xəstələndim. Buradan Gülhanəyə getdim. Bilirsiniz. Məsələn, mən Gülhanə Tibb Akademiyasını çox yüksək səviyyəli tibb – həm elm, həm də müalicə ocağı kimi gördüm. Bunun yüz il tarixi var. Çox gözəl bir tibb mərkəzidir. Türkiyədə başqalarını görməmişəm, ancaq Gülhanəni çox görmüşəm və sevmişəm.

O vaxt mənim bir az xəstələnib Türkiyəyə getməyim dünyada çox böyük bir çaşqınlıq yaratdı: «Nə oldu, Heydər Əliyev heç vaxt xəstələnməyib». Nə qədər işləmişəm, mənim heç həkimim də olmayıbdır. Mən Moskvadan 1990-cı ildə ayrıldım, getdim Naxçıvana, üç il orada yaşadım, sonra 1993-cü ildə bura gəldim, - heç bir həkimlə əlaqəm olmayıbdır. Amma Moskvada mənim həkimim var idi. Moskvadan Naxçıvana gələndə belə fikirdə idim ki, mən özümü dəryaya atıram. Dəryada nə qədər üzə biləcəyəm, o qədər də üzə biləcəyəm. Daha mənə bir yardımçı, həkim-filan lazım deyil. Sağlamlığım məni nə qədər yaşadacaq, o qədər də yaşadacaqdır. Yaşatdı da.

Amma 1999-cu ilin yanvar ayında qripdən sonra məndə bir balaca kriz oldu. Yenə də, nə etmək, - əlbəttə ki, bizim həkimlər müəyyən tədbirlər gördülər, ancaq mənim oğlum dostum, qardaşım Süleyman Dəmirələ telefon etdi. Mən dərhal Türkiyəyə gəldim, Gülhanədə iki həftə müalicə olundum. O vaxt bütün dünya qəzetləri bunu çox yazdılar və xüsusən Moskva, Rusiya qəzetləri çox yazdılar ki, Heydər Əliyev uzun müddət Moskvada yaşamış, Moskvada bütün həkimləri tanıyır, onlara vaxtilə başçılıq etmişdir, indi nə üçün öz səhhətini Moskvaya, Rusiyaya etibar etmədi, Türkiyəyə getdi? Mən bir neçə dəfə dedim. Dedim, bəli, mən indi bütün sağlamlığımı Türkiyəyə etibar etmişəm. Əgər Türkiyə mənim sağlamlığımı istəyirsə, o, bunu möhkəmləndirməlidir. Əgər istəməsə, onda özləri bilərlər.

Məni orada iki həftə yaxşı müalicə etdilər. Bilirsiniz ki, mən Amerikada səfərdə ikən qəflətən bir hadisə oldu, sonra mən Klivlenddə müalicə olundum. Klivlenddə Murat Tuzcu adlı bir türk həkim var. Əgər o, orada işləməsəydi, mən cərrahiyyə əməliyyatına getməyəcəkdim.

Siz Ertən Paşanı tanıyırsınız? O, çox gözəl bir insandır, kardioloqdur, professordur. O, Vaşinqtonda mənimlə bir yerdə idi. Ertən Paşa Klivlendə getməyim barədə mənə çox təbliğat apardı. Biz Klivlendə getdik. Mən bəzi müayinələri istəmirdim. Amma o, mənə anlatdı ki, bütün bunlar, cərrahiyyə əməliyyatı lazımdır.

Yəni orada amerikalılarla bərabər turkiyəli gözəl bir həkim var. Murat Tuzcu gözəl bir insandır. O, Klivlenddə çox yüksək hörmətə malikdir.

Beləliklə, təbiidir ki, Türkiyənin səhiyyəsi Amerikanın və Avropa ölkələrinin səhiyyəsinə yaxınlaşır. Doğrudur, indi Türkiyədən də bir çox adamlar cərrahiyyə əməliyyatı üçün Amerikaya gedirlər. Klivlend klinikasına Türkiyədən çoxlu adam gedir. Gördüm ki, həmin klinikanın bəzi otaqlarının qarşısında türkcə yazılar var idi. Orada həm ərəbcə, həm də türkcə yazılar var idi. Soruşdum ki, bu yazılar nə üçündür? Dedilər ki, buraya çoxlu türk və ərəb gəlir. Ona görə belə yazılar yazılır ki, onlar üçün bir çətinlik olmasın.

Bəzən insanlar özlərində olan keyfiyyətləri o qədər də qiymətləndirə bilmirlər. Elə bilirlər ki, o birisi bundan yaxşıdır. Bu da təbiidir. İndi Amerika ilə, yaxud Almaniya ilə bu sahədə yaxın əlaqələr qurmaq bizim üçün bir az çətindir. Ancaq Türkiyə ilə səhiyyə sahəsində əlaqələr yaratmaq Azərbaycan üçün asandır. Ona görə ki, Türkiyə ilə Azərbaycan arasındakı dostluq, qardaşlıq əlaqələri buna yaxşı şərait yaradır. Bu baxımdan mən sizin buradakı danışıqlarınızın, əldə etdiyiniz razılıqların hamısını dəstəkləyirəm, bəyənirəm. Hesab edirəm ki, belə də davam etmək lazımdır.

İndi bizim ölkələrimizin təhsil sahəsində çox geniş əlaqələri vardır. Azərbaycanın təhsil naziri dəfələrlə Türkiyədə olubdur, Türkiyənin təhsil naziri də buraya gəlibdir. Təbiidir ki, iqtisadi sahədə də əlaqələrimiz yaxşıdır. Ancaq ölkələrimizin əlaqələri ən çox siyasi sahədədir. Bunun da çox böyük faydası vardır. Çünki Azərbaycan dövlət müstəqilliyini əldə edən zaman Türkiyə respublikamızın müstəqilliyini birinci tanıyan ölkə olubdur. Azərbaycana dəstək veribdir.

Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Türkiyə həmişə Azərbaycanın tərəfində olubdur, indi də tərəfindədir. Biz bu məsələni sülh yolu ilə həll etmək istəyirik. Türkiyə Minsk qrupunun üzvüdür və bu işdə çox fəallıq göstərir. Biz hansı məsələni necə həll etmək barədə Türkiyə ilə çox məsləhətləşirik.

Bu yaxınlarda Bakıda Türkdilli Dövlətlər Birliyinin zirvə görüşü keçirildi. Bu da türk dünyası, türkdilli dövlətlər üçün gözəl bir işdir.

Bilirsiniz ki, Türkdilli Dövlətlər Birliyini 1992-ci ilin oktyabr ayında Ankarada yaradıblar. O vaxt mərhum Turqut Özal, indiki prezident, mənim dostum Süleyman Dəmirəl bu işin təşəbbüskarı olublar və türkdilli dövlətlərin başçılarını ilk dəfə bir yerə yığıblar. Bundan sonra bu birlik yaranıbdır və o, indi də davam edir. Biz VI zirvə görüşünü burada, Azərbaycanda keçirdik. Qərara aldıq ki, növbəti zirvə görüşünü İstanbulda keçirək.

Bunun çox böyük faydası var. Çünki bir kökə, bir dilə, mənəvi dəyərlərə, adət-ənənələrə mənsub olan xalqların, millətlərin birləşməsi indi çox lazımlıdır. Keçmişdə biz bir-birimizdən ayrı düşmüşdük. Amma indi baxırıq ki, kökümüz birdir.

Biz «Kitabi-Dədə Qorqud»un 1300 illik yubileyini keçirdik. İndi Türkiyə deyir ki, «Kitabi-Dədə Qorqud» bizimdir, qazax deyir bizimdir, türkmən deyir bizimdir, Azərbaycan deyir bizimdir, özbək deyir bizimdir. Bu da çox gözəldir. O hamınındır. Yəni «Kitabi-Dədə Qorqud» türkdilli ölkələrin hamısına mənsubdur. Deyirlər ki, Dədə Qorqudun bir çox yerlərdə, o cümlədən Azərbaycanda da qəbri vardır. Nursultan Nazarbayev burada nitq söyləyəndə dedi ki, Sır-Dəryada Dədə Qorquda böyük bir abidə qoyulubdur. Dədə Qorqudun məkanı ora olubdur. Amma biz deyirik ki, Dədə Qorqudun məkanı Azərbaycandır.

Türkiyədə, Bayburtda neçə dəfə yubiley keçiriblər. Bakıdakı yubiley mərasimlərinə ən çox qonaqlar Türkiyədən – həm elm adamları, professorlar, rektorlar, həm də bir sıra valilər gəlmişdilər. Yəni bu, bizi birləşdirən bir amildir. Amma 5-6 il bundan öncə Dədə Qorqudu heç Azərbaycanda da tanımırdılar. Bunun da tarixi bir az faciəlidir.

Təbiidir ki, keçmişdə Türkiyədə də, Azərbaycanda da, hətta Qərb ölkələrində də alimlər «Kitabi-Dədə Qorqud»u tədqiq ediblər. Amma sonra, sovet dövründə «Kitabi-Dədə Qorqud» qadağan olunubdur. Hətta 1950-51-ci illərdə bizim bəzi alimlərimiz, o cümlədən Həmid Araslı, Əbdüləziz Dəmirçizadə, Əli Sultanlı «Kitabi-Dədə Qorqud» haqqında bəzi elmi əsərlər yazıblar. Bartold «Kitabi-Dədə Qorqud»u rus dilinə tərcumə edibdir, Həmid Araslı isə onu Azərbaycan dilinə tərcümə edib nəşr etdirəndə onların hamısını günahlandırıblar ki, siz pantürkistsiniz. Yəni o vaxt bizim üzərimizə bir pantürkist damğası vurmuşdular. Ona görə də Türkiyə ilə hər bir xırda əlaqə qadağan idi. Kimin Türkiyədə bir qohumu var idisə, o, pantürkist hesab olunurdu.

Pantürkist ideologiyasını, damğasını bütün türkdilli xalqlara düşmən olan, təbiidir ki, birinci növbədə sovet hakimiyyəti yaratmışdı. Amma bu pantürkist ideologiyasını təkcə sovet hökuməti yox, bizim xalqların birləşməsinin əleyhinə olanlar, onun qarşısını almaq istəyənlər yaratmışdılar.

1937-38-ci illərdə Azərbaycanda repressiyalar oldu. Yəni insanlar həbs edildi, cəzalandırıldı. Onların bir qisminin heç bir günahı yox idi. Amma «bu pantürkistdir» deyə, onları həbs etdilər, edam etdilər, yaxud da bu adamlara böyük cəzalar verdilər.

İndi, Allaha şükür olsun ki, Azərbaycan müstəqil dövlətdir. Nə qorxuruq, nə çəkinirik, car çəkərək dünyaya bəyan edirik ki, bəli, Dədə Qorqud bizim babamızdır, əcdadımızdır. «Kitabi-Dədə Qorqud» bizim keçmişimizdir və bu keçmişlə fəxr edirik.

Türkdilli Dövlətlər Birliyinin yaranmasında, inkişaf etməsində Türkiyənin böyük xidmətləri vardır. Mən bunu VI zirvə görüşündə də, «Kitabi-Dədə Qorqud»un yubiley mərasimində də dedim ki, türkdilli dövlətləri Türkiyə bir yerə yığıbdır. Bu gün də deyirəm ki, əgər Türkiyənin bu barədə təşəbbüsü, güclü fəaliyyəti olmasa, ola bilər, bu, bir az zəifləsin. Çünki bu birliyi zəiflətmək istəyən qüvvələr çoxdur. Yəni türkdilli dövlətlərin bir yerə yığışmasının, birləşməsinin əleyhinə olan qüvvələr çoxdur. Belələri həm bizim ölkələrimizdə, həm də xaricdə vardır. Amma Türkiyənin bu dövlətlər birliyinə sahib çıxması, - mən yeddi ildir buradayam, - Türkiyə prezidenti Süleyman Dəmirəlin bu yeddi il ərzində böyük fəaliyyəti nəticəsində bu birlik yaşayır və inkişaf edir.

Prezident Süleyman Dəmirəl türkdilli dövlətlərə indiyədək nə qədər səfərlər edibdir. O, dəfələrlə Qazaxıstana, Qırğızıstana, Türkmənistana, Özbəkistana, Azərbaycana gəlibdir. Təbiidir ki, türkdilli ölkələrin prezidentləri də Türkiyədə səfərdə olublar. Bunlar hamısı bizim birliyimizi təmin edibdir.

Ölkələrimiz arasında bütün sahələrdə əlaqələr inkişaf etməlidir. Biz bir tərəfdən qədim köklərimizi aşkar edib göstəririk, ikinci tərəfdən də bu günümüzü yaratmalıyıq, inkişaf etdirməliyik, gələcəyə getməliyik. Gələcəyə getmək üçün isə bir-birimizə yardım, kömək etməliyik. Mən söhbətimizin əvvəlində də dedim, - bu baxımdan Türkiyə-Azərbaycan əlaqələri xüsusi xarakter daşıyır. Biz bu əlaqələri daim inkişaf etdiririk və etdirəcəyik. Baxmayaraq ki, buna görə də bizə təzyiqlər var.

Məsələn, Bakı-Ceyhan əsas ixrac boru kəmərini götürün. Biz indi bu işi sona çatdırırıq. Amma beş ildir ki, Türkiyə ilə Azərbaycan, şəxsən Süleyman Dəmirəl ilə Heydər Əliyev bu işin yaranması üçün çalışırlar.

1994-cü ildə «Əsrin müqaviləsi»ni imzalayanda bizə bir çox ölkələrdən – Rusiyadan, digər qonşu ölkələrdən də nə qədər təzyiqlər oldu. Həm Qərbdə, həm də Rusiyada indi təbliğat aparırlar ki, «Bakı-Ceyhan əsas ixrac boru kəməri real deyildir, olmayacaqdır». Amma Bakı-Ceyhan tamam real məsələdir və onu biz reallaşdırmamışıq. Təbiidir ki, onun böyük iqtisadi əhəmiyyəti vardır. Biz Xəzər dənizindən çoxlu neft çıxaracağıq. İmzaladığımız birinci müqaviləni əhatə edən «Azəri», «Çıraq» yataqlarında və «Günəşli» yatağının dərinlikdə yerləşən hissəsindən ildə təxminən 50-60 milyon ton neft çıxacaqdır. Amma biz sonra daha 18 müqavilə imzalamışıq. Bunların sayı indi 19-dur.

«Şahdəniz» yatağında böyük qaz ehtiyatları vardır. İndi biz qaz ixracı haqqında düşünürük. Biz indiyədək çalışırdıq ki, Türkmənistan qazını Xəzər dənizindən, Azərbaycandan, Gürcüstandan Türkiyəyə keçirək. Biz bu layihəni yenə də dəstəkləyirik. Amma Türkmənistanın prezidenti bir gün belə, bir gün elə deyir. Lakin belə bir məsələ var ki, biz 2002-ci ildə qaz ixrac etməyə başlayacağıq. Bu qazı hara ixrac etməliyik? Biz onu Türkiyəyə ixrac etməliyik.

Hörmətli Süleyman Dəmirələ buradakı mətbuat konfransında sual verdilər ki, bəs Türkiyə nə qədər Azərbaycan qazı alacaqdır? O da cavab verdi ki, Azərbaycan nə qədər qaz versə, biz onu alacağıq. Çünki Türkiyənin qaza ehtiyacı çoxdur. Yəni biz, şübhəsiz ki, hələ bir qaz kəməri də çəkəcəyik.

Bakı-Ceyhan kəməri çəkiləcək, Qazaxıstan nefti də bu kəmər vasitəsilə nəql ediləcəkdir. Onların hamısı həm böyük iqtisadi, həm də siyasi xarakter daşıyır. Bunlar bölgədə təhlükəsizliyin təmin olunması xarakteri daşıyır.

Təbiidir ki, Ermənistan-Azərbaycan münaqişəsinin həll olunması bizim üçün əsas şərtdir. Əgər bu olmasa, nəinki Qafqazda, Türkiyə ilə Qafqaz arasında da sülh yaranmayacaqdır. Çünki bu müqaviləyə görə Türkiyə ilə Ermənistan arasında heç bir əlaqə, yəni diplomatik əlaqə, ticarət əlaqəsi yoxdur. Ermənistan bu əlaqələri yaratmaq istəyir. Ancaq Türkiyədə deyiblər – hörmətli Süleyman Dəmirəl də, hörmətli Bülənd Ecevit də deyiblər. Keçmiş baş nazirlər də deyiblər ki, Türkiyə-Ermənistan sərhədlərinin açarı Azərbaycandadır. Ermənistan-Azərbaycan münaqişəsi həll olunmayana qədər, yəni Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş torpaqlarını – torpaqlarımızın 20 faizi onların işğalı altındadır – azad etməyənə qədər, bir milyondan artıq azərbaycanlı qaçqın öz yerinə qayıtmayana qədər Türkiyə ilə Ermənistan arasında sərhədlər açıla bilməz. Əgər sərhədlər açılmayacaqsa, demək, burada təhlükəsizlik yenə də təmin olunmayacaqdır.

Ermənistan – Azərbaycan münaqişəsi ədalətlə həll olunanda, - bunun da əsas prinsipləri Azərbaycanın işğal edilmiş torpaqlarının azad olunması, bir milyondan artıq vətəndaşımızın öz yerinə-yurduna qayıtması, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsidir, - təbiidir ki, Türkiyə ilə Ermənistan arasında sərhədlər açılacaqdır, Azərbaycanla Ermənistan arasında sülh yaranacaqdır. Beləliklə, bu regionda sülhün, təhlükəsizliyin təmin edilməsi mümkün olacaqdır. Bu da çox vacibdir. Çünki onda iqtisadi əlaqələr də genişlənəcəkdir.

Görürsünüz, nə qədər problemlərimiz var. Bu problemlərin həll olunmasında da Türkiyə-Azərbaycan əlaqələri çox böyük əhəmiyyət daşıyır. Biz bu əlaqələrə xüsusi fikir veririk. Siz də səhiyyə sahəsində əlaqələri möhkəmləndirin.

Hörmətli Dövlət Baxçalının göndərdiyi salama görə təşəkkür edirəm. Mən Baş nazirin müavini, sizin partiyanın başkanı, hörmətli Dövlət Baxçalı ilə ilk dəfə bir neçə ay bundan əvvəl Ankarada görüşmüşəm. O vaxta qədər mən onunla heç vaxt görüşməmişdim.

Türkiyəyə səfərlərim zamanı mərhum Türkeş ilə mən bir neçə dəfə görüşmüşdüm. Xatirimdədir, vaxtilə mən Naxçıvanda yaşayırdım, muxtar respublika Ali Məclisinin sədri idim, ilk dəfə Türkiyəyə getmişdim. Biz orada görüşdük, söhbət etdik. Xatirimdədir, bundan sonra, 1992-ci ildə İzmirdə bir iqtisadi konfrans var idi, biz orada birgə olduq. Mən Azərbaycan prezidenti seçiləndən sonra Türkiyəyə səfərlərim zamanı o, gəlib məni həmişə ziyarət edirdi, görüşürdük. Ancaq o, vəfat edəndən sonra sizin partiyanın başçısı ilə mənim görüşüm olmamışdı.

Biz Dövlət Baxçalı ilə görüşdük, mən bundan çox məmnun oldum. Yaxşı danışıq apardıq, söhbət etdik. Təbiidir ki, mərhum Türkeş Türkiyədə çox xidmət göstərmiş, böyük hörmətə malik insan idi. Ondan sonra sizin partiyanıza Dövlət Baxçalı kimi ziyalı, elm adamı, professor rəhbərlik etdi. Mən onu çox mədəni bir insan kimi gördüm. İndi siz Bülənd Ecevitin partiyası ilə koalision bir hökumət yaratmısınız. Allahdan arzu edirəm ki, sizin bu koalision hökumətiniz yaşasın. Çünki əvvəllər bir neçə koalisionlar yaranıb, amma dağılıbdır. İndi sizin bu koalisiya gərək ki, bir ildir yaşayır. Deyəsən, bu ayın sonunda bir ili tamam olacaqdır. Sizin ölkədə hökumət dörd ilə seçilir?

**O s m a n D u r m u ş:** Bəli.

**H e y d ə r Ə l i y e v:** Allah eləsin ki, sizin bu koalision hökumətiniz bundan sonra üç il də yaşasın.

Hörmətli Baş nazir Bülənd Ecevit də çox dəyərli bir insandır. Mənim ona çox böyük hörmətim var. Bizim onunla qədim əlaqələrimiz vardır. Əlbəttə ki, Türkiyədə mənim üçün ən yüksək, ən dəyərli insan Süleyman Dəmirəldir. O, təkcə mənim üçün yox, bütün Azərbaycan xalqı üçün belədir. Güman edirəm ki, Türkiyə vətəndaşları üçün də belədir.

Ölkəmiz müstəqillik əldə edəndən sonra Azərbaycan – Türkiyə əlaqələrinin inkişaf etməsində Sülyeman Dəmirəlin xidmətləri həddindən artıq böyükdür. Ona görə də Türkiyədə ona necə «baba» deyirlərsə, burada da «baba» deyirlər. Ancaq burada «ata», orada «baba» deyirlər. Bunun fərqi yoxdur. Azərbaycanda dədə də, baba da deyirlər. O, elə babadır, xalqımız üçün həmişə baba olacaqdır.

Təbiidir ki, Süleyman Dəmirəlin 1990-cı ildən indiyədək Türkiyədəki xidmətləri çox böyük olubdur. Güman edirəm ki, o, bundan sonra da Türkiyənin ictimai-siyasi həyatında öz görkəmli yerini tutacaqdır. Biz Süleyman Dəmirəli Azərbaycanın ən yüksək dövlət mükafatı olan «İstiqlal» ordeni ilə təltif etmişik və son dəfə ona «Azərbaycan Respublikasının fəxri vətəndaşı» adı verdik. Bu ad ilk dəfə verilibdir.

Mən «Azərbaycan Respublikasının fəxri vətəndaşı» adının yaranması haqqında keçən ilin sonunda fərman verdim. Amma bu adı indiyə qədər heç kəsə verməmişdik, onu birinci dəfə Süleyman Dəmirələ verdik. Biz «İstiqlal» ordenini də Azərbaycan vətəndaşlarına vermişdik. Amma xarici ölkə başçılarından, yaxud vətəndaşlarından heç kəsə bu ordeni verməmişdik. Onların arasında «İstiqlal» ordenini birinci dəfə Sülyeman Dəmirəl aldı. Bu ordeni ikinci – Ukrayna prezidenti Leonid Kuçma, üçüncü isə Gürcüstan prezidenti Eduard Şevardnadze alıbdır. Bu ölkələr də bizə dost dövlətlərdir. Gürcüstanla Azərbaycan arasında çox yaxşı dostluq əlaqələri vardır. Gürcüstanla Türkiyə arasında da çox yaxşı əlaqələr mövcuddur. Bu əlaqələrin yaranmasında da Süleyman Dəmirəlin və Eduard Şevardnadzenin çox böyük rolu vardır. Mən bunu yaxşı bilirəm.

Bizim Ukrayna ilə də çox yaxşı əlaqələrimiz var. Ukraynanın prezidenti Leonid Kuçmanın Süleyman Dəmirələ çox böyük hörməti vardır. Ukrayna prezidenti Türkiyə ilə əlaqələrə də böyük əhəmiyyət verir. O, son zamanlar Azərbaycanda olanda da biz bu barədə danışdıq.

Beləliklə, Türkiyənin çox gözəl liderləri vardır: Süleyman Dəmirəl, Bülənd Ecevit, indi yeni bir lider Dövlət Baxçalı və başqaları. Mən arzu edirəm ki, bu liderlər Türkiyəni daim irəli aparsınlar. Bu təbiidir, buna şübhə yoxdur. Çünki böyük öndər Mustafa Kamal Atatürk Türkiyədə elə bir cümhuriyyət yaradıbdır ki, nə olur-olsun o yaşayır və yaşayacaqdır. Doğrudur, sizin ölkənin seçim sistemi bəzən o qədər də etibarlı görünmür. Ona görə də bir hökuməti qurursunuz, bəzən bir aydan sonra pozub yeni bir hökumət yaradırsınız. Başqa ölkədə xalq buna dözə bilməz. Lakin sizin ölkədə xalq buna dözür. Nə üçün? Çünki Mustafa Kamal Atatürkün qurduğu cümhuriyyət, yaratdığı bir ölkə, ona sadiq xalq vardır. Bir də sizin ölkənin çox gözəl iqtisadiyyatı vardır. Özəl sektor yaşayır. Bu gün hökumət var, yaxud sabah dəyişiləcək – bütün bunların iqtisadiyyatın inkişafına təsiri olmur.

Çox məmnun oldum ki, mənə «Beynəlxalq Atatürk sülh mükafatı» verildi. Çankaya köşkündə bu mükafatın təqdim olunması mərasimindəki nitqimdə də söylədim ki, - hörmətli Dövlət Baxçalı da, Bülənd Ecevit də, sizin hökumətin üzvlərinin hamısı orada idi – mən çox böyük həyat yaşamışam, dünyanın bir sıra yüksək mükafatlarını almışam. sovetlər birliyi kimi bir fövqəldövlətin ən yüksək mükafatlarını, ordenlərini, medallarını almışam. Mən bir çox başqa ölkələrin də mükafatlarına layiq görülmüşəm. Amma «Beynəlxalq Atatürk sülh mükafatı» mənim üçün bunların hamısından üstündür. Bu mükafat Azərbaycanda da çox yüksək qiymətləndirilir. Çünki Mustafa Kamal Atatürk bizim hamımız üçün örnəkdir. Türkiyənin bütün işləri, Atatürkün yolu ilə gedən işləri bizim hamımız üçün örnəkdir.

Hörmətli Dövlət Baxçalıya mənim salamlarımı, hörmət və ehtiramımı çatdırın. Mən son görüşümüzdə onu Azərbaycana dəvət etmişəm. Güman edirəm ki, gərək o, bu dəvəti yerinə yetirsin, gəlib Azərbaycanı görsün.

Siz birinci dəfədir ki, Azərbaycana gəlirsiniz. Görürsünüz, Azərbaycan səkkiz ildir müstəqildir, amma siz buraya ilk dəfədir ki, gəlirsiniz. Mən buna görə sizi günahlandırmıram, - yəqin imkan olmayıbdır. Yenə də deyirəm, Azərbaycanı yaxşı bilmək üçün gəlib onu görmək lazımdır. Mən çox arzu edirəm ki, hörmətli Dövlət Baxçalı da, başqaları da Azərbaycana gəlsinlər, ölkəmizi görsünlər.

Mən Türkiyənin Baş naziri hörmətli Bülənd Eceviti də Azərbaycana rəsmi səfərə dəvət etmişəm. Amma sizin ölkədə hələ bəzi işlər həll olunmalıdır, yəqin ondan sonra o, Azərbaycanı ziyarət edəcəkdir.

Mən Türkiyənin bütün nazirlərini ölkəmizə səfərə dəvət edirəm. Gəlin, görün, görüşək.

**O s m a n  D u r m u ş:** Hörmətli prezident, həm biz, həm də Türkiyə Cümhuriyyəti sizin fikirlərinizi həmişə yüksək qiymətləndiririk. Müstəqil Azərbaycanın ərazi bütövlüyü bərpa edilənə qədər Azərbaycanın dostları Türkiyənin dostları olacaqdır.

Bakı-Ceyhan əsas ixrac boru kəməri barədə imzalanmış saziş Azərbaycan üçün çox əhəmiyyətli məsələdir. Bu boru kəməri Türkiyədəki boğazların təhlükəsizliyi baxımından da çox dəyərlidir. Bakı-Ceyhan əsas ixrac boru kəməri hər iki dost ölkəmizə, eyni zamanda bölgəmizə böyük faydalar gətirəcəkdir. Həm Azərbaycan, həm də Türkmənistan Türkiyəyə nə qədər təbii qaz versə, ölkəmiz onu alacaqdır.

Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələrinin işğalından azad olunması çox mühüm məsələdir. Türkiyədə zəlzələ baş verən zaman Qızıl Xaç Komitəsi yaralıların bir qismini müalicə üçün Ermənistana göndərmək istəyirdi. Amma biz cavab verdik ki, Ermənistan birinci növbədə Azərbaycanla məsələləri həll etsin.

Biz heç bir yaralını müalicə olunmaq üçün oraya göndərmədik. Çünki Azərbaycanın məsələlərinin həll olunmasında Türkiyə çox israrlıdır.

Cənab prezident, Siz həm Amerikada, həm də Türkiyədə müalicə olunmusunuz. Sizin türk həkimlərinə müraciət etməyiniz əziz Atatürkün «Məni türk həkimlərinə əmanət edin» sözlərinə uyğun bir davranışdır. Biz bunu çox böyük hörmətlə qəbul edirik.

Hörmətli prezident, biz Sizin söylədiyiniz fikirləri, sözləri Baş nazirə, Baş nazirin müavininə çatdıracağıq. Azərbaycan prezidentinin, digər dövlət adamlarının arzularını onlara yetirəcəyik. Ümid edirəm ki, Baş nazirin müavini Dövlət Baxçalı da yaxın zamanlarda Azərbaycanı ziyarət edəcəkdir.

Mən sizə bir daha hörmət və ehtiramımızı bildirirəm.

**Heydər Əliyev:** Sağ olun.

.

**İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB EZER VEYSMANA**

Hörmətli cənab prezident!

İsrail dövlətinin Müstəqillik günü bayramı münasibətilə Sizə və dost İsrail xalqına səmimi salamlarımı və təbriklərimi yetirirəm.

Mən Azərbaycan Respublikası ilə İsrail dövləti arasında təşəkkül tapmış münasibətlərə böyük əhəmiyyət verirəm. Əminəm ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq əlaqələri xalqlarımızın rifahı naminə daim genişlənəcək və inkişaf edəcəkdir.

Cənab prezident, fürsətdən istifadə edib Sizə cansağlığı və səadət, ölkənizə sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *20 aprel 2000-ci il*

**İSRAİL DÖVLƏTİNİN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB EHUD BARAKA**

Hörmətli cənab Baş nazir!

İsrail dövlətinin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və dost İsrail xalqını ürəkdən təbrik edir, sizə cansağlığı və fəaliyyətinizdə uğurlar, ölkənizə sülh və tərəqqi arzulayıram.

Məmnuniyyətlə qeyd edirəm ki, Azərbaycan Respublikası ilə İsrail dövləti arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətlərinin daha böyük perspektivləri vardır.

Əminəm ki, ölkələrimizin əlaqələri inkişaf edib xalqlarımızın mənafeyinə xidmət edəcəkdir.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *21 aprel 2000-ci il*

## «AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN DOSTLARI» FONDUNUN TƏŞƏBBÜSÜ İLƏ «SƏDASI BAHARDIR VƏTƏNİMİZİN» DEVİZİ İLƏ KEÇİRİLƏN KONSERTDƏ SÖHBƏT

*Respublika sarayı*

*21 aprel 2000-ci il*

**X u r a m a n   Q a s ı m o v a** (*xalq artisti*): Möhtərəm cənab prezident, icazə verin Sizə öz təşəkkürümüzü bildirək ki, vaxt ayırıb bizim konsertimizə təşrif buyurdunuz. Hamınıza təşəkkür edirik ki, bizi belə dəstəkləyir, alqışlayırsınız. Çox xoşbəxtik və sevinirik ki, hörmətli prezidentimiz öz gəlişi ilə bu konsertə xüsusi yaraşıq verdi. Biz sizin hamınıza bütün kollektivin adından «çox sağ olun» deyirik.

Əlbəttə, biz hamımız çox həyəcanlıyıq. «Azərbaycan Mədəniyyətinin Dostları» Fonduna, onun sədri, daxilən də, zahirən də çox gözəl insan olan Mehriban xanıma mədəniyyətimizə göstərdiyi qayğıya görə təşəkkür edirik. Mədəniyyət Nazirliyinə, konsertimizin baş tutmasına kömək edən bütün insanlara dərin minnətdarlığımızı bildiririk. Çox sağ olun.

**H e y d ə r   Ə l i y e v:** Sizi uğurlu çıxışınız münasibətilə təbrik edirəm. Həmişəki kimi, çox yaxşı oxudunuz. Yadınızdadırmı, mən söz vermişdim gələcəyəm və gəldim.

**F i d a n   Q a s ı m o v a** (*xalq artisti*): Çox sağ olun. Hər zaman olduğu kimi, Siz sözünüzün üstündə durursunuz, bizə qayğı göstərirsiniz, dəstək verirsiniz. Cənab prezident, proqramımız xoşunuza gəldimi?

**H e y d ə r   Ə l i y e v:** Yaxşı oxudunuz, çox yaxşı, xoşuma gəldi.

**X u r a m a n   Q a s ı m o v a:** Sizi yormadıq ki?

**H e y d ə r   Ə l i y e v:** Yox. Bu gün mənim doğrudan da çox ağır günüm idi. Mən saat 2-dən buraya gələnə qədər ağır bir müşavirə keçirirdim. Həddindən artıq yorulmuşdum və oradan çıxıb buraya gəlmişəm. Orkestr də çox xoşuma gəldi. Orkestr xeyli irəliləyibdir.

**F i d a n   Q a s ı m o v a:** Möhtərəm prezident, Siz gələndə daim qayğı göstərirsiniz.

**H e y d ə r   Ə l i y e v:** Bir mən gələndə yox, indi də bu orkestrin səviyyəsi qalxıbdır. Bu, çox gözəldir.

**P o l a d   B ü l b ü l o ğ l u** (*Azərbaycan Respublikasının mədəniyyət naziri*): Cənab prezident, Siz kömək etdiniz, maaşları qaldırdınız, musiqi alətləri aldınız, ona görə də səviyyəsi qalxıbdır.

**H e y d ə r   Ə l i y e v:** Elədir, indi orkestr çox gözəl bir simfonik orkestrdir.

**R a u f   A b d u l l a y e v** (*xalq artisti*): Çox sağ olun, cənab prezident, Sizə minnətdarıq.

**TANZANİYA BİRLƏŞMİŞ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BENCAMİN VİLLİAM MKAPAYA**

Hörmətli cənab prezident!

Tanzaniya Birləşmiş Respublikasının milli bayramı – İttifaq günü münasibətilə sizi və dost Tanzaniya xalqını səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Tanzaniya Birləşmiş Respublikası arasında dostluq və əməkdaşlıq əlaqələri inkişaf edərək xalqlarımızın rifahının yaxşılaşmasına, ölkələrimizin yüksəlişinə xidmət edəcəkdir.

Cənab prezident, sizə cansağlığı və işlərinizdə uğurlar, ölkənizə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *24 aprel 2000-ci il*

## TÜRK DÜNYASININ GÖRKƏMLİ OĞLU, DÜNYA ŞÖHRƏTLİ ALİM, AZƏRBAYCAN XALQININ BÖYÜK DOSTU İHSAN DOĞRAMACI VƏ ONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ* İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*24 aprel 2000-ci il*

Əziz dostum, qardaşım İhsan Doğramacı!
Əziz bacım Ayser xanım!
Əziz dostlarımız, qardaşlarımız!

Azərbaycana xoş gəlmisiniz, səfa gətirmisiniz! Mən sizin hamınızı səmimi-qəlbdən salamlayıram və bu gün sizinlə Azərbaycanda görüşdüyümə görə çox məmnun olduğumu bildirmək istəyirəm.

Təbiidir ki, bugünkü hadisə həm sizin, həm də bizim üçün, mənim üçün və xalqımız, müstəqil Azərbaycan üçün çox əlamətdar bir hadisədir. Azərbaycan xalqının böyük dostu, mənim şəxsi dostum, qardaşım İhsan Doğramacının 85 yaşı tamam olur. Biz bu münasibətlə, onun 80 yaşı tamam olanda danışmışdıq ki, İhsan Doğramacının 85 illiyini Azərbaycanda qeyd edəcəyik, keçirəcəyik. Buna görə də mən qardaşım İhsan Doğramacını ailəsi, dostları ilə birlikdə Azərbaycana dəvət etdim. Məmnunam ki, siz hamınız dəvəti qəbul etmisiniz, Azərbaycana gəlmisiniz.

Proqram məlumdur. Bu gün biz Azərbaycanın ən möhtəşəm salonu olan Respublika sarayında hörmətli İhsan Doğramacının 85 illik yubileyi münasibətilə böyük bir mərasim keçirəcəyik. Hörmətli İhsan Doğramacı mənim fərmanımla müstəqil Azərbaycanın ən yüksək mükafatı – «İstiqlal» ordeni ilə təltif olunubdur. Mən bu «İstiqlal» ordenini – Azərbaycanın ən yüksək mükafatını böyük şərəf hissi ilə hörmətli İhsan Doğramacıya təqdim edəcəyəm.

Bilirsiniz ki, orada müəyyən təbriklər olacaqdır. Azərbaycanın incəsənət ustaları, xadimləri bu münasibətlə bir konsert hazırlayıblar. Bu konsert məhz sizin üçün - İhsan Doğramacı üçün, sizin 85 illik yubileyinizə həsr olunmuş konsertdir. Həmin salonda 2500 yer vardır. Azərbaycanın çox görkəmli insanları orada iştirak edəcəklər.

Sonra axşam yenə də bərabər olacağıq. Siz sabah da, o birisi gün də buradasınız, Azərbaycanla daha da yaxından tanış olacaqsınız.

Sizlərdən kimsə bəlkə də Azərbaycana ilk dəfədir gəlir. Hesab edirəm ki, Azərbaycanın bugünkü gününü görmək onlar üçün daha maraqlı olacaqdır. Amma kimsə buraya ilk dəfə deyil gəlir. Bu səfər onlar üçün də maraqlı keçəcəkdir, çünki respublikamızdakı dəyişiklikləri görəcəklər. Məsələn, kimsə buraya 1990, 1991, 1992-ci illərdə gəlibsə, indi bu gün - 2000-ci ildə görəcəkdir ki, Azəbaycanda nə qədər böyük dəyişikliklər olubdur, tərəqqi, inkişaf vardır. Onlar bunu görəcəklər. Baxmayaraq ki, bizim problemlərimiz də vardır.

Bilirsiniz ki, Ermənistan ilə Azərbaycan arasında olan hərbi münaqişə hələ sona çatmayıbdır. Biz 1994-cü ildə atəşi dayandırmışıq ki, atəş olmasın. Ancaq o vaxta qədər Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. Həmin torpaqlardan bir milyondan artıq Azərbaycan vətəndaşı zorla çıxarılıbdır. Onlar çadırlarda ağır şəraitdə yaşayırlar.

Biz münaqişəni sülh yolu ilə həll etmək üçün danışıqlar aparırıq. Ancaq bu danışıqlar hələ son nəticəyə gətirib çıxarmayıbdır. Bu, bizim ən böyük, ən ağır problemimizdir. Təsəvvür edin, indi səkkiz milyon əhalisi olan ölkənin vətəndaşlarının səkkizdə bir hissəsi, yəni bir milyonu qaçqın vəziyyətində çadırlarda, ağır şəraitdə yaşayır.

Başqa problemlərimiz də vardır. Biz 70 il sovet hakimiyyəti dövründə, tamamilə sosialist quruluşunda yaşamışıq. İnsanların şüuru da, psixologiyası da, xarakteri də, iş üslubu da - hər şey bu 70 ildə həmin ideologiyanın, sosialist quruluşunun, sisteminin qanunları, tələbləri əsasında formalaşıbdır, yaranıbdır.

Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyi əldə edəndən sonra biz həmin sistemdən, kommunist ideologiyasından, sosialist sistemindən imtina etdik, Qərbdə, Türkiyədə, dünyanın inkişaf etmiş ölkələrində olan sistemə - həm siyasi, həm də iqtisadi nöqteyi-nəzərdən - keçdik. Amma bu elə deyil ki, çayın bu tərəfinə gəldin, körpü də olmasa, yaxşı tullana bilirsənsə, o tərəfə keçə bilərsən. Bu, elə deyil.

---

* Nümayəndə heyətinə İhsan bəy Doğramacının ailə üzvləri, millət vəkilləri, Türkiyənin bir sıra universitetlərinin hazırkı və keçmiş rektorları, professor və müəllim heyəti, iş adamları, mətbuat nümayəndələri daxil idilər.

Biz çay deyirik, siz nəhr deyirsiniz,- İhsan Doğramacı bizim dilimizi, yəni şivəmizi, ləhcəmizi yaxşı bilir. Yəqin siz də bilirsiniz,- amma bu çay çox geniş və dərindir. Onu keçmək üçün zaman lazımdır. Bunu keçmək üçün təkcə zaman yox, iradə lazımdır, bir sıra böyük islahatları, dəyişiklikləri həyata keçirmək lazımdır. Biz bunları edirik. Məhz bunların nəticəsidir ki, ölkəmiz artıq inkişaf edir, irəli gedir.

Vaxtınızı çox almaq istəmirəm. Ölkəmizin bir sıra problemləri vardır,- yəqin siz bunları bilirsiniz. Ancaq bu problemlərlə yanaşı, bizim çox yaxşı nailiyyətlərimiz də vardır. Azərbaycanda bazar iqtisadiyyatı inkişaf edir, insanlara sərbəstlik, azadlıq verilibdir. Ölkəmizdə siyasi plüralizm təmin olunubdur.

Biz dünyanın böyük neft şirkətləri ilə bir sıra mühüm müqavilələr imzalamışıq. Bu müqavilələr artıq öz nəticəsini verir. Bilirsiniz ki, Azərbaycan qədim neft ölkəsidir. Ancaq biz indi Azərbaycanın neft yataqlarının, sərvətlərinin demək olar ki, «ikinci nəfəs»indən istifadə edirik. Həkimlər bu «ikinci nəfəs» məsələsini yaxşı bilirlər. Bəzən görürsən ki, bir şey tükənir, amma «ikinci nəfəs» əmələ gəlir.

Biz Xəzər dənizinin Azərbaycana məxsus sektorunda böyük neft yataqları aşkar etmişik. Amma bu, indinin işi deyildir. Həmin neft yataqlarının hamısını məhz Azərbaycan alimləri, neftçiləri, geoloqları 1950-1960-1970-ci illərdə axtarıblar, tapıblar. Biz bu yataqlardan bir qismini sovet hakimiyyəti dövründə işlətmişik. Məsələn, burada əfsanəvi Neft Daşları adası vardır. Vaxtilə sahildən 100 kilometr məsafədə, Xəzər dənizinin içində bəzi daşlar olduğu müşahidə edilibdir. Orada axtarış işləri aprılanda neft tapılıbdır və neft hasil olunubdur. Gətirib həmin daşların üzərində - biz estakadalar deyirik - dəmirdən platformalar qurublar. 50 il bundan öncə orada bir şəhər yaradılıbdır. Yəni Azərbaycanda Xəzər dənizindən 50 il bundan əvvəl ilk neftin hasil edilməsinə başlanıbdır. Bilin ki, dünyada ilk dəfə dənizdən, yəni suyun dərinliyindən neftin hasil olunmasına Azərbaycanda başlanıbdır.

Ötən 50 il müddətində Azərbaycanın alimləri, geoloqları, neftçiləri Xəzər dənizinin başqa hissələrində də araşdırmalar aparmışlar, çoxlu neft yataqları aşkar etmişlər. Onların bir qismindən Sovetlər İttifaqı vaxtında istifadə etmişik, amma çox hissəsi qalıbdır. Biz indi dünyanın böyük neft şirkətlərini dəvət edərək həmin yataqları işlətməyə çalışırıq.

Biz 1994-cü ildə ilk müqavilə imzalamışıq. Bu müqaviləyə «Əsrin müqaviləsi» deyirlər. O vaxtdan Türkiyədə çox məşhur olan Bakı–Ceyhan əsas ixrac neft kəməri işi ilə məşğuluq. Şükürlər olsun ki, onu da başa çatdırırıq. Keçən ilin noyabr ayında - siz ona kasım ayı deyirsiniz - ATƏT-in İstanbul zirvə görüşü keçirilən zaman biz son sazişi imzaladıq. İndi onun bəzi kommersiya, iqtisadi məsələləri həll olunur. Güman edirəm ki, bir-iki aydan sonra biz Bakı–Ceyhan əsas ixrac neft kəmərinin inşasına başlayacağıq, Xəzər dənizindən hasil edilən neft Türkiyənin Ceyhan limanına çatdırılacaqdır.

Azərbaycanda neft həddindən artıq çoxdur. Biz 1994-cü ildə ilk müqaviləni imzalayanda proqnoz verilmişdi, yəni bildirilmişdi ki, həmin üç yataqdan – «Azəri», «Çıraq» yataqlarından və «Günəşli» yatağının dərinlikdə yerləşən hissəsindən bir ildə 60 milyon ton neft hasil olunacaqdır. Ona görə də biz o vaxt Bakı–Ceyhan əsas ixrac neft kəmərinin tikilməsi haqqında qərar qəbul etmişdik.

Biz ondan sonra 18 müqavilə imzalamışıq. İndi təsəvvür edin, nə qədər neft hasil olunacaqdır. Bilirdik ki, «Şahdəniz» adlanan yataqda xeyli qaz var, amma neft də çoxdur. Biz həmin yataqda müəyyən işlər apardıq. Məlum oldu ki, bu yataqda həddindən çox qaz var. İndi biz düşünürük ki, dünya bazarına neftlə bərabər qaz da çıxarmalıyıq. Biz bunu birinci növbədə Türkiyəyə çıxarmaq istəyirik. Çünki Türkiyənin qaza ehtiyacı vardır.

Biz bu işləri görmüşük və onlar Azərbaycana böyük mənfəətlər gətiribdir. Eyni zamanda, Azərbaycan dünya iqtisadiyyatı ilə bağlanıbdır. Biz bununla da gələcək üçün çox böyük təməl yaratmışıq. Təsəvvür edin, 2005-2010-cu illərdə Azərbaycanda hasil ediləcək neftin və qazın miqdarı o qədər olacaqdır ki, bu, təkcə Azərbaycanı yox, bir çox ölkələri də təmin edəcəkdir.

Bu işlərlə yanaşı, başqa işlər də vardır. Mən qısaca olaraq demək istəyirəm ki, bizim problemlərimiz, çətinliklərimiz vardır. Amma gözəl işlərimiz də çoxdur. Bunların hamısının üstündə elm, mədəniyyət, təhsil durur.

Keçmiş Sovetlər İttifaqına məxsus olan, indi müstəqillik qazanmış ölkələrin hər birində keçid dövründə problemlər vardır. Həmin problemlərdən biri də təhsil, elm, mədəniyyət məsələsidir. Həqiqəti bildirmək lazımdır ki, Sovetlər İttifaqı zamanı bu sahələrə dövlət büdcəsindən çoxlu vəsait ayrılırdı. Bütün təhsil pulsuz idi. Elmin nəticəsi olsa da, olmasa da bu sahəyə çox böyük vəsait ayrılırdı. Mədəniyyət xadimlərinə çox böyük vəsait ayrılırdı. O vaxt Azərbaycanda teatr, balet, musiqi sahəsində çalışan adamlar, yazarlar, ədəbiyyatla məşğul olan insanlar ən zəngin insanlar idilər. Amma bu keçid dövründə onlara tələbat azalıbdır, ona görə onların maddi vəziyyəti də əvvəlki kimi deyildir. Bu məsələdə əsas ağırlıq dövlətin üzərinə düşübdür və dövlət də lazımi tədbirlər görür. Biz mədəniyyətimizi inkişaf etdiririk. Böyük alim, böyük insan, böyük şəxsiyyət İhsan Doğramacının 85 illik yubileyinin Azərbaycanda keçirilməsi elmə, mədəniyyətə, təhsilə nə qədər yüksək diqqət göstərilməsinin gözəl nümunəsidir, təzahürüdür.

Beləliklə, istərdim ki, siz Azərbaycanı, Bakını – Azərbaycanın hər yerini görə bilməyəcəksiniz - mümkün qədər çox görəsiniz. Siz ölkəmizi nə qədər çox görsəniz, o qədər də çox inanacaqsınız ki, Azərbaycan müstəqil hüquqi, demokratik, dünyəvi - biz «dünyəvi» deyirik, siz «laiq» deyirsiniz – dövlətdir.

Azərbaycan bazar iqtisadiyyatı yolu ilə gedir. Siz buna «piyasa ekonomisi», yəni «iqtisadiyyat» əvəzinə «ekonomi», «bazar» əvəzinə «piyasa» deyirsiniz. Azərbaycan dünyanın iqtisadi, siyasi cəhətdən inkişaf etmiş ölkələri ilə - Qərb, Şərq ölkələri, Amerika ilə əlaqələrini genişləndirir. Azərbaycan-Türkiyə əlaqələri bunların arasında xüsusi yer tutur, əhəmiyyət daşıyır.

Biz belə hesab edirik ki, dünyanın bir çox ölkələri ilə Azərbaycanın çox yaxşı əlaqələri vardır. Amma Türkiyə-Azərbaycan əlaqələri səviyyəsində bizim heç bir ölkə ilə əlaqəmiz yoxdur. Bu da təbiidir. Çünki biz bir kökdənik, bir dinə, dilə, mədəniyyətə mənsubuq, bir millətik. Təbiidir ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra bir-birimizə qovuşan zaman biz həm insani nöqteyi-nəzərdən, həm də ki, dövlət nöqteyi-nəzərindən daha tez yaxınlaşmışıq. Ona görə də Türkiyə ilə əlaqələrimiz xüsusi xarakter daşıyır. Siz bunların hamısını - Türkiyəyə, Türkiyə Cümhuriyyətinə olan münasibəti burada görəcəksiniz.

Mən sizin hamınızı bir daha salamlayıram. Əziz dostum, çox məmnunam ki, sən bu il də çox gəncsən. 80 yaşında da belə idin, ötən beş ildə heç dəyişməmisən. Dəyişmisən, - bir az da gəncləşmisən, gözəlləşmisən.

**İ h s a n D o ğ r a m a c ı:** Hörmətli prezident!

Öz adımdan və Azərbaycana gəlmiş nümayəndə heyəti adından Sizə təşəkkür edirəm. Bizi buraya dəvət etdiyiniz və qəbul etdiyiniz üçün təşəkkür edirik. Siz buyurdunuz ki, biz bir millətik. Əlbəttə, Türkiyə də, Azərbaycan da, hətta digər türkdilli ölkələr də ayrılıqda müstəqil dövlətlərdir. Ancaq hamımız bir millətik. Buna heç bir şübhə yoxdur. Mən özüm bu fikirdəyəm. Məncə, buradakı dostlarım, həmkarlarım, həmvətənlərim və burada olmayan milyonlarla həmvətənim də mənimlə həmrəy olar ki, Türkiyə ən çox Azərbaycana yaxındır.

Bundan beş il əvvəl, 1995-ci ildə mənim 80 illik yubileyim müxtəlif yerlərdə qeyd edildi. Siz bu yubileyin Azərbaycanda da qeyd olunmasını istədiniz. Azərbaycana gəldik, yubiley Opera və Balet Teatrında böyük təntənə ilə qeyd edildi. Həmin il heç bir yerdə Bakıdakı kimi möhtəşəm, təntənəli yubiley tədbiri olmadı. O zaman siz öz nitqinizdə arzuladınız ki, mən 100 il yaşayım. Mən də sizin əmrinizi yerinə yetirmək üçün, 100 il yaşamaq üçün çalışıram.

Bundan sonra mən Türkiyədə və çoxlu dostlarım olan xarici ölkələrdə 85 illik yubileyimin keçirilməsini xahiş etdim. Onlar da hamısı bu xahişimi qəbul etdilər. Siz burada yenə istisna oldunuz. Dediniz ki, 100 ilə hələ çox var, biz hər beş ildən bir bunu qeyd edək. Ona görə də indi buradayıq.

Həqiqətən də, Sizin buyurduğunuz kimi, elmdə, mədəniyyətdə irəliləmək bir ölkənin müvəffəqiyyəti üçün birinci şərtdir. Mən həyatım boyunca bütün vaxtımı, işlərimi və fəaliyyətimi iki şeyə həsr etdim: insan, uşaq sağlamlığına və təhsilə, maarifə. İndi, bu yaşımda da bütün günü bu işlərlə məşğul oluram.

Mən təxminən 25 il Ümumdünya Pediatrlar Cəmiyyətinin sədri vəzifəsini daşımışam. Orada gördüm ki, bu təşkilatın bir çox regional bölmələri var: Avropa, Amerika, fransızdilli ölkələr regionu, ərəb regionu və sair. Mən də bundan istifadə edərək, həmin cəmiyyətin türkdilli ölkələr üzrə regionunu yaratdım. Zənnimcə, bu, çox faydalı oldu. Çünki beləliklə, türkdilli region da beynəlxalq miqyasda öz yerini tutmuş oldu. Bu münasibətlə hər il bir türkdilli ölkədə uşaq həkimlərinin iştirakı ilə tədbir keçiririk. Bu işə Ankarada başladıq, sonra Daşkənddə, Almatıda, Bişkekdə və əlbəttə, Bakıda Sizin rəhbərliyiniz altında toplaşdıq. Bununla da eyni dilə və dinə, eyni kökə və mədəniyyətə mənsub olan bu millətləri yalnız diplomatiya səviyyəsində deyil, həm də xalq səviyyəsində, həkimlər səviyyəsində bir yerə toplamağa nail olduq. Bunun sayəsində mənim həmkarlarım, yəni uşaq həkimləri gördülər ki, aramızda çox yaxınlıq var və bir-birimizdən çox şeylər öyrənə bilərik.

Mən sovet dövründə də Bakıda olmuşdum - təxminən 20 il bundan əvvəl. Ondan sonra da bir neçə dəfə Bakıya gəlmişəm. 3-5 illik fasilə bir yana, hər il əvvəlki ildən daha çox inkişaf olduğunu şəxsən görmüşəm. Buna da inanıram ki, Sizin liderliyinizlə bu gözəl ölkə daha çox xoşbəxtliyə nail olacaqdır.

Bayaq dediniz ki, mənə bu gün «İstiqlal» ordeni təqdim edəcəksiniz. Bu, əslində bir insanın əldə edə biləcəyi ən yüksək şərəfdir. Bu səviyyədə olmasa da mənə bəzi ordenlər verilibdir. Ancaq bu ordenin mənə öz millətimin təmsilçisi, prezidenti tərəfindən verilməsi həmin ordenin qiymətini dəfələrlə artırır. Bizi qəbul etdiyiniz üçün Sizə çox təşəkkür edirəm. Əminəm ki, yanımdakı dostlarım, həmkarlarım mənim bu hisslərimi paylaşırlar. İmkan olsaydı, buraya bəlkə də min adam gələ bilərdi.

**H e y d ə r Ə l i y e v:** Gərək gələydi. Bizim qəlbimiz genişdir.

**İ h s a n D o ğ r a m a c ı:** Onu bilirəm. Ancaq orada işlər dayanardı. Ona görə də buradakı nümayəndə heyətinə daxil olanlar onların təmsilçiləridir. Bunlar hazırda rektor olanlar və ya vaxtilə rektor işləmiş insanlardır. Biz onlara «köhnə rektorlar» deyirik.

**H e y d ə r Ə l i y e v:** Siz onlara «əski rektor» deyirsiniz. Biz «köhnə rektor» deyirik.

**İ h s a n D o ğ r a m a c ı:** Bundan beş il əvvəl buraya gələrkən qrupumuzda həm rektorlar, həm də əski rektorlar vardı. Mən əski rektorları kiminləsə tanış edəndə deyirdim: «Əski rektor filankəs». Deyirdilər: «Hə, köhnə rektor». Mən isə deyirdim: «Yox, canım, köhnə deyil, sağlam rektordur».

**H e y d ə r Ə l i y e v:** İhsan bəy, biz köhnə rektora «köhnə» demirik, «keçmiş rektor» deyirik.

**İ h s a n D o ğ r a m a c ı:** Mən onları təqdim edəndə bu ifadə çox xoşumuza gəldi. Anladıq ki, «köhnə» pis bir söz deyil. Ondan sonra Ankaraya getdik, istəyirsiniz inanın, istəyirsiniz yox, - orada «köhnə rektorlar klubu» yaratdıq. O vaxt mənimlə birlikdə Bakıda olan həmkarlarım, yəni köhnə rektorlar 2-3 aydan bir həmin klubda toplaşaraq, beş il əvvəlki Bakı xatirələrini dilə gətirirlər. Bundan sonra hazırda iş başında olan bəzi rektorlar «Biz nə

vaxt köhnə olub sizə qoşula bilərik?» deyə soruşdular. Mən də onlara dedim ki, gərək biz toplaşıb elə bir qərar qəbul edək ki, hər kəs bu şərəfə nail ola bilməsin.

Hörmətli prezident!

Sizə öz dərin minnətdarlığımı ərz edirəm. Biz Azərbaycanda olduğumuz vaxt ərzində çox xoş təəssüratlar əldə etdik və Türkiyəyə dolu ürəklə qayıdacağıq. Buna tam qayıtmaq demək olmaz, çünki ürəyimizin bir parçası burada qalacaq. Sağ olun.

**Heydər Əliyev:** Sağ olun, təşəkkür edirəm.

**İhsan Doğramacı:** Möhtərəm prezidentim! Biz Sizə xatirə olaraq bəzi kiçik hədiyyələr gətirmişik. Mənim dostlarım dedilər ki, bunu axşam adamlar çox olan zaman verməyin, burada, daha səmimi şəraitdə təqdim edin. İcazə versəniz, onları Sizə təqdim edərdim.

**Heydər Əliyev:** Yox, burada sizin yubileyiniz keçirilir, ona görə də bütün hədiyyələr sizin olmalıdır.

**İhsan Doğramacı:** Sağ olsunlar, dostlarım buraya gəlməzdən əvvəl mənə iki hədiyyə verdilər. Mənim əsl doğum günüm aprelin 3-dür. Aprelin 3-də xeyli hədiyyə aldım. Biz hər hansı bir yubiley tədbiri keçirmədik. Ancaq yenə də hədiyyələr gəldi. Bu dəfə «biz bilməmişik, sən demə, doğum gününüz aprelin 24-ü imiş» deyə, yenə hədiyyələr verdilər. Mən hədiyyələrimi iki dəfə qəbul etmişəm. Bunlar elə də böyük şey deyil, izn versəniz, Sizə təqdim edərdim.

**Heydər Əliyev:** Buyurun, bir halda ki, israr edirsiniz...

**İhsan Doğramacı:** Əfəndim, bu, Osmanlı Xanədanının tuğralarıdır.

**Heydər Əliyev:** Tuğra nədir?

**İhsan Doğramacı:** İzah edim: tuğra o zamanın möhürüdür. Hər padşahın öz möhürü vardı. Bunların birincisində osmanlıca ərəb hərfləri ilə «Heydər Əliyev» yazılıb. İkincisində isə müasir türkcə ilə «Heydər Əliyev əl-Müzəffər daima» yazılıbdır. Çünki vaxtilə Osmanlı padşahlarının daim müzəffər olması, zəfər qazanması arzulanıbdır.

**Heydər Əliyev:** Çox sağ olun. Bunları göstərin, qoy televiziyada görsünlər. Bu hədiyyələrə görə çox sağ olun. Onlar çox gözəldir.

**İhsan Doğramacı:** Hörmətli prezident, indi müxtəlif qruplar Sizə öz hədiyyələrini təqdim edəcəklər.

**Heydər Əliyev:** İhsan bəy, sənin yubileyindir, mənə hədiyyə nə lazımdır? Yaxşı, sən verə bilərsən, amma heç istəməzdim ki, başqaları bunu etsinlər.

**İhsan Doğramacı:** Bu, Bilkənd universitetinin Sizə hədiyyəsidir.

**Əli Doğramacı** (*Bilkənd universitetinin rektoru*):

Hörmətli prezident, su həyatdır. Siz Azərbaycanın istiqlalına, inkişafına həyat bəxş etdiniz. Bu su qabı Sizin Azərbaycana gətirdiyiniz həyatın rəmzidir. Mən onu Bilkənd universiteti adından hörmətlə Sizə təqdim edirəm.

**Heydər Əliyev:** Sağ olun.

**İhsan Doğramacı:** Hörmətli prezident, indi isə İstanbul qrupu adından köhnə rektorlarımızdan Möhtəşəm Giray Sizə öz hədiyyəsini təqdim edəcəkdir.

**Möhtəşəm Giray:** Hörmətli prezident, bu lövhədə Mustafa Kamal Atatürkün 1933-cü ildə söyləmiş olduğu nitqdən bir parça yazılıbdır. İcazə versəniz, onu oxuyardım.

**Heydər Əliyev:** Buyurun, oxuyun.

**Möhtəşəm Giray** (*mətni oxuyur*): «Bu gün Sovetlər Birliyi dostumuzdur, qonşumuzdur, müttəfiqimizdir. Bu dostluğa ehtiyacımız vardır. Fəqət sabah nə olacağını heç kim bilə bilməz. Eynən Osmanlı kimi, eynən Avstriya-Macarıstan kimi parçalana, dağıla bilər. Bu gün əlində möhkəm-möhkəm tutduğu millətlər ovuclarından qaça bilərlər. Dünya yeni bir tarazlığa çata bilər. Bax, o zaman Türkiyə nə edəcəyini bilməlidir. Bu dostlarımızın hakimiyyəti altında bizim dili bir, inancı bir, özü bir olan qardaşlarımız vardır. Onlara sahib çıxmağa hazır olmalıyıq. Hazır olmaq yalnız susub o günü gözləmək deyildir. Hazırlaşmaq lazımdır. Millətlər buna necə hazırlaşır? Mənəvi körpülərini sağlam şəkildə quraraq. Dil bir körpüdür, inanc bir körpüdür, tarix bir körpüdür. Biz köklərimizə qayıtmalı və hadisələrin yaratdığı tariximizin içində bütövləşməliyik. Xarici ölkələrdə yaşayan türklərin bizə yaxınlaşmasını gözləməməliyik, biz onlara yaxınlaşmalıyıq».

Cənab prezident, mən Mustafa Kamal Atatürkün kitabını da Sizə təqdim etmək istəyirəm.

**Heydər Əliyev:** Mustafa Kamal Atatürk çox böyük şəxsiyyətdir. O, Türkiyə kimi bir cümhuriyyət qurub yaratdı. O, eyni zamanda, çox uzaqgörən bir insan idi. Siz oxuduğunuz bu sözlər mənə məlumdur. Ancaq Atatürkün nitqindən bir parçanı burada bir daha səsləndirməyiniz, təkrar etməyiniz onu göstərir ki, Atatürk çox uzaqgörən bir insan olubdur. O, hələ 1933-cü ildə 1991-ci ildə baş verə biləcək hadisələri görüb və nə etmək lazım olduğunu türk xalqına söyləyibdir.

Mən bu hədiyyədən çox məmnunam. O, ən qiymətli hədiyyədir. Sağ olun.

**İhsan Doğramacı:** Cənab prezident, Mərmərə Universitetinin rektoru da Sizə bir hədiyyə təqdim etmək istəyir.

**Turay Yardımcı** (*Mərmərə universitetinin rektoru*): Cənab prezident, inşallah, Azərbaycan və Türkiyə universitetləri arasındakı əməkdaşlıq davam edəcəkdir. Bu hədiyyə İstanbuldakı universitetlər adındandır.

**H e y d ə r Ə l i y e v:** Çox sağ olun.

Biz hamımız bir saatdan sonra Respublika sarayında olmalıyıq. Ona görə də mən Sizi burada çox saxlamaq istəmirəm. Sizin bir saat vaxtınız vardır. Bilirəm, yol gəlmisiniz, Ankaradan buraya gəlmisiniz, iki saat on dəqiqə havada olmusunuz, yorulmusunuz. Dincəlin, saat 6-da yenidən bərabər olacağıq. Sağ olun.

## TÜRK DÜNYASININ GÖRKƏMLİ OĞLU, DÜNYA ŞÖHRƏTLİ ALİM, AZƏRBAYCAN XALQININ BÖYÜK DOSTU İHSAN DOĞRAMACININ 85 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ

*Respublika sarayı*

*24 aprel 2000-ci il*

Əziz dostum, qardaşım İhsan Doğramacı!
Əziz bacım Ayser xanım!
Türkiyə Cümhuriyyətindən bu təntənəli mərasimə təşrif gətirmiş qonaqlarımız!
Hörmətli xanımlar və cənablar!

Bu gün bu bayram münasibətilə sizin hamınızı ürəkdən təbrik edirəm. Sizə və bütün Azərbaycan xalqına qəlbimdən gələn səmimi salamlarımı göndərirəm.

Bu gün bu möhtəşəm Respublika sarayındakı təntənəli mərasim Azərbaycan xalqının böyük dostu İhsan Doğramacının 85 illik yubileyinə həsr olunmuşdur.

Mən çox məmnunam və təşəkkür edirəm ki, dostum, qardaşım İhsan Doğramacı, Ayser xanım, ailə üzvləri və onların dostları, həmkarları, professorlar, ictimai-siyasi xadimlər onunla birlikdə bu gün Türkiyədən, Ankaradan Azərbaycana gəliblər. Bu, qeyri-adi bir hadisədir. İhsan Doğramacının təyyarəsində qardaş Türkiyə Cümhuriyyətindən yüzdən çox dostumuz, İhsan Doğramacının dostları Azərbaycana, Bakıya gəliblər və bu yubiley şənliklərində bizimlə bərabər iştirak edirlər.

Bunlar heç də təsadüfi deyildir. Çünki İhsan Doğramacının 85 illiyinə həsr olunmuş bu yubiley onun şəxsiyyətinə, türk xalqı, türkdilli xalqlar, türk dünyası qarşısında göstərdiyi xidmətlərə, bəşər tarixinə yazdığı səhifələrə olan hörmətin, ehtiramın təzahürüdür.

Alimlərimiz, nazirlərimiz bu gün İhsan Doğramacı haqqında ürək sözlərini dedilər. Onların çıxışlarında İhsan Doğramacının həyat yolu, fəaliyyəti, əldə etdiyi nailiyyətlər və göstərdiyi xidmətlər bu gün Azərbaycan vətəndaşlarına çatdırıldı. Amma bu, bizim üçün yeni deyildir. Biz hörmətli İhsan Doğramacının beş il bundan öncə 80 illik yubileyini Azərbaycanda təntənə ilə qeyd edərkən onun xidmətləri haqqında geniş məlumatlar verilmişdi.

Bu nadir şəxsiyyətin həyat yolunu, fəaliyyətini və bəşəriyyət qarşısında göstərdiyi xidmətləri bu gün yenidən yada salarkən düşünürsən - o, nə qədər böyük insandır, nə qədər nadir bir şəxsiyyətdir, bizlər üçün, türk dünyası üçün, bəşəriyyət üçün dəyərli bir sərvətdir.

Hörmətli İhsan Doğramacı həqiqətən öz işləri, öz elmi və ictimai fəaliyyəti ilə, elm, təhsil, səhiyyənin inkişafındakı xidmətləri, vətənpərvərliyi, türk dünyasına daim göstərdiyi sədaqət ilə özü-özünə bir abidə yaratmışdır. İndi baxırsan, bu salonda bizim dostumuz, qardaşımız İhsan Doğramacıdır. Eyni zamanda, ona baxarkən düşünürsən ki, o, yüksək məna daşıyan abidədir.

Hörmətli İhsan Doğramacı həqiqətən gənc yaşlarından öz fitri istedadından məharətlə istifadə edərək həyatını xalqa, millətə, cəmiyyətə, bəşəriyyətə xidmət etməkdə görübdür. O, bu xidməti edibdir, yorulmadan, ardıcıl olaraq, dayanmadan, usanmadan bu gün də edir və sabah da, gələcəkdə də, yüz yaşına qədər edəcəkdir.

Hörmətli İhsan Doğramacı Türkiyədə böyük hörmətə malikdir. O, dünyanın əksər ölkələrində böyük şöhrət qazanıbdır. Türk dünyasında, türkdilli dövlətlər birliyində çox böyük hörmət, ehtiram qazanıbdır. Azərbaycanda isə hörmətli İhsan Doğramacıya xüsusi məhəbbət və sevgi vardır. Düşünürəm ki, bu da qarşılıqlıdır.

Hörmətli İhsan Doğramacının qəlbi çox genişdir. O geniş qəlbdə milyonlarla-milyonlarla səmimi hissiyyatlar yaşayır. Onların içərisində Azərbaycana olan sevgi, məhəbbət də görkəmli yer tutur. Bunu hiss edən Azərbaycan xalqı hörmətli İhsan Doğramacıya öz sevgisi, məhəbbəti ilə cavab verir və öz hörmət, ehtiramını göstərir.

İhsan Doğramacının 85 il ərzində - gənclik dövründən başlayaraq - fəaliyyəti çoxsahəlidir, çoxşaxəlidir. O alimdir, həkimdir, ictimai xadimdir, maarifçidir, maarif-təhsil qurucusudur, dünyanın bir çox mühüm problemlərinin həll olunmasında iştirak edir, sülh, əmin-amanlıq uğrunda mübarizə aparır. Onun həddindən artıq çoxsahəli fəaliyyəti vardır. Bunun da səbəbi odur ki, bu böyük zəkalı insan təkcə əvvəlcədən seçdiyi sənət çərçivəsində yaşaya bilməzdi. Zəkası, iradəsi, böyük qəlbi onu bu qədər böyük işlər görməyə sövq edibdir. Hörmətli İhsan Doğramacı bunları da müvəffəqiyyətlə həyata keçiribdir.

Ancaq bütün bu işlərin içərisində burada daha çox səslənən pediatriya haqqında danışmaq istəyirəm. Biz buna uşaq həkimi deyirik. Həkimlik sənəti insan cəmiyyətində ən yüksək qiymətə, hörmətə malik olan bir sənətdir. Çünki bu, hər bir insan üçün, demək, cəmiyyət, dövlət, bəşəriyyət üçün lazımdır. Ona görə də bu sənət Azərbaycanda həmişə hörmətli, şöhrətli olubdur, bu gün də belədir və gələcəkdə də belə olacaqdır. Ancaq həkimlik sənəti də çoxsahəlidir. Hesab edirəm ki, həkimlik sənəti içərisində uşaq həkimi ən vacib və hörmətli sənətdir.

Elə bir insan yoxdur ki, uşağı sevməsin. Hər bir insan, hər bir ata, hər bir ana özündən çox övladını, uşağını sevir. Bu, ailə çərçivəsində olan anlayışdır. Ancaq millət üçün, dövlət üçün, ölkə üçün, xalq üçün uşaq, gənclik hər şeydən qiymətlidir. Uşağın dünyaya gəlməsi, onun sağlam böyüməsi, gənc nəslin yaxşı təhsil alması hər bir millətin, xalqın ən dəyərli sərvətidir. Çünki o, millətin, xalqın gələcəyidir, millətin, xalqın daimiliyidir, əbədiliyidir.

Hörmətli İhsan Doğramacının məhz bu sahəyə lap gənc vaxtlarından maraq göstərməsi və ömrü boyu başqa fəaliyyətlərlə yanaşı, bu sahəni həmişə özü üçün böyük bir vəzifə etməsi bir insan kimi onun nə qədər böyük mənəviyyata malik olduğunu, eyni zamanda xalq, millət üçün, onun gələcəyi üçün bu sahənin nə qədər əhəmiyyətli olduğunu göstərir.

İhsan Doğramacı haqqında burada deyilən sözlər, əlbəttə ki, onun fəaliyyətinin hamısını əhatə etmir. Bu barədə kitablar, əsərlər yazılır və yazılacaqdır. Ancaq mən bir sözü cəsarətlə deyə bilərəm ki, bəşəriyyətin nadir şəxsiyyətlərindən biri də bizim əziz dostumuz, qardaşımız İhsan Doğramacıdır.

Azərbaycanın dövlət başçısı olaraq mən məhz buna görə 1995-ci ildə qərar qəbul etdim ki, dostumuz hörmətli İhsan Doğramacının 80 illik yubileyi ölkəmizdə təntənəli şəkildə qeyd olunsun və biz bunu etdik, həmin mərasim Opera və Balet Teatrında keçirildi. Təkcə bu mərasim deyildi, o zaman çoxlu görüşlər oldu, başqa tədbirlər keçirildi.

Bəli, burada dedilər, o vaxt mən arzu etdim ki, dostum, qardaşım İhsan Doğramacı yüz il yaşasın. Amma bu gün düşünürəm ki, bir səhv etmişəm, ona az yaş vermişəm, onun üçün yüz il azdır. Nə üçün? Çünki beş il bundan əvvəl sizin də, bizim də gördüyümüz İhsan Doğramacı eyni şəkildə bu gün də bizim qarşımızdadır. Bu beş il müddətində onun yaşı artıbdır. Amma bu insanın həyatında, yəni işləmək qabiliyyəti, fikirləşmək qabiliyyəti, fiziki qabiliyyəti - hamısı yerindədir. Mən bu gün dedim ki, bu beş il müddətində bəlkə də o, daha da gəncləşibdir, cavanlaşıbdır. Ona görə də mən bu gün vaxtı artırıram və deyirəm: yüz yaşa, yüz yaşdan sonra daha bir yüz il də yaşa!

İhsan Doğramacı çox böyük insani keyfiyyətlərə malik olan bir şəxsdir. O, çox diqqətlidir, çox qayğıkeşdir, dostluqda çox sədaqətlidir. Həm Türkiyədə, həm Azərbaycanda bunu çoxları yaxşı bilir. Çünki hər kəs bunu öz həyatında hiss edibdir. Bizim Azərbaycandan nə qədər alimlər, incəsənət xadimləri - bəstəkarlar, musiqiçilər 1991-1992-ci illərdən başlayaraq Türkiyədə İhsan Doğramacının himayəsi altında işləyiblər və bu gün də çoxları Bilkənd universitetində onunla bərabər çalışır. O, hər bir kəsə qayğı göstərir, çox diqqətlidir.

Bunu mən öz şəxsi həyatımda da hiss etmişəm. Bilirsiniz ki, bir il bundan öncə, mən Amerika Birləşmiş Ştatlarında olarkən ürəyimdə cərrahiyyə əməliyyatı aparmaq zəruriyyəti meydana çıxdı. Bu cərrahiyyə əməliyyatı keçən il aprelin 29-da oldu. Azərbaycandan mənim yanıma çoxlu adamlar gəlmək istəyirdi.

Mən göstəriş verdim ki, heç kəs narahat olmasın. Çünki bu müalicədir, mən müalicəni qurtarıb gələcəyəm. Dostum İhsan Doğramacı da mənə müraciət etdi. Mən çox xahiş etdim ki, siz narahat olmayın, tezliklə gələcəyəm. Həkimlər mənə belə deyirlər. Amma o, mənim sözlərimi qəbul etmədi, Türkiyədən 18 saat fasiləsiz olaraq təyyarə ilə uçub Klivlendə gəldi, məni ziyarət etdi.

Biz 1999-cu il may ayının 10-nu əziz dostum, qardaşım İhsan Doğramacı ilə birlikdə Klivlend xəstəxanasında keçirdik. Bəzən gənclər də bu cür böyük səfərə çıxa bilmirlər. Amma İhsan Doğramacı keçən il bunu etdi. Ona görə də deyirəm ki, o, günü-gündən gəncləşir. Əgər 18 saat təyyarə ilə Klivlendə gəldi və oraya çatan kimi mənimlə görüşdüsə, hesab edirəm ki, indi o, kosmonavtlarla da yarışa bilər, lazım olsa kosmosa da uça bilər.

Bilirsiniz ki, Azərbaycanda elmə, mədəniyyətə, təhsilə, incəsənətə həmişə böyük hörmət olubdur. Biz bu ənənəni bu illərdə də saxlayırıq, yaşadırıq, inkişaf etdiririk. Baxmayaraq ki, həyatımızda bir çox çətin və ağır problemlər vardır. Baxmayaraq ki, Azərbaycan dövlət müstəqilliyini əldə edən zaman, 1991-ci ilin sonunda Ermənistan ilə müharibə vəziyyətində idi, ölkəmizin torpaqları işğal olunurdu və bu işğal da davam edirdi.

Baxmayaraq ki, Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur və işğal edilmiş torpaqlardan bir milyondan artıq soydaşımız zorla çıxarılıb, ağır vəziyyətdə çadırlarda yaşayır.

Biz 1994-cü ilin may ayında atəşi dayandırmışıq, atəşkəs haqqında saziş imzalamışıq. Atəş yoxdur. Biz münaqişəni sülh yolu ilə həll etmək istəyirik. Bu, asan deyil, çətindir. Biləsiniz ki, çox çətindir. Biz çox yollardan istifadə etmişik və bu gün də istifadə edirik, edəcəyik. Bu gün bəyan edirəm ki, biz münaqişənin mütləq sülh yolu həll edilməsinə nail olacağıq. Azərbaycanın işğal edilmiş torpaqları azad olunacaqdır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır və doğma yurdundan çıxarılmış soydaşlarımız öz yerlərinə, Qarabağa qayıdacaqdır və biz İhsan Doğramacı ilə Qarabağda da görüşəcəyik.

Bizim bir çox başqa problemlərimiz, çətinliklərimiz də vardır. İndi iqtisadiyyatımız inkişaf edir. Amma biz xalqımıza istədiyimiz səviyyədə həyat tərzi yarada bilməmişik. Keçid dövrü yaşayırıq. Amma Azərbaycan xalqının çox gözəl gələcəyi vardır. Biz bu keçid dövrünü uğurla keçirik, keçəcəyik və Azərbaycan iqtisadi cəhətdən inkişaf etmiş, mədəniyyəti inkişaf etmiş, xalqının rifah halı yüksəklərə qalxmış bir ölkə olacaqdır. Buna əmin ola bilərsiniz.

Ancaq biz indi bu çətinliklər şəraitində mədəniyyətimizə, elmimizə, irsimizə, xalqımızın tarixinə həmişə qiymət verməyi, onu qeyd etməyi özümüzə borc bilirik. Bu da lazımdır. Çünki yaşayış nə qədər çətin olsa da, gərək insan mənəviyyatı yüksək olsun. Mənəviyyatın yüksəkliyi də insanın millət kimi mənliyindədir, məziyyətindədir, vətənpərvərliyindədir. Ona görə də gərək insan öz tarixini, millətinin kökünü, öz millətinin keçmişdə yaratdığı abidələri bilsin. Ona görə bilsin ki, öz milləti, xalqı ilə daim fəxr etsin, vətənpərvər olsun, xalqına, millətinə, torpağına, dövlətinə sədaqətli olsun. Ona görə belə tədbirlərin çox əhəmiyyəti vardır.

Biz ulu babamız, Azərbaycan xalqının, bütün türkdilli xalqların böyük tarixi abidəsi «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyini aprelin 9-da Bakıda, bu salonda türkdilli dövlətlərin başçılarının, nümayəndə heyətlərinin, bir çox ölkələrdən gəlmiş ictimai-siyasi xadimlərin, alimlərin, qorqudşünasların, şərqşünasların iştirakı ilə təntənə ilə keçirdik. Xalqımızın böyük şairi, dahi insan Məhəmməd Füzulinin yubileyini bir neçə il bundan öncə burada keçirdik. Biz vaxtilə burada böyük şair Nəsiminin 600 illik yubileyini, Nizami Gəncəvinin yubileyini keçirmişik. Biz Azərbaycan xalqının mədəniyyətini, elmini son dövrdə inkişaf etdirmiş insanların - dünyasını dəyişmiş insanların da, bu gün yaşayanların da yubileylərini keçirmişik. Biz bu salonda ancaq ən yüksək qiymətə layiq olan insanların yubileyini keçirmişik. Bu gün İhsan Doğramacının 85 illik yubileyinin Azərbaycanın möhtəşəm Respublika sarayında təntənəli şəkildə keçirilməsi İhsan Doğramacını bəşər tarixinə qızıl hərflərlə səhifələr yazmış həmin o insanlara bərabər edir, onların səviyyəsinə qaldırır.

Hörmətli İhsan Doğramacı Türkiyə-Azərbaycan əlaqələrinin yaranmasında, inkişaf etməsində böyük xidmətlər göstərmiş və göstərməkdədir. Hamıya - bütün dünyaya, bizim xalqlarımıza məlumdur ki, Azərbaycan xalqı ilə Türkiyə xalqı arasındakı tarixi köklər, tarixi birlik - dilin, adət-ənənələrin, milli dəyərlərin, dinin birliyi - hamısı birlikdə tarixən bizi həmişə bir yerdə, bir-birimizlə bağlı edibdir. Zaman olubdur ki, biz bir-birimizdən məcburən ayrı düşmüşük. Ancaq 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini əldə edən kimi Türkiyə-Azərbaycan əlaqələri, demək olar ki, şimşək sürəti ilə inkişaf etməyə başladı. Bu əlaqələr inkişaf edir və bundan sonra da inkişaf edəcəkdir.

Azərbaycan üçün Türkiyə Cümhuriyyəti ilə olan əlaqələr xüsusi əhəmiyyət daşıyır. Bunu Türkiyədə də belə qiymətləndirirlər, biz də belə qiymətləndiririk. Biz keçid dövründə olduğumuz zaman, bazar iqtisadiyyatı yolu ilə gedərkən, ölkəmizdə hüquqi, demokratik və dünyəvi dövlət qurarkən, ölkəmizi dünyanın inkişaf etmiş dövlətləri sırasına çatdırmağa çalışarkən Türkiyənin təcrübəsindən istifadə edirik.

Biz böyük öndər Mustafa Kamal Atatürkün yaratdığı Türkiyə Cümhuriyyətinin keçdiyi tarixi yoldan, Türkiyə Cümhuriyyətinin bugünkü nailiyyətlərindən istifadə edirik. Böyük Atatürk bizə örnək olduğu kimi, onun yaratdığı Türkiyə Cümhuriyyəti də bizim üçün örnəkdir, iftixar mənbəyidir.

Bizim ölkələrimizin bütün sahələrdə - siyasi, iqtisadi, elmi, mədəni sahələrdə əlaqələri inkişaf edir. Bu, bizim strateji yolumuzdur. Biz onu inkişaf etdiririk və etdirəcəyik.

1998-ci ilin oktyabr ayında bir çox ölkələrin dövlət başçıları ilə birlikdə biz Mustafa Kamal Atatürkün yaratdığı Türkiyə Cümhuriyyətinin 75 illik yubileyini qeyd etdik. Mən həmin yubiley mərasimlərində böyük iftixar hissi ilə iştirak etdim.

Bilirsiniz ki, məhz o vaxt ilk dəfə Ankarada Bakı–Ceyhan əsas ixrac neft kəmərinin tikilməsi ilə əlaqədar «Ankara bəyannaməsi» imzalandı. Türkiyə Cümhuriyyətinin prezidenti hörmətli Süleyman Dəmirəl, Qazaxıstan Pespublikasının prezidenti hörmətli Nursultan Nazarbayev, Gürcüstan prezidenti hörmətli Eduard Şevardnadze, Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev bəyannamə imzaladılar. Həmin bəyannaməni Amerika Birləşmiş Ştatlarının enerji naziri cənab Riçardson da imzaladı. Bununla da biz 1994-cü ilin sentyabr ayında ilk dəfə Azərbaycanda «Əsrin müqaviləsi»ni yaradarkən Bakı–Ceyhan əsas ixrac boru kəmərinin çəkilməsi barədə qəbul etdiyimiz qərarı artıq beynəlxalq səviyyəyə qaldırdıq.

Bu günlərdə Türkiyə Böyük Millət Məclisinin 80 illik yubileyi qeyd olunur. Bu Millət Məclisinin də yaradıcısı, qurucusu böyük Mustafa Kamal Atatürkdür. Milli Məclisin sədri Murtuz Ələsgərovun başçılıq etdiyi Azərbaycan nümayəndə heyəti bu yubiley mərasimlərində iştirak edib, ölkəmizin hörmətini, məhəbbətini, sevgisini orada nümayiş etdiribdir. Onlar bu gün İhsan Doğramacının təyyarəsindən istifadə edərək Azərbaycana dönüblər.

Bəli, bu da böyük hadisədir. Çünki Türkiyədə cümhuriyyəti yaratmaq üçün həmin o Böyük Millət Məclisini yaratmaq lazım idi. Mustafa Kamal Atatürk çox dahi bir insan idi. O, Türkiyəni ağır vəziyyətdən çətinliklərlə çıxardı. Onun birinci addımı bu oldu ki, 80 il bundan əvvəl Türkiyənin Böyük Millət Məclisini yaratdı. Sonra isə- 1923-cü ildə o, Türkiyə Cümhuriyyətini yaratdı, həyatının sonuna qədər də həmin Cümhuriyyətin cümhur başkanı, prezidenti oldu.

Biz bu gün çox məmnunuq və çox sevinirik ki, Türkiyə Cümhuriyyəti, xalqı böyük öndər Mustafa Kamal Atatürkün yolu ilə gedir, onun yoluna sadiqdir və bundan sonra da sadiq olacaqdır. Əziz dostum, qardaşım İhsan

Doğramacının həyat fəaliyyəti, Türkiyədə təhsilin inkişafı, maarifçiliyin, səhiyyənin və xüsusən pediatriyanın inkişafı sahəsində göstərdiyi xidmətlər məhz Mustafa Kamal Atatürkün yoluna olan sədaqətin təzahürüdür.

Türkiyə-Azərbaycan dostluq, qardaşlıq, əməkdaşlıq əlaqələrinin yaranmasında, inkişaf etməsində birinci növbədə, bizim xalqlarımızın - Türkiyə və Azərbaycan xalqlarının iradəsi vardır. Bununla bərabər, təbiidir ki, ictimai xadimlərin, siyasi xadimlərin, dövlət, elm, mədəniyyət xadimlərinin böyük xidmətləri vardır. Ona görə də Türkiyə-Azərbaycan əlaqələrinin yaranmasında, inkişaf etdirilməsində Türkiyədə xidmət göstərmiş hər bir şəxsə, insana mən bu gün hörmət və ehtiramımı bildirirəm, təşəkkür edirəm.

Ancaq Türkiyədə bu sahədə ən çox xidmət göstərmiş, zəhmət çəkmiş insan Türkiyə Cümhuriyyətinin prezidenti, Azərbaycanın böyük dostu, mənim əziz dostum, qardaşım Süleyman Dəmirəl olmuşdur.

Bəli, 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini əldə edən zaman Türkiyə Cümhuriyyəti, hökuməti Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkə olmuşdur. Həmin hökumətin başında da hörmətli Süleyman Dəmirəl durmuşdur. O vaxtdan indiyə qədər Türkiyə-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsində onun xidmətləri əvəzsizdir. Ona görə də əziz dostum, qardaşım Süleyman Dəmirəl müstəqil Azərbaycanın ən yüksək mükafatı olan «İstiqlal» ordeninə layiq görülübdür. Həmin ordeni – «İstiqlal» ordenini burada, bu salonda mən böyük fərəh hissi ilə ona təqdim etmişəm.

Bugünkü təntənəli mərasim də təkcə dostumuz, qardaşımız İhsan Doğramacının 85 illiyinə həsr olunmayıbdır. Bu mərasimin mənası genişdir. Onun mənası ondan ibarətdir ki, türkdilli xalqların, Azərbaycan xalqının, Türkiyə xalqının böyük oğlu İhsan Doğramacının 85 illik yubileyi eyni zamanda Türkiyə-Azərbaycan dostluq, qardaşlıq əlaqələrinin inkişafına, türk dünyasının birliyinin daha da inkişafına xidmət edir. Bax, bunlar hamısı bir-biri ilə bağlıdır. Ona görə də mən çox məmnunam ki, biz dostumuz hörmətli İhsan Doğramacının yubileyini Azərbaycanda təntənəli şəkildə keçiririk. Beləliklə, Türkiyə-Azərbaycan dostluq, qardaşlıq əlaqələrinin inkişaf etməsi üçün yeni bir addım atırıq.

Əziz dostum İhsan Doğramacı!
Hörmətli Ayser xanım!
İhsan Doğramacı ailəsinin üzvləri!
Burada olanlar və buraya gəlib çata bilməyənlər!
Türkiyədən gəlmiş hörmətli qonaqlarımız!
Sizi bir daha salamlayıram.

Əziz dostum, 85 illik yubileyiniz münasibətilə sizi ürəkdən təbrik edirəm. Heç şübhə etmirəm ki, 90 illik yubileyinizi, 95 illik yubileyinizi burada edəcəyik və 100 illik yubileyinizi də burada edəcəyik.

Əziz dostum, sən o illəri yaşayacaqsan, o yubiley günlərinə çatacaqsan, mən isə - Azərbaycan prezidenti Heydər Əliyev həmin yubileyləri təşkil edəcəyəm.

Artıq burada deyildi və mətbuatda da dərc olunubdur ki, Azərbaycan prezidentinin fərmanı ilə hörmətli İhsan Doğramacı Azərbaycanın ən yüksək mükafatı – «İstiqlal» ordeni ilə təltif olunubdur. Bu gün mən böyük iftixar hissi ilə müstəqil Azərbaycan dövlətinin bu yüksək mükafatını dostum, qardaşım, hörmətli İhsan Doğramacıya təqdim etmək istəyirəm.

Əziz dostum, qardaşım, mən səni yubiley münasibətilə bir daha təbrik edirəm.

Ayser xanım, sizi də təbrik edirəm.

Əziz dostum, sənə cansağlığı arzu edirəm, işində yeni-yeni uğurlar arzulayıram. Bütün arzularımızın yerinə yetirilməsini istəyirəm. Yəni 90, 95, 100 yaş - ondan sonra davam edəcəyik. Təbrik edirəm.

* * *

*Yubiley konserti başa çatdıqdan sonra Azərbaycan prezidentinin, professor İhsan Doğramacının və onun xanımı Ayser Doğramacının incəsənət ustaları ilə görüşü.*

**H e y d ə r Ə l i y e v**: İhsan bəy, mən burada bizim bu sənətçiləri konsertdən sonra həmişə təbrik edirəm. Bunlar çox böyük xidmət göstərirlər. Biz rəsmi hissədə danışdıq, sözlər dedik, amma bunlar da onu bəzədilər, gözəlləşdirdilər.

**İ h s a n D o ğ r a m a c ı:** Bu, əlanın əlası oldu.

**H e y d ə r Ə l i y e v:** Bəli, əlanın əlasıdır. Ona görə də indi bizim bu sənət ustaları sən görürsən ki, nə qədər yüksək səviyyədədirlər.

**İ h s a n D o ğ r a m a c ı:** Mən musiqi alətlərinin bir neçəsində ifa edə bilirəm.

**H e y d ə r Ə l i y e v:** İhsan Doğramacı deyir ki, siz beş il bizdən irəlisiniz.

**İ h s a n D o ğ r a m a c ı:** Bəli, ən azı beş il irəlisiniz. Bu, bir liderin belə qabiliyyətli balalara diqqəti nəticəsində ola bilər.

**H e y d ə r Ə l i y e v:** Həqiqətən Azərbaycanda mədəniyyət, incəsənət çox inkişaf edibdir. O da bax, bu insanların xidmətidir. Bunlar özlərini bu ağır sənətə həsr ediblər. Sağ olun, gözəl çıxış etdiniz. Təşəkkür edirəm.

## TÜRKİYƏNİN NATO-da DAİMİ NÜMAYƏNDƏSİ SƏFİR ONUR ÖYMƏN İLƏ GÖRÜŞDƏKİ SÖHBƏT

*Prezident sarayı*

*25 aprel 2000-ci il*

**H e y d ə r Ə l i y e v**: Sizinlə yenidən görüşməkdən çox məmnunam. Azərbaycana xoş gəlmisiniz. Bilirəm ki, Siz bir neçə gündür buradasınız, bizim Xarici İşlər Nazirliyində, başqa nazirliklərdə də görüşlər keçirmisiniz, çox faydalı söhbətləriniz, danışıqlarınız olubdur.

Çox yaxşı ki, bu vaxt gəlmisiniz. Bizim dostumuz, Sizin də dostunuz hörmətli İhsan Doğramacının 85 illik yubiley mərasimlərində bir yerdə olduq, iştirak etdik. Çox sağ olun.

**O n u r Ö y m ə n:** Hörmətli cümhur başkanım, sağ olun. Bizi lütf edib qəbul etdiyiniz üçün çox təşəkkür edirəm. Mən əslində özəl bir ziyarət üçün gəlmişdim. Hörmətli Doğramacının yubileyi münasibətilə təşkil etdiyiniz mərasimdə iştirak etmək imkanı tapdım. Ona görə də bundan xüsusi şərəf duyuram.

Hörmətli xarici işlər nazirinizlə, müdafiə nazirinizlə, Milli Məclis sədrinin müavini ilə, parlamentin Beynəlxalq münasibətlər üzrə daimi komissiyasının sədri ilə çox yararlı görüşlər keçirdik.

Bilirsiniz ki, mən Ankarada Xarici İşlər Nazirliyində işləyərkən çox yaxın təmaslarımız olurdu, işbirliyi qururduq. O dövrə nisbətən indi Bakıda, Azərbaycanda çox böyük inkişaf vardır. Həqiqətən çox sevindik. Hazırda NATO-da Türkiyənin təmsilçisi kimi çalışıram. Orada da çox dəyərli səfiriniz Mirhəmzə Əfəndiyevlə bərabər işləyirik. Azərbaycanın oradakı fəaliyyəti də çox yaxşı, çox fəal şəkildə gedir.

Bilirsiniz ki, NATO-nun 28 ölkə ilə tərəfdaşlıq əlaqələri vardır. Bu ölkələr içərisində Azərbaycan ən əhəmiyyətli olanlardan biridir. Biz bundan qürur duyuruq. Türkiyə olaraq hər bir fürsətdən yararlanaraq Azərbaycanı dəstəkləyirik. Hörmətli nazirlərlə, digər həmkarlarla bu mövzuda söhbətlər apardıq, daha yaxşı nə işlər görə biləcəyimizi müzakirə etdik. Türkiyə olaraq biz hər zaman yanınızdayıq. Bəlkə də bunu söyləmək gərəksizdir.

Mənim fikirlərim son dərəcə müsbətdir. Sizin liderliyinizlə Azərbaycan çox böyük inkişaf etmişdir. Mən Azərbaycana son dəfə 1996-cı ildə hörmətli cümhur başkanımızla gəlmişdim. Bu dörd il ərzində Azərbaycan tamam başqa bir ölkə olmuşdur. Çox sevindim.

**H e y d ə r Ə l i y e v** : Çox gözəl. Təşəkkür edirəm. Mən çox məmnunam və bunu dünən də söylədim ki, - burada İhsan Doğramacını və onunla gələn qonaqları qəbul edərkən bu söhbət meydana çıxdı ki, Azərbaycanda çox böyük inkişaf var, dəyişikliklər vardır. Mən dünən orada bir söz dedim. Dedim ki, Azərbaycanın bu günü ilə, gerçəkliyi ilə mümkün qədər tanış olun. Kim ilk dəfə gəlir, onun üçün çox maraqlıdır görsün ki, Azərbaycan nədir. Kim təkrar gəlirsə, yəni əvvəllər də gəlibsə, onun üçün də çox əhəmiyyətlidir- görəcəkdir o gördüyü zamandan bəri Azərbaycan geriyə gedibdir, yoxsa irəliyə gedibdir. Təbiidir ki, biz özümüz bilirik, hər il Azərbaycan nə qədər irəliyə gedir. Mən dünən də dedim, sonra orada, saraydakı nitqimdə də dedim,- Azərbaycanın çox problemləri vardır. Əgər Azərbaycanın ən böyük problemi, yəni Ermənistan-Azərbaycan münaqişəsi, Dağlıq Qarabağ problemi olmasaydı, indi Azərbaycanda inkişaf bundan neçə dəfə artıq olardı. Amma bu problem var. Bu problem nədir? Torpaqlarımızın 20 faizi işğal altındadır, bir milyon soydaşımız zorla yerindən-yurdundan çıxarılıbdır, çadırlarda yaşayırlar. Sülh yaranmayıbdır, atəşkəsdir. Sülh yaratmaq istəyirik. Torpaqlarımızı yenidən Azərbaycana qaytarmaq istəyirik. Azərbaycanın torpaq bütünlüyünü təmin etmək istəyirik. Bu, bir tərəfdən bizə mənəvi, mənfi təsir edir, ikinci tərəfdən bizə maddi cəhətdən çox böyük çətinliklər yaradır. Bir də ki, məsələn, Azərbaycanın prezidenti kimi, mənim işimin demək olar ki, 30-40 faizini bu problem alır. İndi təsəvvür edin, əgər bu problem olmasa, sülh olsa, mən bu 30-40 faizi də bizim başqa lazım olan işlərə həsr etsəm daha nələr olar. Amma təkcə mən yox, mənimlə bərabər çox insanlar bu işlə məşğuldurlar. Bu problemlər içərisində biz yenə də inkişaf edirik.

Bu günlərdə Dünya Bankı, Avropa Bankı, Beynəlxalq Valyuta Fondu buradadırlar, işləyirlər. Biz 1995-ci ilə qədər tənəzzüldəydik. Yəni bizim iqtisadiyyat aşağıya gedirdi, enirdi, geriyə gedirdi. 1995-ci ildə biz sabitlik yaratdıq. 1996-cı ildən inkişafa başladıq. Bu ilin üç ayı içərisində ümumi daxili məhsul yenə də altı faiz artıbdır. Bilirsiniz, inflyasiya yoxdur, üç-dörd ildir inflyasiya yoxdur. Bağışlayın, üzr istəyirəm, Türkiyə çox böyük işlər görür, amma indiyə qədər inflyasiyanı boğa bilmir. Düzdür, son vaxtlar azaldıbdır, amma boğa bilmir. Yəni bununla demək istəmirəm ki, bizim işlərimiz Türkiyədən yaxşıdır. Yox. Amma bu sahəni biz cilovlaya bilmişik, əlimizə ala bilmişik. Başqa şeylər də çoxdur.

Ona görə də mən çox məmnunam ki, siz 1996-cı ildə son dəfə gələndən indiyə qədər, bu dörd il içərisində olan dəyişiklikləri görürsünüz. Yenə də deyirəm, görmək lazımdır. Bizim dostlarımız gərək görsün və arxayın olsunlar ki, Azərbaycanda işlər yaxşı gedir və günü-gündən də yaxşı olacaqdır.

NATO ilə əlaqələrimizə gəldikdə isə, bəli, biz «Sülh naminə tərəfdaşlıq» proqramında iştirak edirik, başqa proqramda da iştirak edirik və bu iştirakımızı, bu işimizi də çox əhəmiyyətli hesab edirik.

İndi Türkiyənin imkanları var NATO-da xüsusi bir səfir saxlasın, səfir orada fəaliyyət göstərsin. Türkiyə həm də NATO-nun tam üzvüdür. Biz isə «Sülh naminə tərəfdaşlıq» proqramında iştirak edirik. Ancaq təcrübədə belə olubdur: Azərbaycan öz dövlət müstəqilliyini alandan sonra hansı ölkədə bir diplomatik nümayəndəlik yaratmağa çalışırsa, səfirlik açmaq istəyirsə, birinci növbədə Türkiyənin səfirliyinə gedibdir, Türkiyənin səfirliyində yerləşibdir. Ondan sonra özünə bir yer tapıbdır, ondan sonra öz işini qura bilibdir. İndi burada yenə də - düzdür, Brüsseldə bizim səfirliyimiz vardır, ancaq eyni zamanda bizim gərək Bürüsseldə üç səfirliyimiz olsun: biri diplomatik - Azərbaycan dövlətinin səfirliyi, biri Avropa Birliyində. Gərək bizim Avropa Birliyində səfirliyimiz olsun. Bu günlərdə mən onu təyin edəcəyəm. Artıq qərar qəbul etmişəm, sadəcə, ora insan axtarılır ki, kimi təyin edim. Onu təyin edəcəyəm. Amma NATO-da bizim işlərimizi yenə də sizdən xahiş edəcəyik ki, aparasınız. Bilirsiniz ki, bizim oraya vaxtaşırı nümayəndələrimiz də gəlirlər.

Bir də deyirəm, NATO ilə işbirliyinə biz xüsusi əhəmiyyət veririk və mən sizə çox təşəkkür edirəm ki, bu günlərdə həm Xarici İşlər Nazirliyində, həm Müdafiə Nazirliyində, həm Milli Məclisdə siz oradakı vəziyyət, problemlər haqqında yaxşı məlumatlar vermisiniz. Bunu mənə dərhal çatdırdılar, bildirdilər. Güman edirəm ki, Türkiyə bizimlə bərabər olan yerdə biz həmişə uğurla irəliyə gedəcəyik.

**O n u r Ö y m ə n**: Hörmətli cümhur başkanım, təbii. Mən Almaniyada səfir olan zaman Azərbaycanın səfirliyi açılırdı. Bizim səfirlikdə bir yer təsis etdik, hörmətli səfir Hüseynağa Sadıqov ilə bərabər çalışdıq. Onunla bərabər bir-iki il eyni binada işlədik. Sonra öz binalarına köçdülər. Amma qardaş kimi çalışdıq.

**H e y d ə r Ə l i y e v:** Elədir.

**O n u r Ö y m ə n:** Azərbaycan ilə bu qədər yaxın işbirliyi qurmaqdan çox məmnun olduq. Dediyiniz doğrudur, Türkiyə NATO-nun daimi üzvüdür. Orada daimi üzv olaraq Türkiyə, təbii ki, NATO ilə bağlı bütün məsələlərdə söz sahibidir.

Bizim ən önəmli işlərimizdən biri də Azərbaycan kimi ölkələrlə yaxın işbirliyi, sülh üçün bu ölkələrin güclərinin artırılması, istədikləri formada NATO ilə nəzəri işbirliyi qurmaları məsələləridir. Bu işlərdə Azərbaycan son dərəcə uğurlu çalışır. Biz də Türkiyə olaraq əlimizdən gələn hər cür köməyi göstəririk.

Azərbaycanın bugünkü vəziyyəti bir çox tərəfdaş ölkədən daha yaxşıdır. O, daha çox fəaliyyətə qatılır, təhsil proqramlarında daha yaxından iştirak edir. Ankarada «Sülh üçün ortaqlıq» adlı bir təhsil mərkəzimiz vardır. Azərbaycan orada da çox fəal iştirak edir. Yəni biz Azərbaycanın bu işlərinə çox məmnunuq.

Buyurduğunuz kimi, qaçqınlar məsələsi böyük bir ağrıdır. Yalnız Azərbaycan üçün deyil, dünya üçün ağrılıdır. Başqa bir ölkədə bu qədər qaçqın olsa, bütün dünya - dünya mətbuatı, siyasətçilər, qəzetlər ayağa qalxar. Azərbaycandakı bu böyük faciəni də dünyanın hər gün xatırlaması lazımdır. Yəni xalqın hər səkkiz nəfərindən biri qaçqın olan başqa ölkə yoxdur. Sizin bu qədər böyük bir yük altında bu hadisəni yaşamağınız həqiqətən tarixi bir olaydır. Bunu da davamlı olaraq dünya ictimaiyyətinin diqqətinə çatdırmağımız lazımdır. Dünyanın bütün dövlətlərinin, millətlərarası təşkilatların Azərbaycana yardımçı olması lazımdır. Necə ki, Birləşmiş Millətlər Təşkilatı, digər təşkilatlar başqa ölkələrə yardımçı olurlar. Onlar burada da olurlar, amma bəlkə daha çox işlər görmələri lazımdır.

Əsas məsələ qaçqınların öz evlərinə qayıtmasıdır. Biz istəyirik ki, bir an öncə sizin də buyurduğunuz kimi, bu məsələnin sülh yolu ilə həlli yolu tapılsın və işğal altında olan bütün torpaqlar boşaldılsın, Azərbaycanın bu məsələdə haqlı olduğu təsdiqlənsin, ölkəniz beynəlxalq aləmdə tanınmış sərhədlərinə yenidən qovuşsun və bütün bu insanlar evlərinə dönsünlər. Həm bu böyük insani məsələ həll edilsin, həm də Azərbaycan hökumətinin çiynindəki bu böyük yük aradan qalxsın və ondan sonra Azərbaycan daha da çox inkişaf etsin.

Hörmətli cümhur başkanım, bu, bizim diləyimizdir. Həqiqətən, bu məsələlərdə Türkiyə həmişə Sizi dəstəkləyir və NATO daxilində də əlimizdən gələn hər cür kömək göstərməyə hazırıq. Bunu bir daha ərz edirəm.

**H e y d ə r Ə l i y e v:** Çox sağ olun, təşəkkür edirəm.

## AZƏRBAYCAN RESPUBLİKASININ PROKURORLUQ ORQANLARININ RƏHBƏR İŞÇİLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*Prezident sarayı*

*26 aprel 2000-ci il*

Hörmətli toplantı iştirakçıları!

Bilirsiniz ki, respublika prokurorluğunun rəhbərliyində dəyişiklik edilibdir. Eldar Həsənov baş prokuror vəzifəsindən azad olunub, İsa Nəcəfov baş prokurorun birinci müavini vəzifəsindən, Xanlar Vəliyev baş prokurorun müavini vəzifəsindən azad edilibdir. Baş prokuror vəzifəsinə Zakir Qaralov təyin olunubdur.

Mən sizi bizim qəbul etdiyimiz bu qərarların səbəbi haqqında və Azərbaycanda prokurorluq orqanlarının gələcək vəzifələri haqqında bəzi fikirlərimi və mülahizələrimi sizə bildirmək üçün dəvət etmişəm.

Azərbaycan prokurorluğu rəhbərliyinin, demək olar ki, əksəriyyətinin birdən-birə işdən azad edilməsi qeyri-adi haldır. Sual olunur: Səbəbləri nədən ibarətdir? Güman edirəm ki, siz bunun səbəblərini bilirsiniz, bəlkə də təxmini olaraq bilirsiniz. Ancaq mən də öz fikrimi demək istəyirəm.

Səbəblər ondan ibarətdir ki, Azərbaycanın prokurorluğunda, onun rəhbərliyində qeyri-normal vəziyyət yaranmışdır və prokurorluqda ümumən qeyri-sağlam bir mühit mövcuddur. Təbiidir ki, müstəqil dövlətimizin məhkəmə sisteminin mühüm bir sahəsi olan prokurorluqdakı belə bir vəziyyət bizim işlərimizə uğur gətirə bilməz. Əksinə, işlərimizə zərər gətirir və özü də çox zərərlər gətirir.

Prokurorluğun rəhbərliyində yaranmış bu qeyri-normal vəziyyət, qeyri-normal münasibətlər birinci növbədə baş prokuror Eldar Həsənovla baş prokurorun birinci müavini İsa Nəcəfov arasında olan münasibətlərdir. Ancaq bu, başqa sahələrə də öz təsirini göstəribdir.

Son iki-üç ildir Eldar Həsənov dəfələrlə məsələ qaldırıbdır ki, birinci müavin İsa Nəcəfov öz vəzifəsinin öhdəsindən gələ bilmir, işi yaxşı apara bilmir, işlə məşğul olmur, işə aid olmayan başqa müxtəlif məsələlərlə məşğul olur. Buna görə də prokurorluqda gedən bir çox işlərə rəhbərlik etmək, yaxud da onlarda iştirak etmək barədə ona tapşırıqlar verilmir, verilərkən də bunların icrasını təmin edə bilmir. Xanlar Vəliyev haqqında da hələ 1996-ci ildə təklif irəli sürmüşdü ki, o da tutduğu vəzifənin öhdəsindən gələ bilmir və azad olunmalıdır.

Təbiidir, mən baş prokurora inanmışam və başqa cür də ola bilməz. Çünki Azərbaycanın prezidenti kimi mən yüksək vəzifələrə təyin etdiyim şəxslərin hamısına inanıram. Xüsusən hüquq-mühafizə orqanlarının başçılarına, güc nazirliklərinin rəhbərlərinə inanıram və etibar edirəm. Əgər belə olmasa, birincisi, mən onları təyin etmərəm, yaxud da ki, təyinetmə zamanı ola bilər səhvlər olsun, - o səhvləri aradan qaldıraram.

Buna görə də mən Eldar Həsənovun verdiyi məlumatlara, təbiidir ki, inanaraq yanaşırdım. Amma eyni zamanda, o birisi tərəfdən də əks məlumatlar gəlirdi. Doğrudur, onlar bilavasitə mənim özümə gəlmirdi. Çünki bu da mənim işimin, iş üslubumun bir xüsusiyyətidir ki, hər bir nazirlikdə, yaxud respublika miqyaslı təşkilatda təyin olunmuş birinci şəxs etimad qazandığına görə, yəni ona etimad göstərildiyinə görə, təbiidir ki, prezident bilavasitə onunla əlaqədə olmalıdır. Uzun illik təcrübəm onu göstəribdir ki, əgər belə olmasa, birinci şəxslə də, ikinci şəxslə də, üçüncü, dördüncü şəxslə də əlaqə saxlasam, bu, adətən rəhbərlikdə müəyyən qeyri-normal vəziyyət yaradar. Ona görə də mən nə İsa Nəcəfovu, nə Xanlar Vəliyevi bu müddətdə bir dəfə də qəbul etməmişəm. Baxmayaraq ki, onlar da müraciət ediblər. Tapşırmışam ki, onları aparatda dinləsinlər. Aparatda onların verdiyi məlumat da, təbiidir ki, bir az başqa istiqamətdə olubdur.

Bir neçə vaxtdır ki, belə vəziyyət davam edir. Mən baş prokuror Eldar Həsənova dəfələrlə göstəriş vermişəm ki, baş prokuror kimi siz çalışın, prokurorluğun işlərini özünüz tənzimləyin, bu məsələləri bizim üzərimizə qoymayın. Baş prokurora etimad göstərilib və baş prokuror da işləri ədalətli qurmalıdır. Əgər kimsə hansı bir səhvi, qüsuru göstərirsə, bunu araşdırmaq lazımdır. Əgər o səhv buraxılıbsa, düzəldilməlidir, əgər deyilən söz əsassızdırsa, ona sübut etmək lazımdır ki, bu əsassızdır, sən bu məsələni doğru qaldırmırsan, yaxud da ki, səhv edirsən.

Bax, bu prinsipə görə mən Eldar Həsənova dəfələrlə göstərişlər vermişəm ki, baş prokuror prokurorluq sistemində olan bütün məsələləri özü həll etməli, özü tənzimləməlidir. Ancaq bu da ədalət prinsipi əsasında olmalı, ədalətsizliyə yol verilməməlidir. Xüsusən prokurorluq orqanının gördüyü işlərin məna və məzmununu nəzərə alaraq, təbiidir ki, hər bir məsələ ədalətli yoxlanılmalıdır. Əgər başqa bir nazirlikdə nazirlə nazir müavini arasında hansısa münaqişə varsa, orada olan problemlər, əlbəttə ki, bu nazirliyin və ya təşkilatın işinə mane olur. Ancaq bunlar bizim ümumi işə bəlkə də zərbə vura bilmir. Amma bizim hüquq-mühafizə orqanlarında, o cümlədən xüsusən də prokurorluqda hər bir xırda və ya böyük iş, məsələ düzgün həll olunmursa, ya ədalətsizliyə, ya da qanun pozğunluğuna yol verilirsə, yaxud kimsə öz vəzifəsindən sui-istifadə edərək ümumdövlət mənafeyinə

zərər gətirirsə, bunlar hər bir halda ayrı-ayrılıqda araşdırılmalı və son nəticəyə gəlinməlidir. Bu araşdırma da ədalətli olarkən, təbiidir ki, o tərəf də, bu tərəf də anlaya bilər - kim düzdür, kim əyridir.

Bu faktlar və bir çox siqnallar respublika prokurorluğunda işlərdə çox ciddi nöqsanların, qüsurların olduğunu artıq göstərdi. Buna görə də mən bu qərarları qəbul etməyə məcbur oldum. Ancaq onu da qeyd etmək istəyirəm ki, 1993-cü ildən başlayaraq Azərbaycanın hüquq-mühafizə orqanları Azərbaycanda vaxtilə mövcud olan cəzasızlığın, hərc-mərcliyin, qanunsuzluğun qarşısını almaq üçün çox işlər görmüşlər. Azərbaycanda 1992-ci ildə yaranmış ağır, gərgin vəziyyətdən çıxmaq üçün, vətəndaş müharibəsinin qarşısını almaq üçün, qanunsuz silahlı dəstələrin aşkar edilib ləğv olunması üçün, çox qatı, təhlükəli cinayətlər törətmiş insanların, qrupların aşkara çıxarılması, onların yaxalanması və cinayətlərini sübut etməkdən ötrü istintaqların aparılması üçün və son olaraq bu adamların məhkəmə tərəfindən ədalətli cəza almaları üçün hüquq-mühafizə orqanları, o cümlədən Azərbaycan prokurorluğu çox iş görmüşlər. 1994-cü ildə, 1995-ci ildə Azərbaycanda dövlət çevrilişinə cəhdlər olmuşdur. Buna cəhd edən insanlar Azərbaycanı dağıtmaq, Azərbaycanda konstitusion hakimiyyəti ələ keçirmək məqsədi daşıyırdılar. Biz onların qarşısını aldıq. Təbiidir ki, mən bunda hüquq-mühafizə orqanlarının xidmətlərini də qiymətləndirirəm və keçmişdə də qiymətləndirmişəm.

Sonra başqa təhlükəli cinayətlər, bəzi terror aktlarına cəhdlər olubdur, bu xarakterli başqa cəhdlər olubdur. Bunların da qarşısı alınıbdır. Dövlət çevrilişi cəhdləri göstərənlərin və yaxud Azərbaycanda böyük cinayət əməlləri etmiş insanların və qrupların bir qismi qaçıb, gizlənibdir, uzun müddət müxtəlif ölkələrdə yaşayıbdır. Onların axtarılması, tapılması, aşkar edilməsi və Azərbaycana gətirilməsi sahəsində, sonra isə cinayət əməllərinin araşdırılması və məhkəməyə verilib cəzalandırılması sahəsində də hüquq-mühafizə orqanları, o cümlədən xüsusən prokurorluq orqanları, Azərbaycanın prokurorluğu çox işlər görmüşlər.

Bunları və prokurorluğun başqa nailiyyətlərini mən yüksək qiymətləndirmişəm. Bilirsiniz ki, prokurorluğun yubileyi mərasimində mən öz nitqimdə Azərbaycan prokurorluğunun işinə yüksək qiymət vermişəm, təşəkkür etmişəm. Demişəm ki, mən sizə güvənirəm, etibar edirəm. Bu sözlər adi sözlər deyildir. Bunları mən bir tərəfdən, təbiidir ki, sizin xidmətlərinizi nəzərə alaraq demişəm. İkinci tərəfdən də bu sözləri deyərək mən sizin məsuliyyətinizi artırmaq məqsədi daşımışam ki, siz həmin yüksək mənalı sözlərin səviyyəsində olasınız, sizə verilmiş yüksək qiymətin səviyyəsində olasınız.

Demək, prokurorluğun fəaliyyətinin bax, bu müsbət tərəfləri var və mən bunu bu gün də inkar etmirəm. Ancaq bununla bərabər, bununla yanaşı çox ciddi nöqsanlar, qüsurlar, ayrı-ayrı prokurorluq işçilərinin vəzifədən sui-istifadə etməsi, qanun pozuntularına yol verilməsi, cinayətkarların cinayətkar olduğunu araşdırmaq üçün istintaq zamanı ədalətsiz hərəkətlər, - bunlar da şəxsi məqsədlər naminə olubdur, - belə hallar da çoxdur.

Mən baş prokuror Eldar Həsənova prokurorluğun işində bu cür qüsurların, bu cür nöqsanların olmasını dəfələrlə demişəm. Tələb etmişəm ki, mənim bu sözlərimdən nəticə çıxarılsın və prokurorluğun rəhbərliyi daha da çox işlə məşğul olsun, dedi-qodu ilə, şəxsi münasibətlərin toqquşması ilə, intriqalarla və başqa şeylərlə məşğul olmasın. Bir də deyirəm, belə vəziyyət təkcə bu gün deyildir. Siz bilirsiniz ki, neçə vaxtdır belə vəziyyət davam edir. Onda soruşulur: bəs nə üçün vaxtında ölçü götürülməyibdir? Ölçü götürmək çətin deyil, görürsünüz, ölçü götürüldü. Ancaq əgər vaxtında belə ciddi qərar qəbul olunmayıbsa, bu da yenə prokurorluğa göstərilən qayğının təzahürüdür. Mənim tərəfimdən qayğıdır ki, siz özünüz öz problemlərinizi içinizdə həll edin. Ancaq dövlətçilik prinsipləri əsasında, qanunçuluq prinsipləri əsasında, ədalət əsasında. Əgər bir prokurorluq işçisi qanunu pozursa, yaxud cinayət edirsə və ya o tərəf, ya bu tərəf bunun üstünü basdırırsa, onlar da bu cinayətə qoşulurlar.

Amma indi belə çıxır ki, bir qism işçilər, əksəriyyəti baş prokurorun himayəsi altında olub və onların bəzi nöqsanlarına, hətta cinayət xarakterli hərəkətlərinə qiymət verilməyib və lazımi tədbirlər görülməyibdir. Bir qismi də birinci müavinin, yaxud da o biri müavinin himayəsi altında olubdur. O tərəfdən də ədalətsizlik olub, bu tərəfdən də.

Yenə də deyirəm, bu məsələləri səbrlə müşahidə etməyimin məqsədi ondan ibarət olubdur ki, yüksək vəzifə tutan adamlar, yüksək rütbə daşıyanlar anlasınlar ki, bu gün Azərbaycanda yaranmış ictimai-siyasi sabitlik, sağlam mühit, sağlam əhval-ruhiyyə şəraitində dövlətin mühüm orqanı olan prokurorluqda belə vəziyyətə dözmək olmaz. Buna da birinci növbədə sizin özünüz dözməməli idiniz. Ancaq mən artıq gördüm ki, heç bir nəticə çıxmır və bu qərarları qəbul etdim.

Bu qərarları qəbul etməkdən qabaq mən, təbiidir ki, hər iki tərəfi çox diqqətlə dinlədim. Mən buna beş saat vaxt sərf etdim.

Beş saat! Eldar Həsənovu dinlədim ki, o, öz iradlarını bildirsin. İsa Nəcəfovu dinlədim, yəni hamısını birlikdə. Orada bir neçə başqa şəxslər də iştirak edirdilər - hüquq-mühafizə orqanlarının başçıları Usubov, Namiq Abbasov, aparatın başçısı Ramiz Mehdiyev, aparatın işçisi Fuad Ələsgərov – bunlar da iştirak edirdilər (*y e r d ə n - Baş nazir*). Bəli, Baş nazir də iştirak edirdi. Yəni bunların iştirakı ilə dinlədim. Doğrudur, bunların iştirakı, sadəcə, belə xarakter daşıyırdı ki, bu mənzərəni görsünlər, tək mən yox. Ancaq təbiidir ki, mən müzakirə aparmırdım, sadəcə, o tərəfi də, bu tərəfi də dinləyib son nəticəyə gəlmək istəyirdim ki, bu nəticə düzgün, ədalətli olsun.

Ona görə də təbiidir ki, mən birinci olaraq baş prokuror Eldar Həsənovu dinlədim. O dedi ki, İsa Nəcəfov onun əleyhinə iş aparır. 1995-ci ildən başlayaraq Rəsul Quliyev ona göstəriş verib ki, sən tezliklə baş prokuror

olacaqsan. O vaxtdan baş prokurorun əleyhinə iş aparır və məqsədi də ondan ibarətdir ki, baş prokuror olsun. Ümumi sözlər dedi - yəni işə laqeyd yanaşır, verilən tapşırıqları yerinə yetirmir, baş prokurorla hesablaşmır və sair və sair.

İsa Nəcəfovu dinlədik. İsa Nəcəfov isə prokurorluqda ayrı-ayrı işlərə aid ciddi faktlar irəli sürdü. Yəni çoxlu qanun pozuntuları, ədalətsiz qərarlar, cinayətkarlara havadarlıq edilməsi, bəzən isə ədalətsiz qərarlar qəbul olunması haqqında çoxsaylı faktlar irəli sürdü.

Xanlar Vəliyev də, - bəlkə sayca o qədər də yox, - bir neçə çox ciddi faktlar irəli sürdü.

Mən Nazim Allahverdiyevi də dinlədim. Doğrudur, o, nə o tərəfdən, nə də bu tərəfdən heç bir fakt haqqında bir şey deməti. Ancaq onun fikri bundan ibarət oldu ki, prokurorluqda çox qeyri-normal vəziyyət yaranıb, ona görə bu vəziyyət dəyişilməlidir. Bunun üçün də, təbiidir ki, həm Eldar Həsənov məsuliyyət daşıyır, həm də İsa Nəcəfov məsuliyyət daşıyır.

Hərbi prokuroru dinlədim. O da bir neçə konkret faktlar irəli sürdü ki, bunlar da baş prokurorun fəaliyyətindəki ciddi nöqsanlara dəlalət edir.

Bütün bunların nəticəsində mən sizə məlum olan qərarı qəbul etdim. Hesab edirəm ki, düzgün etmişəm, ədalətli qərardır. Hesab edirəm ki, bu qərar təkcə işdən azad olunanlar üçün yox, bütün prokurorluq sisteminin işçiləri üçün - həm yüksək vəzifəli, həm də adi işçilər üçün - xəbərdarlıq olmalıdır, hərə özü üçün nəticə çıxarmalıdır.

Eyni zamanda bu qərar Azərbaycanın hüquq-mühafizə orqanlarının hamısı üçün bir xəbərdarlıq qərarı kimi olmalıdır. Mən indi deyə bilmərəm ki, Daxili İşlər Nazirliyində, yaxud Milli Təhlükəsizlik Nazirliyində, ya da bizim məhkəmə sistemlərində rəhbərlikdə belə qeyri-normal vəziyyət var. Bu, mənə məlum deyil, belə deyildir. Ancaq bu nöqsanlar, bu çatışmazlıqlar bu və ya başqa şəkildə, yaxud da başqa həcmdə bizim bütün hüquq-mühafizə orqanlarında var. Ona görə də hər bir kəs, xüsusən hüquq-mühafizə orqanlarının başçıları, rəhbərlikdə olan şəxslər özləri üçün nəticə çıxarmalıdırlar. Hərə bu qərardan nəticə çıxararaq özü öz sahəsinə bir də diqqətlə yanaşmalıdır. Diqqətlə yanaşmağın məqsədi də ondan ibarət olmalıdır ki, bizim hüquq-mühafizə orqanlarında sağlam mənəviyyat, sağlam mühit olmalıdır. İnsanlar, yəni bu orqanlarda işləyən vətəndaşlarımız anlamalıdırlar ki, onlara xüsusi etimad göstərilib, onlar xüsusi imtiyazlara, xüsusi səlahiyyətlərə malikdirlər, onlar Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi və inkişaf etməsində xüsusi rol oynamalıdırlar. Bunların hamısı da Azərbaycanda cinayətkarlıqla, cinayətkarlığın bütün formaları ilə mübarizəni gücləndirmək, qanunun aliliyini təmin etmək, hər bir məsələnin araşdırılmasında ədalət prinsipini ən yüksək tutmaq və beləliklə də, ölkəmizdə gedən demokratikləşmə prosesini inkişaf etdirmək üçündür.

Mən burada prokurorluq orqanının konkret işlərini təhlil etmək istəmirəm. Mən dünən baş prokuror təyin etmişəm və ona tapşırıram ki, aşkara çıxmış və aşkara çıxmamış bütün məsələlərin hamısını yoxlasın, araşdırsın, lazımi tədbirlər görsün və mənə də məruzə etsin. Kimə aid olub-olmamağından asılı deyil. Bu, Eldar Həsənovun səhvidir, yaxud İsa Nəcəfovun, Xanlar Vəliyevin, yaxud indi işləyən adamların günahıdır, - fərqi yoxdur.

Azərbaycan prokurorluğunda ciddi təmizləmə işi getməlidir. Azərbaycan prokurorluğunda sağlam mənəvi mühit yaratmaq lazımdır. Sağlam mənəviyyat hər bir prokurorluq işçisi üçün, qanun keşiyində duran bizim hər bir məmurumuz üçün əsas meyar olmalıdır. Əgər bu yoxdursa, o insan nə qədər yaxşı işləyirsə-işləsin, bizim tələblərimizə cavab verə bilməyəcəkdir. Bizim tələblərimiz isə qanundur, qanunun aliliyidir. Mənəviyyatın da hamısı qanunun içərisindədir.

Keçmiş zamanlarda, sovet hakimiyyəti vaxtı biz sağlam mənəviyyat haqqında danışırdıq və bunu təmin etmək üçün çox işlər görürdük. Amma o vaxt bunu təmin etmək üçün qanuni əsaslar yox idi. Burada ancaq partiya prinsipləri, partiya ideologiyası var idi. İndi isə qanun, Azərbaycanın Konstitusiyası, müvafiq qanunları vardır. Bu qanunlar hər şeydən üstün olmalıdır.

Heç kəs öz şəxsi məqsədinə, mənafeyinə, yaxud dostunun, qardaşının, qohumunun xahişinə, mənafeyinə görə qanunu poza bilməz. Amma təəssüf ki, bunlar prokurorluqda, o cümlədən baş prokuror Eldar Həsənovun fəaliyyətində var. Mən onları beş saat dinlədiyim zaman bunların çoxunu müşahidə etdim.

Prokurorluğun rəhbərliyində yaranmış bu qeyri-normal vəziyyətin ən eybəcər cəhəti də ondan ibarətdir ki, prokurorluğun rəhbərliyi Eldar Həsənov, İsa Nəcəfov, mən dəfələrlə dediyim kimi, aralarında olan münasibətləri prinsipial nöqteyi-nəzərdən araşdırmaq, kimin hansı səhvi varsa, onu sübut etmək və aradan qaldırmaq üçün lazımi tədbirlər görmək əvəzinə, bir-biri ilə respublikada olan qəzetlər vasitəsilə mübarizəyə keçmişlər.

Bilirsiniz, bu, son illər Azərbaycanın dövlət işində olan bəzi şəxslər tərəfindən istifadə edilən bir üsuldur. Amma bu üsul da o insanları fəlakətə gətirir, uğurlara gətirmir. Xatirinizdədir, mən Azərbaycanın maliyyə naziri Fikrət Yusifovu işdən kənarlaşdırdım və geniş bir müzakirə keçirdim. Orada hüquq-mühafizə orqanları rəhbərlərinin hamısı iştirak edirdi. Onun səhvləri, günahları çox idi. Amma mən yenə də qayğı göstərərək onu tərbiyə etmək istəyirdim, səhvlərini islah etməyə çalışırdım ki, gəncdir, işləsin. Lakin görünür ki, bizim bəzi yüksək vəzifəli şəxslərimiz vəzifə alandan, bu vəzifənin dadını bir az görəndən, bu vəzifəyə görə özünü bir balaca yüksək səviyyədə görəndən sonra onlarda başgicəllənmə xəstəliyi əmələ gəlir, bu çox kobud söz olsa da, mən bunu deyəcəyəm, - qudurma əmələ gəlir. Bu söz rus dilində daha incədir, ona «zaznaystvo» deyirlər, amma

mən Azərbaycan dilində bu sözün «qudurma»dan savayı əvəzini tapa bilmirəm. İnsanlar qudururlar. O dərəcədə qudururlar ki, onlar artıq hesab edirlər ki, qanunu da poza bilərlər, müxtəlif çirkin üsullardan da istifadə edə bilərlər. Həmin maliyyə naziri Fikrət Yusifov gəlib belə bir vəziyyətə düşdü.

O, «Femida» qəzetinin iki nömrəsində bizim Müdafiə Nazirliyinin işinə dair böyük-böyük məqalələr dərc etdirdi. Sən maliyyə nazirisən, Müdafiə Nazirliyinin işində hansı nöqsanlar varsa, sən rəsmi qaydada prezidentə yaz, gəlib de, amma bunu küçədə, ayrı-ayrı otaqlarda danışma. Əsasın varsa, yaz gətir, sübut elə. Dövlətin prinsipi bundan ibarətdir. Dövlət işində işləyən adamın prinsipi bundan ibarətdir.

Mən qəzetlər haqqında bir şey demək istəmirəm. Ancaq «Femida» qəzeti bu sahədə çox fərqlənən bir qəzetdir. Çoxları da deyirlər ki, bu qəzet prokurorluğun, xüsusən baş prokuror Eldar Həsənovun himayəsi altındadır. Fikrət Yusifov işdən çıxdı, demək, bundan nəticə çıxarmaq lazım idi. Amma Eldar Həsənovla İsa Nəcəfov qəzetlər vasitəsilə mübarizə aparırdılar.

Bir qrup qəzet – yəqin ki, İsa Nəcəfovun təsiri altında, yaxud nə cür, - Eldar Həsənovu ifşaedici məqalələr yazır. O birisi qrup qəzet – sayca bundan bir neçə dəfə çox qəzet – İsa Nəcəfovu ifşaedici məqalələr yazır, amma bununla bərabər, burada Eldar Həsənovu tərifləmək, onun fəaliyyətinə yüksək qiymət vermək və onun müsbət cəhətləri haqqında məqalələr yazır. İndi o tərəf də, bu tərəf də bundan nəyə nail olmaq istəyir? Buna nail oldular- ikisi də yüksək vəzifələrdən getdilər.

Bu qədər yüksək vəzifədə olan şəxslər aralarındakı mübahisəni, münaqişəni gəlib qanun çərçivəsində, dövlət orqanlarında həll etmək lazım olduğunu anlamırlar, bunun əvəzinə qəzetlərə çıxırlar və özləri-özlərini biabır edirlər. Oxuyanların əksəriyyəti bunu belə qiymətləndirir. Əgər məqalələr Eldar Həsənovun əleyhinədirsə, deyirlər ki, bunu İsa Nəcəfov təşkil edib. Əgər İsa Nəcəfovun əleyhinədirsə və Eldar Həsənovun tərifinə böyük-böyük məqalələr yazırlarsa, təbiidir, deyirlər ki, bunu Eldar Həsənov təşkil edibdir.

Bunlar adi bir insana yaramayan şeydir. Bizdə indi mətbuat azadlığıdır, qəzetlər tamamilə sərbəstdir. Ancaq təəssüf ki, bəzi müxbirlər də bundan çox sui-istifadə edirlər, qəzetlər yalan, uydurma, böhtan xarakterli məqalələr dərc edirlər. Qəzetlərin bu əhval-ruhiyyəsini görən dövlət adamları anlamalıdırlar ki, bu üsuldan istifadə etmək onlara xeyir gətirməz.

Mən bu barədə fikirlərimi deyərək, təkcə hüquq-mühafizə orqanlarına, prokurorluğa yox, Azərbaycanın bütün dövlət, hökumət orqanlarına – aşağıdan yuxarıya qədər – bir daha xəbərdarlıq edirəm: kim gələcəkdə bu yolla gedəcəksə, onlar Fikrət Yusifovun, Eldar Həsənovun, İsa Nəcəfovun gününə düşəcəklər. Bunu bilsinlər! Bizim də səbrimizin həddi var. Bu, o tərəfə keçəndən sonra artıq mümkün deyildir. Çox səbrlilik də ondan ibarətdir, ona görədir ki, biz insanlara qayğı göstəririk. Biz insanları tərbiyələndirmək istəyrik. Biz insanları mənəviyyatca təmizləmək istəyirik. Ancaq bəziləri yüksək vəzifə alandan sonra – mən bunu da xüsusi qeyd edirəm – bu vəzifədən bir müddət sui-istifadə etməyə, ondan sonra daha da başqa hərəkətlər etməyə başlayır. Bunların da sonu bu olur.

Mən bildirdim ki, İsa Nəcəfov və Xanlar Vəliyev çox konkret faktlar gətirdilər. Ancaq Eldar Həsənov isə İsa Nəcəfovun və Xanlar Vəliyevin haqqında konkret bir fakt yox, sadəcə, İsa Nəcəfovun onun yerini tutmaq üçün apardığı intriqalar barədə danışdı. Axırda, nəhayət, Eldar Həsənov anladı ki, birinci məsuliyyəti o daşıyır. O, məndən bir daha söz istədi, dedi ki, bəli, bilirəm, baş prokuror kimi bütün məsuliyyəti mən daşıyıram. Ona görə də nə cəza varsa, mənə verin, xahiş edirəm, nə İsa Nəcəfova, nə də Xanlar Vəliyevə heç bir cəza verməyin, cəzanı mən çəkməliyəm.

Bilmirəm, bu sözlər nə qədər səmimi idi. Amma bu sözlər həqiqətən səmimi idisə, bu sözləri əvvəlcədən deyib, işi heç bu dərəcəyə gətirmək lazım deyildi. Müavinlərlə münasibətləri araşdırmaq lazım idi, hərə də öz yerində oturmalı idi.

Təbiidir ki, mən onun İsa Nəcəfov və Xanlar Vəliyev haqqında xahişini yerinə yetirə bilmədim və onları da vəzifədən azad etdim. Başqa cür ola bilməz. Onların üçü də məhz bu səbəblərə görə tutduqları vəzifədən azad olundular.

Burada Eldar Həsənovun ünvanına bir çox konkret faktlar deyildi. Mən yenə də deyirəm, bunların nə qədər düz olduğunu, nə qədər düz olmadığını siz araşdırmalısınız. Mən istəmirəm bu işlərə müdaxilə edəm. Amma bir fakt mənə məlumdur. Ona görə də mən bu barədə öz fikrimi deyə bilərəm. O da ondan ibarətdir ki, 1996-cı ildə mənə gəlib dedilər ki, bir şikayətçi var, neçə gündür burada o qədər şikayət edir, ağlayır, ancaq sizə öz sözünü demək istəyir. Mən onu qəbul etdim. Onu dinləyəndə mən həqiqətən çox həyəcanlandım, dəhşətə gəldim ki, əcəba, düzmü deyir, belədirmi? Amma onun danışığından hiss etdim ki, o aldatmır, dediklərində əsas var. Həmin adam şikayət edirdi ki, gərək ki, onun oğlunu günahsız yerə həbs ediblər və öldürüblər.

Soyuducular zavodunda «Çinar» şirkəti var. Bilirsiniz ki, bir neçə dəfə həmin zavodun rəhbərlərinə gah sui-qəsd olunmuşdu, gah xəsarət yetirilmişdi, gah da kimisə öldürmüşdülər. Son dəfə soyuducular zavodunun direktoru vəzifəsini icra edən...

**F u a d  Ə l ə s g ə r o v** (P*rezidentin İcra Aparatının hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri*): Onun adı Nicat Süleymanzadədir.

**H e y d ə r  Ə l i y e v:** Nicat Süleymanzadəni yaralamışdılar. Guya günahkarları tapıblar və onlardan biri də orada həmkarlar təşkilatının sədri Camal Əliyevdir. Süleymanzadəni yaralamışdılar, guya həmin işi bu təşkil

edibdir. Onu həbs ediblər, 17-ci polis bölməsinə aparıblar. Polis işçiləri və Bakı Şəhər Prokurorluğu orada istintaq aparıblar. Təbiidir ki, bu adam deyibdir ki, günahım yoxdur, bu işləri mən etməmişəm. Ancaq onu döyüblər, ona işgəncə veriblər. Onu o qədər döyüblər, axırda orada döyüb öldürüblər. Bilavasitə mən bu məlumatı alandan sonra, 1996-cı ildə baş prokuror Eldar Həsənovu, daxili işlər naziri Ramil Usubovu yanıma çağırdım.

**R a m i l   U s u b o v:** Cənab prezident, xüsusi idarənin rəisi və milli təhlükəsizlik naziri də orada idilər.

**H e y d ə r   Ə l i y e v:** Bəli, o da, milli təhlükəsizlik naziri də orada idilər. Deyəsən, Bakı şəhər prokuroru da orada idi. Çünki istintaq Bakı Şəhər Prokurorluğunda getmişdi. O vaxt bizim aparatın işçilərini də yanıma dəvət etmişdim.

Mən onları dinlədim. Dinləmə zamanı mənə tamam aydın oldu ki, burada cinayətkar kənarda qalıb, gedib cinayət etməmiş, günahsız adamı tutublar, döyüblər. O qədər döyüblər, işgəncə veriblər ki, ölübdür. Ondan sonra da «sübut ediblər» ki, guya bu adam günahkardır. Bununla da bu işi qurtarıblar, bağlayıblar.

Mən əmr verdim, Ramiz Mehdiyevin rəhbərliyi ilə komissiya yaratdıq ki, bu komissiya bu işi araşdırsın. Araşdırdılar, uzun müddət araşdırdılar, amma son nəticə ondan ibarət oldu ki, siz gəlib etiraf etdiniz ki, həmin o Camal Əliyev günahkar deyil. Elədirmi?

**Y e r d ə n   s ə s:** Bəli.

**H e y d ə r   Ə l i y e v:** Dediniz ki, günahkar başqalarıdır. Əliyev Camalın cəsədini də çıxarıb eksqumasiya etmişdilər, yoxlamışdılar ki, onu qandallayıblar, dişlərini vurub sındırıblar, bədəninə 30 xəsarət yetiriblər. Yəni bu qədər vəhşilik təsəvvür ediləsi deyil. Bunu nə üçün ediblər? Ona görə ki, cinayətkarı gizlətsinlər, məsuliyyətdən xilas etsinlər. Təbiidir ki, bu da asan deyil. Yəqin, ondan çox miqdarda, müəyyən rüşvət alıblar və bu adamı döyüb-öldürüb «günahkar» ediblər.

Bunu gəlib məruzə edəndə, təbiidir ki, mən daha da çox dəhşətləndim. Daxili işlər naziri Ramil Usubova, baş prokuror Eldar Həsənova əmr verdim ki, bu işləri görmüş adamlar cəzalanmalıdırlar, yenidən istintaq aparılıb günahkarlar müəyyən olunmalıdır. Prokurorluq sonra bu məsələni yenə də uzatdı. Nəhayət, günahkarlardan üç nəfər polis işçisi həbs olundu, amma iki nəfəri qaçdı. Onlar indiyə qədər də tapılmır. Amma üç nəfər həbs edildi.

Bakı Şəhər Prokurorluğunda bu işi aparan adam vaxtilə bu işi aparıb, yəni başa çatdırdığına görə Eldar Həsənov tərəfindən təltif olunmuşdur. O müstəntiqdir, ya da...

**N a z i m   A l l a h v e r d i y e v** (*Respublika baş prokurorunun müavini*): İstintaq şöbəsinin rəisi Vidadi Səmədov.

**H e y d ə r   Ə l i y e v:** Demək, istintaq şöbəsinin rəisi Vidadi Səmədov bu işin «uğurla» həyata keçirilməsi üçün təltif olunmuşdu. Mən dedim ki, bu adamlar cinayət ediblər. Demək, cinayət etdiklərinə görə məsuliyyət daşımalıdırlar. İndi sonra nə olub, nə aşkar edilib? Bir-iki dəfə mənə dedilər. Mən Eldar Həsənova vaxtilə bu barədə çox ciddi sözlər demişəm. Ancaq mən bu məsələnin dərinliyini bir o qədər bilmirdim. O gün bizim o danışığımız zamanı bu dərinlik mənim üçün məlum oldu.

Bu barədə istintaq aparan respublika prokurorluğunun işçiləri təklif veriblər ki, həmin o şəxs- Vidadi Səmədov bu işə görə məsuliyyətə cəlb olunmalıdır, həbs edilməlidir. Eldar Həsənov 7 ay buna razılıq verməyibdir, ondan sonra onu işdən azad edibdir, o da qaçıbdır.

Mən bu hadisəni bilirdim. O vaxt gəlib mənə dedilər ki, bu adamı qaçırtdılar. Eldar Həsənovla mənim çox ciddi danışığım oldu. Mən ona çox ciddi surətdə öz narazılığımı bildirdim və əmr etdim ki, harada olursa-olsun həmin adamı axtarın, tapın, gətirin, cinayət məsuliyyətinə cəlb edin. Ancaq nəticəsi nə oldu? Cinayət edib qaçmış bütün adamlar tapılır, cinayət edərək qaçıb Rusiyada gizlənən adamlardan 500 nəfəri keçən il tapılıb gətirilibdir, amma bu adam tapılmır.

Mən Eldar Həsənova bunu əvvəl demişdim. Amma o gün məcbur olub dedim, bilirsiniz, səhv ola bilər, nəyi isə bilmədiyinə görə insan qanunsuz bir iş görə bilər. Amma bu, o qədər aşkar işdir ki, mən bu məsələni müzakirə etmişəm, komissiya yaratmışam, nəzarət altına götürmüşəm və tələb etmişəm ki, həqiqət ortaya çıxsın, o cür cinayət etmiş insanlar cəzalansınlar. Belə halda Eldar Həsənov o adama havadarlıq edir, onun məsuliyyətə cəlb olunmasına 7 ay icazə vermir, o adam da qaçıb gizlənir, tapılmır. Mən o gün də dedim, bu gün də deyirəm,- buna xəyanətdən başqa bir söz deyə bilmərəm. Gərək insan bu səviyyəyə düşməsin.

Bir nəfər dostun da, qardaşın da, qohumun da ola bilər. Onu müdafiə edərək dövlətə bu qədər zərbə vurmaq olmaz. Yaxşı olardı ki, Eldar Həsənov həmin dostunu özü cəzalandıraydı, onda o göstərərdi ki, doğrudan da dövlətçilik mövqeyindədir.

Mən bir faktı deyirəm. Çünki bu, şəxsən mənim nəzarətim altında olan işdir. İndi mən təsəvvür edirəm, fikirləşirəm,- əcəba, əgər mənim müdaxilə etdiyim, xüsusi komissiya yaratdığım, nəzarətim altında olan işdə də xəyanət edirlərsə, onda bəs nə etməli?

Mən dedim ki, respublikanın prokurorluq orqanlarında ciddi təmizləmə işi getməlidir. Birincisi, ona görə ki, biz «Prokurorluq haqqında» qanun qəbul etmişik. Bu qanuna görə prokurorluğun səlahiyyətləri indiyə qədər olduğundan xeyli azalıbdır, ixtisar edilibdir. Ona görə də bir çox şöbələr, bölmələr, filanlar, təbiidir ki, ləğv olunur. Belə halda işin öhdəsindən gələ bilməyənlər, yaxud qanun pozuntusuna yol verənlər, başqaları, təbiidir ki, prokurorluq orqanlarından azad olunmalıdır. Baş prokuror bu işlə ciddi məşğul olmalıdır.

«Prokurorluq haqqında» qanun çox böyük əhəmiyyətə malikdir. Mən bildirdim ki, 1995-ci ildə bizim qəbul etdiyimiz Konstitusiyaya görə prokurorluq məhkəmə hakimiyyətinin daxilindədir. İndi hüquqi, demokratik dövlətdə hakimiyyətin üç qolu vardır: icra hakimiyyəti, qanunvericilik hakimiyyəti, məhkəmə hakimiyyəti. Prokurorluq da bu məhkəmə hakimiyyətinin bir hissəsidir.

Ancaq hələ indiyə qədər Azərbaycanda prokurorluq Sovet İttifaqının prokurorluq sistemi çərçivəsində və o prinsiplər əsasında işləyir. Təbiidir ki, bu da artıq mümkün deyildir. Çünki biz hüquqi, demokratik dövlət qururuq. Deməк, hər şey hüququn, qanunun əsasında olmalıdır. Artıq burada da beynəlxalq təcrübə, beynəlxalq standartlar var. Yəni bunlar ondan ibarətdir ki, demokratik ölkələrdə, hüquqi dövlət olan ölkələrdə hər bir məhkəmə hakimiyyətinin öz yeri, prokurorluğun da öz yeri vardır. Amma bu yer Sovet İttifaqının yaratdığı prokurorluq sistemindən çox fərqlidir.

Sovet İttifaqında prokurorluq çox böyük səlahiyyətlərə malik idi. Bu da təbiidir və o quruluşun tələblərindən irəli gəlirdi. Çünki Sovet İttifaqı dövləti hüquqi dövlət, qanunlar çərçivəsində fəaliyyət göstərən dövlət deyildi. Ona görə də o öz hakimiyyətini təmin etmək üçün belə bir prokurorluq sistemi yaratmışdı və ona da böyük səlahiyyətlər vermişdi. Ancaq inkişaf etmiş bütün demokratik, hüquqi dövlətlərdə bu yoxdur. Biz də hüquqi dövlət quraraq, təbiidir ki, hüquqi islahatlar aparırıq. Bu islahatları ona görə aparmırıq ki, kimsə bizə deyir, kimsə bunu bizdən tələb edir. Biz özümüz anlamalıyıq ki, «hüquqi, demokratik dövlət qururuq» elan edən prezident gərək onu təmin etsin. Bunu təmin etmək də qanunlarla ola bilər.

Bilirsiniz ki, son vaxtlar, xüsusən son il biz bu barədə bir çox qanunlar qəbul etmişik. Ancaq təəssüflər olsun ki, bizim məhkəmə orqanlarından, Daxili İşlər Nazirliyindən fərqli olaraq, burada prokurorluq mühafizəkar mövqe tutubdur, Sovet İttifaqı dövründə yaranmış prokurorluq sistemini saxlamağa və əlində olan səlahiyyətləri saxlamağa çalışıbdır.

İndi, ola bilər, burada bu mühafizəkarların bir hissəsi də sizsiniz. Mən sizin üzünüzə deyirəm. Amma mən sizin heç birinizlə nə danışmışam, nə də sizin fikirlərinizi soruşmuşam. Ancaq Eldar Həsənovla bu barədə dəfələrlə danışmışıq.

Məsələn, «Polis haqqında» qanun. Mən 1999-cu ilin fevral ayında bu qanunun layihəsinə baxdım, onu imzaladım, qəbul olunmaq üçün Milli Məclisə göndərdim. Qanun birinci oxunuşda qəbul olundu. Ondan sonra onu saxladılar. Nə üçün? Baş prokuror Eldar Həsənov buna etiraz edib. Niyə etiraz edibdir? Həmin qanuna görə polis orqanları hansısa bir vətəndaşı saxlayırlarsa, 48 saat müddətində onun saxlanması üçün məhkəmənin qərarını almalıdırlar. Polis də, Daxili İşlər Nazirliyi də belə bir layihə verib və hüquqi prinsiplərlə razıdır. Ancaq Eldar Həsənov bunun əksinə gedir. Deyir ki, bu səlahiyyət prokurorluqda saxlanılmalıdır. Nə üçün? Milli məclisdə bunun müzakirəsini dayandırıblar. Deyibdir ki, gərək mən prezidentə bu barədə fikirlərimi deyim. Gəlib mənə fikirlərini deyib ki, bəs belə olmaz, onda dövlət dağılacaq, biz cinayətkarlarla mübarizə apara bilməyəcəyik və sair, bu səlahiyyətləri prokurorluqda saxlamaq lazımdır.

Mən demişəm ki, bilirsən, bu olmaz, get düşün. Ancaq o, Milli Məclisə təsir etmişdir. Milli Məclisdə də fikirləşiblər ki, prokuror bununla razı deyil, saxlayıblar. Beləliklə, bu qanun 7-8 ay orada yatıb, ondan sonra mən bunu bilmişəm və öz mövqeyimi ciddi olaraq bildirmişəm, bu qanun qəbul edilibdir.

«Prokurorluq haqqında» qanun bir il əvvəl qəbul olunmalı idi. Təbiidir ki, «Polis haqqında» qanun layihəsini Daxili İşlər Nazirliyi verdi, «Prokurorluq haqqında» qanun layihəsini prokurorluq, baş prokuror verməli idi. Təqdim etdi, bizim hüquqçular, aparatda və ekspertlər müzakirə etdilər və məlumat verdilər ki, bu, köhnə sovet prokurorluq səlahiyyətlərinin hamısını özündə əks etdirən bir qanun layihəsidir. Mən dedim ki, bu, ola bilməz, gedin danışın və qanun layihəsini qanun tələblərinə, Konstitusiya tələblərinə, beynəlxalq hüquq normalarının tələblərinə uyğunlaşdırıb gətirin, təqdim edin.

Ancaq bilin, vaxt gedir, yenə də Eldar Həsənov müqavimət göstərir. Mənə hətta sonra dedilər ki, bir gün 20 nəfəri, öz idarə rəislərini və sairi yığıb bizim aparata gətirib, bizim 2-3 nəfərlə – hüquq işləri ilə məşğul olan Ramiz Mehdiyevdir, Fuad Ələgərovdur, Şahin Əliyevdir – onlarla mübahisə aparıblar. Onlar çox, bunlar az. Gəlib hətta dedilər ki, bizi qorxudurlar, bizə təzyiq göstərmək istəyirlər. Mən bu işə müdaxilə etdim, onun qarşısını aldım. Amma bu qanunun qəbul olunması bir il gecikdi. Bu, Eldar Həsənovun günahıdır. Mən ona da, sizə də deyirəm: Prokurorluq prokuror işçilərinə mənsubdur, yaxud prokurorluq dövlətə mənsubdur? Əgər prokurorluq dövlətə mənsubdursa, dövlət prokurorluğu bu cür görmək istəyir. Siz isə icraçısınız. Sizə hansı sistem veriləcək, o sistemlə işləyə bilərsiniz – işləyin, işləyə bilməzsiniz – çıxın gedin. Amma belə çıxır ki, prokurorluq artıq özəlləşdirilibdir, prokurorluq prokurorluqda işləyənlərə və xüsusən baş prokurora məxsusdur. O da deyir ki, «mən bu səlahiyyətlərimi saxlamaq istəyirəm». Görürsünüz, nə qədər əcaib bir vəziyyət yaranıbdır.

Mən Eldar Həsənova dedim, - başa düş ki, sən bu gün prokurorsan, sabah olmayacaqsan. Eləcə də hər biriniz. Heç kəs daimi deyildir. Amma hüquqi dövlət daimidir. Biz bu hüquqi dövləti, demokratik dövləti yaradırıq və onu pillə-pillə yüksəklərə qaldırırıq. Bunun da ən prinsipial bir hissəsi məhkəmə sistemində islahatların keçirilməsi, bütün məhkəmə sisteminin beynəlxalq hüquq normalarına uyğunlaşdırılmasıdır. Biz bir tərəfdən beynəlxalq hüquq normalarına uyğun olmaq, demokratik dövlət qurmaq, demokratik təşkilatlara,

Avropa Şurasına daxil olmaq istəyirik. O biri tərəfdən də keçmiş Sovet İttifaqının prokurorluq sistemini özümüzdə saxlamaq istəyirik.

Onun mənə olan izahatı budur ki, bilirsiniz, onda biz cinayətkarlığa qarşı mübarizə apara bilməyəcəyik. Deyirəm ki, axı niyə mübarizə apara bilməyəcəksiniz? İndi bu sanksiya işi qanunla məhkəməyə həvalə olunur. Bu, indiyə qədər prokurorluqda olubdur. Məhkəmədə işləyən də, prokurorluqda işləyən də bizim vətəndaşımızdır. Mən nə üçün düşünməliyəm ki, prokurorluqda işləyən adam sanksiyanı düz verəcək, amma məhkəmədə işləyən adam düz verməyəcəkdir? Mən hətta dedim ki, əgər istəyirsinizsə, sanksiya vermək təcrübəsi olan, təbiidir ki, təmiz adamların bəzilərini gəlin prokurorluqdan məhkəməyə keçirək, gedib orada məhkəmə sədri olsunlar. Deməк, burada məqsəd dövlətçilik prinsipini yox, öz sisteminin prinsipini deyil, öz şəxsi mənafeyini, öz səlahiyyətlərini əlində saxlamaqdır.

Beləliklə, siz bilin, bu gün məcburam bunu sizə deyim, ona görə yox ki, belə bir informasiyanı sizə verməyə ehtiyacım vardır. Ona görə ki, siz biləsiniz, bizim bütün məhkəmə sistemində işləyən işçilər, hüquq-mühafizə orqanlarında işləyənlər bilsinlər ki, bəli, biz hüquqi dövlət qururuq. Hüquqi dövlət qurmaq üçün müvafiq qanunlar qəbul etmişik və bundan sonra da edəcəyik. Bunun qarşısını almaq üçün deyil. Kim bunun qarşısını alacaqsa, biz onu yolumuzdan kənarlaşdıracağıq.

Amma ikinci vəzifə ondan ibarətdir ki, bu qanunları düzgün icra etmək lazımdır. Ona görə də mən bu gün sizdən tələb edirəm: «Prokurorluq haqqında» qanun qəbul olunubdur, o qanun necə var, o cür də yerinə yetirilməlidir. Yoxsa, yenə də bu Eldar Həsənov əhval-ruhiyyəsi sizlərdə yaşayırsa, - bəlkə də yaşayır, - çünki 20 nəfər adamı yığıb Prezident Aparatına gətirmişdisə ki, həmin o keçmiş sovet sisteminə mənsub olan qanun layihəsini müdafiə etsinlər, demək, siz də onlardansınız. Yaxud, bəlkə də sizi sadəcə, məcbur edib gətirib, - bilmirəm.

Bilirsiniz, mən bunları sizin üzünüzə deyirəm. Əvvəl də dedim, mən sizin işlərinizi qiymətləndirirəm. Ancaq mənim xüsusiyyətim bir də ondan ibarətdir ki, kimi çox qiymətləndirirəm, onun səhvini, günahını da üzünə deyirəm. Üzünə deyirəm, ona görə yox ki, onun üçün acı olsun. Ona görə ki, o anlasın. Anlasın ki, düz işləmək lazımdır. Anlasın ki, ədalətli işləmək lazımdır. Anlasın ki, qanunla işləmək lazımdır. Anlasın ki, bizim bu demokratik, hüquqi dövlət quruculuğumuzun yolu ilə getmək lazımdır, şəxsi mənafeləri kənara qoymaq lazımdır.

Mən ümidvaram ki, «Prokurorluq haqqında» qanun, məhkəmə sistemi haqqında qəbul olunmuş qanun ardıcıl surətdə yerinə yetiriləcəkdir. Əminəm ki, bunlar hamısı, birincisi, Azərbaycanda qanunun aliliyini təmin edəcək, ikincisi, vətəndaşların hüquqlarının qorunmasını təmin edəcək, üçüncüsü də cinayətkarlıqla mübarizəni daha da səmərəli edəcəkdir.

Mən buna inanıram.

Hüquq-mühafizə orqanlarının işində, o cümlədən xüsusən prokurorluğun fəaliyyətində işimizə böyük zərər vuran bir nöqsan da hələ ki, aradan götürülməyibdir. Bu da müxtəlif yoxlamalar və bu yoxlamalar vasitəsilə xüsusən özəl sektorun inkişaf etməsinə maneçilikdir.

Bilirsiniz ki, mən əsassız yoxlamaların qadağan edilməsi və bu barədə hüquq-mühafizə orqanlarının vəzifələri haqqında 1997-ci ildə və 1999-cu ildə iki fərman vermişəm. Doğrudur, o fərmanlardan sonra yoxlamaların sayı azalıbdır. Ancaq bu yoxlamalar davam edir. İkincisi də, hüquq-mühafizə orqanlarında, xüsusən prokurorluqda bu yoxlamalar üçün başqa variantlar tapırlar. Bu variantlar da ondan ibarətdir ki, guya haradasa bir şirkətdə nəsə bir şey var, onu bəhanə tutub beş, on, on beş şirkəti başlayırlar yoxlamağa ki, bəlkə bu cinayət onlarla da əlaqədardır.

İctimaiyyətdə belə bir fikir var ki, rayonlarda bizim prokurorlar, polis rəisləri həm dövlət müəssisələrinin bəzilərinə, həm də şirkətlərə, filanlara haqq qoyublar – «Haqqımı verməlisən!». Hansı haqdan söhbət gedir, nə haqqınız var! İşlədiyinizə görə sizin haqqınızı dövlət verir, maaş alırsınız və böyük imtiyazlarınız var. İctimaiyyətdə bu fikir formalaşıbdır. Ona görə mən sizdən tələb edirəm ki, bu əməllərdən əl çəkəsiniz.

İkincisi, yoxlamalardan əl çəkəsiniz, müxtəlif yollardan istifadə edib yenə də bu yoxlamaları davam etməyəsiniz. Mən sizdən tələb edirəm! Sizin bu yoxlamalarınız dövlətə lazım deyil, bilin! Çünki onların heç birisindən bizim dövlətimizə bir xeyir gəldiyini bu illərdə görməmişəm. Ancaq zərəri böyükdür. Nədir zərəri? Zərəri də odur ki, siz iş adamlarını artıq boğaza yığmısınız. Bunların bəziləri çevikdir, dözürlər, yoxlamalarda ona da, buna da rüşvət verir, birtəhər işləyirlər. Amma bəziləri buna dözmürlər, işlərini bağlayırlar.

Bilirsiniz, belə yoxlamalar həm xarici investisiyaların Azərbaycana gəlməsinə böyük maneçilik törədir, həm də Azərbaycanda özəl sektorun yaranmasına. Bilin, başa düşün, Azərbaycanın iqtisadiyyatı daha başqa yolla gedə bilməz. Özəl sektor inkişaf etməlidir və iş adamlarına imkan vermək lazımdır. Mən bunu demişəm, bir daha deyirəm ki, qoy o iş adamı hansısa qanunu pozubsa, hansısa iş görübsə, iş görübdür. Nəinki siz xırda qanun pozuntusuna görə gedib onun yaxasından tutasınız, qanunu pozduğuna görə də bir şeyi olmasa, amma onun əlində olanı tutub alasınız.

Firmalar haqqında cürbəcür istintaqlar gedir. Bu istintaqları kəsmək lazımdır. Bizdə bu işlərə vergi xidməti nəzarət edir, Vergilər Nazirliyi var. Vergilər Nazirliyi hər bir firmanın, hər bir iş adamının vergini verməsini təmin

etməlidir. Bizə başqa bir şey lazım deyildir- işləsin, vergisini versin. O biri tərəfdən də bizim gömrük orqanlarımız var- onlar da təmin etməlidir ki, gömrük rüsumları verilsin. Ondan sonra bu iş adamları ilə bizim işimiz olmamalıdır.

Ancaq siz qaşınmayan yerdən qan çıxarırsınız. Təbiidir ki, mən bunu hamınıza aid etmirəm, məni düzgün başa düşün. Mən «siz, siz» deyəndə belə işlə məşğul olan adamlara deyirəm - həm burada oturanlara, həm də hüquq-mühafizə orqanlarındakılara deyirəm. Bunlardan əl çəkin! Ümumiyyətlə, iş adamları ilə nə istintaq aparırsınız? Bizim Vergilər Nazirliyi də düzgün iş görməlidir. Yoxlayırlar, yoxlamanın nəticəsini göndərirlər prokurorluğa. Elədir?

**F a z i l M ə m m ə d o v** (*vergilər naziri*): Bəli.

**H e y d ə r Ə l i y e v:** Sən oraya niyə göndərirsən? Göndərirsən ki, orada onu soysun?

**F a z i l M ə m m ə d o v:** Nəticəsi olmur.

**H e y d ə r Ə l i y e v:** Nəticəsi olmur, elədirmi? Sənin yoxlamanın nəticəsi odur ki, ondan vergini alasan. Vergini al. Sən onun işini dayandır, vergini al. Amma vergini verməyib, sən onu yoxlamısan, göndərirsən prokurorluğa, o da bir il bunu uzadacaqdır. Nə o, vergini verəcək, nə də dövlətin büdcəsinə bir şey gələcəkdir. Amma o, daha da çox əziyyət çəkəcəkdir. Ona görə bir təklif var idi ki, Vergilər Nazirliyində istintaq qurumu yaransın. Mən bu təklifi əvvəldən də bəyənmişəm. Fikirləşin, bu barədə təklifinizi verin.

Nə üçün mən bunu bəyənirəm? Çünki Vergilər Nazirliyinə lazımdır ki, ona vergi versinlər. Amma hüquq-mühafizə orqanları isə, təbiidir ki, əgər iş onlara göndərilirsə, onların da məqsədi bundan ibarət olmalıdır ki, vergi verilsin. Bəlkə də vergisini versin, heç cəzalanmasın. Axı bu insanlar nə qədər cəzalana bilər? Bilirsiniz, biz qatı cinayət etmiş adamları cəzalandırmalıyıq. Amma vergini verməyən adamdan vergini alandan sonra onu niyə cəzalandırasan? Onun cəzası elə o olacaq ki, Vergi Müfəttişliyi üzərinə daha da nəzarət qoyacaq, vergisini vaxtlı-vaxtında tələb edəcəkdir.

Yoxlamaları qadağan edəndən sonra prokurorluq bir üsuldan da istifadə edir. Bəli, hansısa materiallar əldə edir, göndərir Maliyyə Nazirliyinə. Maliyyə Nazirliyi yoxlama aparır, müəyyən nöqsanlar, yaxud da qanunsuzluqlar üzə çıxarır, göndərir prokurorluğa. Nəticəsi nə olur?

**Ə v ə z Ə l ə k b ə r o v** (maliyyə naziri): Çox azdır.

**H e y d ə r Ə l i y e v:** Çox azdır. Bilirsiniz, gərək hər bir şeyin səmərəsi olsun. Əgər səmərəsi yoxdursa, yaxşı olar ki, bunu eləməyəsən. Ona görə mən sizə - Maliyyə Nazirliyinə də xəbərdarlıq edirəm: mənim bu sözlərimdən nəticə çıxarın və yoxlamalar məsələsi ilə ciddi məşğul olun. Maliyyə naziri kimi siz maliyyə işlərinə nəzarət edirsiniz, xüsusən dövlət orqanlarında. Maliyyə pozuntularının qarşısını almalısınız, bunlara qarşı mübarizə etməlisiniz. Nazirsiniz, böyük səlahiyyətli nazirsiniz, siz bilməlisiniz ki, hansı iş dövlətə nə xeyir verir, hansı iş isə formal olaraq guya qanun nöqteyi-nəzərindəndir, amma faktiki olaraq ayrı-ayrı insanların ciblərinə xeyir verir, dövlətə xeyir vermir. Ona görə siz fikirləşin.

Bir sözlə, mən bütün hüquq-mühafizə orqanlarına deyirəm, bütün yoxlama orqanlarına deyirəm - əsassız, qanunsuz yox-lamaların qarşısı alınmalıdır və özəl sektorun inkişafına şərait yaradılmalıdır.

Bizim başqa orqanlarda da iş adamlarını incidənlər çoxdur. Gəlib hansısa qeydiyyatdan keçməlidir - onu incidirlər, başqa bir yerdən lisenziya almalıdır - onu incidirlər. Yəni nə cür incidirlər? Onu çimdikləmirlər, yaxud da yaralamırlar, ona deyirlər ki, ver. Verməsən, get, yenə də gəl. Beş gündən sonra, on gündən sonra gəl.

Mən bunu bir dəfə demişəm, - xarici investorlar buraya iş görməyə gəlirlər. Bizim dövlət orqanlarındakı bəzi adamlar deyirlər ki, bunda mənim payım nədir? O da görür ki, bunun tələb elədiyi payı burada əldə edəcəyi qazanc heç ödəməyəcək, ona görə də çıxıb gedir.

Mən investisiyalar üzrə xüsusi agentlik yaratmışam. Yaxın vaxtlarda bu orqan təşkil olunacaq, fəaliyyətə başlayacaqdır ki, xarici investorlar o qapıya, bu qapıya, onun yanına, bunun yanına getməsinlər. Allah eləsin ki, o adamlar da orada düz işləsinlər.

Hər halda, görürsünüz, özəl sektorun yaranması, inkişaf etdirilməsi üçün, xarici investisiyanın Azərbaycana cəlb olunması üçün biz bütün imkanlarımızdan istifadə edirik. Qanunlar qəbul edirik, fərmanlar verirəm, müəyyən təşkilatlar yaradırıq. Demək, indi bu məsələlərin icra olunması bizim icra orqanlarının üzərinə düşür. Təkcə sizin yox, Azərbaycanın bütün icra orqanlarının üzərindədir. Siz də bu məsuliyyətinizi anlamalısınız. Hər biriniz bilməlisiniz ki, əgər Azərbaycanda yaxşı yaşamalısınızsa, yaxşı yaşamaq istəyirsinizsə, uşaqlarınızın, nəvələrinizin gələcəkdə firavan yaşamasını istəyirsinizsə, arzulayırsınızsa, gəlin, bu dövləti, hüquqi dövləti birlikdə quraq. Gəlin, iqtisadi siyasətimizi birlikdə həyata keçirək, özəl sektoru yaradaq. Gəlin, bunları birlikdə edək.

Ola bilər, indi bəzi hüquq-mühafizə orqanları işçilərinin başqalarına nisbətən elə bir ehtiyacları yoxdur. Başqa çox ehtiyaclı adamlar var. Birincisi, onları da düşünmək lazımdır. İkincisi, siz gələcək övladlarınızı, nəvələrinizi də düşünməlisiniz ki, onlar necə yaşayacaqlar. Əgər biz bu dövləti, demokratik, hüquqi dövləti, bazar iqtisadiyyatı yolu ilə gedən dövləti qursaq - və bunu qurmalıyıq - Azərbaycanın iqtisadi potensialı o qədər böyükdür ki, onu beləliklə hərəkətə gətirib Azərbaycanın iqtisadiyyatını inkişaf etdirəcəyik və ölkəmizin hər bir vətəndaşına normal, firavan həyat sürməyi təmin edə biləcəyik. Bu, bizim hamımızın vəzifəsidir. Təkcə prezidentin yox, hər bir vəzifəli şəxsin vəzifəsidir, hər bir vətəndaşın vəzifəsidir. Çünki bu ölkə bizimkidir, bu xalq, bu dövlət bizimkidir. Gəlin əl-ələ verək, bunları həyata keçirək.

Beləliklə, bu gün siz prokurorluqda yaranmış vəziyyət haqqında mənim fikirlərimi dinlədiniz və mən sizin qarşınızda duran vəzifələri də dedim. Təbiidir ki, mən burada bu vəzifələrin hamısını sizə izah etmək məqsədini qarşıma qoymamışam. Bu da mümkün deyildir. Bunu siz etməlisiniz. Baş prokuror Qaralov işə başlayarkən dediyim bu prinsiplər əsasında başlamalıdır. Baş prokuror özü, gələcəkdə onun müavinləri və başqa rəhbər işçilər bu prinsiplər əsasında işləməlidirlər. Pəncərələri açın, açın pəncərələri, keçmişdə prokurorluqda olan bütün qeyri-sağlam ab-havanı təmizləyin. Orada yaxşı bir hava olsun, sağlam hava, sağlam mühit olsun, işləyin.

Yenə də deyirəm, mən prokurorluqda işləyən insanların əksəriyyətini sədaqətli və peşəkar işçi hesab edirəm. Təbiidir ki, belə adamlara etimad göstərmək, etibar etmək lazımdır və bunlarsız iş gedə bilməz. Amma eyni zamanda kimsə bizim bu işlərimizə mane olursa, qanunları pozursa... O gün orada aparılan söhbətdə deyilən qanun pozuntusu halları hamısı təhlil olunmalıdır və bunu siz etməlisiniz. Xüsusən gərək rəhbərlikdə səmimi münasibətlər olsun. Gələcəkdə baş prokurorun müavinləri olacaqdır. İndi biz müavinləri də bir az ixtisar edirik, yeni qanunla müavinlər ixtisar olunur. Gərək ki, iki, yaxud üç müavin olacaqdır (*yerdən – üç*). Üç müavin olacaqdır. Ona görə gərək müavinlər də düzgün seçilsin, idarə rəisləri də. Kim bu tələblərə cavab verirsə – işləsin, amma kim ki, bu tələblərə cavab vermir, demək, dəyişilməlidir.

Başqa işlər də görülməlidir. Ancaq yenə də deyirəm, siz bilin, dövlətçilik prinsipi, qanunun aliliyi bizim hamımız üçün hər şeydən üstün olmalıdır: prezident üçün də, hər bir prokuror üçün də, hər bir polis üçün də, hər bir vətəndaş üçün də!

Mən bu gün bu tənqidi sözləri sizə deyərək, eyni zamanda ümid edirəm və çox ümid edirəm ki, sizə ünvanlanmış sözlərimdən nəticə çıxaracaqsınız və prokurorluğun işində ciddi dönüş yaradacaqsınız, öz nailiyyətlərinizlə həm kollektivinizdə sağlam əhval-ruhiyyə yaradacaqsınız, sağlam mənəviyyat mühiti yaradacaqsınız, həm də respbulikada prokurorluğun hörmətini qaldıracaq, dövlət qarşısında öz vəzifələrinizi yerinə yetirə biləcəksiniz.

Sizə uğurlar arzulayıram. Sağ olun.

## TÜRKİYƏ CÜMHURİYYƏTİNİN DİNİ İŞLƏR NAZİRİ MEHMET NURİ YILMAZIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*26 aprel 2000-ci il*

**Heydər Əliyev**: Hörmətli nazir! Hörmətli qonaqlar!

Azərbaycana xoş gəlmisiniz! Güman edirəm ki, hörmətli şeyx ilə çox işlər görmüsünüz və bizim ölkələrimiz arasında, xalqlarımız arasında, Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin inkişaf etməsinə öz xidmətlərinizi bir daha göstərmisiniz. Ona görə təşəkkür edirəm və çox məmnunam ki, sizi qəbul edirəm.

Biz son dəfə Naxçıvanda görüşmüşdük. Orada sizinlə bərabər tikilmiş məscidi, cameni açdıq, böyük bir iş gördük. İndi də buradasınız, Bakıdasınız. Təşəkkür edirəm.

**Mehmet Nuri Yılmaz:** Hörmətli cümhur başkanım, bizi qəbul etdiyinizə görə öz adımdan və həmkarlarım adından çox təşəkkür edirəm, Sizə hörmətimi bildirirəm.

Üç gündür buradayıq. Cənab şeyxülislam çox yaxşı münasibət göstərdi. Biz ona da təşəkkür edirik. Bir neçə camemiz var idi, onların açılışlarında iştirak etdik. Bu gün isə Bakı Dövlət Universitetinin ilahiyyat fakültəsini ziyarət etdik. Sizin də qeyd etdiyiniz kimi, bu, ölkələrimiz arasında sevgi tellərinin daha da qüvvətlənməsinə səbəb olacaqdır.

Mənəviyyatsız həyat olmaz. Biz də dini doğru öyrətmək, insanlara ibadətləri doğru öyrətmək üçün yardım göstəririk. Zati-alilərinizin böyük dəstəyini gördük. Buna görə də sizə minnətdarlığımızı bildirir, hörmət və ehtiramımızı ərz edirəm. Təkrar təşəkkür edirəm.

**Heydər Əliyev:** Çox sağ olun. Burada camelər açmısınız?

**Hacı Allahşükür Paşazadə** *(Qafqaz müsəlmanları idarəsinin sədri, şeyxülislam)***:** Bəli. Möhtərəm prezident, icazə verin, qısa şəkildə deyim. Bu camelər çoxdan tikilmişdir. Cənab Nuri Yılmazın müəyyən işləri olduğuna görə bura gəlişi bir az çətinləşmişdi, bunların açılışı olmamışdı. Bir növ bunları qanuniləşdirmək üçün biz ikimiz də həmin camelərə getdik və bu camelərdə camaatla bir yerdə olduq, namaz qıldıq və onların açılışını elan etdik ki, ora bu gündən fəaliyyət göstərir. İnşallah, camaat burada namaz qılacaq, ibadət edəcəkdir.

Həmin camelərin yaxşı cəhəti odur ki, biz onlara iki nəfər - həm imam, həm də axund təyin etdik. Yəni siz bilirsiniz ki, Azərbaycanda iki məzhəb olduğuna görə, hər ikisinin eyni olmasını nəzərə alaraq qardaşlığı daha da yüksəltmək üçün biz həmin camelərdə belə addımları atdıq. Camaat orada sizin üçün, xalqımız üçün, həm də Türkiyə xalqı üçün, Türkiyə-Azərbaycan dostluğunun, qardaşlığının daha da möhkəmlənməsi üçün dualar oxuyurlar. Bu, Qubada, Qusarda, Ağdaş rayonunun Ləki qəsəbəsində, Yevlaxda, Mehdiabadda olmuşdur.

**Heydər Əliyev:** Yəni Abşeron rayonunda.

**Hacı Allahşükür Paşazadə:** Bəli, Abşeronda. Yəni olmayan yerlərdə. Başqa yerlərdə də var idi, amma hələ qanuniləşməmişdi. Biz açılış keçirərək onları qanuniləşdirdik. Ona görə də Sizə bir daha təşəkkürümü bildirirəm. Bu məscidlərin hər biri qardaşlıq, dostluq ocağı olacaqdır. Bu, həm də Azərbaycanda vicdan azadlığının rəmzidir. Azərbaycanda kilsələr də tikilir, başqa dini məbədlər də tikilir. Onlardan da xəbərimiz vardır. O cümlədən də məscidlər bərpa olunur, tikilir və biz Sizin dövrünüzdə bizə verdiyiniz imkanlardan istifadə edirik. Bu, sizin mənəviyyata verdiyiniz böyük qiymətdir. Onu da deyim ki, bu məscidlər ancaq və ancaq qardaşlıq, dostluq üçündür. Bu, ayırmaq üçün deyil, inşallah, birləşdirici rol oynayacaqdır.

**Heydər Əliyev:** Təbiidir. Azərbaycanda vicdan azadlığı bizim əldə etdiyimiz istiqlaliyyətin nəticəsidir. Bilirsiniz ki, biz 70 il öz dinimizdən məhrum olmuşuq. Təbiidir ki, bizim keçmiş ölkəmizdə vicdan azadlığı da olmayıbdır. Ancaq istiqlaliyyət, müstəqillik əldə edilən kimi bizim bütün insanların azadlıqları təmin olundu, o cümlədən vicdan azadlığı. Bunların da hamısı ölkəmizi daha da yüksəldir. Çünki insan azad olmalıdır, insan istədiyini etməlidir. Təbiidir ki, qanunsuz iş görməyərək istədiyini etməlidir.

Dünyada olan hər bir insan hansısa bir dinə mənsubdur. Din insan yaranandan yaranıbdır. Ona görə də insanı dindən məhrum etmək olmaz. Əksinə, insan öz dininə inanırsa, buna xidmət edirsə, daha da pak olur, təmiz olur, cəmiyyətdə daha da faydalı iş görür və dövlət üçün də faydalı iş görür. Ona görə də, təbiidir, - bu məscidlər, camelər məhz insanların mənəviyyatca yüksəlməsinə xidmət etməlidir. Elə Qurani-Kərim də bunu tələb edir, dinimiz də bunu tələb edir və Sizin apardığınız işlər də məhz bu tələblər əsasında qurulur. Buna görə də gördüyünüz işlərə görə çox məmnunam.

Mən bir daha deyirəm, şeyx həzrətləri də doğru buyurdu ki, bu camelər Türkiyə ilə Azərbaycan arasında olan dostluq, qardaşlıq əlaqələrini daha da möhkəmləndirəcək, daha da inkişaf etdirəcəkdir.

**Mehmet Nuri Yılmaz:** Möhtərəm prezident, bizim bir xahişimiz vardır. İlahiyyat məktəblərində tələbələr təhsillərini başa vurduqdan sonra məzunların bir qismini Türkiyədə oxutdururuq, bir qismi də magistraturada oxuyur. Bizim məktəblərdə dördüncü, beşinci siniflərdən başlayaraq din dərsi tədris olunur. Yəni həm müsəlmanlıq, həm xristianlıq, həm də yəhudiliklə bağlı təhsil verilir. Arzumuz odur ki, bu məktəblərin məzunu olan gənclər buradakı məktəblərdə din dərsi tədris etsinlər, müəllimlik etsinlər. Bu sahədə cənab şeyxülislam da böyük səylər göstərir. Tələbələr təhsili bitirdikdən sonra onlara bir iş yeri lazımdır. Onlar ya camelərdə imamlıq edəcək, ya da məktəblərdə dərs keçəcəklər. Yəni müsəlmanlıq, xristianlıq və yəhudilik üzrə. Eynən bizdə olduğu kimi, burada da bu dərslər keçilsə çox faydalı olar.

**Hacı Allahşükür Paşazadə:** Cənab prezident, Sizin gənclərlə görüşünüzdəki çıxışınız bizim üçün, demək olar ki, bir yol açdı. Baxmayaraq ki, çətinliklərimiz vardır. Biz bu sahədə kitablar hazırlayırıq. Bugünkü gündə o kitabları yüksək səviyyədə hazırlayırıq. Yəni dində olan əsaslara - Vətən sevgisinə, bayrağa, Vətənə, torpağa, millətə, şəhidliyə aid. Həm də insanlar dinin nə olduğunu bilsin deyə, ikinci sinifdən başlayaraq keçilmək üçün belə kitablar hazırlayırıq. İstəyirik ki, bizim müsəlmanlarımız adi şəraitdə özünün kim olduğunu uşaqlıqdan bilsin. Ona görə də həzrətin xahişi ondan ibarətdir ki, yaxşı olardı bizim dövlət məktəblərində, əgər imkan olarsa, ya dərs vaxtı, ya da dərsdən sonrakı dövrdə, artıq saatlarda dini öyrətmək üçün dərs keçilsin. Fərqi yoxdur, xristianlar xristian dinini öyrənsinlər, yəhudilər yəhudi dinini öyrənsinlər, müsəlmanlar islam dinini öyrənsinlər. Yəni hansı dinə mənsub adamlar burada yaşayırlarsa, qoy öz dinindən xəbərdar olsunlar. Bəzi Avropa missionerləri və başqa təriqətlər bunları istəyirlər xristian etsinlər, ya da öz dinindən qaytarsınlar. Elə edək ki, insanlar öz haqqını başa düşsünlər. Sizdən bunları rica edərdik və gələcəkdə biz buna hazırlaşırıq. Sizdən bunu xüsusi xahiş edirik. Hələ kitab hazır deyil, amma onun üzərində işləyirik.

**Heydər Əliyev:** Hazırlaşın, hazırlaşın. Verərsiniz, baxaram. Bir şey çox vacibdir ki, tələbələr məktəbdə dərsdə olarkən dinin tarixini bilsinlər. Həm islam dininin, həm xristian dininin. Çünki sovetlər birliyində din tamamilə qadağan olunduğuna görə insanların din haqqında məlumatı da yoxdur. O hakimiyyət dini nəinki yasaq etmişdi, hətta belə bir fikir var idi ki, din insanlar üçün tiryəkdir. Bilirsiniz də, tiryək nədir?

**Mehmet Nuri Yılmaz:** Bəli.

**Heydər Əliyev:** Leninin bir şüarı var idi ki, din xalqın tiryəkidir. Elə bu sözdən əsas götürülmüşdü. Ona görə də dinlə əlaqədar olan hər bir tarix bizim təhsildən tamamilə kənarda idi. Amma bu da bir tarixdir. Xristian dininin də yaranması, inkişaf etməsi və yayılmasının tarixi, müsəlman dininin də həmçinin, yaxud da buddizmin, yaxud da ki, yəhudinin də, başqalarının da. Cəmiyyəti bilmək istəyən adam, insan cəmiyyətini, insan tarixini bilmək istəyən adam gərək, əlbəttə ki, tarixin bu hissəsini də bilsin. Bunu bilməyən adam tarixi tamamilə bilə bilməz. Keçmişdə dinə qarşı o qədər mənfi münasibət yaradılmışdı ki, insanlar dinə də, dini dualara da, yaxud o dini müəyyən qədər, ola bilər, gizli olaraq icra edənlərə də mənfi münasibət göstərirdilər. Yaxud da onları keçmişin qalığı hesab edirdilər ki, artıq bizim cəmiyyət bunsuz yaşaya bilər.

Ancaq mən bilirəm ki, bütün ölkələrdə, eləcə də Qərb ölkələrində məktəblərdə din tarixini öyrənirlər. Ona görə biz də buna baxmalıyıq. Siz də fikirlərinizi deyin. Baxarıq, mütləq baxarıq.

Çox gözəl. Sizə bir də təşəkkür edirəm. Çox məmnunam. Sağ olun.

**Mehmet Nuri Yılmaz:** Çox təşəkkür edirik, sağ olun.

## AZƏRBAYCAN PREZİDENTİ VƏ GÖRKƏMLİ ALİM, PROFESSOR İHSAN DOĞRAMACI ƏFRASİYAB BƏDƏLBƏYLİNİN «QIZ QALASI» BALETİNƏ BAXDIQDAN SONRA TEATRIN YARADICI KOLLEKTİVİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT *

*Azərbaycan Akademik Milli Opera və Balet Teatrı*

*26 aprel 2000-ci il*

**H e y d ə r Ə l i y e v:** Əziz dostum İhsan bəy, mən böyük məmnunluqla teatrın yaradıcı kollektivini Sizə təqdim edirəm. Görürsünüz, necə gözəl qızlardır?

**İ h s a n D o ğ r a m a c ı:** Dünyanın ən gözəl qızları və ən birinci sənətçiləri bunlardır.

**H e y d ə r Ə l i y e v:** Ona görə də mən deyirəm ki, Azərbaycanın qızları və qadınları bütün dünyadakı qızlardan gözəldir. Amma oğlanları da gözəldir.

Cavanşir Cəfərov baş dirijordur. Musa Mirzəyev Azərbaycanın böyük bəstəkarıdır. O, 60 il bundan əvvəl yazılmış əsəri yenidən işləyibdir. Fərhad Bədəlbəylini isə yaxşı tanıyırsan, Bilkənd Universitetində çox olubdur.

**H e y d ə r Ə l i y e v**: Bu gün «Qız Qalası» baletini yenidən bizə və bütün Azərbaycana çox gözəl göstərdiniz. Mənə bildirmişdilər ki, «Qız Qalası» baleti yenidən işlənibdir. Türkiyədən gələn dostlarımıza bildirmişəm ki, bu baleti 1940-cı ildə bizim mərhum böyük bəstəkarımız Əfrasiyab Bədəlbəyli yazıbdır. Bu, Azərbaycanın ilk milli baletidir. Əgər Azərbaycan xalqı 60 il bundan öncə belə bir bəstəkar yetişdiribsə və belə bir milli baleti tamaşa qoyubsa, görün xalqımızın mədəniyyət səviyyəsi nə qədər yüksəkdir! Azərbaycan baletinin ilk balerinası Qəmər Almaszadədir. O, indi sağdır, bizimlə bərabərdir, ola bilər, bu gün buraya gələ bilməyibdir. O vaxt bu tamaşanın bütün quruluşunu Qəmər Almaszadə hazırlayıbdır. İndi həmin quruluşdur, həmin musiqidir.

Yenə də deyirəm, quruluş həmin quruluşdur. Ancaq Musa Mirzəyev onun musiqisini bir az müasirləşdiribdir. Bədii tərtibat çox gözəldir. Bu tamaşanın üzərində çalışanlar Qəmər Almaszadənin quruluşunu bu gün çox gözəl nümayiş etdirdilər.

Milli baletimizin 60 illik tarixi vardır. Milli operamızın tarixi 100 ilə yaxındır. Bizim böyük bəstəkarımız Üzeyir Hacıbəyov ilk dəfə 1908-ci ildə "Leyli və Məcnun» operası ilə Azərbaycan operasının təməlini qoyubdur. O vaxtlar Türkiyədə bunlar yox idi, başqa şeylər var idi.

Bizim xalqımız bu dünyəvi, layiq, ümumbəşəri dəyərləri hələ XIX əsrdə mənimsəyibdir, qəbul edibdir və XX əsrin əvvəlindən Azərbaycanda hər bir sahə, o cümlədən mədəniyyət sahəsi çox inkişaf edibdir.

Mən çox şadam ki, bu balet yaşayır. Bizim milli baletimiz, milli musiqimiz, milli rəqslərimiz olduğuna görə mən hələ gənc yaşlarımdan bu baleti sevirəm. Mən bu baletə bir neçə dəfə baxmışam. Bu balet uzun bir fasilədən sonra yenidən canlanıbdır, səhnəyə qoyulubdur. Bu ifaçılar da, təbiidir ki, onu çox gözəl ifa etdilər. Bilmirəm, siz necə, mən çox təsirləndim.

**İ h s a n D o ğ r a m a c ı:** Mən də çox təsirləndim. Mən dünyanın çox ölkələrində balet tamaşalarına baxmışam, amma bunun qədər gözəlini, yaxşısını görməmişəm.

**H e y d ə r Ə l i y e v:** Mən çox təsirləndim. Deməк, bizim mədəniyyətimiz yaşayır, inkişaf edir, hətta keçmiş illərə, onilliklərə görə daha da yüksək səviyyədədir.

Mən çox məmnunam, sizin hamınızı təbrik edirəm. Hamınıza təşəkkür edirəm. Bizim incəsənətimiz, operamız, baletimiz, yəni dünyəvi teatrımız daim yaşamalıdır. Azərbaycan dünyəvi teatrının 125 illik tarixi vardır. İndi biz onun yubileyini qeyd edirik. Teatrımız, incəsənətimiz yaşamalıdır və göstərməlidir ki, Azərbaycan xalqı kökündən mədəniyyətə mənsub olan xalqdır. Azərbaycan xalqı dünya mədəniyyətindən, ümumbəşəri dəyərlərdən həmişə istifadə edib və istifadə edəcəkdir. Bunun da ifaçıları sizsiniz. Mən hamınızı təbrik edirəm.

Tamaşanın rəssamı da çox gözəl tərtibat veribdir. Keçmişdə də bu tamaşanın müxtəlif tərtibatı olubdur. Bugünkü tərtibat da çox gözəldir. Sizin hamınıza təşəkkür edirəm.

Bilirsiniz ki, mən sizin maaşlarınızı altı dəfə artırdım. Mən Azərbaycanda heç bir təbəqənin maaşını altı dəfə artırmamışam. Onların bir hissəsinin əmək haqqını 25 faiz, başqalarının maaşını 30 faiz, 2 dəfə, amma sizin əmək haqqınızı altı dəfə artırmışam. Bilmirəm, bu, sizə çatır, ya çatmır?

**İ h s a n D o ğ r a m a c ı:** Yenə də azdır.

**H e y d ə r Ə l i y e v:** Əgər belə çalışsanız, baletimizi inkişaf etdirsəniz bir müddətdən sonra bu məsələyə yenidən baxaram, maaşınızı bir neçə dəfə yenə də artıraram. Çünki bu, çox ağır sənətdir.

---

* Tamaşaya İhsan Doğramacının xanımı və ailə üzvləri də baxmışlar.

**İ h s a n  D o ğ r a m a c ı:** Amma bu müddət uzun çəkməsin.

**H e y d ə r  Ə l i y e v:** Bəli, uzun çəkməyəcək. Yenə də deyirəm, bu, çox ağır, çətin sənətdir.

**İ h s a n  D o ğ r a m a c ı:** Cənab prezident, mənimlə buraya Türkiyədən çoxlu tələbələr də gəlibdir. Mən onlara dedim ki, hər biriniz Azərbaycandan gözəl bir qız alıb aparın ki, Türkiyədə nəslimiz gözəlləşsin.

**H e y d ə r  Ə l i y e v:** Hələ baxmaq lazımdır ki, qızlar onlara gedəcəklər, ya yox.

**İ h s a n  D o ğ r a m a c ı:** Azərbaycanın bütün qızları gözəldir.

**M u s a  M i r z ə y e v** (*bəstəkar)*: Mən demək istəyirəm ki, «Qız Qalası» Şərqdə, müsəlman aləmində ilk baletdir.

**Y u l a n a  Ə l i k i ş i z a d ə** (*baletmeyster*): Hörmətli prezident, tamaşamıza baxmağa gəldiyinizə görə bütün truppamız adından Sizə təşəkkürümüzü bildirmək istəyirəm. Balet sənətimizə belə böyük diqqət və qayğı göstərdiyinizə görə də Sizə dərin minnətdarlığımızı bildiririk. Sizin fərmanınızla bizim maaşımız dəfələrlə qaldırıldı. Əlbəttə, bu, bizim üçün böyük sevinc, eyni zamanda, böyük məsuliyyətdir. Buna görə də söz veririk ki, Azərbaycan baletinin, incəsənətimizin daha da inkişaf etməsi üçün qüvvə və bacarığımızı əsirgəməyəcəyik.

Cənab prezident, sizə bir daha «çox sağ olun» deyirik.

**H e y d ə r  Ə l i y e v:** Sağ olun. Mən bir məsələni də demək istəyirəm. Adətən, bir dəfə, iki dəfə gəlirlər, mənə müraciət edirlər ki, müəllimlərin, həkimlərin, onun, bunun maaşını artırın. Amma gərək mən büdcəyə baxam ki, imkan var, yoxsa yox. Maaşları az olmasına baxmayaraq, Dövlət Akademik Opera və Balet Teatrının kollektivi bir dəfə də xahiş etməmişdi ki, onların maaşını artırım. Bunlar aşağı maaşla yaşayıb və bu cür fədakarlıqla çalışıblar. Mən özüm bildim və bunların maaşının artırılması şəxsən mənim öz təşəbbüsümdür.

**İ h s a n  D o ğ r a m a c ı**: - Hörmətli prezident, sabah səhər mən cismən təyyarədə olacağam, amma ürəyim Sizinlə qalacaqdır. Sağ olun.

**H e y d ə r  Ə l i y e v:** Sizə yaxşı yol, böyük uğurlar arzulayıram. Azərbaycana yenə də gəlin, şəxsən mənim qonağım olun. Siz mənim çox etibarlı dostumsunuz. Sağ olun.

**CƏNUBİ AFRİKA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB TABO MBEKİYƏ**

Hörmətli cənab prezident!

Cənubi Afrika Respublikasının milli bayramı – Azadlıq günü münasibətilə Sizi və dost Cənubi Afrika Respublikası xalqını ürəkdən təbrik edir, Sizə cansağlığı və fəaliyyətinizdə uğurlar, ölkənizə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Cənubi Afrika Respublikası arasındakı əlaqələr xalqlarımızın mənafeyi naminə inkişaf edib genişlənəcək, ölkələrimizin dirçəlişinə xidmət edəcəkdir.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *27 aprel 2000-ci il*

**BAKININ NƏSİMİ RAYONU ƏRAZİSİNDƏKİ YENİ PARKLA TANIŞLIĞI VƏ RAYON SAKİNLƏRİ İLƏ SÖHBƏT**

*28 aprel 2000-ci il*

**H e y d ə r Ə l i y e v:** Mən sizin hamınızı səmimi-qəlbdən salamlayıram. Vaxtilə baxımsız olan bu yerlərdə saldığınız istirahət guşələri, əyləncə meydançaları, fəvvarələr, gözəl şəlalə kompleksi, yaşıl xiyabanlar çox yaraşıqlıdır. Mən sizlərə gözəl istirahət arzulayıram. Bura toplaşan təhsil işçilərinə, əmək veteranlarına məktəblilərə təşəkkür edirəm. Məktəblilərə təhsildə, həyatda uğurlar və vətənin layiqli övladları olmağı arzulayıram.

**Q i s m ə t H ü s e y n o v a** (*54 nömrəli orta məktəbin müəllimi*): Biz burada gözəl «Heydər parkı» salmışıq. Vaxtilə buralar çirkli bir yer, zibillik idi. Amma indi Sizin qayğınız sayəsində burada fəvvarələr yaradılıb, işıq çəkilib, yaşlı müəllimə də olsam mən hər gün nəvələrimlə buraya gəlirəm. Buna görə də Sizə təşəkkür edirəm. Allah Sizə o qədər ömür versin, ömrünüzü o qədər uzatsın ki, Sizin şərəfinizə salınan parkların sayı artsın, gözəl şəhərimiz daha da yaraşıqlı olsun.

**H e y d ə r Ə l i y e v:** Mənim də məqsədim budur ki, 30 il bundan əvvəl başladığım proqramla Bakını yaşıllaşdırım. Təkcə Bakını yox, bütün Azərbaycanı. Amma birinci növbədə Bakını. Çünki Bakı böyük şəhərdir, sənaye şəhəridir və keçmişdə burada yaşıllıq olmayıbdır, ağaclar olmayıbdır.

30 il bundan əvvəl mən bu proqramı irəli sürdüm, çox işlər gördük. İndi də son illər görürəm ki, yerli təşəbbüslərlə hər bir rayonda yeni parklar salınır. Çox gözəldir, insanların yaşayışı üçündür. Burada yaşayan insanlar çıxıb parkda otururlar, gəzirlər, söhbət edirlər, bir-biri ilə görüşürlər. Uşaqlar burada dincəlir, oynayırlar. Mən bütün bunların hamısını bunun üçün edirəm, xalqımız üçün edirəm.

**Z e m f i r a T a ğ ı z a d ə** (*Bakı Dövlət Universitetinin dosenti, Azərbaycanın Milli Qəhrəmanı Eldar Tağızadənin anası)*: - Hörmətli, əziz, ən sevimli prezidentimiz!

Siz bizim Nəsimi rayonuna xoş gəlmisiniz! Həmişə siz gələsiniz. Biz bu günü çoxdan arzulayırdıq, gözləyirdik.

Baxmayaraq ki, işiniz olduqca çoxdur, ağırdır, Siz o qədər iş görmüsünüz ki! Sizin bütün işləriniz göz qabağındadır. Mən Bakıya baxıram, - şəhərimiz daha da cavanlaşır. Hər yerdə təzə evlər, binalar, gözəl-gözəl parklar, təzə bağlar yaradılıbdır. Şəhərdə hər yerdə abadlıq işləri gedir. Bu işlərə görə biz Sizə «sağ ol» deməliyik.

Mən Nəsimi rayonunda yaşayıram, Bakı Dövlət Universitetinin dosentiyəm. Mənim oğlum Eldar Tağızadə şəhid olub, Azərbaycanın Milli Qəhrəmanıdır. Mən də balamın işini davam etdirib bu rayonda şəhid uşaqları və anaları xeyriyyə mərkəzini yaratmışam. 200 şəhid ailəsi mənimlə işləyir. Biz uşaqlara çox qayğı göstəririk.

Mən bütün şəhid ailələri adından Sizə öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Siz bizi heç vaxt unutmursunuz, həmişə yada salırsınız. Siz bütün çıxışlarınızda həmişə şəhidlərin adlarını çəkirsiniz. Mən Sizə minnətdaram ki, indi qadınlarımız ağlamırlar, evlərə tabutlar gəlmir, biz sakit yaşayırıq. Bu sakitliyin nə demək olduğunu biz şəhid anaları çox yaxşı başa düşürük. Buna görə mən Sizə minnətdarlığımı bildirirəm və ana kimi Sizin qarşınızda baş əyirəm.

Heydər müəllim, mayın 10-u Sizin ad gününüzdür və buna görə də mən bütün şəhid ailələri adından Sizi təbrik etmək istəyirəm. Sizə cansağlığı, uzun ömür, olduqca çətin işlərinizdə uğurlar arzulayıram. Allah həmişə Sizi qorusun! Olarmı Sizi öpüm? Min yaşayın!

**H e y d ə r Ə l i y e v:** Çox sağ olun.

**Z e m f i r a T a ğ ı z a d ə:** Siz Vera xanım Şiryeyə Azərbaycanın ən yüksək mükafatını – «İstiqlal» ordeni vermisiniz. Siz Davosdan qayıdanda vaxt tapdınız, ona zəng etdiniz. İnandırıram ki, bu qadın Sizin zənginizi hər gün yada salır. Hər dəfə süfrə başında deyir ki, ay Allah, ona o qədər cansağlığı, ömür ver ki, həmişə bizim Azərbaycanın prezidenti olsun. Çox sağ olun. Allah Sizə cansağlığı versin.

**H e y d ə r Ə l i y e v:** Çox sağ olun. Allah bütün şəhidlərə rəhmət eləsin. Sənin oğluna da Allah rəhmət eləsin.

Şəhid ailələri bizim üçün həmişə əziz olub, əziz olacaqdır. Siz də, təbiidir ki, gənc nəsli vətənpərvərlik ruhunda, şəhid olanların o şəhidliyinin nümunəsində tərbiyə etməlisiniz, böyütməlisiniz.

**Z e m f i r a T a ğ ı z a d ə:** Bilin ki, biz Sizin işlərinizi həmişə dəstəkləyirik və həmişə Sizin arxanız, dayağınız olacağıq. Çox sağ olun.

**H e y d ə r Ə l i y e v:** Təşəkkür edirəm.

**R i m a H ə n i f ə y e v a** (*54 nömrəli orta məktəbin direktoru*): Bu gün mənim də sevincimin həddi-hüdudu yoxdur. Belə ki, dünya şöhrətli bir şəxsiyyətlə görüşmək mənim çoxdankı arzum idi. Nəhayət, bu arzuma çatdım.

Hörmətli prezidentimiz, Siz təhsil işçilərinə həmişə qayğı göstərirsiniz. Bu yaxınlarda bir qrup təhsil işçisinə fəxri adlar – «Əməkdar müəllim» adı vermisiniz. O siyahıda mənim də adım vardır.

**H e y d ə r Ə l i y e v:** Təbrik edirəm.

**R i m a H ə n i f ə y e v a:** Ona görə də müəllimlərin adından, şəxsən öz adımdan Sizə təşəkkürümü bildirirəm, «Çox sağ olun» deyirəm. Allah ömrünüzü uzun etsin. Yadınıza bir hadisəni salmaq istəyirəm. Yadınızdadırsa, siz hələ Moskvada işləyərkən bizim 54 nömrəli məktəbə gəlmişdiniz. Məktəbimizi çox qiymətləndirdiniz və dediniz ki, «Bu, yaxşı məktəbdir ki, məni buraya gətiriblər». Sizin yaddaşınız möhkəmdir, yadınıza düşər.

**H e y d ə r Ə l i y e v:** Yadıma düşür.

**R i m a H ə n i f ə y e v a:** Biz Sizin qayğınıza, müəllimlərə göstərdiyiniz hörmətə görə daha da yaxşı işləyirik. Məktəbimiz gözəldir, nümunəvi məktəb adını alıbdır. Ona görə də müəllimlərimizin hamısının sizə böyük təşəkkürü vardır. Çox sağ olun, Sizə minnətdarlığımı bildirirəm. Sizi kollektivimiz adından məktəbimizə dəvət edirəm.

**H e y d ə r Ə l i y e v:** Çox sağ olun, təşəkkür edirəm. Məktəbinizdəkilərə salam söyləyin. Bizim cəmiyyətdə müəllimlər həmişə böyük hörmətə layiq olublar. Ona görə də müəllimləri heç vaxt unutmamışam. Çünki bizim hamımız müəllimlərin tərbiyəsini almışıq, müəllimlərin bizə verdiyi dərsə, tərbiyəyə görə böyümüşük. İndi hərəmiz bir yerdə özümüzə görə lazım olan yer tutmuşuq. Müəllimlərin maaşlarını da artırmışam.

**R i m a H ə n i f ə y e v a:** Bəli. Maaşımızı artırdığınıza görə, «Əməkdar müəllim» adı verdiyinizə görə, göstərdiyiniz qayğıya görə bütün müəllimlərin adından, təhsil işçiləri adından Sizə «çox sağ olun» deyirəm.

**Ə l i C ə f ə r o v** (*Nəsimi Rayon Ağsaqqallar Şurasının sədri)*: - Rayonumuzun ağsaqqalları adından Sizə təşəkkürümü bildirirəm. Sizin bütün fikirləriniz, müdrik sözləriniz bizim devizimiz olubdur. Rayonumuzun hər yerində belə abadlıq işləri aparılır. Ağsaqqallar bu işlərdə fəal iştirak edirlər, çox gözəl işlər görürlər. Mənə elə gəlir ki, bu cür davam etdirsək, gələcəkdə vəziyyətimiz çox yaxşı olacaqdır. Bunların hamısı Sizin qayğınızın və köməyinizin nəticəsində mümkün olmuşdur. Onsuz bunları etmək mümkün deyil.

**H e y d ə r Ə l i y e v:** Siz işləyin, biz də qayğını göstərəcəyik.

**Ə l i C ə f ə r o v:** Ona görə də Sizə təşəkkür edirik. Sizin dediyiniz «Hərə bir ağac əksin» sözləri bizim üçün devizdir.

**H e y d ə r Ə l i y e v:** Bəli, mən bunu 30 il bundan əvvəl demişəm.

**Ə l i C ə f ə r o v:** Bəli, çoxdan demisiniz, amma həmin sözlər indi də aktualdır. Biz ağsaqqallar öz üzərimizə öhdəlik götürmüşük ki, hər il ağac əkək, becərək, onu mühafizə edək. Çalışaq ki, şəhərimiz gözəlləşsin, daha da yaxşı olsun.

**H e y d ə r Ə l i y e v:** Çox sağ olun. Bu, sizin üçün, bütün Azərbaycan üçün, uşaqlar üçün, gələcək nəsillər üçün lazımdır.

**Ə l i C ə f ə r o v:** Bizim bu parkın bir gözəl xüsusiyyəti də vardır: onun relyefi Azərbaycanın relyefinə oxşayır. Parkın həm meşəsi, həm də dağı vardır. Çox gözəldir, olduqca xoşumuza gəlir. Elə zənn edirəm ki, Sizin də xoşunuza gəlir.

**H e y d ə r Ə l i y e v:** Bəli.

**Z e m f i r a T a ğ ı z a d ə:** Bu gün mənim üçün ikiqat bayramdır. Birincisi, Sizinlə görüşmüşəm. Bu da mənim şəhid oğlum Eldar Tağızadənin oğludur. Bu gün onun anadan olduğu gündür. Sizi inandırıram ki, bu, çox xoşbəxt uşaqdır ki, anadan olduğu gün Sizinlə görüşür.

**H e y d ə r Ə l i y e v:** Adın nədir?

**K a m a l T a ğ ı z a d ə:** Kamaldır.

**H e y d ə r Ə l i y e v:** Kamal, neçənci sinifdə oxuyursan?

**K a m a l T a ğ ı z a d ə:** 6-cı sinifdə.

**H e y d ə r Ə l i y e v:** Nə cür oxuyursan?

**K a m a l T a ğ ı z a d ə:** Yaxşı.

**H e y d ə r Ə l i y e v:** Çox sağ ol. Gözəl oğlandır. Qoy böyüsün, atası kimi olsun.

**Z e m f i r a T a ğ ı z a d ə:** Bizim balalarımız, şəhidlərin balaları atalarının yolunu davam etdirməli və Azərbaycanın bayrağını zirvələrə qaldırmalıdırlar.

## Q E Y D L Ə R

**1. SSRİ,** S o v e t  S o s i a l i s t  R e s p u b l i k a l a r ı  İ t t i f a q ı – 1922-1991-ci illərdə dünyanın ən böyük və qüdrətli dövlətlərindən biri. Tərkibində 15 müttəfiq respublika, 20 muxtar respublika, 8 muxtar vilayət olmuşdur. – 11,49,99,100.

**2. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları Saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici işlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 11,12,36,52,110,117,120,129,132,134,138, 139,246,248,265.

**3. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dovlət. Ərazisi 17075,4 min km$^2$, əhalisi 146,3 milyon nəfərdir. Rusiya respublika idarəetmə fopmalı demokratik federativ dövlətdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı iki palatalı – Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 11,17,36, 37,52,64,74,80,90,95,98,99,110,123,129,136,137,138,139,154,191,244,323,325,353,359.

**4. Cürcüstan,** G ü r c ü s t a n  R e s p u b l i k a s ı – Zaqafqaziyanın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 5493 min nəfərdir. Dövlətin başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 13-83,88,122,202,203,208,244,245,265,368, 395.

**5. Şevardnadze** E d u a r d  A m v r o s i y e v i ç (d.1928) – Gürcüstanın və SSRİ-nin siyasi və dövlət xadimi. 1972–85-ci illərdə Gürcüstan KP MK-nın birinci katibi, 1985–90-cı illərdə SSRİ xarici işlər naziri, 1994-2003-cü illərdə Gürcüstanın prezidenti olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 13-77,78,79,208,368,395.

**6. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Ərazisi 4 min km$^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə Qarabağ separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822,853,874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyri-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 14,15,20,29,34,35,36,41,42,64,73,123,124,345, 361.

**7. Yerevan,** bax: İrəvan.

**8. Borçalı** – tarixi mahal. Gürcüstan Respublikasında yerləşir. Borçalıya erkən orta əsrlərdə türkdilli tayfalar, XVI-XVII əsrlərdə isə kütləvi surətdə azərbaycanlılar köçmüşdü. Borçalı mahalı Azərbaycan, bəzən də gürcü feodallarının vassallığına çevrilsə də çox zaman müstəqilliyini saxlaya bilmişdi. Borçalı mahalını 1736-cı ildə İran şahı Nadir Qazax mahalı ilə birlikdə Gəncə bəylərbəyliyindən alıb Kartli-Kaxeti çarının tabeliyinə verdi.

Azərbaycanlılar yaşayan ərazilər arasında Rusiya ilk dəfə Borçalı sultanlığını (1801) işğal etmişdir. XIX əsrin ortalarında Borçalı mahalı qəzaya çevrildi. Qəza isə 1929-cu ildə ləğv edilib üç rayona bölündü. Borçalı rayonu 1950-ci ildən Marneuli adlanır. – 16.

**9. Bakı–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006–cı ildə istifadəyə verilmişdir. – 17,20,23,24,29,68,69, 80,81,82,118,121,122,129,134,152,159,167,201,234,364,379,380,395,396

**10. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ)** – Respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 17,24.

**11. Valeh Ələsgərov** (d.1946) – neftçi mühəndis. SSRİ Nazirlər Soveti yanında Xalq Təsərrüfatı Akademiyasını bitirmişdir. Müxtəlif illərdə neft sənayesi sahəsində rəhbər vəzifələrdə çalışmışdır. 2005-ci ildən Milli Məclisdə sədr müavinidir. Qubkin adına Qızıl medal və Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 17,233.

**12. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərq kənarında dövlət. Sahəsi 780,6 min km$^2$, əhalisi 62,7 mln. nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 17,24,32,45,46,55,65,68,80,81,121,122,130,145,147-148,149,150,154,156-182,183-192,193-207,209-221,232-238,244,280, 285,312,313,314,335,352-370,376-399,400-405,432-436,437-440.

**13. Süleyman Dəmirəl** (d.1924) – Türkiyənin görkəmli siyasi, ictimai və dövlət xadimi. Yeddi dəfə hökumətə başçılıq etmiş, 1993–2000-ci illərdə Türkiyə Respublikasının prezidenti olmuşdur. Süleyman Dəmirəlin siyasi fəaliyyətinin mənasını Türkiyəni iqtisadi cəhətdən dinamik inkişaf edən, demokratik dəyərlərə əsaslanan, Avropa ilə qovuşan bir dövlətə çevirmək əzmi təşkil etmişdir. Yeni türk dövlətləri ilə münasibətlərin, xüsusilə Azərbaycanla əlaqələrin genişlənməsi və möhkəmlənməsi Süleyman Dəmirəlin diqqət mərkəzində olmuşdur. Süleyman Dəmirəl: «Türkiyə həmişə Azərbaycanın yanındadır, Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkədir, onun inkişaf etməsi üçün əlindən gələn hər bir yardımı göstərmişdir və göstərməkdə də davam edəcəkdir» kəlamına əbədi sadiq dövlət xadimidir.

S.Dəmirəl Türkiyə–Azərbaycan, xalqlarımız və dövlətlərimiz arasında sarsılmaz dostluq münasibətlərinə xüsusi diqqət göstərdiyinə görə Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 17, 145,147-148,149,150,154,156-182,183-192,193-207,210,212,216,217, 218,219,228,232,234,235,236,280,285,356,359,361,363,364,365,367,368, 395,397.

**14. Putin,** Vladimir Vladimiroviç (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının prezidenti. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası prezidenti administrasiyasının rəhbəri, 1998-99-cu illərdə MTİ-in direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı. Hazırda Rusiya Federasiyasının Baş naziri. – 17,36,37,90,95,138,139.

**15. Saparmurad Niyazov,** Saparmurad Ata oğlu (1940–2007) – Türkmənistanın siyasi və dövlət xadimi. 1985-ci ildən 1990-cı ilə qədər Türkmənistan KP MK-nın birinci katibi. 1990-cı ildən Türkmənistan Respublikasının prezidenti olmuşdur. – 18,169,174.

**16. Əhməd Cavad,** Axundzadə Cavad Məmmədəli oğlu (1892–1937) – Azərbaycan şairi. Yaradıcılığında romantizmlə yanaşı, milli istiqlaliyyətə yenidən qovuşmaq arzusundan doğan meyllər mühüm yer tutur. Azərbaycanın ən dəyərli milli ziyalı nümayəndələrini məhv edən sovet totalitar rejiminin repressiya qurbanlarındandır. – 18.

**17. Bəxtiyar Vahabzadə,** Bəxtiyar Mahmud oğlu (d.1925) – Azərbaycanın xalq şairi, dramaturq, ədəbiyyatşünas. Azərbaycan Dövlət mükafatı laureatı, 1991–2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan Milli EA-nın akademiki. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 18,299-336.

**18. Zəlimxan Yaqub,** Zəlimxan Usub oğlu (d.1950) – Azərbaycanın xalq şairi. «Könlümün səsi», «Yolum eldən başlanıb», «Od aldığım ocaqlar», «Ziyarətin qəbul olsun» və s. kitabların müəllifidir. 1996–2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 18.

**19. ÇUÖAM** – Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997). 2005-ci ildə isə Özbəkistan bu qurumu tərk etdi. – 20,129.

**20. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə relsindən əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 23,29,30,157,160,227,233.

**21. Avropa Birliyi** (AB) – 1951–57-ci illərdə yaranmış üç Qərbi Avropa inteqrasiya təşkilatının ümumi adı (Avropa İqtisadi Birliyi – AİB, Avropa Kömür və Polad Birliyi – AKPB, Avropada Atom Energetika Birliyi – (AAEB). AB ümumi prinsiplərin müəyyən edilməsindən birgə fəaliyyətə qədər bir neçə mərhələ (Avropa İnvestisiya Bankının, Avropa Regional İnkişaf Fondunun – vahid valyuta qəbul etməsi – AVRO-ya) keçmişdir. Mühüm mərhələ Vahid Avropa Aktının (1986–1987-ci ildən qüvvəyə minmişdir) qəbul edilməsi olmuşdur. 1967-ci ildə rəhbər orqanların birləşməsindən sonra – AİB, AKPB və AAEB – Avropa Birliyi – 1993-cü ildə isə Avropa Şurası yarandı. – 24,29,152,153,228, 403.

**22. ATƏT-in İstanbul Zirvə görüşü** – 1999-cu il noyabrın 18–20-də Türkiyənin İstanbul şəhərində ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının iştirakı ilə keçirildi. Bu, ATƏT-in son toplantısı idi. İstanbul sammitində 3 sənəd qəbul olundu. Birincisi – İstanbul xartiyası – dünyada sülhün və təhlükəsizliyin təmin olunması, ölkələrin ərazi bütövlüyünün qorunması, baş vermiş münaqişələrin sülh yolu ilə həll olunması və s. İkinci sənəd Avropada adi silahlar haqqında idi. Üçüncü sənəd isə siyasi bəyannamə idi. – 28,65,118,122,152,154,160,167,379.

**23. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

1992-ci ildən Azərbaycan Respublikası BMT-nin üzvüdür. – 29,30,157, 160,161,233,404.

**24. Avropa–Atlantika Tərəfdaşlıq Şurası** – 1997-ci ildə Şimali Atlantika Əməkdaşlıq Şurasının Portuqaliya sessiyasında yaradılmışdır. Tərkibinə 44 ölkə, o cümlədən Azərbaycan Respublikası daxildir. – 29.

**25. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən AŞ-nın üzvüdür. – 29,51, 340-349,424.

**26. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 29,400-405.

**27. TRASEKA,** T r a n s x ə z ə r  n ə q l i y y a t  d ə h l i z i – Avropanı Asiya ilə birləşdirən yol. Bu nəqliyyat dəhlizini Şərqlə Qərbi birləşdirən orta materik xətti də adlandırmaq olar. Transxəzər nəqliyyat dəhlizi Azərbaycanı, bütünlükdə Qafqazı Avropa ilə birləşdirir. – 29,118,127,134,143,152, 153,158.

**28. İpək yolu**, B ö y ü k  İ p ə k  y o l u – beynəlxalq tarixi tranzit-ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Böyük İpək yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Böyük İpək yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – Böyük İpək yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 29,45,118, 143,152,153,158,201.

**29. İNOQEYT** – neft və qazın Avropaya ixracı proqramı. – 29.

**30. Marneuli rayonu,** bax: Borçalı.

**31. Atəşkəs rejimi** – 1994-cü il mayın 12-də Moskvada Ermənistan–Azərbaycan arasında atəşin müvəqqəti dayandırılması (atəşkəs) haqqında müqavilə imzalandı. Müqaviləyə görə, müharibə aparan tərəflər sülh müqaviləsi bağlanana qədər atəşin dayandırılması haqqında razılığa gəldilər. – 35,42,63,123,124,347,377,393.

**32. «Əsrin müqaviləsi»** – 1994-cü ilin sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 44,67,364,396.

**33. Bakı–Supsa neft kəməri** – 1994-cü ilin sentyabrında Azərbaycan hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir vəsiləsi Bakı–Supsa neft kəməridir. Kəmərin uzunluğu 830 km, gündəlik maksimum ötürmə gücü 115 min barreldir. Supsada hər birinin tutumu 250 min barrel olan dörd terminal tikilmişdir.

1999-cu il aprelin 17-də Supsada ilkin Xəzər neftinin Qərb istiqamətində nəqli üçün Bakı–Supsa ixrac boru kəmərinin və Supsa yerüstü terminalının təntənəli rəsmi açılış mərasimi olmuşdur. – 45,67,121.

**34. Ümumdünya Ticarət Təşkilatı** – 1947-ci ildə qəbul edilmiş müqavilə 23 ölkənin beynəlxalq ticarətdə gömrük rüsumlarının aşağı salınmasına və başqa çətinliklərin aradan götürülməsində hökumətlərarası qəbul etdiyi çoxtərəfli müqavilədir. Bu müqavilə 1995-ci ildə beynəlxalq ticarətdə rüsumlar haqqında qəbul edilmiş müqavilənin hüquqi varisidir.

Təşkilatın əsas prinsipi bütün iştirakçılar üçün münasib mühit yaratmaqdır. Təşkilata 130 ölkə daxildir. – 51.

**35. Çar II Nikolay** (1868–1918) – sonuncu Rusiya imperatoru. Onun hakimiyyəti zamanı 1905–07-ci illər inqilabına səbəb olan Rus–Yapon müharibəsindəki məğlubiyyət, siyasi partiyaların və Dövlət Dumasının yaranmasına imkan yaradan 1905-ci il 17 oktyabr Manifesti, Stolıpin aqrar reformasının həyata keçirilməsi olmuşdur. 1917-ci il fevral inqilabı nəticəsində taxt-tacdan uzaqlaşdırılan II Nikolay bolşeviklərin sanksiyası ilə ailəsi ilə birlikdə Yekaterinburqda güllələndi. 1998-ci ildə II Nikolayın cənazəsinin qalıqları Sankt-Peterburqda Petropavlovsk kilsəsində dəfn edilmişdir. – 54.

**36. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Ərazisi 0,013 min $km^2$, əhalisi 67 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində isə Albaniyanın tərkibində, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal edirlər. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olur. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil edilərkən respublikanın paytaxtı oldu. – 54,55,75,86,203, 282,366,432.

**37. Cəlil Məmmədquluzadə,** M i r z ə  C ə l i l  H ü s e y n q u l u  o ğ l u (ədəbi təxəllüsü Molla Nəsrəddin; 1866–1932) – böyük Azərbaycan yazıçısı, jurnalist, ictimai xadim. Mirzə Cəlilin ictimai-ədəbi

fəaliyyəti XIX əsrin 80-ci illərinin axırından XX əsrin 30-cu illərinə qədərki böyük tarixi dövrü əhatə edir. 40 illik yaradıcılığı boyu müxtəlif janrlarda yazdığı əsərləri ilə Mirzə Cəlil Azərbaycan realist ədəbiyyatının yüksək pilləyə qalxmasında müstəsna rol oynamışdır. 1906-cı il aprelin 7-də çıxan «Molla Nəsrəddin» jurnalının nəşrinə başlamaqla Mirzə Cəlil Azərbaycanda, eləcə də Yaxın Şərqdə satirik jurnalistikanın əsasını qoymuşdur. Bu zamandan Mirzə Cəlil Molla Nəsrəddin adı ilə məşhur oldu. – 55,89,305,314.

**38. «Molla Nəsrəddin»** – həftəlik, illüstrasiyalı ilk Azərbaycan jurnalı. Birinci nömrəsi 1906-cı il aprelin 7-də Tiflisdə çapdan çıxmışdır. 1906–18-ci illərdə Tiflisdə, 1921-ci ildə Təbrizdə, 1922–31-ci illərdə Bakıda nəşr olunmuşdur. Redaktoru və naşiri Cəlil Məmmədquluzadə idi. 25 il ərzində 748 nömrəsi çıxmışdır. Mütərəqqi ideyaların carçısı olan «Molla Nəsrəddin» xalq və demokratiya cəbhəsində duraraq azadlıq düşmənlərini – çar mütləqiyyətini, müstəmləkəçilik siyasətini, geriliyi, mövhumatı, millətçiliyi amansız satira atəşinə tuturdu. Bütün təqib və təzyiqlərə baxmayaraq «Molla Nəsrəddin»in haqq səsi Qafqazın hüdudlarını aşıb Rusiyada, bütün Yaxın və Orta Şərqdə eşidilmişdi. «Molla Nəsrəddin» Azərbaycan xalqının mütərəqqi qüvvələrini, demokratik ziyalıları öz ətrafında toplamışdı. «Molla Nəsrəddin»in yalnız Azərbaycanın deyil, eləcə də Yaxın Şərq ölkələrinin ictimai və ədəbi-bədii fikir tarixində müstəsna rolu olmuşdur. – 55,89,90.

**39. Əzim Əzimzadə,** Əzim Aslan oğlu (1880–1943) – rəssam. Ə.Əzimzadə Azərbaycan təsviri sənətində tənqidi realizmin və realist qrafika sənətinin banisidir. Satirik qrafika, illüstrasiya, siyasi plakat, teatr-dekorasiya sahəsində fəaliyyət göstərmişdir. Əzimzadənin sənətkarlığı orijinal və çoxcəhətlidir. Onun təsvir üslubunda yığcamlıq, obrazlılıq, səlislik kimi cəhətlər üstünlük təşkil edir. – 55,90.

**40. Zirab Jvaniya** (1953–2005) – Gürcüstanın siyasi və dövlət xadimi. 1992–95-ci illərdə Gürcüstan parlamentinin deputatı seçilmiş, 1995-ci ildə spiker vəzifəsini tutmuşdur. 2002-ci ildən «Birləşmiş demokratlar» partiyasına rəhbərlik etmişdir. 2003-cü ilin noyabrında məxməri inqilabın təşkilatçılarından biri olmuş və Baş nazir təyin edilmişdir. – 59.

**41. 1993-cü il iyun hadisələri** – Azərbaycanı vətəndaş müharibəsi həddinə gətirmiş Gəncə hadisələri, Heydər Əliyevin Bakıda Ali Sovetin binası qarşısında keçirilən çoxsaylı mitinqlə, xalqın tələbilə Naxçıvandan Bakıya gəlməsi, Ali Sovetin sədri seçilməsi, o zamankı respublika prezidenti Ə.Əliyevin (Elçibəyin) Kələki kəndinə getməsi, Ali Sovetin sədri Heydər Əliyevin respublika prezidentinin vəzifəsini icra etməyə başlaması nəzərdə tutulur. – 63.

**42. 1994-cü il oktyabr hadisələri** – oktyabrın 3-də Gəncə və Qazaxda, həmçinin Bakıda Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə düşmən olan qüvvələr tərəfindən dövlət çevrilişi cəhdi nəzərdə tutulur. Həmin gün Bakıda fövqəladə vəziyyət elan edilmiş və Azərbaycan prezidenti Heydər Əliyev televiziya və radio ilə xalqa müraciət etmişdi. Gecə olmasına baxmayaraq Bakı və ona yaxın yerlərdən yüz minlərlə insan Prezident Sarayı qarşısına toplaşaraq milli və vətəndaşlıq həmrəyliyi nümayiş etdirərək Heydər Əliyevin siyasətini dəstəkləmişlər. – 63,124,409.

**43. 1995-ci il mart hadisələri** – martın 12-13-də Qazax və Agstafa, martın 16-17-də isə Bakının 8-ci kilometr qəsəbəsində Xüsusi Təyinatlı Polis Dəstəsinin bir qrup üzvünün silahlı çıxışı nəzərdə tutulur. Respublika rəhbərliyinin qəti tədbirləri nəticəsində çevriliş cəhdinin qarşısı alındı və silahlı dəstə tərksilah olundu. – 63,124,409.

**44. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdı. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və Fransa həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 64,74,118,119,123,124,154,361.

**45. Klinton Bill,** U i l y a m C e f e r s o n B l a y d (d.1946) – ABŞ-ın görkəmli siyasi və dövlət xadimi. ABŞ-ın 41-ci prezidenti (1992–2000). Klinton xarici siyasətində SSRİ dağıldıqdan sonra müstəqillik qazanmış dövlətlərlə, o cümlədən Azərbaycan Respublikası ilə münasibətlərin yaxşılaşdırılmasına mühüm əhəmiyyət vermişdir. – 80,83.

**46. Pakistan,** Pakistan İslam Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 796 min km$^2$, əhalisi 133,5 milyon nəfərdir. Paytaxtı İslamabad şəhəridir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. – 84,245.

**47. Zəroş Həmzəyeva,** Z ə r o ş  M i r z ə b a ğ ı r  q ı z ı (d.1925) – aktrisa. Azərbaycan Respublikasının xalq artisti. Səhnə fəaliyyətinə 1942-ci ildən başlamışdır. Azərbaycan dramaturqlarının, xüsusilə C.Cabbarlının, habelə dünya klassiklərinin əsərləri Həmzəyevanın repertuarında xüsusi yer tutur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 85-86.

**48. İbrahim Həmzəyev,** İ b r a h i m  T a ğ ı  o ğ l u (1908–1982) – aktyor və rejissor. Azərbaycan Respublikasının xalq artisti. 1937-ci ildən C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyoru olmuşdur. 1940-cı ildən rejissor kimi də fəaliyyət göstərmişdir. – 85.

**49. Kazım Ziya,** K a z ı m z a d ə  K a z ı m  S ə f ə r  o ğ l u (1896–1956) – Azərbaycan aktyoru, pedaqoq; Azərbaycan Respublikasının xalq artisti. SSRİ Dövlət mükafatı laureatı. K.Ziyanın yaradıcılığının yetkin dövrü Azərbaycan Dövlət Dram Teatrı ilə bağlı olmuşdur. K.Ziya yüksək aktyorluq texnikasına malik sənətkar idi. K.Ziya milli səhnə dilini sistemə salmış ilk Azərbaycan teatr xadimidir. – 85.

**50. Sidqi Ruhulla,** A x u n d o v  R u h u l l a  F ə t u l l a  o ğ l u (1886–1959) – aktyor. SSRİ xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. Onun Azərbaycan, rus və Qərbi Avropa dramaturqlarının əsərlərinin tamaşalarında yaratdığı obrazlar Azərbaycan teatrı tarixində mühüm yer tutur. – 85.

**51. Rza Əfqanlı,** C ə f ə r z a d ə  R z a  R ü s t ə m  o ğ l u (1899–1973) – aktyor. Azərbaycan Respublikasının xalq artisti. SSRİ Dövlət mükafatı laureatı. Rza Əfqanlının səhnədə ifa etdiyi obrazları Azərbaycan teatrı tarixində əhəmiyyətli yer tutur. Onun aktyor oyunu üçün romantik vüsət, ifadəlilik, hər bir obrazın fərdi xüsusiyyətini qabarıq vermək bacarığı səciyyəvi idi. – 85.

**52. Mustafa Mərdanov,** M u s t a f a  H a ş ı m  o ğ l u (1894–1968) – aktyor, Azərbaycan Respublikasının xalq artisti. Yüksək aktyorluq texnikasına malik olan Mərdanovun ifası üçün incə yumor, komizm, parlaq obraz yaratmaq xüsusiyyətinə malik idi. M.Mərdanov həm də Azərbaycan kinosunun ilk və tanınmış aktyorlarından idi. – 85.

**53. Ələsgər Ələkbərov,** Ə l ə s g ə r  H a c a ğ a  o ğ l u (1910–1963) – görkəmli Azərbaycan aktyoru. Azərbaycan və SSRİ xalq artisti. 1933-cü ildən ömrünün sonunadək Azərbaycan Milli Dram Teatrında işləmişdir. Ələkbərovun yaradıcılığı Azərbaycan teatrının inkişafında mühüm rol oynamışdır. Ələkbərov, həmçinin Azərbaycan kinosunun görkəmli aktyorlarındandır. – 85.

**54. «Tiflis əxbarı»** – «Tiflisskiye vedomostı» qəzetinin (1828–33) Azərbaycan dilində buraxılan variantı. 1832–33-cü illərdə Tiflisdə nəşr olunmuşdur. Neçə nömrəsi çıxdığı məlum deyil. «Tiflis əxbarı»nda Azərbaycan dilinə tərcümə olunmuş rəsmi hökumət xəbərləri, dövlət qərarları, daxili və xarici xəbərlər dərc olunurdu. – 87.

**55. «Əkinçi»** – Azərbaycanda ilk milli qəzet. 1875–77-ci illər Bakıda (iki həftədən bir) nəşr edilmişdir. İlk nömrəsi 1875-ci il iyulun 22-də çıxmışdır. Cəmi 56 nömrə (1875-ci ildə 12, 1876-cı ildə 24, 1877-ci ildə 20) buraxılmışdır. Azərbaycanda dövri mətbuatın başlanğıcı sayılan «Əkinçi»nin banisi, redaktoru, naşiri, korrektoru, bəzən də mürəttibi H.Zərdabi olmuşdur. «Əkinçi» elm, maarif və mədəniyyətin, ədəbiyyat və incəsənətin inkişafına, yeni tipli məktəblərin yaradılmasının zəruriyyətinə aid materiallar dərc edirdi. «Əkinçi»nin ətrafına toplaşmış mütərəqqi ziyalılardan M.F.Axundov, S.Ə.Şirvani, Nəcəf bəy Vəzirov, Ə.Gorani və başqaları qəzetdə fəal iştirak etmiş, ictimai, siyasi və bədii fikrin inkişafına böyük təsir göstərmişlər. Çar senzurası tərəfindən təqib olunan «Əkinçi»nin nəşri 1877-ci ilin sentyabrında dayandırılmışdır. – 87,88,91.

**56. Həsənbəy Zərdabi,** M ə l i k o v  H ə s ə n b ə y  S ə l i m b ə y  o ğ- l u (1842–1907) – Azərbaycan maarifçi-demokrat, təbiətşünas alim, publisist və pedaqoq. H.Zərdabi Azərbaycan professional teatrının yaradıcılarındandır. O, Nəcəfbəy Vəzirov və Əsgər ağa Gorani ilə birlikdə 1873-cü ildə M.F.Axundovun «Hacı Qara» pyesini tamaşaya qoymuşdur.

Azərbaycan demokratik mətbuatının banisi olan Zərdabi «Əkinçi» qəzetini nəşr etdirmişdir (1875–77). «Əkinçi» qəzetini nəşr etməsi ilə Zərdabi Azərbaycan xalqının maariflənməsinə çox böyük xidmət göstərmişdir. – 87,91.

**57. Mirzə Fətəli Axundov** (1812–1878) – böyük Azərbaycan yazıçısı, dramaturq, materialist – filosof. Axundov Azərbaycan ədəbiyyatı tarixində pyesləri və fəlsəfi əsərləri ilə tanınmışdır. 1850–55-ci illərdə yazdığı altı komediya ilə Azərbaycan və bütün Şərq ədəbiyyatında realist dramaturgiyanın əsasını qoymuşdur. – 87.

**58. Seyid Əzim Şirvani** (1835–1888) – Azərbaycan şairi. O, Azərbaycan və fars dillərində yazmışdır. XIX əsrin 1-ci yarısında ədəbi məktəb halında formalaşan tənqidi realizm ənənələrindən bəhrələnən S.Ə.Şirvani lirik və satirik Azərbaycan şeirini zənginləşdirmişdir. Yüksək bədii sənətkarlıqla yazılmış lirik şeirlərində – qəzəl, qəsidə, tərkibbənd, müxəmməs, müsəddəs, rübai, qitə–məhəbbət, həyat eşqi tərənnüm olunur. Satirik şeirlərində «xalqın qanını sovuran» çar məmurlarını ifşa etmişdir. – 87.

**59. Nəcəfbəy Vəzirov,** N ə c ə f b ə y F ə t ə l i b ə y o ğ l u (1854–1926) – Azərbaycan dramaturqu, publisist, teatr xadimi. Nəcəfbəy Vəzirovun humanizmi, yüksək bəşəri idealları tərənnüm edən «Müsibəti Fəxrəddin» dramı Azərbaycan ədəbiyyatında ilk faciədir. Bu əsər Azərbaycan bədii və ictimai fikir tarixində xüsusi yer tutur. – 87.

**60. Əsgər ağa Gorani,** Adıgözəlov Əsgər ağa Haqverdi ağa oğlu (1857–1910) – Azərbaycan yazıçısı, maarifçi, publisist, teatr xadimi və ictimai xadim. H.Zərdabi, N.Vəzirov və b. ilə yanaşı, Azərbaycan milli teatrının yaranmasında xidmətləri var. Gorani «Əkinçi» qəzetinin nəşrində fəal iştirak etmişdir. – 87.

**61. «Bakinskiye izvestiya»** – bu adda müxtəlif vaxtda 3 qəzet nəşr edilmişdir. 1) Rusiya texnika cəmiyyəti Bakı şöbəsinin həftədə iki dəfə çıxan qəzeti (1876–87); 2) gündəlik ictimai, siyasi və ədəbi qəzet (1902–05,1907), 3) gündəlik axşam qəzeti (1915). – 88.

**62. Hacı Zeynalabdin Tağıyev** (1838–1924) – məşhur messenat, maarifpərvər, «millətin başçısı, atası», Bakı milyonçusu. Əvvəllər bənna işləmiş Hacı 1872-ci ildən neftçıxarma işinə kapital qoymuş və sahibkarlıq fəaliyyətinə başlamışdır. Bakıda «Tağıyev H.Z. lifli maddələrin emalı üzrə Qafqaz səhmdar cəmiyyəti»ni, toxuculuq fabrikini, «Xəzər manufaktura cəmiyyəti»ni, «Tağıyev balıq sənayesi səhmdar cəmiyyəti»ni, yerli sahibkarlarla birlikdə Bakı ticarət bankını yaratmış və bank Şurasının sədri seçilmişdi.

Savadı olmayan Hacı savadsızlığın acısını duymuş və buna görə də Vətən övladlarının, xüsusilə, kasıb oğlan və qızların təhsil almasına böyük qayğı göstərmişdi. O öz vəsaiti ilə Yaxın Şərqdə – Bakıda ilk qız gimnaziyası, qadınları işlə təmin etmək üçün toxuculuq fabriki, Mərdəkanda sənət məktəbi, teatr binası tikdirir. Qiraətxanalar üçün qəzet və jurnalların pulunu ödəyir, öz xərcinə Azərbaycan şair və alimlərinin əsərlərini, həmçinin azərbaycancaya tərcümələri çap etdirir. 1905–11-ci illər İran məşrutə hərəkatına silah və pulla yardım edir. İranda onlarla məktəbin açılmasına, məktəb ləvazimatı və zəruri kitablarla təmin edilməsinə, daxildə və xaricdə oxuyan və maddi təminata ehtiyacı olanlara daim yardım edirdi. «Kaspi», «Həyat», «Füyuzat» kimi qəzet və jurnalların nəşri üçün vəsait ayırmışdı.

Hacı Bakıya «Şollar suyu» borusunu çəkdirmiş, Mərdəkanda dən üyüdən elektrik dəyirmanı tikdirmiş və qəsəbənin əhalisini ilk dəfə elektrik işığı ilə təmin etmişdir. – 88.

**63. Əlimərdan bəy Topçubaşov** (1865–1934) – Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri. Görkəmli hüquqşünas, ictimai-siyasi və dövlət xadimi, diplomat. 1917–1920-ci illərdə Bakı Müsəlman Şurası Müvəqqəti İcraiyyə Komitəsinin sədri, Azərbaycan parlamentinin sədri. Paris (Versal) sülh konfransında Azərbaycan nümayəndə heyətinin başçısı olmuşdur. 1934-cü ildə Parisdə vəfat etmişdir. – 88.

**64. Əlibəy Hüseynzadə,** Ə l i b ə y H ü s e y n o ğ l u (1864–1940) – Azərbaycan yazıçısı, jurnalist, filosof, tərcüməçi, ictimai xadim. Rusiyada 1905–07-ci illər inqilabının təsiri ilə çarizmi, feodal-patriarxal geriliyi, Şərq istibdadını, ətaləti və dini mövhumatı tənqid edən Ə.Hüseynzadə Azərbaycanda burjua ideologiyasının başçılarından biri, «Füyuzatçılar» ədəbi-fəlsəfi cərəyanının əsas nəzəriyyəçisi olmuşdur. Fəaliyyətində «türkləşmək, islamlaşmaq, müasirləşmək» şüarına əsaslanırdı. – 88.

**65. Hacı Səid Ünsizadə,** S ə i d Ə b d ü l r ə h m a n o ğ l u (Hami) (1845-?) – «Ziya» və «Ziyayi Qafqaziyyə» qəzetlərinin naşiri və redaktoru, ruhani. «Hami» təxəllüsü ilə şeirlər yazmış, «Beytüs-Səfa» ədəbi məclisinin üzvü olmuş, 1883-cü ildə Tiflisdə nəzm ilə yazılmış qiraət kitabını nəşr etdirmişdi. – 89.

**66. «Ziyayi Qafqaziyyə»** – həftəlik ədəbi, ictimai, siyasi qəzet, 1879–80-ci illərdə «Ziya» (Tiflis, 76 nömrə), sonrakı illərdə «Ziyayi Qafqaziyyə» adı ilə (1882–Tiflis, 1883–84–Şamaxı, cəmi 183 nömrə) çıxmışdır. Qəzetdə S.Ə.Şirvani, N.Vəzirov və başqalarının məqalələri dərc olunmuşdur. – 89.

**67. Məmmədağa Şahtaxtinski,** Ş a h t a x t l ı M ə h ə m m ə d a ğ a M ə h ə m m ə d t a ğ ı S u l t a n o ğ l u (1846–1931) – publisist, şərqşünas, dilçi, pedaqoq və ictimai xadim. Beynəlxalq Fonetika Cəmiyyəti (1899), Beynəlxalq «Asiya cəmiyyəti» (1900) və Rusiya İmperator Coğrafiya Cəmiyyəti Qafqaz şöbəsinin (1903) həqiqi üzvü.

1902-ci ildə Şahtaxtinski Tiflisdə xüsusi mətbəə açmış, 1903-cü ildən ictimai-siyasi, iqtisadi, elmi, ədəbi «Şərqi-Rus» qəzetinin nəşrinə başlamışdır. 1907-ci ildə İrəvan quberniyasından II Dövlət Dumasına deputat seçilmişdir. Bakı Dövlət Universitetinin (1919) yaradılmasında fəal iştirak etmiş, burada Şərq dilləri və ədəbiyyatından mühazirələr oxumuşdur. –89.

**68. «Şərqi-Rus»** – Tiflisdə Azərbaycan dilində həftədə üç dəfə çıxmış ictimai-siyasi, iqtisadi, elmi, ədəbi qəzet. İlk nömrəsi 1903-cü il martın 30-da, sonuncusu 1905-ci il yanvarın 15-də çıxmışdır. Naşiri və redaktoru M.Şahtaxtlı, son 45 nömrəsinin redaktoru isə C.Məmmədquluzadə idi. – 89.

**69. Sabir**, M i r z ə Ə l ə k b ə r Z e y n a l a b d i n o ğ l u T a - h i r z a d ə (1862–1911) – böyük Azərbaycan şairi, mütəfəkkir, ictimai xadim. Sabir Azərbaycan ədəbiyyatı, ictimai və bədii fikrinin ən qabaqcıl simalarındandır. O, Azərbaycan ədəbiyyatında tənqidi realizmin, satirik poeziyanın qüdrətli nümayəndəsidir. – 89,305,306,307.

**70. Ömər Faiq,** N e m a n z a d ə (1872–1941) – Azərbaycan publisisti, maarifçi, ictimai xadim. Jurnalistlik fəaliyyətinə «Şərqi-Rus» qəzetində (1903–05) başlamışdır. «Qeyrət» mətbəəsinin və «Molla Nəsrəddin» jurnalının yaradıcılarındandır. «Molla Nəsrəddin»in əsas mühərrirlərindən olmuş, 1906–10-cu illərdə C.Məmmədquluzadə ilə birlikdə jurnalı idarə etmişdir. – 89.

**71. Hüseyn Cavid,** H ü s e y n A b d u l l a o ğ l u R ə s i z a d ə (1882– 1941) – böyük Azərbaycan şairi, dramaturq. Hüseyn Cavid Azərbaycan mütərəqqi romantizminin banilərindən biri olmuşdur. O, lirik şeirlərin, lirik-epik, epik poemaların müəllifidir.

Hüseyn Cavid daha çox dramaturq kimi tanınmışdır. Onun fəlsəfi və tarixi faciələri forma yeniliyi baxımından Azərbaycan dramaturgiyasında yeni bir mərhələ yaratmış, milli teatr mədəniyyətinin inkişafına qüvvətli təsir göstərmişdir. Azərbaycanın ən dəyərli milli ziyalı nümayəndələrini məhv edən sovet totalitar rejiminin repressiya qurbanlarındandır. – 89.

**72. Məmməd Səid Ordubadi,** M ə m m ə d S ə i d H a c a ğ a o ğ l u O r d u b a d i (1872–1950) – Azərbaycan yazıçısı, şair, dramaturq, publisist, ictimai xadim. M.S.Ordubadi Azərbaycan ədəbiyyatında daha çox 30–40-cı illərdə yazdığı tarixi romanları ilə məşhurdur. O, Azərbaycan ədəbiyyatında tarixi roman janrının əsasını qoymuşdur. – 89.

**73. Əliqulu Qəmküsar,** Ə l i q u l u Ə l ə k b ə r o ğ l u (1880–1919) – Azərbaycan şairi, jurnalist. Qəmkusar Azərbaycan ədəbiyyatı tarixinə Molla Nəsrəddinçi şair kimi daxil olmuşdur. Məhz «Molla Nəsrəddin» ədəbi mühitinin ən qabaqcıl nümayəndələrindən olan Qəmkusar 1906-cı ildən «Cüvəllağı», «Cüvəllağıbəy», «Simurq» və s. imzalarda dərc etdirdiyi satirik şeir və felyetonlarda fanatizmi, geriliyi, cəhaləti kəskin satira atəşinə tutmuşdur. – 89.

**74. Əli Nəzmi** (Əli Məmmədzadənin təxəllüsü); 1878–1946) – Azərbaycan şairi, XX əsr realist Azərbaycan ədəbiyyatının, «Molla Nəsrəddin» ədəbi məktəbinin görkəmli nümayəndələrindən biri. Satirik əsərlərini «Məşədi Sijimqulu», «Kefsiz» və s. gizli imzalarla yazmışdır. Şeirlərində çarizmin müstəmləkəçilik siyasətini, polis idarələrində süründürməçiliyi, gerilik və ətaləti kəskin satira atəşinə tutmuşdur. –89.

**75. İrəvan,** R ə v a n, E r i v a n, Y e r e v a n – orta əsrlərdə və yeni dövrdə (1918-ci ilin mayın 29-dək İrəvan) Azərbaycan şəhəri. XVİ əsrin əvvəllərində Zəngi çayı sahilində dağlarla əhatə olunmuş düzənlikdə salınmışdır. İrəvan şəhəri dəfələrlə Səfəvi və Osmanlı qoşununun hücumlarına məruz qalmış, gah bu, gah da o biri dövlətin tərkibinə qatılmışdı. İkinci Rusiya–İran müharibəsi (1826–28) dövründə, Türkmənçay müqaviləsinə (1828) əsasən, Rusiyaya birləşdirildi. XİX əsrin 20–30-cu illərində İran və Türkiyədən köçürülmüş çoxlu erməni İrəvanda yerləşdirilmişdi. 1918-ci ilin mayında Daşnaksutyun partiyası liderlərinin başçılığı ilə Ermənistan Respublikası yarandı. 1918-ci il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti hökuməti mayın 29-da keçirdiyi iclasında İrəvan şəhərini «paytaxtı» olmayan Ermənistan Respublikasına güzəştə getdi. – 90.

**76. Oskar Şmerlinq** (1863–1938) – boyakar və qrafik. Məişətcə almandır. Peterburq (1884–89) və Münxen (1891–93) rəssamlıq akademiyalarında oxumuşdur. O. Şmerlinqin yaradıcılıq fəaliyyəti Azərbaycanla çıx bağlıdır. 1889–90-cı illərdə Qarabağda – Xankəndində yaşamışdır. Şmerlinqin satirik qrafika sahəsindəki müvəffəqiyyətləri «Molla Nəsrəddin» jurnalı ilə əlaqədardır. 1906–17-ci illərdə «Molla Nəsrəddin» jurnalının əsas rəssamı olmuş, jurnal üçün çoxlu karikatura, satirik rəsm çəkmişdir. – 90.

**77. Yosif Rotter** (?-?) – XIX əsrin ikinci yarısı – XX əsrin birinci yarısında yaşamış alman rəssamı. 1906–14-cü illərdə «Molla Nəsrəddin» jurnalında əməkdaşlıq etmişdir. O, jurnalın ideya ruhuna, dərin məzmunlu felyetonlarına illüstrasiya və karikaturalar çəkmişdir. – 90.

**78. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr – 1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli fərmanı ilə respublikada dövlət dili türk dili elan edildi. Azərbaycan respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 nəfər gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan dövlət bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 91.

**79. «Azərbaycan»** – Azərbaycan Respublikasında gündəlik, siyasi, ictimai qəzet. Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur. 1992-ci ildən yenidən nəşr edilir. Azərbaycan Respublikası Milli Məclisinin orqanıdır. – 91.

**80. Üzeyir Hacıbəyov,** Ü z e y i r Ə b d ü l h ü s e y n o ğ l u (1885–1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının banisi, SSRİ xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 91,438.

**81. Beynəlxalq Valyuta Fondu** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi, beynəlxalq valyuta təşkilatı. 1945-ci ildə yaradılmış, 1947-ci ildən fəaliyyətə başlamışdır. İdarə heyəti Vaşinqtondadır. Dünyanın 130-a yaxın ölkəsi fondun üzvüdür. Nizamnaməsinə görə, məqsədi beynəlxalq valyuta əməkdaşlığına yardım etmək, ölkələr arasında valyuta-hesablaşma münasibətlərini nizama salmaq, fonda daxil olan ölkələrin ödəmə balanslarını tarazlaşdırmaq və valyuta məzənnəsini tənzimləməkdən ibarətdir. 1992-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fonduna qəbul olunmuşdur. – 94,402.

**82. Şəfiqə Məmmədova,** Ş ə f i q ə H a ş ı m q ı z ı (d.1945) – aktrisa. Azərbaycan Respublikasının xalq artisti. SSRİ və Azərbaycan Respublikası Dövlət mükafatları laureatı. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı. – 96-97.

**83. Azərbaycanda soyqırım,** 1 9 0 5 – 1 8 - c i i l l ə r s o y q ı r ı m ı – çarizmin fəal köməyi ilə erməni-daşnak silahlı birləşmələrinin Azərbaycanın türk-müsəlman əhalisinə qarşı törətdiyi genişmiqyaslı qanlı aksiyalar. Ermənilərin 1905-ci ilin fevralında Bakıdan başlanan vəhşilikləri bütün Azərbaycanı və indi Ermənistan adlanan Qərbi Azərbaycan ərazisindəki yaşayış məntəqələrini əhatə etdi. Yüzlərlə Azərbaycan kəndi dağıdıldı, yüz minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi, xalqımıza məxsus çoxlu milli mədəniyyət abidələri məhv və talan olundu. Bütün bu vəhşiliklər ermənilərin vaxtilə yerləşdirildikləri, lakin əhalinin milli tərkibində azlıq təşkil etdikləri Azərbaycan torpaqlarını zorla erməniləşdirmək, bədnam «azərbaycanlılarsız Ermənistan» kimi qeyri-insani planlarını azərbaycanlıların soyqırımı hesabına həyata keçirmək niyyətindən xəbər verir. – 98-102,190.

**84. Gülüstan müqaviləsi** (1813) – birinci Rusiya-İran müharibəsinə son qoymuş müqavilə. Oktyabrın 12(24)-də Qarabağın Gülüstan kəndində bağlanmışdır. Rusiya–İran arasında əvvəlcə barışıq aktı, sonra isə on bir maddədən ibarət sülh müqaviləsi imzalanmışdı. Bu müqaviləyə əsasən hər iki dövlət arasında yeni sərhəd xətləri müəyyən edildi. 1814-cü il sentyabrın 15-dən qüvvəyə minən Gülüstan müqaviləsi vahid Azərbaycanın iki işğalçı dövlət tərəfindən bölüşdürülməsinin əsasını qoydu. – 98.

**85. Türkmənçay müqaviləsi** (1828) – XIX əsrin əvvəllərində Rusiya–İran müharibələri başa çatdıqdan sonra, Təbriz yaxınlığındakı Türkmənçay kəndində bağlanmış müqavilə. 16 maddədən ibarət olan Türkmənçay müqaviləsinə əsasən Cənubi Qafqaz əraziləri, o cümlədən Şimali Azərbaycan Rusiyaya birləşdirildi, Cənubi Azərbaycan torpaqları isə İranda qaldı. Türkmənçay müqaviləsinin 3-cü maddəsinə əsasən Araz çayının o tayı və bu tayı üzrə İrəvan və Naxçıvan xanlıqları Rusiya imperiyasının tam mülkiyyətinə keçdi. – 98.

**86. Zəngəzur mahalı,** Z ə n g ə z u r q ə z a s ı – XIX əsrin 2-ci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil olunmuşdur. Çar Rusiyası hökumətinin 1867-ci il dekabr tarixli fərmanına əsasən yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdi. – 99.

**87. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndində yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar; 1000 nəfərdən artıq azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 100.

**88. Dünya Səhiyyə Təşkilatı, Ü m u m d ü n y a S ə h i y y ə T ə ş k i -l a t ı** (ÜST)–BMT-yə məxsus beynəlxalq dövlətlərarası təşkilat. 1946-cı ildə yaradılmışdır. Cenevrədə fəaliyyət göstərir. Nizamnaməsinə görə vəzifəsi ən təhlükəli xəstəliklərlə mübarizə, beynəlxalq sanitariya qaydalarının hazırlanması və s.-dir. – 103-106.

**89. Poliomielit** – uşaq onurğa beyni iflici, kəskin infeksion xəstəlik, onurğa beyninin boz maddəsinin zədələnməsi və sinir sisteminin patoloji dəyişikliyi ilə xarakterizə olunur. – 104,234.

**90. «Kitabi-Dədə Qorqud»** – türk xalqları və Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsi. «Kitabi-Dədə Qorqud» dastanının yaranmasından 1300 il keçir. Elm aləminə XIX əsrlərdən köçürülmüş iki əlyazma nüsxəsi (Drezden və Vatikan) tapılmışdır. – 107-108,115-116, 119,126,131,146,147-148,151,157,177-182,183,184,189,193-207,209,211, 212,216,217,220,221,222,237,299-336,362,363,394.

**91. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 81,9 milyon nəfərdir. AFP tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezi-dent, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı – parlamentdən – bundestaq və bundersatdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 107-108.

**92. Əlyazmalar İnstitutu** – Azərbaycan və Şərq ölkələrinə aid qədim, nadir əlyazmalar saxlanılan və tədqiq edilən elmi idarə. 1928-ci ildə təsis edilmişdir. İnstitutda Azərbaycan, ərəb, fars, türk, özbək, türkmən, gürcü, rus və başqa dillərdə 40 mindən artıq tarixi sənəd, nadir əlyazmalar, qədim çap kitabları toplanmışdır. İnstitutda saxlanılan ən qədim əlyazma (perqament üzərində qədim kufi əlifbası ilə yazılmış Quran surəsi) 1200 illk tarixə malikdir. – 107-108.

**93. İrina Arxipova,** A r x i p o v a İ r i n a K o n s t a n t i n o v n a (d.1925) – rus müğənnisi. SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, Beynəlxalq Musiqi Xadimləri İttifaqının prezidenti. Dövlət və Lenin mükafatları laureatı. – 109-110.

**94. Bülbül,** M u r t u z a M ə ş ə d i R z a o ğ l u M ə m m ə d o v (1897–1961) – Azərbaycan klassik vokal məktəbinin banisi, musiqi folkloru tədqiqatçısı. Bülbülün yaradıcılığı müasir Azərbaycan musiqili teatrı tarixində mühüm bir mərhələ təşkil edir. Bülbül Azərbaycan xalq mahnılarını, təsnifləri böyük sənətkarlıqla ifa etmişdir. Azərbaycan Ali Sovetinin deputatı olmuşdur. SSRİ xalq artisti və SSRİ Dövlət mükafatı laureatıdir. – 110,326.

**95. Seneqal,** S e n e q a l R e s p u b l i k a s ı – Cənubi Afrikada dövlət. Ərazisi 196,2 min km$^2$, əhalisi 8,5 milyon nəfərdir. İnzibati ərazisi 10 vilayətə bölünür. Dövlət və hökumət başçısı prezidentdir. Qanunverici orqanı birpalatalı – Milli Məclisdir. Paytaxtı Dakar şəhəridir. – 111.

**96. Əbdu Diufa** (d.1935) – Seneqalın prezidenti 1981-ci ildən iqtidar partiyası – Seneqal Sosialist Partiyasının Baş katibidir. – 111.

**97. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 372 min km$^2$, əhalisi 126 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 114.

**98. Qazaxıstan Respublikası** – Avroasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2724,9 min km$^2$, əhalisi 16 679 min nəfərdir. Dövlət başçısı prezident, qanunvericilik orqanı birpalatalı Ali Sovetdir. Paytaxtı Astana şəhəridir. – 115,144,145,156-182,202,217,244,245,265,285,363,395.

**99. Nursultan Nazarbayev,** N u r s u l t a n A b i ş o ğ l u (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin sədri, Nazirlər Sovetinin sədri, 1989–91-

ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi. 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının prezidentidir. – 115-144,145,156-182,265,285, 362,395.

**100. Bakı–Novorossiysk neft kəməri** – 1994-cü ilin sentyabrında Azərbaycan Respublikası hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir hissəsi Bakı–Novorossiysk neft kəməridir. Bu kəmər 1997-ci ilin noyabrında istifadəyə verilmişdir. – 121.

**101. Frans Press** – Fransa informasiya agentliyi. Muxtar kommersiya müəssisəsidir. Havae Fransa məlumat agentliyinin (1835) varisi kimi, 1944-cü ildə yaradılmışdır. Parisdə fəaliyyət göstərir. 155 ölkəyə fransız, ingilis, ispan, portuqal, alman və ərəb dillərində informasiya yayır. Bir çox ölkəni beynəlxalq informasiya ilə təchiz edən dünya agentliklərindəndir. – 134.

**102. Əsgər Akayev** (d.1944) – Qırğızıstanın dövlət xadimi. 1989–90-cı illərdə Qırğızıstan EA-nın prezidenti, 1990–2005-ci illərdə Qırğızıstan Respublikasının prezidenti olmuşdur. – 145,156-182,265,285.

**103. Turqut Özal,** Özal Turqut (1927–1993) –Türkiyənin görkəmli dövlət və siyasi xadimi. 1980–82-ci illərdə Dövlət naziri, 1983–89-cu illərdə Türkiyənin Baş naziri, 1989–93-cü illərdə Türkiyənin prezidenti olmuşdur. – 149,216,361.

**104. «Manas»** – qədim qırğız qəhrəmanlıq eposu. Eposun manasçılar tərəfindən söylənilmiş 18-dən çox variantı qeydə alınmışdır. Nə vaxt yarandığı dəqiq müəyyənləşdirilməmişdir. – 151,311.

**105. Əmir Teymur,** Teymurləng, Teymur, Topal Tey-mur (1336–1405) – Orta Asiya görkəmli dövlət xadimi, sərkərdə, əmir. Teymurilər imperiyasının banisi. Türkləşmiş barlas tayfasından idi; döyüşlərdə aldığı yaralara görə «Teymurləng» (Topal Teymur) ləqəbi ilə tanınmışdır. Teymurləng üç yürüşündə (1386–87;1392–97;1399–1404) Azərbaycanda olmuşdur. Əlincə qalası uğrunda 14 il mübarizə aparan Teymurləng buraya 4 dəfə (1387,1393,1397,1400) yürüş etmiş, ciddi döyüşlər aparsa da məqsədinə nail ola bilməmişdi. – 151.

**106. Astana** (1961-ci ilə qədər Akmolinsk, 1961–92-ci illərdə Selinoqrad, 1992–1998-ci illərdə Akmola) – 1998-ci ildən Qazaxıstanın paytaxtı. Əsası 1830-cu ildə qala kimi qoyulmuş, 1832-ci ildən isə şəhərdir. – 151,157,170,216.

**107. Abay Kunanbayev** (1845–1904) – görkəmli qazax şairi, maarifçi, qazax realist yazılı ədəbiyyatının banisi. – 151.

**108. YUNESKO** – BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 151,172,183,194,198-199,222,300,327,328.

**109. İbn Sina,** Əbu Əli Hüseyn ibn Abdullah (980–1037) – alim, filosof, həkim, Şərq aristotelizminin nümayəndəsi. «Tibb elminin qanunu» əsəri bir çox əsrlər boyu Şərqdə və Avropada tibb üzrə əsas dərslik olmuşdur. – 151.

**110. Nizami Gəncəvi,** İlyas Yusif oğlu (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı beş epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 151,321,323,324,325,326,394.

**111. Əlişir Nəvai,** Nizaməddin Mir Əlişir (1441–1501) – özbək şairi, mütəfəkkir, dövlət xadimi. Özbək dilində «Xəmsə» yaradaraq Nizami ədəbi məktəbinin ən görkəmli davamçılarından biri kimi Yaxın Şərqdə şöhrət qazanmışdır. – 151.

**112. Yunis İmrə** – türk dünyasının dahi sənətkarlarından biri, zaman etibarilə Oğuz dillərinin ilk böyük şairidir. Türk ədəbiyyatında ilk mütəsəvviflərdən biridir. Sufizm fəlsəfəsini sadə xalq dilində, əsasən heca vəznində yazdığı qoşmalarda, gəraylılarda, ilahilərdə, eləcə də əruz vəznində yaratdıtı qəzəl və məsnəvilərdə ifadə etmiş, özündən sonra yaranan Türkiyə, Azərbaycan və türkmən ədəbiyyatlarına güclü təsir göstərmişdir. Böyük xalq şairi və filosofu olan Yunis İmrənin həyatı əfsanələrlə doludur. O, nə zaman yaşamış, harada yaşamış və nə zaman ölmüş – hələ də dəqiq məlum deyildir. Hətta məzarı belə 9 yerdə göstərilir.

Son araşdırmalara görə, Yunis İmrə 1321-ci ildə yetmiş yaşında vəfat etmişdir. – 151.

**113. Füzuli** M ə h ə m m ə d S ü l e y m a n o ğ l u (1494–1556) – Azərbaycanın dahi şairi və mütəfəkkiri. Azərbaycan, fars və ərəb dillərində qəsidə, müsəddəs, rübai, qitə və s. yazmışdır. Aşiqanə qəzəlləri ilə lirik şair kimi şöhrətlənmişdir. Yaradıcılığının zirvəsi olan «Leyli və Məcnun» poeması Azərbaycan, eləcə də Şərq və dünya poeziyasının nadir incilərindəndir. Kərbəlada dəfn edilmişdir. – 151,312,314,394.

**114. Məhdumqulu,** M ə x t u m q u l u (təxəllüsü Fəraqi) ( ?-? ) – XVIII əsr türkmən şairi. Ədəbi irsindən dövrümüzədək 10 mindən çox misra gəlib çıxmışdır. Yaradıcılığında vətənpərvərlik, türkmən qəbilələrini birliyə çağırış motivləri güclüdür. – 151.

**115. Mahmud Kaşqari,** Mahmud ibn əl-Hüseyn ibn Məhəmməd əl-Kaşqari (?-?) – XI əsr Orta Asiya alimi, filoloq və folklorçu. Məşhur «Divani-luğat it-türk» (1072–74) əsərinin müəllifi. Əsərdə türk dillərinin fonetika və morfologiyası, dialekt xüsusiyyətləri haqqında qiymətli məlumat verilmişdir. 8000-ə yaxın leksik vahidi əhatə edən «Divan»da 26 türk dilindən nümunə verilsə də, əsas lüğət materialı 2 ədəbi dildən toplanmışdır. Birincisi müəllifin ana dili olan şərq türkcəsi (xaqaniyyə türkcəsi), ikincisi oğuz türkcəsi; bunu Azərbaycan ədəbi dilinin yazıyaqədərki inkişaf mərhələsi hesab etmək mümkündür. «Divan»ın sonuna əlavə edilmiş xəritə Mahmud Kaşqari dövründə türkdilli xalqların yaşadığı ərazilərin təsvirini verən ilk xəritədir. – 151,312,318.

**116. «Alpamış»** – özbək, qazax, qaraqalpaq, başqırd, tatar və başqa türkdilli xalqların, həmçinin taciklərin qəhrəmanlıq dastanı. Xalq qəhrəmanı Alpamışın adı ilə bağlı Orta Asiya epik rəvayətləri güman ki, XIV-XVII əsrlərdə Orta Asiya xalqlarının xarici işğalçılara qarşı mübarizəsi dövründə dastan şəklinə düşmüşdür. Xalqın istiqlaliyyəti, ədalət, əmin-amanlıq, yüksək ideallar uğrunda mübarizə dastanın əsas ideyasıdır. – 151.

**117. Türk Dövlətləri Birliyi** (TDB) **–** 1992-ci il oktyabr ayının 30–31-də Ankarada Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan dövlət başçılarının iştirak etdikləri toplantıda yaRadılmışdır. TDB-nin nizamnaməsi türkdilli xalqların sosial-mədəni bənzərliyini nəzərə alaraq ortaq mədəni irsin araşdırılmasını, genişləndirilməsini, tanıdılmasını tövsiyə edir. – 156-162,178,184,193,194,300,361, 363.

**118. Helsinki aktı –** 1975-ci il avqustun 1-də Finlandiyanın paytaxtı Helsinkidə Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət başçılarının müşavirəsi oldu. Onlar Avropada təhlükəsizlik və əməkdaşlıq haqqında Zirvə aktını imzaladılar. Azərbaycan Respublikası bu aktı 1992-ci ildə imzalamışdır. – 157,176.

**119. Transxəzər qaz kəməri** – Xəzər dənizi vasitəsilə Azərbaycandan Gürcüstana və Türkiyəyə Orta Asiya qazının nəqli barədə saziş. Bu layihəyə görə qaz Türkiyədən Avropa bazarlarına çatdırılacaqdır. – 159,364.

**120. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 160,169.

**121. İslam Kərimov,** İ s l a m Ə b d u q ə n i o ğ l u (d.1938) – Özbəkistanın siyasi və dövlət xadimi. 1989–90-cı illərdə Özbəkistan KP MK-nın birinci katibi olmuşdur. 1990-cı ildən Özbəkistan Respublikasının prezidentidir. – 169,174.

**122. Koisuro Matsuura** (d.1937) – 2005-ci ildən YUNESKO-nun Baş direktoru. – 172-176,179,198-199.

**123. Mustafa Kamal Atatürk,** Q a z i M u s t a f a K a m a l (1881–1938) –Türkiyə dövlət, siyasi və hərbi xadimi, Türkiyə Respublikasının banisi və ilk prezidenti (1923–38). Birinci dünya müharibəsi zamanı Dardanel boğazının müdafiəsində (1915) şücaət göstərmişdir.

Atatürk 1919-cu ildə «kamalçılar hərəkatına» – milli azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM) yaratdı, məclisin və təşkil edilən hökumətin sədri seçildi. Sakarya çayı yaxınlığında qələbəyə görə TBMM Atatürkə marşal rütbəsi və «Qazi» fəxri adını vermişdir. 1922-ci ildə Atatürkün komandanlığı ilə türk ordusu Türkiyəni xarici müdaxiləçilərdən tamamilə azad etdi.

Atatürk soy adı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. – 184,210,211,212,217,233,235.

**124. Nuru Paşa** (1889–1949) – Türkiyə hərbi xadimi, general. 1918-ci ilin yazında Osmanlı Türkiyəsi Azərbaycanı və Dağıstanı bolşevizmdən xilas etmək üçün qərargah yaradanda Nuru Paşa Qafqaz İslam Ordusunun komandanı təyin edildi. Nuru Paşanın qoşunları 1918-ci il iyunun 17-dən sentyabrın 14-dək uğurlu döyüş əməliyyatları apararaq işğal altında olan Azərbaycan torpaqlarını bolşevik-daşnak işğalçılarından təmizlədi və həmin ilin oktyabrında Bakını azad etdi. – 190.

**125. Xəlil Paşa,** X ə l i l K u t (1881–1957) – Türkiyə hərbi xadimi, general. Türkiyənin Mosulda yerləşən 6-cı ordusunun, sonralar isə Şərq Ordular qrupunun komandanı olmuşdur. Azərbaycanda yaradılmış Qafqaz İslam Ordusunun təminat və təchizat işlərinə başçılıq etmişdir (1918). Bir müddət türk milliyyətçilərinin qeyri-rəsmi nümayəndəsi kimi Moskvada fəaliyyət göstərmişdir. – 190.

**126. 1990-cı ilin yanvarı –** 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 191,234.

**127. Şəhidlər xiyabanı –** Azərbaycanın azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş mərd oğul və qızların uyuduğu müqəddəs ziyarətgah. 1990-cı il yanvarın 20-də sovet ordusunun hücumu zamanı həlak olmuş onlarla adam «Dağüstü park»ın qərb hissəsində dəfn edilmişdir. Bura o vaxtdan «Şəhidlər xiyabanı» adlanır. Xiyabanda eyni zamanda Ermənistan işğalçılarına qarşı Azərbaycan torpaqlarının müdafiəsi uğrunda qəhrəmancasına həlak olanlar da dəfn edilmişdir. 1998-ci ildə burada hündürlüyü 22 metr olan əbədi məşəl-abidə qoyulmuşdur. – 191.

**128. Avropa Şurasının Parlament Assambleyası** (Avroparlament) – 2004-cü ildə təşkil olunmuşdur. Avroparlamentin işində 25 Avropa ölkəsinin 732 deputatı fəaliyyət göstərir. – 200,221-231.

**129. Şarl de Qoll** (1890-1970) – Fransanın görkəmli dövlət, hərbi və siyasi xadimi. İkinci dünya müharibəsinə qədər müxtəlif hərbi rəhbər vəzifələrdə olmuşdur. Alman faşist qoşunları Parisə daxil olduqdan (1940,14 iyun) sonra B.Britaniyaya getmiş, Londonda «Azad Fransa» hərəkatının əsasını qoymuşdur. 1943-cü ilin noyabrından Fransa Milli Azadlıq Komitəsinin, 1944-cü ilin iyunundan isə Fransa Respublikası Müvəqqəti hökumətinin sədri olmuşdur. Fransada prezidentlik rejimi yarada bilmədiyindən istefaya çıxmışdı. 1958-ci ildə Əlcəzairdəki hərbi qiyamla yaranan siyasi böhranla əlaqədar Fransa parlamenti (1958) Şarl de Qollu yenidən hakimiyyətə gətirdi. Şarl de Qoll iki dəfə (1958,1965) Fransa Respublikasının prezidenti seçilmişdir. – 200,224,229.

**129. «Mərmərə» qrupu» Strateji və Sosial Araşdırmalar Vəqfi** – 1985-ci ildə İstanbulda yaradılmışdır. Hazırda 200-dən çox üzvü olan bu qrupa tanınmış sənət və iş adamları, nazirlər və millət vəkilləri daxildirlər. Qrup xarici ölkələrin prezidentləri, görkəmli dövlət xadimləri, nüfuzlu siyasətçiləri ilə mütəmadi olaraq görüşlər keçirir. – 201-202,232-238.

**130. Xuraman Qasımova,** X u r a m a n Ə k r ə m q ı z ı (d.1951) – Azərbaycanın xalq artisti. Azərbaycan Dövlət mükafatı laureatı. 1976–2006-cı illərdə Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuşdur. Kinofilmlərə də çəkilmişdir. Pedaqoji fəaliyyət göstərir. – 206, 373-374.

**131. Polad Bülbüloğlu** (d.1945) – bəstəkar, müğənni, dövlət xadimi. Azərbaycan Respublikasının xalq artisti. Mahnıları 1960–70-ci illərdə SSRİ məkanında məşhur estrada müğənnilərinin ifasında səslənmişdir. 1988–2005-ci illər Azərbaycan Respublikasının mədəniyyət naziri olmuşdur. Hazırda Azərbaycan Respublikasının Rusiyada fövqəladə və səlahiyyətli səfiridir. – 206,207,326.

**132. Beynəlxalq Atatürk Sülh mükafatı** – Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün «Yurdda sülh, cahanda sülh» prinsiplərinə uyğun olaraq regionda, beynəlxalq aləmdə və ölkələrarası münasibətlərdə sülh, dostluq, anlaşma və xoş məramlı əməkdaşlıq yaradılmasına xidmət edən görkəmli şəxsiyyətlərə verilir. Mükafat 1986-cı ildə təsis edilmişdir. – 209,212,217,369.

**133. Ziya Bünyadov,** Z i y a  M u s a  o ğ l u (1923–1997) – görkəmli Azərbaycan alimi, şərqşünas-tarixçi, ictimai xadim. Böyük Vətən müharibəsi (1941–45) iştirakçısı, Sovet İttifaqı Qəhrəmanı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1989015097-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, 1995-ci ildən Milli Məclisin deputatı olmuşdur. 1997-ci ildə Azərbaycanın dövlətçiliyinə və müstəqilliyinə düşmən olan qüvvələr tərəfindən xaincəsinə qətlə yetirilmişdir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 210.

**134. Firdovsi,** F i r d o v s i  Ə b ü l q a s i m (təqr. 934–1020, yaxud 1030) – böyük fars və tacik şairi. Farsdilli ədəbiyyatın monumental eposu, dünya ədəbiyyatının möhtəşəm abidələrindən olan «Şahnamə»nin müəllifidir. – 211,312,314.

**135. Mahmud Qəznəvi (**969 və ya 970–1030) – Qəznəvilər dövlətinin hökmdarı (998-1030). Qəznəvilər sülaləsinin görkəmli nümayəndəsi. M.Qəznəvinin hakimiyyəti dövründə Qəznəvilər dövlətinin siyasi qüdrəti xüsusilə artmışdı. M.Qəznəvi Qəznəvilər dövlətində elm və mədəniyyətin inkişafına kömək etmişdir. – 211.

**136. Bakı Dövlət Universiteti** (BDU) – Azərbaycanda elmi-pedaqoji kadrlar hazırlayan ən böyük ali təhsil ocağı, elmi-tədqiqat müəssisəsi. 1919-cu ildə yaradılmışdır. İlk vaxtlar tibb və tarix-filologiya fakültələri fəaliyyət göstərmişdir. Hazırda BDU-nun 17 fakültəsi, onlarla kafedrası, elmi-tədqiqat laboratoriyası və s. var. Universitetdə 43 ixtisas üzrə 13 minə yaxın tələbə təhsil alır. – 213,214,226,353,432.

**137. Jak Şirak** (d.1932) – Fransanın görkəmli siyasi və dövlət xadimi. 1974–76 və 1986–88-ci illərdə Fransanın Baş naziri, 1977–95-ci illərdə Paris şəhərinin meri, 1995–2007-ci illərdə Fransa Respublikasının prezidenti. «Heydər Əliyev» ordeni ilə təltif olunmuşdur. – 213,227,228,231.

**138. Murtuz Ələsgərov,** M u r t u z  N ə c ə f  o ğ l u (d.1928) – Azərbaycanın dövlət xadimi. Hüquq elmləri doktoru, professor. Respublikanın əməkdar hüquqşünasıdır. Yeni Azərbaycan Partiyasının sədr müavini və partiyanın Siyasi Şurasının üzvüdür. 1993-cü ildə Bakı Dövlət Universitetinin rektoru olmuşdur. 1995-ci ildə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. 1996–2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin sədri idi. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 222,226,396.

**139. Rostropoviç** Mstislav Leopoldoviç (1927–2007) – Bakıda doğulmuş görkəmli musiqiçi, violençelist, dirijor. Lenin mükafatı laureatı, SSRİ xalq artisti. Bakı Musiqi Akademiyasının fəxri professoru. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 225.

**140. İkinci dünya müharibəsi** (1939–45) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibə elan etdi. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 72 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. – 229,324.

**141. Fransua Mitteran** (1916–1996) – 1981–95-ci illərdə Fransanın prezidenti. 1971–81-ci illərdə Fransa Sosialist Partiyasının Birinci katibi, 1965–68-ci illərdə Demokratik və Sosialist Sol Qüvvələri Federasiyasının lideri olmuşdur. – 230.

**142. «Total»** – məşhur fransız neft şirkəti. 1954-cü ildə təşkil olunmuşdur. Bir çox ölkələrdə neftin kəşfiyyatı, emalı və satışı ilə məşğul olur. – 230.

**143. «Elf Agiten»** – Fransada ən böyük neft korporasiyası. 80 ölkədə fəaliyyət göstərən 833 şirkətdən ibarətdir. Karbohidrogenlərin kəşfiyyatı, hasilatı və satışı, kimya və neft-kimya sənayesi, farmokologiya və kosmetologiya sahələri şirkətin əsas fəaliyyət istiqamətləridir. Elmi-tədqiqat fəaliyyətində 8 min elmi işçi çalışır. – 230.

**144. «Şevron»** – dünyanın ən iri beynəlxalq enerji və kimya şirkətlərindən biri. Baş ofisi Kaliforniyanın San-Fransisko şəhərində yerləşir. Neft və kimya sənayesinin bütün sahələrində iş görən «Şevron»un dünyanın 100-ə qədər ölkəsində 450 filialı və birgə müəssisəsi fəaliyyət göstərir. Dünyanın müxtəlif ölkələrində 41000 işçisi var. 1879-cu ildə «Pasifik Kost Oyl Kompani» adı ilə fəaliyyətə başlamışdır. – 230.

**145. Əli Həsənov,** Ə l i M ə h ə m m ə d ə l i o ğ l u (d.1960) – tarix elmləri doktoru, professor. Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü. (1999), 1993–95-ci illərdə partiyanın ideoloji şöbəsinin müdiri işləmişdir. 1995-ci ildən Azərbaycan Respublikası Prezidenti İcra Aparatının ictimai-siyasi şöbəsinə rəhbərlik edir. Müasir siyasi problemlərə aid kitabların və məqalələrin müəllifidir. – 232,235.

**146. Yıldırım Akbulut** (d.1935) – Türkiyənin siyasi və dövlət xadimi, hüquqşünas. Ana Vətən Partiyasının yaradıcılarından biri. 1983-cü ildə TBMM-nin sədr əvəzi, 1984–87-ci illərdə Türkiyə daxili işlər naziri, 1987–2005-ci illərdə TBMM-nin sədri, Baş nazir vəzifələrində çalışmışdır. 2005-ci ildən TBMM-nin deputatıdır. – 233.

**147. İsrail** – Yaxın Şərqdə dövlət. Sahəsi 20,8 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. İsrail dövləti BMT-nin Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli qərarına əsasən yaradılmışdır. İsrail inzibati cəhətdən 6 mahala bölünür. Dövlət başçısı prezidentdir, onu birpalatalı parlament (knesset) seçir. Hökumətə geniş səlahiyyəti olan Baş nazir başçılıq edir. – 233,245,371,372.

**148. Əbülfəs Qarayev,** Ə b ü l f ə s M ü r s ə l o ğ l u (d.1956) – fəlsəfə elmləri namizədi. 1994-cü ildən 2006-cı ilədək Azərbaycan Respublikası Gənclər, İdman və Turizm naziri, 2006-cı ildən Mədəniyyət və Turizm naziridir. Respublika Olimpiya Komitəsinin birinci vitse–prezidentidir. Gənclər, İdman və Turizm naziri işlədiyi vaxtda respublikada idmanın və bədən tərbiyəsinin inkişafına ciddi fikir verilmiş, çoxlu idman meydançaları və olimpiya kompleksləri tikilmişdir. – 234.

**149. İlham Əliyev**, İ l h a m H e y d ə r o ğ l u (d.1961) – görkəmli ictimai-siyasi və dövlət xadimi, diplomat, siyasi elmləri doktoru, professor. 2003-cü ildən Azərbaycan Respublikasının prezidenti. Prezident Heydər Əliyevin oğlu. 1994-cü ildən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, 1997-ci ildən birinci vitse-prezidenti. Azərbaycan Respublikasının neft strategiyasının həyata keçirilməsində mühüm xidmətləri vardır.

2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri olmuşdur. Siyasi və dövlət xadimi kimi, İlham Əliyev beynəlxalq aləmdə böyük hörmət və nüfuz qazanmış, bir neçə ölkənin yüksək mükafatlarına layiq görülmüşdür.

Azərbaycan idmançılarının beynəlxalq yarışlarda uğurlar əldə etməsində də AMOK-un prezidenti kimi, İlham Əliyevin böyük xidmətləri var. Onun şəxsi təşəbbüsü ilə Bakıda, Naxçıvanda, Gəncədə, Şəkidə və respublikanın digər rayonlarında dünya standartlarına cavab verən böyük olimpiya kompleksləri tikilib istifadəyə verilmiş, güclü maddi-texniki baza yaradılmışdır.

İlham Əliyevin doğma Azərbaycanımızın inkişafında müstəsna xidmətləri var. Onun dövründə ölkə iqtisadiyyatı, qeyri neft sektoru sürətlə inkişaf etmiş, eyni zamanda ölkəyə qoyulan xarici investisiyalar xeyli artmışdır.

İlham Əliyev tərəfindən irəli sürülmüş «Regionların inkişafı haqqında dövlət proqramı»na əsasən respublikanın şəhər və rayonlarında onlarla sənaye müəssisəsi açılmış, yüz minlərlə iş yerləri yaradılmış və böyük abadlıq işləri görülür.

Ölkədə demokratik islahatlar aparılmasında, hüquqi dövlət quruculuğunda, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin möhkəmlənməsində uğurlu xidmətlər göstərən İlham Əliyev Yeni Azərbaycan Partiyasının I qurultayında partiya sədrinin müavini, II qurultayında sədrin birinci müavini seçilmişdir. 2005-ci ilin martından isə Yeni Azərbaycan Partiyasının sədridir. 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin (1–2-ci çağırış) deputatı, Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin başçısı olmuşdur. Azərbaycan haqqında, xüsusilə Ermənistanın ölkəmizə hərbi təcavüzü və onun nəticələri, erməni terrorizmi haqqında həqiqətlərin ən mötəbər beynəlxalq təşkilatlar vasitəsilə dünya ictimaiyyətinə çatdırılmasında müstəsna xidmətləri var. «Heydər Əliyev» və Fransanın «Fəxri legionun böyük xaç komandoru», Rusiya və Ukraynanın ali ordenləri ilə təltif olunmuşdur. Bir çox xarici akademiyaların və universitetlərin fəxri üzvüdür. – 234,238.

**150. Sultan Əbdulhəmid II** (Abdulhamid II) – (1842–1918) – Türkiyə sultanı (1876–1909). Gənc türklər inqilabı nəticəsində 1876-cı il Konstitusiyasını bərpa etmişdir (1908). 1909-cu il aprelin 27-də Gənc Türklər II

Əbdülhəmidi əksinqilabi çevrilişin təşkilində iştirakına görə taxtdan salmış və həbs etmişdilər. Həbsxanada ölmüşdür. – 235.

**151. Artur Rasizadə,** A r t u r  T a h i r  o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 239-296.

**152. Cahangir Əsgərov,** C a h a n g i r  C ə l a l  o ğ l u (d.1950) – təyyarəçi. 1991–93-cü illərdə Aviasiya İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, 1996-cı ildən «Azərbaycan Hava Yolları» Dövlət Konserninin Baş direktorudur. – 239-296.

**153. Kəmaləddin Heydərov,** K ə m a l ə d d i n  F ə t t a h  o ğ l u (d.1961) – gömrük xidməti general–polkovniki. 1995–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, 2006-cı ildən Azərbaycan Respublikası Fövqəladə Hallar naziridir. – 239-265.

**154. Vilayət Quliyev,** V i l a y ə t  M u x t a r  o ğ l u (d.1952) – filoloq, diplomat. Filologiya elmləri doktoru. 1996–2000-ci illərdə Milli Məclisin deputatı olmuşdur. 1999–2004-cü illərdə Azərbaycan Respublikası xarici işlər naziri vəzifəsində çalışmışdır. Hazırda Azərbaycanın Polşa Respublikasında fövqəladə və səlahiyyətli səfiridir. – 239-296.

**155. Zahid Dünyamalıyev,** Z a h i d  V ə l i  o ğ l u (d.1944) – Azərbaycan Respublikası Daxili İşlər nazirinin birinci müavini, polis general-mayoru. – 239-296.

**156. Ramil Usubov** (d.1948) – general-polkovnik. 1994-cü ildən Azərbaycan Respublikasının Daxili İşlər naziridir. – 239-296,406-431.

**157. Eldar Həsənov,** E l d a r  H ü m b ə t  o ğ l u (d.1955) – 1995–2000-ci illərdə Azərbaycan Respublikasının baş prokuroru olmuşdur. 2001-ci ildən Azərbaycan Respublikasının Rumıniyada Fövqəladə və Səlahiyyətli səfiridir. – 239-296.

**158. Leonid Daniloviç Kuçma** (d.1938) – Ukraynanın siyasi və dövlət xadimi. 1994–2005-ci illərdə Ukrayna Respublikasının prezidenti olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 265,285,368.

**159. Marqrete II** (d.1940) – 1972-ci ildən Danimarka kraliçası. Kral IX Frederikin qızıdır. – 297.

**160. Elçin Əfəndiyev,** E l ç i n  İ l y a s  o ğ l u (1943) – Azərbaycan yazıçısı, ictimai və dövlət xadimi. Azərbaycan Respublikasının xalq yazıçısı. Yazıçı İlyas Əfəndiyevin oğlu. Azərbaycan Yazıçılar Birliyinin katibi, Xaricdə Yaşayan Həmvətənlərlə Mədəni Əlaqələr «Vətən» cəmiyyətinin sədri vəzifəsində işləmişdir. 1993-cü ildən Azərbaycan Respublikasının Baş nazirinin müavinidir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 299-336.

**161. Fəraməz Maqsudov,** F ə r a m ə z  Q ə z ə n f ə r  o ğ l u (1930–2000) – riyaziyyatçı, elm təşkilatçısı, ictimai xadim. 1997–2000-ci illərdə Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının prezidenti olmuşdur. Azərbaycan Respublikası Milli Məclisin 1-ci çağırış deputatı seçilmiş, respublikanın «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 299-336.

**162. Gövhər Baxşəliyeva,** G ö v h ə r  B a x ş ə l i  q ı z ı (d.1954) – filologiya elmləri doktoru, professor. 1997-ci ildən AMEA-da akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktorudur. 2001–05-ci illərdə Azərbaycan Respublikasının MM-nin deputatı və sədr müavini, hazırda III çağırış MM-in deputatı, elm və təhsil məsələləri daimi komissiyasının üzvü, İslam Konfransı Təşkilatının Parlament İttifaqında nümayəndə heyətinin rəhbəridir. Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvüdür. – 299-336.

**163. Əziz Şərif,** Ə z i z  Q u r b a n ə l i  o ğ l u  Ş ə r i f o v (1895–1988) –ədəbiyyatşünas, tərcüməçi. Filologiya elmləri doktoru, MDU-nun professoru. XIX-XX əsrlər ədəbiyyatına, ədəbi əlaqələrə, teatra və tərcümə problemlərinə dair əsərlərin, ədəbi-tənqidi məqalələrin müəllifidir. – 305.

**164. İmran Qasımov,** İ m r a n  H a ş ı m  o ğ l u (1918–1981) yazıçı, dramaturq, publisist, ictimai xadim. Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətinin katibi (1961–75), Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətinin birinci katibi (1975), SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin katibi (1976), SSRİ Ali Sovetinin deputatı olmuşdur. – 305.

**165. Anar,** R z a y e v  A n a r  R ə s u l  o ğ l u (d.1938) – görkəmli yazıçı, publisist, dramaturq, ictimai xadim, Azərbaycanın xalq yazıçısı. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı. Azərbaycan və SSRİ Ali sovetlərinin deputatı olmuşdur. 1995–2005-ci illərdə Milli Məclisin deputatı və mədəniyyət məsələləri komissiyasının sədri, 1987-ci ildən Azərbaycan Respublikası Yazıçılar Birliyinin sədridir. Əsərləri dünyanın bir çox ölkələrində nəşr olunmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 299-336.

**166. Dal Vladimir İvanoviç** (1801–1872) – rus yazıçısı, lüğətşünas, etnoqraf. 53 il ərzində tərtib etdiyi 200000 sözdən ibarət «Canlı rus dilinin izahlı lüğəti» bugünədək öz əhəmiyyətini itirməmişdir. Kazak Luqanski təxəllüsü ilə hekayə, povest və etnoqrafik oçerklər yazmışdır. – 312.

**167. Homer** – əfsanəvi qədim yunan şairi. Şəxsiyyəti haqqında məlumat azdır. E.ə.XII-VII əsrlərdə yaşadığı ehtimal edilir Antik mənbələrdə gəzərgi kor müğənni Homerin real obrazı fantastik uydurmalarla çulğaşır ki, bu da onun haqqında dürüst məlumatın olmadığını göstərir. Sonralar «İliada» və «Odisseya» epik poemalarının, habelə «Homer himnləri»nin müəllifliyi ona isnad edilmişdir. Homerin şəxsiyyəti və yaradıcılığı ilə bağlı geniş yayılmış və indiyədək həll olunmamış mübahisələr ədəbiyyatşünaslıqda «Homer» məsələsi adı almışdır. – 314.

**168. Şekspir,** V i l y a m  (1564–1616) – dahi ingilis dramaturqu və şairi. Şekspir 37 pyesin – komediyaların, tarixi dramların, faciələrin, poemaların, çoxlu sonetlərin müəllifidir. Dünya dramaturgiyasında facianəvisliyin inkişafında Şekspirin əsərləri yeni mərhələdir. «Hamlet», «Otello», «Makbet», «Kral Lir», «Antoni və Kleopatra» faciələri dünya mədəniyyəti xəzinəsinə daxil olmuş, bütün xalqların sərvətinə çevrilmiş, müxtəlif dillərə tərcümə olunmuş, milli səhnələrdə təkrar-təkrar tamaşaya qoyulmuş, ekranlaşdırılmışdır. – 314.

**169. Puşkin,** A l e k s a n d r  S e r g e y e v i ç (1799–1837) – dahi rus şairi, yeni rus ədəbiyyatının banisi. Puşkin rus ədəbi dilini yeni yüksək zirvəyə qaldırmışdır. Rus poeziyasının «atası olan» (N.Q.Çernışevski) Puşkin novator şair kimi yeni tipli realist şeirin, mənzum romanın, tarixi povestin, mənzum hekayə, nağıl və dramın gözəl nümunələrini yaratmışdır. Qafqaz həyatı onun yaradıcılığına müstəsna təsir göstərmiş, şairin bu mövzuda yazdığı əsərlər («Qafqaz əsiri», «Quldur qardaşlar», «Baxçasaray fontanı», «Qaraçılar», «Ərzuruma səyahət») rus ədəbiyyatında yeni səhifə açmışdır. Bakıda Puşkinə abidə qoyulmuşdur. – 314.

**170. Ramiz Abutalıbov,** R a m i z  A b u t a l ı b  o ğ l u (d.1937) – diplomat. Ümumittifaq Ticarət Akademiyasını bitirmişdir. Müxtəlif illərdə sovet və partiya orqanlarında məsul vəzifələrdə çalışmışdır. 1972–79 və 1985–93-cü illərdə YUNESKO-nun katibliyində işləmişdir. Fransanın «Fəxri legion» ordeni ilə təltif olunmuşdur. – 314.

**171. Simonov Konstantin Mixayloviç** (1915–1979) – rus yazıçısı, ictimai xadim. Pyeslərin, ssenarilərin, publisistik oçerk və yol qeydlərinin, ədəbi-tənqidi məqalələrin müəllifidir. Simonova müharibə (1941–45) dövrü lirikası daha çox şöhrət qazandırmışdır. Sosialist Əməyi Qəhrəmanı, Lenin mükafatı və 6 dəfə SSRİ Dövlət mükafatı laureatıdır. –314,315.

**172. Vidadi Molla Vəli** (təqr.1709–1809) – Azərbaycan şairi. Ədəbi irsinin az qismi məlumdur. Feodal zülmündən, xanlıqlar dövrünün hərc-mərcliyindən doğan kədər və ümidsizlik, mənəvi tənhalıqdan şikayət Vidadi yaradıcılığının əsas motivləridir. Vidadi lirikası yüksək bədii sənətkarlıq nümunəsidir. – 315.

**173. Azərbaycan Elmlər Akademiyası** – respublikanın ali elmi ocağı. 1945-ci ildə Bakıda təsis edilmişdir. 2001-ci ilin may ayından Azərbaycan Milli Elmlər Akademiyası adlanır. Azərbaycan Milli EA-nın aşağıdakı bölmələri var: fizika; texnika və riyaziyyat elmləri; kimya elmləri; yer elmləri; biologiya elmləri; ictimai elmlər. Burada elmin müxtəlif sahələrinə dair aktual problemlər üzərində tədqiqat işləri aparılır. Hər il onlarca elmi işin nəticəsi istehsalatda tətbiq olunur. – 315.

**174. Əbülqazi Bahadır xan** (1603–1663) – Xivə xanı, tarixçi, şair. Urgənc hökmdarı Ərəb Məhəmməd xanın oğlu, 1643-cü ildə Aral özbəklərinin, 1644-cü ildən isə Xivənin xanı olmuşdur. Əbülqazinin «Şəcərəyi tərakimə» (1659) və «Şəcərəyi türk» (1663) əsərlərində bir sıra türk xalqlarının tarixi haqqında qiymətli məlumat, həmçinin xalq əfsanələri, rəvayətlər, atalar sözü və s. verilmişdir. – 318.

**175. Cavad Heyət,** C a v a b  Ə l i  o ğ l u (d.1925) – dünya şöhrətdi həkim, filosof, istedadlı dilçi, görkəmli ədəbiyyatşünas və publisist. C. Heyət, əsasən cərrahlıqla məşğul olur, elmi-təcrübi araşdırmalar aparır, müasir cərrahlıqda bir sıra nadir cərrahi əməliyyatları uğurla başa çatdırmışdır. O, 1979-cu ildən İran İslam Respublikasında Azərbaycan dilində «Varlıq» jurnalını nəşr edir. Cavad Heyət Paris Cərrahlıq Akademiyasının, Azərbaycan Milli Elmlər Akademiyasının üzvüdür. – 321.

**176. Mircəfər Bağırov,** M i r c ə f ə r  A b b a s  o ğ l u (1896–1956) – 1933–53-cü illərdə Azərbaycan KP MK-nın birinci katibi olmuşdur. Bütün SSRİ-də olduğu kimi, Azərbaycanda da inzibati-amirlik idarəetmə sisteminin möhkəmləndirilməsinə, totalitar Stalin rejiminin bərqərar olmasına, partiya sıralarını «təmizləmə» adı ilə baş verən repressiyaların həyata keçirilməsinə bilavasitə rəhbərlik etmişdir. – 325.

**177. Marietta Şaqinyan** (1888–1982) – rus yazıçısı. Sosialist Əməyi qəhrəmanı, Dövlət mükafatı laureatı. – 325.

**178. Kamal Talıbzadə,** K a m a l  A b d u l l a  Ş a i q  o ğ l u (1923–2006) – ədəbiyyatşünas, tənqidçi. Filologiya elmləri doktoru, professor. Azərbaycan MEA-nın akademiki. Talıbzadə XX əsr Azərbaycan ədəbiyyatında romantizm probleminə ədəbi tənqidin inkişaf yollarına, Azərbaycan–rus ədəbi əlaqələrinə həsr olunmuş monoqrafiyaların, ədəbi-tənqidi məqalə, oçerklərin müəllifidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 326.

**179. Rəsul Rza,** R ə s u l  İ b r a h i m  o ğ l u  R z a y e v (1910–1981) – görkəmli Azərbaycan şairi, ictimai xadim. Azərbaycanın xalq şairi. O, Azərbaycan poeziyasını yeni forma və üslub keyfiyyətləri, orijinal obrazlarla zənginləşdirmişdir. SSRİ Dövlət mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı. – 326.

**180. İlyas Əfəndiyev**, İ l y a s  M ə h ə m m ə d  o ğ l u (1914–1996) – görkəmli Azərbaycan yazıçısı, dramaturq. Azərbaycanın xalq yazıçısı. İ.Əfəndiyevin dram əsərlərinin Azərbaycan Milli Dram Teatrının repertuarının zənginləşməsində müstəsna rolu var. Azərbaycan Dövlət mükafatı laureatıdır. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 326.

**181. Nəsirəddin Tusi,** M ə h ə m m ə d  i b n  H ə s ə n (1201–1274) – Azərbaycanın ensiklopediyaçı alimi, dövlət xadimi. Təsis etdiyi Marağa Astronomiya Rəsədxanası (1259) qısa müddətdə böyük elmi mərkəzə çevrilmiş, burada bir çox məşhur riyaziyyatçı və astronom alimlər yetişmişdir. – 328.

**182. Sevil Əliyeva,** S e v i l  H e y d ə r  q ı z ı (d.1955) – şərqşünas, ictimai xadim, tarix elmləri namizədi. Prezident Heydər Əliyevin qızıdır. Bəstəkarlıq fəaliyyəti göstərir, bir sıra musiqi əsərlərinin müəllifidir. Sevil Əliyeva 1990-cı illərin birinci yarısında fəal ictimaiyyətçi, müstəqil Azərbaycanda qadın hərəkatının təşkilatçılarından biri kimi fəaliyyət göstərir. «Sevil» Azərbaycan Qadınlar Məclisinin sədri, «SOS uşaq kəndləri – Azərbaycan assosiasiyası»nın prezidentidir.

Sevil Əliyevanın İngiltərə–Azərbaycan ictimai-mədəni əlaqələrinin genişləndirilməsində də xidmətləri var. – 329.

**183. Fatma** Abdullazadə, F a t m a  H ü s e y n  q ı z ı (d.1948) – fizika-riyaziyyat elmləri doktoru, professor. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı humanitar siyasət şöbəsinin müdiri. 1995–2000-ci illərdə Milli Məclisin deputatı olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 333,334.

**184. Yunanıstan,** Y u n a n ı s t a n  R e s p u b l i k a s ı – Cənubi Avropada dövlət. Sahəsi 132 min km$^2$, əhalisi 10,5 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Afinadır. – 337.

**185. Suriya,** Su r i y a  Ə r ə b  R e s p u b l i k a s ı – Asiyada dövlət. Sahəsi 185,2 min km$^2$, əhalisi 14,8 milyon nəfərdir. İnzibati ərazisi 10 mühafazə (qubernatorluğa) və Dəməşq munisipalitetinə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Xalq Şurasıdır. Paytaxtı Dəməşqdir. – 338.

**186. Hafiz Əsəd,** Ə s ə d  H a f i z (1930–2000) – Suriyanın siyasi, hərbi və dövlət xadimi. 1970–71-ci illərdə Baş nazir, 1971–2000-ci illərdə isə Suriya Ərəb Respublikasının prezidenti olmuşdur. – 338.

**187. Zimbabve,** Z i m b a b v e  R e s p u b l i k a s ı – Cənubi Afrikada dövlət. Sahəsi 390,6 min km$^2$, əhalisi 11,5 milyon nəfərdir. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı parlament (Milli Məclis)dir. Paytaxt Hararedir. – 339.

**188. Muqabe Robert** (d.1924) – 1987-ci ildən Zimbabvenin prezidenti. 1980–87-ci illərdə Zimbabvenin Baş naziri və müdafiə naziri olmuşdur. 1984-cü ildən Afrika Milli Qurtuluş Partiyasının Zimbabve üzrə Birinci katibidir. – 339.

**189. Əcəmi Naxçıvani Əbubəkr oğlu (**XII əsrin 20-ci illəri – XII əsrin sonu) — orta əsr Azərbaycan memarlığının görkəmli nümayəndəsi, Naxçıvan memarlıq məktəbinin banisi. O, Naxçıvanda Yusif ibn Küseyir türbəsini, Mömünə xatun türbəsini, Böyük Cümə məscidini və mənbələrdə «Darülmük» adlandırılan Eldəgəzlər sarayını yaratmışdır. – 350.

**190. Azərbaycan Dövlət Tibb Universiteti,** N.Nərimanov adına Azərbaycan Dövlət Tibb Universiteti – Respublikada tibb mütəxəssisləri hazırlayan ali məktəb. 1919-cu ildə Bakı universitetinin nəzdində tibb fakültəsi, 1920-ci ildə isə həmin fakültənin əsasında müstəqil tibb institutu yaradılmışdır. Universitetin 8 fakültəsi var. Universitetdə 6700 tələbə təhsil alır. – 354,355.

**191. Əli İnsanov,** Ə l i  B i n n ə t  o ğ l u (d. 1946) –1993–2005-ci illərdə Azərbaycan Respublikasının Səhiyyə naziri olmuşdur. – 355.

**192. Dövlət Baxçalı** (1948) – Türkiyə siyasi xadimi, iqtisadçı. 1997-ci ildə Milliyyətçi Hərəkat Partiyasının sədri seçilmişdir. 1999-cu il seçkilərində qalib gələrək Demokratik Sol Partiya və Ana Vətən Partiyası ilə koalisiya hökumət yaratmışdır. 2007-ci ildə keçirilən seçkilərdə yenidən millət vəkili seçilmişdir. – 357,368,369.

**193. Gülhanə Hərbi Tibb Akademiyası** – Türkiyədə məşhur tibb ocaqlarından biri. 1898-ci ildən fəaliyyət göstərir. Akademiya ən müasir tibb avadanlığı ilə təmin edilmişdir. Burada həm müalicə edilir, həm də elmi tədqiqatlar aparılır. – 359.

**194. Klivlend** – ABŞ-da şəhər. Klivlend ABŞ-ın sənaye, maliyyə-ticarət və mədəni mərkəzlərindən biri kimi tanınır. – 358,360,392.

**195. Həmid Araslı,** H ə m i d  M ə h ə m m ə d t a ğ ı  o ğ l u (1909–1983) – əbədiyyatşünas, filologiya elmləri doktoru, professor, Azərbaycan MEA-nın akademiki, 1960–68-ci illərdə Nizami adına Azərbaycan Əbədiyyatı Muzeyinin direktoru, 1970-ci ildən ömrünün sonuna kimi Azərbaycan Respublikası MEA-nın Yaxın və Orta Şərq Xalqları İnstitutunun direktoru olmuşdur. Araslı qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı, Nəsimi, Kişvəri, Əmani, Saib Təbrizi, Qövsi Təbrizi, Məhcur Şirvani, Vaqif, Vidadi haqqında tədqiqat əsərlərinin müəllifidir. Nizami və Füzuli irsinin öyrənilməsində xüsusilə mühüm işlər görmüşdür. Azərbaycan folklorunun, «Kitabi-Dədə Qorqud», «Koroğlu» dastanları və aşıq yaradıcılığının tədqiqi ilə də məşğul olmuşdur. – 362.

**196. Dəmirçizadə Əbdüləzəl,** Ə b d ü l ə z ə l  M ə m m ə d  o ğ l u (1909–1979) – dilçi, filologiya elmləri doktoru, professor. Azərbaycan MEA-nın müxbir üzvü. Azərbaycan Respublikası Dövlət mükafatı laureatı. Azərbaycan ədəbi dili tarixinə, müasir Azərbaycan dilinin fonetikasına, üslubiyyatına və etimologiyaya dair əsərlərin müəllifidir. – 362.

**197. Sultanlı Əli Abdulla oğlu** (1906–1960) – ədəbiyyatşünas, pedaqoq. Filologiya elmləri doktoru, professor. Azərbaycanda xarici ədəbiyyat üzrə ali məktəb kursunun yaradılmasında Ə.Sultanlının mühüm xidməti var. Azərbaycan dilində antik, Orta əsrlər və Penessans dövrü ədəbiyyatına dair ilk müntəxabatların və dərsliklərin müəllifidir. – 362.

**198. Bartold Vasili Vladimiroviç** (1869–1930) – şərqşünas, akademik. Bartold rus şərqşünaslıq məktəbinin banilərindəndir. Başlıca əsərləri Orta Asiya, İran, Ərəb xəlifəliyi, islam və şərqşünaslıq tarixinə aiddir. Azərbaycan tarixi, folkloru və ədəbiyyatı haqqında da tədqiqatları var. – 362.

**199. Türkeş Alparslan** (1917–1997) – Türkiyənin görkəmli hərbi və siyasi xadimi. 1965–69-cu illərdə Cümhuriyyətçi Köylü Millət Partiyasının, 1969-cu ildə Milliyyətçi Hərəkat Partiyasının, 1987-ci ildə isə Milliyyətçi Çalışma Partiyasının Baş Bakanı olmuşdur. – 366.

**200. Ecevit Büländ** (1925–2006) – Türkiyənin siyasi və dövlət xadimi. 1974,1978–79 və 1997–2003-cü illərdə Türkiyə Respublikasının Baş naziri olmuşdur. 1972–80-ci illərdə Respublika Xalq Partiyasının, 1978–88-ci illərdə Türkiyə Demokrat Sol Partiyasının Baş katibi idi. – 366,367,368.

**201. Ehud Barak** (d.1942) – İsrail hərbi və dövlət xadimi. 1991–95-ci illərdə İsrail Baş ştabında rəis, 1999–2001-ci illərdə İsrailin Baş naziri olmuşdur. Azod Partiyasının lideridir. – 372.

**202. «Azərbaycan Mədəniyyətinin Dostları»** – xeyriyyə fondu. 1995-ci ildə xeyriyyəçi, ictimai və siyasi xadim Mehriban xanım Əliyeva tərəfindən yaradılmışdır. Fəaliyyətə başladığı ilk günlərdən fond milli mədəniyyətimizin təbliği, inkişafı, tanınması üçün çox böyük işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə təbliğ etmək üçün Azərbaycan, rus, ingilis dillərində «Azərbaycan–irs» jurnalını təsis etmişdir. – 373-374.

**203. Fidan Qasımova,** Q a s ı m o v a F i d a n Ə k r ə m q ı z ı (1947) – Azərbaycan müğənnisi. SSRİ və Azərbaycan Respublikasının xalq artisti. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 373-374.

**204. Rauf Abdullayev,** R a u f C a n b a x ı ş o ğ l u (d. 1937) – dirijor, Azərbaycan Respublikasının xalq artisti. Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijorudur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. –373-374.

**205. Tanzaniya,** B i r l ə ş m i ş T a n z a n i y a R e s p u b l i k a s ı – Şərqi Afrikada dövlət. Sahəsi 945,1 km$^2$, əhalisi 29,0 milyon nəfərdir. İnzibati ərazisi 25 vilayətə bölünür. Millətlər Birliyinə daxildir. Dövlət və hökumət başçısı prezidentdir. Qanunverici orqanı Milli Məclisdir. Paytaxtı Dolomadır. – 375.

**206. İhsan Doğramacı** (d.1915) – türkdilli ölkələrin Milli Pediatriya Cəmiyyətləri Birliyinin fəxri prezidenti, elmlər doktoru, professor. 1963–65-ci illərdə Ankarada Uşaq Sağlamlığı İnstitutunun direktoru, 1977–93-cü illərdə institutun icraçı direktoru, 1992-ci ildən isə fəxri prezidenti, 1968–73-cü illərdə Pediatorların Tibb Assosiasiyasının prezidentidir. 1959-cu ildən YUNİSEF-in İcraiyyə Komitəsinin üzvüdür. İki dəfə Bilkənd Universitetinin sədri və rektoru olmuş, 1975-ci ildən isə universitetin fəxri rektorudur. İ.Doğramacı Azərbaycan MEA-nın fəxri üzvü, Azərbaycan Dövlət Tibb Universitetinin fəxri doktorudur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 376-399,400, 437-440.

**207. Böyük Millət Məclisi** (BMM) – Türkiyənin ali qanunverici orqanı. Parlament 1920-ci il aprelin 23-də yaradılmışdır. BMM-nin ilk sədri M.K.Atatürk olmuşdur. BMM iki palatadan ibarətdir: Senat (yuxarı palata) və Milli palata. BMM məclis üzvlərindən respublika prezidentini seçir. – 396.

**208. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton–Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 402.

**209. «Sülh naminə tərəfdaşlıq» proqramı** – NATO ilə Şərqi Avropa və keçmiş SSRİ ölkələri arasında siyasi və hərbi sahələrdə əməkdaşlıq sənədi, 1994-cü il yanvarın 10–11-də NATO Şurasının dövlət və hökumət başçıları səviyyəsində Brüsseldə keçirilən görüşdə ABŞ tərəfindən təklif edilmişdir.

Azərbaycan prezidenti Heydər Əliyev 1994-cü il mayın 4-də NATO-nun Brüsseldəki mənzil-qərargahında Azərbaycanın «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulması haqqında sənədi imzalamışdır. 1996-cı ilin aprelində Heydər Əliyev NATO-nun Brüsseldəki mənzil-qərargahında NATO-nun Baş katibi Xavyer Solana ilə görüşündə Azərbaycan Respublikasının təqdimat sənədini ona vermişdir. Həmin sənəd əsasında Azərbaycanın NATO ilə tərəfdaşlığının fərdi proqramı hazırlanmışdır. – 403.

**210. İsa Nəcəfov,** İ s a Ə l i o ğ l u (d.1952) – hüquqşünas. 1990–93-cü illərdə bir sıra məsul vəzifələrdə işləmişdir. 1993–2000-ci illərdə Naxçıvan Muxtar Respublikasının prokuroru vəzifəsində çalışmışdır. 1995-2000-ci illərdə Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini olmuşdur. – 406-431.

**211. Xanlar Vəliyev,** X a n l a r R ü s t ə m o ğ l u (d.1955) – hüquqşünas, III dərəcəli Dövlət Ədliyyə müşaviri. 1989–93-cü illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1993-2000-ci illərdə Azərbaycan Respublikası Baş prokurorunun müavini olmuşdur. – 406-431.

**212. Ramiz Mehdiyev,** R a m i z  Ə n v ə r  o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə rayon partiya komitəsinin birinci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan Respublikası MEA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal», Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvü. – 406-431.

**213. Zakir Qaralov,** Z a k i r  B ə k i r  o ğ l u (d.1956) – hüquqşünas, I dərəcəli Dövlət Ədliyyə müşaviri, Beynəlxalq Prokurorlar Assosiasiyasının üzvü. 2000-ci ildən Azərbaycan Respublikasının Baş prokuroru. Azərbaycan Respublikasının «Azərbaycan Bayrağı» ordeni və «İgidliyə görə» medalı ilə təltif edilmişdir. – 406-431.

**214. Fuad Ələsgərov,** F u a d  M u r t u z  o ğ l u (d.1959) – hüquqşünas. 1994-cü ildən Azərbaycan Respublikası Prezidenti Aparatının hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiridir. – 406-431.

**215. Rəsul Quliyev,** R ə s u l  B a y r a m  o ğ l u (d.1947) – 1993–96-cı illərdə Milli Məclisin sədri olmuşdur. – 411.

**216. Namiq Abbasov,** N a m i q  R ə ş i d  o ğ l u (d.1940) – general-polkovnik. 1995–2004-cü illərdə Azərbaycan Milli Təhlükəsizliyi naziri olmuşdur. 2004-cü ildən Özbəkistan Respublikasında Azərbaycanın fövqəladə və səlahiyyətli səfiridir. – 411.

**217. Fikrət Yusifov,** F i k r ə t  H ü s e y n  o ğ l u (d.1957) – iqtisad elmləri namizədi. 1994–1999-cu illərdə Azərbaycan Respublikasının Maliyyə naziri olmuşdur. – 414,415.

**218. Şeyxülislam Hacı Allahşükür Paşazadə,** A l l a h ş ü k ü r  H ü m m ə t  o ğ l u (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 432-436.

**219. Q u r a n i – K ə r i m ,** ə l – Q u r a n,– Müsəlmanların müqəddəs kitabı. Quranı Allah Cəbrayıl vasitəsilə Məhəmməd əleyhüssəlama göndərib. Quran qafiyəli nəsrlə yazılmış 114 surə və 6200-dən çox ayədən ibarətdir. «Məkkə surələrinə» (610–622, Məkkə, 90 surə) və «Mədinə surələrinə» (622–632, Mədinə, 24 surə) bölünür. – 434.

**220. Əfrasiyab Bədəlbəyli,** Ə f r a s i y a b  B ə d ə l  o ğ l u (1907–1976) – Azərbaycan bəstəkarı, dirijor, musiqişünas. Azərbaycan Respublikasının xalq artisti. Ə.Bədəlbəyli milli Azərbaycan baleti – «Qız qalası»nın müəllifidir. – 437-440.

**221. Azərbaycan Dövlət Opera və Balet Teatrı –** Respublikanın ən böyük musiqi teatrı. Azərbaycan XKS-nin 1920-ci il 1 iyul tarixli qərarı ilə Birləşmiş Dövlət Teatrı tərkibində opera truppası kimi yaradılmışdı. 1924-cü ildə opera truppası bu teatrdan ayrılaraq müstəqil opera və balet teatrına çevrilmişdir. 1928-ci ildə teatra M.F.Axundovun adı verilmişdir. 1959-cu ildən Akademik Opera və Balet Teatrı adlanır. –437-440.

**222. Qəmər Almaszadə,** Q ə m ə r  H a c a ğ a  q ı z ı (1915–2006) – Azərbaycan balet artisti, baletmeyster və pedaqoq, ilk azərbaycanlı balerina. Azərbaycan və SSRİ xalq artisti. SSRİ Dövlət mükafatı laureatıdır. Azərbaycan balet məktəbinin yaradıcılarından olan Almaszadənin sənətkarlığı klassik xoreoqrafiya ənənələri ilə xalq rəqs yaradıcılığı xüsusiyyətlərinin vəhdətinə əsaslanmışdır. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 438.

**223. Vera Şirye,** V e r a  K a r l o v n a (d.1915) – Azərbaycan Respublikasının xalq artisti. 1938-ci ildən Azərbaycan Dövlət Rus Dram Teatrının aktrisasıdır. Şiryenin yaradıcılığı üçün obrazın daxili aləmini açа bilmək məharəti, dramatizm, eyni zamanda qrotesk və incə yumor səciyyələnir. Şirye bədii qiraət ustası kimi də tanınmışdır. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 444.

## Şəxsi adlar göstəricisi

Abbasov Namiq – 411
Abdullayev Rauf – 373-374
Abdullazadə Fatma – 333,334
Abutalıbov Ramiz – 314
Afaq Məsudqızı – 307
Ağacan bəy – 238
Axundov Mirzə Fətəli – 87
Akayev Əsgər –145,156,182,265,285
Akbulut Yıldırım – 233
Allahverdiyev Nazim – 406-432
Almaszadə Qəmər – 438
Anar – 299-336
Anceletti Edvard – 342
Antokolski – 314
Araslı Həmid – 362
Arxipova İrina – 109-110
Atatürk Mustafa Kamal –184,210,211,212,217,233,322, 368,369,387,395,396
Baxçalı Dövlət – 357,366
Baxşəliyeva Gövhər – 299-336
Bağırov Mircəfər – 325
Balasaqunlu Yusif – 318
Barak Ehud – 372
Bartold – 362
Bayatlı Vaqif – 307
Bədəlbəyli Fərhad – 437
Bədəlbəyli Əfrasiyab – 437-440
Bəndəroğlu Əbdüllətif – 205,206
Bomel Jak – 172-176,179,200-201,221-231
Bozər Yüksəl – 209-220
Bravo Luici Ferrari – 342
Braunbək Sem – 153
Bukikkio Canni – 340-349
Bülbül – 110,326
Bünyadov Ziya – 210
Cabbarlı Cəfər – 85
Cavad Heyət – 321
Cəfərov Cavanşir – 437
Cəfərov Əli – 445,446
Cəmşidov Şamil – 204
Çağlar Fikri – 314
Dal – 312
Dəmirəl Süleyman – 17,145,147-148,149,150,154,156-182,183-192,193-207,210,212,216, 217,218,219,228,232,234,235,236, 280,285,356,359,361,363,364,365, 367,368,395,397
Doğramacı Ayser – 376-399
Doğramacı Əli – 202,209-220,376-399
Doğramacı İhsan – 376-399,400,437-440
Diufa Əbdu –111
Durmuş Osman –350-370
Dünyamalıyev Zahid – 239-296
Ecevit Büllənd – 366,367,368
Ertən Paşa – 360
Eynşteyn – 199
Əbülqazi Bahadır xan – 318

Əcəmi Əbubəkr – 339
Əfəndiyev Elçin – 299-336
Əfəndiyev İlyas – 326
Əfəndiyev Mirhəmzə – 401
Əfqanlı Rza – 85
Əhməd Cavad – 18
Ələkbərov Ələsgər – 85
Ələkbərov Əvəz – 428
Ələsgərov Fuad – 406-431
Ələsgərov Murtuz – 222,226,396
Ələsgərov Valeh – 17,233
Əli Nəzmi – 89
Əliyev Camal – 418
Əliyev Fərhad – 232
Əliyev İlham – 234,238
Əlikişizadə Yulana – 440
Əliyeva Mehriban xanım – 373
Əliyeva Sevil – 329
Əlizadə Samət – 308
Əmir Teymur – 151
Ərzümər – 233
Əsədov Əli – 293
Əsgərov Cahangir – 239-296
Əzimzadə Əzim – 55,90
Əziz Şərif – 305
Firdovsi – 211,312,314
Füzuli Məhəmməd – 151-312,314,394
Gənc Rəşad – 203,209-220
Gorani Əsgər ağa – 87
Hacıbəyov Üzeyir – 91,438
Hafiz Əsəd – 338
Heydərov Kəmaləddin – 239-265
Həmidov İsgəndər – 83
Həmzəyev İbrahim – 85
Həmzəyeva Zaroş – 85-86
Hənifəyeva Rima – 444,445
Həsənbəy Zərdabi – 87,91
Həsənov Eldar – 239-296,406-431
Həsənov Əli – 232,235
Homer – 314
Hüseyn Cavid – 89
Hüseynova Qismət – 442
Hüseynzadə Əlibəy – 88
Xəlil Paşa – 190
Xəlilov Erkin – 145,156-182
İbn Mühənna – 313
İbn Sina – 151
İnsanov Əli – 355
Jvaniya Zurab – 59,69,71
İnsanov Əli – 355
Kalandiya Georgi – 77
Kaşqari Mahmud – 151,312,318
Kazım Ziya – 85
Ketsba Svetlana – 204,205
Kərimov İslam – 169,174
Kirov – 191
Kıvrıqoğlu – 218
Klinton Bill – 80,83
Koçaryan Robert – 15,35,64,74,227

Köhler Horst – 94
Kuçma Leonid – 265,285,268
Kunanbayev Abay – 151
Qafarlı Ənvər – 8
Qaralov Zakir – 406-431
Qarayev Əbülfəs – 234
Qasımov İmran – 305
Qasımova Fidan – 373-374
Qasımova Xuraman – 206,373-374
Qəmküsar Əliqulu – 89
Qəznəvi Mahmud – 211
Qukasyan – 34
Quliyev Rəsul – 411
Quliyev Vilayət – 239-296
Qumberidze Zurab – 204
Qutay Camal – 233
Land Fransiska – 342
Luçinski – 349
Maqsudov Fəraməz – 299-336
Marqrete II – 297
Marten Karolin – 342
Matsuura Koisuro – 172-176,179,198-199
Mayor – 199
Mbeki Tabo – 441
Mehdiyev Ramiz – 406-431
Məhdumqulu – 151
Məlikov Süleyman – 309
Məmmədquluzadə Cəlil – 55, 89,305,314
Məmmədov Fazil – 427
Məmmədova Şəfiqə – 96-97
Mərdanov Mustafa – 85
Mitteran Fransua – 230
Mirzəyev Musa – 437
Mkara Bencamin – 375
Mori Yoşiro – 114
Möhtəşəm Giray – 376-399
Muqabe Robert – 339
Muradov Səhhət – 145.156-182
Mutafyan (erməni pariarxı) – 233
Nazarbayev Nursultan –115-144,145,156-182,265,285,362, 395
Nəvai – 151
Nizami – 151,321,323,324,325,326,394
Nikolay II (Rusiya çarı) – 54
Niyazov Saparmurad – 18,169,174
Nəcəfov İsa – 406-431
Nəsimi – 314
Novruzov Abbasəli – 239-296
Nuru Paşa – 125
Ordubadi Məmməd Səid – 89
Ortaylı İlqar – 233
Ömər Faiq – 89
Öymən Onur – 400-405
Özal Türqut – 149,216,361
Paşazadə Hacı Allahşükür – 432-436
Pinelli Çezare – 342
Polad Bülbüloğlu – 206,207,326
Puşkin Aleksandr – 314
Putin Vladimir – 17,36,37,52,80,90,95,138,139
Rasizadə Artur – 239-296

Rasmussen Pol Nirup – 298
Rəsul Rza – 326
Riçardson – 396
Rostropoviç – 225
Rotter İosif – 90
Rza Əfqanlı – 85
Sabir Mirzə Ələkbər – 89,305,306,307
Sadıqov Hüseynağa – 403
Seyidzadə Dilarə – 215
Səmədov Vidadi – 419
Sidqi Ruhulla – 85
Simonov Konstantin – 314,315
Simitis Konstantinos – 337
Sultan Əbdülhəmid II – 235
Sultanlı Əli – 362
Suver Akkan – 201-202,212,232-238
Şahtaxtinski Məmmədağa – 89
Şaqinyan Marietta – 325
Şarl de-Qoll – 200,224,229
Şekspir – 314
Şerdust – 202
Şevardnadze Eduard – 13-77,78,79,208,368,395
Şərifov Abid – 249,292,293
Şirak Jak – 213,227,228,231
Şirvani Seyid Əzim – 87
Şirye Vera – 444
Şmerlinq Oskar – 90
Şmide Əhməd – 305
Tağıyev Hacı Zeynalabdin – 88
Tağızadə Eldar – 443
Tağızadə Kamal – 446
Tağızadə Zemfira – 443,444
Talıbzadə Kamal – 326
Tərar Məhəmməd Rəfiq – 84
Topçubaşov Əlimərdan bəy – 88
Tural Sadiq – 202
Tuzçu Murat – 360
Tusi Nəsirəddin – 328
Türkeş Alparslan – 366
Usubov Ramil – 239-296,406-431
Ünsizadə Hacı Səid – 89
Vahabzadə Bəxtiyar – 18,299-336
Vasilyev – 305,306,314
Veysman Ezer – 371
Vəliyev Xanlar – 406-431
Vəzirov Nəcəfbəy – 87
Vidadi Mola Vəli – 315
Yardımçı Turay – 376-399
Yılmaz Mehmet Nuri – 432-436
Yunis İmrə – 151
Zəlimxan Yaqub – 18
Zibek – 248

## Coğrafi adlar göstəricisi


Abxaziya – 20,26,29
Ağdaş – 433
Aktau – 127,133,136
Almaniya –107-108,244,248,264,266,342,360
Almatı – 210,246,247
Amerika Birləşmiş Ştatları –64,74,80,123,129,135,153,154, 230,233,266,277,279,342,358,360, 396
Ankara – 151,154,216,358,388,395
Antalya – 358,359
Asiya – 55,153
Astana – 151,157,170,216
Avropa – 27,105,153,226,228,229,246,329, 357,358,383,435
Avstriya – 245
Bakı – 5,12,18,49,54,75,84,86,88,94,95, 97,99,102,108,110,111,113,114, 118,133,136,145,152,155,156,157, 158,162,163,189,190,191,193,208, 210,214,225,248,289,297,298,312, 325,337,338,339,342,351,371,372, 375,381,383,388, 432,441,442.
Baltimor – 342
Batumi – 123
Bayburt – 362
Belarus – 245
Belçika – 244
Berlin – 305
Birləşmiş Ərəb Əmirlikləri – 245
Bişkek – 156,246
Bolqarıstan – 244
Bombey – 90
Borçalı – 16
Böyük Britaniya – 129,244,266
Brüssel – 403
Ceyhan – 32,380
Cənubi Afrika Respublikası – 441
Cənubi Qafqaz – 20,23,25,26,28,29,34,37,55,64,65, 66,67
Culfa – 54
Çexiya – 245
Çin – 245
Dağlıq Qarabağ – 14,15,20,29,34,35,36,41,42,64,73, 123,124,345,361
Dağıstan – 88
Danimarka – 297,298
Daşkənd – 156,246,247
Drezden – 107-108,194
Ədirnə – 213
Ərzurum – 90,213
Frankfurt – 246,247
Fransa – 64,74,123,154,200,202,221-231, 233,244,279
Gürcüstan –13-83,88,122,202,203,208,244, 245,265,368,395
Həştərxan – 90
Hindistan – 245
Hollandiya – 244

Honkonq – 245
Xaçmaz – 342
Xəzər dənizi – 23,29,44,45,68,121,128,129,134, 136,137,143,153,159,166,167,364, 379
Xocalı – 100
İordaniya – 245
İraq – 202,204
İran – 54,55,98,137,202,203
İrəvan – 15,90
İsparta – 217
İspaniya – 342
İsrail – 233,245,371,372
İstanbul – 23,83,90,156,170,216,246
İtaliya – 244,342
İzmir – 366
Kazan – 90
Kəlküttə – 90
Kiyev – 246,247,265
Klivlend – 358,360,392
Krım – 90
Küveyt – 245
Qahirə – 90
Qafqaz – 20,23,26,28,90,100,225,226,356
Qazaxıstan –115-144,145,156-182,202,217, 244,245,265,285,363,395
Qırğızıstan – 145,156-182,202,217,285,363
Qori – 55
Quba – 433
Qusar – 433
Latviya – 245
Ləki (qəsəbə) – 433
Livan – 244
London – 246,247,289
Los-Anceles – 304
Marneuli – 33
Mehdiabad – 433
Mərkəzi Asiya – 24,55,90,153
Mərkəzi Avropa – 355
Moldova – 265,349
Moskva – 36,48,75,76,138,194,224,265,282, 312,323,353,359
Naxçıvan – 54,55,75,86,203,282,366,432
Norveç – 275
Novorossiysk – 67
Orenburq – 90
Orta Asiya – 312,335
Orta Şərq – 90
Özbəkistan –11,88,145,156-182,217,244,245, 265,363
Pakistan – 84,245
Paris – 230,304,329
Polşa – 244
Poti – 45,67
Rumıniya – 244
Rusiya –11,17,36,37,52,64,74,80,90,95,98, 99,110,123,129,136,137,138,139, 154,191,244,323,325,353,359
Saksoniya (AFR-də əyalət) – 107
San-Marino – 342
Sankt-Peterburq – 246,247
Seneqal – 111
Sumqayıt – 269
Supsa – 67

Suriya – 245,338
Tanzaniya – 375
Tbilisi – 19-77,246
Tehran – 90
Təbriz – 90,203
Tiflis – 89
Türkiyə –17,24,32,45,46,55,65,68,80,81, 121,122,130,145,147-148,149,150, 154,156-182,183-192,193-207,209-221,232-238,244,280,285,312,313, 314,335,352-370,376-399,400-405,432-436,437-440
Türkmənistan –137,145,156-182,202,217,244,245, 265, 363,364
Ufa – 90
Ukrayna – 11,244,285,368
Van – 356,358
Vaşinqton – 122,153,360
Vatikan – 233
Yaxın Şərq – 90,350
Yaponiya – 114
Yevlax – 433
Yerevan – 35
Yunanıstan – 233,245,337
Zəngəzur – 99
Zimbabve – 339

| | |
|---|---|
| **Kitabı çapa hazırlayan** | ***Tofiq Babayev*** |
| | |
| **Rəssamı** | ***Fuad Fərəcov*** |
| **Texniki redaktoru** | ***Zoya Nəcəfova*** |
| **Yığım üzrə operator** | ***İlhamə Kərimova*** |
| **Kompüter tərtibatı** | ***Məhəbbət Orucov*** |

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 60x90 1/16. Ofset kağızı 1. Şərti çap vərəqi 31,5.
Uçot vərəqi 32. Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61. dalan 2, ev 3.
"Qismət» Nəşriyyat, Poliqrafiya və Ticarət LTD tərəfindən çap olunmuşdur.